# HEYDƏR ƏLİYEV

MÜSTƏQİLLİYİMİZ

ƏBƏDİDİR

*qırx ikinci kitab*

***oktyabr, 2002 - noyabr, 2002***

**AZƏRNƏŞR**

**BAKI-2012**

**BBK 32**
**Ə–56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə–56** **Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 2012, 213 səh.

Müasir Azərbaycan dövlətinin banisi Heydər Əlirza oğlu Əliyevin oxuculara təqdim olunan çoxcildlik əsərlərinin bu cildində İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət başçılarının VII zirvə görüşündə, Praqada NATO tərəfdaşlıq şurasının üzvü olan dövlət başçılarının zirvə görüşündə çıxışları, dövlət və hökumət başçıları ilə danışıqları, Azərbaycana gələn bir sıra xarici dövlət və hökumət nümayəndələri, tanınmış ictimai-siyasi xadimlər, beynəlxalq təşkilatların rəhbərləri ilə yüksək səviyyəli görüşlərinə dair materiallar, KİV-ə verdiyi bəyanat və müsahibələri dərc edilmişdir.

Kitabda, həmçinin ulu öndərin Bakı Metropoliteninin 35 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqi, ölkəmizin sosial-iqtisadi inkişafı və ictimai-siyasi həyatından bəhs edən materiallar, Şəkiyə səfəri zamanı şəhər sakinləri ilə görüşlərdəki nitq və çıxışları, Dağlıq Qarabağ probleminə dair prinsipial mövqeyi öz əksini tapmışdır.

**VVK -32**

$$\text{Я - 56}\ \frac{\mathbf{0801000000}}{\mathbf{M - 651(07) - 2012}}$$

**BBK-32**

© Azərnəşr, 2012

**KİTABIN İÇİNDƏKİLƏR**

**AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ**
*11 oktyabr 2002-ci il*........ *10*

**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BAKIDAKI NÜMAYƏNDƏLİYİNİN YENİ BİNASININ AÇILIŞ MƏRASİMİNDƏ**
*11 oktyabr 2002-ci il*........ *14*
NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOVUN ÇIXIŞI........ *15*
AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ........ *16*

**MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FERENTS MADLA**
*12 oktyabr 2002-ci il*........ *19*

**VATİKAN DÖVLƏTİNİN BAŞÇISI PAPA II İOHANN PAVEL HƏZRƏTLƏRİNƏ**
*12 oktyabr 2002-ci il*........ *20*

**TÜRKİYƏNİN «SAMANYOLU» TELEVİZİYASINA VERDİYİ MÜSAHİBƏ**
*13 oktyabr 2002- ci il*........ *21*

**İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN TÜRKİYƏNİN İSTANBUL ŞƏHƏRİNƏ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ**
*13 oktyabr 2002-ci il*........ *25*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İSTANBUL ZİRVƏ GÖRÜŞÜNDƏ**
*13 oktyabr 2002-ci il*........ *26*

**İƏT-in ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VII ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ**
*14 oktyabr 2002-ci il*........ *27*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR İLƏ GÖRÜŞ**
*14 oktyabr 2002-ci il*........ *30*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏF İLƏ GÖRÜŞ**
*14 oktyabr 2002-ci il*........ *31*

**ƏFQANISTAN PREZİDENTİ HƏMİD KƏRZAİ İLƏ GÖRÜŞ**
*14 oktyabr 2002-ci il*........ *32*

**İRAN PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ İLƏ GÖRÜŞ**
*14 oktyabr 2002-ci il*........ *33*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MEQAVATİ SUKARNOPUTRİYƏ**
*14 oktyabr 2002-ci il*........ *34*

**AVSTRALİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB CON UİNSTON HOVARDA**
*14 oktyabr 2002-ci il*........ *35*

**TÜRKİYƏNİN İŞ ADAMLARI İLƏ GÖRÜŞDƏ NİTQ**
*15 oktyabr 2002-ci il*............................................................ *36*

**TÜRKİYƏNİN VƏ BU ÖLKƏDƏ AKKREDİTƏ OLUNMUŞ XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN KEÇİRDİYİ MƏTBUAT KONFRANSINDA BƏYANATLA ÇIXIŞI**
*15 oktyabr 2002-ci il*............................................................ *40*

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM TARYA HALONENƏ**
*15 oktyabr 2002-ci il*............................................................ *42*

**İSTANBULDAN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ**
*16 oktyabr 2002-ci il*............................................................ *43*

**NATO-nun AVROPADAKI BİRLƏŞMİŞ SİLAHLI QÜVVƏLƏRİNİN KOMANDANI – AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ AVROPADAKI SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ KOMANDANI GENERAL COZEF RALSTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*16 oktyabr 2002-ci il*............................................................ *45*

**AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN 11-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ**
*17 oktyabr 2002-ci il*............................................................ *47*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞDİR**
*18 oktyabr 2002-ci il*............................................................ *52*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MİLLİ PARKDA DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜNƏ HƏSR OLUNMUŞ BAYRAM KONSERTİNDƏ**
*18 oktyabr 2002-ci il*............................................................ *54*

**ƏMƏKDAR MÜƏLLİM LƏTİF HÜSEYNZADƏYƏ**
*18 oktyabr 2002-ci il*............................................................ *55*

**ŞÖVKƏT ƏLƏKBƏROVANIN 80 İLLİK YUBİLEYİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**
*18 oktyabr 2002-ci il*............................................................ *56*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MAYAKOVSKİ ADINA MOSKVA AKADEMİK TEATRININ TAMAŞASINDA OLMUŞDUR**
*20 oktyabr 2002-ci il*............................................................ *57*

**RUSİYA FEDERASİYASININ YOLLAR NAZİRİ GENNADİ FADEYEVİN BAŞÇILIĞI İLƏ BU ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*22 oktyabr 2002-ci il*............................................................ *58*

**UKRAYNA XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT KATİBİ YURİ SERGEYEV BAŞDA OLMAQLA BU ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*22 oktyabr 2002-ci il*............................................................ *59*

**AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOMAS KLESTİLƏ**
*22 oktyabr 2002-ci il*............................................................ *60*

**ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV HAVELƏ**

*22 oktyabr 2002-ci il*........................................................................................................................ *61*

**TÜRKMƏNİSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAPARMURAD NİYAZOVA**
*22 oktyabr 2002-ci il*........................................................................................................................ *62*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ**
*22 oktyabr 2002-ci il*........................................................................................................................ *63*

**HÜSEYN CAVİDİN 120 İLLİK YUBİLEYİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**
*23 oktyabr 2002-ci il*........................................................................................................................ *64*

**PREZİDENT HEYDƏR ƏLİYEV BAKIDA AZƏRBAYCAN ƏDƏBİYYATININ GÖRKƏMLİ NÜMAYƏNDƏSİ, BÖYÜK ŞAİR VƏ DRAMATURQ HÜSEYN CAVİDİN EV - MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ**
*24 oktyabr 2002-ci il*........................................................................................................................ *65*

**AZƏRBAYCAN ƏDƏBİYYATININ GÖRKƏMLİ NÜMAYƏNDƏSİ, BÖYÜK ŞAİR VƏ DRAMATURQ HÜSEYN CAVİDİN EV - MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ**
*24 oktyabr 2002-ci il*........................................................................................................................ *69*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**
*24 oktyabr 2002-ci il*........................................................................................................................ *71*

**MİSİR ƏRƏB RESPUBLİKASININ XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT NAZİRİ XANIM FAİZƏ ƏBUL-NƏCA İLƏ GÖRÜŞ**
*24 oktyabr 2002-ci il*........................................................................................................................ *72*

**«YOXSULLUĞUN AZALDILMASI VƏ İQTİSADİ İNKİŞAF ÜZRƏ DÖVLƏT PROQRAMI»NIN TƏQDİMATINA HƏSR EDİLMİŞ ÜMUMMİLLİ KONFRANSDA NİTQ**
*25 oktyabr 2002-ci il*........................................................................................................................ *74*

**XƏZƏR DƏNİZİNDƏ AZƏRBAYCAN DÖVLƏT XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN «MERKURİ–2» BƏRƏSİNİN QƏZAYA UĞRAMASI NƏTİCƏSİNDƏ HƏLAK OLANLARIN XATİRƏSİNİ YAD ETMƏK MƏQSƏDİ İLƏ AZƏRBAYCAN RESPUBLİKASINDA MATƏM ELAN OLUNMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**
*26 oktyabr 2002-ci il*........................................................................................................................ *78*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**
*26 oktyabr 2002-ci il*........................................................................................................................ *79*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB BÜLƏND ECEVİTƏ**
*26 oktyabr 2002-ci il*........................................................................................................................ *80*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ**
*26 oktyabr 2002-ci il*........................................................................................................................ *81*

**TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR İZGİYƏ**
*26 oktyabr 2002-ci il*........................................................................................................................ *82*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**
*26 oktyabr 2002-ci il*........................................................................................................................ *83*

**RUSİYA FEDERASİYASI HESABLAMA PALATASININ SƏDRİ SERGEY STEPAŞİN**

**BAŞDA OLMAQLA RUSİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*28 oktyabr 2002-ci il*............ *84*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA**
*29 oktyabr 2002-ci il*............ *86*

**RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ**
*29 oktyabr 2002-ci il*............ *87*

**RUMINİYA PREZİDENTİ İON İLİYESKU İLƏ TƏKBƏTƏK GÖRÜŞ**
*29 oktyabr 2002-ci il*............ *88*

**AZƏRBAYCAN – RUMINİYA DANIŞIQLARI**
*29 oktyabr 2002-ci il*............ *89*

**AZƏRBAYCAN–RUMINİYA SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ**
*29 oktyabr 2002-ci il*............ *92*

**AZƏRBAYCAN–RUMINİYA SƏNƏDLƏRİNİN İMZALANMA MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ BƏYANATLA ÇIXIŞLARI**
*29 oktyabr 2002-ci il*............ *93*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ADINDAN RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ**
*29 oktyabr 2002-ci il*............ *96*

**TÜRKİYƏ CÜMHURİYYƏTİNİN QURULMASININ 79-cu İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ BU ÖLKƏNİN BAKIDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ**
*30 oktyabr 2002-ci il*............ *98*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ERMƏNİSTANDAKI SƏFİRİ CON ORDVEY İLƏ GÖRÜŞ**
*30 oktyabr 2002-ci il*............ *100*

**BOLQARISTANIN SABİQ PREZİDENTİ JELYU JELEV BAŞDA OLMAQLA BU ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*30 oktyabr 2002-ci il*............ *102*

**İRAN İSLAM RESPUBLİKASININ KOOPERASİYA NAZİRİ ƏLİ SUFİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*31 oktyabr 2002-ci il*............ *103*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KARLO ADZELYO ÇAMPİYƏ**
*1 noyabr 2002-ci il*............ *104*

**İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB SİLVİO BERLUSKONİYƏ**
*1 noyabr 2002-ci il*............ *105*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BAKI SAKİNLƏRİ İLƏ GÖRÜŞÜ**
*3 noyabr 2002-ci il*............ *106*

**ATƏT-in MİNSK QRUPUNUN FRANSADAN OLAN YENİ HƏMSƏDRİ ANRİ JAKOLƏN İLƏ GÖRÜŞ**

*4 noyabr 2002-ci il*........................................................................................................................ *107*

**KAMBOCANIN KRALI ƏLAHƏZRƏT NORODOM SİANUKA**
*5 noyabr 2002-ci il*........................................................................................................................ *108*

**ANQOLA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JOZE EDUARDU DUŞ SANTUŞA**
*5 noyabr 2002-ci il*........................................................................................................................ *109*

**BAKI METROPOLİTENİNİN 35 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ**
*6 noyabr 2002-ci il*........................................................................................................................ *110*

**«METRO» BEYNƏLXALQ ASSOSİASİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ**
*7 noyabr 2002-ci il*........................................................................................................................ *115*

**FİKRƏT ƏMİROVUN 80 İLLİK YUBİLEYİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**
*7 noyabr 2002-ci il*........................................................................................................................ *116*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ŞƏKİ ŞƏHƏRİNƏ SƏFƏRİ**
*8 noyabr 2002-ci il*........................................................................................................................ *117*

**ŞƏKİDƏ OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ**
*9 noyabr 2002-ci il*........................................................................................................................ *122*

**ŞƏKİ DÖVLƏT DRAM TEATRI MEYDANINDA ŞƏHƏR SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*9 noyabr 2002-ci il*........................................................................................................................ *128*

**ŞƏKİ–İPƏK» AÇIQ TİPLİ SƏHMDAR CƏMİYYƏTİNDƏ GÖRÜŞ**
*9 noyabr 2002-ci il*........................................................................................................................ *129*

**ŞƏKİ XANLARININ SARAYI İLƏ TANIŞLIQ**
*9 noyabr 2002-ci il*........................................................................................................................ *131*

**ŞƏKİ ŞƏHƏRİ İCRA HAKİMİYYƏTİNDƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ ÇIXIŞ**
*9 noyabr 2002-ci il*........................................................................................................................ *134*
ŞƏKİ ŞƏHƏRİ İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏŞRƏF MƏMMƏDOVUN ÇIXIŞI........................................................ *135*
İQTİSADİ İNKİŞAF NAZİRİ FƏRHAD ƏLİYEVİN ÇIXIŞI........................................................................................ *141*
«AZƏRENERJİ» SƏHMDAR CƏMİYYƏTİNİN PREZİDENTİ ETİBAR PİRVERDİYEVİN ÇIXIŞI........................................ *144*
«AZƏRİQAZ» SƏHMDAR CƏMİYYƏTİNİN PREZİDENTİ ƏLİXAN MƏLİKOVUN ÇIXIŞI................................................ *148*
KİŞ KƏND ORTA MƏKTƏBİNİN DİREKTORU MÜZƏKKİR QARAYEVİN ÇIXIŞI............................................................ *149*

**YEKUN NİTQİ**
*9 noyabr 2002-ci il*........................................................................................................................ *151*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA**
**11 noyabr 2002-ci il**........................................................................................................................ *155*

**TÜRKİYƏNİN «SABANÇI HOLDİNQ» ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ SAKİP SABANÇININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*11 noyabr 2002-ci il*........................................................................................................................ *156*

**KANADANIN MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA, YAXIN ŞƏRQ ÜZRƏ DÖVLƏT KATİBİ QAR NUTSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*12 noyabr 2002-ci il*........................................................................................................................ *159*

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ FƏXRİ ÜZVÜ, LENİN MÜKAFATI**

VƏ SSRİ DÖVLƏT MÜKAFATLARI LAUREATI KƏRİM KƏRİMOVA
*14 noyabr 2002-ci il*........................................................................ 160

GÜRCÜSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EDUARD ŞEVARDNADZEYƏ
*14 noyabr 2002-ci il*…..................................................................... 161

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ AZƏRBAYCAN RESPUBLİKASINDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ROSS UİLSON İLƏ GÖRÜŞ
*15 noyabr 2002-ci il*........................................................................ 162

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MİLLİ DİRÇƏLİŞ GÜNÜ PAYTAXTDA GƏZİNTİYƏ ÇIXMIŞDIR
*17 noyabr 2002-ci il*........................................................................ 163

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ
*18 noyabr 2002-ci il*........................................................................ 166

CƏMŞİD NAXÇIVANSKİ ADINA HƏRBİ LİSEYİN 30 İLLİK YUBİLEYİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
*19 noyabr 2002-ci il*........................................................................ 167

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB BÜLƏND ARINÇA
*19 noyabr 2002-ci il*........................................................................ 169

«VOPROSI İSTORİİ» JURNALININ BAŞ REDAKTORU, RUSİYA ELMLƏR AKADEMİYASININ MÜXBİR ÜZVÜ CƏNAB ƏHMƏD İSGƏNDƏROVA
*20 noyabr 2002-ci il*........................................................................ 170

NATO/AVROATLANTİKA TƏRƏFDAŞLIQ ŞURASININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN PRAQA ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ
*21 noyabr 2002-ci il*........................................................................ 171

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN PRAQAYA RƏSMİ SƏFƏRİ
*21 noyabr 2002-ci il*........................................................................ 172

GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ TƏKBƏTƏK GÖRÜŞ
*21 noyabr 2002-ci il*........................................................................ 173

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYAN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ
*21 noyabr 2002-ci il*........................................................................ 174

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞÜ
*21 noyabr 2002-ci il*........................................................................ 175

NATO-NUN BAŞ KATİBİ CON ROBERTSON İLƏ GÖRÜŞ
*21 noyabr 2002-ci il*........................................................................ 176

FRANSA PREZİDENTİ JAK ŞİRAK İLƏ TƏKBƏTƏK GÖRÜŞ
*21 noyabr 2002-ci il*........................................................................ 177

NATO/AVROATLANTİKA TƏRƏFDAŞLIQ ŞURASININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ

*22 noyabr 2002-ci il*...................................................................................................................... *178*

**TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR İLƏ TƏKBƏTƏK GÖRÜŞ**
*22 noyabr 2002-ci il*...................................................................................................................... *180*

**PRAQAYA SƏFƏRİNİ BAŞA ÇATDIRARAQ BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ**
*22 noyabr 2002-ci il*...................................................................................................................... *181*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALFRED MOİSİUYA**
*22 noyabr 2002-ci il*...................................................................................................................... *182*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA**
*24 noyabr 2002-ci il*...................................................................................................................... *183*

**ABŞ PREZİDENTİNİN XƏZƏR HÖVZƏSİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, SƏFİR STİVEN MƏNN İLƏ GÖRÜŞ**
*24 noyabr 2002-ci il*...................................................................................................................... *184*

**MOSKVA VİLAYƏTİNİN QUBERNATORU, VİLAYƏT HÖKUMƏTİNİN SƏDRİ BORİS QROMOVUN BAŞÇILIĞI İLƏ VİLAYƏT HÖKUMƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**
*25 noyabr 2002-ci il*...................................................................................................................... *185*

*Q E Y D L Ə R*.............................................................................................................................. *187*

*Şəxsi adlar göstəricisi*.................................................................................................................. *213*

*Coğrafi adlar göstəricisi*............................................................................................................... *217*

## AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ

*Respublika sarayı*

*11 oktyabr 2002-ci il*

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin 10 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində iştirak etmişdir. Salona toplaşanlar dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.*

*Ölkəmizin dövlət bayraqları ilə bəzədilmiş salonda Azərbaycan prezidentinin «Biz idmana, bədən tərbiyəsinə qayğı göstərərək, millət, xalq, vətən qarşısında öz borcumuzu yerinə yetiririk» sözləri yazılmış transparant asılmışdı.*

*Sarayın səhnəsi respublikamızın dövlət bayrağı, Azərbaycan Milli Olimpiya Komitəsinin emblemi ilə bəzədilmişdi.*

*Aktyorların ifasında olimpiya oyunlarının vətəni olan qədim Yunanıstana həsr edilmiş səhnəcik göstərildi, 2000-ci il Sidney Olimpiadasının təntənəli açılış mərasimindən kinokadrlar nümayiş etdirildi.*

*Yubiley mərasimi Azərbaycanın Dövlət himninin səsləndirilməsi ilə başlandı.*

*Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti, Milli Məclisin deputatı İlham Əliyev MOK-un 10 illiyi haqqında məruzə etdi.*

**H e y d ə r Ə l i y e v:** Əziz idmançılar!

Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan gəncliyinin bayramıdır. Azərbaycan Milli Olimpiya Komitəsinin 10-cu ildönümü birinci növbədə bizim gənclərə aiddir, gəncləri təmsil edən və gənclərin nailiyyətlərini nümayiş etdirir. Ancaq eyni zamanda, bu bizim hamımızın bayramıdır, bütün Azərbaycan xalqının bayramıdır. Çünki müstəqil Azərbaycan 10 il ərzində idman sahəsində və xüsusən olimpiya hərəkatı sahəsində böyük nailiyyətlər əldə edibdir.

Mən sizi bu bayram münasibətilə, xüsusən də əldə etdiyiniz böyük nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycanın bütün idmançılarına, bütün gənclərinə cansağlığı və uğurlar arzulayıram.

Olimpiya hərəkatının böyük və çox zəngin tarixi var. Bu hərəkat hələ qədim zamanlardan yaranıb və ilbəil inkişaf edərək, bəşəriyyətin fiziki sağlamlığı, bəşəriyyətin zehni sağlamlığı, ümumiyyətlə, sağlamlığı uğrunda çalışan böyük bir hərəkat olmuşdur.

Azərbaycan xalqı 50 il bundan öncə dünya olimpiya hərəkatına qoşuldu. Ancaq mən deyə bilmərəm ki, biz xalq olaraq qoşulduq. Yox, biz Sovetlər İttifaqının tərkibində idik. Tarixdən məlumdur ki, Sovetlər İttifaqı 1950-ci illərə qədər dünya olimpiya hərəkatını tanımırdı. Təbiidir ki, biz də onu tanımırdıq. Çünki biz müstəqil deyildik, ayrı deyildik.

1952-ci ildə Sovetlər İttifaqı ilk dəfə Finlandiyada, Helsinki şəhərində keçirilən olimpiya oyunlarında iştirak etdi. Ondan sonra Sovetlər İttifaqının komandası bütün olimpiya oyunlarında, yarışlarında iştirak edibdir. Bizim idmançılarımız da hansılar ki, olimpiya yarışlarında iştirak etməyə layiq idilər, Sovetlər İttifaqının komandasının tərkibində iştirak etmişdilər. Ancaq onu demək istəyirəm ki, buna baxmayaraq, dünya olimpiya hərəkatı Sovetlər İttifaqında təbliğ olunmurdu. Yarış vaxtı hazırlaşırdılar, idmançılar gedirdilər. Təbiidir, Sovetlər İttifaqının komandası çox güclü idi, çoxlu qızıl, gümüş medallar alırdılar, o cümlədən azərbaycanlılar da o tərkibdə idilər. Elə Şabanova ilə Şubina da o vaxt olimpiya çempionu olublar. Ancaq olimpiya hərəkatı xalq içində, Sovetlər İttifaqında o qədər təbliğ olunmurdu. Bunun səbəbini bilmirəm. Ancaq bu həqiqətdir.

Biz o vaxt nələrsə əldə etmişik. Bu bizim xalqımızın, ümumiyyətlə, idman sahəsində böyük qabiliyyətə malik olduğunu bir daha göstərir. Ancaq bizim olimpiya hərəkatına qoşulmağımız yalnız Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra, müstəqil Azərbaycan dövləti yaranandan sonra olmuşdur. Buna görə də biz Azərbaycanın Milli Olimpiya Komitəsinin 10-cu ildönümünü qeyd edərək, eyni zamanda, xalqımızın tarixdə ən böyük nailiyyəti olan müstəqil Azərbaycan dövlətinin də bu günlərdə 11-cü ildönümünü bayram edəcəyik.

Müstəqillik, milli azadlıq Azərbaycan xalqına çox şeylər veribdir. Dünyada gedən olimpiya hərəkatına azad, sərbəst qoşulmaq, orada özünü göstərmək və bununla da Azərbaycanda idmanın, bədən tərbiyəsinin inkişafını daha da sürətləndirmək də bizim məqsədimiz olubdur. Ancaq təəssüflər olsun ki, bu sahədə on ilin hamısı səmərəli istifadə edilməyibdir. Artıq burada deyildi ki, siz bu dövrü iki yerə bölürsünüz. Birinci beş ildə, demək olar ki, biz olimpiya

hərəkatının Azərbaycanda mövcud olduğunu o qədər də bilməmişik. 1997-ci ildən sonra isə Azərbaycanda olimpiya hərəkatı birdən-birə çox böyük vüsət alıb, təbliğ olunub və bu sahədə çox işlər görülübdür.

Təəssüflər olsun ki, dövlət müstəqilliyini əldə etdiyi ilk illərdə Azərbaycanın bütün iqtisadiyyatı, başqa sahələri də dağıdılırdı, pozulurdu və bu, idmana da olduqca güclü zərbələr vurmuşdu. Xatirimdədir, mən 1993-cü ildə yenidən Azərbaycana rəhbərliyə başlayanda idmandan bir xəbər yox idi. Bilirsiniz ki, o vaxt bizdə çox problemlər var idi. Birinci növbədə, xaosa, hərc-mərcliyə son qoymaq, Azərbaycanda ictimai-siyasi sabitliyi yaratmaq lazım idi. Onun üçün də çox ciddi inzibati tədbirlər görmək lazım idi. Ona görə bizim, yəni dövlətin, o cümlədən prezidentin səyləri məhz buna yönəldilmişdi. Biz bu işləri müəyyən qədər qaydaya salandan sonra, təbiidir, başqa sahələr də gündəliyimizə düşdü. O cümlədən idman sahəsi. Ancaq mən nə gördüm? Ümumiyyətlə, idmandan heç əsər yox idi, onun maddi-texniki bazası tamam dağıdılmışdı.

Deyə bilmərəm ki, biz keçmişdə Azərbaycanda idmanın inkişaf etdirilməsi üçün istənilən qədər maddi-texniki baza yarada bilmişdik. Mən 33 il bundan öncə Azərbaycana rəhbərlik etməyə başlamışam. Doğrudur, o vaxtlar çox iş görmüşəm, amma indi o dövrü təhlil edəndə görürəm ki, idman sahəsində ondan da çox iş görə bilərdim. Başqa sahələr mənim vaxtımı çox aparıbdır.

Məsələn, xatirimdədir, hələ 1951-ci ildə Azərbaycanda böyük stadion, futbol stadionu, idmanla məşğul olmaq üçün onun başqa qurğuları tikildi. Mən həmin o stadionun açılışında iştirak etmişəm. O vaxt bu, Azərbaycan xalqı üçün böyük bir bayram idi. Biz futbol yarışlarına gedirdik, özümüzü saxlaya bilmirdik. Nə olur olsun, nə qədər iş olur olsun, futbol yarışlarını stadionda izləyirdik. Stadion ağzına qədər dolu olurdu.

1990-cı illərin əvvəlində stadiondan istifadə olunmurdu. Ancaq stadionun başına nə iş gətirmişdilər? Dedim, gəlin stadionu bərpa edək. Dedilər nə cür bərpa edək, stadionu özəlləşdiriblər. Burada keçmiş bir idmançı olub, təəssüf ki, idmana xəyanət edibdir. Götürüb onu özəlləşdirib, orada kababxanalar açıb, restoranlar açıb, dükanlar, başqa şeylər açıb. Stadionun futbol meydançası yararsız vəziyyətə düşmüş, oturacaqlar dağıdılmışdı. Belə bir vəziyyətdə mən əmr elədim ki, o adamı oradan qovmaq lazımdır və stadionu bərpa etmək lazımdır. Çoxları mənə dedi ki, bu, mümkün deyil, bu çətindir. Artıq bu sənədləşdirilibdir. Təəssüf ki, elə bu gün də Azərbaycanda yaşayan və idmanda guya özünü göstərmək istəyən bəzi şəxslər o vaxt həmin stadionu həmin o adama qanunsuz vermişdilər. Ancaq mən buna baxmadım, onların hamısını qısa müddətdə oradan qovdum və göstərdim ki, stadionu təmizləmək olar, onları oradan qovmaq olar.

Əvvəlcə stadionu təmizlədik. Amma onu o vəziyyətdə işlətmək olmazdı. Onu tədricən bərpa etməyə başladıq. İndi görürsünüz, Allaha şükür, stadionumuzda gözəl oturacaq yerləri, gözəl işıqlandırma sistemi, gözəl yaşıl meydança var və hamısı beynəlxalq standartlara uyğundur.

Yaxud, bizim İdman sarayını götürün. Xatirimdədir, onu da 1970-ci illərin sonunda inşa edirdik. Düzdür, uzun çəkdi, üç-dörd il çəkdi. O vaxtlar Bakı Şəhər Sovetinə tapşırmışdıq. Onlar da deyirdilər ki, pul yoxdur, filan yoxdur, çox uzatdılar. Ancaq yenə də tikildi, istifadəyə verildi. Amma mən 1993–1994-cü illərdə orada nə gördüm?! Onu kimlərəsə veriblər, gətirib mebel düzüb satırlar, başqa şeylər satırlar, mağazalar düzəldiblər, idman isə tamamilə yoxdur. Bunlar xatirinizdədir. Onu da təmizlədik, bərpa olundu. İndi İdman sarayından çox yaxşı istifadə olunur və orada bir çox beynəlxalq yarışlar keçirilir. Mən baxıram, yarışlara nə qədər gənc insanlar gedirlər. Demək, böyük maraq var.

Vaxtınızı almaq istəmirəm. Beləliklə, o illərdə nəinki idmanın özü öldürülmüşdü, idmanın maddi-texniki bazası da dağıdılmışdı. Bizə lazım idi ki, idmanı canlandıraq. Amma idmanı boş yerdə canlandırmaq olmaz. Gərək onun maddi-texniki bazasını yaradaq. Biz dediyimiz həmin obyektləri dövlətin gücü ilə bərpa etdik. Ancaq 1997-ci ildə rəhbərliyi dəyişəndən sonra Milli Olimpiya Komitəsi qısa müddətdə böyük proqram həyata keçirməyə başladı. Təvazökarlıq edib məruzədə bunu o qədər də demədilər. Ancaq həqiqətən böyük işdir, qısa müddətdə Bakıda böyük Olimpiya kompleksi, Milli Olimpiya Komitəsinin binası, Maştağada Olimpiya kompleksi, Naxçıvanda Olimpiya idman kompleksi, Gəncədə Olimpiya idman kompleksi istifadəyə verildi. Bərdədə də tikilir, başa çatdırılır, Şəkidə tikilir, başa çatdırılır. Lənkəranda da, Qubada da inşasına başlanıbdır. Bunlar hələ bu yaxın vaxtlarda, bir-iki ildə olan işdir. Özü də bunlar ən yüksək beynəlxalq standartlara uyğun olan komplekslərdir. Təkcə buna görə biz Milli Olimpiya Komitəsinin işini çox yüksək qiymətləndirməliyik.

Bəli, burada Milli Olimpiya Komitəsinin prezidenti düzgün dedi, şərait olmasa, böyük idmanı yaratmaq, təşkil etmək mümkün deyil. Ona görə işə düzgün başladılar, şərait yaratdılar ki, böyük idman potensialına malik olan gənclər daha çox gəlib məşğul olsunlar. Beləliklə, bizim görkəmli idmançıların sayı indikinə nisbətən qat-qat artsın. İnanıram ki, bu, qat-qat artacaqdır.

Azərbaycan prezidenti kimi, mənim idmana, bədən tərbiyəsinə olan qayğım birinci növbədə, millətimin, Azərbaycan millətinin fiziki və zehni sağlamlığı üçün lazımdır. Yəni, bu qayğını göstərərək, mən öz millətimizin, xalqımızın, Azərbaycan xalqının, hər bir kəsin tam sağlam olmasını təmin etmək istəyirəm. İdman, bədən tərbiyəsi eyni zamanda mədəniyyətdir. Bəli, Avropa ölkələrində bədən tərbiyəsi ilə məşğul olmaq, yəni öz bədənini daim yaxşı fiziki vəziyyətdə saxlamaq yüksək mədəniyyətdir. Bəziləri mədəniyyəti ancaq incəsənətlə əlaqələndirirlər. Təbiidir ki, incəsənətdir, ümumiyyətlə, mədəniyyətin başqa sahələridir, onların hər birinin öz yeri

var. Amma hər bir şəxsin, fərdin, insanın mədəniyyəti, eyni zamanda, onun fiziki sağlamlığı ilə əlaqədardır. Fiziki sağlamlıq ona daha çox güc verir və onun zəkasının inkişafına kömək edir.

Qədim vaxtlarda deyilmişdir. Bu gün bu səhnədə də səsləndi: sağlam bədəndə sağlam ruh olur. Bəli, sağlam ruhun olması üçün, insanların daim sağlam olması üçün, millətimizin həyatın bütün sahələrində sağlam olması üçün və bizim ordumuzda sağlam gənclər olması üçün mən idmanı, bədən tərbiyəsini böyük vasitə hesab edirəm. Yəni bu mənim icad etdiyim bir şey deyildir. Bu, dünyada qədim zamanlardan məlumdur. Mən həyatı görmüş adamam, ancaq təəssüf ki, həyatda insanların bəziləri bədən tərbiyəsi ilə – Azərbaycanda belə bir ifadə var – zorən təbib kimi məşğul olurlar.

Məsələn, orta məktəblərdə idman dərsi var. İndi varmı, yoxsa yoxdur? Var. Amma mən oxuyan vaxtı da bunu görmüşəm, sonra da görmüşəm. İdman dərsi o qədər böyük əhəmiyyət kəsb etmir. Yəni ondan iki, üç alsan da, sənin biliyinin yüksək olmasına təsir etmir. Hesab edirəm, bu, düz deyildir. Gərək bizim müəllimlər orta məktəbdə də, universitetlərdə də idman dərsini birinci sıraya qoysunlar. İnsan uşaqlıqdan, gənclikdən bədən tərbiyəsi ilə, idmanla məşğul olmalıdır. Əlbəttə, onu özü etməlidir. Bunu bilir, ancaq etmir. Amma məktəbdə etməlidir.

Mən vaxtilə Moskvada Nazirlər Sovetində işləyəndə idman işinə də rəhbərlik edirdim. Biz hətta o vaxt məsələ qoymaq istəyirdik ki, məktəblərdə, universitetlərdə idman dərsinin saatı artırılsın. Əgər uşaq, gənc idmanla məşğul olsa, bədən tərbiyəsinə aludə olsa, yəni ona bağlı olsa, o, sağlam olacaq, qriplə xəstələnməyəcək, başqa şeylə xəstələnməyəcək, demək, o biri fənləri də yaxşı öyrənəcək. Amma sağlam olmayanda, fiziki cəhətdən zəif olanda soyuq dəyən kimi xəstələnir, bir infeksiya düşən kimi xəstələnir, yaxud, ümumiyyətlə, zəif olur, yaxşı oxuya bilmir. Nə olar, gəlin bir saat da artıraq, dünya dağılmayacaq ki?! Amma bu şərtlə ki, idman dərsinin hörmətini qaldırmaq lazımdır.

Mən özüm də bunu görmüşəm, ona görə deyirəm. Bəzən idman müəllimlərinin özü də bu məsələyə bir az başdansovdu yanaşırlar. Ona görə gərək biz həm şərait yaradaq, həm də idman müəllimləri gərək o dərsi elə keçsinlər ki, şagird, tələbə hiss etsin. Necə ki, fizika, kimya, yaxud riyaziyyat dərsləri onları çətinliyə salır, bu, idmanda da olsun. Onda bizim gənclərimizin hamısı gözəl bədən quruluşlu, sağlam olacaqlar. Mən sizə öz təcrübəmdən deyirəm, daim idmanla məşğul olmuşam, bu gün də məşğul oluram və onun faydasını da görürəm. Bu, sadəcə, nümunədir.

Beləliklə, bədən tərbiyəsi, idman Azərbaycanda xüsusi yer tutur. Bizim Milli Olimpiya Komitəsi Gənclər, İdman və Turizm Nazirliyi ilə birlikdə ötən beş ildə çox işlər görüblər. Burada bizim qonaqlardan biri tamamilə düzgün dedi ki, Milli Olimpiya Komitəsi ilə Gənclər, İdman və Turizm Nazirliyi bir-biri ilə o qədər sıx əlaqədədirlər ki, elə bil bir təşkilatdır. Bu çox yaxşı haldır. Bunların arasında heç bir problem yoxdur. Ona görə də nazirlik öz funksiyalarını yerinə yetirir və yetirməlidir. Milli Olimpiya Komitəsi öz funksiyalarını yerinə yetirir və öz funksiyalarından da kənarda idman üçün çox işlər görür. Qoy görsün, lazımdır, lazımdır.

Mən maddi-texniki baza haqqında dedim. Bunun çox böyük mənası var. Məsələn, 300 mindən çox əhalisi olan Gəncə kimi şəhərdə bugünkü tələblərə cavab verən bir idman qurğusu yox idi. Amma biz bilirik, Gəncədə gənclər içərisində çox sağlam adamlar var və mənə belə gəlir, bizim qabaqcıl idmançılarımızın içərisində, xüsusən daş qaldırmaqda və güləşdə oradan çox adamlar çıxırdı.

Naxçıvanı götürün, muxtar respublikanin paytaxtı, böyük şəhərdir. Heç bir şey yox idi. İndi Naxçıvanda, Gəncədə, Maştağada idman kompleksləri tikildi. Bunlar çox iş görəcəklər. Çünki həmin o bölgələrdə idmana həvəsi olan, idmanla məşğul olmaq üçün fiziki potensialı olan uşaqların, gənclərin indiyədək imkanları yox idi. İndi bu imkan var. Ona görə də onların səmərəli işləməsini təmin etmək lazımdır.

Mən İlham Əliyevdən soruşdum. O dedi ki, nəzarət edirlər, hamısı səmərəli işləyir. Belə başa düşdüm ki, Milli Olimpiya Komitəsi hələ bununla qane olmayacaq, bu proqramı genişləndirəcəkdir. Beləliklə, biz Azərbaycanın, demək olar ki, əsas bölgələrində böyük olimpiya idman kompleksləri yaradacağıq və insanlarımızı idmana, bədən tərbiyəsinə cəlb edəcəyik.

Sidney Olimpiya oyunlarında bizim Milli Olimpiya Komitəmiz həqiqətən böyük uğur qazandı. Əgər nəzərə alsaq ki, Sidney oyunlarından cəmi üç il qabaq Milli Olimpiya Komitəsinin yeni tərkibi seçilmişdi, qısa müddətdə o qədər adam hazırladılar, 30-dan çox adam lisenziya aldı, Sidneyə getdi və üç nəfər medal qazandı. İkisi qızıl, biri bürünc medal aldı. Səkkiz nəfər diplom aldı. Bunlar böyük şeydir. Demək, imkanlar var.

Mən inanıram ki, Milli Olimpiya Komitəsi bu gün burada bəyan etdiyi vədləri yerinə yetirəcək, Afina Olimpiya oyunlarına daha çox və yüksək səviyyəli idmançılar hazırlayıb aparacaqdır. Oradan Azərbaycana yeni medallar gətirəcəkdir. Ancaq biz təkcə olimpiya oyunlarından alınan medallar haqqında danışmamalıyıq. Burada məruzədə deyildi ki, beynəlxalq yarışlarda Azərbaycan idmançıları nə qədər medallar alıblar, neçə dəfələrlə Azərbaycanın bayrağını qaldırıblar. Yaxud, Azərbaycanda nə qədər beynəlxalq yarışlar keçirilibdir. Azərbaycanda beynəlxalq yarışların keçirilməsi çox əhəmiyyətlidir. Beynəlxalq, yaxud müəyyən bir bölgə yarışları çox əhəmiyyətlidir. Çünki birincisi, Azərbaycan idmançıları iştirak edirlər, ikincisi, idmançılar, hansılar ki, hələ orada iştirak etməyə nail ola bilməyiblər, gedirlər, baxırlar.

Mən hər dəfə televiziya ilə baxıram, salon tamam dolu olur. Oraya pul ilə gedirlər. Bu nə deməkdir? İdmana gör nə qədər böyük həvəs var, yarışlara nə qədər böyük maraq var. Bu, Azərbaycanda böyük idman potensialı olduğunu təsdiq edir, Azərbaycan gənclərinin çox böyük imkanı olduğunu təsdiq edir. Ona görə görülən işlərin qiymətini bütün bunların hamısı ilə ölçmək lazımdır. Mən şəxsən belə ölçürəm.

Nailiyyətlər bizi sevindirir. Həqiqətən, hamımızın bayram əhval-ruhiyyəmiz var. Ğüman edirəm, bu təntənəli mərasimi televiziya vasitəsilə respublikada seyr edirlər, qulaq asırlar və onlar da bizimlə bərabərdilər. Mən çox məmnunam.

Mən idmana nə mümkündürsə etmişəm. Son fərmanlarımla da təltiflər etmişəm, fərdi təqaüdlər haqqında fərmanlar vermişəm. Nə lazımdırsa, etmişəm. Bütün sənədləri imzalayandan sonra dünən soruşdum, bir şey qaldı? Dedilər, yox. Kənarda bir adam qalıb? Dedilər, yox. Dedim, əgər qalsa günah sizdədir. Onsuz da mən kənarda qalanları sonra tapacağam. Amma qalsa, günah sizdədir. İdmançılar, veteranlar – hamısı buna layiqdir. Mən bunu ürəkdən deyirəm, layiqdirlər. Çünki siz Azərbaycan xalqının fiziki sağlamlığını nümayiş etdirirsiniz. Siz Azərbaycan gəncliyini fiziki sağlamlıqlarını möhkəmləndirməyə səfərbər edirsiniz. Ona görə siz layiqsiniz.

Mən sizin hamınıza uğurlar arzulayıram. İnanıram ki, bizim yüksək nailiyyətlər əldə edə bilən idmançılarımızın sayı artacaqdır. İnanıram ki, idman, bədən tərbiyəsi Azərbaycanda getdikcə kütləvi xarakter alacaqdır. İnanıram ki, yaşından asılı olmayaraq, hər bir vətəndaş idmanla, bədən tərbiyəsi ilə məşğul olacaqdır. İnanıram ki, Azərbaycan gəncliyi fiziki, zehni cəhətdən daha da yüksək olacaqdır.

Sizi bir daha təbrik edirəm, hamınıza səmimi-qəlbdən cansağlığı, uğurlar arzulayıram. Azərbaycan Milli Olimpiya Komitəsinə böyük-böyük uğurlar arzu edirəm. Sağ olun.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BAKIDAKI NÜMAYƏNDƏLİYİNİN YENİ BİNASININ AÇILIŞ MƏRASİMİNDƏ

*Bakı,*

*11 oktyabr 2002-ci il*

Nərimanov rayonu ərazisində Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəliyinin yeni binasının açılışı olmuşdur.

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev mərasimdə iştirak etmişdir.*

*Binanın qarşısına toplaşan minlərlə insan–şəhər sakinləri, ictimaiyyətin nümayəndələri dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar. Onların əllərində Azərbaycanın dövlət bayraqları, prezident Heydər Əliyevin portretləri var idi.*

*Dövlətimizin başçısına gül dəstəsi təqdim olundu.Prezident Heydər Əliyev buraya toplaşan insanları səmimiyyətlə salamladı.*

*Sonra təntənəli açılış mərasimi oldu. Mərasimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov açdı.*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri**
**Vasif Talıbovun çıxışı**

Möhtərəm Prezident!

Hörmətli mərasim iştirakçıları!

Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyinin təsis edilməsi Sizin siyasi fəaliyyətinizin Naxçıvan dövrünün ən unudulmaz səhifələrindən biridir. Bu qərar ağır blokada şəraitinin davam etdiyi sərt və şaxtalı bir qış günündə – 1992-ci ilin fevralın 24-də verildi. Nümayəndəlik ölkənin əsas ərazisi ilə kommunikasiya əlaqələrinin kəsilməsi ucbatından yaranan şəraitdə çevik fəaliyyət göstərməli, dövlət orqanları ilə birgə çalışaraq, blokada vəziyyətinin yaratdığı çətinliklərin yüngülləşdirilməsinə nail olmalı idi. Lakin həmin dövrdə Azərbaycanda rəhbərliyi ələ keçirən qaraguruhçu qüvvələr nəinki vahid dövlətçilik məntiqinə söykənən bu qərarın mahiyyətini düzgün qavraya bilmədilər, əksinə, siyasi səriştəsizliklərini bir daha sübuta yetirərək, erməni blokadasında qalan regionun kiçik kollektivə malik nümayəndəliyinin özünü burada, Bakı şəhərində blokadaya aldılar, hər gün mənəvi və fiziki təzyiqlərə məruz qoydular.

İndi demokratiya və insan haqlarından dəm vuran Xalq Cəbhəsi – Müsavat cütlüyünün o dövrkü cəngəllik qanunları ilə idarəetmə təcrübəsindən kifayət qədər danışmaq olar. Vaxtın azlığını nəzərə alaraq, yalnız bir faktı qeyd etmək istəyirəm. O vaxt iqtidarda olan Xalq Cəbhəsi – Müsavat cütlüyü tərəfindən 1992-ci il oktyabrın 24-də Naxçıvanda möhtərəm Heydər Əliyevə qarşı çevriliş cəhdi göstərildi. İndi həmin biabırçı çevriliş cəhdindən bizi 10 illik məsafə ayırır. Lakin o zaman da kifayət qədər aydın idi ki, o vaxtkı iqtidarın təşkilatçılığı ilə Xalq Cəbhəsi Naxçıvan şöbəsinin silahlı dəstələri tərəfindən Muxtar Respublikanın Daxili İşlər Nazirliyinin, Televiziya və Radio Verilişləri Komitəsinin binalarının zəbt olunması və müəyyən təxribatlar yolu ilə əhali arasında çaşqınlıq yaratmaq cəhdləri yalnız bir məqsədə – Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası rəhbərliyindən uzaqlaşdırılmasına xidmət edirdi. Lakin Naxçıvanda bunun əksinə olaraq keçirilən izdihamlı mitinq möhtərəm Heydər Əliyevlə xalqın sarsılmaz həmrəyliyini nümayiş etdirdi. Məkrli qüvvələr xalq tərəfindən rədd edildilər, onlar zəbt etdikləri Teleradio Verilişləri Komitəsinin və Daxili İşlər Nazirliyinin binalarından çölə atıldılar. Belə olan halda hədəf Bakıdakı daimi nümayəndəlik oldu. Biabırçı məğlubiyyətin Azərbaycan ictimaiyyətinə çatdırılmasının qarşısını almaq üçün İsgəndər Həmidov Azərbaycan Respublikasının Nazirlər Kabinetinin binasında altı kvadratmetrlik kiçik bir otaqda yerləşən və iki nəfərdən ibarət olan daimi nümayəndəliyə qarşı bütöv bir silahlı dəstə göndərdi. İşçiləri silahla hədələyərək, nəzarət altında saxladı, onlara qarşı zor tətbiq olundu.

Möhtərəm Heydər Əliyev həmişə olduğu kimi, 1990–1993-cü illərdə də xalqa arxalanır, öz gücünü, qüvvətini xalqdan alırdı. O vaxtlar iqtidarda, indi müxalifətdə təmsil olunanlar isə heç vaxt xalq anlayışına yaxın gələ bilməyiblər, hakimiyyətə gəlmələrini isə 9 xarici dövlətlə razılaşdırdıqlarını, yad qüvvələrin maraqlarına xidmət etdiklərini gizlətməyiblər.

1993-cü ilin iyun ayı isə ölkəmizin siyasi tarixində seçim və zəfər anlayışının ən dəqiq mənada təsdiqini tapdığı dövrdür. Məhz bu tarixdən başlayaraq, Azərbaycan xalqı öz seçimini etdi, taleyini əbədi olaraq əvəzsiz liderinə və rəhbərinə, möhtərəm Heydər Əliyevə tapşırdı. Bu böyük şəxsiyyət ölkəmizdə ən kəskin ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycanı xilas etdi, Azərbaycanın varlığını parcalanıb yox olmaq təhlükəsindən qurtardı və xalq tərəfindən sevilən böyük xilaskar oldu.

Möhtərəm Prezident, məlumat vermək istəyirəm ki, Sizin rəhbərliyinizlə ölkəmizdə yaranan sabitlik qurub-yaratmaq üçün tükənməyən imkanlar yaradıbdır. Bakıda Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyi üçün yeni, hər bir tələblərə cavab verən binanın istifadəyə verilməsi də Sizin müəyyənləşdirdiyiniz quruculuq proqramı çərçivəsində həyata keçirilən tədbirlərdəndir. Siz 1992-ci ildə daimi nümayəndəliyi təsis edərkən 15 nəfərlik ştat cədvəli də təsdiq etmişdiniz. Lakin o vaxtkı rəhbərlik tərəfindən lazımi şərait yaradılmadığından, bina ayrılmadığından nümayəndəliyin darısqal otağında iki, sonra dörd nəfər çalışmışdır. 1994-cü ildə Bakının Nəsimi rayonu ərazisində nümayəndəliyə bina ayrılmış, tam ştatla fəaliyyəti təmin etmək mümkün olmuşdur.

Lakin həmin bina 2000-ci il noyabrın 25-də Bakı şəhərində baş vermiş zəlzələ nəticəsində ciddi zədələnmişdir. Sizin tapşırığınızla Bakının Nərimanov rayonunda daimi nümayəndəlik üçün yeni bina alındı, qısa müddətdə keyfiyyətli təmir, yenidənqurma işləri aparıldı. Möhtərəm Prezident, göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarlığımızı bildiririk. Sizi əmin edirik ki, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyi müəyyənləşdirdiyiniz tələblər səviyyəsində öz fəaliyyətini bundan sonra da davam etdirəcək, Sizin yüksək etimadınıza layiq fəaliyyət göstərməyə çalışacaqdır. Dıqqətinizə görə sağ olun.

Möhtərəm Prezident, Sizdən tövsiyə və tapşırıqlar verməyinizi xahiş edirik.

### Azərbaycan prezidenti Heydər Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar, naxçıvanlılar!

Biz bu gün buraya əlamətdar hadisə münasibətilə toplaşmışıq. Naxçıvan Muxtar Respublikası Bakıda öz daimi nümayəndəliyinin yeni binasını yaradıb, təmir edib və bizi bunun açılışına dəvət edibdir. Əgər biz ümumi işlərimiz nöqteyi-nəzərindən baxsaq, bu o qədər də böyük hadisə deyildir. Ancaq Azərbaycanın ayrılmaz bir hissəsi olan Naxçıvan Muxtar Respublikasının 1990-cı illərin əvvəllərindən blokadaya düşməsi və coğrafi nöqteyi-nəzərdən Azərbaycanın əsas torpağından aralı olaraq çətinliklərlə üzləşməsi Naxçıvan Muxtar Respublikasının Bakıda, Azərbaycan hökumətinin yanında daimi nümayəndəliyinin təşkil olunmasının zəruriliyini irəli sürdü. Zəlzələ köhnə binanı dağıdıbdır. Bəlkə də yaxşı ki, dağıdıbdır, çünki mən o binanı görmüşdüm, heç də yararlı bina deyildi. Ancaq o vaxtlar Naxçıvanın rəhbərləri onu çətinliklə əldə etmişdilər. Elə onlar da sağ ol deyirəm. İndi avtomobillə gələndə gördüm məni başqa yol ilə aparırlar. Fikirləşdim, axı nümayəndəlik oradadır. Sonra yadıma düşdü ki, yox, o bina dağılıbdır, indi burada yeni bir bina tikilibdir və biz bunu birlikdə açmalıyıq.

Naxçıvan Muxtar Respublikası Azərbaycanın xüsusi əhəmiyyət kəsb edən bir bölgəsidir. Bu, keçmişdə də belə olubdur. Vaxtilə, 1920-ci illərin əvvəllərində Qafqazın, xüsusən Cənubi Qafqazın xəritəsini cəkən adamlar Azərbaycana xəyanət ediblər.

Naxçıvan Muxtar Respublikası, Zəngəzur mahalı, Azərbaycanın digər hissəsi – bunlar hamısı bütöv bir ərazi olub, Azərbaycan ərazisi olubdur. Ancaq Azərbaycan xalqına düşmən olan qüvvələr məkrli niyyətlərini həyata keçirmək üçün o vaxtlar Naxçıvan ərazisi haqqında çox danışıqlar aparırdılar, çox təlaş edirdilər ki, onu Azərbaycandan ayırsınlar. Nəhayət, 1921-ci ildə Qars müqaviləsinin, sonra Moskva müqaviləsinin nəticəsində – o müqavilələri Azərbaycan Respublikası, Rusiya, Gürcüstan və Ermənistan imzalayıblar – onların əsasında Naxçıvanın Azərbaycana mənsub olması və Azərbaycanın olması sübut edilibdir. Azərbaycanın əsas ərazisindən aralı qaldığına görə də ona muxtariyyət statusu verilibdir.

Mən Naxçıvanda doğulmuş, böyümüş bir adamam və keçmişdə, yəni 1940-cı illərdə bir müddət orada işləmişəm və görmüşəm ki, Azərbaycanın mərkəzi rəhbərliyi tərəfindən həmişə Naxçıvana çox ögey münasibət göstəriblər. Mən bunun şahidiyəm. Onlar Azərbaycan uğrunda 1920-ci illərdə çalışan, çarpışan, o müqavilələrə nail olan insanlardan fərqli idilər. Çünki o insanlar Azərbaycan haqqında düşünürdülər, onun bütövlüyü haqqında düşünürdülər, onun gələcəyi haqqında düşünürdülər. Amma sonra bir-birini əvəz edən Azərbaycan rəhbərliyi, təəssüf ki, bunları unutdular və 1930-cu illərdə də, 1940-cı illərdə də, 1950-ci illərdə də, 1960-cı illərdə də Naxçıvana qarşı ögey münasibət var idi. Bu həqiqətdir. Amma bütün bu ədalətsizliklərə baxmayaraq, zəhmətkeş insanlar olaraq, naxçıvanlılar həmişə öz diyarını inkişaf etdiriblər və Azərbaycanın ən qədim diyarı olan, böyük tarixi abidələri özündə əks etdirən bu hissəsini qoruyub saxlayıblar.

Sovet hakimiyyəti vaxtı bütün bu çətinliklər vardısa da, amma eyni zamanda, Naxçıvanın Azərbaycanın başqa hissələri ilə, xüsusən paytaxtı ilə əlaqəsində elə bir problemlər yox idi. Dəmir yolu işləyirdi. Düzdür, avtomobil yolu yox idi, amma çox uzun məsafədən, Gürcüstandan keçib, Ermənistandan keçib Naxçıvana avtomobillə də getmək mümkün olurdu.

Yaxud da oradan dağı aşıb Sisyan, Gorus, sonra Laçın, Şuşa yolu ilə də Naxçıvandan Bakıya gəlmək mümkün olurdu. Ona görə də insanlar bütün bu yollara, bu imkanlara öyrəşmişdilər və onu da kafi hesab edirdilər. Bəli, bəlkə də elə o bəs idi.

Ancaq Ermənistan–Azərbaycan münaqişəsi başlayandan sonra Naxçıvanın Bakı ilə, Azərbaycanın başqa bölgələri ilə əlaqələri get-gedə çətinləşdi və nəhayət, dəmir yolu bağlanandan və bütün kommunikasiyalar, yəni elektrik xətləri, qaz xətləri kəsiləndən sonra və Naxçıvan nəinki blokada şəraitinə düşdü, tamamilə qaranlığa batdı. Belə bir şəraitdə biz orada Naxçıvanı yaşadırdıq. Onu yaşatmaq isə təkcə Naxçıvan üçün deyildi.

Mən bu barədə danışarkən, o illəri xatırlayarkən həmişə həyəcanlanıram. Çünki bəzilərinə elə gəlirdi ki, Naxçıvan heç Azərbaycana lazım deyil. Hətta Xalq Cəbhəsi hakimiyyəti vaxtında bəzi şəxslər meydana çıxdı və universitet partasından gətirilib Prezident Aparatında məsul vəzifələrə qoyulan həmin adamlar, necə deyərlər, ağzından süd qoxusu gələn gənc insanlar və dərd də orasıdır ki, naxçıvanlılar gəlib Naxçıvanda bizimlə döyüşürdülər, mübahisə aparırdılar ki, Azərbaycan ünitar dövlətdir və Naxçıvanın muxtariyyəti ləğv olunmalıdır. Naxçıvan blokada içində idi, bütün yollar kəsilmişdi, yaşamaq get-gedə çətinləşirdi, Ermənistan silahlı qüvvələrinin Naxçıvana hücum etmək, onu işğal etmək niyyətləri açıq-aydın görünürdü. Onların bunun üçün böyük imkanları da var idi. Çünki Yerevanda onların həm böyük hərbi hissələri var idi, həm də hələ Sovet İttifaqının 7-ci ordusu dururdu. Yerevan ilə Naxçıvan arasında saatyarımlıq yol var. Belə bir vəziyyətdə Xalq Cəbhəsinin nümayəndələri gəlib bizdən Naxçıvanın muxtariyyətini ləğv etməyi tələb edirdilər. Hətta Naxçıvan Ali Məclisinin iclası zamanı gəlib orada çıxış edən həmin o çocuqlar – mən bu sözü deyirəm – mənimlə mübahisə aparırdılar ki, Naxçıvanın muxtariyyəti ləğv olunmalıdır.

Ancaq belə bir şəraitdə biz Naxçıvanı qorumaq, saxlamaq üçün Bakıda Naxçıvanın daimi nümayəndəliyinin mütləq olmasının zəruriliyini gördük və mən bu məsələni həll etməyə başladım. Lakin buna zorla, güclə razılıq verdilər. Orada da biri razılıq verir, digər bürokrat – bəlkə onların bəziləri elə indi Nazirlər Kabinetində oturublar, bizim rəhbərliyimiz altında da işləyirlər – Azərbaycanda bir söz var, qulp qoyurdu. Beləliklə, gün keçir, daimi nümayəndəliyin yaranması üçün sənəd əldə edə bilmirdik. Təsəvvür edin o vaxt nə qədər çətinliklər çəkirdik. Nəhayət, sənəd əldə edildi, razılıq əldə olundu, amma yer vermədilər. Mən o vaxt Nazirlər Sovetinin rəhbərliyinə bir neçə dəfə telefon etdim, çox ağır sözlər dedim. Nəhayət, Nazirlər Sovetinin binasında balaca bir otaq verdilər ki, gəlin burada oturun. Hüquq da, heç bir şey də verməmişdilər. Belə bir şəraitdə Naxçıvan Muxtar Respublikasının Bakıda daimi nümayəndəliyi yarandı.

İndi keçən illər onu göstərir ki, həqiqətən bu çox lazım imiş. Çünki sonrakı illər əlaqələr tamamilə kəsildi. Naxçıvanlılar ancaq təyyarə ilə, bir də İran İslam Respublikasından ayrılmış yol vasitəsilə avtobusla, yük maşınları ilə gedib gələ bilərdilər. Başqa maşınlar bu yoldan o qədər də istifadə edə bilmirdilər. Bunun özü də bizim üçün böyük bir şey idi. Çünki təyyarə nə idi ki, onunla nə etmək olar? Demək, bizim yük maşınları, avtobuslar İran ərazisindən Bakıya gəlirdilər, buradan Naxçıvana yük gətirirdilər. Beləliklə, bu əlaqə quruldu. Amma bu nəqliyyat işlərini təşkil edən sürücülər və başqa işçilər üçün, əlbəttə, Bakıda bir dayaq nöqtəsi olmalı idi. Bunu da məhz Naxçıvanın Bakıdakı nümayəndəliyi həyata keçirdi.

Bəli, burada Vasif Talıbov dedi. 1992-ci ilin mart ayında Naxçıvanda dövlət çevrilişi etmək istəyirdilər. Biz onun qarşısını aldıq. Sizə məlum olan İsgəndər Həmidov o vaxt hava limanına 3 minə qədər polis yığmışdı. Görənlər deyirdilər, onun yanında 5-6 dənə həqiqi it də var imiş, özü də silahlanaraq, bədəninə çoxlu patron-zad asıbmış ki, Naxçıvana uçacaq, gəlib Heydər Əliyevin başına iki güllə vuracaq və Naxçıvanı da işğal edəcəkdir.

Onlar Naxçıvanda bir şey edə bilmədilər. Ancaq sağ olsunlar, həm Naxçıvandan burada yaşayan insanlar, həm də təkcə Naxçıvandan olanlar yox, bütün başqaları bunu bilən kimi Bakı hava limanına gedib bunun qarşısını almağa çalışmışdılar. Naxçıvanda hava limanında elə xalq özü yük maşınlarını təyyarə enən zolaqların üzərinə düzmüşdü. Təyyarənin oraya enməsi mümkün deyildi, əgər ensəydi, dağılacaqdı. Biz bunun qarşısını bu yolla aldıq. Onlar bizim daimi nümayəndəmiz Həsən Zeynalovu həbs etdilər. Onu aparıb Daxili İşlər Nazirliyinin həbsxanasına saldılar. Mənə telefon etdilər ki, burada təlaş var. Həsən Zeynalovun iki-üç işçisi var idi, yazıq qızlar idi, onlar ağlayırdılar ki, indi bizi də həbs edəcəklər. İsgəndər Həmidov Həsən Zeynalovu həbs elədi. Ancaq biz bir-iki günə bunların öhdəsindən gəldik. Hücum edənlər bilmirəm, ya ağıllandı, ya ağıllanmadı, geri çəkildilər. Həsən Zeynalovu da həbsdən buraxdılar. O, həbsxananın ləzzətini gördü.

Sonra mən Bakıya gəldim. Doğrusu, deyə bilmərəm ki, mən Bakıya gələndən sonra nümayəndəliyin işinin yaxşılaşmasına kömək etmişəm. Sadəcə, mənim burada olmağım bunların işinə kömək edibdir. Mən də düşünmüşəm ki, elə bu bəsdir, bundan artıq nə etmək lazımdır? Işləri normal gedir, qoy Allahlarına şükür eləsinlər. Mən heç vax bir şeyin artıqlaması ilə edilməsinin tərəfdarı deyiləm. Bizim Naxçıvan nümayəndəliyi o vaxtdan işləyir və sübut edir, göstərir ki, həqiqətən Naxçıvan Muxtar Respublikasının Bakıda daimi nümayəndəliyi lazımdır və bəlkə onu daha da gücləndirmək, daha da genişləndirmək lazımdır. Bunların hamısının səbəbi Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Naxçıvanın bizim əsas torpağımızdan ayrı düşməsi və demək olar ki, mühasirədə olmasıdır.

Təbiidir, biz o illər Naxçıvanda vəziyyəti belə qoya bilməzdik. Bizə Türkiyə çox kömək elədi. Oradan elektrik xətləri çəkdilər, Naxçıvana elektrik enerjisi verməyə başladılar. Düzdür, bu, tələbatı tam təmin etmirdi. Amma biz İrandan da az da olsa elektrik enerjisi aldıq, oradan da elektrik xətləri çəkildi. Araz çayının üzərindən Türkiyə ilə Azərbaycan arasında körpü tikildi. Ona «Həsrət», «Ümid körpüsü» deyirlər. Çox gözəl bir körpü tikildi. Biz bunların hamısını məhz Naxçıvanı o şəraitdə yaşatmaq üçün etdik. Həqiqətən, bunlar orada bizim həyatımıza müsbət təsirini göstərdi və bu gün də göstərir. Bu gün də biz elektrik enerjisinin bir hissəsini Türkiyədən, bir hissəsini İrandan alırıq. Doğrudur, biz onların haqqını veririk. Əvvəllər verməyə imkanımız yox idi, indi veririk. Naxçıvana elektrik enerjisi alırıq, ancaq deyə bilmərəm ki, Naxçıvan Muxtar Respublikası çox elektrik enerjisi alır.

Naxçıvan Muxtar Respublikasının təxminən 400 minə yaxın əhalisi var. Naxçıvan 95 meqavat elektrik enerjisi ilə yaşayır. Ancaq bizim Şəmkir rayonu 100 meqavat elektrik enerjisi işlədir, pulunun da heç 10 faizini vermir. Bax, görün burada, yəni Bakıda, ya Azərbaycanın başqa bölgələrində elektrik enerjisi bir gün olmayanda, deyirlər ki, işıq yoxdur. İndi çox yerə qaz çəkmişik. Bir gün qaz olmayanda deyirlər ki, qaz yoxdur. Müxalifətdən də başlayırlar, bəli, elektrik yoxdur, qaz yoxdur. Axı gərək elektrik olsun ki, onu insanlara verəsən. Gərək qaz olsun ki, onu insanlara verəsən. Amma biz Naxçıvana 95–100 meqavatdan artıq elektrik enerjisi verə bilmirik. Onlar neçə illərdir artıq bu şəraitdə yaşamağa öyrəşiblər. Elektrik enerjisini fasilə ilə, cədvəllə alırlar. Bilirlər ki, hansı bölgə nə vaxt neçə saat enerji alacaq. Bununla yaşayırlar və narazılıq da etmirlər. Başa düşürsünüz, naxçıvanlıların xüsusiyyəti budur.

Bilirsiniz, mən son vaxtlar Naxçıvanın inkişafı ilə əlaqədar bəzi tədbirlər həyata keçirmək barədə qərarlar vermişəm. Bunlar lazımdır. Heç kəs elə başa düşməsin ki, mən bunu edirəm, çünki özüm naxçıvanlıyam, Naxçıvandan gəlmişəm. Yox. Mən şuşali da olsaydım bunu edəcəkdim, şəkili də olsaydım bunu edəcəkdim,

bakılı da olsaydım bunu edəcəkdim, gəncəli də olsaydım bunu edəcəkdim. Haralı olsam bunu edəcəkdim. Nə üçün? Çünki Naxçıvanın vəziyyəti, onun coğrafi vəziyyəti və Naxçıvana qarşı bizim düşmənlərimizin daimi iddiası Naxçıvanı xüsusi inkişaf etdirmək məsələsini qarşımızda qoyur.

Bir də qeyd edirəm, Naxçıvan Azərbaycanın ən qədim torpaqlarından biridir. Azərbaycan ərazisində ən qədim dövlətlərdən olan Atabəylər dövlətinin paytaxtı Naxçıvan olubdur. Naxçıvanda Azərbaycanın milli mədəniyyətini, memarlığını, rəssamlığını nümayiş etdirən, qədim zamanlardan, X, XII əsrlərdən qalmış abidələr vardır. Onlar təkcə Naxçıvanın yox, Azərbaycanındır. Naxçıvan və Azərbaycan ayrı deyil, birdir – Azərbaycandır. Təbiidir, demək biz Azərbaycanın xüsusi ağır şəraitdə olan bir hissəsini gərək o qədər inkişaf etdirək ki, oradakı problemlər insanları narahat etməsin və həmin insanlar orada daim yaşasınlar. Azərbaycan torpağını qorusunlar, saxlasınlar. Bax, bunlara görə bu qərarlar qəbul olunubdur. Ancaq təəssüf ki, bəzi sarsaq adamlar mənim bu qərarlarımı başqa yerə yozmaq istəyirlər. Yozsunlar, hara yozurlar, yozsunlar. Mən gördüyüm işi bilirəm. O işi bilərək edirəm və hansı məqsəd daşıyıram, onu da elan edirəm.

Bütün bunlara görə Naxçıvanın Bakıda bu kiçik binada daimi nümayəndəliyinin olması, hesab edirəm ki, böyük hadisədir. Mən müqayisə edirəm, 1991–1992–1993-cü illərdə orada yaşadığım dövrdə Naxçıvan nə qədər çətinliklər çəkirdi.

İndi bizim nazirliklərdəki bürokratlar – təkcə bürokrat deyil, bəlkə onlara hələ başqa ad da vermək lazımdır – bəzi nazirlər keçmişdəki kimi, indi də elə bilirlər ki, Naxçıvan üçün bir iş edəndə, nə bilim, dünyanı yaradırlar. Mən göstəriş vermişəm, nazirlər iki aydan bir Naxçıvana getməlidirlər. Naxçıvanın vəziyyəti ilə tanış olmalıdırlar, onların problemlərini həll etməlidirlər. Çünki bizim cəbhə bölgələri kimi, Naxçıvan da vacib bir bölgədir.

Mən çox məmnunam ki, artıq nümayəndəlik yaxşı bir binada yerləşəcək. Güman edirəm, nümayəndəlik bundan sonra daha yaxşı işləyəcək və bizim müxtəlif təşkilatlarımız onların problemləri ilə məşğul olacaq, yardım edəcəklər. Buraya çox adam toplaşıbdır. Bu onu göstərir ki, Naxçıvan Muxtar Respublikasının nümayəndəliyinə və Naxçıvanın özünə maraq və münasibət çox yaxşıdır. Bu məni məmnun edir.

Naxçıvan Muxtar Respublikasının rəhbərliyini və Muxtar Respublikanın bütün sakinlərini təbrik edirəm. Artıq sizin burada bir dayanacaq nöqtəniz var və əminəm ki, bu imkanlardan səmərəli istifadə edəcəksiniz. Sağ olun.

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev daimi nümayəndəliyin açılışını bildirən qırmızı lenti kəsdi, ikimərtəbəli, müasir tələblərə cavab verən və lazımi avadanlıqla təmin edilmiş yaraşıqlı bina ilə yaxından tanış oldu.*

*Daimi nümayəndəliyin əməkdaşları üçün gözəl iş şəraiti yaradıldığını vurğulayan prezident Heydər Əliyev Naxçıvanla bağlı qərarların yerinə yetirilməsinə dair tapşırıq və tövsiyələrini verdi.*

*Dövlətimizin başçısı binanın qarşısına toplaşanlarla səmimiyyətlə sağollaşdı.*

**MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB FERENTS MADLA**

Hörmətli cənab Prezident!

Macarıstan Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq münasibətləri xalqlarımızın mənafeyi naminə daim inkişaf edərək qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün geniş imkanlar açacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Macarıstan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 oktyabr 2002-ci il*

**VATİKAN DÖVLƏTİNİN BAŞÇISI**
**PAPA II İOHANN PAVEL HƏZRƏTLƏRİNƏ**

Möhtərəm Papa həzrətləri!

Vatikan dövlətinin milli bayramı – Müqəddəs taxta əyləşmə günü münasibətilə Sizi və bütün katolikləri səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası və Vatikan dövləti arasındakı dostluq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, uzun ömür, müqəddəs amallar naminə fədakar işinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 oktyabr 2002-ci il*

## TÜRKİYƏNİN «SAMANYOLU» TELEVİZİYASINA VERDİYİ MÜSAHİBƏ

*13 oktyabr 2002-ci il*

**Jurnalist:** Çox hörmətli Heydər Əliyev, biz iki ildir Bakı studiyamızdan hazırladığımız xəbər və proqramlarla Azərbaycanı peyk vasitəsilə çox geniş bir dairədə, hər yerdə tanıtmağa çalışırıq. Hörmətli Cümhur başqanım, «Samanyolu» televiziyası və onun yayımları haqqında Sizin düşüncələrinizi bilmək istərdik.

**Heydər Əliyev:** «Samanyolu» Azərbaycana Türkiyədən gəlmiş bir televiziyadır. Mənim yadımdadır, o vaxt Naxçıvanda olanda biz «TRT»-ni seyr edirdik. Ancaq «Samanyolu» sonra Azərbaycanda öz imkanlarını çox inkişaf etdirdi. Sizin birinci əsas məqsədiniz Azərbaycana yayım vermək idi. Türkiyədəki vəziyyət və Azərbaycan insanlarının Türkiyə ilə əlaqədar biliklərini artırmaq idi. Biz də bunun üçün imkanlar yaratdıq. Siz iki ildir burada canlı yayım edirsiniz və Azərbaycan haqqında məlumatlar yayırsınız. Haraya, Türkiyəyə, yoxsa?

**Jurnalist:** Hörmətli Cümhur başqanım, peyk vasitəsilə bütün Avropaya, Asiyanın və Afrikanın bir hissəsinə yayımlanırıq.

**Heydər Əliyev:** Türk dilində yayırsınız, yoxsa Azərbaycan dilində?

**Jurnalist:** Hər iki dildən istifadə edirik.

**Heydər Əliyev:** Siz Azərbaycan haqqında yayımlarınızın faydasını görürsünüzmü? Yəni siz yoxlamısınızmı, Azərbaycan haqqında yayımları edirsiniz, ancaq bu yaydığınız bölgələrə necə gedib çatır, o bölgələrdə bunu seyr edənlər varmı, nə qədərdir? Siz bunları hesablamısınızmı, yoxsa elə havaya yayımlayırsınız, kim baxır baxsın, kim baxmır baxmasın?

**Jurnalist:** Hörmətli Cümhur başqanım, aldığımız fakslardan təəssüratlarımız belədir ki, əsasən Avropadakı azərbaycanlılar efirimizi, yayımlarımızı çox ciddi şəkildə izləyirlər. Biz Qarabağ haqqında özəl bir proqram hazırladıq və bu, 24 həftə davam etdi. 24 proqram verdik və bu çox səs gətirdi. Bizim İstanbuldakı mərkəzimizə Türkiyədə yaşayan ermənilərdən proqramın bağlanması ilə bağlı olduqca çox faks və internetlə müraciətlər gəldi. Guya ki, bu, Ermənistanla Azərbaycan arasında danışıqlara xələl gətirir. Biz bundan bilirik ki, yayımlarımız səmərəli alınır.

**Heydər Əliyev:** Çox yaxşı. Əgər belədirsə, mən çox məmnunam. Çünki Azərbaycan haqqında dünyaya geniş məlumat verməyə bizim imkanlarımız hələ o qədər böyük deyildir. Baxmayaraq ki, indi bizim «Lider» televiziyası bunları yayır. Ancaq sizin bu barədə yayımınız çox əhəmiyyətlidir.

**Sual: Hörmətli Cümhur başqanım, Azərbaycan–Türkiyə qardaşlığına, dostluğuna, iki ölkənin inkişafına «Samanyolu» televiziyasının faydası nə olmuşdur? Bizə, burada çalışan əməkdaşlarımıza bu önəmli vəzifədə daha uğurlu olmağımız üçün hansı öyüdləri, tövsiyələri verə bilərsiniz?**

**Cavab:** Birincisi, onu demək istəyirəm ki, «Samanyolu» televiziyasının Türkiyə–Azərbaycan əlaqələrinin inkişaf etməsində çox böyük rolu var. Mən bunu qiymətləndirirəm. Çünki qeyd etdim, biz hələ müstəqillik əldə etməmişdik, bu, 1991-ci ilin oktyabrında oldu, amma ona qədər, mən Naxçıvanda işləyərkən artıq «Samanyolu» Naxçıvana gəlmişdi. Mənim yadımdadır, Sədərəkdə «Həsrət» körpüsünü tikirdik, ancaq tamam bitirməmişdik, lakin oradan gedib gəlmək olardı. O vaxt atəş açıldı, müharibə getdi.

«Samanyolu» televiziyasının müxbirləri Ərzurumdan, başqa yerlərdən Naxçıvana gəldilər, Naxçıvandakı vəziyyəti bütün Türkiyəyə yaydılar. Amma bir Naxçıvan deyil, ora kiçik bir yerdir, Azərbaycanın vəziyyəti barədə sizin Türkiyəyə məlumatlar verməyiniz və Türkiyənin həyatı barəsində Azərbaycana məlumatlar verməyiniz, təbiidir ki, Türkiyə–Azərbaycan dostluğunun inkişafında xüsusi rol oynayır. Mən bunu qiymətləndirirəm və hesab edirəm ki, sizin xidmətləriniz böyükdür.

O ki qaldı gələcəkdə nə edə bilərsiniz – indiyə qədər etdiyiniz işləri daha da mükəmməl etməlisiniz və dövlətin siyasətini öz yayımlarınızda yaxşı göstərməlisiniz. Çünki siz burada yaşayırsınız, bilirsiniz, dövlətin siyasəti sizə məlumdur. Dövlətin həm iqtisadiyyatda, həm sosial sahədə, həm də islahatların həyata keçirilməsində – bütün sahələrdə gördüyü işlər də məlumdur.

Biz nə qədər islahatlar həyata keçirmişik. Böyük özəlləşdirmə proqramı həyata keçirdik. İndi Azərbaycanda mülkiyyətin, demək olar ki, əksəriyyəti özəldir. Amma siz Azərbaycana təzə gələndə bunu görə bilərdinizmi?! Bəlkə sən o vaxt yox idin. O vaxt gələnlər bunları bilirlər. Onda başqa bir mənzərə var idi. Bu, böyük bir şeydir, böyük addımdır. Biz iqtisadiyyatı inkişaf etdirdik. 1993-cü ildə Azərbaycandakı dövlət böhranını, siyasi böhranı, iqtisadi böhranı aradan qaldırdıq, vətəndaş müharibəsinin qarşısını aldıq, Azərbaycanı xilas etdik. Ondan sonrakı illərdə həm xarici xüsusi xidmət orqanları, həm də daxildə olan silahlı dəstələr, qüvvələr Azərbaycanı yenə də dağıtmaq, dövlət çevrilişi etmək istədilər. Ancaq biz bunların da qarşısını aldıq. Artıq biz 1995-ci ildə Azərbaycanın iqtisadiyyatının tənəzzülünün, yəni aşağı enməsinin qarşısını aldıq, sabitləşdirdik.

Bundan sonra isə 1996-cı ildən başlayaraq, biz inkişaf etdik. İndi hər il əvvəlki ilə nisbətən iqtisadiyyatda inkişaf var. Bu inkişaf da bizim apardığımız iqtisadi siyasət nəticəsindədir. Bu inkişaf Azərbaycanda siyasi plüralizm cəmiyyəti, vətəndaş cəmiyyəti yaranmasının nəticəsidir. Bu inkişaf Azərbaycanda hüquqi, demokratik dövlət qurulmasının nəticəsidir. Biz o vaxtlar bu işə başlamışdıq. Amma indi hüquqi, demokratik, dünyəvi dövlət qurmuşuq.

Biz 1995-ci ildə Konstitusiyanı qəbul etdik. Bu yaxınlarda onu təkmilləşdirmək üçün müəyyən əlavələr etdik. Bu da lazım idi. İndi həyatımızın, demək olar ki, bütün sahəsində işləri tənzimləmək üçün Azərbaycanın qanunları var, yəni müxtəlif məcəllələr var. Amma əvvəllər bunlar yox idi. Bizim hüquq-mühafizə orqanları keçmiş sovet sistemindən məcəllələr əsasında işləyirdilər. Biz bunlar haqqında qanunlar qəbul etdik. Prokurorluq haqqında qanun, polis haqqında qanun, başqaları haqqında qanun qəbul etdik, onların vəzifələrini artıq qanun əsasında müəyyənləşdirdik və bunu da çox liberallaşdırdıq. Bütün bunların nəticəsində indi Azərbaycan inkişaf edir. Bu inkişafın bir tərəfi də Azərbaycana xarici investisiyanın gəlməsidir.

Biz 1994-cü ildən Azərbaycanda böyük neft strategiyasının həyata keçirilməsi ilə məşğul olduq. 1994-cü ilin sentyabrında ilk müqaviləni – «Əsrin müqaviləsi»ni imzaladıq. Amma bilirsiniz ki, onu imzaladığımız günün sabahısı Azərbaycana hücumlar oldu. Bir həftə sonra Azərbaycanda terrorlar oldu. Bizim böyük insanlarımızı həlak etdilər. Ondan sonra, 1994-cü ilin oktyabrında Azərbaycanda dövlət çevrilişinə cəhd oldu. Görün, biz sentyabrın 20-də «Əsrin müqaviləsi»ni imzaladıq, ondan 15 gün sonra Azərbaycanda nə qədər böyük təxribatlar baş verdi. Biz bunların qarşısını aldıq. Neft strategiyasının əleyhinə çıxanları biz kənarlaşdırdıq, zərərsizləşdirdik və neft strategiyasını həyata keçirməyə başladıq. İndi həyata keçiririk və artıq onun müsbət nəticələri var. Azərbaycan bundan gəlir götürür.

Biz bu yaxınlarda böyük təntənə ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru xəttinin inşasının təməl daşını qoyduq, siz orada idiniz. Görürsünüz, nə qədər işlər görülübdür. Bakı–Tbilisi–Ceyhanın qiymətini hələ sonra verəcəklər, sonralar başa düşəcəklər. Əvvəllər buna xüsusən Türkiyədə emosional bir münasibət var idi. İndi Bakı–Ceyhan var. Amma görürəm, buna münasibət bir az azalıbdır. Əvvəl arzu edirdilər, istəyirdilər, indi hasil oldu. Sən bir şeyi istəyirsən, məsələn, mağazadan almaq istəyirsən, düşünürsən, pulum var, yoxdur, alacaqsan, almayacaqsan. Gedib onu alıb gətirəndə sevinirsən, gətirib evə qoyursan, istifadə edirsən. Amma unudursan ki, sən bunun üstündə nə qədər həsrət çəkmisən.

**J u r n a l i s t:** Cənab Prezident, Sizin təbirinizcə desək, xəyallar gerçəkləşdi.

**H e y d ə r Ə l i y e v:** Bəli, elədir. Bunlar hamısı Azərbaycanın bugünkü gerçəklikləridir. İndi Azərbaycan inkişaf etmiş dövlətdir. Sən indi Bakıya bax. On il, səkkiz il bundan öncəki Bakıya da bax. Tamam başqa bir şəhərdir. Mən bunları deməklə istəyirəm ki, siz öz yayımlarınızda bax, bunları göstərəsiniz. Bizim qaçqınların vəziyyətini göstərəsiniz. Ermənilərin Azərbaycana təcavüzü haqqında daim material verəsiniz. Bir dəfə, iki dəfə yetərli deyil, daim. Sizin verilişinizdə belə bir xüsusi rubrika, hissə olsun. Siz o hissədə ermənilərin Azərbaycana təcavüzü, onların Azərbaycan torpaqlarını işğal etməsi, etnik təmizləmə siyasəti, bir milyon azərbaycanlının öz evindən, yurdundan didərgin düşməsi, çadırlarda yaşaması, və dünya ermənilərinin hamısının bu ədalətsiz vəziyyəti dəstəkləməsi barədə hər gün verməlisiniz. Belə verilişlər versəniz, çox gözəl, yaxşı olar.

**S u a l: Çox hörmətli Cümhur başqanım, Siz indi son 10 ilin siyasətini çox gözəl şəkildə, hərtərəfli söylədiniz. Bəli, Azərbaycanın xaricə doğru çox yüksəlişi var. Mən bir məsələni demək istəyirəm, bir ara çox gözəl bir başlıqla verilmişdi: Qafqazın parlayan ulduzu Azərbaycan. Müstəqilliyinizi qazandıqdan sonra on il ərzində ölkənizin daxilində və xaricində siyasi, iqtisadi uğurlarınız, xüsusən neft sahəsində həyata keçirdiyiniz layihələr barədə dünya mediasında danışılır. Çünki bunların hamısının altında Sizin imzanız var.**

**Hörmətli Cümhur başqanım, Azərbaycan müstəqillik qazandıqdan bu yana Türkiyə və Azərbaycan Qafqazda sülhməramlı bir siyasət aparır. Bu siyasətin dünya siyasətində yeri, önəmi və ona təsiri necə olmuşdur?**

**C a v a b:** Təsiri o olmuşdur ki, hər halda, biz dünyada Azərbaycanın bugünkü vəziyyətini, xüsusən Ermənistanın Azərbaycana təcavüzünü sübut edə bilmişik. İkinci tərəfdən, göstərmişik ki, bizim ən yaxın dostumuz, qardaşımız Türkiyə var. Türkiyə kimi dövlətlə bizim birlikdə hərəkət etməyimiz, bu işləri birlikdə çözməyimiz yeni bir şeydir. Yəni biz tək deyilik, bizim Türkiyə kimi dayağımız var, arxamız var. Bunu dünyada da bilirlər. Bunun da təsiri olmamış deyildir. Azərbaycan ilə Türkiyə Avropa Şurasında daim eyni mövqedən çıxış edirlər. Bir orada yox, bütün beynəlxalq təşkilatlarda. Biz beynəlxalq təşkilatlarda bütün sahələrdə öz siyasətimizi, öz qərarımızı qəbul edəndə Türkiyə ilə birlikdə həll edirik, onlarla birlikdə müzakirə edirik.

**S u a l: Bütün maneələrə və əngəlləmələrə rəğmən, reallaşdırdığınız Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru xəttinin ən mühüm hadisəsi Sizin böyük zəhmətinizlə gerçəkləşdi. Sizcə, bundan sonra Bakı–Tbilisi–Ceyhan layihəsi ilə bağlı növbəti addımlar və Gürcüstanın və Türkiyənin bölgədəki vəzifəsi nələrdir?**

**C a v a b:** İndi artıq Bakı–Tbilisi–Ceyhan boru xəttini inşa etmək lazımdır. Bu iş Türkiyədə başlayıbdır. «Botaş» şirkəti bu işi artıq başlayıbdır. Çünki boru xəttinin böyük bir hissəsi Türkiyədən keçir. Min kilometri

Türkiyədən, 200 kilometrə qədəri Gürcüstandan, 400 kilometrdən bir az da çox Azərbaycandan keçir. Bu iş Türkiyədə başlayıbdır. Çox gözəl. Məni sevindirən odur ki, «Botaş» şirkəti işə başlayıbdır. Biz də maliyyə məsələlərini həll etmişik. Çünki buradan Türkiyəyə qədər bütün maliyyələşdirmə məsələləri bizim üzərimizdədir. Yəni şirkətlər ki, var, onların investisiyası olur, eyni zamanda, o investisiyada Azərbaycanın da payı var. Biz öz payımızı vermişik. İndi hazırlıq gedir və işlər də başlayır. Burada elə bir problem yoxdur.

**S u a l: Cənab Prezident, Azərbaycanla Türkiyə terrordan ən çox zərər çəkən ölkələrdir. Siz bu gerçəkliyi həm Birləşmiş Millətlər Təşkilatında, həm ATƏT-də, həm də digər beynəlxalq tədbirlərdə gündəmə gətirirsiniz. Sizcə, Türkiyə də daxil olmaqla, ölkələrimiz nə etməlidir ki, səslərimiz həm beynəlxalq təşkilatlarda, həm də ayrı-ayrı ölkələrdə eşidilsin? Bu sahədə üzərimizə düşən vəzifələr hansılardır?**

**C a v a b:** Bilirsiniz, bu birdəfəlik şey deyil ki, mən sənə deyim nələr etməliyik. Bu siyasət daim inkişaf edir, irəliyə gedir. Biz hər dövrə görə öz işlərimizi görürük. Mən hesab edirəm ki, bu barədə Türkiyənin, Azərbaycanın siyasəti uğurludur və bu ahənglə də biz irəliyə gedəcəyik. İndidən demək olmaz nələr edəcəyik. Sabah bir şey olacaq, ona uygun olaraq bir şey edəcəyik.

**S u a l: Cənab Prezident, daha bir önəmli mövzu var. Azərbaycanın xarici siyasətinə baxdığımız zaman iqtisadiyyatın inkişafı ön plana gəlir. Xüsusilə xarici sərmayənin Azərbaycana cəlb edilməsi üçün Sizin öndərliyinizlə çox önəmli qərarlar verildi. Keçən həftə verdiyiniz fərman çox önəmli idi. Soruşmaq istəyirəm, zati-aliniz tərəfindən imzalanan daha geniş mövzuda bir fərman da var. Sizcə, istər türk iş adamları, istərsə də digər xarici iş adamları bu imkanlardan tam mənada nə cür istifadə edə bilərlər?**

**C a v a b:** Tam istifadə edə bilərlər. Mən 7-8 fərman imzalamışam. Bilirsiniz ki, mən iş adamları ilə görüşdüm. Öncə Azərbaycanın milli iş adamları ilə, sonra da xarici iş adamları ilə görüşdüm, onların dərdlərini öyrəndim. Ondan sonra mən böyük bir proqram hazırladım. Bu proqramı da iki-üç aydır həyata keçirirəm. Ona görə də 7-8 fərman vermişəm. Dünən Milli Məclisə iki təklif göndərmişəm. Orada lizinq haqqında qanun qəbul olunmalıdır. Başqa bir qanuna əlavə olunmalıdır. Bunlar hamısı sahibkarların işlərini daha da asanlaşdırmaqdan ötrüdür. Ona görə mənim bu fərmanlarim sahibkarların fəaliyyəti üçün çox böyük imkanlar yaradıbdır. Bu, təkcə Azərbaycan sahibkarları üçün deyil, bütün sahibkarlar, o cümlədən Türkiyənin sahibkarları üçündür.

Mən İstanbulda olacağam, orada ayın 14-də EKO-nun zirvə görüşüdür. Ayın 15-də orada iş adamları ilə də görüşəcəyəm. Türkiyənin iş adamlarına Azərbaycanda son vaxtlar aparılan işlər, imzalanmış fərmanlar, onlardan irəliyə gələn imkanlar və Türkiyənin iş adamlarının burada gördüyü işlər barədə geniş məlumat veriləcəkdir. Onlar çox işlər görüblər, çox layihələr həyata keçiriblər. Məsələn, bizim hava limanı, görürsünüz, nə gözəldir. Dünyanın ən gözəl hava limanlarından biridir. Bunu kim tikdi? Türkiyənin «Enka» şirkəti ilə «Burç» şirkəti tikdi. Çox şeylər ediblər.

**S u a l: Azərbaycana bundan sonra da gələ bilərlər, çünki bunun üçün gözəl şərait yaranıbdır. Elə deyilmi?**

**C a v a b:** Bəli, bəli. Məsələn, Bakı–Tbilisi–Ceyhan ilə əlaqədar Türkiyənin «Tekfen» şirkəti var, 700 milyonluq bir iş götürdü. Başa düşürsən, 700 milyon dollar! Göy İgid var, onu tanıyırsınız, bu şirkətin başçısıdır. Onlar 700 milyonluq iş götürdülər. Çox gözəl. Başqa sahələrdə də var. Məsələn, mən qərar vermişəm, Naxçıvanda aeroport tikilsin. Oraya da Türkiyənin «Enka» şirkətini dəvət edəcəyik. Yaxud Naxçıvanda çayın üzərində böyük bir bənd tikiləcəkdir. Bunu da onlara tapşırmışam, artıq Türkiyədən adamlar gəliblər, işləyirlər. Yəni biz istəyirik ki, Türkiyənin iş adamları böyük layihələrdə iştirak etsinlər.

Mən orada da danışacam, lazımdır ki, türk iş adamları Azərbaycana sərmayə qoysunlar. Hələ sərmayə qoyanlar yoxdur. Biz onlara işlər veririk, onlar bu işləri görürlər, pul götürürlər. Məsələn, buradakı xəstəxana. O xəstəxanada, mərkəzdə olmusanmı?

**J u r n a l i s t:** Bəli, o mərkəzi klinikada olmuşam. Oradan veriliş də çəkmişik.

**H e y d ə r Ə l i y e v:** Oranı gördün, mən oranı Türkiyəyə verdim, 30 milyon dollarlıq iş gördülər. İndi gözəl bir xəstəxanadır. Artıq buradakı xaricilər də gedib Türkiyədə müayinə olunmurlar, oraya gedib müayinə olunurlar.

**S u a l: Hörmətli Cümhur başqanım, Sizin bir gözəl xüsusiyyətiniz də var. Bu da təhsilə verdiyiniz önəmdir, gənc nəslin sağlam yetişməsidir. SSRİ vaxtından bu yana gənc nəslin dünya standartlarına uyğun təhsil almalarına böyük əhəmiyyət verirsiniz. Bu gün azərbaycanlı gənclərin Türkiyədə, türk gənclərinin də Azərbaycanda təhsil aldığını bilirik.**

**Bildiyimiz kimi, Azərbaycanda Sizin xeyir-duanızla açılan özəl türk liseyləri var. Onlarda oxuyan şagirdlər 1994-cü ildən başlayaraq, iştirak etdikləri beynəlxalq bilik olimpiadalarından Azərbaycana 21-i qızıl olmaqla, 86 medal gətirmişlər. Bu il İndoneziyada keçirilən fizika olimpiadasında əfsanəvi bir uğur qazanmışlar. 65 ölkə arasında üç qızıl, bir gümüş medal qazanaraq, beynəlxalq bilik olimpiadasının ilk üçlüyünə daxil olmuşlar. Cənab Prezident, Siz onların şəxsində Azərbaycanın və Türkiyənin gələcək nəslində hansı özəllikləri görmək istəyirsiniz?**

**C a v a b:** Mən bundan çox məmnunam. Bilirəm ki, onlar yaxşı təhsil verirlər. Ona görə də oranın şagirdləri dünyanın bir çox yerlərində müsabiqələrdə medal qazanıblar. Bu, Azərbaycanda lisey səviyyəsində təhsilin inkişafına kömək edir. Biz bunu digər məktəblərə nümunə göstəririk. Buna görə mən məmnunam və təşəkkür edirəm.

**S u a l: Hörmətli Cümhur başqanım, təqdirəlayiq digər bir xüsusiyyətiniz Azərbaycanın xaricdə tanıdılması, lobbiçilik fəaliyyətidir. Bakıda dünya azərbaycanlılarını bir yerə topladınız, onlarla görüşdünüz. Türkiyədə, eləcə də türkdilli ölkələrdə lobbiçilik sahəsində hansı işbirliyi qurmalıdılar? Yəni Azərbaycan və digər türkdilli ölkələr xaricdə nə işlər görməlidir?**

**C a v a b:** Bilirsiniz, çox yerlərdə azərbaycanlılarla türklər bir yerdədirlər. Məsələn, Avropanı götürək. Bilirəm ki, Brüsseldə, yaxud Almaniyada azərbaycanlılar və türklər bir yerdə çalışırlar, bir yerdə iş görürlər. Ona görə bu birlik var. Lazımdır ki, lobbiçilik məsələsini daha da gücləndirək.

Bilirsiniz ki, mən Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaratdım. Məhz buna görə. Çünki mən istəyirəm ki, dünyanın hər yerində yaşayan azərbaycanlılar özlərinin azərbaycanlı olduqlarını bilsinlər, özlərini azərbaycanlı kimi hiss eləsinlər. Bir də ki, Azərbaycan dövləti ilə, respublikamızla əlaqədə olsunlar. Ona görə də belə bir Komitə yaratmışam. Bu Komitə də xaricdə türk dərnəkləri ilə çox sıx əməkdaşlıq edir və edəcəkdir.

**S u a l: Mətbuata ən yaxın cümhur başqanlarından biri Sizsiniz. Etdiyiniz zarafatlarla, jurnalistlərə olan məhəbbətinizlə ölkə içərisində mətbuat orqanlarının çoxalmasına, onların fəaliyyət göstərmələrinə kömək edərək, hətta maddi çətinlik, sıxıntı yaşayan kütləvi informasiya vasitələrinə kredit verməklə Siz daim onların yanında olduğunuzu göstərirsiniz. «Samanyolu» televiziyası mətbuatla müsbət əlaqələr qurmağınız münasibətilə Sizi «Medianın dostu» mükafatına layiq görübdür. Bu mükafat İstanbulda Sizə təqdim olunacaqdır. Belə bir mükafatın zati-alinizdə oyatdığı təəssüratı öyrənə bilərikmi?**

**C a v a b:** Təşəkkür edirəm ki, siz mənə belə bir mükafat vermisiniz.

Hesab edirəm ki, mən bundan sonra da mətbuatla daha yaxın olmalıyam və ona yardım etməliyəm. Mən mətbuatı sevirəm və daim mətbuat işçiləri ilə, yəni jurnalistlərlə yaxın oluram. İstəyirəm ki, onlar hər şeyi düz yazsınlar, obyektiv yazsınlar. Amma təəssüf ki, bizim buradakı radikal müxalifət mətbuatı başqa yol ilə gedir. Siz o qəzetlərdə hər səhifədə Heydər Əliyev haqqında oxuyursunuz. Elədirmi?

**J u r n a l i s t:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** Qəzeti açırsan, hər səhifədə Heydər Əliyev, İlham Əliyev, Heydər Əliyev, İlham Əliyev, Heydər Əliyev, İlham Əliyev. Mən o qəzetləri oxumuram. Ancaq vərəqləyirəm, baxıram, burada Heydər Əliyev, orada İlham Əliyev. Yalan yazırlar. Mənim haqqımda bir dəfə doğru şey yazmayıblar. Doğru şeylər sizə məlumdur. Onlar yalan yazırlar. Hətta Bakı–Tbilisi–Ceyhanla bağlı dünyaya səs salan bir tədbir keçirdik, bunun haqqında da bir şey yazmadılar. Çünki bunu Heydər Əliyev keçirir. Yaxşı, bunu Heydər Əliyev öz babası üçün etmir. Heydər Əliyev bunu xalq üçün, birinci növbədə, Azərbaycan xalqı üçün edir. Eyni zamanda, üç dövləti – Türkiyəni, Gürcüstanı, Azərbaycanı bağlayır. Bu qədər böyük proqram haqqında heç bir şey yazmadılar. Amma həmin o günlər Heydər Əliyev haqqında mənfi şeylər yazdılar. Ancaq xalq buna inanmır, inana da bilməz. Xalq mənə inanır. Mənim həyatım aynadakı kimi göz qabağındadır. Əgər belə olmasaydı, mən bütün bu mərhələlərdən keçib gedə bilməzdim.

**J u r n a l i s t:** Allah Sizə uzun ömür versin, başımızdan əskik etməsin. Doğrudan da Siz bu ölkə üçün lazımsınız. Siz təcrübənizlə, biliyinizlə, uzaqgörən siyasətinizlə bizə lazımsınız.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm.

**J u r n a l i s t:** Hörmətli Cümhur başqanim, dərin minnətdarlığımı bildirirəm. Doğrudan da proqramımıza qatılmaqla bizə böyük şərəf verdiniz.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun. Mən də sizin televiziyaya yeni-yeni uğurlar arzulayıram.

## İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN TÜRKİYƏNİN İSTANBUL ŞƏHƏRİNƏ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*13 oktyabr 2002-ci il*

**H e y d ə r Ə l i y e v:** Salaməleyküm.

Məlumatınız var, mən İstanbula gedirəm. Orada İqtisadi Əməkdaşlıq Təşkilatının zirvə görüşündə iştirak edəcəyəm. Ertəsi gün də Türkiyənin iş adamları ilə görüş keçirəcəyəm. Ondan sonra isə Vətənə dönəcəyəm. Mənim Türkiyəyə səfərimin məqsədi budur. Nə sözünüz varsa, buyurun.

**S u a l: Cənab Prezident, İstanbulda hansı ikitərəfli görüşlər gözlənilir?**

**C a v a b:** Türkiyə prezidenti Əhməd Necdət Sezərlə, Pakistan prezidenti Pərviz Müşərrəflə, İran prezidenti Məhəmməd Xatəmi ilə görüşlərim olacaqdır.

**S u a l: Cənab Prezident, Ali Hərbi Məktəbdə yenidən müəyyən problemlər yaranıbdır. Bununla əlaqədar nə deyə bilərsiniz?**

**C a v a b:** Orada heç bir problem yoxdur. Oranın rəisi azad olunmuşdur, mən həmin məktəbə yeni rəis təyin etmişəm. Piriyev çox hazırlıqlı adamdır, uzun müddət cəbhədə olubdur. Bilikli adamdır, orada işlər gedir. Problem yoxdur, şişirtmək lazım deyildir.

**S u a l: Cənab Prezident, Azərbaycanın hərbi prokuroru, Bakı qarnizonunun hərbi prokuroru nə vaxt təyin ediləcəkdir?**

**C a v a b:** Necə yəni hərbi prokuror nə vaxt təyin olunacaqdır, hərbi prokuror var.

**S u a l: Cənab Prezident, Siz sahibkarlığa maneələrin aradan qaldırılması məqsədi ilə fərman vermisiniz. Bundan sonra da yeni fərmanlar olacaqmı?**

**C a v a b:** Bundan sonra nə fərman olacaqdır? Fərmanların hamısını vermişəm, Milli Məclisə təkliflər göndərmişəm. Lizinq haqqında qərar qəbul ediləcək, başqa dəyişikliklər olacaqdır. Bunların hamısı da sahibkarların işi ilə əlaqədardır. Beləliklə, hər şeyi etmişəm. Bundan sonra bir yekun görüş keçirəcəyik.

**S u a l: Cənab Prezident, sahibkarların arzularından biri də vergi «yükünün» azaldılması ilə bağlıdır. Bəzi dövlət məmurları bu barədə təkliflər verirlər. Bu haqda nə deyərdiniz?**

**C a v a b:** Mənim fərmanimla vergi «yükü» azaldılıbdır. Dövlət məmurlarının burada nə işi var? Vergi Nazirliyinin ştatları 40 faiz ixtisar olunur və nazirliyin təsiri azalır. Sahibkarlara daha da böyük imkanlar verilir.

**S u a l: Cənab Prezident, dediniz ki, Türkiyənin iş adamları ilə görüşəcəksiniz. Azərbaycanın onlara konkret təklifləri varmı?**

**C a v a b:** Nə təkliflər olacaq? Təkliflərimiz odur ki, gəlsinlər, burada investisiya qoysunlar, böyük işlər görsünlər və əsasən də istehsalat yaratsınlar, iş yerləri açsınlar.

**S u a l: Cənab Prezident, Pakistanla hərbi əməkdaşlıq barədə saziş imzalanmışdı. Siz dediniz ki, orada prezident Müşərrəflə görüşəcəksiniz. Bu barədə söhbətiniz olacaqmı?**

**C a v a b:** Prezident Müşərrəflə bizim köhnə tanışlığımız var. Nə barədə söhbət olacaqsa, bunu özümüz bilirik.

**S u a l: Cənab Prezident, İstanbul zirvə görüşündə Azərbaycan hansı təşəbbüslər irəli sürəcək?**

**C a v a b:** Zirvə görüşündə elə bir təşəbbüs yoxdur. Orada məsələləri müzakirə edib, fikir mübadiləsi aparacağıq.

Sağ olun.

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV İSTANBUL ZİRVƏ GÖRÜŞÜNDƏ**

*13 oktyabr 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün oktyabrın 13-də İstanbula gəldi.*

*Atatürk beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident Heydər Əliyev təyyarənin pilləkəni yanında İstanbul valisi Erol Çakır, İstanbul bələdiyyə başqanı Əli Müfit Gurtana, habelə Azərbaycanın Xaciri İşlər naziri Vilayət Quliyev, ölkəmizin Türkiyədəki səfiri Məmməd Əliyev, respublikamızın İrandakı səfiri, İƏT-in Daimi Nümayəndələr Şurasının üzvü Abbasəli Həsənov, Azərbaycanın İstanbuldakı Baş konsulu Xeyrəddin Qoca və digər rəsmi şəxslər qarşıladılar.*

*Azərbaycan prezidenti fəxri qarovul dəstəsinin qarşısından keçdi və türk əsgərini salamladı.*

*Dövlətimizin başçısı hava limanında maşın karvanının müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha – «Çırağan Palas» mehmanxanasına gəldi. Ali qonağı burada Türkiyə hökumətinin rəsmi şəxsləri mehribanlıqla qarşıladılar.*

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATINA ÜZV ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VII ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ

*İstanbul,*
*«Çırağan Palas» mehmanxanası*

*14 oktyabr 2002-ci il*

*İƏT-in üzvü olan ölkələrin VII zirvə görüşü oktyabrin 14-də «Çırağan» sarayında öz işinə başladı.*

*Türkiyə prezidenti Əhməd Necdət Sezər Azərbaycan prezidenti Heydər Əliyevi sarayın qarşısında ehtiramla, səmimiyyətlə salamladı.*

*Salona toplaşanlar Türkiyə prezidenti Əhməd Necdət Sezəri, Azərbaycan prezidenti Heydər Əliyevi, Əfqanıstan prezidenti Həmid Kərzaini, İran prezidenti Məhəmməd Xatəmini, Qırğızıstan prezidenti Əsgər Akayevi, Pakistan prezidenti Pərviz Müşərrəfi, Tacikistan prezidenti İmaməli Rəhmonovu, Özbəkistan Milli Məclisinin sədri Erkin Xəlilovu, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Rəcəb Saparovu və Qazaxıstanın Dövlət katibi – Xarici Işlər naziri Qasımcomərd Tokayevi alqışlarla qarşıladılar.*

*İclası giriş sözü ilə İran İslam Respublikasının prezidenti, İƏT-in sədri Məhəmməd Xatəmi açdı və qarşıdakı dövr üçün bu təşkilata sədrliyin Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezərə verildiyini bildirdi.*

*Prezident Əhməd Necdət Sezər dövlət başçılarını salamladı, Zirvə görüşünün işinə uğurlar arzuladı.*

**H e y d ə r   Ə l i y e v:** Hörmətli cənab sədr!

Hörmətli dövlət və hökumət başçıları!

Xanımlar və cənablar!

Sizi səmimi-qəlbdən salamlayıram. İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün bütün iştirakçılarına uğurlar arzulayıram. VII Zirvə görüşünü yüksək səviyyədə təşkil etdiklərinə və bizə göstərdikləri qonaqpərvərliyə görə Türkiyə Respublikasının prezidenti zati-aliləri cənab Əhməd Necdət Sezərə və Türkiyə Respublikasının Hökumətinə minnətdarlığımı bildirirəm.

Dövlət başçılarının son görüşündən sonra bu təşkilatın üzvü olan Əfqanıstanda baş verən müsbət dəyişiklikləri alqışlayıram. Hörmətli prezident cənab Kərzaiyə ölkənin və xalqın qarşısında duran problemlərin həllində uğurlar arzulayıram.

Bu ilin noyabr ayında Azərbaycanın, habelə Mərkəzi Asiya respublikalarının İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olmalarının 10 ili tamam olur. Fürsətdən istifadə edərək, bu əlamətdar tarix münasibətilə hamını təbrik edir, birgə səylərimizlə əməkdaşlığın daha da artmasını arzulayıram.

Hörmətli sammit iştirakçıları!

İlk illərini yaşadığımız yeni əsrdə bəşəriyyətin qarşısında dünyada sülhün bərqərar olması və insanların firavanlıq, əmin-amanlıq şəraitində yaşaması kimi mühüm vəzifələr durur.

Bu vəzifələrin öhdəsindən gəlmək üçün dünya dövlətlərinin ayrı-ayrılıqda göstərdikləri səylərlə yanaşı, regional təşkilatların məqsədyönlü fəaliyyəti də zəruridir.

Bu səbəbdən İqtisadi Əməkdaşlıq Təşkilatının üzərinə böyük tarixi missiya düşür. Güman edirəm ki, sammitdə bizim qəbul edəcəyimiz qərarlar yeni əsrdə regionumuzun siyasi-iqtisadi və mədəni-mənəvi inkişafına öz müsbət təsirini göstərəcək, onun əsas istiqamətlərini müəyyən edəcəkdir.

Bundan başqa, sammitin qərarları regionun sürətli tərəqqisinə yardım etməli, qloballaşma prosesində onun daha fəal iştirakını təmin etməlidir. Biz təşkilatın fəaliyyətinin əsas istiqamətlərini regionda iqtisadi inteqrasiyanın hüquqi bazasının yaradılmasında və icra mexanizminin hazırlanmasında görürük.

Bu gün İqtisadi Əməkdaşlıq Təşkilatının qarşısında duran əsas vəzifələrdən biri də dünya miqyasında aparılan yoxsulluğun azaldılması işinə öz töhfəsini verməkdir. 350 milyona yaxın insanın yaşadığı regionu əhatə edən İqtisadi Əməkdaşlıq Təşkilatı yoxsulluğun azaldılması üçün xüsusilə dövlətlərarası əməkdaşlığı inkişaf etdirməli və birgə layihələrin həyata keçirilməsini təşviq etməlidir.

Bu məqsədlə yeni iş yerlərinin açılması üçün regional investisiya layihələrinin təşviqini və ölkələrimiz arasında qarşılıqlı investisiya qoyuluşlarının həvəsləndirilməsini zəruri hesab edirik.

Azərbaycan Respublikası adından deyə bilərəm ki, ölkəmizə xarici investisiyaların cəlb olunması üçün son illərdə mühüm işlər aparılmış, müvafiq hüquqi baza yaradılmış, bazar iqtisadiyyatına keçid və dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməli addımlar atılmışdır. Təkcə onu qeyd etmək kifayətdir ki, 1994-cü ildən bu günə kimi Azərbaycan iqtisadiyyatına təxminən 10 milyard ABŞ dolları həcmində sərmayə qoyulmuşdur.

Bu gün ölkəmizdə xarici investorlar üçün lazımi investisiya mühitinin yaradıldığını tam əminliklə deyə bilərəm və iş adamlarını Azərbaycanda investisiya layihələrinin həyata keçirilməsində fəal iştirak etməyə dəvət edirəm.

Məlum olduğu kimi, Azərbaycan artıq Şimal–Cənub nəqliyyat dəhlizinə qoşulmaq haqqında qərar qəbul edibdir. Bu ilin may ayında İran İslam Respublikasına səfərim zamanı mən əməkdaşlığımızın bu mühüm sahəsini İranın hörmətli prezidenti ilə müzakirə etmişəm və ümidvaram ki, bu, İqtisadi Əməkdaşlıq Təşkilatı daxilində də işbirliyinə öz müsbət töhfəsini verəcəkdir.

İqtisadi Əməkdaşlıq Təşkilatının regional əməkdaşlıq sahəsində ciddi uğurlar əldə etməsi üçün hər cür şərait var. Xalqlarımızın tarixi yaxınlığı, din, bir sıra hallarda isə dil ümumiliyi, ölkələrimizdəki bənzər cəhətlər və mədəni-mənəvi bağlılıq bunun üçün etibarlı zəmin yaradır.

Yarandığı dövrdən bu günədək təşkilatın fəaliyyətinin genişləndirilməsi və qarşısında duran məsələlərin həlli üçün bir sıra sənədlər imzalanmış və müvafiq qurumlar yaradılmışdır. Regionun iqtisadiyyatının inkişaf istiqamətlərini müəyyən etmək, iqtisadi təhlillər aparmaq və birgə layihələr hazırlamaq üçün təşkilatın iqtisadi təhqiqatlar mərkəzinin yaradılması zəruriyyəti meydana çıxmışdır. Azərbaycanın böyük məmnuniyyətlə belə bir mərkəzə ev sahibliyi etməyə hazır olduğunu bildirirəm.

Hörmətli sammit iştirakçıları!

Bizim ölkəmiz, eləcə də region dövlətləri üçün Bakı–Novorossiysk və Bakı–Supsa neft kəmərlərinin işə düşməsinin mühüm əhəmiyyəti olmuşdur. Bu il sentyabrın 18-də isə Bakıda region üçün çox böyük əhəmiyyətə malik olan Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin inşa edilməsinin təməlatma mərasimi keçirilmişdir. Mərasimdə Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezər, Gürcüstan prezidenti hörmətli Eduard Şevardnadze və Azərbaycan Respublikasının prezidenti iştirak etmişlər.

Bu əlamətdar hadisə Azərbaycanın yeni neft strategiyası əsasında 1994-cü ildə Xəzərin Azərbaycan sektorunda neft yataqlarının istismarı məqsədi ilə imzalanmış ilk hasilatın pay bölgüsü müqaviləsi – «Əsrin müqaviləsi» ilə əsası qoyulmuş nəhəng layihənin nəticəsidir.

Bu gün Xəzər dənizi hövzəsində neft və qaz ehtiyatlarının işlənilməsi sahəsində böyük işlər aparılır. Lakin regionun enerji ehtiyatlarından daha səmərəli istifadə edilməsi Xəzər dənizinin hüquqi statusunun müəyyən olunmasını tələb edir.

Bu sahədə son illərdə çox işlər görülür. Bunlardan Xəzəryanı dövlətlərin ilk dəfə bir araya gəldiyi Aşqabad sammitinin çox böyük əhəmiyyəti olmuşdur. Mən bu ilin may ayında İranda olarkən prezident cənab Xatəmi ilə də bu sahədə səmərəli danışıqlar apardığımızı qeyd edirəm. Bundan başqa, bizim Rusiya və Qazaxıstanla imzaladığımız sazişlər də Xəzərin statusu ilə bağlı məsələnin həll olunmasına yardım edəcəkdir.

Cənab sədr!

Hörmətli sammit iştirakçıları!

Təəssüf hissi ilə qeyd etməliyəm ki, bəşəriyyət insanlıq üçün firavanlıq və əmin-amanlıq gətirən bütün bu işlərlə yanaşı, yeni minilliyə köhnə minillikdən miras qalmış bir sıra problemlərlə də qədəm qoymuşdur. Bunlardan ən təhlükəlisi etnik münaqişələr və terrordur.

2001-ci ilin 11 sentyabrında Amerika Birləşmiş Ştatlarında törədilmiş dəhşətli terror hadisəsi əslində tərəqqipərvər bəşəriyyətə ciddi bir siqnal oldu. Bir necə saat ərzində bütün dünya terrorun nə qədər dəhşətli, bəşəriyyət və insanlıq üçün nə qədər təhlükəli və faciəli olduğunu müşahidə etdi.

Bir çox dövlətlər üçün bu dəhşətli faciə yeni bir hadisə idi. Lakin bizim ölkələrimizin bir çoxunda etnik münaqişələrin və dinc insanlara qarşı çevrilmiş terrorçuluğun, təcavüzkar separatçılığın və şovinizmin nə olduğunu çox yaxşı bilirlər. Minlərlə insan bunun ağrı-acılarını öz şəxsi həyatlarında yaşayıb və bu gün də yaşamaqdadır.

Etnik münaqişələrdən və terrordan zərər çəkən bir dövlət olaraq, Azərbaycana bu münaqişələr daha yaxşı tanışdır. Odur ki, biz dərhal antiterror mübarizəsində ölkəmizin bütün imkanlarından istifadə etməyi, bu dəhşətli faciə ilə mübarizəyə hazır olduğumuzu birmənalı bəyan etdik.

Biz neçə ildir ki, Azərbaycanda etnik separatizm və bunun nəticəsində yaranmış terrorçuluqla təkbaşına mübarizə aparırıq. Qonşu Ermənistanın Azərbaycana qarşı 14 il əvvəl əsassız ərazi iddiaları ilə başladığı hərbi təcavüz nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuş, bir milyondan çox azərbaycanlı öz doğma yurdlarından zorla çıxarılaraq qaçqın və köçkünə çevrilmişdir. Bu münaqişə nəticəsində 35 min azərbaycanlı öz torpaqlarında həlak olmuş, yaxud qətlə yetirilmişdir. İşğalın nəticələri ölkəni ciddi iqtisadi və sosial problemlərlə üz-üzə qoymuşdur.

Biz dəfələrlə bəyan etmişik ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dinc yolla həll olunmalıdır. Biz müharibə istəmirik. Biz sülh tərəfdarıyıq. Azərbaycanda, bütün Qafqaz regionunda və bütün dünyada sülhün bərqərar olması bizim ən ümdə arzumuzdur.

Azərbaycan sülhsevər ölkə olaraq bütün dövlətlərlə və xalqlarla, ələlxüsus öz qonşuları ilə qarşılıqlı anlaşma, mehriban qonşuluq və əməkdaşlıq şəraitində yaşamaq istəyir. Lakin Ermənistanla belə əməkdaşlıq yalnız və

yalnız Dağlıq Qarabağ münaqişəsi həll olunduqdan, Azərbaycanın ərazi bütövlüyü bərpa edildikdən, qaçqınlar öz daimi yaşayış yerlərinə qayıtdıqdan sonra mümkün ola bilər.

Hesab edirik ki, terrora qarşı mübarizə bütün dövlətlərin və beynəlxalq təşkilatların əlbir fəaliyyətini tələb edir. Bununla bağlı düşünürəm ki, İqtisadi Əməkdaşlıq Təşkilatı da üzərinə düşən tarixi vəzifəni yerinə yetirməli və bundan sonra da ümumbəşəri dəyərlər uğrunda mübarizəni davam etdirməli, bu təşkilatın üzvü olan Azərbaycanın haqq işinə dəstək verməlidir.

Hörmətli sədr!

Hörmətli sammit iştirakçıları!

Sonda bir daha əmin olduğumu bildirmək istəyirəm ki, İqtisadi Əməkdaşlıq Təşkilatının İstanbul Zirvə görüşü yeni əsr üçün regionun inkişafının başlıca istiqamətlərini müəyyən edəcək və qarşımızda duran əsas maneələrin aradan qaldırılmasında, xalqlarımızın və dövlətlərimizin daha da yaxınlaşmasında mühüm addım olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR İLƏ GÖRÜŞ

*İstanbul*

*14 oktyabr 2002-ci il*

*İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının İstanbulda keçirilən VII zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin oktyabrın 14-də Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər ilə görüşü oldu.*

*Dövlətimizin başçısını mehribanlıqla və səmimiyyətlə salamlayan prezident Əhməd Necdət Sezər onun dəvətini qəbul edib Zirvə görüşünə gəldiyinə görə, prezident Heydər Əliyevə təşəkkürünü bildirdi.*

*Qardaş Türkiyə torpağında özünə və başçılıq etdiyi nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə, sammitin keçirilməsi üçün yaradılan yaxşı şəraitə görə prezident Əhməd Necdət Sezərə minnətdarlığını bildirən prezident Heydər Əliyev İƏT-in Zirvə görüşündə iştirakından məmnun olduğunu söylədi.*

*Görüş zamanı dost və qardaş ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə genişlənməkdə və dərinləşməkdə olduğunu vurğulayan prezidentlər həyata keçirilən irimiqyaslı regional layihələrdə Azərbaycanın və Türkiyənin birgə fəal iştirakından razılıq hissi ilə danışdılar.*

*Dövlət başçıları Xəzərin Azərbaycan sektorundakı zəngin neft və qaz yataqlarının işlənilməsi və karbohidrogen ehtiyatlarının Avropa bazarlarına nəqli üçün bu yaxınlarda təməli qoyulmuş Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin tikintisi, Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihəsinin reallaşması yolunda qarşıda duran vəzifələr barədə ətraflı fikir mübadiləsi apardılar.*

*Prezident Heydər Əliyev Türkiyənin iş adamlarının ölkəmizdə daha geniş fəaliyyət göstərməsinin, Azərbaycanın iqtisadiyyatına sərmayə qoymalarının qarşılıqlı əhəmiyyətini vurğulayaraq, bunun üçün respublikamızda əlverişli şərait yaradıldığını söylədi.*

*Dövlətimizin başçısı ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılması məqsədi ilə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşləri barədə söhbət açdı. Prezident Əhməd Necdət Sezər münaqişənin nizamlanması prosesində Türkiyənin Azərbaycanı həmişə dəstəkləyəcəyini bir daha vurğuladı.*

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ PƏRVİZ MÜŞƏRRƏF İLƏ GÖRÜŞ

*İstanbul*

*14 oktyabr 2002-ci il*

*İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Pakistan İslam Respublikasının prezidenti Pərviz Müşərrəf ilə görüşdü.*

*Dövlətimizin başçısını səmimiyyətlə, mehribanlıqla salamlayan, prezident Heydər Əliyev ilə hər bir görüşünü yüksək dəyərləndirən prezident Pərviz Müşərrəf respublikamızın rəhbəri ilə İstanbulda yenidən görüşməyindən çox məmnun qaldığını söylədi.*

*Prezident Heydər Əliyevin diqqəti və uzaqgörən, müdrik siyasəti sayəsində ölkələrimiz arasında yaranmış səmimi dostluq münasibətlərinin böyük əhəmiyyətə malik olduğunu nəzərə çatdıran cənab Pərviz Müşərrəf Pakistanın Azərbaycan ilə bütün sahələrdə əlaqələrin durmadan inkişaf etdirilməsinə maraq göstərdiyini bildirdi.*

*Azərbaycanın və Pakistanın nüfuzlu beynəlxalq təşkilatlardakı əməkdaşlığından da razılıqla söhbət açan cənab Pərviz Müşərrəf ölkəmizin üzləşdiyi çətin problemin – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə aradan qaldırılmasının Pakistan tərəfindən həmişə dəstəkləndiyini vurğulayaraq dedi ki, biz Ermənistanın Azərbaycana təcavüzünü pisləyirik, Pakistan bu təcavüz nəticəsində işğal edilmiş Azərbaycan ərazisinin dərhal azad olunmasını tələb edir.*

*Prezident Heydər Əliyev səmimi sözlərə, Azərbaycana göstərilən dostluq münasibətinə, İstanbul zirvə görüşündəki nitqində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı söylədiyi dəyərli fikirlərə, Azərbaycanın haqq işinin Pakistan tərəfindən həmişə dəstəkləndiyinə görə cənab Pərviz Müşərrəfə dərin təşəkkürünü bildirdi.*

*Dövlətimizin başçısı Heydər Əliyev ölkələrimizin beynəlxalq təşkilatlardakı əməkdaşlığının hər iki tərəf üçün çox faydalı olmasından razılıqla söhbət açdı.*

*İqtisadi Əməkdaşlıq Təşkilatının İstanbul Zirvə görüşünün üzv ölkələr arasında münasibətlərin daha da yaxşılaşmasına, iqtisadi əməkdaşlığın daha da möhkəmlənməsinə yeni təkan verəcəyini vurğulayan prezident Heydər Əliyev Azərbaycanın Pakistanla əməkdaşlığın inkişaf etdirilməsinə də böyük əhəmiyyət verdiyini bildirdi.*

*Görüşdə prezidentlər Azərbaycan–Pakistan müştərək iqtisadi komissiyasının işinin son vaxtlar daha da canlanmasından məmnun qaldıqlarını bildirdilər, bütün istiqamətlərdə, xüsusən energetika, ticarət və digər sahələrdə ölkələrimizin əlaqələrinin genişləndirilməsi üçün potensial imkanlar olduğunu vurğuladılar.*

*Səmimilik və dostluq şəraitində keçən görüşdə hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə müzakirələr aparıldı.*

*Görüşdə prezident Pərviz Müşərrəf Azərbaycan prezidentini Pakistana, dövlətimizin başçısı Heydər Əliyev isə Pakistanın rəhbərini ölkəmizə rəsmi səfərə dəvət etdi. Hər iki dəvət məmnunluqla qəbul olundu.*

## ƏFQANISTAN PREZİDENTİ HƏMİD KƏRZAİ İLƏ GÖRÜŞ

*İstanbul*

*14 oktyabr 2002-ci il*

*İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının İstanbulda keçirilən zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev oktyabrın 14-də Əfqanıstan prezidenti Həmid Kərzai ilə görüşdü.*

*Bir-birini mehribanlıq və səmimiyyətlə salamlayan dövlət başçıları zirvə görüşünün işində iştiraklarından və görüşmələrindən məmnun olduqlarını bildirdilər.*

*Əfqanıstan rəhbəri Azərbaycan prezidentinin dünya miqyaslı görkəmli dövlət xadimi kimi tanındığını və ona böyük hörmət və ehtiram bəslədiyini bildirdi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən prezident Heydər Əliyev Azərbaycandakı vəziyyət, ölkədə görülən işlər barədə söhbət açdı, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə başlanmış Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ərazimizin 20 faizinin işğal olunduğu, bir milyondan çox soydaşımızın yerindən-yurdundan zorla qovularaq çadır şəhərciklərində ağır, dözülməz şəraitdə yaşadığı barədə danışdı.*

*Öz ölkəsindəki vəziyyətdən söhbət açan prezident Həmid Kərzai Əfqanıstanda normal həyatın bərpası məqsədi ilə aparılan işlərdən bəhs etdi.*

*Görüşdə prezidentlər iki ölkə arasında əlaqələrin genişləndirilməsinin, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsinin, terrorizmə, ekstremizmə qarşı mübarizədə bütün səylərin birləşdirilməsinin əhəmiyyətini vurğuladılar.*

*Söhbət zamanı hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident Həmid Kərzai prezident Heydər Əliyevi Əfqanıstana, prezident Heydər Əliyev isə Əfqanıstan rəhbərini Azərbaycana dəvət etdi. Dəvətlər məmnunluqla qəbul olundu.*

## İRAN PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ İLƏ GÖRÜŞ

*İstanbul*

*14 oktyabr 2002-ci il*

*İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının İstanbul Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşmüşdür.*

*Prezident Seyid Məhəmməd Xatəmi dövlətimizin başçısını dostcasına, səmimiyyətlə salamladı, prezident Heydər Əliyev ilə hər bir görüşdən çox məmnun qaldığını nəzərə çatdırdı.*

*Prezident Heydər Əliyevin müdrikliyinin və böyük təcrübəsinin həm Azərbaycan üçün, həm İran üçün, həm də ümumilikdə regionumuz üçün çox əhəmiyyətli olduğunu vurğulayan cənab Xatəmi dövlətimizin başçısının bu ilin may ayında İrana rəsmi səfərini həmişə böyük məmnunluqla xatırladıqlarını söylədi, bu səfərin Azərbaycan–İran əməkdaşlığında yeni mərhələ yaratdığını vurğuladı.*

*Prezident Heydər Əliyev səmimi sözlərə, habelə İran İslam Respublikasına rəsmi səfəri zamanı ona göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirdi, həmin səfər zamanı keçirdiyi görüşləri, apardığı danışıqları və imzalanmış sənədləri yüksək dəyərləndirdi.*

*Görüşdə bir sıra müştərək layihələrin böyük əhəmiyyət daşıdığını, İran, Rusiya və Hindistanın iştirak etdikləri Şimal–Cənub layihəsinə Azərbaycanın da qoşulacağını nəzərə çatdıran prezidentlər ölkələrimiz arasında dəmir yolu əlaqələrinin bərpa olunması, Bakı–Astara avtomobil yolunun yenidən qurulması, Bakı–Astara dəmir yolunun tikilməsi, Astara çayı üzərində yeni körpünün salınması və nəhayət, Qəzvin–Rəşt–Astara dəmir yolunun çəkilməsi layihələrinin Azərbaycan–İran əməkdaşlığında mühüm rol oynayacağını bildirdilər.*

*Xəzərin hüquqi statusu ilə əlaqədar ətraflı fikir mübadiləsi edən dövlət başçıları bu məsələ barədə ekspertlər səviyyəsində aparılan danışıqların davam etdirilməsinin vacib olduğunu söylədilər.*

*Ölkəmizin ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün aparılan danışıqlardan söhbət açan prezidentlər bu münaqişənin tezliklə sülh yolu ilə həll edilməsi üçün səylərin daha da gücləndirilməsinin zəruriliyini nəzərə çatdırdılar.*

*İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının İstanbul Zirvə görüşündə müzakirə edilən məsələləri bir daha yüksək qiymətləndirən prezidentlər bu sammitin üzv ölkələr arasında qarşılıqlı surətdə faydalı əlaqələrin daha da möhkəmləndirilməsinə güclü təkan verəcəyinə əmin olduqlarını vurğuladılar.*

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə dövlət başçıları hər iki ölkəni maraqlandıran bir sıra məsələlər barədə də fikir mübadiləsi apardılar.*

*Prezident Heydər Əliyev ölkəmizdə İran prezidentinin Azərbaycana rəsmi səfərini gözlədiklərini bildirdi. Prezident Məhəmməd Xatəmi mütləq Azərbaycana rəsmi səfər edəcəyini təsdiqlədi.*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM MEQAVATİ SUKARNOPUTRİYƏ**

Hörmətli xanım Prezident!

Bali adasında baş vermiş terror aktı nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi. Bu dəhşətli faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və bütün İndoneziya xalqına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*14 oktyabr 2002-ci il*

**AVSTRALİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CON UİNSTON HOVARDA**

Hörmətli cənab Baş nazir!

İndoneziyada törədilmiş dəhşətli terror aktı nəticəsində çoxlu sayda həmvətəninizin həlak olması məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və bütün Avstraliya xalqına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*14 oktyabr 2002-ci il*

## TÜRKİYƏNİN İŞ ADAMLARI İLƏ GÖRÜŞDƏ NİTQ

*İstanbul,*
*«Çırağan Palas» mehmanxanası*

*15 oktyabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev «Çırağan» sarayında Türkiyənin iş adamları ilə görüşmüşdür. Görüşdə Türkiyənin 200-dən çox nüfuzlu şirkətinin 300-dən çox təmsilçisi, habelə bu ölkənin tanınmış ictimai-siyasi xadimləri, dövlət və hökumət nümayəndələri, millət vəkilləri, diplomatlar, kütləvi informasiya vasitələrinin rəhbərləri və digər şəxslər iştirak edirdilər.*

*Salona toplaşanlar Azərbaycan prezidenti Heydər Əliyevi və cənab Süleyman Dəmirəli hərarətli alqışlarla qarşıladılar. Görüşü giriş sözü ilə Türkiyə–Azərbaycan müştərək iqtisadi komissiyasının həmsədri Əli Yücəl açdı.*

*Türkiyə sənaye, ticarət və birjalar palatasının sədri Rifat Hısarcıqlıoğlu, Dövlət naziri Rəşad Doğru, Azərbaycanın Iqtisadi Inkişaf naziri Fərhad Əliyev və Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəl çıxış etdilər.*

* * *

**Heydər Əliyev:** Türkiyənin 9-cu prezidenti, əziz dostum-qardaşım, hörmətli Süleyman Dəmirəl!

Hörmətli nazirlər!

Dəyərli iş adamları!

Xanımlar və cənablar!

Sizin hamınızı səmimi-qəlbdən salamlayıram və Türkiyədə başqa bir məsələ ilə əlaqədar olduğum halda burada, «Çırağan» sarayında Türkiyənin dəyərli iş adamları ilə görüşümdən həddən ziyadə məmnun olduğumu bildirmək istəyirəm.

Bilirsiniz ki, mən İƏT təşkilatının zirvə görüşündə iştirak etmək üçün Türkiyəyə, İstanbula gəlmişəm. Biz dünən çox iş gördük. Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezərin sədrliyi ilə İƏT-in VII zirvə görüşü öz işini apardı və tamamladı. Türkiyə hökuməti İƏT-in növbəti zirvə görüşünə sədr seçildi, İƏT-ə başçılıq edəcəkdir. Ümidvaram ki, Türkiyə Cümhuriyyəti İƏT-ə çox böyük önəm verdiyinə görə, təşkilat gələn illərdə ölkələrimiz arasında əlaqələrin inkişaf etməsində yeni uğurlar qazanacaqdır.

Mən ayrıca olaraq, hörmətli prezident Əhməd Necdət Sezərlə görüşdüm, Türkiyə–Azərbaycan əlaqələri haqqında və onun daha da inkişaf etdirilməsi haqqında geniş söhbət apardıq. Hər dəfə olduğu kimi, bu dəfə də bizim görüşümüz dostluq, qardaşlıq, mehribanlıq şəraitində keçdi. Mən bu işləri qurtarandan sonra yeni bir işə başlamışam. Burada siz mənə yardımçı olduğunuza görə təşəkkür edirəm.

Mən buraya gələrkən bildirmişdim ki, Türkiyənin iş adamları ilə görüşmək arzusundayam. Keçən dəfə prezident Əhməd Necdət Sezər Bakıda olarkən danışdığım zaman ona bildirmişdim. Mənim bu arzum qəbul edilmişdir və çox məmnunam ki, bu işin təşkilatçıları, bizim gözəl insanlarımız, dostlarımız çox çalışıblar, yaxşı bir görüş hazırlayıblar.

Burada yaxşı çıxışlar söylənildi. Hörmətli Süleyman Dəmirəl hər dəfə olduğu kimi, çox geniş, dərin mənalı, çox əhəmiyyətli çıxış etdi. Əziz dostum, Azərbaycan haqqında, Azərbaycanın artıq 11 ildir keçdiyi əziyyətli müstəqillik yolu haqqında, bu yolda əldə etdiyimiz uğurlar haqqında, şəxsən mənim fəaliyyətim haqqında xoş sözlərə görə, izahatlara görə Sizə təşəkkür edirəm. Bildirmək istəyirəm, indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycan öz dövlət müstəqilliyini qoruyacaq, saxlayacaq, möhkəmləndirəcək, inkişaf etdirəcək və demokratik, hüquqi, dünyəvi, güclü bir Azərbaycan olacaqdır.

Bu yolda biz həmişə dost, qardaş Türkiyə Cümhuriyyəti ilə, türk xalqı ilə bir yerdə olmuşuq. Azərbaycan dövlət müstəqilliyini elan edəndən sonra Türkiyə ilk olaraq bu müstəqilliyi tanımışdır. Biz yenicə doğulmuş bir çocuq, bəbə kimi, hələ ayaqlarımızı ata bilmirdik, ancaq Türkiyə bizim qolumuzdan tutmuşdu, bizə yardım etmişdi və öz təcrübəsini bizə göstərmişdi. Mən bunu dəfələrlə demişəm, böyük Atatürkün yaratdığı Türkiyə Cümhuriyyətinin keçdiyi tarixi yol, əldə etdiyi nailiyyətlər Azərbaycan üçün həmişə örnək, nümunə olubdur. Biz çalışmışıq ki, bundan səmərəli istifadə edək və ölkəmizi yeni bir müstəqil yol ilə aparaq. Biz buna nail ola bilmişik.

Burada hörmətli Süleyman Dəmirəl dedi, bizim qarşımızda çox çətinliklər də olmuşdur, çevriliş cəhdləri də olmuşdur, Azərbaycanda vətəndaş müharibəsi də olmuşdur. Azərbaycan parçalanırdı. Ancaq xalqımız öz iradəsini göstərdi və biz bunların hamısının qarşısını aldıq. İndi Azərbaycan rahat bir yola çıxıbdır. Doğrudur,

bizim problemimiz var. Ermənistan–Azərbaycan münaqişəsi və Azərbaycan torpaqlarının işğal olunması problemi var. Bu başqa bir problemdir. Amma belə bir ağır problemi olmağına baxmayaraq, Azərbaycan böyük iqtisadi inkişaf yoluna çıxmış və inkişaf etmişdir.

Burada bizim Türkiyə tərəfindən çıxış edən dostlarımız, bizim Iqtisadi Inkişaf nazirimiz və xüsusən hörmətli Süleyman Dəmirəl əldə etdiyimiz nailiyyətlər haqqında danışdılar. Mən bu barədə vaxt almaq istəmirəm. Ancaq onu demək istəyirəm ki, biz çox çətin bir şəraitdə nailiyyətlər əldə etmişik.

İndi Azərbaycan inkişaf edən bir ölkədir. İqtisadiyyatı inkişaf edir. Təbiidir, Azərbaycanın böyük problemləri var. Birincisi Dağlıq Qarabağ problemidir. Torpaqlarımızın 20 faizi işğal altındadır. 8 ildən çoxdur ki, atəşkəs şəraitində yaşayırıq. Hələ ki, müharibə yoxdur. Ancaq sülh, barış da yoxdur. Bir milyondan artıq vətəndaşımız qaçqındır, köçkündür, çadırlarda yaşayır. Onlar işləyə bilmirlər, iş yerləri yoxdur. Biz onları yaşatmalıyıq. Amma çadırda yaşamaq nə qədər çətindir – bunu bilirsiniz. İki-üç il bir hadisə ilə əlaqədar çadırda yaşamaq olar. Amma 10-11 il çadırda yaşamaq... İndi bizdə uşaqlar var, çadırlarda doğulub, böyüyüb, çadırda məktəbə gedirlər. İnsanlar çadırda evlənir, ailə qururlar. İnsanlar çadırda həyatdan gedirlər. Bilirsiniz, nə qədər ağır, çətin şəraitdə yaşayırlar. Ancaq dözürlər. İnanırlar ki, məsələ sülh yolu ilə həll olunacaqdır.

İndi vaxt yoxdur, bu, böyük bir məsələdir, bu barədə demək istəmirəm. Bu çox çətindir. Ermənistan bizim torpaqlarımızı işğal etdiyinə görə Dağlıq Qarabağı Azərbaycandan qoparmaq istəyir. Biz isə öz qədim torpaqlarımızı itirə bilmərik. Onlar işğal etdikləri torpaqları azad etmirlər. Dünyada bir ölkə yoxdur, bir beynəlxalq təşkilat yoxdur ki, bu məsələni ədalətlə müzakirə etsin, desin ki, sən günahkarsan, sənin başqa ölkənin torpağını işğal etməyə haqqın yoxdur, sən buradan çıxmalısan.

Prezident kimi mənə deyirlər ki, gedin Ermənistanın prezidenti ilə danışın, razılaşın. Bunu Amerika da deyir, Rusiya da deyir, Fransa da deyir, ATƏT də deyir, Türkiyə də deyir, Avropa Birliyi də deyir. Hamısı deyir ki, onlarla razılaşın, hansı razılığı əldə etsəniz, biz də ona razı olacağıq, bu işdə sizə kömək edəcəyik. Mən razılaşa bilmirəm. Çünki niyə? O, torpaqları işğal edib məndən tələb edir. Əvvəla, onun tələbini yerinə yetirə bilmirəm. Bəs nə olsun? Müharibə edək?! Artıq bizim xalqımızda müharibə əhval-ruhiyyəsi qalxır – gedək müharibə edək, vuruşaq, ya torpaqlarımızı azad edək, ya da məhv olaq. Amma bu da doğru yol deyildir. Baxmayaraq ki, bizim xalqımızda belə fikirlər artıq çox geniş yayılıbdır. Mən bir cümhur başqanı kimi, bunu məqbul hesab etmirəm, bunun qarşısını alıram. Amma təsəvvür edin, belə şəraitdə yaşamaq nə qədər çətindir.

Bütün bunlara baxmayaraq, Azərbaycan inkişaf edir. Bu inkişafda da Türkiyə ilə bizim iqtisadi əlaqələrimiz həmişə xüsusi yer tutubdur. İlk illərdə biz özəl sektor nədir bilmirdik, başqa şeylər bilmirdik. Biz 70 il kommunist rejimində yaşamışıq. Hər şey ümumi, dövlətin idi, şəxsi mülkiyyət ola bilməzdi. Ona görə də biz bir neçə il ağır fikirləşmə yolu ilə gedirdik. Çoxları deyirdi ki, yox, onu dəyişdirmək olmaz. Onu dəyişdirsəniz, hər şey batacaqdır. Mən isə düşünürdüm, yox, risk etmək lazımdır, dəyişdirmək lazımdır. Hələ 1995-ci ildə mən torpaq islahatı keçirdim. Ondan iki il sonra torpağı kəndlilərə payladım, bütün heyvanları payladım. Kolxozları, sovxozları dağıtdım. İlk il çətinliklər oldu. İndi bizdə aqrar sektor, kənd təsərrüfatı çox inkişaf edibdir. Biz özümüzü taxılla təmin edirik. Əti, südü, başqa şeyləri əvvəllər Rusiyadan gətirirdik. İndi hamısı Azərbaycanda var. Azərbaycanın kəndində özəl sektor inkişaf edir.

Biz özəlləşdirmə keçirdik. Ticarət tamamilə özəl sektordadır. İndi Azərbaycanda ticarət çox gözəldir. Sizin mağazalarda olan şeyləri gedib orada da ala bilərsiniz. Sizdə nə yoxdursa, gəlin oradan alın. Ticarət özəl oldu, nəqliyyat da belə oldu. Qısa bir zamanda böyük dəyişikliklər əldə etdik.

Süleyman bəy elektrik şəbəkəsindən danışdı. Burada «Barmek» şirkətinin rəhbəri oturubdur. Siz bəzi şeyləri bilmirsiniz. Biz elektrik enerjisini hasil edirik, insanlara veririk, pulunu ala bilmirik. Biz özümüz 6 milyard kubmetr qaz hasil edirik. 4 milyard kubmetr Rusiyadan alırıq.

Əhaliyə, insanlara qaz veririk, amma pulunu ala bilmirik. Pulunu vermirlər. İndi təsəvvür edin, biz dövləti nə cür saxlayırıq. Çox sağ olsun, Hüseyn Arabul gəldi dedi ki, mən bu ağır işi götürəcəyəm. Mən dedim, bu çox ağırdır, ola bilər sonra qaçdı. Amma hələ ki, qaçmayıbdır və görürəm, hələ qaçmayacaqdır. «Bakıelektrik-şəbəkə»ni ona verdik. Çox çətin işlədir. Ancaq indi satılan enerjinin 49 faiz dəyəri ödənilir. Amma biz 8–10 faiz yığa bilirdik.

İndi «Sumqayıtelektrikşəbəkə»ni götürübdür. Sonra nə iş görəcəksən, 3 ildə 80 faizə çatdıracaqsan? Çox yaxşı, təşəkkür edirəm.

Bax, budur, Türkiyə şirkətinin, türk iş adamının Azərbaycanda ölkəmiz üçün gördüyü çox önəmli iş. Bəlkə Türkiyə iş adamlarının Azərbaycanda indiyə qədər gördüyü işlərdən ən önəmlisi budur. Çünki bilirsiniz, nə qədər elektrik enerjisi işlədirik. Bakı böyük şəhərdir. İki milyon əhalisi var. Bizdə metropoliten işləyir, başqa şeylər var. Nə qədər elektrik enerjisi gedir, bizim nə qədər vəsaitimiz gedirdi. İndi isə büdcəyə nə qədər vəsait gələcəkdir. Güman edirəm ki, belə iş adamları Azərbaycana bundan sonra daha da çox gələcəklər.

İndiyə qədər Azərbaycana gələn adamlar çox iş görüblər. Onların hamısına təşəkkür edirəm. Əgər bu işlər olmasaydı, indi Azərbaycanda, məsələn, inşaat, ticarət və digər şeylər bu səviyyədə ola bilməzdi. Ancaq mən istərdim ki, Türkiyənin iş adamları gəlib istehsala sərmayə qoysunlar.

Bir şey istehsal edək. Mən çox məmnunam ki, hörmətli Sabançı bizim bu məclisdədir. Mən buraya çox gəlib-gedirəm, amma onu az görürəm. Onu görməyə çox çalışıram. Ancaq bir dəfə deyirlər, Sabançı Amerikadadır, bir dəfə deyirlər İngiltərədədir, mən onu görə bilmirəm. İndi Allah nəsib edib ki, burada görüşmüşük, bir yerdə oturmuşuq. Amma o, Azərbaycana heç ayağını qoymayıbdır.

Hörmətli Sabançı, indi mən bu insanların yanında, televiziyanın qarşısında sizə müraciət edirəm. Birincisi, siz mənim şəxsi qonağım, dostum kimi, Azərbaycana gəlin. Azərbaycana baxın, görün. Heç bir iş görməsəniz də gəlin, orada görünün.

Beləliklə, indi Türkiyə–Azərbaycan iqtisadi əlaqələri bu yerə gəlib çatıbdır. Biz bu mərhələyə gəlmişik. O xırda işlər, məsələn, restoranlar, mağazalar, inşaatdır – bunlar hamısı çox yaxşıdır. Bizə çox yardım etdi və hərtərəfli mənfəət götürdük. İş adamları da mənfəət götürdü, Azərbaycan da bir çox şeyləri öyrəndi. Bizim inşaatçılar Türkiyədən gələn inşaat şirkətlərindən çox şey öyrəndilər. İndi öyrəniblər, özləri şəhərdə 20 mərtəbəli evlər tikirlər. Bu, böyük hadisədir və bizim əməkdaşlığımızın, dostluğumuzun nəticəsidir. Amma bundan sonra daha geniş iş görmək lazımdır.

Bizim neft sektorunda gördüyümüz işlər haqqında burada danışıldı. Çox məmnunam ki, hörmətli Süleyman Dəmirəl də bu barədə danışdı və nə qədər əhəmiyyətli olduğunu dedi. Ancaq bir neçə kəlmə demək istəyirəm.

Mən 1994-cü ildən Türkiyəyə gəlirəm. Türkiyəyə hər dəfə gələndə hamı mənə sual verirdi: Bakı–Ceyhan, Bakı–Ceyhan. Mən özüm də Bakı–Ceyhanı düşünürdüm. Amma bilirdim ki, Bakı–Ceyhanı həyata keçirmək nə qədər çətin işdir. İndi isə Bakı–Ceyhanı soruşmurlar. Heç kəs soruşmur. Çünki Bakı–Ceyhan var.

Ancaq bilməlisiniz, mən Bakı–Ceyhan üçün çox ağır yollardan keçdim. Bağışlayın, bəlkə də yükün çoxu mənim üstümə düşdü. Mən idim bu işi aparan, mən idim bu işi görən. Mən Amerika, Avropa neft şirkətlərinə sübut etməliydim ki, Bakı–Ceyhanı həyata keçirmək lazımdır. 1994-cü ildə «Əsrin müqaviləsi»ndə bu göstərilmişdi, imzalanmışdı. Amma biz sonra Bakı–Supsa ixrac boru xəttini tikdik. 1999-cu ildən indiyə qədər Bakı–Supsa ilə təxminən 25 milyon ton neft ixrac olunubdur. Şirkətlər dedilər ki, Bakı–Ceyhan çox baha olacaq, çətin olacaq, gəlin Bakı–Supsanı genişləndirək və nefti Bakı–Supsa vasitəsilə göndərək. Mən dedim, olmaz.

Hörmətli Süleyman bəylə danışdım, dedim siz bildirin ki, tankerləri Bosfordan daha buraxmayacaqsınız. Yoxsa Bakı–Supsanı genişləndirəndə yenə də Bosfordan keçməlidir. Bosfordan nə qədər keçər? Bizim məqsədimiz o idi ki, bu boru xətti Türkiyədən keçsin, Ceyhana getsin, tankerlər daha dənizdən keçməsin, Bosfordan keçməsin, gəlib nefti Ceyhandan götürsünlər. Mənim bu mübarizəm həmin Qərb şirkətləri ilə, hansılar ki, pulu, hər şeyi qoyurlar, onlarla idi. Onlar öncə deyirdilər ki, olmaz. Bakı–Novorossiysk kəməri var, oradan nəql edək. Ondan da qurtardıq, bundan da qurtardıq. Sonra dedilər ki, pul yoxdur. Pul da tapdıq, filan etdik və 1998-ci ildə Türkiyə Cümhuriyyətinin 75-ci ildönümündə Ankarada bəyannaməni imzaladıq. Türkiyə Cümhuriyyəti, Azərbaycan Cümhuriyyəti, Gürcüstan, Qazaxıstanı da qatdıq və bəyannamə imzalandı. Ondan sonra, 1999-cu ilin noyabr ayında ATƏT-in İstanbuldakı zirvə görüşündə cümhur başqanı Süleyman Dəmirəl, cümhur başqanı Eduard Şevardnadze, cümhur başqanı Nursultan Nazarbayev, cümhur başqanı Heydər Əliyev son olaraq sazişi imzaladıq. Amerikanın cümhur başqanı Bill Klinton da ona öz imzasını qoydu. Ondan sonra biz bu işləri apara bildik.

Artıq indi inşaata başlamışıq. Mən çox məmnunam ki, «Botaş» şirkəti Türkiyədə inşaatı başlayıbdır. Bizim şirkətlər də – həm Azərbaycan ərazisində, həm də Gürcüstan ərazisində işə başlayıbdır. Düşünürəm ki, 2004-cü ildə olmasa da, 2005-ci ildə Bakı–Tbilisi–Ceyhan tamam olacaq və biz Ceyhan limanında gedib Azərbaycan neftinin oraya çatmasını görəcəyik.

Bakı–Tbilisi–Ərzurum qaz kəməri barədə. Öncə heç kəsin ağlına gəlməzdi ki, Azərbaycanda bu qədər təbii qaz olacaq və biz onu çıxaracağıq. Amma bu da oldu və anlaşmaları yenə burada imzalamışıq. İş gedir. Bir az problemlər var, bir balaca gecikir. Türkiyə tərəfdə problemlər var. Bizim şirkətlərdə də – yəni bizim deyəndə, oradakı şirkətlərin hamısı Avropanın, Amerikanın şirkətləridir – problemlər var. Ancaq onları da həll edəcəyik və güman edirəm ki, 2006-cı ildə də «Şahdəniz» qaz yatağından qaz Ərzuruma çatacaqdır və Türkiyə ondan istifadə edəcəkdir.

Biz bu qədər böyük işlər görmüşük. Bunlar təkcə iqtisadi məsələ deyildir. Bunlar bizim ölkələrimizi polad tellərlə bir-birinə bağlayır. Bu bizim təhlükəsizliyimizi təmin edir. Bu bizim daim bir yerdə olduğumuzu göstərir. Bakı–Tbilisi–Ceyhan 10, 20 il üçün deyil, 100 illər üçündür. Bilin ki, Xəzər dənizində neft hələ XXII əsrədək olacaqdır. İndi görün, nə qədər vaxt üçün biz belə layihələr hazırlamışıq. Ona görə bizim bu işlərimiz, təbiidir ki, başqa işlərimiz də çox yüksək qiymətə layiqdir. Ancaq bu işlər böyük işlərdir.

Biz çalışmalıyıq ki, hər bir iş adamına, Türkiyənin iş adamına Azərbaycanda imkan yaradaq ki, gəlib iş görsünlər. Amma indi rəqabət daha da artıbdır. Əgər beş il bundan qabaq belə bir rəqabət yox idisə, indi rəqabət var. Çünki iş görmək istəyənlər çoxdur. Şərq ölkələrindən, Qərbdən gələnlər çoxdur. Azərbaycanın öz yerli iş adamları artıq yaranıbdır, onlar iş görürlər. Bu rəqabət nəticəsində iş almaq lazımdır. Mən istərdim ki, Türkiyənin iş adamları bunu da nəzərə alsınlar.

Bilirsiniz, Türkiyə ilə Azərbaycanın dostluğu, qardaşlığı ancaq iqtisadi əlaqələrlə bağlı deyildir. Bizim dostluğumuzun, qardaşlığımızın dərin kökləri var. Bizim xalqlarımız qədimdən birdir, bəli, biz bir millət, iki dövlətik. Ona görə də bizim dərdimiz birdir, bizim sevincimiz birdir, qəmimiz, kədərimiz birdir, bayramımız birdir – hamısı birdir.

Türkiyə qüdrətli bir dövlətdir. Dünyanın böyük dövlətlərindəndir. Türkiyə demokratik dövlətdir və demokratiyanı müsəlman aləmində inkişaf etdirən ilk dövlətdir. Türkiyənin böyük iqtisadi potensialı var. Türkiyənin güclü ordusu var. Türkiyə bizim üçün dayaqdır, arxadır. Mən inanıram ki, Türkiyə bundan sonra da böyük öndər Atatürkün yolu ilə gedərək, böyük nailiyyətlər əldə edəcəkdir. Əmin ola bilərsiniz ki, Azərbaycan daim Türkiyənin yanında olacaqdır. Azərbaycan bir müstəqil dövlət kimi, demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf edəcəkdir, inkişaf etmiş dövlətlər səviyyəsinə qalxacaqdır. Bu da Türkiyə–Azərbaycan dostluğunu bir-birinə daha da bağlayacaqdır. Bizim dostluğumuz, qardaşlığımız əbədidir, dönməzdir, sarsılmazdır.

Yaşasın Türkiyə Cümhuriyyəti!

Yaşasın türk xalqı!

* * *

*Sonra Azərbaycan prezidenti Heydər Əliyevə iş adamlarına göstərdiyi diqqət və qayğıya görə Türkiyə–Azərbaycan müştərək iqtisadi komissiyası adından plaket təqdim olundu. Azərbaycanda fəaliyyət göstərən yerli və xarici ölkə jurnalistlərinə göstərdiyi qayğıya, mətbuata verdiyi önəmə, yaratdığı gözəl şəraitə görə prezident Heydər Əliyevə Türkiyənin «Samanyolu» televiziya kanalının «Medianın dostu» mükafatı təqdim edildi.*

*Görüşdən sonra Türkiyənin çox nüfuzlu iş adamları dövlətimizin başçısına yaxınlaşaraq, Azərbaycan prezidentinə minnətdarlıqlarını bildirdilər, ölkəmizlə əməkdaşlığı daha da sıxlaşdırmağa hazır olduqlarını söylədilər.*

## TÜRKİYƏNİN VƏ BU ÖLKƏDƏ AKKREDİTƏ OLUNMUŞ XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN KEÇİRDİYİ MƏTBUAT KONFRANSINDA BƏYANATLA ÇIXIŞI

*İstanbul,*
*«Çırağan Palas» mehmanxanası*

*15 oktyabr 2002-ci il*

Hörmətli mətbuat nümayəndələri!

Mən sizi salamlayıram. Sizinlə görüşümdən məmnun olduğumu bildirirəm. Bilirsiniz ki, mən Türkiyəyə hörmətli prezident Əhməd Necdət Sezərin dəvəti ilə, İqtisadi Əməkdaşlıq Təşkilatının VII zirvə görüşündə iştirak etmək üçün gəlmişəm.

Dünən bizim görüşlərimiz oldu. Bildirmək istəyirəm ki, bu görüşlər çox səmərəli keçdi. Biz İƏT-in fəaliyyətini təhlil etdik, müasir vəziyyəti müzakirə etdik və ölkələrimiz arasında, təşkilata daxil olan ölkələr arasında iqtisadi və başqa əlaqələrin inkişaf etməsi üçün müəyyən fikirlər söyləndi, müəyyən təkliflər irəliyə sürüldü. Bu gün isə mən İstanbulda olmağımdan istifadə edərək Türkiyənin iş adamları ilə görüşmək arzusunda olmuşdum. Onu da burada lazımi təşkilatlar etdilər. Türkiyənin, demək olar ki, çox hörmətli iş adamları, bilmirəm 200, yaxud 250–300 nəfər toplaşmışdı. Biz görüşdük, söhbət etdik, Türkiyə–Azərbaycan iqtisadi əlaqələri haqqında məruzələr dinlədik. Ondan sonra isə Türkiyənin 9-cu prezidenti hörmətli Süleyman Dəmirəl nitq söylədi. Sonra mən fikirlərimi söylədim.

Mən bu görüşdən çox məmnunam. Çünki həqiqətən Türkiyənin çox böyük iş adamları ilə səmərəli danışıqlar apardıq. İndi Azərbaycanda hansı işləri görmək mümkündür – o barədə məlumatlar verildi. Eyni zamanda, Türkiyənin iş adamlarının indiyə qədər Azərbaycanda gördükləri işlər haqqında da məlumatlar verildi. Çünki bəzən ayrı-ayrı insanlar belə bir fikir yaratmaq istəyirlər ki, guya son zamanlar Azərbaycanda Türkiyənin iş adamlarına istənilən qədər iş verilmir, yaxud iş yoxdur. Bunlar hamısı yalnış şeylərdir. Sadəcə, Türkiyə–Azərbaycan dostluq, qardaşlıq əlaqələrini müəyyən qədər ləkələmək üçün bu sözləri ortaya atırlar.

Mən təkrar etmək istəmirəm. Orada rəqəmlər deyildi. Beş minə qədər türk iş adamı daim Azərbaycanda işləyir, böyük layihələr həyata keçirilir, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum layihələri nəhəng layihələrdir. Onlardan əlavə, çoxlu başqa işlər də görülür. Ona görə də güman edirəm ki, heç kəs belə yollarla Türkiyə–Azərbaycan dostluq, qardaşlıq əlaqələrinə xələl gətirə bilməz.

Mən çox iş adamlarını Azərbaycana dəvət etdim. Söz verdilər, gələcəklər və yeni-yeni işlərə başlayacağıq.

Türkiyə ilə Azərbaycan arasında əlaqələr daim inkişaf edir. Biz son vaxtlar çox böyük işlər gördük. Məsələn, nəhayət, Bakı–Tbilisi–Ceyhan layihəsinin inşasına başladıq. Sentyabrın 18-də Bakıda onun təməlqoyma mərasimini keçirdik. Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezər, Gürcüstan prezidenti hörmətli Edurad Şevardnadze və Azərbaycan prezidenti orada iştirak etdilər. İşə başlamışıq və güman edirəm ki, uğurla başa çatacaqdır.

Bakı–Tbilisi–Ərzurum qaz kəməri haqqında da lazımi tədbirlər görülür. Orada bir balaca gecikmələr var, onlar o qədər də əhəmiyyətli deyildir. Biz onun da inşasına başlayacağıq. Beləliklə, iki böyük layihənin, tarixi əhəmiyyəti olan layihələrin iqtisadi əhəmiyyəti məlumdur. Azərbaycanın Xəzər dənizindən hasil olan nefti – orada olduqca çox böyük neft ehtiyatları var – Bakı–Tbilisi–Ceyhan ilə Türkiyənin Ceyhan limanına axacaq, dünya bazarlarına gedəcəkdir. Bu kəmərin ömrü çox uzundur. Güman edirəm ki, XXI əsrdə mütləq öz fəaliyyətini davam etdirəcək və XXII əsrə də keçə bilər. Çünki Xəzər də bildiklərimiz sərvətlərin çox olduğunu göstərir, amma hələ bilmədiyimiz şeylər də var. Ona görə bunun gələcəyi çox böyükdür.

Eləcə də «Şahdəniz» qaz yatağı. İndi orada 1 trilyon kubmetr qaz ehtiyatı olduğu bildirilir. Ancaq bu, ilkin məlumatdır və adətən, ehtiyatlı davranırlar, çox böyük rəqəm demək istəmirlər. Düşünürəm ki, orada qaz daha da çoxdur. Amma təkcə orada deyil, Xəzərin başqa yerlərində də zəngin qaz yataqlarımız var. Ona görə Azərbaycan böyük qaz ölkəsi kimi, dünyaya qaz ixrac edəcəkdir. Güman edirəm, gələcəkdə biz Türkiyənin ərazisi ilə qaz kəmərini Avropaya da aparacağıq. Çünki bilməlisiniz ki, indi Avropada istifadə olunan qazın mənbələri get-gedə azalır. Avropa yeni qaz mənbələri arayır və bu baxımdan yenə də Xəzər hövzəsi mühüm yer tutur.

Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür, iqtisadiyyat sürətlə inkişaf edir. Bizim böyük bir problemimiz – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi indiyə qədər həll olunmayıbdır. Bu da Azərbaycanı yaralayıb və bu yara indiyə qədər bizim bədənimizdədir. Torpaqlarımızın 20 faizi Ermənistan

silahlı qüvvələrinin işğalı altındadır. İşğal olunmuş torpaqlardan 1 milyondan artıq azərbaycanlı zorla çıxarılıb, onların tam əksəriyyəti çadırlarda yaşayır. Ümumiyyətlə, çadırda yaşamaq çox çətindir. Amma bir-iki-üç il buna dözmək olar, çadırda 10 il yaşamaq isə dəhşətli bir şeydir. Ancaq bizim insanlar buna dözürlər və ümid bəsləyirlər ki, məsələ sülh yolu ilə həll olacaqdır.

Bəli, biz də bu ümidlə yaşayırıq, çalışırıq. Bu barədə çox işlər görürük. Həm ATƏT-in Minsk qrupu vasitəsilə, həm bilavasitə Ermənistan və Azərbaycan prezidentlərinin görüşləri vasitəsilə, həm də başqa beynəlxalq təşkilatların vasitəsilə sülh danışıqları aparırıq. Ancaq sülh danışıqları uzandığına görə Azərbaycanda insanların səbri tükənir və bəziləri müharibə etmək, savaş, müharibə yolu ilə torpaqları azad etmək fikirlərini daha da çox irəli sürürlər. Belə əhval-ruhiyyə indi Azərbaycanda keçən illərə nisbətən daha da çoxdur. Bunun da əsası var. Dediyim kimi, nə qədər dözmək olar? Ancaq bizim dövlətin siyasəti belədir ki, hələ məsələnin sülh yolu ilə həll olunmasına çalışmalıyıq. Burada imkanlar hələ tükənməyibdir, imkanlar var. Biz bu sahədə öz işimizi aparırıq.

Bu böyük ağır problemin olmasına baxmayaraq, Azərbaycanın iqtisadiyyatı inkişaf edir, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulubdur və artıq fəaliyyət göstərir. Azərbaycanda insan haqları qorunur, insan azadlıqlarının hamısı təmin olunubdur. Azərbaycanda bazar iqtisadiyyatı hökm sürür. Bizim iqtisadiyyatda əldə etdiyimiz nailiyyətlər əsasən bazar iqtisadiyyatının nəticəsidir. Bizim 1994-cü ildə irəliyə sürdüyümüz neft strategiyası həyata keçirilir və onun nəticəsində Azərbaycana xarici investisiya cəlb edilibdir. Neft sahəsinə təxminən 6 milyard dollar investisiya cəlb olunubdur. Amma 1993-cü ildən indiyə qədər Azərbaycana təxminən 10 milyard dollara qədər investisiya qoyulubdur. Onun içərisində xarici investisiya da var, daxili investisiya da var. Biz gələn ilin büdcəsini hazırlamışıq, normal büdcədir. Bəzi sahələrdə – büdcədən təmin olunan təbəqələrin maaşları artırılacaqdır. Bir çox başqa sosial məsələləri həll etmişik və həll edirik. Azərbaycanda vəziyyət belədir. Mən daha çox vaxt almaq istəmirəm. Əgər indi kimin sualı olsa, mən cavab verməyə hazıram.

* * *

*Sonra dövlətimizin başçısı Heydər Əliyev jurnalistlərin suallarına ətraflı cavab verdi.*

* * *

*Oktyabrın 16-da Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin İstanbula işgüzar səfəri başa çatdı.*

*Dövlətimizin başçısı maşın karvanının müşayiəti ilə İstanbulun Atatürk beynəlxalq hava limanına gəldi.*

*Burada Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident Heydər Əliyev fəxri qarovul dəstəsinin önündən keçdi.*

*Azərbaycan prezidentini İstanbul valisi Erol Çakır, Mərmərə Qrupu Vəqfinin sədri Akkan Süvər, Azərbaycanın Türkiyədəki səfiri Məmməd Əliyev, respublikamızın İrandakı səfiri, İƏT-in Daimi nümayəndələr Şurasının üzvü Abbəsəli Həsənov, ölkəmizin İstanbuldakı Baş konsulu Xeyrəddin Qoca və digər rəsmi şəxslər yola saldılar.*

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM TARYA HALONENƏ**

Hörmətli xanım Prezident!

Vantaa şəhərciyindəki ticarət mərkəzində baş vermiş terror aktı nəticəsində insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və Finlandiya xalqına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*15 oktyabr 2002-ci il*

## İSTANBULDAN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*16 oktyabr 2002-ci il*

**H e y d ə r  Ə l i y e v:** Mənim bu səfərim haqqında sizin məlumatınız var. Yaxşı ki, bizim Azərbaycan televiziyası hər yerdən canlı yayım verir. İƏT-in VII zirvə görüşü haqqında məlumatlar verilibdir. Sonra mənim orada Türkiyənin iş adamları ilə görüşməyim haqqında da məlumatlar verilibdir. Ona görə sizə deyiləsi sözüm yoxdur, hər şeyi bilirsiniz.

Mən onu deyə bilərəm ki, zirvə görüşü çox yüksək səviyyədə keçdi, çox səmərəli oldu. Bu, çoxdandı keçirilməmişdi. Bu tədbirin əhəmiyyəti var, bizim ölkələrimizin iqtisadi əlaqələrinin inkişaf etməsi çox zəruridir, lazımdır.

Mən sonra orada olan prezidentlərin, demək olar, hamısı ilə ikitərəfli görüşlər keçirdim. Birinci növbədə, Türkiyənin prezidenti hörmətli Əhməd Necdət Sezər ilə yenidən görüşdük. Türkiyə–Azərbaycan əlaqələri haqqında söhbət etdik, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum kəmərləri haqqında danışdıq, onların problemləri barədə danışdıq. Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr dostluq, mehribanlıq, qardaşlıq əlaqələridir.

Sonra mən İran prezidenti cənab Xatəmi ilə çox səmərəli görüş keçirdim. Pakistanın prezidenti cənab Pərviz Müşərrəf ilə çox səmərəli görüşüm olubdur. Əfqanıstanın müvəqqəti hökumətinin başçısı Həmid Kərzai ilə ilk dəfə görüşdüm, tanış oldum, yaxşı söhbətimiz oldu. Başqaları ilə də olubdur.

Dünən İstanbulda Türkiyənin, demək olar, ən böyük, ən hörmətli iş adamları ilə görüşdük, geniş söhbət apardıq. Onlar çıxış etdilər. Bizim tərəfdən məlumatlar verildi. Azərbaycanın bugünkü iqtisadi vəziyyəti, iqtisadi imkanları haqqında, Azərbaycanda xarici investorların görə biləcəyi işlər haqqında məlumat verildi. Çox səmərəli görüş oldu. Mən də orada nə lazımdırsa, onlarla danışdım. Mən bunu çox əhəmiyyətli hesab edirəm. Hesab edirəm ki, bu görüş Türkiyə iş adamlarının Azərbaycana gəlib yenidən böyük sərmayələr qoymasına yaxşı əsas yaradacaqdır. Bütün bu işləri qurtarıb gəlmişik. Mən çox razıyam, hesab edirəm ki, səfər çox səmərəli, əhəmiyyətli olmuşdur.

**S u a l: Cənab Prezident, Siz İstanbulda olduğunuz vaxt belə bir məlumat yayıldı ki, Türkiyə Ermənistanla sərhədləri açmaq istəyir. Bu barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Elə şey yoxdur. Belə məlumatlar çox yayılır. Onlar sərhədləri açmayacaqlar. Mən prezident Əhməd Necdət Sezər ilə görüşümdə yenə bu məsələni xüsusi olaraq qoymuşam.

**S u a l: Cənab Prezident, Siz dediniz ki, Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum kəmərləri müzakirə olundu. Xarici mətbuatın yazdığına görə, guya Siz bildirmisiniz ki, Bakı–Tbilisi–Ceyhan işə düşəndən sonra Bakı–Supsa kəməri fəaliyyətini dayandıracaqdır. Bu, həqiqətə uyğundurmu?**

**C a v a b:** Elə şey olmayıbdır. Kimsə nədənsə, haradasa istifadə edir. Təbiidir ki, Bosfordan tankerlərin keçməsi ekoloji cəhətdən Türkiyəyə, İstanbula çox zərər verir. İş adamları ilə görüşdə mən onlara dedim. Bakı–Tbilisi–Ceyhan layihəsinin çətinliklərindən biri də bundan ibarət idi ki, onun hazırlanmasında iştirak edən şirkətlər – onlar sizə məlumdur – bir neçə il bundan öncə layihəni bir az təxirə salmaq, Supsa xəttini genişləndirmək istəyirdilər. Mən o vaxt bunun əleyhinə oldum. Əgər siz o vaxtları xatırlayırsınızsa, bunu bilirsiniz. Bu barədə çox ciddi mübarizə getdi. Hətta o vaxt Türkiyənin prezidenti Süleyman Dəmirəl bəyanat verdi ki, əgər Supsadan əlavə neft gəlsə, tankerlər boğazlardan buraxılmayacaqdır. Mən bunu orada dedim. Bunu deyəndə bir az zarafat da etdim ki, ola bilər, Bakı–Tbilisi–Ceyhan tamam işə düşəndən sonra Supsaya ehtiyac olmayacaqdır. İndi bunun quyruğundan niyə tutursan? Hələ Bakı–Tbilisi–Ceyhan işə düşə, onun gücü 60–70 milyon tona çata, ondan sonra görək nə olacaq.

**S u a l: Cənab Prezident, Rusiya Abxaziyadan Ermənistana dəmir yolunun çəkilməsi ilə əlaqədar işlərə başlayıbdır. Buna rəsmi Bakının münasibəti necədir?**

**C a v a b:** Bilirsiniz, bunlar hamısı söhbətdir. Ona görə mən münasibət bildirmək istəmirəm.

**S u a l: Cənab Prezident, Sizin türk iş adamları ilə görüşünüzə türk–erməni biznes şurasının həmsədri də dəvət edilmişdi. O özü demişdi ki, mən də dəvət olunmuşam...**

**H e y d ə r  Ə l i y e v:** O kimdir, ermənidir?

**J u r n a l i s t:** Xeyr, türkdür.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, nə olsun, dəvət edilmişdi? Bütün iş adamları dəvət olunmuşdular. Bunların başında damğa yoxdur ki, soruşam, bu kimdir, haranın iş adamıdır. Nə qədər iş adamı dəvət olunmuşdu. Mən onları tanımıram ki!

**S u a l: Cənab Prezident, NATO-nun Avropadakı müttəfiq qoşunlarının komandanı Bakıdadır. Onun bu gün Sizinlə görüşü nəzərdə tutulur. Bu görüşdə NATO ilə Azərbaycan arasında əməkdaşlığın hansı sahələri müzakirə olunacaqdır?**

**C a v a b:** Vallah-billah, mən sizin hamınızı çox istəyirəm. İstəyirəm ki, yaxşı jurnalist olasınız. Yaxşı suallar hazırlayasınız, verəsiniz. Sən deyirsən ki, o Bakıdadır, Sizinlə görüşəcəkdir. Amma görüşəcəyik, görüşməyəcəyik, hələ məlum deyildir. Deyirsən, NATO ilə Azərbaycan arasında hansı əlaqələr məsələsində danışacaqsınız. Əgər danışacağamsa, mən bunu sizə deməręm. Axı belə şeylərlə niyə özünüzün də, mənim də vaxtımı alırsınız. Konkret kimin nə sualı var?

**S u a l: Cənab Prezident, «Şahdəniz» layihəsinin maliyyələşdirilməsi ilə bağlı məsələ müzakirə olundumu?**

**C a v a b:** Orada elə bir problem yoxdur.

**S u a l: Cənab Prezident, Sizin mətbuatın vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bir neçə göstərişiniz olubdur. Bir təklif var idi...**

**C a v a b:** Mətbuata kredit də verdik, hər şey də verdik. Bundan artıq nə ola bilər? Mən o təklifi bilmirəm, biləndə münasibətimi bildirəcəm. Sağ olun.

## NATO-nun AVROPADAKI BİRLƏŞMİŞ SİLAHLI QÜVVƏLƏRİNİN KOMANDANI – AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ AVROPADAKI SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ KOMANDANI GENERAL COZEF RALSTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 oktyabr 2002-ci il*

Hörmətli qonaqları səmimiyyətlə salamlayan, onların respublikamıza səfərini çox əhəmiyyətli hesab etdiyini vurğulayan dövlətimizin başçısı Heydər Əliyev bildirdi ki, Azərbaycan «Sülh naminə tərəfdaşlıq» proqramı və bir çox digər proqramlar çərçivəsində NATO ilə əməkdaşlıq edir. Bununla əlaqədar bir çox görüşlər keçirilmiş, NATO-nun nümayəndə heyətləri Azərbaycana səfərlər etmişlər. Ancaq NATO-nun Avropadakı Birləşmiş Şilahlı Qüvvələri Komandanı Azərbaycana ilk dəfədir gəlir. Güman edirəm ki, ölkəmizə bu qısa səfəriniz zamanı siz birincisi, Azərbaycanla müəyyən qədər yaxından tanış olacaq, ikincisi, respublikamızın müdafiə, xarici işlər nazirləri və digər təşkilatların rəhbərləri ilə görüşəcək, NATO–Azərbaycan əlaqələrinin bugünkü vəziyyəti və gələcəyi haqqında lazımi təhlillər aparacaqsınız.

Prezident Heydər Əliyev daha sonra dedi ki, hesab edirik, məlum «Azadlığa Dəstək Aktı»na 907-ci düzəlişin hüquqi qüvvəsi dayandırıldıqdan sonra Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasındakı əlaqələr bu sahədə də genişlənəcək və inkişaf edəcəkdir. Bütün bunlar isə Azərbaycan ilə NATO-nun əməkdaşlığının daha da inkişaf etməsinə əsas yaradacaqdır.

2001-ci ilin 11 sentyabrında Amerika Birləşmiş Ştatlarının Nyu-York və Vaşinqton şəhərlərində baş vermiş hadisələr bizi çox sarsıtdı. Bu dəhşətli terror hadisələri təkcə Amerika xalqına, Amerika Birləşmiş Ştatlarına yox, bütün bəşəriyyətə, insanlığa qarşı yönəldilmişdir. Ona görə də biz Amerika Birləşmiş Ştatlarının təklif etdiyi antiterror koalisiyasına dərhal qoşulduq və bu sahədə öz üzərimizə düşən vəzifələri indiyə qədər yerinə yetiririk.

NATO tərəfindən Əfqanıstanda aparılan əməliyyatlarda da biz xidmətlərimizi göstərmişik və bundan sonra da göstərəcəyik. Türkiyə Respublikasının hazırda Əfqanıstanda olan hərbi hissələrinin tərkibində Azərbaycanın da bir taqımı iştirak edəcəkdir. Beləliklə, bizim əməkdaşlığımız davam edir. Eyni zamanda, bir çox sahələrdə əməkdaşlığımızın genişlənməsinə və Azərbaycana yardım edilməsinə də çox ehtiyac vardır. Türkiyəyə işgüzar səfərdən dərhal sonra vaxt tapıb onları qəbul etdiyinə görə prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən, NATO-nun Avropadakı Silahlı Qüvvələrinin Komandanı kimi, ilk dəfə Azərbaycana səfər etməsindən çox məmnun qaldığını söyləyən cənab Cozef Ralston dövlətimizin başçısını əmin etdi ki, bu, Azərbaycana səfər edən sonuncu komandan olmayacaqdır. Ötən 8 ildə Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində özünü əla tərəfdaş kimi göstərmişdir. Keçən il Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində keçirilən tədqiqatların ev sahibi olmuşdur. Halbuki, on il bundan əvvəl bu barədə heç düşünmək də olmazdı.

Cənab Prezident, Sizə və bütün Azərbaycan xalqına minnətdarlığımı bildirirəm ki, Azərbaycanın kiçik kontingenti NATO-nun Kosovadakı əməliyyatlarında uğurla iştirak etmişdir. Bildiyiniz kimi, onlar orada Türkiyə batalyonu ilə birlikdə qulluq edirdilər. Mən Kosovanın cənub hissəsində onlara baş çəkmişdim. Əmin olmuşam ki, onlar öz üzərlərinə düşən vəzifəni əla yerinə yetirirdilər.

Cənab Prezident, Amerika Birləşmiş Ştatları adından Sizə minnətdarlığımı bildirirəm, çox sağ olun ki, Əfqanıstanda keçirilən əməliyyatlarımız üçün hava məkanınızı açmısınız.

Mən ümid edirəm ki, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Silahlı Qüvvələri arasında əməkdaşlıq yüksələn xətlə inkişaf edəcəkdir. Nəzərinizə çatdırmaq istəyirəm ki, 2001-ci ildə 907-ci düzəlişin aradan götürülməsi üçün Konqreslə çox möhkəm işləmişəm. Nəhayət, birgə işimizin sayəsində keçən ilin sonunda Konqres 907-ci düzəlişin hüquqi qüvvəsini müvəqqəti də olsa, dayandırmaq üçün prezidentə imkan yaratdı.

Nəhayət, bizim üçün belə bir imkan yaranmışdır ki, lazımi sənəd imzalayaq və Amerika Birləşmiş Ştatlarının zabitləri Azərbaycana gəlsinlər, Müdafiə Nazirliyi ilə birgə işləsinlər və bir sıra proqramların uğurla həyata keçirilməsinə yardım göstərsinlər.

«Azadlığa Dəstək Aktı»na 907-ci düzəlişin hüquqi qüvvəsinin dayandırılması sahəsində göstərdiyi səylərə görə general Cozef Ralstona təşəkkür edən prezident Heydər Əliyev eyni zamanda vurğuladı ki, ancaq təəssüflər

olsun, o vaxtdan bir il keçməsinə baxmayaraq, respublikamız bu düzəlişin aradan qaldırılması ilə əlaqədar dəyişiklikləri hiss etmir.

Mən sizin indiki bəyanatınızı nəzərə alıram. Ancaq 907-ci düzəliş aradan qaldırıldıqdan sonra bizim gözlədiyimiz tədbirlər üçün bu da azdır. Hesab edirəm ki, 907-ci düzəliş aradan qaldırıldıqdan sonra Azərbaycan Amerikadan Ermənistan və Gürcüstanla bərabər səviyyədə yardım almalıdır. Ümidvaram ki, bu məsələlərə də baxılacaqdır.

General Cozef Ralston dövlətimizin başçısına müraciətlə dedi ki, əgər ehtiyatlara şəxsən mən özüm nəzarət etsəydim, Azərbaycan daha çox yardım alardı. Təəssüf ki, bu mənim nəzarətim altında deyildir. Amma mən Sizinlə razıyam və bilirəm ki, əməkdaşlığı mütləq genişləndirmək lazımdır, buna böyük ehtiyac vardır.

Bir sıra proqramlar çərçivəsində bizim əməkdaşlığımız böyük əhəmiyyət daşıyır. Amerika Birləşmiş Ştatları Silahlı Qüvvələri zabitlərinin Bakıya gəlməsi, respublikanızın Müdafiə Nazirliyinə müəyyən yardımlar etməsi, eyni zamanda, Azərbaycan əsgərlərinin, zabitlərinin Amerika Birləşmiş Ştatlarına getməsi, orada hərbi məktəblərdə təlim keçməsi çox mühüm amillərdir. Sizi əmin edirəm ki, maliyyələşmə də artacaqdır. Ümumiyyətlə, görəcəyimiz işlər çoxdur. Təəssüf ki, ABŞ prezidenti 907-ci düzəlişin hüquqi qüvvəsini dayandırdıqdan sonra bürokratiya bu işlərin kifayət qədər sürətlə getməsinə mane olur və biz bu işimizi istədiyimiz səviyyədə apara bilmirik.

**AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN 11-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ**

*«Gülüstan» sarayı*

*17 oktyabr 2002-ci il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli səfirlər, qonaqlar!

Sizi, bütün Azərbaycan xalqını Azərbaycanın dövlət müstəqilliyi bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm, xalqımıza, millətimizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Azərbaycanın dövlət müstəqilliyinin 11-ci ili tamam olur. 11 il tarixi nöqteyi-nəzərdən çox az vaxtdır. Ancaq bu illərdə Azərbaycan xalqı böyük, əzab-əziyyətli və çox şərəfli yol keçmişdir. Azərbaycanın dövlət müstəqilliyi yaşamış, möhkəmlənmiş, inkişaf etmiş, Azərbaycan Dünya Birliyində, bütün beynəlxalq təşkilatlarda öz yerini tutmuş, Azərbaycanın bayrağı bütün qitələrdə, müxtəlif tədbirlərdə yüksəlmiş, Azərbaycanın himni dünyanın hər yerində səslənmişdir. 11 ildir Azərbaycan xalqı öz ölkəsində azad, sərbəst, rahat yaşayır.

Ancaq sizə məlumdur ki, bu 11 ilin hamısı o qədər də hamar olmamışdır. Azərbaycan öz dövlət müstəqilliyini əldə edərkən dünya çətin bir dövr yaşayırdı. Azərbaycan isə bu çətin dövrdə daha da ağır şəraitdə idi.

XX əsrin əvvəllərində Azərbaycanın mütəfəkkir insanları dünyada baş vermiş böyük ictimai-siyasi hadisələrdən istifadə edərək – çar Rusiyası oktyabr inqilabı nəticəsində dağıldığına və bolşeviklər hakimiyyəti ələ aldıqlarına görə, Rusiyanın əyalətlərində hakimiyyət müxtəlif qüvvələrin əlində idi – 1918-ci ilin may ayının 28-də ilk dəfə Azərbaycanın dövlət müstəqilliyini bəyan etdilər, İstiqlal bəyannaməsi qəbul olundu. Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Xalq Cümhuriyyəti qısa bir zamanda çox işlər gördü. İlk dəfə olaraq, Azərbaycan xalqı müstəqil yaşamaq şəraitinin nə olduğunu hiss etdi, gördü.

O vaxtlar Azərbaycan Xalq Cümhuriyyətini yaradanları– Məmmədəmin Rəsulzadəni, Əlimərdan bəy Topçubaşovu, Fətəli xan Xoyskini, Yusif bəy Nəsibbəylini və digərlərini biz daim yad edirik. Onlar öz cəsarətli fəaliyyətləri ilə Azərbaycanda ilk müstəqil dövlətin qurulması üçün güclü addımlar atdılar. Xalqımıza müstəqillik ənənələri qoyub getdilər.

XX əsrin sonrakı dövrü Azərbaycan xalqı üçün mürəkkəb dövr olmuş, bir çox faciələr baş vermiş, eyni zamanda, elmin, mədəniyyətin, təhsilin, maarifin inkişafı üçün böyük imkanlar olmuşdur. Bunlar hamısı yanaşı olmuşlar və xalqımız əziyyətə, faciələrə dözərək, eyni zamanda inkişaf etmiş və Azərbaycanda böyük iqtisadi, intellektual potensial yaranmışdır.

Nəhayət, dünyada, Avropada və xüsusən Sovetlər İttifaqında gedən ictimai-siyasi proseslərin nəticəsində 1991-ci ildə 70 il yaşamış sovet hökuməti dağıldı. Bununla əlaqədar olaraq Sovetlər İttifaqının tərkibindəki 15 respublika öz müstəqilliyini elan etdi. Azərbaycan da 1991-ci il oktyabr ayının 18-də Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul etdi. Azərbaycanın itirilmiş dövlət müstəqilliyinin bərpa olunması başlandı və Azərbaycanda artıq müstəqil dövlət yarandı. 11 ildir ki, bu dövlət yaşayır və xalqa müstəqilliyin bəhrələrini verir.

Mən qeyd etdim ki, o dövr, yəni SSRİ-nin dağılması, müttəfiq respublikaların öz müstəqilliyini elan etməsi dövrü başqalarına nisbətən Azərbaycan üçün çox çətin, ağır olmuşdur. Çünki o dövr özlüyündə çox mürəkkəb idi. 70 il tərkibində yaşamış bir dövlətdən ayrılmaq, müstəqillik elan etmək və bu müstəqillik yolu ilə getmək özü-özlüyündə böyük, çətin bir yol idi. Ancaq ölkəmiz hələ 1988-ci ildən Ermənistanın Azərbaycana torpaq iddiası ilə əlaqədar başlanmış münaqişəyə də cəlb olunmuşdu və Ermənistan–Azərbaycan münaqişəsi, müharibəsi var idi. Müharibə gedirdi və 1991-ci ildə Azərbaycan torpaqlarının bir qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu.

Təbiidir ki, belə bir zamanda Azərbaycanda müstəqilliyi bəyan edəndən sonra onu yaşatmaq, inkişaf etdirmək, onu qorumaq çox çətin olmuşdur. Azərbaycan xalqı da bu çətin yollardan keçmişdir. Təəssüflər olsun ki, o dövrdə Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar yaranmış mürəkkəb ictimai-siyasi vəziyyətdən istifadə edən ayrı-ayrı qüvvələr daxildə vəziyyəti daha da mürəkkəbləşdirirdilər, hakimiyyət mübarizəsi gedirdi. Azərbaycanın çox itkilərinin, xüsusən Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın bir qisminin işğal olunmasının ən əsas səbəblərindən biri, bəlkə də ən əsas səbəbi ölkə daxilində birliyin olmaması, xalqın birləşə bilməməsi, hamının birləşib torpaqları qoruya bilməməsi idi. Bunun da səbəbi Azərbaycanda gedən hakimiyyət mübarizəsi olmuşdur.

Təsəvvür edin, əgər geriyə bir balaca nəzər salsaq görərik ki, 1988-ci ildə Ermənistan Azərbaycana qarşı hərbi təcavüzə başladı. Yəni Dağlıq Qarabağ böhranı yarandı. O vaxt sovet hakimiyyəti mövcud idi və Azərbaycanda rəhbərlik dəyişdi. Yeni rəhbərlik, yəni rəhbərliyin dəyişilməsi bu şəraitdə Azərbaycanı möhkəmləndirmək və bu münaqişədən Azərbaycanı xilas etmək məqsədi daşımalı idi. Ancaq əksinə, yeni rəhbərlik xalqı birləşdirmək əvəzinə, parçaladı. Nəhayət, 20 Yanvar faciəsi, hakimiyyət dəyişikliyi baş verdi.

20 Yanvar faciəsindən sonra yeni hakimiyyət xalqla birləşmək əvəzinə, xalqı toplamaq əvəzinə, Ermənistanın təcavüzünün qarşısına güc çıxarmaq əvəzinə, yenə də daxili mübarizələrə qoşuldu. 1992-ci ilin mart ayında yenidən hakimiyyət dəyişikliyi baş verdi. Ümumiyyətlə, hakimiyyət bir neçə il bir adamdan o birisinə keçmişdir.

1992-ci ilin yazında Azərbaycanda hakimiyyətə gələn yeni qüvvələr cəmi bir ildən sonra daxili vuruşmalar, çarpışmalar nəticəsində davam gətirə bilmədi və 1993-cü ildə Azərbaycanda böyük siyasi, iqtisadi, ictimai böhran, vətəndaş müharibəsi, ölkənin parçalanma təhlükəsi yarandı. Xalqımız bunları da öz iradəsi ilə aşdı-keçdi. Ancaq yenə də bəzi qüvvələr 1994-cü ilin oktyabrında, 1995-ci ilin martında təzədən dövlət çevrilişinə cəhd etdilər. Görün, bir tərəfdən, Azərbaycan Ermənistanın hərbi təcavüzünə məruz qalmış, ikinci tərəfdən, bir neçə il ərzində Azərbaycanın daxilində nə qədər ağır proseslər getmiş, hakimiyyət uğrunda mübarizəsi, xalqın bir-birinə qarşı silah qaldırması baş vermişdir. Şükürlər olsun ki, bunların hamısı indi geridə qalıbdır.

Biz 1995-ci ildən sonra Azərbaycanda ictimai-siyasi vəziyyəti sabitləşdirdik və iqtisadiyyatın inkişafını təmin etməyə başladıq. Yəni demək istəyirəm ki, Azərbaycan dövlət müstəqilliyi elan edəndən sonra o müstəqilliyi sürətlə inkişaf etdirmək üçün bir neçə ili itirmişdi. Buna baxmayaraq, biz 1995-ci ildən etibarən Azərbaycanda böyük quruculuq işləri apardıq və onlar bu gün də davam edir.

Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulubdur. Azərbaycan demokratiya yolu ilə gedir. Azərbaycan iqtisadiyyatda bazar iqtisadiyyatı yolu tutubdur və bu yol ilə irəliləyir, böyük nailiyyətlər əldə edir. Ölkəmizdə lazımi islahatlar həyata keçirilir. Sosial, hüquqi, iqtisadi islahatlar. Bunlar, bir tərəfdən, Azərbaycanın dövlət quruculuğunu təmin edir, ikinci tərəfdən, sərbəst iqtisadiyyatın, bazar iqtisadiyyatının inkişafını təmin edir. Məhz bunların nəticəsidir ki, Azərbaycanda qısa bir müddətdə iqtisadiyyatın inkişafına nail ola bildik. Bunların əsas səbəbləri ondan ibarətdir ki, biz tutduğumuz yolla ardıcıl olaraq, iradə ilə irəliləmişik. Biz demokratiya yolu secmişik, demokratiyanı da inkişaf etdiririk. İnsan haqlarını təmin etmişik. Azərbaycanda mətbuat azadlığı, vicdan azadlığı, söz azadlığı tamamilə təmin olunubdur. Siyasi plüralizm hökm sürür. Hər şey demokratik prinsiplər əsasındadır. Demokratik təsisatlar yaradılıbdır.

Bazar iqtisadiyyatının özü demokratiyanın bir hissəsidir. Biz birinci növbədə, mülkiyyətin özəlləşdirilməsini təmin etdik. Kənd təsərrüfatında torpaq islahatı keçirdik. Torpağı onun sahibinə, kəndlilərə payladıq. Özəlləşdirmə, torpaq islahatı, xarici ticarətin, ümumiyyətlə, ticarətin liberallaşdırılması, xarici investisiyaların cəlb olunması – bunlar hamısı qısa bir zamanda Azərbaycanın iqtisadiyyatının ardıcıl surətdə inkişaf etməsinə şərait yaratdı. Mən bu gün böyük iftixar hissi ilə deyirəm ki, 1996-cı ildən başlayaraq Azərbaycanın iqtisa-diyyatı ardıcıl surətdə inkişaf edir və hər il biz irəliyə gedirik. Bunların nəticəsində xalqımızın rifah halı, insanların yaşayışı yaxşılaşır. Yaranmış ictimai-siyasi sabitlik isə insanlara rahat yaşamaq imkanı veribdir. Yaşamaq, işləmək, istirahət etmək, bütün haqlardan səmərəli istifadə etmək imkanı veribdir.

Rəqəmləri deyəndə bəziləri bunların nə olduğunu o qədər də dərk edə bilmirlər. Ancaq bizim iqtisadiyyatda əldə etdiyimiz nailiyyətlər o rəqəmlərdə ifadə olunur. Onlar da təkcə bizim tərəfimizdən yaranmış rəqəmlər deyil, dünyanın beynəlxalq maliyyə mərkəzləri, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, onların apardıqları təhlildir, onların verdikləri ümumi statistik məlumatlardır. Biz iqtisadiyyatın hərtərəfli inkişaf etməsinə çalışdıq. Bir tərəfdən, islahatlarımızla, müxtəlif tədbirlərimizlə daxili imkanları hərəkətə gətirdik, ikinci tərəfdən, Azərbaycana xarici investisiyanı cəlb etməyə cəhd göstərdik və buna nail olduq. Bunun nəticəsində Azərbaycanda çox yeni iş yerləri açıldı, insanlar bir çox sahələrdə yüksək maaşlar almağa başladılar və yaşayışları yaxşılaşdı.

Mən bu gün sizə bir neçə rəqəmi deyəcəyəm. Qısa bir müddətdə iqtisadiyyatda apardığımız siyasət nəticəsində artıq ümumi daxili məhsulun – bütün dünyada, bütün ölkələrdə bu, əsas göstəricidir – 71 faizini özəl sektor verir. Bu göstərici sənayedə 50 faiz, kənd təsərrüfatında 99 faiz, tikintidə 46 faiz, nəqliyyat və rabitədə 65 faizdir. Bu, 1995-ci ildən indiyə qədər olan məlumatdır.

Mən dedim ki, biz investisiyaları cəlb etdik. Bəli, 1994-cü ildən indiyədək ölkə iqtisadiyyatına bütün mənbələr hesabına 11,4 milyard dollar investisiya qoyulmuşdur. Onun 8,3 milyard dollarını xarici investisiya təşkil edir. Xarici investisiyanın 5,4 milyard dolları, yəni 65 faizi neft sənayesinə gedibdir, amma 3 milyard dollar, yəni 35 faizi isə digər sahələrə gedir. Mən burda bir məsələni demək istəyirəm. Bəzən son illərdə belə deyirlər ki, bəli, siz neft sektorunu yaxşı inkişaf etdirdiniz, neft sektoruna investisiyalar gəlir, amma başqa sek-torlara gəlmir. Sizə deyirəm, xarici investisiyanın 35 faizi başqa sektorlara gedibdir. Təsəvvür edin, təkcə cari ildə – hələ il başa çatmayıb – 1 milyard 750 milyon dollar investisiya qoyulubdur və bu, ilin sonuna qədər də davam edəcəkdir.

Bizim apardığımız bu siyasət və xarici ticarətin liberallaşdırılması böyük nəticələr veribdir.

Məsələn, 5-6 il bundan öncə Azərbaycana hər şey xaricdən gəlirdi. Biz xarici ticarət sahəsində daha çox idxal edirdik, nəinki ixrac. Bildirmək istəyirəm ki, indi Azərbaycan 120 ölkə ilə ticarət əlaqəsi saxlayır. 1996–2001-ci illərdə xarici ticarət dövriyyəsi 2,4 dəfə artaraq, 2,2 milyard dollara çatıbdır. Həm də ixracın həcminin daha surətlə artması müşahidə olunur. İxrac 3,7 dəfə artıb, idxal isə azalıbdır. Beləliklə, biz xarici ticarətdə tamamilə müsbət saldo ilə işləyirik.

Bunların nəticəsində makroiqtisadi göstəricilər, ümumi göstəricilər nədən ibarətdir? 1996–2002-ci illərdə ümumi daxili məhsul 68 faiz artıbdır. Bunu iqtisadçılar yaxşı bilirlər. Güman edirəm, digər şəxslər də bilməlidirlər. Çünki indi bizim həyatımızda hamı iqtisadiyyatı bilməlidir. 1996-cı ildən indiyə qədər sənaye məhsulu 23 faiz, kənd təsərrüfatı məhsulu 39 faiz artıbdır. Kapital qoyuluşu 4 dəfə artıbdır. Təsəvvür edin, bu, iqtisadiyyatın ən gözəl göstəricisidir. Demək, kapital qoyuluşu ölkənin iqtisadiyyatının daha da inkişafını təmin edir.

Bu illərdə, demək olar ki, inflyasiya olmayıbdır. İndi bizim ölkənin 1 milyard 300 milyon dollar valyuta ehtiyatı var. Bu yaxınlarda yaratdığımız Neft Fondunda artıq 630 milyon dollar vəsaitimiz var.

Bəs bu il vəziyyət necədir? Bu il ötən doqquz ayda ümumi daxili məhsul 10 faiz, o cümlədən sənaye məhsulu 3 faiz, kənd təsərrüfatı məhsulu 4,5 faiz, kapital qoyuluşu 90 faiz artıbdır. Təsəvvür edin, doqquz ayın içərisində rabitə xidmətləri 18 faiz, orta aylıq əmək haqqı 21 faiz, əhalinin bank əmanətləri 20 faiz artıbdır. İnflyasiya yenə də aşağı səviyyədədir. Bunlar hamısı nə üçündür? İnsanların daha da yaxşı yaşaması, onların gəlirlərinin artması üçündür.

1996-cı ildən indiyə qədər Azərbaycanda işləyənlərin orta aylıq əmək haqqı 3,6 dəfə artmışdır, indi 320 min manatdır. Bu çox deyil, azdır. Bəli, biz bunu daha da çox artırmalıyıq. Ancaq təsəvvür edin, 6 ilin içərisində maaşları 3,6 dəfə artırmaq asan məsələ deyil, bu, göydən düşmür. Bunun üçün iqtisadiyyatı inkişaf etdirmək, gəlirlər əldə etmək lazımdır. Ondan sonra maaşları artırmaq lazımdır. Orta aylıq pensiyalar da 3,4 dəfə artmışdır. Bu da çox deyil, düşünürəm ki, bundan da çox olmalıdır. Ancaq bu rəqəmin özü də böyükdür. Əhalinin real pul gəliri isə 2,5 dəfə artmışdır.

Ölkəmizdə ən ağır sosial vəziyyətdə olan insanlar Ermənistanın bizim torpaqları işğal etməsi nəticəsində yerlərindən, yurdlarından didərgin düşmüş soydaşlarımızdır. Mən xatırlatmaq istəyirəm, 1993-cü ildə məcburi köçkünlərin hər birinə ayda 500 manat yemək xərci verilirdi. İndi 25 min manat verilir, 50 dəfə çox. Soruşmaq olar, bu yetərlidirmi? Yox. Mən hesab etmirəm ki, bu yetərlidir. Amma imkanımıza baxın, əgər biz bunu 50 dəfə artıra bilmişiksə, bunun özü görülən işin nəticəsidir.

1992-ci ildə dövlət büdcəsindən qaçqınlara və məcburi köçkünlərə 19 milyard manat vəsait ayrılırdı. Amma bu il 200 milyard manat vəsait ayrılmışdır. Qaçqınların sosial müdafiəsinə Dövlət Neft Fondundan mən 74 milyon dollar vəsait ayırdım. İlk dəfə olaraq Dövlət Neft Fondunun vəsaitindən qaçqınlar üçün istifadə etdik. Onlar üçün evlər tikilib və 6750 qaçqın həmin evlərdə yerləşəcəkdir. Bundan əlavə, Dövlət Neft Şirkəti tərəfindən məcburi köçkünlər üçün hər ay 3,4 milyard manat vəsait verilir. Son bir il ərzində 41 milyard manat vəsait ayrılıbdır. Bunlar hamısı Azərbaycanın dövlət büdcəsi ilə əlaqədardır.

Siz bilirsiniz ki, biz 2003-cü ilin dövlət büdcəsini hazırlamışıq. Onu bu günlərdə Milli Məclisin müzakirəsinə verəcəyik. Ancaq təsəvvür edin, büdcəmiz keçmiş illərə nisbətən nə qədər artıb? 2002-ci ildə dövlət büdcəsinin gəlirləri 1994-cü illə müqayisədə 17 dəfə artmışdır. 1994-cü ildə 300 milyard manat idi, indi isə 4 trilyon 700 milyard manatdır. Bu ilin büdcəsində isə biz 6 trilyon manat nəzərdə tuturuq. Demək, keçən ilə nisbətən xeyli artıqdır. Təsəvvür edin, büdcə 300 milyard manatdan 6 trilyon manata qalxıb, 17 dəfə artıbdır!

Mən bu bayram günü bu rəqəmləri sizə çatdıraraq bildirmək istəyirəm ki, biz deyəndə ki, iqtisadiyyat inkişaf edir, biz deyəndə ki, bu işlər görülür, bəziləri deyirlər ki, onlar bunu görmürlər. Bəziləri də deyirlər ki, Azərbaycanda hər şey dağılıb, heç bir şey yoxdur, iqtisadiyyat yoxdur. İndi mən bu rəqəmləri dedim. Ancaq siz bizim dövlət neft strategiyamızı yaxşı bilirsiniz. Bunların özü dövlət neft strategiyasının həyata keçirilməsi ilə əlaqədardır. 1994-cü ildə biz «Əsrin müqaviləsi»ni imzalayandan sonra, ümumən 21 müqavilə imzalayandan sonra və 8 il «Əsrin müqaviləsi»nin yerinə yetirilməsi üzərində işləyərək, Bakı–Tbilisi–Ceyhan əsas neft ixrac kəmərinin inşa edilməsinə başlayaraq, görün nə qədər nəhəng işlər görmüşük!

Bilirsiniz, biz bu yaxınlarda, sentyabrın 18-də Türkiyə prezidenti hörmətli Əhməd Necdət Sezərlə, Gürcüstan prezidenti hörmətli Eduard Şevardnadze ilə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təməlini qoyanda müxbirlər onlara çoxlu suallar vermişdilər. Bizim müxalifətdən olan bəzi nümayəndələr deyirdilər ki, bəli, bu yaxşıdır, amma biz bunu xeyli tez edərdik. Bilirsiniz, o qədər gülmüşəm. Vaxtınızı alsam da, deyəcəyəm.

Bakı–Tbilisi–Ceyhanı bundan tez necə etmək olardı?! Bunu tikmək üçün axı gərək neft hasil edəsən. Əgər neft olmasa, bu boru nəyə lazımdır? Neft hasil etməsən, dünyaya sübut etməsən ki, 50 milyon tondan artıq neft olacaqdır, heç bir bank, heç bir ölkə bu borunun tikilməsinə kredit, heç bir şey verməyəcəkdir. Versə də, borunu tikdin, o nəyə lazımdır?! Onu tikirik ki, neft ixrac edək, qazanc götürək. Deyirlər ki, biz bunu bundan qabaq tikə bilərdik. Nə deyim? Demək, bu adamlar heç anlaya bilmirlər ki, bu işlər nədən ibarətdir. Ancaq iddia edirlər ki, onlar bu dövləti daha da yaxşı idarə edə bilərlər.

Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərləri, hesab edirəm, bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu o deməkdir ki, artıq biz Xəzər hövzəsində olan neft və qaz ehtiyatlarını bu

borularla Türkiyəyə, oradan bütün dünyaya ixrac edəcəyik. Bunun siyasi, iqtisadi əhəmiyyəti haqqında mən dəfələrlə demişəm. Bu gün bunu təkrar etməyə ehtiyac yoxdur.

Bunlar bizim iqtisadiyyatda gördüyümüz işlərdir. Xarici siyasətimiz göz qabağındadır. Azərbaycan dünyanın bütün ölkələri ilə qarşılıqlı faydalı əlaqələr yaradıb və inkişaf etdirməyə çalışır. Bu barədə çox işlər görülübdür. Birinci növbədə, qonşu ölkələrlə əlaqələrimiz həmişə yaxşı olub, bu gün də yaxşıdır. Avropa ölkələri ilə əlaqələrimiz inkişaf edir. Azərbaycanın Avropa Şurasına daxil olması tarixi bir hadisədir. Biz bunu çox yüksək qiymətləndiririk. Avropa Birliyi ilə əməkdaşlığımız da çox əhəmiyyətlidir. NATO ilə, Şimali Atlantika İttifaqı ilə əməkdaşlığımız da 1994-cü ildə imzaladığımız «Sülh naminə tərəfdaşlıq» proqramı əsasında gedir.

Mən dünən NATO-nun Avropadakı qoşunlarının komandanını – Amerika Birləşmiş Ştatlarının Avropadakı Silahlı Qüvvələrinin Baş komandanını qəbul etdim. O, Azərbaycana səfərə gəlmişdi, burada görüşlər keçirmişdi. Mən də onunla Azərbaycan–NATO əlaqələrinin inkişaf etməsi haqqında danışıqlar apardım. Eyni zamanda, Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında hərbi əməkdaşlıq, xüsusən 907-ci maddə aradan götürüləndən sonra əməkdaşlığın inkişaf etdirilməsi haqqında danışıqlar apardım. Bunları bu gün burada izah etməyə ehtiyac yoxdur.

Mən dünən Türkiyədən gəlmişəm. Orada İƏT-in zirvə görüşü keçirildi. Çox yaxşı müzakirələr oldu. İƏT-ə daxil olan ölkələrin dövlət başçıları ilə çox yaxşı görüşlərim, danışıqlarım oldu. Türkiyə ilə bizim əlaqələrimiz çox dostluq, qardaşlıq əlaqələridir. Mən orada olarkən, eyni zamanda Türkiyənin iş adamları ilə görüşdüm. Çox məmnunam ki, Türkiyənin ən böyük, hörmətli iş adamları bu görüşə gəlmişdilər. Görüşdə 250–300-dək iş adamı iştirak edirdi. Biz Türkiyə–Azərbaycan iqtisadi əlaqələrini və Türkiyənin iş adamlarının Azərbaycana dəvət olunması məsələsini müzakirə etdik.

Bu yaxınlarda Kişinyovda Müstəqil Dövlətlər Birliyi ölkələri dövlət başçılarının görüşü keçirilmişdir. O görüş də çox səmərəli olmuşdur. Biz bu təşkilat çərçivəsində də lazımi fəaliyyət göstəririk. Rusiya ilə və keçmiş SSRİ-yə mənsub olan digər ölkələrlə yaxın əlaqələr saxlayırıq.

Son vaxtın müsbət hadisələrindən biri də Xəzər dənizinin dibinin bölünməsi ilə əlaqədar Rusiya ilə Azərbaycan arasında sazişin imzalanmasıdır. Mən bu münasibətlə prezident Putin tərəfindən Moskvaya dəvət olunmuşdum. Orada çox səmərəli danışıqlar apardıq, bu sazişi imzaladıq. Beləliklə, Xəzərin böyük bir hissəsi Rusiya, Qazaxıstan və Azərbaycan arasında, demək olar, tamamilə bölünüb, hərənin öz sektoru müəyyən olunubdur.

İstanbulda İranın prezidenti hörmətli Xatəmi ilə də danışıqlarım oldu. O cümlədən, Xəzərdə olan problemlər haqqında. Onunla eyni fikirdə olduq ki, danışıqlar prosesi davam etməlidir və bunlar öz nəticəsini verəcəkdir. Türkmənistan prezidenti, Türkmənbaşı da bəyanatlar verib ki, o da danışıqlar prosesinin davam etməsinin tərəfdarıdır.

Beləliklə, bizim 1994-cü ildən başladığımız iş, Xəzərin dibinin sektorlara bölünməsi və neft-qaz yataqlarının istifadə olunması məsələsi artıq indi müəyyən dərəcədə hüquqi əsaslar tapır və Xəzəryanı ölkələr tərəfindən qəbul olunur. Bunlar hamısı son vaxtların hadisələridir.

Bütün bu hadisələrin içərisində hamımızı narahat edən Amerika Birləşmiş Ştatlarında baş vermiş 11 sentyabr terror hadisələri ilə əlaqədar yaranmış vəziyyətdir. Təəssüflər olsun ki, terrorizm son illər dünyada çox geniş yayılıbdır. Beynəlxalq terrorizm bütün xalqlara zərər verir. Biz bu zərəri daim çəkmişik. Çünki Ermənistanın Azərbaycana təcavüzündə biz terrorun nə olduğunu bilmişik və indi də bilirik. Ancaq ötən il sentyabrın 11-də baş verən hadisələr dünyada terrorizmin nə qədər dəhşətli olduğunu bir daha açdı. Biz bu hadisə ilə əlaqədar dərhal Amerika Birləşmiş Ştatlarının elan etdiyi koalisiyaya qoşulduq və bu koalisiyada öz fəaliyyətimizi göstəririk.

Mən dünən bu barədə NATO-nun komandanı ilə də lazım olan söhbətlər apardım. Biz bundan sonra da öz fəaliyyətimizi göstərəcəyik. Bizim bir taqımımız Türkiyə qoşunları tərkibində Əfqanıstanda xidmət göstərəcəkdir. Bu barədə lazımi işlər aparılıbdır. Bu yaxınlarda o taqım Əfqanıstana gedəcəkdir. Beləliklə, biz bu antiterror koalisiyasında fəal iştirak edirik. Amerika Birləşmiş Ştatları ilə əlaqələrimiz daha da inkişaf edir, genişlənir. Biz təkcə Amerika Birləşmiş Ştatları ilə yox, antiterror koalisiyasında olan bütün ölkələrlə əməkdaşlıq edirik. Çünki biz, yenə də deyirəm, terrorun nə olduğunu yaxşı bilirik.

Ermənistanın Azərbaycana etdiyi təcavüz və torpaqlarımızın işğal olunması ilə əlaqədar vəziyyət sizə məlumdur. Sülh danışıqları davam edir. Mən Kişinyovda Ermənistan prezidenti Robert Köçəryanla görüşüb söhbət etdim. Ondan sonra ATƏT-in həmsədrlərinin nümayəndələri ilə birlikdə danışıqlar apardıq. Razılaşdıq ki, noyabr ayında Praqada NATO-nun zirvə görüşündə biz – Ermənistan və Azərbaycan prezidentləri bir daha görüşəcəyik. Bundan sonra həmsədrlər də bizə qatılacaqlar. Bundan əlavə, biz öz nümayəndələrimiz vasitəsilə də danışıqlar prosesini davam etdiririk. Yəni sülh danışıqları aparılmalıdır, getməlidir. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Güman edirəm ki, biz son olaraq bunu həll edə biləcəyik. Bunu bizim xalqımız bilməlidir, buna inanmalıdır. Necə ki, indiyə qədər inanıb, indi də inanmalıdır.

Münaqişə uzun müddət həll olunmadığına görə, son vaxtlar Azərbaycanda insanlarda müxtəlif fikirlər meydana çıxır. Bəzi insanlar artıq dözə bilmirlər. Məsələni müharibə yolu ilə həll etmək ideyalarını ortaya atırlar. Əgər doğrudan da vətənpərvər, müharibə edə bilən və müharibəni bilən adamlar belə ideyaları ortaya

atırlarsa, bu, müsbət haldır. Çünki biz güclü ordu yaratmışıq. Ordumuz get-gedə güclənir. Biz həmişə oturub elə sülh danışıqları aparmayacağıq ki. Ancaq hər bir işi görmək üçün də onu bacaran adamlar lazımdır. Yoxsa, müharibə edək, gedək vuruşaq, mən də vuruşacağam, sən də vuruşacaqsan, o da vuruşacaq – bilirsiniz, bunlar emosiyalardan irəli gələn fikirlərdir. Mən bunları anlayıram və heç kəsi də buna görə günahlandırmıram. Ancaq bəzi qüvvələrin belə şəraitdən istifadə edərək, özlərinə xal qazanmaq və Qarabağı azad etmək uğrunda yürüşlər, mitinqlər keçirməklə özlərini göstərmək cəhdlərini mən ədalətsizlik hesab edirəm.

Bilirsiniz, biz bir dövlətik, bir xalqıq, hamımız bir olmalıyıq. Hamımız məsələnin sülh yolu ilə həll olunmasına çalışmalıyıq. Ancaq əgər məsələni müharibə aparmaq, müharibə yolu ilə həll etmək zərurəti meydana çıxarsa, onu da küçədə yox, meydanda yox, bayraqları qaldırıb «Qarabağ uğrunda mübarizə» deməklə yox, ağılla təşkil etmək lazımdır. Bu da dövlətin işidir, bunu dövlət edə bilər. Lazım olsa, dövlət də bunu edəcəkdir. Ancaq bayrağı qaldırıb bəli, biz Dağlıq Qarabağın azad olması üçün mitinq edirik, yaxud yürüş edirik, gedib müharibə edəcəyik – yenə də deyirəm, insanların hissiyyatlarından sui-istifadə etmək lazım deyildir. Bəli, müharibə lazım olsa, Azərbaycan dövləti, Azərbaycan ordusu müharibə edəcəkdir. Amma bu gün buna ehtiyac yoxdur. Biz sülh siyasəti aparmalıyıq. Məsələnin sülh yolu ilə həll edilməsinə nail olmalıyıq.

Sizi əmin edirəm ki, mən 9 il ərzində həyatımın böyük hissəsini Azərbaycan torpaqlarının azad olunmasına, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına həsr etdiyim kimi, bunu bundan sonra da edəcəyəm və mənim üçün bundan da böyük, bundan da əziz bir vəzifə yoxdur. Ancaq bu gün bizim xalqımız sülh şəraitində yaşayır, rahat yaşayır. Bizi qaçqınların vəziyyəti incidir. Ancaq biz də onlara mümkün qədər yardım edirik.

Baxın, bu gün Azərbaycanda bayramdır. Bu bayram nə qədər evlərdə qeyd olunur. Nə qədər şadlıq evlərində, restoranlarda insanlar gündüz də, gecə də istirahət edirlər. Bax, budur Azərbaycanın dövlət müstəqilliyinin verdiyi nemətlər. Budur Azərbaycanda yaranmış ictimai-siyasi sabitliyin bizim xalqa verdiyi nemətlər. Biz bunu edirik və bundan sonra da edəcəyik. Xalqımız rahat yaşayır və yaşayacaqdır. Bütün başqa məsələlərin həll olunmasında da biz həmişə xalqla məsləhət etmişik və yenə də edəcəyik.

Əziz dostlar, bu gün bayramdır. Mən şəxsən sevinc içindəyəm. Çünki 11 ildir ki, Azərbaycan müstəqildir, azaddır. Şübhə yoxdur ki, Azərbaycan xalqı bundan sonra heç vaxt öz müstəqilliyini əlindən verməyəcəkdir.

Yaşasın istiqlaliyyət!

Yaşasın azadlıq!

Yaşasın müstəqil Azərbaycan!

* * *

*Prezident Heydər Əliyev təntənəli mərasimdə iştirak edən Azərbaycanın dövlət və hökumət nümayəndələri ilə səmimi görüşdü.*

*Xarici ölkələrin Bakıdakı səfirləri Azərbaycan prezidentinə yaxınlaşaraq mehribancasına görüşdülər, respublikamızın dövlət müstəqilliyinin 11-ci ildönümü münasibətilə onu təbrik etdilər, öz ölkələrinin dövlət və hökumət rəhbərlərinin təbrikini çatdırdılar, xalqımıza sülh, tərəqqi və uğurlar arzuladılar.*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞDİR**

*18 oktyabr 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ölkəmizin Dövlət müstəqilliyi günü xalqımızın müqəddəs and yerini – Şəhidlər xiyabanını ziyarət etmişdir.*

*Prezident Heydər Əliyev Şəhidlər xiyabanını ziyarətə gələn dövlət və hökumət nümayəndələrini, xarici ölkələrin Bakıdakı səfirlərini, respublika ictimaiyyətinin nümayəndələrini səmimiyyətlə salamladı.*

*Azərbaycanın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş, qəhrəmancasına həlak olmuş mərd mübarizlərin əziz xatirəsinə ehtiram əlaməti olaraq, paytaxtımızın ən uca zirvəsində ucaldılmış «Əbədi məşəl» abidəsi önünə Azərbaycan prezidenti Heydər Əliyevin adından əklil qoyuldu.*

*Hərbi orkestrin ifasında respublikamızın dövlət himni əzəmətlə səsləndi.*

*Xarici ölkələrin səfirləri, beynəlxalq təşkilatların ölkəmizdə fəaliyyət göstərən nümayəndələri prezident Heydər Əliyevə yaxınlaşaraq, Azərbaycanın Dövlət müstəqilliyi haqqında Konstitusiya aktının qəbul olunmasının 11-ci ildönümü münasibətilə dövlətimizin başçısını təbrik etdilər, səmimi arzularını bildirdilər, ona cansağlığı, uzun ömür, xalqımıza sülh və tərəqqi arzuladılar.*

*Respublikamızın rəhbəri onlara minnətdarlığını bildirdi.*

*Azərbaycan prezidenti ölkəmizin tanınmış elm, ədəbiyyat, incəsənət, mədəniyyət xadimləri, Milli Məclisin deputatları ilə görüşüb söhbət etdi.*

*Prezident Heydər Əliyev tanınmış kinorejissor, mədəniyyət nazirinin müavini Vaqif Mustafayevə müraciətlə dedi: Vaqif, səni təbrik edirəm. Sən iki gündən bir mükafat alırsan.*

**V a q i f  M u s t a f a y e v:** Cənab Prezident, çox sağ olun. Mən bu dəfə Moskvada keçirilən 5-ci Avrasiya teleforumunda «Bir həsədin tarixi» filminə görə əsas mükafata – «Qran-Pri» mükafatına layiq görüldüm. Orada müxtəlif ölkələrdən 300 film təqdim olunmuşdu. Bizim film Rusiyada böyük sensasiyaya səbəb olmuşdur. Bundan əvvəl də Yekaterinburqda mükafata layiq görülmüşdüm. Rusiya Sizi dəstəklədi, Qorbaçovu dəstəkləmədi.

**H e y d ə r  Ə l i y e v:** Səni, çünki sən rejissorsan, sənin filmini dəstəkləyiblər. Bu, təzə filmdir.

**V a q i f  M u s t a f a y e v:** Cənab Prezident, mən bunu necə çəksəm də, nə qədər ustalıq olsaydı, əsas qəhrəman Siz olmasaydınız, bu mükafatları almaq mümkün deyildi. Film çox böyük maraq doğurdu.

**H e y d ə r  Ə l i y e v:** Mövzu çox maraqlıdır. Onun rejissor təqdimatı gözəldir.

**V a q i f  M u s t a f a y e v:** Orada münsiflər heyətinin sədri çıxış edib dedi ki, Rusiyanın televiziya kanalının heç biri bu filmi göstərməyə cəsarət etməz. Amma biz bu filmə mükafat veririk. Bu filmi çəkməyə böyük cəsarət lazım idi. Ən böyük cəsarət isə bu filmi Rusiyaya gətirməkdir. Hamı bizə yaxınlaşırdı, Sizi soruşur, salam çatdırmağı xahiş edirdilər. Onların salamlarını Sizə çatdırıram.

**H e y d ə r  Ə l i y e v:** Mən səni təbrik edirəm, yeni uğurlar arzulayıram.

**V a q i f  M u s t a f a y e v:** Cənab Prezident, çox sağ olun. Mən də Sizin bayramınızı təbrik edirəm.

* * *

*Dövlətimizin başçısı sonra Şəhidlər xiyabanından paytaxtı seyr etdi, Milli Parkın vəziyyəti, Xəzərin çirklənməsinin qarşısının alınması, sahil tərəfdə dənizin dibinin təmizlənməsi və Bakıda aparılan abadlıq, tikinti işləri ilə maraqlandı.*

*Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlər barədə respublikamızın rəhbərinə məlumat verdi.*

*Prezident Heydər Əliyev kütləvi informasiya vasitələri nümayəndələrini də təbrik etdi:*

Bayramınız mübarək olsun! Sizə cansağlığı arzu edirəm. Müstəqillik yolunda yeni uğurlar arzulayıram. Arzu edirəm yaxşı çalışasınız, yaxşı işləyəsiniz. Nə sualınız var, buyurun.

**S u a l: Cənab Prezident, bu gün müstəqillik günüdür. Sizin əfv fərmanınız gözlənilirmi?**

**C a v a b:** İmzalayacağam.

**S u a l: Həmin siyahıda kimlər olacaqdır? Orada Avropa Şurasının siyahısında olan şəxslərin adı varmı?**

**C a v a b:** Siyahını indi deyə bilmərəm. Amma bu gün imzalayacağam və mətbuata verəcəyəm. Onda görərsiniz.

**S u a l: Cənab Prezident, yəni artıq Sizə təqdim olunubdur.**

**C a v a b:** Yəqin ki, bu gün təqdim olunacaq. Mən indi buradan işə gedirəm, yəqin ki, təqdim ediləcəkdir.

**S u a l: Cənab Prezident, əfv edilənlərin sayı məlumdurmu?**
**C a v a b:** Onu da bilərsiniz, bir az səbriniz olsun.
**S u a l: Cənab Prezident, paytaxtın statusu məsələsinə nə vaxt baxılacaqdır?**
**C a v a b:** Mən başa düşmürəm, bu sizi niyə narahat edir? Bu heç Hacıbala Abutalıbovu narahat etmir, amma sizi narahat edir. Paytaxtın statusu, mənə belə gəlir ki, indi, bu dəqiqə bizim üçün lazım olmayan bir şeydir. Paytaxt paytaxtdır, buna nə status verəcəksən, elə paytaxtın özü onun statusudur. Ona görə başınızı bununla qarışdırmayın, başqa ciddi məsələlərlə məşğul olun.
**S u a l: Cənab Prezident, sahibkarlarla görüşlərinizin yekunlarına dair geniş müşavirə nə zaman olacaqdır? Sizin dediyinizə görə, Türkiyə səfərindən əvvəl olmalı idi.**
**C a v a b:** Olacaqdır. Sən mənim iş qrafikimi görürsən, yoxsa yox?
**J u r n a l i s t: Görürəm, gərgindir.**
**H e y d ə r  Ə l i y e v:** Onda özün nəticə çıxart. Hər halda, olacaqdır.
**S u a l: Cənab Prezident, siyasi partiyalar haqqında qanunun dəyişilməsindən danışırlar. Sizin buna münasibətiniz necədir?**
**C a v a b:** Mənim bundan xəbərim yoxdur.

* * *

*GUÖAM-ın üzvü olan ölkələrin qadınlarının Kiyevdə keçirilmiş II Forumunda iştirak etmiş Milli Məclisin deputatı Məlahət Həsənova dövlətimizin başçısına tədbir barədə məlumat verərək dedi ki, gündəliyə münaqişələrin həll olunması, sülh prosesinin gedişi, terrorizmə qarşı mübarizə kimi mövzular daxil idi. Biz BMT-yə, Avropa Şurasına, GUÖAM-a daxil olan ölkələrin prezidentlərinə müraciətlər qəbul etdik. Prezident Kuçma bizim nümayəndə heyətini böyük səmimiyyətlə qəbul etdi, Sizinlə dostluğunu dəfələrlə vurğuladı. O dedi ki, Kişinyovda bildirmişdim ki, qayıdan kimi birinci görüşüm Azərbaycan nümayəndə heyəti ilə olacaqdır. Cənab Prezident, biz Sizinlə fəxr edirik. Sizə orada çox böyük məhəbbət vardır.*

* * *

*Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə, Milli Məclisin deputatları Əsmətxanım Məmmədova, Aynur Sofiyeva, Amaliya Pənahova, Gülçöhrə Məmmədova, Hüseyn Cavidin ev-muzeyinin direktoru Turan Cavid, Xalq artisti Zəroş Həmzəyeva, Akademik Milli Dram Teatrının direktoru, Xalq artisti Əliabbas Qədirov, Xalq şairi Qabil və başqaları dövlətimizin başçısını bayram münasibətilə təbrik etdilər, ona möhkəm cansağlığı, ölkəmizin gələcəyi naminə işlərində uğurlar arzuladılar.*
*Prezident Heydər Əliyev xoş sözlərə və təbriklərə görə təşəkkür etdi, həmçinin Hüseyn Cavidin yubileyinin yüksək səviyyədə qeyd olunacağını, onun ev-muzeyinin açılışında iştirak edəcəyini vurğuladı, bununla bağlı müvafiq tapşırıqlar verdi.*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MİLLİ PARKDA DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜNƏ HƏSR OLUNMUŞ BAYRAM KONSERTİNDƏ

*18 oktyabr 2002-ci il*

*Azərbaycanın Dövlət Müstəqillik günü münasibətilə Dövlət Televiziya və Radio Verilişləri Şirkəti və Bakı Şəhəri İcra Hakimiyyəti Milli Parkda böyük bayram konserti təşkil etmişdilər.*

*Azərbaycan prezidenti Heydər Əliyev axşamüstü işdən evə gedərkən paytaxt sakinləri ilə görüşmək və onları bayram münasibətilə təbrik etmək üçün yolüstü Milli Parka gəldi. Parka toplaşmış on minlərlə sakin, habelə xoş havada dəniz kənarına gəzintiyə çıxmış şəhərimizin qonaqları dövlətimizin başçısını hörmət və ehtiramla, alqışlarla qarşıladılar.*

**H e y d ə r Ə l i y e v:** Əziz dostlar!

Bu gün bizim böyük bayramımızdır. Azərbaycanın Dövlət Müstəqilliyinin 11-ci ildönümüdür. Ölkəmiz bayram edir, xalqımız, vətənimiz bayram edir. Siz də bu bayram əhval-ruhiyyəsi ilə buraya toplaşmısınız. Görürəm ki, Milli Parkda adamlar o qədərdir ki, tərpənmək olmur. Bu, məni çox sevindirir. Demək, xalqımız rahat yaşayır, işləyir, öz dövlətini inkişaf etdirir və bu bayram günü istirahət edir.

Mən buraya təsadüfən gəlmişəm. İşdən çıxıb evə gedirdim. Buradan keçəndə gördüm ki, çox adam var. Fikirləşdim ki, Milli Parka gəlim. Gənc vaxtı burada çox gəzmişəm, indi də hərdənbir gəzirəm. Amma bu dəfə gördüm ki, buraya lap çox adam yığışıb və konsert başlayacaqdır.

Mən sizin hamınızı ürəkdən təbrik edirəm, cansağlığı arzu edirəm. Hamınıza, hər birinizə ailə səadəti, bütün işlərinizdə uğurlar arzulayıram.

Sağ olun.

* * *

*Parka toplaşanlar Azərbaycan tarixinin bu əlamətdar günündə onlara səmimi–arzularını yetirən, bayram sevincini xalqı ilə bölüşən prezident Heydər Əliyevi səmimi-qəlbdən təbrik etdilər, ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsində, respublikamızın taleyüklü problemlərinin həllində əvəzsiz xidmətləri olan görkəmli dövlət xadiminə ən xoş arzularını bildirdilər, bundan sonra da onu hər zaman dəstəkləyəcəklərini vurğuladılar.*

*Sonra bayram konserti başladı. Gecə yarıyadək davam edən və respublika televiziyası ilə birbaşa yayımlanan konsertdə Azərbaycanın tanınmış incəsənət ustalarının ifasında rəngarəng mahnılar səsləndi, vətənə, xalqa, prezidentə həsr edilmiş şeirlər oxundu.*

## ƏMƏKDAR MÜƏLLİM LƏTİF HÜSEYNZADƏYƏ

Hörmətli Lətif müəllim!

Sizi – Azərbaycanın görkəmli pedaqoqu və yorulmaz tədqiqatçı alimini, sevimli müəllimini anadan olmağınızın 100 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan ziyalılarının yaşlı nəslinə mənsub olan gözəl pedaqoq və ədəbiyyatşünas alim kimi, ölkəmizdə yaxşı tanınırsınız. Azərbaycan ədəbiyyatının böyük nümayəndəsi Hüseyn Cavid kimi tanınmış simadan dərs alaraq yetişdiyiniz dövr Azərbaycanda mədəni-maarifçilik hərəkatının böyük vüsətlə yüksəlişi mərhələsinə təsadüf edir. Keçən əsrin əvvəllərinin görkəmli maarifçi ziyalılarının işini davam etdirərək seçdiyiniz müəllimlik peşəsi Sizin bütün həyatınızın əsl mənasını təşkil etmişdir. Siz Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi, neçə-neçə nəsli Vətənə, xalqa, onun zəngin mədəni irsinə, mənəvi dəyərlərinə, tarixi ənənələrinə sədaqət, vətənpərvərlik ruhunda tərbiyə etmisiniz. Sonralar hansı sənətə yiyələnməsindən asılı olmayaraq, Sizdən dərs almış hər bir şəxsdə Azərbaycan dilinə, Azərbaycan ədəbiyyatına bəslədiyi tükənməz məhəbbət və sonsuz vurğunluq hisslərini məhz Siz aşılamısınız.

Səmərəli pedaqoji fəaliyyətlə yanaşı, Sizin elmi fəaliyyətiniz də təqdirəlayiqdir. Mollanəsrəddinçi şair Əliqulu Qəmküsarın həyat və yaradıcılığına həsr etdiyiniz tədqiqat əsəri, Naxçıvanın mədəniyyət tarixinin müxtəlif məsələləri ilə bağlı araşdırmalarınız, şahidi olduğunuz tarixi hadisələr, görkəmli şəxsiyyətlər haqqında qələmə aldığınız xatirələr tədqiqatçılarımız üçün qiymətli mənbələrdir.

İnanıram ki, uzun və şərəfli həyat yolunuz, torpağa, xalqa hədsiz bağlılığınız, həmişə uca tutduğunuz müəllimlik peşəsinə sonsuz sədaqətiniz Azərbaycanın hələ neçə nəsilləri üçün gözəl örnək olacaqdır.

Sizə dərin ehtiramımı bildirir, möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 oktyabr 2002-ci il*

**ŞÖVKƏT ƏLƏKBƏROVANIN**
**80 İLLİK YUBİLEYİ HAQQINDA**

**Azərbaycan Respublikasi Prezidentinin sərəncamı**

2002-ci ilin oktyabr ayında Azərbaycan milli ifaçılıq sənətinin görkəmli nümayəndəsi, tanınmış müğənni və pedaqoq, Xalq artisti Şövkət Feyzulla qızı Ələkbərovanın anadan olmasının 80 illiyi tamam olur.

Şövkət Ələkbərova milli musiqi tariximizdə şərəfli yer tutmuş sənətkarlardan olmuşdur. Nadir məlahətli səsi, dərin musiqi duyumu, yüksək səhnə mədəniyyəti ona xalq arasında muğamların, xalq musiqisinin təkrarsız ifaçısı kimi böyük şöhrət gətirmişdir. Şövkət xanım görkəmli Azərbaycan bəstəkarları Fikrət Əmirovun, Cahangir Cahangirovun, Səid Rüstəmovun, Tofiq Quliyevin, Süleyman Ələsgərovun və başqalarının mahnılarının ilk ifaçısı olmuş, onların yüksək sənət əsərləri səviyyəsinə qalxmasına öz töhfəsini vermişdir. Onun ifasında səslənən hər bir muğam və mahnı Azərbaycan musiqi mədəniyyətinin qızıl fonduna daxil olaraq, xalqın milli mədəni sərvətinə çevrilmişdir.

Milli ifaçılıq ənənələri əsasında öz məktəbini yaratmış Şövkət Ələkbərova mahnı janrının ustadı, peşəkar vokalçı olmaqla yanaşı, həm də mahir pedaqoq idi. O, gənc ifaçılar nəslinin yetişdirilməsi işinə bütün səy və bacarığını sərf etmişdir. Azərbaycanın bir çox tanınmış müğənniləri məhz Şövkət məktəbinin yetirmələridir, onun zəngin təcrübəsindən bəhrələnmişlər.

Şövkət xanım Azərbaycan musiqisinin yorulmaz təbliğatçısı idi. O, xarici ölkələrə çoxsaylı qastrollarında Azərbaycan musiqi mədəniyyətini yüksək səviyyədə təmsil etmişdir.

Milli ifaçılıq sənətinin inkişafında böyük xidmətləri olmuş Şövkət Ələkbərovanın 80 illik yubileyinin ölkəmizdə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi Şövkət Ələkbərovanın 80 illik yubileyinə həsr olunmuş tədbirlər hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Şövkət Ələkbərovanın ifasında musiqi əsərlərindən ibarət kompakt-diskin buraxılmasını və müğənni haqqında kitabın nəşr olunmasını təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 oktyabr 2002-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MAYAKOVSKİ ADINA MOSKVA AKADEMİK TEATRININ TAMAŞASINDA OLMUŞDUR

*Bakı şəhəri*

*20 oktyabr 2002-ci il*

*Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Vladimir Mayakovski adına Moskva Akademik Teatrı aktyorlarının ifasında Somerset Moemin «Dairə» tamaşası göstərilmişdir.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev tamaşada olmuşdur. Salona toplaşanlar dövlətimizin başçısını böyük səmimiyyətlə, hərarətlə qarşıladılar.*

*Əsasən ailə-məişət mövzusuna həsr olunmuş iki hissəli komediyada hadisələr qapalı dairə çərçivəsində cərəyan edir. Azərbaycan tamaşaçısının daha çox kinofilmlərdən tanıdığı məşhur aktyorlar – Rusiyanın Xalq artistləri Svetlana Nemolyayeva, Yevgeniya Simonova, Emmanuel Vitorqan yeknəsək həyat tərzinin cansıxıcılığını, ailə-məişət problemlərini, məhəbbətsiz həyatın mənasızlığını böyük məharətlə tamaşaçıya çatdırmaqla rus teatr məktəbinin yüksək ifaçılıq ənənələrini bir daha nümayiş etdirdilər. Bakı teatrsevərləri Moskva artistlərinin gözəl ifasını alqışlarla qarşıladılar.*

*Moskvalıların «LUKoyl» neft şirkətinin və «Nikoyl» maliyyə korporasiyasının dəstəyi ilə təqdim etdikləri «Dairə» tamaşasını rus teatr xadimlərinin Azərbaycan səhnəsində yaddaqalan uğuru kimi qiymətləndirmək olar.*

*Azərbaycan prezidenti Heydər Əliyev tamaşadan sonra səhnəyə qalxaraq, yüksək ifaçılıq məharətinə görə Moskva aktyorlarına təşəkkürünü bildirdi, onlara yeni-yeni uğurlar arzuladı.*

**RUSİYA FEDERASİYASININ YOLLAR NAZİRİ GENNADİ FADEYEVİN BAŞÇILIĞI İLƏ BU ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ**

*Bakı şəhəri*

*22 oktyabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları salamlayaraq dedi ki, Azərbaycanla Rusiya arasında dəmir yolu əlaqələrinin böyük əhəmiyyəti var və bu əlaqələr qısa müddət ərzində inkişaf etmişdir. Bir sıra yeni marşrutlar, o cümlədən Rusiya ərazisindən keçərək bəzi MDB ölkələrinə gedən marşrutlar açılmışdır. Miqyasına görə dünyada tayı-bərabəri olmayan Rusiya dəmir yolu hazırda böyük potensiala malikdir. Dövlətimizin başçısı SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işlədiyi dövrdə bu sahəyə kuratorluq edərkən Sovet İttifaqının dəmir yol nəqliyyatının potensialının genişləndirilməsi ilə bağlı təcrübəsindən danışdı.*

*Gennadi Fadeyev səmimi qəbula görə Azərbaycan prezidentinə minnətdarlığını bildirərək öz karyerasının yaranmasında Heydər Əliyevin rolunu, habelə Sovet İttifaqının dəmir yol nəqliyyatının inkişafında onun böyük xidmətlərini vurğuladı.*

*O, Heydər Əliyevin bu sahəyə kuratorluq etdiyi dövrdə əsası qoyulmuş Şimali Amur tuneli kimi mühüm obyektin inşasının başa çatmasından söhbət açdı. Gennadi Fadeyev Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Dəmir Yol Nəqliyyatı Şurasının Bakıda keçirilmiş 33-cü iclasının yekunları barədə dövlətimizin başçısına məlumat verərək, iclasın işinin yaxşı təşkilinə görə təşəkkürünü bildirdi.*

*Azərbaycanı Qafqazda təhlükəsizlik və sabitlik adası kimi səciyyələndirən və bütün bunların Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayan Rusiya naziri dedi ki, o, uzun müddət belə bir şəxsiyyətlə işlədiyinə görə fəxr edir. Gennadi Fadeyev bildirdi ki, SSRİ-nin süqutundan sonra dəmiryolçular əvvəlki əlaqələri saxlamağa və əməkdaşlığını möhkəmlətməyə müvəffəq olmuşlar.*

*Azərbaycan dəmiryolçularının öz tərəfdaşlarına heç bir borcu yoxdur və bu, Bakı iclasında müsbət hal kimi vurğulandı.*

*Rusiya naziri ölkəsinin dəmir yol nəqliyyatında aparılan islahatlardan da danışdı. Prezident Heydər Əliyev dəmir yolunun əhəmiyyətindən danışaraq dedi ki, o, Moskvada işə başlayanda, xüsusən taxıl, kömür, taxta-şalban daşınması sahəsində böhran müşahidə olunurdu. Dövlətimizin başçısı Baykal–Amur magistralının tikintisinin gedişini, bu obyektin ən çətin sahələrində olduğunu xatırladı.*

*Qonaq vurğuladı ki, o vaxt Heydər Əliyevin kadrların seçilməsinə, bu sahəyə rəhbərliyə müdrikcəsinə, ölçülüb-biçilmiş surətdə yanaşması ölkə dəmiryolçuları arasında ona böyük hörmət qazandırmışdı.*

*Prezident Vladimir Putinin tapşırığı ilə Rusiyanın Yollar naziri dəmir yol nəqliyyatının inkişafında böyük xidmətlərinə görə Azərbaycan dövlətinin başçısına «Transsibir magistralının 100 illiyi» medalını, habelə nazirliyin kollegiyasının xatirə hədiyyəsini təqdim etdi. Prezident Heydər Əliyev təşəkkürünü bildirərək dedi ki, bu medal onun üçün çox əzizdir, çünki Transsibir magistralı böyük tikinti idi.*

## UKRAYNA XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT KATİBİ YURİ SERGEYEV BAŞDA OLMAQLA BU ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 oktyabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları salamlayaraq dedi ki, bu cür səfərlər Azərbaycan ilə Ukrayna arasında dostluq münasibətlərinin möhkəmlənməsinə və inkişafına xidmət edir. Respublikamızın rəhbəri vurğuladı ki, prezidentlər müxtəlif beynəlxalq forumlarda, o cümlədən MDB çərçivəsində tez-tez görüşüb, ikitərəfli strateji əməkdaşlığın istiqamətlərini müzakirə etsələr də, müəyyənləşdirilmiş siyasətin xarici işlər nazirlikləri tərəfindən həyata keçirilməsinə lüzum var.*

*Yuri Sergeyev səmimi qəbula görə dövlətimizin başçısına təşəkkür edərək bildirdi ki, ölkələrimizin prezidentlərinin Yaltadakı görüşündən sonra ikitərəfli iqtisadi komissiyanın səmərəli iclası keçirilmiş, bu sahədə böyük iş görülmüşdür. O dedi ki, Ukrayna nümayəndə heyətinin indiki səfəri Azərbaycan və Ukrayna prezidentləri arasında əldə olunmuş razılaşmaların yerinə yetirilməsinə xidmət etməlidir. Yuri Sergeyev Bakıda aparılmış danışıqlardan və Xarici İşlər Nazirliyində, Nazirlər Kabinetində, parlamentdə, ARDNŞ-də keçirilmiş görüşlərdən razı qaldığını söylədi. Ukrayna diplomatı dedi: «Bu görüşlərdə nəzərə çatdırıldı ki, hazırda ölkələrimiz arasında siyasi aşkarlıq və yüksək etimad münasibətləri möcuddur və gələcəkdə Azərbaycan da, Ukrayna da bir-birini real strateji tərəfdaş görmək istərdilər».*

*Yuri Sergeyev ölkəmizin Müstəqillik günü münasibətilə Ukrayna prezidenti Leonid Kuçmanın təbrik məktubunu Azərbaycan prezidenti Heydər Əliyevə təqdim etdi.*

**AVSTRİYA RESPUBLİKASININ FEDERAL**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB TOMAS KLESTİLƏ**

Hörmətli cənab Prezident!

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında yaranmış dostluq əlaqələri gündən-günə inkişaf edərək, xalqlarımızın mənafeyinə xidmət edən faydalı əməkdaşlıq imkanlarını genişləndirəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstriya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *22 oktyabr 2002-ci il*

**ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VATSLAV HAVELƏ**

Hörmətli cənab Prezident!

Çexiya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm. Ümidvaram ki, ölkələrimiz arasında yaranmış dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çexiya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *22 oktyabr 2002-ci il*

**TÜRKMƏNİSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SAPARMURAD NİYAZOVA**

Hörmətli Saparmurad Atayeviç!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və dost Türkmənistan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Şadam ki, bu gün Sizin rəhbərliyinizlə suveren Türkmənistan dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ictimai və iqtisadi həyatın bütün sahələrində dəyişikliklərin həyata keçirilməsi yolu ilə inamla irəliləyir.

Əminəm ki, Azərbaycan ilə Türkmənistan arasında dostluq münasibətlərinin, mehriban qonşuluğun və əməkdaşlığın daha da genişləndirilməsi və möhkəmləndirilməsi xalqlarımızın mənafelərinə, regionda sülh və sabitlik işinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar, Türkmənistan xalqına isə əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *22 oktyabr 2002-ci il*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abışoviç!

Milli bayramınız – Respublika günü münasibətilə Sizi və dost Qazaxıstan xalqını ürəkdən təbrik edirəm.

Bu gün Qazaxıstan dövlətçiliyin möhkəmləndirilməsi, demokratik dəyişikliklərin həyata keçirilməsi və Dünya Birliyinə inteqrasiya yolu ilə inamla gedir.

Əminəm ki, Azərbaycanla Qazaxıstan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə, regionda sülh və sabitlik naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Qazaxıstan xalqına firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *22 oktyabr 2002-ci il*

## HÜSEYN CAVİDİN 120 İLLİK YUBİLEYİ HAQQINDA

**Azərbaycan Respublikası Prezidentinin sərəncamı**

2002-ci ilin oktyabr ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və dramaturq Hüseyn Cavidin (Hüseyn Abdulla oğlu Rasizadənin) anadan olmasının 120 illiyi tamam olur.

Hüseyn Cavid klassik milli ədəbiyyatın ənənələri ilə yeni dövrün bədii və fəlsəfi axtarışları arasında vəhdət yaradaraq XX əsr Azərbaycan ədəbiyyatının inkişafında misilsiz rol oynamış qüdrətli sənətkarlardandır. Dünya romantizm poeziyası ilə qırılmaz tellərlə bağlı olan Hüseyn Cavid yaradıcılığı öz bədii-estetik qaynağını Azərbaycan mədəniyyətinin dərin tarixi qatlarından alır.

Azərbaycan poeziyasında yeni zirvə fəth edən filosof-şair Hüseyn Cavid romantik bədii düşüncənin, fəlsəfi lirikanın orijinal nümunələrini yaratmışdır. Onun həyatın mənası ilə bağlı axtarışlarının ifadəsi olan yaradıcılığı bədii növ, janr və forma cəhətdən də çox rəngarəng və zəngindir. Yüksək bədii sənətkarlığı, dərin emosionallığı ilə seçilən Hüseyn Cavid poeziyası milli ədəbiyyat tarixində yeni bir dövrün başlanğıcını qoymuşdur.

Zamanın ümumbəşəri problemlərinin qaldırıldığı dram əsərləri ilə Hüseyn Cavid romantizmin görkəmli nümayəndələrindən biri kimi, Azərbaycan dramaturgiyası tarixində yeni bir mərhələ yaratmışdır. Azərbaycan ədəbiyyatında mənzum faciə və tarixi dramların ilk nümunələrini yaradan sənətkar ədəbiyyatımızı həm mövzu baxımından, həm də parlaq xarakterlərlə zənginləşdirərək milli bədii fikir tariximizdə mühüm yer tutmuşdur. Özünün üslub, yazı tərzi və forma yeniliyi baxımından seçilən bu xarakterlər dramaturgiyası teatr mədəniyyətimizin inkişafına güclü təsir göstərmiş, milli teatr tarixində «Cavid teatrı» kimi səciyyələndirilmişdir.

Poeziyada və dramaturgiyada bənzərsiz sənət nümunələri olan əsərlər yaradan Hüseyn Cavid bir şəxsiyyət, mütəfəkkir və sənətkar kimi, ibrətli həyat və yaradıcılıq yolu keçmişdir. Böyük şair Hüseyn Cavidin əsərləri Azərbaycan ədəbiyyatının qızıl fonduna həmişəlik daxil olmuşdur.

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri olan Hüseyn Cavidin 120 illik yubileyinin ölkəmizdə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Yazıçılar Birliyi ilə birlikdə Hüseyn Cavidin 120 illik yubileyinə həsr olunmuş tədbirlər hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Milli Elmlər Akademiyası Hüseyn Cavidin əsərlərinin külliyyatının hazırlanıb nəşr olunmasını təmin etsin.
3. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Hüseyn Cavidin həyat və yaradıcılığına həsr olunmuş sənədli filmin və onun «İblis» əsəri əsasında bədii filmin çəkilməsini təmin etsin.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti
   – Hüseyn Cavidin ev-muzeyinin ekspozisiyasının tamamlanması üçün lazımi vəsait ayırsın;
   – bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *23 oktyabr 2002-ci il*

**PREZİDENT HEYDƏR ƏLİYEV**
**BAKIDA AZƏRBAYCAN ƏDƏBİYYATININ**
**GÖRKƏMLİ NÜMAYƏNDƏSİ, BÖYÜK ŞAİR**
**VƏ DRAMATURQ HÜSEYN CAVİDİN EV –**
**MUZEYİNİN AÇILIŞ**
**MƏRASİMİNDƏ**

*24 oktyabr 2002-ci il*

*Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun binasında, XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri, şair və dramaturq Hüseyn Cavidin vaxtilə mənzili olmuş otaqlarda ədibin ev-muzeyinin açılmasına həsr edilmiş mərasim keçirilmişdir.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev mərasimdə iştirak etmişdir.*

*Muzeyin direktoru Turan Cavid dövlətimizin başçısını səmimiyyətlə qarşıladı, ona gül dəstəsi təqdim etdi.*

*Prezident Heydər Əliyev muzeyin açılışını bildirən qırmızı lenti kəsdi.*

*Turan Cavid atasının 120 illik yubileyinin qeyd olunması haqqında prezidentin sərəncamını yüksək qiymətləndirdi və dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi. Sonra o, muzeyin yerləşdiyi bina haqqında məlumat verərək dedi ki, sovet dövründə ilk vaxtlar burada müəllimlər seminariyası olmuşdur. Eyni zamanda, bu mərtəbədə müəllimlər də yaşayıblar. Burada birinci mənzil Hüseyn Cavidə, sonra isə seminariyanın direktoru Pənah Qasımova verilmişdir. Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi bu binada lap əvvəllər qız məktəbi yerləşirdi. Bu bina yüz ildir tikilibdir. Sonralar Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti, sovet dövründə isə Mərkəzi İcraiyyə Komitəsi, Ali Sovet burada yerləşirdi. 1920-ci ildən 1937-ci ilə qədər biz burada yaşamışıq. 1937-ci il sentyabrın 28-də bizi buradan çıxardılar. O vaxtdan 65 il keçibdir.*

*Prezident Heydər Əliyev ədibin həyat yoldaşı Mişginaz xanımın şəkillərinə, Hüseyn Cavidin uşaqlıq, gənclik illərini əks etdirən, müxtəlif illərdə Naxçıvanda, Tiflisdə, Türkiyədə çəkdirdiyi fotoşəkillərə baxaraq dedi:*

**Heydər Əliyev:** Mən sizin ananızı görmüşəm. Bir vaxt mənim anam xəstə idi. İndi Cavadzadənin klinikası olan bina o vaxt xəstəxana idi, orada müalicə edilirdi. Deyəsən sənin anan da yanaşı otaqda müalicə olunurdu. Bu təxminən 1956-1957-ci illər idi. Mən anamın yanına gedib-gəlirdim. Anam mənə deyirdi ki, Hüseyn Cavidin həyat yoldaşı Mişginaz xanım da buradadır, söhbət edirik. Təbiidir, anam keçmişdə onunla tanış olmamışdı, xəstəxanada tanış olmuşdular, görüşmüşdülər. Mən də o vaxtlar anamın yanına gələndə onu anamın yanında görmüşdüm. Mişginaz xanım çox gözəl qadın olubdur. Mən o vaxt onu görəndə də gözəlliyini saxlamışdı.

*Turan Cavid atasının muzeydə saxlanılan əlyazmaları, kitabları, Türkiyədən gətirdiyi əsərlər, sürgündən yazdığı məktublar barədə məlumat verdi, Hüseyn Cavidin oğlu Ərtoğrulun, qardaşı Şeyx Məhəmmədin fəaliyyəti haqqında danışdı, Hüseyn Cavidin cənazəsinin qalıqlarının Uzaq Sibirdən doğma vətənə gətirilməsinə və Naxçıvana aparılıb orada dəfn olunmasına, ədibin şərəfinə böyük məqbərə ucaldılmasına görə respublikamızın rəhbərinə təşəkkürünü bildirdi.*

*Prezident Heydər Əliyev Şeyx Məhəmmədin ona Azərbaycan dilindən dərs dediyini vurğuladı, Ərtoğrulu da həyatda gördüyünü bildirdi: Mən sənin qardaşını da görmüşəm. Deyəsən 1943-cü il idi, Naxçıvanda idim. Mənə dedilər ki, Hüseyn Cavidin oğlunu əsgərlik xidmətindən buraxıblar, gəlibdir. Ağır xəstə idi. O bir dəfə küçə ilə gedirdi. Onu mənə göstərdilər. Əsgər paltarında idi. Üz-gözü çox solğun, amma sifəti gözəl bir oğlan idi. Amma ondan sonra xəbərim olmadı. Nə vaxt vəfat etdiyi barədə xəbərim olmadı. Çünki mənim işlərim çox idi.*

**Turan Cavid:** Cənab Prezident, onun dəfnində qohumlarından başqa, heç kim iştirak etmədi. Çünki qorxurdular. Amma indi Naxçıvanda gözəl məqbərə Cavidlərə qismət oldu. Bu, taleyin işi imiş.

**Heydər Əliyev:** Elədir. Hüseyn Cavid çox faciəli həyat keçiribdir. Ancaq onun yəqin bir xoşbəxtliyi də o imiş ki, sən varsan, yaşamısan. Gəl açıq danışaq, sən yaşamasaydın, bütün bu gördüklərimizi bir yerə yığmaq olmayacaqdı. Vəfalı övlad ata-ana üçün həmişə çox böyük nemətdir. Amma vəfasızlar da var. Yenə də deyirəm, sən varsan, deməli, bunlar yaranıbdır. Bunları səndən savayı heç kəs görə bilməzdi. Demək, Allah onlara əzab-əziyyət qismət edibdir, ancaq yaxşı ki, səni də onlara verib və Allah səni saxlayıbdır ki, bu irsi qoruyub yaşadasan.

**Turan Cavid:** Cənab Prezident, bu stolun da maraqlı bir tarixi var. Mənim arzumdur ki, Siz onun arxasında oturasınız. Bu həmin stoldur ki, vaxtilə evimizi yoxlayanda onun siyirtməsi olduğunu bilməmişdilər. Atamın bir çox əsərləri burada saxlanmışdır. İndi bizə nə qalıbsa, bunun sayəsində qalıbdır.

Bakı Şəhəri İcra Hakimiyyətinin təşəbbüsü ilə bu gün saat 5-də Hüseyn Cavidin heykəlinin qarşısında böyük konsert olacaqdır. Orada onun əsərlərindən parçalar da səslənəcəkdir.

**H e y d ə r Ə l i y e v:** İndi o heykəl çox gözəldir, ətrafındakı bağı da düzəltdik. Əvvəl ora çox pis vəziyyətdə idi. Mən həmişə oradan keçirəm, hər dəfə fikirləşirdim, axı bu niyə belədir? Hacıbala bu vəzifəyə təyin olunandan sonra özü də təşəbbüs göstərdi, mən də ona dedim, oranı düzəldibdir. İndi mən oradan keçəndə görürəm ki, nə qədər adam istirahət edir, nə qədər gözəl bir bağdır. Orada iki fəvvarə də var. Biri Cavidin heykəlinin yanında, digəri onun ətrafındadır.

**T u r a n C a v i d:** Çox gözəl bağdır. Fəvvarələr də gözəldir. Atamın özü də suyu xoşlayırdı. İstirahət yeri üçün çox əlverişlidir.

**H e y d ə r Ə l i y e v:** Orada çox adam yaşayır. Əvvəllər o bağ yaxşı vəziyyətdə deyildi, heç kəs oraya istirahətə getmirdi. İndi elə gözəl vəziyyətdədir ki, ətrafda yaşayan insanlar hər gün gəlib dincəlirlər.

**T u r a n C a v i d:** Cənab Prezident, bu kitab «Peyğəmbər» əsəridir. Yuxarıda isə Şeyx Məhəmmədin şəklidir.

**H e y d ə r Ə l i y e v:** Mənə Azərbaycan dilini ilk dəfə öyrədən Şeyx Məhəmməd olmuşdur. Gözəl müəllim idi, amma çox da tələbkar idi.

**T u r a n C a v i d:** Siz həmişə müəllimlərinizi xatırlayırsınız. Tələbkar müəllim olmaq çox yaxşıdır.

**H e y d ə r Ə l i y e v:** Bəli, müəllim tələbkar olmasa, şagird oxuya bilməz. Özü də o vaxtlar. Mənim kimi şagirdə qarşı o qədər də tələbkar olmaq lazım deyildi. Amma mənimlə birlikdə 25–30 nəfər oxuyurdu, müxtəlif səviyyədə idilər. O çox tələbkar müəllim idi. Özü də dərsi qanun-qayda ilə keçirdi. O mənə 5-ci sinfə qədər Azərbaycan dili dərsi deyibdir. Amma deyim ki, görünür o vaxtlar maddi çətinliklər içində yaşayıbdır. Mən özüm də kasıb bir ailədən idim. Ümumiyyətlə, o vaxtlar dövlətli adam yox idi, müəllim də kasıb idi, məktəbli də kasıb idi. Amma bizim bəzi müəllimlər, keçmişdən qalan müəllimlər var idi. Onların əyin-başı yaxşı idi. Amma bunun çox sadə paltarı vardı.

**T u r a n C a v i d:** O, sadə insan idi. Birinci arvadından üç uşağı, o birisindən 5 uşağı var idi. Ona görə kasıb idi.

**H e y d ə r Ə l i y e v:** Görürdüm, çətinlik içində yaşayırdı. Təsəvvür edin, mənim o vaxtlar neçə yaşım var idi, üçüncü, dördüncü sinifdə oxuyurdum. Ortadan da aşağı səviyyədə yaşayırdı, amma çox tələbkar, intizamlı müəllim idi.

**T u r a n C a v i d:** O, şeirlər də yazırdı, folklor materialları toplayırdı. Bir-ikisini oğlu mənə veribdir.

**H e y d ə r Ə l i y e v:** İndi onun uşaqlarından qalan varmı?

**T u r a n C a v i d:** Bəli, iki qızı, iki oğlu durur. Oğlanları Moskvada yaşayırlar, qızların biri ədəbiyyat müəllimidir, biri isə bioloqdur, işləyirlər.

**H e y d ə r Ə l i y e v:** Turan xanım, Hüseyn Cavid bu qədər böyük əsərlər yazıbdır. Demək olar, hamısı tarixi mövzulu əsərlərdir. Elə bir əsər yazmayıb ki, məsələn, filankəs filankəsnən sevişdi, yaxud, sevişmədi, nə bilim, nə təhər oldu. Onun əsərləri tarixi mövzudadır və bunlarda tarixi dəqiqlik var. O elə çox da yaşamayıbdır. Sən mənə de görüm, düzdür, sən o vaxtlar uşaq olmusan, amma indi sən yeganə adamsan ki, onu hamıdan yaxşı tanıyırsan. O bu qədər tarixi nə çür yazıbdır, bilibdir?

**T u r a n C a v i d:** Cənab Prezident, onun mütaliəsi son dərəcə güclü olubdur. Gəncliyindən gözləri zəif idi. İstanbula gedəndə kitablar gətirirdi. O qədər də firavan dolanmayıb, amma pulunu kitablara verirdi. O, uzaqgörən idi. Müharibə başlayan zaman onun yanına gələnlər deyir ki, Cavid bizə söylədi ki, bu müharibə ya 4, ya da 5 il çəkəcək və Sovet İttifaqı qalib gələcəkdir. Hətta həbslər başlayan zaman deyirdi ki, məni niyə həbs edirsiniz, əsərlərim göz qabağındadır. O, son əsərlərinin birini də gizlədə bilmədi. Heç olmasa, evdən çıxara bilərdi.

**H e y d ə r Ə l i y e v:** Yəni onun tapılmayan əsərləri var?

**T u r a n C a v i d:** Bəli, hamısını apardılar və heç birini qaytarmadılar.

**H e y d ə r Ə l i y e v:** Axı bərpa olunan əsərləri var?!

**T u r a n C a v i d:** Yox, onlar çap olunanlardır. Onun yazıb bitirdiyi və çap olunmayan «Otello», «Çingiz», «İblisin intiqamı», «Şəhla», «Telli saz» pyeslərini, «Koroğlu»nun ssenarisini – hamısını apardılar. O, bəraət alan kimi, birinci məktubu təhlükəsizlik orqanlarına yazdım ki, atamın xəttini tanıyıram. Mən 4-cü sinifdə oxuyanda, yayda bağda olarkən ərəb əlifbasını mənə öyrətmişdi. Mənə dedilər ki, heç bir şey qalmayıbdır. «Telli saz» və «Şəhla» əsərləri evdən çıxarılıbdır. «Telli saz»ı aktyorlar tamaşaya qoymaq istəyiblər, nədənsə, yarımçıq qalıbdır. Yeganə olaraq «Xəyyam» əsərini Yerevanda bir aktyordan almışam.

**H e y d ə r Ə l i y e v:** Mən elə bilirdim «Xəyyam» qalıbdır.

**T u r a n C a v i d:** «Xəyyam» yox idi, çap olunmamışdı. 1935-ci ildə, sovet hökumətinin qurulmasının 15-ci ildönümü münasibətilə müsabiqə elan ediblər. Cavid bu əsəri həmin müsabiqəyə verir və üçüncü mükafatı alır. Mükafat almış əsər kimi, «Xəyyam» tamaşaya qoyulmalı idi. Elə oldu ki, özü də getdi, əlyazma da getdi, əsər də itdi.

**H e y d ə r Ə l i y e v:** Demək, onun vaxtında «Xəyyam» tamaşaya qoyulmayıbdır.

**T u r a n C a v i d:** Azərbaycan teatr tarixində yeganə əsərdir ki, yazılandan 35 il sonra tamaşaya qoyulmuşdur. 1935-ci ildə yazılmış, 1970-ci ildə tamaşaya qoyulmuşdur.

**Heydər Əliyev:** Onu tamaşaya Mehdi Məmmədov qoyubdur.

**Turan Cavid:** Bəli, o qoyubdur, gözəl tamaşa idi.

**Heydər Əliyev:** Mən o tamaşaya baxdım. Amma mən onda bunu bilmirdm. Elə bilirdim ki, «Xəyyam» o vaxtlar, Cavidin sağlığında tamaşaya qoyulubdur.

**Turan Cavid:** 35 ildən sonra Mehdi Məmmədov tamaşaya qoyubdur.

**Heydər Əliyev:** Demək, çap da olunmamışdı?

**Turan Cavid:** Bəli, çap olunmamışdı. Bir nəfər əsərin üzünü köçürübdür. Bu çox maraqlıdır, öz xətti deyil. Bu əsər mükafata layiq görüldüyünə görə, qəzetlərdə ondan parçalar çap olunmuşdu. Mən onları da götürdüm.

**Heydər Əliyev:** Yaxşı ki, saxlanılıbdır.

**Turan Cavid:** Bu əsəri əldə edəndə, elə bil dünyanı mənə verdilər. İndi ümid edirəm ki, bəlkə o biri əsərlər də tapıldı. Hər halda, insan ümidsiz yaşamır. Bəlkə hələ qapalı yerlər var ki, əsərləri vermirlər.

**Heydər Əliyev:** Yəni deyirsən, burada qapalı yerlər var? Mən bir də yoxladaram.

**Turan Cavid:** Cənab Prezident, yadımdadır, Siz bir dəfə çıxışınızda dediniz ki, işə təzə gələndə işçilərinizdən biri deyib ki, həyətdə Cavidin əsərlərini yandırıblar.

**Heydər Əliyev:** Bəli, mən Moskvadan təzə gəlmişdim. Burada işləyirdim. Xeltov adlı bir nəfər var idi. Bir-iki işçi o vaxtlar işləyən adamlar idi, danışırdılar ki, Hüseyn Cavidin əsərlərini və Salman Mümtazın – onun çox kitabları olubdur – kitablarını yeşiklərə doldurub həyətə tökmüşdülər, yandırırdılar. Özü də bunu edən, o işi aparan – indi Cavidin işinə baxmaq lazımdır, həmin Xeltov olub, yoxsa yox – bir qrup adam olubdur, onların içində ermənilər də olubdur. Xeltov yəhudi idi, erməni deyildi. Onların çoxu sonralar həbs edildi. Bəli, keçmiş binanın həyətində yeşiklərə doldurub yandırıblar. Bəzən də qızınmaq üçün yandırıblar. Yanacaq olmayanda kağız yandırırdılar. Mən müharibə vaxtı bunu görmüşəm. Yanacaq yox idi. Köhnə kağızları, kitabları yandırırdıq, əllərimizi qızdırırdıq.

İndi Allaha şükür, qalan əsərləri də çoxdur.

**Turan Cavid:** Mən Sizə təqdim edəcəyəm. «Bahar şəbnəmləri» adlı şeirlər kitabı təzə, Cavidin öz qələmindən çıxan tərzdə nəşr olunubdur. Çox gözəl çap edilibdir.

Dünən imzaladığınız sərəncama görə Sizə təşəkkür edirik. Görünür, Allah insanların hərəsini yer üzünə bir missiya üçün göndəribdir. Çox qəribədir, hərə bir iş görməlidir. Həqiqətən də, bu işi başlayan adam onu sona çatdırmalı idi. Bunu da Siz etdiniz. Adicə bu otaqların alınmasında deyirdilər ki, mümkün deyildir. Deyirdim ki, həyatda mümkün olmayan şey yoxdur. İnsan təkcə ölümün qarşısında acizdir, qalan hər şey insan iradəsindən asılıdır. Gərək hər işi ürəklə edəsən. Bu işləri gələcək nəsillər üçün etmisiniz.

**Heydər Əliyev:** Dünən sərəncam imzalayanda düşündüm ki, 20 il bundan öncə ilk dəfə mən Hüseyn Cavidin 100 illik yubileyi ilə əlaqədar fərman imzalamışam. Onun cənazəsinin qalıqlarının vətənə gətirilməsi dövrü yadıma düşdü. Sonra fikirləşdim ki, dünya qəribədir, 20 il bundan öncə başladığım işi yenə davam etdirirəm. Bu birincisi. İkincisi, mən onun 120 illik yubileyi haqqında sərəncam imzalamışam. Onun cənazəsinin qalıqlarının gətirilməsi, sonrakı dövr də qəribə dövr idi.

Bilirsiniz, Cavidin 1937-ci ildə repressiya zamanı həbs edilməsi, sürgün olunması və orada vəfat etməsi, bu özü bir dövrdür. Vəfat etdi, getdi torpağa, qurtardı. Amma ondan sonra, əgər loru dildə desək, onun dirildilməsi, yəni, mənəvi cəhətdən bəraəti məsələsi var idi. Biz bunu 20 il öncə etdik.

**Turan Cavid:** Mən həmişə deyirəm, onlar cismani bəraət aldılar.

**Heydər Əliyev:** Bəli, elədir. 1980-ci ildə onun cənazəsinin, nəşinin Sibirdən gətirilməsi mənim xatirimdədir. Nə qədər çətinliklər var idi. Birincisi, gedib onun gətirilməsi məsələsi nə qədər çətin idi. Bunu etdik. Mənə xəbər verdilər ki, onu gətirdilər. Xatirimdədir, burada böyük bir müşavirə topladım ki, nə edək? Hərə bir fikir deyirdi. Düzü, o vaxt çoxları, elə sənin özün də deyirdin ki, Cavid Fəxri xiyabanda dəfn olunsun. O vaxtlar bizim yazıçılar, alimlər toplaşdılar, amma mən yeganə adam idim ki, – indi özümü tərifləmək istəmirəm – dedim ki, Naxçıvanda dəfn olunsun.

**Turan Cavid:** Bunun özü uzaqgörənlik idi.

**Heydər Əliyev:** Amma nə üçün Naxçıvanda?! Mən Naxçıvanın qəbiristanlığını da tanıyıram, Naxçıvanda Fəxri xiyaban da, başqa bir şey də yoxdur. Amma mən Naxçıvan deyəndə, nəyi nəzərdə tuturdum? Mən Naxçıvan deyəndə, nəzərdə tuturdum ki, şəhərin mərkəzində, gözəl bir yerdə dəfn olunsun və qəbri üzərində məqbərə ucaldılsın. Mən bunu deyirdim. Mən bunu başa salandan sonra çoxları razı oldu, amma bəziləri yenə başladılar ki, Bakı paytaxtdır. Mən dedim, axı Naxçıvan onun doğulduğu yerdir. Bir də burada, Fəxri xiyabanda Azərbaycanın böyük insanlarının çoxu yan-yanadır. Təəssüflər olsun ki, orada layiq olmayanlar da var. Belədir, hər dövrdə kimsə, hansısa bir səhv buraxır. Onun nəticəsində belə şeylər olur. Amma mənim fikrim, düşüncələrim belə idi.

O vaxt göndərdim, Naxçıvanda yer seçdilər, çox da gözəl yerdir. Yaşadığı evin yanında. Hamısını mənə dedilər. Orada onu böyük təntənə ilə dəfn etdilər. Ancaq iki ildən sonra mən buradan getdim. Mən gedəndə də tapşırıqlar vermişdim, amma etmədilər. Sonra mənim özüm hər şeyi etdim. Mən bunu sizə demişəm. O vaxt

Moskvada ağır vəziyyətdə, məhdudiyyətlər içində olanda çox şeylər düşündüm. Cavidin məzarını da düşünmüşdüm.

Naxçıvana gələn kimi, təxminən 80 minə qədər adam mənimlə görüşmək üçün böyük meydana toplaşmışdı. Mən oraya getdim. Meydan o qədər dolu idi ki, insanlar gəlib qəbrin yanına çatmışdılar. Getdim, dedim, əvvəlcə mənə qəbri göstərin. Göstərdilər, dəhşətə gəldim. Ondan sonra da əlacım yox idi. Çünki mən Naxçıvanda adi bir insan kimi yaşayırdım, heç bir səlahiyyətim, vəzifəm yox idi. Sonra məni orada deputat seçdilər, yenə də Naxçıvanın rəhbərliyinə dedim ki, belə bir iş görmüşük, gəlin axıra çatdıraq. Onlar mənə dedilər ki, gəlin edək. Amma vəziyyət çətin idi, o qədər də mümkün deyildi. Mən 1991-ci ildə Naxçıvana rəhbər seçildim və dərhal bir-iki layihə verdim. Naxçıvanın Mədəniyyət naziri Fəttah Heydərovu sənin yanına göndərdim. Dedim, Turan xanımın yanına get, onunla danış, gəlsin görək, hansı layihə ola bilər. Bir neçə layihəyə baxdım. Ancaq o vaxt istəklərimi yerinə yetirməyə mənim imkanım yox idi. Sonra o şeyi ki, mən etdim, bunun üçün başqa imkan lazım idi. Amma görünür ki, bu adamın taleyi ağır olubdur. Onun ağır taleyi var, amma gör sonu necədir. Kim bunu təsəvvür edə bilərdi ki, bu cür məqbərə ucaldılsın. Azərbaycanda ikinci şəxs yoxdur ki, onun sevimli həyat yoldaşı da, oğlu da onunla bərabər bir yerdə dəfn olunsun.

**T u r a n  C a v i d:** Mən həmişə bir şeyə inanıram ki, nə isə gecikirsə, bu, uğurlu səbəbə görə gecikir. Bunlar vaxtilə olsaydı, yəqin belə olmayacaqdı. Demək, bu, mütləq gecikməli idi. Azərbaycanda Sizdən başqa heç kəs onların üçünü də birləşdirə bilməzdi. Bu mənim üçün çox böyük ağrı idi. Ona görə mən və çoxları çox minnətdarıq və bunu yüksək qiymətləndiririk.

**H e y d ə r  Ə l i y e v:** Allah Hüseyn Cavidə rəhmət eləsin. Mişginaz xanıma rəhmət eləsin, Ərtoğrula rəhmət eləsin. Biz onların xatirəsini əbədiləşdirmək üçün nə mümkündür etmişik, bundan sonra da edəcəyik.

**T u r a n  C a v i d:** Əminəm ki, onların ruhları bu evdədir. Burada 17 il çox xoş günlər keçirilibdir.

**H e y d ə r Ə l i y e v:** Bu gün də xoş söhbət gedir. Doğrudur, bu söhbət bir az məyusluq doğurur.

Turan xanım, mən təbrik edirəm ki, ev muzeyi açıldı. Buranın qapılarını insanlar üçün açın. Qoy gəlsinlər, baxsınlar, görsünlər ki, bunlar bizim xalqımızın, millətimizin tarixidir və insanlar bu tarixlə tanış olsunlar. Tariximizi daim insanlara, xüsusən gənc nəslə anlatmaq, bildirmək, öyrətmək lazımdır. Çünki tarixini bilməyən insan öz millətinə, xalqına sədaqətlə xidmət edə bilməz və həqiqi insan ola bilməz. Ona görə də biz Azərbaycanda muzeylər yaradarkən tariximizin ayrı-ayrı hissələrini bugünkü nəsillərə, gələcək nəsillərə göstərmək istəyirik. Bu da bunun gözəl bir nümunəsidir. Allah xeyirli eləsin.

**T u r a n  C a v i d:** Çox sağ olun. Allah Sizdən razı olsun.

* * *

*Respublikamızın rəhbəri muzeydə toplanmış maraqlı və qiymətli sənədlərlə, eksponatlarla tanış oldu, Hüseyn Cavidin Xalq rəssamı Ömər Eldarov tərəfindən yaradılmış heykəlinə, Naxçıvanda ucaldılmış məqbərəsinin maketinə baxdı.*

## AZƏRBAYCAN ƏDƏBİYYATININ GÖRKƏMLİ NÜMAYƏNDƏSİ, BÖYÜK ŞAİR VƏ DRAMATURQ HÜSEYN CAVİDİN EV - MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*24 oktyabr 2002-ci il*

Hörmətli alimlər!

Xanımlar və cənablar, dostlar!

Mən bu gün uzun bir fasilədən sonra bu binaya ayaq qoydum. Keçmişdə, 1970–1980-ci illərdə mən Azərbaycanda işləyəndə bu binaya çox gəlmişəm, çünki onda burada Azərbaycanın Ali Soveti yerləşirdi. Gəlib burada iclaslarda iştirak edirdim və hər dəfə bu salonda Azərbaycanın görkəmli şəxsiyyətlərinə, mədəniyyət, elm nümayəndələrinə yüksək dövlət mükafatları təqdim edirdim. İndi onlardan çoxları yoxdur. Ancaq muzeylərdə şəkillərini görəndə həmişə bunu xatırlayıram. Biz sonra Azərbaycanın Ali Soveti üçün yeni bina tikdik. İndi həmin o binada müstəqil Azərbaycanın Milli Məclisi yerləşir.

Bu bina haqqında çox söz-söhbət gedirdi ki, onu kimə verək. Müştəriləri, yəni bu binanı istəyənlər də çox idi. Bu da təbiidir. Çünki bu, tarixi binadır və indiyə qədər çox yaxşı qalıbdır. Azərbaycanın tarixi memarlıq abidələrindən biridir. Ancaq mən belə fikirdəydim ki, biz belə binaları yalnız elm, mədəniyyət sahəsində istifadə etməliyik. Ayrı-ayrı nazirliklərə, yaxud inzibati orqanlara belə binaları vermək o qədər də məqsədəuyğun deyildir.

Bu, keçmişdə də olubdur. Amma mən o illərdə də belə fikirdəydim. Çünki belə binalar Azərbaycanın milli sərvətidir. Hansısa bir nazirlik, hansısa bir inzibati təşkilat özü üçün bina ala bilər. Amma belə binaları memarlıq abidələri kimi, həm qoruyub saxlamaq lazımdır, həm də onlardan istifadə edərkən, uyğun təşkilatları orada yerləşdirmək, yaxud onların sərəncamına vermək lazımdır. Buna görə də çox mübahisələrdən sonra mən belə qərar qəbul etdim ki, bu bina Əlyazmalar Fonduna verilsin.

Bilirsiniz, indi burada iştirak edənlərin bəziləri xatırlayır, təəssüflər olsun ki, uzun illər, on illiklərlə bizim Əlyazmalar Fondu, yəni tarixi əlyazmaları, Azərbaycanın tarixini əks etdirən kitablar, sənədlər Elmlər Akademiyası binasının birinci mərtəbəsində yerləşirdi. Onların da çoxu orada xarab olurdu. Ona görə belə bir qərar qəbul etdik və mən çox məmnunam ki, bu qərarın qəbul olunması indi özünü tam doğruldubdur.

İndi Əlyazmalar Fondu artıq elmi-tədqiqat institutuna çevrilibdir. Burada, dediyim kimi, Azərbaycanın tarixini əks etdirən çox nadir, çox qiymətli kitablar var. Onların da çoxu Azərbaycanın tarixi abidələridir. Burada indi kollektiv işləyir, elmi tədqiqatlar aparır. Ancaq eyni zamanda düşünürəm ki, Azərbaycanın elm sahəsi ilə məşğul olan adamları, insanları, yaxud ədəbiyyat və incəsənətlə, başqa sahələrlə məşğul olanlar bu əlyazmalardan istifadə edirlər və edəcəklər.

Sonra bir problem də yarandı. Bu da ondan ibarət idi ki, bu binada vaxtilə böyük şairimiz, dramaturq, filosof Hüseyn Cavid yaşamışdır. Hüseyn Cavidin yaşadığı otaqlarda onun ev-muzeyinin yaradılması məsələsi meydana çıxdı. Bu məsələ uzun illər gündəlikdə idi. Ancaq təəssüflər olsun ki, həll edilmirdi. Bunu da həll etdik. İndi bu binada Hüseyn Cavidin ev- muzeyi yaradılıbdır. O bu binada yaşayıbdır. İndi mən orada oldum, muzeyi ziyarət etdim. 1920-ci ildən həbs olunana qədər o, ailəsi ilə bu binada yaşayıbdır. Biz burada muzey yaradılmasını təmin etdik. İndi Hüseyn Cavidin ev-muzeyi hazırdır.

Bu gün Hüseyn Cavidin anadan olmasının 120 ili tamam olur. Mən bu münasibətlə sərəncam vermişəm ki, respublikada təşkilatlar Hüseyn Cavidin 120 illik yubileyini keçirsinlər. Ona görə də mən məhz bu gün muzeyin açılışına gəldim.

Muzey çox maraqlıdır, olduqca maraqlıdır. Güman edirəm ki, Hüseyn Cavid yaradıcılığı ilə, onun həyatı ilə maraqlanan insanlar bu muzeydə maraqlı eksponatlar görə bilərlər. Həm də yaradıcılıqla, elmi işlə məşğul olanlar orada özləri üçün çox lazımlı məlumatlar toplaya bilərlər.

Biz repressiya qurbanlarının xatirəsini yad edirik. Onlar vaxtilə repressiyaya məruz qalıblar, həyatlarını itiriblər, ailələrində çox böyük çətinliklər, məhrumiyyətlər yaranıbdır. Bəli, təəssüflər olsun ki, bu böyük insanlara «sağ ol!» demək əvəzinə, onları repressiyalara məruz qoyublar. Biz Azərbaycanda repressiya qurbanlarının, demək olar ki, hamısının xidmətlərini bərpa etməyə çalışmışıq və çalışırıq. Çoxları haqqında kitablar yazılıb, abidələr yaradılıbdır və bu iş bundan sonra da gedəcəkdir.

Hüseyn Cavid də repressiya qurbanlarından biridir və özü də, ailəsi də çox məhrumiyyətlərə məruz qalmışdır. Ancaq repressiyaya təkcə ayrı-ayrı insanlar yox, təəssüflər olsun, bizim xalqımız da məruz qalmışdır. Repressiya təkcə ondan ibarət olmamışdır ki, ayrı-ayrı insanları həbs ediblər, əsərlərini qadağan ediblər, insanları güllələyiblər, öldürüblər, yaxud da sürgün ediblər, onlar həyatlarını orada itiriblər. Ümumiyyətlə,

bütün xalqımız repressiyaya məruz qalıbdır. Xalqımızın repressiyaya məruz qalması 1920-ci illərdən başlayaraq, mərhələlərlə, 1950-ci illərin sonlarına qədər davam etmişdir.

Amma bununla bərabər, tariximiz, mədəniyyətimiz də repressiyaya məruz qalmışdır, milliliyimiz də repressiyaya məruz qalmışdır. Çünki Sovetlər İttifaqı dövründə çalışmışdılar ki, bizim tariximizi də, keçmişimizi də, ənənələrimizi də yalnız kommunist ideologiyasına, sovet sosialist quruluşuna uyğunlaşdırsınlar. Təbiidir, belə bir proses gedən zaman həqiqi tariximiz, milli-mənəvi sərvətlərimiz ya məhv olmalı, ya itirilməli idi, yaxud da yaddan çıxarılmalı idi. Bu bizim tariximizdir. Biz bunu heç vaxt unutmamalıyıq. Bunlardan nəticə çıxarmalıyıq ki, xalqımız daha heç vaxt belə hallarla rastlaşmasın. Xüsusən, ona görə ki, indi bizim xalqımız azad olubdur. Biz müstəqillik əldə etmişik, 11 ildir müstəqil dövlətdə yaşayırıq.

Mən dəfələrlə demişəm və bu gün də bəyan edirəm ki, bizim müstəqilliyimizin sonu yoxdur. Belə də olacaqdır. Ancaq bu da bizdən asılıdır. Bugünkü, gələcək nəsillərdən asılıdır, hamımızdan asılıdır. Biz bu gün əlimizdən gələni edirik və etməliyik. Gələcək nəsillər üçün də biz nümunə yaratmalı, onlar üçün böyük irs qoyub getməliyik.

Repressiyaya məruz qalmış böyük tarixi, mənəvi dəyərlərimizdən, əsərlərimizdən biri də «Kitabi-Dədə Qorqud» dastanı olmuşdur.

Biz onun 1300 illik yubileyini keçirən zaman bu məsələni təhlil etdik, bu barədə danışdıq. Məqalələr, kitablar yazıldı ki, azərbaycanlıları «Kitabi-Dədə Qorqud»dan necə məhrum ediblər. İkinci dünya müharibəsindən sonra SSRİ-də gedən proseslər, o cümlədən Azərbaycanda gedən proseslər zamanı, 1950-ci ildə bizim bu tarixi abidəmizi tamamilə saxtalaşdırmağa, təhrif etməyə çalışdılar və buna da nail oldular. Amma biz «Kitabi-Dədə Qorqud»u xalqımıza qaytardıq. Onun 1300 illik yubileyini beynəlxalq miqyasda keçirdik və dünyaya göstərdik ki, bizim xalqımızın belə qədim tarixi var və belə bir tarixi abidəsi var.

O vaxt yubiley günlərində biz «Dədə Qorqud» eposunun, Azərbaycan dilində yazılmış eposun Drezden kitabxanasında saxlanılan nüsxəsinin surətini almaq istəyirdik. O indi gəlib çatıbdır. Mən onu sizə təqdim etmək istəyirəm. Hesab edirəm ki, Azərbaycanın bu günü və gələcəyi üçün ən böyük nailiyyətlərdən biridir ki, biz «Dədə Qorqud»u repressiyadan xilas etdik, xalqımıza qaytardıq. Nəhayət, onun əlyazmasının, indiyə qədər Drezden kitabxanasında qorunub saxlanılan əlyazmasının surətini biz Azərbaycana gətirmişik. Mən bunu Əlyazmalar İnstitutuna təqdim edirəm.

Sizinlə görüşməyimdən çox məmnunam. Sizin hamınıza bir daha cansağlığı və işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

* * *

**A ğ a m u s a   A x u n d o v** *(Milli Elmlər Akademiyasının humanitar və ictimai elmlər bölməsinin akademik - katibi)*: Möhtərəm Prezident, Sizin Azərbaycan Milli Elmlər Akademiyasına göstərdiyiniz daimi qayğı və böyük diqqət hamının yadındadır və heç kim bu qayğını, diqqəti heç vaxt unutmayacaqdır. Azərbaycanın ulu abidəsi olan «Kitabi-Dədə Qorqud»un qədim əlyazmasının surətini Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutuna təqdim etməyiniz Sizin elmimizə göstərdiyiniz qayğının daha bir nümunəsidir.

Hörmətli Prezident, çox sağ olun. Akademiyanın bütün əməkdaşları adından Sizə təşəkkürümü və minnətdarlığımı bildirirəm. Xalqımızın, dilimizin, elmimizin inkişafı və gələcəyi naminə Sizə uzun ömür, cansağlığı və həmişə olduğu kimi, bütün işlərinizdə böyük uğurlar arzu edirəm. Çox sağ olun.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Terrorçuların Moskvanın mərkəzində insanları girov götürmələri barədə xəbəri dərin həyəcan və hiddət hissi ilə qarşıladım.

Azərbaycan terrorizmin bütün forma və təzahürlərini qətiyyətlə pisləyir, Dünya Birliyinin bu bəlaya qarşı mübarizəsində fəal iştirak edir.

Hadisələrin gedişini diqqətlə izləyir, sizinlə həmrəy olduğumuzu və girov götürülmüş bütün adamların tezliklə azad ediləcəyinə ümid bəslədiyimizi bildiririk.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 oktyabr 2002-ci il*

**MİSİR ƏRƏB RESPUBLİKASININ**
**XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT NAZİRİ**
**XANIM FAİZƏ ƏBUL-NƏCA**
**İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*24 oktyabr 2002-ci il*

**H e y d ə r Ə l i y e v**: Sizi səmimiyyətlə salamlayıram. Ölkəmizə səfərinizdən çox məmnun olduğumu bildirirəm. Misir ilə Azərbaycan arasında dostluq əlaqələri çoxtərəflidir. Biz bu əlaqələri həmişə qiymətləndirmişik və buna çox böyük əhəmiyyət veririk. Əlaqələrimizin bütün sahələrdə inkişaf etməsini istəyirik. Bu baxımdan sizin Azərbaycana səfəriniz, burada keçirdiyiniz görüşlər, təbii ki, bizim əlaqələrimizin inkişafına çox yardım edəcəkdir. Guman edirəm ki, buradakı görüşləriniz faydalı olubdur. Deyəsən, burada bir az da işləyəcəksiniz. Təəssüflər olsun ki, səfəriniz azmüddətlidir. Guman edirəm ki, gələn dəfə daha uzun müddətə gələrsiniz.

**F a i z ə Ə b u l - N ə c a:** Cənab Prezident, başçılıq etdiyim nümayəndə heyətini bu gün qəbul etməyiniz bizim üçün böyük şərəfdir. Biz bundan çox böyük şərəf duyuruq. Çox xoşdur ki, mən bu gözəl ölkədə, Azərbaycandayam, gözəlliyi ilə seçilən Bakı şəhərindəyəm. Ümid edirəm ki, bu, Azərbaycana sonuncu səfərim olmayacaq, mən buraya yenə gələcəyəm. Səfərim qısamüddətli olsa da, səmərəli keçir. Azərbaycan tərəfdən olan həmkarlarımız, dostlarımız bizə yardım edirlər. Cənab Prezident, eyni zamanda, mənim üçün çox böyük şərəf və baş ucalığıdır ki, şəxsən Sizinlə görüşürəm. Sizin dostunuz və qardaşınız, Misir prezidenti Hüsni Mübarəkdən Sizə xüsusi salamlar gətirmişəm. Mən onun şəxsi məktubunu Sizə təqdim etmək istəyirəm. Bu məktubunda o, ümid edir ki, Azərbaycan ilə Misir arasında əlaqələr daha da möhkəmlənəcək və bütün mümkün sahələrdə daha da dərinləşəcəkdir. Bu bizim arzumuz və istəyimizdir. Prezident Hüsni Mübarək həm də məmnun olduğunu bildirir ki, Misir və Azərbaycan arasında gözəl siyasi münasibətlər yaranmışdır. Bu, eyni zamanda, prezidentlər arasında olan dostluq və qardaşlıq münasibətləri, habelə xalqlarımız arasındakı mehriban münasibətlərdir.

Misir rəhbəri ölkələrimiz arasındakı yüksək səviyyəli siyasi münasibətlərin iqtisadi münasibətlərlə möhkəmləndirilməməsindən təəssüfləndiyini bildirir. O çox arzulayır ki, iqtisadi- ticarət münasibətlərimiz də eyni dərəcədə yüksək səviyyədə olsun. Prezidentimiz mənə tapşırmışdır ki, Misir və Azərbaycan arasında müştərək komissiyaya rəhbərlik edim. Bu komissiya ölkələrimiz arasında iqtisadi, texniki və mədəni əməkdaşlıq sahələrini əhatə edəcəkdir.

Misir iqtisadiyyatı mərkəzləşdirilmiş qaydada idarə olunur. Bazar iqtisadiyyatına keçən bir ölkədir. Biz bu keçid dövrünü 25 il bundan əvvəl yaşamışıq. Ona görə müəyyən təcrübəmiz var və bunu Azərbaycanla bölüşə bilərik. Bazar iqtisadiyyatına keçmək, xarici ticarəti sərbəstləşdirmək olduqca çətindir. Bu baxımdan qısa müddət ərzində əldə etdiyiniz nailiyyətlər münasibətilə Sizi, hökumətinizi, ölkənizi təbrik etmək istəyirəm.

Bakıda aparılan danışıqlar, Misirin Sizin ölkənizlə əməkdaşlığa maraq göstərdiyi barədə də məlumat verərək bildirim ki, müştərək komissiya artıq öz işinə başlayıb və ilk protokol imzalanmışdır. Bu protokol turizm, rabitə, informasiya, maliyyə, bank, səhiyyə və digər sahələrdə əməkdaşlığı nəzərdə tutur.

Mədəni əlaqələr də çox mühüm sahədir. Mən prezidentimizdən xüsusi təlimat almışam ki, bu sahədə əməkdaşlığımızı mümkün qədər inkişaf etdirmək lazımdır. Siz bir qədər əvvəl böyük Azərbaycan şairi Cavidin ev-muzeyinin açılışında iştirak etmisiniz. Misirdə də buna oxşar bir tədbir keçirilmişdir. Oktyabrın 16-da Misirin İsgəndəriyyə şəhərində kitabxananın yenidən bərpa olunması ilə əlaqədar tədbirlər keçirilmişdir. Sizə məlum olduğu kimi, bu şəhər eramızdan əvvəl 32-31-ci illərdə Makedoniyalı İsgəndər tərəfindən salınmışdır.

**H e y d ə r Ə l i y e v:** Mən televiziya ilə gördüm. Mənim dostum Hüsni Mübarək bu tədbirlərdə iştirak etmişdir.

**F a i z ə Ə b u l - N ə c a:** Cənab Prezident, Sizə, Azərbaycan hökumətinə minnətdarlığımızı bildirmək istəyirik. Azərbaycan da bu tədbirlərə özünün layiqli töhfəsini verdi. Azərbaycan Əlyazmalar İnstitutu bir neçə çox qədim kitabı bizim kitabxanaya göndərdi. Prezident Hüsni Mübarək həm də xahiş etdi Sizə çatdırım ki, Misir Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü dəstəkləyir. Prezidentimiz onu da xahiş etmişdir ki, Yaxın Şərqdəki vəziyyətlə bağlı Misirin mövqeyi haqqında da Sizə məlumat verim. Prezident Hüsni Mübarək bütün vasitələrdən və üsullardan istifadə edərək, İsraili inandırmağa çalışır ki, fələstinlilərlə sülh danışıqlarına başlasın.

Təəssüf hissi ilə bildirmək istəyirəm ki, İraqa qarşı müharibənin başlanması təkcə bu ölkə üçün deyil, bütün Yaxın Şərq regionu üçün təhlükə yarada bilər. Prezident Mübarək İraq prezidenti Səddam Hüseyndən xahiş

edibdir ki, BMT-nin inspektorlarının şərtsiz olaraq Bağdada gəlmələrinə, lazımi obyektləri yoxlamalarına icazə versin.

**H e y d ə r Ə l i y e v:** Sağ olun, sizə təşəkkür edirəm. Mənim dostum, Misir prezidenti Hüsni Mübarəkdən gətirdiyiniz məktuba və salamlara görə təşəkkür edirəm. Məktubu diqqətlə oxuyacağam və təbiidir ki, ona cavab yazacağam.

Sizin verdiyiniz məlumatların və söylədiyiniz fikirlərin hamısı bizim üçün çox əhəmiyyətlidir. Mən prezident Hüsni Mübarəklə tam razıyam ki, bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir, amma iqtisadi əlaqələrimiz hələ ki, o səviyyəyə çatmayıbdır. Təəssüf ki, son illər biz bu əlaqələrin inkişaf etməsi üçün lazımi tədbirlər görməmişik. Mən məmnunam ki, biz indi müştərək komissiya yaratmışıq. Misir tərəfdən siz rəhbərlik edirsiniz, Azərbaycandan da Iqtisadi Inkişaf naziri Fərhad Əliyev.

Guman edirəm, sizin bu səfəriniz, müştərək komissiyanın yaranması – bunların hamısı bizim iqtisadi əlaqələrimizdə yeni mərhələnin başlanğıcı olmalıdır. Bu sahədə həm Misirdə, həm də Azərbaycanda imkanlar çoxdur. Dərman istehsalı barədə təklifinizə etiraz etmirəm, bu sahədə Azərbaycanda müştərək iş görmək olar. Çay ticarəti ilə əlaqədar da müəyyən işlər görmək mümkündür. Ancaq bunlar azdır. İqtisadi əlaqələrimizi bunlarla məhdudlaşdırsaq, bu, Misir və Azərbaycana yaraşan iş olmayacaqdır. Ona görə siz də və bizim nazir Fərhad Əliyev də başqa təkliflər irəli sürməlisiniz. Bunları bir günə etmək olmaz, ancaq məsləhətləşmək, araşdırmalar aparmaq, təkliflər irəli sürmək olar. Başqa sahələrdə də əlaqələrimizi inkişaf etdirməliyik. Misir və Azərbaycan bir-biri ilə çox tarixi əlaqələri olan ölkələrdir. Bizim adət-ənənələrimizdə, mənəvi dəyərlərimizdə çox böyük bənzərliklər var. Ona görə Misir mədəniyyəti, yaxud Misir musiqisi, rəqsi burada göstəriləndə, səslənəndə azərbaycanlılar bunu öz doğma mədəniyyətinin bir hissəsi kimi qəbul edirlər.

Mənim xatirimdədir, 1960-cı illərin əvvəllərində, yəni 40 il bundan əvvəl, bəlkə də 42-43 il bundan öncə Azərbaycanın Dövlət Mahnı və Rəqs Ansamblı Misirə qastrola getmiş, bir aydan çox müvəffəqiyyətlə konsertlər vermişdi.

Mən 1973-cü ildə Misirə səfər edərkən Qahirədə sizin opera teatrında oldum. Onda mən çox gözəl Misir operası gördüm. Bizdə gözəl opera və balet teatrı var, çox gözəl tamaşalar göstərir. Bu teatrın kollektivini ölkənizə qastrola göndərmək olar, onlar Misirin opera teatrında çox uğurla çıxış edə bilərlər. Hər bir xalqın özünəməxsus mədəniyyəti, incəsənət nümunələri var. Misirlə Azərbaycan bir-birinə çox yaxındır, bundan istifadə etmək lazımdır. Mən Qahirədə özümü çox doğma bir yerdəki kimi hiss edirdim.

Siz Yaxın Şərqdəki vəziyyətlə əlaqədar hörmətli prezident Hüsni Mübarəkin mövqeyini mənə çatdırdınız. Xahiş edirəm, Hüsni Mübarəkə mənim bu sözlərimi çatdırasınız ki, indi Misir prezidenti ərəb dünyasında ən təsirli bir şəxsiyyətdir. Eyni zamanda, onun ABŞ-da və Avropada da çox böyük hörməti var. Yaxın Şərq, Fələstin–İsrail münaqişəsinin bu cür ağır vəziyyətdən çıxarılması üçün prezident Hüsni Mübarək daha çox iş görə bilər. Prezident Hüsni Mübarəkin o fikri ilə də mən tamamilə razıyam ki, İraqa qarşı müharibə başlansa, bu, Yaxın Şərqdə vəziyyəti xeyli gərginləşdirə bilər.

Bilirsiniz ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan ağır vəziyyətə düşmüşdür. Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal edibdir. İşğal olunmuş torpaqlarımızdan bir milyondan çox azərbaycanlı çıxarılmışdır. Təəssüflər olsun, hələ ki, dünya ictimaiyyəti, böyük dövlətlər bu vəziyyətin aradan qaldırılması üçün, nədənsə, tədbirlər görmürlər. Səkkiz ildir ki, biz atəşkəs rejimini qoruyub saxlayırıq, müharibənin başlanmasına yol vermirik. Amma belə getsə, müharibənin yenidən başlanması təhlükəsi artacaqdır. Xalq belə vəziyyətə artıq dözə bilmir. Biz hər yerdə, həmçinin Yaxın Şərqdə sülh olmasına tərəfdarıq. Güman edirəm ki, siz mənim fikirlərimi Misir prezidenti, dostum Hüsni Mübarəkə çatdıracaqsınız.

## «YOXSULLUĞUN AZALDILMASI VƏ İQTİSADİ İNKİŞAF ÜZRƏ DÖVLƏT PROQRAMI»nın TƏQDİMATINA HƏSR EDİLMİŞ ÜMUMMİLLİ KONFRANSDA NİTQ

*«Gülüstan» sarayı*

*25 oktyabr 2002-ci il*

*Konfransda Prezidentin İcra Aparatının, Milli Məclisin, Nazirlər Kabinetinin məsul işçiləri, nazirlər, komitə sədrləri, şirkət və konsernlərin rəhbərləri, Milli Məclisin deputatları, səfirlər, beynəlxalq təşkilatların Azərbaycandakı təmsilçiləri, bank, maliyyə və kommersiya strukturlarının numayəndələri iştirak edirdilər.*

*Ümummilli konfransı Baş nazir Artur Rasizadə açdı.*

Hörmətli konfrans iştirakçıları!

Hörmətli xanımlar və cənablar!

Sizi – «Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı»nın müzakirəsinə həsr olunmuş ümummilli konfransın iştirakçılarını səmimi-qəlbdən salamlayıram və konfransın işinə uğurlar arzulayıram.

Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişaf problemlərinə həsr olunmuş belə bir mötəbər ümummilli konfrans böyük əhəmiyyətə malikdir. Çünki ölkəmiz dövlət müstəqilliyini əldə etdikdən sonra həyata keçirdiyimiz tədbirlər nəticəsində Azərbaycan iqtisadiyyatının inkişafına, insanların rifah halının yaxşılaşmasına nail olmuşuq. Amma eyni zamanda, yoxsulluq problemi hələ də həll edilməli böyük bir problem kimi bizim gündəliyimizdə durur.

Yoxsulluq problemi son onilliklərdə dünyada ümumbəşəri bir problemə çevrilmişdir. Dünyanın bir çox ölkələrində yoxsulluq həddi çox yüksəkdir. Yoxsulluğun azaldılması yolunda mübarizə aparılır. Bu yaxınlarda Birləşmiş Millətlər Təşkilatı tərəfindən İohannesburqda keçirilmiş konfransda da yoxsulluğun azaldılması problemi kəskin qoyulmuşdur. 2015-ci ilə qədər dünyada yoxsulluğun iki dəfə azaldılması vəzifəsi irəli sürülmüşdür.

Yoxsulluğun səbəbləri məlumdur. Dünyanın ayrı-ayrı ölkələrində bunun müxtəlif səbəbləri var. Bəzi qitələrdə elə ölkələr var ki, yoxsulluq, ola bilər, on illərlə mövcuddur. Bir çox ölkələrdə yoxsulluq son dövrdə, yəni İkinci dünya müharibəsindən sonra və xüsusən axırıncı onilliklərdə dünyada gedən proseslərlə əlaqədardır. Əgər bizim bölgəmizi, yəni Şərqi Avropa ölkələrini, keçmişdə Sovetlər İttifaqına daxil olmuş indiki müstəqil respublikaları, ölkələri götürsək, burada yoxsulluğun səbəbləri digər yerlərdən bir az fərqlidir, ancaq eyni zamanda tam aydındır. Bu, iqtisadiyyatın geridə qalması və bunun nəticəsində insanların işlə təmin olunmaması və beləliklə, onların rifahının yaxşılaşdırılması üçün imkanlar yaradıla bilməməsi nəticəsində olmuşdur.

Keçmiş Sovetlər İttifaqına mənsub olan ölkələrdə, məlumdur ki, SSRİ dağılandan sonra çox ağır sosial-iqtisadi proseslər gedib və getməkdədir. Sovetlər İttifaqı dövründə də bu ölkədə insanların hamısı eyni səviyyədə yaşamırdı. Respublikaların vəziyyətləri də müxtəlif idi. Amma, ümumiyyətlə, yoxsulluq mövcud idi. Bəlkə də o vaxt sovet sistemində hamının eyni səviyyədə yaşaması prinsipi prizmasından baxanda, kimin yoxsul olması, kimin olmaması o qədər də görünmürdü. Ümumiyyətlə, Sovetlər İttifaqında, sosialist sistemində yoxsulluq bir problem kimi müzakirə olunmurdu. Yəni problem vardısa da, onun olması etiraf edilmirdi.

Ancaq Sovetlər İttifaqı dağılandan, respublikalar müstəqillik əldə edəndən sonra baş verən proseslər, təbii surətdə, heç kəsdən asılı olmayaraq, iqtisadiyyatın müəyyən qədər pozulmasına, sonra isə müxtəlif ölkələrdə, ayrı-ayrı səviyyələrdə onların ya dağıdılmasına, ya güclü tənəzzülünə gətirib çıxarmışdır.

Bizim ölkəmizdə də bu proses olmuşdur, hamımız bunu yaşamışıq. Amma bizim ölkəmizdə Sovetlər İttifaqının dağılması ilə baş vermiş proseslərlə yanaşı, Ermənistanın Azərbaycana hələ 1988-ci ildən başlanmış hərbi təcavüzü iqtisadiyyatımıza çox böyük mənfi təsir göstərmişdir. Münaqişə, ondan sonra başlanan müharibə, təbiidir ki, iqtisadiyyatımızın bir çox sahələrinə mənfi təsir göstərmişdir. Sonrakı illərdə – 1990–1991-ci illərdə, 1992–1993-cü illərdə isə, bir tərəfdən, Ermənistan–Azərbaycan münaqişəsi, müharibə, onun nəticəsində insanların yerlərindən-yurdlarından zorla çıxarılması, qaçqın və köçkün vəziyyətinə düşməsi, bütün varidatını itirməsi, digər tərəfdən isə, Azərbaycanda bu illərdə mövcud olmuş hakimiyyət böhranı, iqtisadi və sosial böhran ölkəmizin iqtisadiyyatını ilbəil tənəzzülə uğratmışdı. 1993–1994-cü illərdə bu tənəzzül artıq son həddə çatmışdı. İqtisadiyyatımız inkişaf etmək əvəzinə, hər il təxminən 20–25 faiz tənəzzül edirdi. İnflyasiya çox yüksək səviyyəyə qalxmışdı. Təbiidir ki, belə vəziyyətdə bir çox müəssisələrin dayanması nəticəsində insanlar

işsiz qalmışdılar. Bir də qeyd edirəm, bütün bunlar və müharibə zamanı qaçqın axınının daim artması ölkəmizdə yoxsulluğun yaranmasının əsas səbəbləri olmuşdur.

Yoxsulluğu aradan qaldırmaq üçün vasitələr məlumdur. Bu bizim özümüzə də məlumdur. Ancaq eyni zamanda, dünyanın beynəlxalq təşkilatları, bu məsələlərlə məşğul olan qurumlar, ekspert təşkilatları və s. bunların hamısı çox dərin və ətraflı təhlillər apararaq, bir tərəfdən, yoxsulluğun əmələ gəlməsi səbəblərini aydınlaşdırmış, ikinci tərəfdən də, yoxsulluğun aradan qaldırılması yollarını müəyyən etmişlər. Qeyd etdiyim kimi, biz bunu özümüz də iş prosesində müəyyən etmişik. Burada bizim üçün yeni heç nə yoxdur. Amma eyni zamanda, dünya təcrübəsi, beynəlxalq təşkilatların, maliyyə qurumlarının, Birləşmiş Millətlər Təşkilatının müvafiq orqanlarının bu sahədə apardığı işlər ölkəmizdə yoxsulluğun aradan qaldırılması üçün istiqamətlərin müəyyən olunmasında və əməli tədbirlərin görülməsində bizə yardım edir.

Sizə məlumdur ki, bizim iqtisadiyyatımız, nəhayət, 1995-1996-cı illərdə tənəzzülə son qoymuşdur və ilbəil, ardıcıl surətdə inkişaf edir. İnkişafımızın da əsasları məlumdur. Birinci növbədə, bu, Azərbaycanın bazar iqtisadiyyatı yolu ilə getməsidir. Bəli, bu yol bizim üçün yeni yoldur və çoxları üçün olduqca anlaşılmaz, mürəkkəb bir yoldur. İnsanların çoxu bu iqtisadi sistem şəraitində işləməyə öyrənməmişlər. Ona görə də biz bir çox çətinliklərlə rastlaşdıq. Ancaq bazar iqtisadiyyatını tətbiq etmək üçün iqtisadi islahatların həyata keçirilməsi əsas şərt idi. Biz bunları başladıq, uğurla həyata keçirdik və indi də davam etdiririk.

Birinci növbədə torpaq islahatının həyata keçirilməsi, Azərbaycanda torpağın kəndlilərə paylanması və onlara öz torpaqlarından səmərəli istifadə etmək üçün lazımi imkanların yaradılması, yardımlar edilməsi, təbiidir ki, aqrar sektorda ilbəil müsbət dəyişikliklərin əmələ gəlməsinin əsas səbəbi olmuşdur.

Özəlləşdirmə proqramının həyata keçirilməsi. Kiçik və orta müəssisələrin özəlləşdirilməsi həyata keçirilibdir və artıq biz bütün sahələrdə özəlləşdirmənin aparılması üçün proqram tərtib etmişik. İndiyə qədər özəlləşdirmə sahəsində görülən tədbirlər öz nəticəsini veribdir.

İqtisadiyyatın liberallaşdırılması da əsas şərtlərdən biri olmuşdur. Bütün bunların nəticəsində biz, qeyd etdiyim kimi, 1996-cı ildən etibarən iqtisadiyyatımızda inkişafa nail ola bilmişik. O vaxtdan indiyədək Azərbaycanda ümumi daxili məhsul 68 faiz artmışdır. Sənaye məhsulu 23 faiz, kənd təsərrüfatı məhsulu 39 faiz, xarici ticarət dövriyyəsi 2,2 dəfə çoxalmışdır. İnflyasiyanın səviyyəsi 2,5 faiz təşkil etmişdir və bundan yuxarıya qalxmamışdır. 1995-ci ildən sonra inflyasiya demək olar ki, yox dərəcəsindədir. Bütün bunların nəticəsində biz insanların rifah halını yaxşılaşdırmaq imkanı əldə etmişik. Orta aylıq əmək haqqı bu illərdə 3,6 dəfə yüksəlmişdir. Pensiyalar 3,4 dəfə artmışdır.

İndi Azərbaycanın 1 milyard 300 milyon dollar valyuta ehtiyatı var. Ancaq biz iqtisadiyyatda işlərimizə başlayanda, demək olar ki, bir dollar da valyutamız yox idi, heç nəyimiz yox idi. Hər şey dağılmışdı. İqtisadi islahatların həyata keçirilməsi ilə əlaqədar biz əvvəldən, hələ 1993-1994-cü illərdən xarici investisiyaların Azərbaycana cəlb olunması məsələsini qarşıya qoyduq və bu barədə ardıcıl surətdə lazımi tədbirlər həyata keçirərək böyük uğurlara nail olduq. Bunların əsasını birinci növbədə, Azərbaycanın neft strategiyası təşkil edirdi. 1994-cü il sentyabrın 20-də burada, «Gülüstan» sarayında Xəzərin Azərbaycan sektorundakı «Azəri», «Çıraq» və «Günəşli» neft yataqlarının Qərb ölkələrinin bir çox böyük şirkətləri ilə müştərək işlənilməsi haqqında müqavilə imzaladıq. O, "Əsrin müqaviləsi" adlandırıldı. Bu, tam əsaslı idi, çünki o vaxt ilk dəfə idi ki, nəinki Azərbaycanda, ümumiyyətlə, dünyada belə müqavilə imzalanmışdı. Biz bu müqaviləni ardıcıl surətdə həyata keçiririk. Bilirsiniz ki, ondan sonra biz neft və qaz yataqlarının işlənməsi ilə əlaqədar bir çox başqa müqavilələr də imzalamışıq və onları da həyata keçiririk. Bunların hamısı bütövlükdə Azərbaycanın dövlət neft strategiyasını təşkil edir. Neft strategiyası Azərbaycanın təbii sərvətlərinin – neft və qaz yataqlarının xalqımızın bu günü və gələcəyi naminə səmərəli istifadə olunması üçün dünyanın böyük, təcrübəli neft şirkətləri ilə birlikdə işlənilməsidir. Bunun sayəsində biz artıq çox yaxşı nəticələr əldə etmişik.

Məlumdur ki, artıq neft hasil olunur, iki istiqamətdə dünya bazarlarına çıxarılır. Biz Bakı–Novorossiysk və Bakı–Supsa neft kəmərlərini inşa etdik. İxrac olunan neftdən həm Azərbaycan, həm də bizimlə bərabər bu işdə iştirak edən neft şirkəti öz gəlirlərini götürürlər. Bunun nəticəsində, Azərbaycanda Neft Fondu yaranıbdır. Bu gün Neft Fondunda 690 milyon dollara qədər vəsait toplanıbdır. Bu, Azərbaycanın böyük bir sərvətidir. Həyata keçirdiyimiz iqtisadi islahatlarla bərabər, bunlar iqtisadiyyatımızın inkişafını təmin etdi, xatırlatdığım göstəricilərin əldə olunmasına gətirib çıxartdı. Xalqımızın rifah halının xeyli yaxşılaşması təmin olundu. Qazanılmış nailiyyətlər təkcə istehsalın artmasından, iqtisadiyyatın inkişaf etməsindən, insanların rifah halının yaxşılaşmasından ibarət deyil, Azərbaycanın iqtisadi mənzərəsi tamamilə dəyişmişdir.

Məsələn, apardığımız iqtisadi islahatlar nəticəsində indi Azərbaycanda özəl bölmənin payı istehsalda 70 faiz, o cümlədən sənayedə 50 faiz təşkil edir. Kənd təsərrüfatında istehsalın 99 faizi özəl sektora məxsusdur. Ticarətdə də eyni ilə bu qədərdir. Tikintidə özəl sektorun payı təxminən 65 faizdir. Nəqliyyatda da bu qədərdir. Bunlar bizim iqtisadi islahatların çox gözəl nəticələridir. Bəli, bunların hamısı birlikdə, yenə qeyd edirəm ki, Azərbaycanın iqtisadi mənzərəsini dəyişdiribdir. Azərbaycanda infrastruktur inkişaf edir, şəhərlər abadlaşır. Ölkəmizdə indi geniş inşaat işləri – təbiidir, özəl sektorun vasitəsilə – gedir. Sevindirici hal odur ki, yaşayış

binaları tikilir. Bu binalar insanların yaşayış tərzini, mənzil şəraitini yaxşılaşdırmaq üçün tikilir. Bu da böyük biznesdir, son illərdə Azərbaycanda təqdir etdiyimiz bir biznesdir.

Bunların hamısı, qeyd edirəm ki, bizim gördüyümüz işlərin nəticəsidir və mənim dediyim bu sözlər və sizə söylədiyim rəqəmlər Azərbaycanın bugünkü səviyyəsini nümayiş etdirir.

Ancaq bununla bərabər, Azərbaycanda hələ yoxsulluq mövcuddur. Yoxsulluğun aradan qaldırılması bizim üçün əsas vəzifələrdən biridir. Beynəlxalq təşkilatların araşdırma metodikasının nəticələrindən belə görünür ki, əhalinin 47 faizi yoxsulluq səviyyəsindədir. Deməк, bizim vəzifəmiz bundan sonra aparılan işlərlə yoxsulluqla mübarizəni gücləndirmək, yoxsulluğu azaltmaq və gələcəkdə Azərbaycanda yoxsulluğu tamamilə ləğv etməkdən ibarətdir. Bunun üçün də mən 2001-ci ilin mart ayında Azərbaycanda yoxsulluğun azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramının hazırlanması barədə fərman imzalamışam və Dövlət Komissiyası yaratmışam. Komissiyaya Baş nazir Artur Rasizadə sədrlik edir. Bu komissiya qarşısında duran vəzifəni həyata keçirməyə çalışır. Onun apardığı işlər nəticəsində yoxsulluğun azaldılmasına, iqtisadi inkişafa dair proqram tərtib olunubdur. Bu proqram beynəlxalq təşkilatların – burada onların nümayəndələri iştirak edirlər – iştirakı, məsləhətləri, köməyi ilə hazırlanıbdır.

Biz bu proqrama baxmışıq və bu gün də o, ümummilli konfransın müzakirəsinə çıxarılır. Bu proqramda – indi bu barədə məruzə olacaqdır – əsas istiqamətlər göstərilir. Həmin proqram bizim indiyə qədər apardığımız işləri daha da sürətləndirmək, daha da mükəmməl görmək yolu ilə həyata keçirilə bilər. Yəni bazar iqtisadiyyatı getdikcə inkişaf etməli, genişlənməli, Azərbaycan iqtisadiyyatının bütün sahələrini əhatə etməlidir. İqtisadi islahatlar bütün sahələrdə həyata keçirilməlidir. İqtisadiyyat sahəsi ilə yanaşı, təhsil və səhiyyə sahəsində islahatlar da çox böyük əhəmiyyət kəsb edir. İndi biz elə bir səviyyəyə gəlib çatmışıq ki, iqtisadi islahatları mütləq davam etdirərək, təhsil və səhiyyə sahəsində islahatların sürətlə həyata keçirilməsini təmin etməliyik.

Xarici investisiyalar da cəlb olunmalıdır. İndi bizdə xarici investisiyalar ilbəil artır. Qarşıdakı illərdə də Azərbaycanın iqtisadiyyatına milyardlarla xarici investisiya qoyulması gözlənilir. Dünya təcrübəsindən səmərəli istifadə olunmaqla və beynəlxalq maliyyə qurumlarının – Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun, İslam İnkişaf Bankının, Asiya Bankının, digər bankların yardımı, kreditləri ilə ölkəmizdə müxtəlif layihələr həyata keçiriləcəkdir. İndi biz iqtisadiyyatın mümkün potensialını hərəkətə gətirmişik. Ancaq işsizliyi aradan qaldırmaq, təzə iş yerləri açmaq üçün yeni layihələr həyata keçirilməlidir. Bizim İqtisadi İnkişaf Nazirliyimizdə belə layihələr vardır. Nazir bu barədə məruzə edəcək və bildirəcəkdir. Mənə verilən məlumatlara görə, bu layihələr Azərbaycana təxminən 3 milyard dollar sərmayə qoyulmasını nəzərdə tutur. Bunu da donor ölkələrin və təşkilatların köməyi vasitəsilə etmək mümkün olacaqdır.

Biz indiyə qədər özümüz ayrı-ayrı təşkilatlarla iş görərək, Dövlət Proqramını həm öz ictimaiyyətimizin, konfransın müzakirəsinə çıxarmışıq, həm də ki, onun hazırlanmasında bizimlə bərabər işləyən beynəlxalq təşkilatlarla bir yerdə müzakirə edirik. Neft sektoruna, qeyri-neft sektoruna indiyə qədər cəlb olunan investisiyalarla yanaşı, yeni layihələrin – bir də qeyd edirəm, bunlar beynəlxalq maliyyə mərkəzləri ilə birlikdə baxılmış layihələrdir – həyata keçirilməsi, investisiya cəlb etmək istiqamətində bizim görəcəyimiz işlər yoxsulluğun azaldılmasını təmin edə biləcəkdir. Ona görə də biz bu məsələləri bu gün birlikdə müzakirə etmək fikrindəyik.

Mən çox məmnunam ki, dəvət olunan bütün beynəlxalq təşkilatların nümayəndələri konfransa gəliblər, iştirak edirlər. Əminəm ki, onlar bizim proqramın, nəhayət, tam hazırlanması və gələcəkdə onun həyata keçirilməsi üçün öz xidmətlərini göstərəcəklər.

Nitqimi qurtararaq demək istəyirəm ki, Azərbaycan 1990-cı illərin əvvəllərindəki ağır vəziyyətdən çıxaraq, ardıcıl surətdə inkişaf etmiş və artıq 2000-ci ildən sonra bu inkişaf daha da sürətli olmuşdur, ölkəmiz irəli gedir. Respublikamızın həm iqtisadiyyatını, həm də xalqın güzəranını çox yaxşı gələcək gözləyir. Biz bunu indiyə qədər gördüyümüz işlərin əsasında təmin etmişik və gələcəkdə görəcəyimiz işlər bunların hamısını tamamlayacaqdır. Neft sektorundan böyük gəlirlər gözlənilir. Bu, Azərbaycanın milli sərvətidir. Azərbaycanın ən vacib sahələrində bu sərvətdən istifadə oluna bilər. Ancaq bunun əksər hissəsi Neft Fonduna yığılaraq, gələcək nəsillər üçün saxlanılacaqdır.

Bildiyiniz kimi, Neft Fondundan indiyə kimi, ilk dəfə olaraq, mən qaçqınların sosial vəziyyətini yaxşılaşdırmaq, onlara yaşayış evləri tikmək üçün 76 milyon dollar ayırmışam. Dövlət büdcəmizə indi Milli Məclisdə baxılır. Müəyyən miqdar vəsait də büdcəmizin kəsirini örtmək üçün ayrılacaqdır. Ancaq bizim Neft Fondunun gəlirləri artacaq, qarşıdakı bir neçə ildə orada milyardlarla dollar vəsait olacaqdır. Amma bu bizi heç vəchlə arxayın etməməlidir. Bu, Azərbaycanın iqtisadi vəziyyətinin təminatıdır.

Ancaq eyni zamanda, Azərbaycanın qeyri-neft sektorunda çox böyük imkanlarımız vardır. Azad sektorda, iqtisadiyyatın neftə aid olmayan başqa sektorlarında böyük imkanlarımız vardır. Bu imkanların hamısından istifadə olunması və nəticədə iqtisadiyyatın inkişafının, xalqın rifah halının yaxşılaşdırılmasının təmin edilməsi bizim vəzifəmizdir. Sizə bildirmək istəyirəm ki, bunun üçün bizim real imkanlarımız da yaranıbdır. Biz indiyə qədər apardığımız işlər nəticəsində həm xeyli uğurlar əldə etmişik, həm də gələcək illər üçün çox tutarlı əsas yaratmışıq. Əgər biz 1994-1995-ci illərdə, demək olar ki, boş yerdə, dağılmış iqtisadiyyat şəraitində Azərbaycanın inkişafını

təmin etməyə başladıqsa, bilirsiniz ki, indi böyük bir bünövrə üzərində dururuq. Bu bünövrə də Azərbaycanın bugünkü müstəqilliyi, azadlığı, Azərbaycanın müstəqil, demokratik, dünyəvi, hüquqi dövlət qurması, Azərbaycanın Konstitusiyasıdır. Yenə də deyirəm, indi Azərbaycanın güclü iqtisadiyyatı var. Biz bu möhkəm təməl üzərində dururuq və buradan gələcəyə doğru irəliləyirik. Bax, bu yolda bizim əsas vəzifələrimizdən biri yoxsulluğun azaldılmasıdır. Güman edirəm ki, bugünkü müzakirələrdə bu məsələ öz əksini tapacaq və nəhayət, Dövlət Proqramı təsdiq olunaraq həyata keçiriləcəkdir.

Sağ olun.

* * *

*Fasilə zamanı Azərbaycan prezidenti Heydər Əliyev konfransda çıxış edənlərlə səmimi görüşdü, maraqlı və dəyərli təkliflərinə görə onlara təşəkkürünü bildirdi. Qonaqlar konfransın yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə prezident Heydər Əliyevə minnətdarlıqlarını çatdırdılar.*

## XƏZƏR DƏNİZİNDƏ AZƏRBAYCAN DÖVLƏT XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN «MERKURİ–2» BƏRƏSİNİN QƏZAYA UĞRAMASI NƏTİCƏSİNDƏ HƏLAK OLANLARIN XATİRƏSİNİ YAD ETMƏK MƏQSƏDİ İLƏ AZƏRBAYCAN RESPUBLİKASINDA MATƏM ELAN OLUNMASI HAQQINDA

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

2002-ci il oktyabr ayının 22-də saat 10.30 radələrində Qazaxıstanın Aktau limanından Bakı istiqamətində üzən, Xəzər Dəniz Gəmiçiliyinə məxsus «Merkuri–2» bərəsi Bakıdan 130 kilometrlik məsafədə qəzaya uğrayaraq batmışdır. Elə həmin gün Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə Təhlükəsizlik Şurasının təcili iclası çağırılmış, baş vermiş qəza ilə bağlı xilasetmə işlərinin təşkili və hadisənin səbəblərinin araşdırılması üzrə Dövlət Komissiyası yaradılmışdır. Dövlət Komissiyası təxirəsalınmaz xilasetmə işlərinin yerinə yetirilməsinə rəhbərlik etmiş və bilavasitə qəza yerində olaraq lazımi tədbirlər görmüşdür. Xilasetmə işləri qəza haqqında xəbər alınan andan həyata keçirilməyə başlanmışdır. Əməliyyata Xəzər Dəniz Gəmiçiliyinə, Dövlət Neft Şirkətinə, Müdafiə Nazirliyinə, Sərhəd Qoşunlarına və «Britiş Petroleum» şirkətinə məxsus 19 gəmi, eləcə də «Azərbaycan Hava Yolları» Dövlət Konserninin, Müdafiə Nazirliyinin və «Britiş Petroleum» şirkətinin 7 vertolyotu cəlb olunmuşdur. Qəza baş verən ərazidə ekoloji vəziyyətə nəzarət etmək üçün əməliyyatda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xüsusi tədqiqat gəmisi də iştirak etmişdir. Hadisə ilə bağlı Respublika Prokurorluğunda cinayət işi açılmış, istintaq aparılır.

Son məlumata görə, qəza baş verərkən bərədə 42 heyət üzvü və 8 sərnişin olmuşdur. Hava şəraitinin mürəkkəb olmasına baxmayaraq, əməliyyatda iştirak edən gəmi və vertolyot heyətlərinin yüksək peşəkarlığı və fədakarlığı nəticəsində 9 nəfər xilas edilmiş, 4 nəfərin cəsədi tapılmışdır. Qalanların taleyini isə, təəssüf ki, hələlik müəyyən etmək mümkün olmamışdır.

Qəzanın nəticələrinin aradan qaldırılması və səbəblərinin araşdırılması üçün yaradılmış Dövlət Komissiyası öz işini davam etdirir.

Qəza nəticəsində həlak olanların xatirəsini yad etmək məqsədi ilə onların ailələrinin dərin kədərinə şərik olaraq qərara alıram:

2002-ci il oktyabrın 28-də Azərbaycan Respublikasının ərazisində matəm elan olunsun.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 oktyabr 2002-ci il*

* * *

2002-ci il oktyabrın 22-də Xəzər dənizində Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin «Merkurii–2» bərəsinin qəzaya uğraması nəticəsində baş vermiş insan tələfatı ilə əlaqədar kədərləndiyimi bildirir, Azərbaycan xalqına, habelə həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, onlara səbir və dözüm diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 oktyabr 2002-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Moskvanın mərkəzində antiterror əməliyyatı aparılarkən çoxsaylı insan tələfatı olması xəbəri məni dərindən sarsıtdı.

Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına başsağlığı verir, yaralanların tezliklə sağalmasını arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasinin Prezidenti**

Bakı şəhəri, *26 oktyabr 2002-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BÜLƏND ECEVİTƏ**

Hörmətli cənab Baş nazir!

Türkiyə Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Dost və qardaş Türkiyənin dövlətçiliyin möhkəmləndirilməsində, cəmiyyətin həyatının bütün sahələrində qazandığı nailiyyətləri yüksək qiymətləndirirəm.

Əminəm ki, qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımız arasındakı dostluq tarixin bütün sınaqlarından çıxaraq əbədi yaşayacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Türkiyə xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 oktyabr 2002-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Türkiyə Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və bütün Türkiyə xalqını ürəkdən təbrik edirəm.

Biz Dünya Birliyində layiqli yer tutmuş qardaş Türkiyənin uğurlarına sevinir, ölkənizin beynəlxalq nüfuzunun gündən-günə artmasından fərəh hissi keçiririk.

Xalqlarımızın tarixi birliyi və sarsılmaz dostluğu bizim ən böyük sərvətimizdir. Belə bir möhkəm təməl üzərində qurulmuş dövlətlərarası münasibətlərimizdə bir-birimizə inam və etibarımız, qarşılıqlı dəstəyimiz böyük məmnunluq doğurur.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyəyə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 oktyabr 2002-ci il*

**TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN**
**SƏDRİ ZATİ-ALİLƏRİ**
**CƏNAB ÖMƏR İZGİYƏ**

Hörmətli cənab Sədr!

Türkiyə Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və Türkiyə Böyük Millət Məclisinin üzvlərini səmimi-qəlbdən təbrik edirəm.

Qardaş Türkiyənin demokratik, hüquqi, dünyəvi cəmiyyət quruculuğu yolunda uğurlarından, beynəlxalq aləmdə rolunun artmasından qürur duyuruq.

Əminəm ki, Azərbaycan ilə Türkiyə arasında möhkəm dostluq və sıx əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 oktyabr 2002-ci il*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Əlcəzair Xalq Demokratik Respublikasının milli bayramı–Əlcəzair inqilabı günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı xalqlarımızın rifahına daim öz töhfəsini verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 oktyabr 2002-ci il*

## RUSİYA FEDERASİYASI HESABLAMA PALATASININ SƏDRİ SERGEY STEPAŞİN BAŞDA OLMAQLA RUSİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 oktyabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları salamlayaraq dedi ki, Rusiya nümayəndə heyətinin səfəri Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafı üçün və Azərbaycan Hesablama Palatasının əlavə təcrübə əldə etməsindən ötrü çox faydalı olacaqdır. Prezident Heydər Əliyev Sergey Stepaşinin Rusiyanın xüsusi xidmət idarələrinə və Daxili İşlər Nazirliyinə başçılıq etdiyi vaxtlarda onunla dəfələrlə görüşdüyünü xatırladaraq, hüquq-mühafizə orqanları arasında münasibətlərin inkişafı və möhkəmləndirilməsi sahəsində Azərbaycan və Rusiya tərəflərinin xeyli iş gördüyünü vurğuladı. Bu strukturlar arasında əlaqələr yaxşı səviyyədədir və bu əməkdaşlıq Azərbaycanda ağır cinayətlər törədib, Rusiyanın müxtəlif regionlarında, o cümlədən də Moskvada gizlənmiş cinayətkarların tutulub ölkəmizə təhvil verilməsinə imkan yaratmışdır.*

*Azərbaycan prezidenti dedi ki, ölkəmizdə Hesablama Palatası xeyli gec yaradılsa da, onun işini sahmanlamaq mümkün olmuşdur. Rusiya Hesablama Palatası nümayəndə heyətinin Azərbaycana səfəri həm ikitərəfli münasibətlərin inkişafına, həm də Rusiya Hesablama Palatasının topladığı böyük təcrübəni azərbaycanlı həmkarları ilə bölüşməsinə kömək edəcəkdir. Prezident Heydər Əliyev dedi: «Siz həmişə Azərbaycanın dostu olmusunuz və düşünürəm ki, yenə də bu mövqelərdə qalırsınız».*

*Səmimi qəbula görə təşəkkür edən Rusiya Hesablama Palatasının sədri Sergey Stepaşin Bakida görülmüş işlərdən danışdı. O, Rusiya prezidenti Vladimir Putinin salamını yetirərək bildirdi ki, cənab Putin Moskvada baş vermiş faciəli hadisələrlə əlaqədar Azərbaycan rəhbərinin yüksək mövqeyinə görə ona təşəkkürünü çatdırmağı xahiş etmişdir. Sergey Stepaşin o ağır günlərdə Rusiyanı dəstəklədiyinə görə Heydər Əliyevə öz adından da dərin minnətdarlığını bildirdi. O dedi: «Sizin istər sovet dövründə, istərsə də indi nümayiş etdirdiyiniz belə açıq və səmimi münasibət çox əhəmiyyətlidir və mənim Azərbaycana bugünkü səfərim də dost səfəridir».*

*Hesablama Palatasının başçısı bildirdi ki, bu, Rusiya nəzarət orqanları rəhbərinin Azərbaycana ilk səfəridir. Səfər ərəfəsində böyük iş görülmüş və qısa müddətdə Rusiya mütəxəssisləri azərbaycanlı həmkarlarını öz işlərinin bir çox incəlikləri ilə tanış etmişlər. Səfər zamanı əməkdaşlıq haqqında saziş imzalanacaqdır.*

*O, Hesablama Palatası yaradılması təşəbbüsünə görə Azərbaycan prezidentinə təşəkkür edərək dedi: «Büdcə, iqtisadiyyat ilə bağlı vəziyyət barədə müstəqil mənbədən məlumat almaqdan qorxmayan dövlət başçısı məhz Sizin kimi hərəkət etməlidir». S.Stepaşinin fikrincə, «Azərbaycanda müstəqil maliyyə nəzarəti orqanının var qüvvə ilə fəaliyyətə başlaması çox vacibdir». O, Rusiya tərəfinin bu prosesdə əməkdaşlığa hazır olduğunu da vurğulayaraq bildirdi ki, bir sıra birgə nəzarət tədbirləri, o cümlədən sərhəddə vəziyyətlə bağlı tədbirlər keçirilməsi barədə razılaşma əldə olunmuşdur. Bu tədbirlərin nəticələri barədə parlamentlərə də, dövlət başçılarına da məlumat veriləcəkdir.*

*Rusiya Hesablama Palatasının sədri hazırda ölkələrimiz arasında ticarət-iqtisadi əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayaraq dedi ki, Rusiya prezidenti Vladimir Putinin Azərbaycana ilk rəsmi səfəri və Azərbaycan prezidenti Heydər Əliyevin Rusiya Federasiyasına dövlət səfəri bu əməkdaşlıq üçün böyük stimul olmuşdur. Qonaq bildirdi ki, Rusiya Hesablama Palatasının işi təkcə büdcəyə nəzarət etmək deyil, həm də qəbul edilən qərarların iqtisadi səmərəliliyini müəyyənləşdirməkdən ibarətdir. Rusiya mütəxəssisləri Bakıda öz həmkarları ilə bu təcrübə barədə fikir mübadiləsi aparmışlar.*

*Prezident Heydər Əliyev Rusiya nümayəndə heyətinin səfərinin əhəmiyyətindən danışaraq dedi ki, bu səfər «istər ölkəmiz üçün, istərsə də Hesablama Palatamız üçün çox faydalıdır». Ölkədə çoxları Hesablama Palatasının funksiyalarının, səlahiyyətlərinin və imkanlarının nədən ibarət olduğunu hələ təsəvvür etmir, çünki bu, Azərbaycan üçün tamamilə yeni bir strukturdur. Azərbaycan prezidenti Rusiyanın bu sahədə təcrübəsi ilə tanışlıq baxımından nümayəndə heyətinin səfərini yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı vurğuladı ki, Vladimir Vladimiroviç Putinin əsrin başlanğıcında Azərbaycana səfərindən sonra Rusiya–Azərbaycan münasibətlərində hər iki tərəfin xeyrinə çox şey dəyişmişdir.*

*Azərbaycan prezidentinin bu yaxınlardakı səfəri zamanı hər iki ölkə üçün çox vacib olan «Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında saziş» imzalanmışdır. Ölkələrimizin dövlət başçılarının*

*MDB çərçivəsində də «əlaqə saxladıqlarını xatırladan prezident Heydər Əliyev dedi ki, bunun həm Rusiya üçün, həm də Azərbaycan üçün qarşılıqlı faydası vardır.*

*Azərbaycan terrorçuların Moskvadakı hərəkətlərinə biganə qala bilməzdi. Dövlətimizin başçısı vurğuladı ki, «biz nəinki bu hərəkətləri pislədik, onun narahatlığını keçirdik, sizinlə həmrəy olduğumuzu bildirdik, həm də konkret qərarlar qəbul etdik və bu da Rusiya tərəfinə məlumdur».*

*Prezident Heydər Əliyev Xəzər dənizində insanların həlak olmasına gətirib çıxarmış faciə – «Merkuri–2» gəmi-bərəsinin qəzaya uğramasından və xilasetmə tədbirlərindən də danışaraq dedi ki, hazırda faciənin səbəbləri araşdırılır. Faciə ilə əlaqədar Azərbaycanda matəm elan olunmuşdur.*

*Azərbaycanın dövlət başçısı gələn ilin büdcəsindən söhbət açaraq bildirdi ki, bu büdcə sosial yönümlüdür, daxil olacaq gəlirin yarıdan çoxu sosial ehtiyaclara sərf ediləcəkdir ki, bu da büdcədən əmək haqqı alanların hamısının maaşlarını artırmağa imkan verəcəkdir. Özü də bu artım hissediləcək dərəcədə olacaqdır. 1996-cı ildən bəri Azərbaycanda orta əmək haqqı 3,4 dəfə artmışdır, pensiyalarla bağlı vəziyyət də belədir. Lakin bütün bunlara baxmayaraq, bu artım Azərbaycan qaçqınlarının öz evlərini, öz torpağını əvəz edə və onların əziyyətlərini yüngülləşdirə bilmir.*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA**

Hörmətli cənab Prezident!

Braziliya Federativ Respublikasının prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən tərbik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Braziliya arasında təşəkkül tapmaqda olan dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyi naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Braziliya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 oktyabr 2002-ci il*

## RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*29 oktyabr 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin dəvəti ilə Rumıniya prezidenti İon İliyesku ölkəmizə rəsmi səfərə gəlmişdir.*

*Rumıniyanın və Azərbaycanın dövlət bayraqları ilə bəzədilən Binə beynəlxalq hava limanı binasının önündən Rumıniya dövləti başçısının iri portreti, rumın və Azərbaycan dillərində «Rumıniya prezidenti İon İliyesku, Azərbaycana xoş gəlmisiniz!» sözləri yazılmış trasparant asılmışdı. Təyyarənin pilləkəni yanında milli geyimli uşaqlar ali qonağa gül-çiçək dəstəsi təqdim etdilər.*

*Rumıniya prezidentini və onu müşayiət edən rəsmi şəxsləri Baş nazirin müavini Yaqub Eyyubov, Xarici Işlər nazirinin müavini Xələf Xələfov, Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov, Azərbaycanın Rumıniyadakı səfiri Eldar Həsənov, Rumıniyanın ölkəmizdəki səfiri Tansin Cəmil qarşıladılar.*

*Rumıniya prezidenti İon İliyesku hava limanından avtomobil karvanının müşayiəti ilə Prezident sarayına gəldi. Burada, dövlət başçılarının rəsmi qarşılanması üçün xüsusi olaraq ayrılmış meydançada prezident İon İliyeskunun rəsmi qarşılanma mərasimi keçirildi.*

*Azərbaycan prezidenti Heydər Əliyev Rumıniya dövlətinin başçısını mehribancasına və səmimiyyətlə qarşıladı.*

*İki ölkənin dövlət bayraqları ilə bəzədilən meydançada fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Rumıniya prezidenti İon İliyeskuya və Azərbaycan prezidenti Heydər Əliyevə raport verdi.*

*Rumıniyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Rumıniya dövlətinin başçısı Azərbaycan Milli ordusunun əsgərlərini Azərbaycan dilində «Salam, əsgər!» sözləri ilə salamladı.*

*Qarşılanma mərasimində iştirak edən respublikamızın rəsmi şəxsləri ali qonağa, Rumıniya prezidenti İon İliyeskunu səfərdə müşayiət edən nümayəndə heyətinin üzvləri isə dövlətimizin başçısı Heydər Əliyevə təqdim olundu.*

## RUMINİYA PREZİDENTİ İON İLİYESKU İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*29 oktyabr 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Rumıniya prezidenti İon İliyesku ilə təkbətək görüşü olmuşdur.*

*Ali qonağı mehribanlıqla və səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev onun dəvətini qəbul edərək, respublikamıza rəsmi səfərə gəldiyinə görə cənab İon İliyeskuya təşəkkür etdi, bu səfərin Azərbaycan–Rumıniya əməkdaşlığının daha da inkişaf etməsində mühüm rol oynayacağına əmin olduğunu bildirdi.*

*Səmimi sözlərə, yüksək qonaqpərvərliyə, ölkəmizə rəsmi səfərə dəvətə görə prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən prezident İon İliyesku Rumıniyanın Azərbaycanla bütün sahələrdə əlaqələrin daha da sıxlaşdırılmasına böyük əhəmiyyət verdiyini söylədi.*

*Ölkələrimizdəki ictimai-siyasi, iqtisadi vəziyyət barədə ətraflı söhbət açan dövlət başçıları bütün sahələrdə ikitərəfli əlaqələrin daha da genişləndirilməsinin böyük perspektivlərə malik olduğunu nəzərə çatdırdılar.*

*Azərbaycan ilə Rumıniyanın beynəlxalq təşkilatlardakı əməkdaşlığından razılıqla bəhs edən prezidentlər bu əlaqələrin daha da möhkəmləndirilməsinin vacibliyini bildirdilər.*

*Prezidentlər Azərbaycanın karbohidrogen ehtiyatlarının Avropaya nəql edilməsində mühüm rol oynayacaq Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihələri barədə müzakirələr apardılar, böyük əhəmiyyətli beynəlxalq və regional layihələrin həyata keçirilməsində ölkələrimizin yaxından iştirak etməsindən söhbət açdılar.*

*Ölkəmizin ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən prezident Heydər Əliyev Ermənistanın Azərbaycana qarşı əsassız iddiaları nəticəsində başlanmış bu münaqişənin uzun müddət davam etdiyini, respublikamızın ərazisinin 20 faizinin işğal olunduğunu, bir milyondan çox soydaşımızın yerindən-yurdundan didərgin düşərək indiyədək çadır şəhərciklərində ağır və dözülməz şəraitdə yaşadığını bildirdi.*

*Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasında Rumıniyanın həmişə respublikamızın mövqeyini dəstəklədiyini nəzərə çatdıran prezident İon İliyesku onun ölkəsinin bundan sonra da Azərbaycanın haqq işini müdafiə edəcəyini söylədi.*

*Prezidentlər bu münaqişənin aradan qaldırılması sahəsində ATƏT-in Minsk qrupunun və həmsədrlik edən ölkələrin səylərinin səfərbər edilməsinin vacibliyi barədə yekdil fikirdə olduqlarını bildirdilər.*

*Beynəlxalq terrorizmin həm Azərbaycan, həm də Rumıniya tərəfindən qətiyyətlə pislənildiyini nəzərə çatdıran dövlət başçıları bu sahədə səylərin daha da gücləndirilməsinin zəruriliyini vurğuladılar.*

*Dostluq və səmimilik şəraitində keçən görüşdə Qafqazda və bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN – RUMINİYA DANIŞIQLARI

*Prezident sarayı*

*29 oktyabr 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ilə Rumıniya prezidenti İon İliyesku arasında keçirilən təkbətək görüş başa çatdıqdan sonra dövlət başçılarının rəhbərliyi ilə Azərbaycan və Rumıniya nümayəndə heyətlərinin geniş tərkibdə görüşü oldu.*

**H e y d ə r Ə l i y e v:** Zati-aliləri hörmətli cənab prezident İon İliyesku!

Hörmətli qonaqlar!

Mən Sizi Azərbaycanda səmimi-qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Cənab Prezident, çox məmnunam ki, Siz mənim dəvətimi qəbul edib Azərbaycana rəsmi səfərə gəlmisiniz.

Rumıniya–Azərbaycan əlaqələri son illərdə ardıcıl surətdə inkişaf edir və bunun da əsası hələ 1995-1996-cı illərdə Azərbaycan prezidentinin Rumıniyaya rəsmi səfəri, 1996-cı ilin mart ayında, cənab Prezident, Sizin Azərbaycana rəsmi səfəriniz zamanı qoyulubdur. Bundan sonra çoxsaylı səfərlər, görüşlər olubdur. Biz birlikdə bir çox beynəlxalq proqramlarda iştirak edirik. Bunlar hamısı Rumıniya ilə Azərbaycan arasındakı əlaqələrin, qeyd etdiyim kimi, çox yaxşı səviyyədə olduğunu göstərir.

Cənab Prezident, mən ümidvaram ki, Sizin bu səfəriniz də Rumıniya–Azərbaycan əlaqələrinin daha da genişlənməsinə, sürətlə inkişaf etməsinə təkan verəcəkdir və biz gələcəkdə daha uğurlu əməkdaşlıq edəcəyik. Mən Sizi bir daha salamlayıram. Xoş gəlmisiniz!

**I o n I l i y e s k u:** Cənab Prezident!

Əziz dostlar!

İcazə verin, ilk növbədə, Azərbaycan Respublikasına səfərə gəlmək üçün mənə yaradılan imkana görə təşəkkürümü bildirim. Biz Azərbaycan Respublikası ilə münasibətləri müəyyən dərəcədə öncül hesab edirik, sizin ölkənizlə əlaqələri genişləndirmək istəyirik.

Rumıniya Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ikinci ölkədir. Biz bütün bu illərdə baş verən iqtisadi və siyasi hadisələrin gedişini, ümumən, ölkələrimizdə vəziyyətin inkişafını izləyirdik. Qara dəniz regionunda əməkdaşlığa həsr edilmiş tədbirlər çərçivəsində tez-tez görüşlərimiz olurdu. Biz prezident Heydər Əliyevin Böyük İpək Yolunun bərpa olunması, özü də təkcə bunu deyil, həm də bu dəhlizlə neftin, qazın və digər malların daşınması barədə təşəbbüsünü dəstəkləmişik.

Biz Dağlıq Qarabağ bölgəsi ilə bağlı münaqişənin gedişini diqqətlə izləyirdik. Biz ATƏT çərçivəsində məhz bu baxımdan gərəkli olmağa çalışırdıq, çünki Rumıniya 2001-ci il ərzində bu təşkilatın sədri olmuşdur. Biz bu münaqişənin dincliklə və siyasi yolla həlli üçün Azərbaycan Respublikasının göstərdiyi səyləri müsbət qiymətləndirmişik və qiymətləndiririk. Ümidvarıq ki, münaqişənin ən münasib həllini ancaq bu yolla tapmaq olar. Biz əsl dostlar olaraq qalırıq, o mənada ki, ixtiyarımızda olan vasitələr baxımından köməyimiz dəyə bilər.

Ölkələrimiz çətin keçid dövrünü, iqtisadi və siyasi sahədə böyük dəyişikliklər prosesi dövrünü yaşayırlar. İstər Azərbaycanın, istərsə də Rumıniyanın iqtisadiyyatında vəziyyətin normallaşdığını göstərən müsbət cəhətlər var. Zənnimcə, biz ikitərəfli münasibətlərimizin inkişafı qeydinə qalmalıyıq. Bu gün ticarət münasibətlərimiz, ümumən iqtisadi əməkdaşlığımız aşağı səviyyədədir.

Bu istiqamətdə irəliyə doğru bir addım atılmış, yəni iqtisadi əməkdaşlıq məsələlərinə dair birgə komissiya yaradılmışdır. Rumıniya hökuməti ölkənin Nəqliyyat nazirini Rumıniya tərəfindən komissiyanın həmsədri təyin etmişdir. Biz belə başa düşdük ki, bu komissiyada Azərbaycanın da nümayəndəsi var. Zənnimcə, bu işdə bizim ilk addımımız birgə komissiyanın iclasını çağırmaq və həmin iclasda ticarət əlaqələrinin, eləcə də iqtisadi əməkdaşlığın digər formalarının inkişafına dair hər iki tərəfin konkret təkliflərini araşdırmaqdan ibarət olmalıdır. Rumıniya tərəfi energetika, neft və qaz, onların emalı sənayesində bir sıra ideyalar irəli sürə bilər. Nəqliyyat, ağac emalı, yeyinti sənayesi və bir sıra digər sahələrdə həyata keçirilə biləcək ideyalar da mövcuddur. Zənnimizcə, əsas vəzifə ondan ibarətdir ki, iqtisadi məsələlərə dair birgə komissiya meydana çıxa bilən bütün təklifləri və ideyaları uzlaşdıraraq, özünün gələcək fəaliyyətini müəyyənləşdirsin.

Biz Gürcüstanla əməkdaşlıq şəraitində Xəzər dənizi regionu ilə Rumıniya ərazisindən keçməklə Avropaya gedən tranzit yolun üstündə yerləşən ölkələri əhatə edən iqtisadi layihəni həyata keçirmək istərdik. Gürcüstanla əldə edilmiş razılıq əsasında biz Konstansa və Batumi limanlarından Poti limanınadək bərə xətti açmışıq. Dünyanın beş ən iri gəmi-bərəsindən ikisi Rumıniyaya məxsusdur. Onlarla birdəfəyə 120 dəmir yol vaqonu göndərmək mümkündür. Lakin hələlik onları tam həcmdə yükləmək olmur. Buna görə də sizin köməyinizlə, sizin dəstəyinizlə onları tam yükləmək istərdik. Təbiidir ki, bu gəmi-bərələr vasitəsilə istənilən malları, o cüm-

lədən neft sisternlərini daşımaq mümkündür. Sizin neftinizin göndərilməsini təmin edən Supsa limanının imkanlarından daha yaxşı istifadə etmək barədə də danışmaq olar. Bizim Konstansa limanı yaxınlığında neft emalı kombinatı, habelə bütün ölkə ərazisində bir sıra müəssisələr vardır. Ola bilsin, bu sahədə ixtisaslaşmış 2 milli şirkəti Azərbaycan neftinin əvvəlcə Rumıniyanın neft emalı zavodlarına, gələcəkdə isə Avropa bazarına çıxarılmasına dair müəyyən saziş imzalamağa həvəsləndirmək məqsədəuyğun olardı.

Konstansa yaxınlığında yerləşən özəl şirkət «Rompetrol» adlanır və o, artıq Azərbaycan Respublikasındakı tərəfdaşları ilə birgə işləyir. Hələlik isə Rumıniya Milli Neft Şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında tərəfdaşlığın genişləndirilməsinə yönəldilmiş danışıqlar aparılır. Özü də bizim milli şirkət kəşfiyyat işləri aparmaq, habelə neft hasilatı və təbiidir ki, onun emalı, nəqli, indiki halda isə ixracı ilə də bağlı işləri görmək imkanlarına malikdir. Adriatik dənizinədək neft kəməri tikintisinə dair Yuqoslaviya, Xorvatiya və İtaliya ilə birgə layihəmiz vardır. Biz bu layihə ilə artıq mövcud olan sistemə qoşula bilərik. Zənnimcə, bütün bu problemlər nümayəndələrimiz arasında danışıqlar çərçivəsində məsələyə konkret yanaşmanın mövzusu ola bilər. Bu diskussiyalar ölkələrimiz arasında əməkdaşlığın inkişafına dair konkret layihələrin əsasını təşkil edə bilərdi. Belə hesab edirəm ki, bu bizim ikitərəfli münasibətlərimizin inkişafının əsas məsələsi, əsas ideyasıdır və bu, siyasi sahədə əməkdaşlığımıza da dəstək olardı.

Bu gün bəyannamə və daha 3 sənəd imzalanacaqdır. Xarici İşlər Nazirliyimiz ikitərəfli əməkdaşlıqla bağlı bir sıra digər sənədlər də hazırlamışdır. Silahların, narkotik maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınmasına dair ikitərəfli sənədlər imzalamaq üçün Daxili Işlər və Ədliyyə nazirlikləri arasında əməkdaşlığa başlamaq ideyasını da təklif etmək olar. Təhsil, mədəniyyət sahələrində də əməkdaşlıq imkanları mövcuddur. Hər halda, biz istərdik ki, bu səfər nəticəsində ən yaxın müddət ərzində konkret nəticələr əldə edilsin. Xüsusən ona görə ki, biz iqtisadi münasibətlərin inkişafına yeni təkan vermək istəyirik. Regional planda, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində işbirliyindən əlavə, Cənubi Qafqaz ölkələri ilə daha intensiv dialoqa başlamaq istərdik. Azərbaycan Respublikası iqamətgahı Buxarestdə yerləşən Avropa ölkələri əməkdaşlıq təşkilatı çərçivəsində artıq müşahidəçi kimi iştirak edir.

Biz ölkələrimizin Avropadakı coğrafi mövqeyinə bir qədər yenidən baxmaq istərdik. Balkanı, bir qayda olaraq, Cənub-Şərqi Avropa hesab edirlər. Bu, düzgün deyildir və həqiqətə uyğun gəlmir. Bu hələ Sovet İttifaqı mövcud olan vaxtdan qalmış fikirdir, o zaman Avropa SSRİ ilə həmsərhəd idi. Onda Rumıniyanı, Bolqarıstanı və digər Balkan ölkələrini Avropanın cənub–şərq ölkələri hesab etmək qəbul olunmuşdu. Elə isə, bəs Qafqazın özü və Cənubi Qafqaz harada yerləşir? Avropanın arxasındamı? Biz hesab edirik ki, siz Atlantik okeanından Xəzər dənizinə və Uraladək uzanan Avropada yerləşirsiniz. Əsl cənub–şərq məhz burada, Qafqazdadır. Rumıniya isə Avropanın lap mərkəzində, Atlantik okeanından da, Uraldan və Xəzər dənizindən də iki min kilometr aralıda yerləşir. Belə ki, biz tarixi və siyasi həqiqəti bərpa etməli, eyni zamanda, müxtəlif ölkələr arasında mövcud olan çox böyük fərqləri aradan qaldıra biləcək yeni demokratik Avropanın birləşməsinə nail olmalıyıq.

Bu, ölkələrimiz arasında, bir növ, ümumi fəaliyyət platforması ola bilər.

**H e y d ə r Ə l i y e v:** Cənab Prezident, təşəkkür edirəm.

İlk növbədə, Sizin son sözləriniz haqqında öz fikirlərimi bildirmək istəyirəm. Təbiidir, indi Avropanın sərhədləri dəyişibdir. Siz doğru deyirsiniz, coğrafiyada Qərbdən Ural dağlarına qədər hamısı Avropadır. Amma düz deyirsiniz ki, Sovet İttifaqı vaxtı SSRİ ilə Qərbin sərhədlərini götürəndə, Rumıniya Cənub–Qərbi Avropaya düşürdü. Ona görə mən Sizin fikrinizlə razıyam ki, indi Rumıniyanın yerini, yəni Cənub–Qərbi Avropanı Qafqaz, o cümlədən Azərbaycan tutur. İndi Azərbaycan Avropanın ən şərq sərhədidir. Eyni zamanda, cənub sərhədidir.

Hörmətli cənab Prezident, Siz söhbətimizin başlanğıcında Dağlıq Qarabağ probleminə toxundunuz. Biz Sizinlə təkbətək görüşdə bu məsələni çox ətraflı müzakirə etdik. İndi burada Sizin bəyan etdiyiniz fikirlərlə əlaqədar bildirmək istəyirəm ki, Rumıniya Ermənistan–Azərbaycan münaqişəsində həmişə Azərbaycanın mövqeyini müdafiə edibdir. Rumıniya bu yaxın vaxtlarda, ATƏT-ə sədrlik etdiyi zaman da məsələnin həll olunması üçün xeyli fəaliyyət göstəribdir.

Mən bu gün Sizə təkbətək görüşdə dediyim kimi, biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik və bu mövqedən çəkilmirik. Ancaq Siz bilirsiniz ki, atəşkəs əldə edilən zamandan indiyə qədər 8 ildən çox keçibdir. Mən Sizə söylədim, bir milyondan artıq qaçqının əksəriyyəti çox ağır vəziyyətdə çadırlarda yaşayır. Onların daim belə vəziyyətdə yaşaması mümkün deyil və Azərbaycan öz torpaqlarını da uzun illər Ermənistan silahlı qüvvələrinin işğalı altında qoya bilməz. Ona görə beynəlxalq təşkilatlar – ATƏT, onun Minsk qrupu və ATƏT-ə daxil olan ölkələr Azərbaycanın bu vəziyyətinin nə qədər ağır, çətin olduğunu gərək bilsinlər və məsələnin həll olunması üçün öz səylərini göstərsinlər.

İqtisadi əlaqələr, gələcək əməkdaşlığımız haqqında sizin fikirləriniz və təklifləriniz çox maraqlıdır. Mən onların çoxu ilə tamamilə razıyam. Həqiqətən, iqtisadi əməkdaşlıq etmək üçün bizim çox böyük imkanlarımız var. Bu, iki istiqamətdə aparıla bilər. Birincisi, bilavasitə Rumıniya ilə Azərbaycan arasındakı iqtisadi əlaqələri genişləndirmək üçün, Sizin buyurduğunuz kimi, yaratdığımız müştərək iqtisadi komissiya çox böyük iş görə bilər. Azərbaycan tərəfdən müştərək komissiyaya Baş nazirin müavini Yaqub Eyyubov rəhbərlik edir. Güman edirəm ki, o

və onunla bərabər, bu komissiyada Azərbaycan tərəfdən olan şəxslər bu gündən sonra bu istiqamətdə öz fəaliyyətlərini gücləndirməlidirlər.

İkinci istiqamətə gəldikdə, biz bir bölgədəyik. Siz Balkandasınız, biz Qafqazdayıq, bizi birləşdirən Qara dəniz var, başqa kommunikasiyalar var. Bu sahədə də Avropa Birliyi tərəfindən həyata keçirilən bir neçə layihələr– TRASEKA proqramı, İNOQEYT proqramı çərçivəsində indiyə qədər əməkdaşlıq etmişik və bundan sonra da edə bilərik.

1998-ci ilin sentyabrında Azərbaycanda, Bakıda İpək Yolunun bərpası, TRASEKA proqramının həyata keçirilməsi üçün beynəlxalq konfrans təşkil olunmuşdur. Rumıniya bu konfransın fəal iştirakçısı olmuşdur və qəbul edilən sənədləri imzalamışdır. Biz bu sahədə əməkdaşlığımızı fəallaşdırmalıyıq.

Sizin irəliyə sürdüyünüz təkliflər çox maraqlıdır. İndi biz Xəzər dənizinin Azərbaycan sektorundan hasil olunan nefti Qara dəniz vasitəsilə hələ ki, ixrac edirik. Bakı–Supsa neft kəməri ilə ildə təxminən 5-6 milyon ton neft ixrac olunur. Bu layihəyə də TRASEKA proqramının bir hissəsi kimi baxılmalıdır. Batumi, ya da Potidən neft sisternlərinin bərəyə yüklənib Konstansaya, oradan isə Dunay çayı ilə şimala, ya da Adriatik dənizinə qədər aparılması barədə Sizin təklifləriniz tamamilə əsaslıdır. Biz bunları gələcəkdə nəzərə almalıyıq.

Mən Sizə bildirdim ki, biz sentyabrın 18-də Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşasının başlanması mərasimini keçirdik. Bu neft kəməri vasitəsilə ixrac olunacaq neftin bir hissəsini gələcəkdə Qara dəniz vasitəsilə Balkan ölkələrinə də ixrac etmək olar. Yaxud da bu kəmərlə yanaşı, yenə də deyirəm, Bakı–Supsa neft kəmərindən daha fəal istifadə etmək mümkündür. Mən bunları Sizə bildirdim.

Azərbaycanda çox yaxşı perspektivlər görünür. Neft hasilatı yaxın 3-4 ildə təxminən 50 milyon tona qədər qalxmalıdır. Ona görə də biz bu neftin müxtəlif kəmərlərlə ixrac olunması məsələsini də düşünməliyik. Hər halda, bu məsələlər Sizə də, bizə də məlumdur. Ancaq Siz buyurduğunuz kimi, bizim müştərək komissiya, müvafiq orqanlar gərək bunları müzakirə etsinlər və lazımi tədbirlər görsünlər.

Mən Sizinlə razıyam ki, ölkələrimiz arasında elm, mədəniyyət, təhsil, səhiyyə və başqa sahələrdə də çox sıx əməkdaşlıq edilir. Biz bunu davam etdirməliyik. Xalqlarımızı bir-birinə yaxınlaşdırmalıyıq və ölkələrimizi bir-birinə yaxınlaşdırmalıyıq.

Sizin ölkənin böyük perspektivləri var. Avropa Birliyinə daxil olacaqsınız, NATO-ya daxil olacaqsınız. Təbii ki, biz də bu yollarla getmək istəyirik. Avropa Şurasına daxil olmağımız bizim üçün çox böyük əhəmiyyət kəsb edir. Hesab edirəm ki, Rumıniya və Azərbaycan parlamentlərinin nümayəndələri Avropa Şurasında sıx əməkdaşlıq etməlidirlər.

## AZƏRBAYCAN–RUMINİYA SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*29 oktyabr 2002-ci il*

*İki ölkənin geniş tərkibdə nümayəndə heyətləri arasında danışıqlar başa çatdıqdan sonra Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin və Rumıniya prezidenti İon İliyeskunun iştirakı ilə sənədlərin imzalanması mərasimi oldu.*

*Prezident Heydər Əliyev və prezident İon İliyesku Azərbaycan Respublikası ilə Rumıniya arasında tərəfdaşlıq haqqında bəyannamə imzaladılar.*

*Salona toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar.*

*Azərbaycan Milli Aerokosmik Agentliyi və Rumıniya Kosmik Agentliyi arasında kosmik məkanın sülh məqsədləri üçün istifadəsi və tədqiq olunması sahəsində əməkdaşlığa dair anlaşma memorandu, Azərbaycan Respublikası və Rumıniya arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında saziş imzaladılar.*

## AZƏRBAYCAN–RUMINİYA SƏNƏDLƏRİNİN İMZALANMA MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ BƏYANATLA ÇIXIŞLARI

*Prezident sarayı*

*29 oktyabr 2002-ci il*

**Azərbaycan prezidenti Heydər Əliyevin bəyanatı**

Hörmətli cənab Prezident!
Hörmətli xanımlar və cənablar!
Hörmətli mətbuat nümayəndələri!

Rumıniyanın prezidenti hörmətli cənab İon İliyeskunun Azərbaycana rəsmi səfəri ölkəmizin həyatında əlamətdar bir hadisədir. Bu, ölkələrimiz arasındakı əlaqələrin ardıcıl inkişaf etməsini göstərir. Dəvətimi qəbul edib Azərbaycana rəsmi səfər etdiyinə görə, mən prezident cənab İliyeskuya təşəkkür edirəm və bugünkü görüşlərimizdən, apardığımız müzakirələrimizdən məmnun olduğumu bildirirəm.

Cəsarət edib deyə bilərəm ki, prezident cənab İliyesku ilə mənim aramda dostluq əlaqələri yaranıbdır. Təxminən 1994-cü ildən indiyə qədər biz dəfələrlə müxtəlif şəraitlərdə görüşmüşük. Ən əhəmiyyətlisi odur ki, prezident İliyesku Azərbaycana artıq ikinci dəfədir səfər edir. Biz bu səfər zamanı çox ətraflı müzakirələr apardıq. Prezident cənab İliyesku ilə mənim təkbətək görüşümdə bir çox məsələlərə toxunduq və bir çox məsələlər haqqında eyni fikirdə olduğumuzu bildirdik. Rumıniya–Azərbaycan əlaqələri və onların gələcək inkişafı, Azərbaycanın ən ağrılı problemi Ermənistan–Azərbaycan münaqişəsi və bunun tezliklə həll olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, suverenliyinin təmin olunması, beynəlxalq terrorizm, onun törətdiyi təhlükələr, terrorizmə qarşı həm Rumıniya, həm də Azərbaycan tərəfindən fəal mübarizənin aparılması, Qafqazda və regionda olan indiki vəziyyət, bir çox beynəlxalq məsələlər və təbiidir ki, əsas məsələ – Rumıniya–Azərbaycan əlaqələri və onların inkişaf etdirilməsi barəsində fikir mübadiləsi apardıq.

Hesab edirəm ki, nümayəndə heyətləri ilə geniş tərkibdəki görüşümüzdə də, xüsusən, Azərbaycan–Rumuniya iqtisadi əlaqələrinin inkişaf etdirilməsi ilə əlaqədar çox dəyərli fikirlər meydana gəldi. Prezident İliyesku və mən yaratdığımız Rumıniya–Azərbaycan müştərək iqtisadi komissiyasının fəaliyyətinə çox böyük əhəmiyyət veririk. Belə fikirdə olduq ki, bu komissiyanın fəaliyyəti sürətləndirilməlidir və bu yolla əlaqələrimizdə daha çox nailiyyətlər əldə etmək mümkündür. Bir çox başqa məsələləri də müzakirə etdik. Nəhayət, bu gün burada imzalanan sənədlər Rumıniya ilə Azərbaycan arasındakı əlaqələrin normativ-hüquqi əsaslarını daha da möhkəmləndirir və genişləndirir.

Prezident cənab İliyesku ilə mənim imzaladığımız bəyannamə, hesab edirəm, xüsusi əhəmiyyət kəsb edir. Bu bəyannamə siyasi məsələlərə həsr olunub və Azərbaycan ilə Rumıniyanın həm beynəlxalq problemlərlə əlaqədar, həm də bölgəmizdə olan problemlərlə əlaqədar eyni fikirdə olduqlarını və bir çox məsələlərdə razılıq əldə etdiklərini göstərir.

1996-cı ilin mart ayında prezident cənab İliyesku Azərbaycana ilk dəfə səfər etdiyi zaman biz Rumıniya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətləri haqqında müqavilə imzalamışdıq. Bu gün imzaladığımız bəyannamə həmin müqavilənin daha da möhkəmlənməsi və onun əsasında işlərimizin gələcəkdə də aparılması üçün şərait yaradır.

Mən prezident cənab İliyeskuya bir daha təşəkkür edirəm. Bir məqamı da qeyd etmək istəyirəm ki, prezident cənab İliyesku səfərə özü ilə Azərbaycana biznesmenlərin böyük bir dəstəsini gətiribdir. Bizim İqtisadi İnkişaf Nazirliyi onlarla lazımi görüşlər keçirir, müzakirələr aparır və güman edirəm ki, məhz bu yolla biz iqtisadi əlaqələrin inkişaf etməsinə nail ola bilərik.

Cənab Prezident, təşəkkür edirəm və sözü sizə verirəm.

**Rumıniya prezidenti Ion Iliyeskunun bəyanati**

İcazə verin, məni və nümayəndə heyətimizi səmimiyyətlə və qonaqpərvərliklə qarşıladıqlarına görə Azərbaycan prezidenti Heydər Əliyevə, habelə ev sahiblərinə təşəkkür edim. Cənab prezident Heydər Əliyevin dediyi kimi, Buxarestdə, Bakıda, habelə müxtəlif beynəlxalq tədbirlər zamanı bizim görüşmək imkanlarımız olmuşdur. Biz münasibətlərimizin inkişafının bünövrəsini yeni siyasi şəraitdə, Azərbaycanın müstəqilliyini Rumıniyanın ikinci dövlət olaraq tanıdığı şəraitdə qoymuşuq. 1996-cı ildə biz birlikdə böyük bir siyasi müqavilə – dövlətlərimiz arasında əsas müqavilə imzalamışıq.

Bu gün ikitərəfli münasibətlərimizin səviyyəsini, regional planda, habelə daha geniş planda əməkdaşlığımızı nəzərdən keçirmək imkanımız oldu. Yenicə imzaladığımız bu siyasi sənəddə – bəyannamədə biz həmin münasibətlərin genişləndirilməsi, habelə bir az əvvəl xatırlanmış məsələlərdə əməkdaşlığın genişləndirilməsi prinsiplərini və buna maraq göstərdiyimizi bir daha təsdiqləyirik. İmzalanmış həmin üç sənəd müəyyən sahələrdə ikitərəfli münasibətlərin hüquqi çərçivəsini tamamlayır və ümidvarıq ki, bu hüquqi çərçivə başqa sahələri də əhatə edəcəkdir. Biz ölkələrimizdəki daxili vəziyyət barədə informasiya mübadiləsi apardıq. Mürəkkəb proseslərlə qarşılaşmalarına baxmayaraq, ölkələrimiz köklü dəyişikliklər mərhələsindədir. Müsbət aspekt və cəhətlər də var, onlar ölkələrimiz arasındakı münasibətlərin əsasını qoymuşdur və bu münasibətləri möhkəmləndirir. Qeyd etdiyimiz kimi, ölkələrimiz arasındakı siyasi münasibətlər yüksək səviyyədədir. Biz həmçinin bildirdik ki, ölkələrimiz arasındakı iqtisadi münasibətlər qənaətbəxş deyildir. Məhz buna görə də biz ticarət-iqtisadi münasibətlərin, habelə bütövlükdə iqtisadi əməkdaşlığın genişləndirilməsini dəstəkləmək barədə birgə iradəmizi ifadə etdik.

Zənnimcə, ən mühüm cəhətlərdən biri də iqtisadi məsələlər üzrə birgə komissiyanın fəaliyyətə başlamasıdır. Həm Rumıniya hökuməti, həm də Azərbaycan hökuməti öz nümayəndələrini təyin etmişlər. Bu komissiyanın konkret fəaliyyəti ən başlıca cəhət olmalıdır. Komissiya elə parametrləri müəyyənləşdirməlidir ki, iqtisadi münasibətlər onların əsasında genişlənsin və inkişaf etsin.

Nümayəndə heyətimizin tərkibinə azərbaycanlı tərəfdaşları ilə əlaqələr yaradılmasında maraqlı olan istehsal müəssisələrinin təmsilçilərindən ibarət iş adamları qrupu da daxildir. Sabah müəyyən məsələləri konkret müzakirə etməyə və qarşılıqlı surətdə maraq doğuran mövzulardan danışmağa imkan yaradacaq iqtisadi forum işə başlayacaqdır. Əlverişli coğrafi mövqeləri sayəsində Rumıniya və Azərbaycan Böyük İpək Yolunun bərpası layihəsinin gerçəkləşdirilməsində iştirak edə bilərlər. Prezident Heydər Əliyevin irəli sürdüyü bu layihəni «Böyük neft yolu» layihəsinə çevirmək olar. Biz bu yaxınlarda İstanbulda, Qara dəniz hövzəsində əməkdaşlığın 10 illiyinə həsr olunmuş konfransda bu layihədən danışmışdıq. Prezident Heydər Əliyev orada Bakı, Tbilisi və Ceyhanı birləşdirəcək layihəni xatırlatdı. Lakin bu bizim daha kompleks şəkildə yanaşdığımız məsələlər idi. Dəqiq desək, bu məsələlərə Xəzər dənizinin ehtiyatlarını Cənubi Qafqaz vasitəsilə Qara dənizə, oradan da Avropaya çatdırmaq nöqteyi-nəzərindən baxılırdı.

Ümidvarıq ki, Bakıya səfərimiz və apardığımız danışıqlar zamanı həm Rumıniya və Azərbaycan, həm də əməkdaşlıq etmək istəyən bir çox digər ölkələr üçün böyük əhəmiyyət kəsb edən bu layihələrin həyata keçirilməsinə təkan veriləcəkdir. Hesab edirəm ki, səfərimiz zamanı ölkələrimiz arasında əməkdaşlığın bir çox digər sahələri də müzakirə mövzusu olacaqdır. Mən təhsil, mədəniyyət, habelə kooperasiya sahəsində əməkdaşlığı və beynəlxalq planda əməkdaşlığı nəzərdə tuturam. Ümidvaram ki, səfər zamanı biz ikitərəfli münasibətlərimizin əhəmiyyətini nəzərə çatdıracağıq. Çox sağ olun.

* * *

**S u a l: Cənab prezident Heydər Əliyev, Azərbaycanda iri neft və qaz yataqları aşkar edilmişdir. Soruşmaq istərdim ki, neft və qaz Rumıniyaya ixrac ediləcəkmi, əgər ediləcəksə, onda nə vaxt?**

**H e y d ə r  Ə l i y e v:** Çox sağ olun. Bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsidir. Neft və qaz Azərbaycanda çox qədim zamanlardan hasil olunur. Hər bir yeni yatağın açılması da Azərbaycan üçün böyük hadisədir və bəzi ölkələrdə yeni bir şey kimi qəbul olunur.

Mən sualı belə anladım ki, söhbət «Şahdəniz» qaz yatağından gedir. Bəli, iki-üç il bundan öncə Azərbaycanda aparılan qazma işləri nəticəsində «Şahdəniz» yatağından çox böyük həcmdə qaz alınması imkanı meydana çıxıbdır. İlkin məlumatlara görə, «Şahdəniz» yatağının ehtiyatı 1 trilyon kubmetrdən artıqdır. Biz ilkin olaraq, bu qazı Gürcüstandan keçməklə Türkiyənin Ərzurum şəhərinə nəql etmək istəyirik. Artıq bu barədə Türkiyə ilə saziş imzalamışıq. Ancaq düşünürük ki, «Şahdəniz» yatağından çıxarılacaq qaz, ola bilər, gələcəkdə daha da artıq olsun və o zaman onun Avropaya nəql edilməsi də tamamilə real olacaqdır.

Əgər nəzərə alsaq ki, bizim bir neçə başqa yataqlarda da indi xarici ölkələrin müxtəlif şirkətləri Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə işləyirlər – güman edirəm ki, orada da böyük qaz ehtiyatları tapılacaqdır – onda Azərbaycanın gələcəkdə Avropaya qaz nəql etməsi tam real olacaqdır. Belə olan halda Rumıniya mütləq nəzərə alınacaqdır. Mən buna söz verə bilərəm.

**S u a l: Mənim ruminiyali həmkarımı daha çox neft və qaz maraqlandırır. Bizi də azərbaycanlı kimi, işğal olunmuş ərazilərimiz daha çox narahat edir. Cənab İliyesku, birincisi, Siz dediniz ki, Dağlıq Qarabağ problemində Rumıniya Azərbaycanı dəstəkləyir. Sizə elə gəlmirmi ki, bu problemin indiyədək**

**sülh yolu ilə həll olunmamasının səbəbi öz qətnamələrini yerinə yetirməyən BMT-nin, habelə Rumıniyanın da daxil olduğu ATƏT-in qətiyyətsizliyidir?**

**İkincisi, Siz dediniz ki, Rumıniya Azərbaycanın müstəqilliyini tanıyan ikinci ölkədir. Deməli, Azərbaycanın ərazi bütövlüyünü də tanıyan ikinci ölkə olubdur. Bu gün Ermənistanın qeyri-konstruktiv mövqeyi Azərbaycan xalqının öz torpaqlarını hərbi yolla azad etmək əhval-ruhiyyəsini artırır. Əgər Azərbaycan xalqı buna məcbur olsa, Rumıniyanın mövqeyi necə olacaqdır, yəni bu dəstək qalacaqmı?**

**İ o n I l i y e s k u:** Rumıniya Cənubi Qafqazda gərginlik ocağı olan bu münaqişəni narahatlıqla və diqqətlə izləyir. Təəssüflər olsun ki, Dağlıq Qarabağ məsələsi keçmiş Sovet İttifaqının özündən sonra ölkənin bir çox ərazilərində miras qoyub getdiyi digər problemlərə çox bənzəyir. Belə problemlər bizim sərhədimizin yaxınlığında da vardır, məsələn, Dnestryanı bölgə problemi. Biz bu məsələnin həllinə Azərbaycanın yanaşmasını müsbət qiymətləndiririk. Sübut olunmuşdur ki, hər hansı bir məsələnin hərbi yolla həllinə göstərilən cəhd nəinki onu həll etmir, həm də, bir qayda olaraq, qarşıdurmanın daha da dərinləşməsinə gətirib çıxarır. Rumıniya ATƏT-in sədri olanda bu məsələnin siyasi yolla həllinə çalışmışdır, Minsk qrupunun səylərini dəstəkləmişdir. Hələlik belə demək olar ki, bu məsələnin həlli tapılmamışdır və bu da təəssüf doğurur. Biz bu münaqişənin insanlara nə qədər əzab-əziyyət gətirdiyini və gətirməkdə olduğunu bilirik. Prezident Heydər Əliyev işğal olunmuş əraziləri tərk etmiş bir milyon qaçqının taleyi barədə bizə məlumat verdi. Biz insanların əzab çəkdikləri bu münaqişəni həll etmək üçün göstərilən bütün səylərdə həmişə sizin yanınızda olacağıq. Əlbəttə, dövlətlər arasında münasibətləri tənzimləyən əsas prinsiplərə hörmət edərək. Bu isə dövlətlərin ərazi bütövlüyü, eləcə də fəlakətə gətirib çıxara biləcək hərbi yoldan imtina etmək prinsipləridir. Çox sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ADINDAN RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Bakı Əyləncə Mərkəzi*

*29 oktyabr 2002-ci il*

Zati-aliləri Rumıniya prezidenti cənab İliyesku!

Sizin Azərbaycana rəsmi səfəriniz ölkələrimiz üçün çox əhəmiyyətlidir və bizim əlaqələrimizin ardıcıl surətdə inkişaf etməsini göstərir.

Cənab Prezident, mənim dəvətimi qəbul edib Azərbaycana rəsmi səfər etdiyinizə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm. Bu gün sizinlə apardığımız danışıqlardan, söhbətlərdən və nəhayət, əldə etdiyimiz nailiyyətlərdən məmnun olduğumu bildirmək istəyirəm. Sizin Azərbaycana ikinci səfəriniz Rumıniya–Azərbaycan əlaqələrini təhlil etmək və bu əlaqələrin inkişaf etdirilməsindən ötrü lazımi tədbirlər görmək üçün böyük imkanlar yaratdı. Biz bu imkanlardan səmərəli istifadə etməyə çalışacağıq.

Bizi ən çox sevindirən odur ki, Rumıniya ilə Azərbaycan arasında çox mehriban, dostluq və əməkdaşlıq əlaqələri yaranıb və inkişaf edir. Rumıniya Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan dövlətlərdən biridir. Ondan sonrakı illərdə bizim görüşlərimiz, apardığımız müxtəlif danışıqlarımız nəticəsində əlaqələrimiz bugünkü xoş səviyyəyə gəlib çatıbdır.

Bizə məlumdur ki, rumın xalqı İkinci dünya müharibəsindən sonra ağır və çətin bir yol keçmişdir. 1989-cu il dekabr inqilabından sonra rumın xalqı sərbəstlik əldə etmiş, öz həyatını özü istədiyi kimi qurmaq imkanı qazanmışdır.

Cənab Prezident, bizə məlumdur ki, o vaxt, Rumıniya xalqı üçün çox ağır bir dövrdə, 1989-cu ildə Siz Milli Qurtuluş Komitəsinə rəhbərlik etmisiniz və çox səmərəli fəaliyyət göstərmisiniz. Ondan sonra Rumıniya demokratiya yolu ilə gedir, demokratik təsisatlar yaradıb, bazar iqtisadiyyatı yolu ilə gedir və ən əsası odur ki, xalq azaddır, özü istədiyi kimi yaşayır.

Hörmətli cənab Prezident, bütün bu nailiyyətlərin əldə edilməsində Sizin xidmətləriniz çox böyükdür. Problemləriniz də var. Bu barədə bu gün fikir mübadiləsi apardıq. Ancaq əsas ondan ibarətdir ki, Rumıniya Avropa Şurasının üzvüdür. Rumıniya NATO-ya qəbul olunmağa yaxınlaşıbdır və Avropa Birliyinə qəbul olunmaq üçün cəhdlər göstərir və nailiyyətlər əldə edir. Mən Sizi bu nailiyyətlərə görə təbrik edirəm. Ümidvaram ki, Sizin Rumıniyanın qarşısında açılan bu perspektivlər ölkənizin sosial-iqtisadi inkişafına çox gözəl təsir bağışlayacaqdır.

Biz bir neçə gün bundan öncə, okyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinin 11-ci ildönümünü bayram etdik. Bu illər Azərbaycan üçün çox ağır və çətin illər olubdur. Azərbaycan dövlət müstəqilliyini əldə edəndə artıq Ermənistanın təcavüzü ilə üzləşmişdik. Müstəqilliyinin ilk illərində Azərbaycanda ictimai-siyasi vəziyyət sabit olmamış, xalq bir çox bəlalara məruz qalmışdır. 1993-cü ildə vətəndaş müharibəsi başlamış, sonrakı illərdə də Azərbaycanın daxilində çox ağır proseslər getmişdir.

Ancaq biz bunların hamısının öhdəsindən gəlmişik və 1995-ci ildən başlayaraq, Azərbaycanda ictimai-siyasi sabitlik yarada bilmişik. Azərbaycanın iqtisadiyyatını böhrandan qurtarıb, inkişaf yoluna çıxara bilmişik. 1996-cı ildən sonra ötən illərdə iqtisadiyyat ilbəil inkişaf edir. Biz bunlara nail olmaq üçün elan etdiyimiz yolla – demokratiya yolu ilə, bazar iqtisadiyyatı yolu ilə ardıcıl surətdə irəliləmişik.

Azərbaycanda demokratiya bərqərar olub, insan azadlığı, söz azadlığı, mətbuat azadlığı – bütün azadlıqlar təmin olunubdur. Həyata keçirilmiş siyasi, iqtisadi, hüquqi, sosial islahatlar Azərbaycanın həyatının bütün sahəsində inkişafın əldə edilməsinə gətirib çıxarmışdır. Ancaq bunlarla bərabər, biz ağır problemlərlə də üzləşirik. İqtisadiyyatda problemlər var, xalqın rifahının yaxşılaşdırılmasında problemlər var.

Xarici investisiyanın Azərbaycana cəlb edilməsi iqtisadiyyata çox müsbət təsir göstərmişdir. Ancaq qeyd etdiyim kimi, hələ problemlər də var. Ən ağır və ən çətin problem Ermənistan–Azərbaycan münaqişəsidir və bunun nəticəsində Azərbaycana vurulmuş zərbələr, ərazimizin 20 faizinin işğal olunması və həmin torpaqlardan 1 milyondan artıq azərbaycanlının zorla köçürülməsi, didərgin düşməsi, indi köçkün vəziyyətində çadırlarda yaşamasıdır. Biz ötən illər bu münaqişəni aradan qaldırmaq, onu sülh yolu ilə həll etməyə çalışmışıq və bu gün də çalışırıq. Biz bu barədə bu gün çox ətraflı söhbət etdik və mən öz fikirlərimi Sizə bildirdim. Ümidvaram ki, dünya

ictimaiyyəti, beynəlxalq ictimaiyyət, nəhayət, bu dözülməz vəziyyətə lazımi diqqət yetirəcək və biz məsələnin sülh yolu ilə həll edilməsinə nail olacağıq.

Bu gün biz Sizinlə hökumətlərarası yeni sazişlər imzaladıq. Bizim imzaladığımız siyasi bəyannamədə Rumıniyanın və Azərbaycanın müasir dövrdəki mövqeləri əks etdirilib və bizim bu mövqelərimizin bir-birinə yaxın, bənzər olması göstərilibdir. Beləliklə, mən Sizin bu səfərinizi çox məhsuldar hesab edirəm. Bunu Azərbaycan üçün çox faydalı hesab edirəm.

Sabah yəqin ki, Sizin üçün çox əziz olan Mingəçevirə gedəcəksiniz. Biz bilirik ki, Siz hələ 1953-cü ildə, təxminən 50 il bundan öncə Moskva Elektrotexnika İnstitutunda təhsil alarkən oradan Azərbaycana, Mingəçevirə ezam edilmişdiniz. Orada iki ay müddətində təcrübə keçmisiniz və o, Sizin yaddaşınızda indiyə qədər qalıbdır. Siz Mingəçevirə gedərkən Gəncə şəhərində də olacaqsınız. Azərbaycanın böyük şairi, XII əsr şairi Nizami Gəncəvinin məqbərəsini, məzarını da ziyarət edəcəksiniz.

Beləliklə, Azərbaycanın təkcə paytaxtı ilə yox, ölkəmizin bir neçə bölgəsi ilə də tanış olacaqsınız. Sizin səfəriniz, elə özünüz tərəfindən təqdim olunan proqram bizi çox məmnun edibdir. Siz bizim xalqımızı, insanları görəcəksiniz və onların nə qədər sülhpərvər, nə qədər mehriban olduqlarını hiss edəcəksiniz.

Cənab Prezident, Rumıniyanın qarşısında böyük yol durur. Şübhə yoxdur ki, rumın xalqı və onun liderləri bu yolla inamla gedəcəklər. Cənab Prezident, mən Sizə bu yolda uğurlar arzu edirəm. Dost rumın xalqına sülh, əmin-amanlıq, rifah arzulayıram.

Mən badəmi Rumıniyanın şərəfinə, rumın xalqının şərəfinə, Rumıniyanın prezidenti, əziz qonağımız, dostumuz cənab İliyeskunun şərəfinə qaldırıram!

## TÜRKİYƏ CÜMHURİYYƏTİNİN QURULMASININ 79-cu İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ BU ÖLKƏNİN BAKIDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*«Gülüstan» sarayı*

*30 oktyabr 2002-ci il*

Hörmətli cənab səfir!
Hörmətli xanımlar və cənablar!

Sizi Türkiyə Cümhuriyyətinin qurulmasının 79-cu ildönümü münasibətilə təbrik edirəm, qardaş türk xalqına sülh, əmin-amanlıq və rifah arzulayıram.

Türkiyə Cümhuriyyətinin qurulması XX əsrin ən böyük tarixi hadisələrindən biridir. Birinci dünya müharibəsindən sonra, Osmanlı imperiyasının dağılmasından sonra, dünyada yaranmış ağır bir şəraitdə, Türkiyə üçün çox çətin bir dövrdə Türkiyənin böyük insanları – böyük Mustafa Kamal Atatürk və onun silahdaşları 1923-cü ildə Türkiyə Cümhuriyyətini qurmuşlar. Bu, böyük tarixi hadisədir, ona görə ki, bir çox əsrlər Osmanlı imperiyasının dövlət sistemi şəraitində yaşamış xalq artıq özünün hansı yolla getməsini o vaxt çox aydın dərk etdi. Bunu edənlər – Atatürk və onun silahdaşları tarixi bir iş görmüşlər.

Çox sevindirici haldır ki, cümhuriyyət qurulandan sonra ilbəil, ardıcıl surətdə inkişaf etmişdir. Baxmayaraq ki, dünyada o illər çox ağır proseslər getmiş, Birinci dünya müharibəsinin yaraları hələ sağalmamış faşizm kimi dəhşətli bir cərəyan meydana çıxmışdı, Türkiyə Cümhuriyyəti tutduğu yolla getmiş, yaşamış, inkişaf etmiş, öz prinsiplərini qorumuş, saxlamış və Türkiyə böyük, əzəmətli, qüdrətli bir dövlətə çevrilmişdir.

İkinci dünya müharibəsində Türkiyənin apardığı doğru və düzgün siyasət Türkiyə Cümhuriyyətini bir daha ağır sınaqlardan qorumuşdur. Biz bu gün Türkiyə Cümhuriyyətinin 79-cu ildönümünü bayram edərək, iftixar hissi ilə deyə bilərik ki, Türkiyə dünyada böyük bir dövlətdir, güclü iqtisadiyyata malikdir, demokratik, hüquqi, dünyəvi dövlətdir, Dünya Birliyində öz yerini tutmuşdur və dünyada gedən proseslərdə fəal iştirak etməkdədir.

Türkiyə Cümhuriyyətinin iqtisadiyyatı, xüsusən 1970–1980-ci illərdə çox sürətlə inkişaf etmişdir. O illər dünyada, xüsusən keçmiş Sovetlər İttifaqında Türkiyə möcüzəsi kimi bir anlayış meydana çıxmışdı. Hamı bu möcüzəni anlamaq istəyirdi. Türkiyənin təcrübəsini araşdırırdı, onun təcrübəsindən istifadə etməyə çalışırdı. Bu, sadə bir şey deyildir. Bu, türk xalqının və onun liderlərinin dünyada gedən proseslərlə nə qədər uyğunlaşdığını göstərir. Bazar iqtisadiyyatının inkişaf etdirilməsi sahəsində o illərdə Türkiyədə həyata keçirilən islahatlar böyük bir sıçrayış yaratdı.

Biz həmişə Türkiyə ilə fəxr etmişik. Bəzən Türkiyədən çox uzaq olarkən, Türkiyəni yaxından görməyərkən, orada gedən prosesləri çox bilməyərkən də bizim xalqımız, Azərbaycan xalqı həmişə Türkiyəyə, türk xalqına böyük məhəbbət hissləri bəsləmişdir. Bunun səbəbi aydındır. Bizim xalqlarımız bir kökə mənsubdur, çox dəyərli müştərək tarixi keçmişimiz var. Dilimizin, dinimizin, adət-ənənələrimizin eyni, yaxud bənzər olması həmişə bizi doğmalaşdırıbdır. Buna görə, dediyim kimi, xalqımız həmişə Türkiyəyə məhəbbət hissi ilə yaşamış və onunla qovuşmaq arzusunda, həsrətində olmuşdur.

Nəhayət, Azərbaycan dövlət müstəqilliyini əldə edərkən və hətta bunun ərəfəsində Türkiyə ilə Azərbaycan arasında əlaqələr artıq qurulmağa başlamışdır. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olmuşdur. Ancaq tanımaq azdır, Azərbaycanın müstəqil dövlət kimi yaşaması üçün Türkiyə ilk günlərdən bizə əlindən gələn köməyi etmişdir. Beləliklə, bizim tarixi dostluğumuz, qardaşlığımız, keçmişdə bütün sahələrdə olan çox gözəl əlaqələrimiz indi dövlətlərarası əlaqələr şəklində inkişaf etməyə başlamışdır.

Biz 11 ildir müstəqillik dövrünü yaşayırıq. Bir neçə gün bundan öncə dövlət müstəqilliyimizin 11-ci ildönümünü bayram etdik. Bu illər bizim üçün heç də asan olmayıbdır. Biz ağır, çətin, ancaq şərəfli bir yol keçmişik. Məhz ona görə şərəfli yol keçmişik ki, biz müstəqil dövlət kimi yaşamışıq. Bu bizim üçün hər şeydən üstün olub və üstündür. Hər şeydən qiymətli olub və qiymətlidir. Müstəqillik dövründə Türkiyə ilə Azərbaycan daim bir yerdə olubdur. Türkiyə Azərbaycana hər cür yardımlarını edibdir.

İndi artıq Türkiyə ilə Azərbaycanı bir-birindən ayırmaq olmaz. Azərbaycanda indi nə qədər Türkiyə vətəndaşı yaşayır və Türkiyədə nə qədər Azərbaycan vətəndaşı yaşayır. Bunu saymaq da mümkün deyildir. Buna ehtiyac da yoxdur. Bu, təbii bir prosesdir. Ancaq iş təkcə bunda deyil, iş ondadır ki, biz dövlətlər olaraq bir-birimizlə sıx bağlıyıq, sıx əlaqədəyik.

Türkiyə Cümhuriyyətinin dünyaya nümayiş etdirəsi çox gözəl nailiyyətləri var: yüksək səviyyədə qurulmuş bazar iqtisadiyyatı, demokratik, hüquqi dövlət quruluşu, təhsil, səhiyyə və bütün başqa sahələrdə əldə etdiyi nailiyyətlər. Bunlarla yanaşı, Türkiyənin ən böyük nailiyyətlərindən biri də odur ki, onun çox güclü, qüdrətli ordusu var.

Türkiyənin ordusu böyük Atatürkün türk xalqına qoyub getdiyi ən böyük nemətlərdən biridir. Türk xalqı öz ordusu ilə fəxr edir. Biz də eyni dərəcədə fəxr edirik. İki il bundan öncə Türkiyə Silahlı Qüvvələri Komandanının rəhbərliyi altında «Türk ulduzları»nın Azərbaycana gəlməsi və burada öz böyük nailiyyətlərini nümayiş etdirməsi həm Azərbaycan üçün böyük mənəvi dayaq oldu, həm də bütün dünyaya Türkiyənin ordusunun, onun yüksək səviyyədə olan əsgərlərinin qüdrətini bir daha nümayiş etdirdi.

Biz dövlət quruculuğunda, iqtisadiyyatın inkişaf etdirilməsində, ordu quruculuğunda və bir çox başqa sahələrdə Türkiyə ilə çox sıx əməkdaşlıq edirik. Türkiyənin təcrübəsi ötən illərdə bir çox hallarda bizim üçün örnək olmuş və müstəqil dövlət kimi, yeni təsisatların, demokratik təsisatların yaradılmasında bizə çox gözəl yardım etmişdir. Bütün bunlara görə bugünkü bayram təkcə Türkiyənin bayramı deyil, bizim də bayramımızdır. Bunu başqa cür qiymətləndirmək də mümkün deyildir. Dostluq, qardaşlıq Azərbaycan üçün həm bu gün, həm də gələcək illərdə böyük dayaqdır və dayaq olacaqdır.

Ermənistanın Azərbaycana etdiyi təcavüzün nəticəsində Azərbaycanda baş vermiş vəziyyət bizi narahat etdiyi kimi, Türkiyəni də həmişə narahat etmişdir. Türkiyə bu münaqişənin həll olunması üçün ötən illərdə bizimlə bərabər fəaliyyət göstərmişdir. Türkiyə Minsk qrupunun üzvüdür və bu imkandan da çox istifadə etmişdir və bu gün də bizimlə əməkdaşlıq edir. Əminəm ki, Azərbaycanın bu ağrılı probleminin həll olunmasında Türkiyə Azərbaycana öz yardımını heç vaxt əsirgəməyəcək və Azərbaycanla bir yerdə olacaqdır. Məhz bunların nəticəsində biz Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə nail olacağıq və nəyin bahasına olur-olsun, Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyik, işğal olunmuş torpaqları azad edəcəyik. Uzun illər çox ağır vəziyyətdə yaşayan vətəndaşlarımızı öz yerlərinə-yurdlarına qaytaracağıq.

Mən bu gün sizinlə birlikdə bu bayramı qeyd etməyə çox böyük hisslərlə gəlmişəm. Çox böyük qardaşlıq hissləri ilə sözlərimi deyirəm və sizin hamınızı, bütün türk xalqını, Türkiyə Cümhuriyyətini, hökumətini bir daha ürəkdən təbrik edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, Türkiyə XXI əsrdə də həmişə irəlidə gedən ölkələrdən biri olacaq və Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı daimi, əbədi və sarsılmaz olacaqdır.

Bayramınız mübarək olsun!

** *

*Sonra prezident Heydər Əliyev qəbulda iştirak edən səfirlərlə, ölkəmizin və Türkiyənin mədəniyyət, incəsənət və elm, iş adamları ilə səmimi görüşüb hal-əhval tutdu.*

*Dövlətimizin başçısı sarayın foyesində gənc rəssam Əli Cəfərin əsərlərindən təşkil olunmuş sərgiyə də baxdı.*

**H e y d ə r Ə l i y e v**: Çox gözəl, keçmişlə bağlı rəsmlərdir. Amma başqa mövzulara da müraciət et. Bunları çox gözəl çəkmisən. Amma sənin istedadın var, başqa mövzular üzərində də işlə. Sən sərgilərə gedirsənmi, görürsənmi? Yəni təkcə bizimkilərə yox, dünya rəssamlarının sərgilərinə baxırsanmı?

**Ə l i C ə f ə r:** Cənab Prezident, sərgilər keçiriləndə gedirəm.

**H e y d ə r Ə l i y e v:** XV–XVII əsrlərdə yaşamış Avropa rəssamlarının əsərlərinin albomları var. Sizdə onlardan varmı?

**V a q i f C ə f ə r o v** (*Əli Cəfərin atası*): Cənab Prezident, var, hərdən oxuyur, baxır, maraqlanır.

**H e y d ə r Ə l i y e v:** Əgər yoxdursa, mən tapşırım, tapsınlar, versinlər. Qoy hamısına baxsın.

**V a q i f C ə f ə r o v:** Dünya sənətkarlarının, Rembrandtın, başqalarının əsərlərinə baxır.

**H e y d ə r Ə l i y e v:** Rembrandtın, Rafaelin, Mikelancelonun əsərlərini, 18-ci əsr rus rəssamlarının əsərlərini görübmü?

**V a q i f C ə f ə r o v:** Müəyyən qədər maraqlanıbdır.

**H e y d ə r Ə l i y e v:** Sankt-Peterburqda böyük Ermitaj var. Orada olmayıb ki?

**V a q i f C ə f ə r o v:** Cənab Prezident, orta məktəbdə oxuduğuna görə vaxtı, imkanı olmur, dərsləri ilə məşğuldur. Vəziyyət də imkan vermir.

**H e y d ə r Ə l i y e v:** Mənim gənc istedadlar üçün təqaüdüm var. Mən buna təqaüd vermişəm, yoxsa yox?

**D i l a r ə S e y i d z a d ə** (*Prezidentin Katibliyinin rəisi*): Cənab Prezident, xeyr, verilməyibdir.

**V a q i f C ə f ə r o v:** Cənab Prezident, Siz onsuz da oğlumun qiymətini vermisiniz.

**H e y d ə r Ə l i y e v:** Qiymətini yox, utanma de, təqaüd verməmişik ki?

**V a q i f C ə f ə r o v:** Yox, almırıq.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, Dilarə xanım, sabah mənim yadıma sal. Mən mütləq təqaüd verərəm. Sankt-Peterburqdakı muzeylərdə həddindən çox əsərlər var. Orada təkcə Rusiyanın deyil, bütün dünya, Avropa rəssamlarının əsərləri var. Ermitajdır, rus muzeyidir, başqalarıdır. Mən gənc vaxtlarımda orada təhsil alanda onların hamısını görmüşəm, yaxşı bilirəm. Fikirləşin, vaxtını deyərsiniz, mən təşkil edəcəm, qoy oraya getsin. Amma tək buraxmayın, sən, yaxud kimsə yanında olsun.

Yaxşı, təbrik edirəm, uğurlar arzulayıram.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ERMƏNİSTANDAKI SƏFİRİ CON ORDVEY İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 oktyabr 2002-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli cənab səfir, Azərbaycana xoş gəlmisiniz. Amerikanın Azərbaycandakı səfirini də salamlayıram, çoxdandır görməmişdim. Güman edirəm ki, sizin Azərbaycana səfərinizin məqsədi Ermənistan–Azərbaycan münaqişəsi ilə əlaqədar müəyyən məlumatlar toplamaq və bizə kömək etməkdən ibarətdir. Əgər belədirsə, mən bu təşəbbüsü alqışlayıram, bundan çox məmnunam.

**C o n O r d v e y:** Cənab Prezident, ilk öncə Sizə minnətdarlığımı bildirmək istəyirəm ki, vaxtınızı ayırıb bizimlə görüşürsünüz. Buna görə Sizə minnətdaram. Sizinlə görüşmək bizim üçün çox xoşdur. Sizin dediyiniz kimi, həqiqətən bizim belə bir məqsədimiz vardır və bu təşəbbüs bizim hər ikimizdən, xüsusilə səfir Uilsondan gəlibdir ki, Azərbaycanda və Ermənistanda olan Amerika səfirləri qarşılıqlı səfərlər etsinlər. Altı ay bundan əvvəl cənab Uilson Ermənistanda oldu və indi mən Azərbaycandayam.

Burada olduğum müddətdə tələbələrlə, dini icmaların, müxalifət partiyalarının nümayəndələri ilə, deputatlarla və rəsmi adamlarla görüşmüşəm. Azərbaycan haqqında daha geniş məlumat əldə etmişəm. Çalışmışam ki, məsələnin dərinliyini anlayım, Azərbaycanın mövqeyini başa düşüm. Bundan sonra inamım daha da artıbdır ki, gərək hamımız münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün gücümüzü sərf edək.

Əlbəttə, Minsk qrupu və həmsədrlər bu məsələnin həlli ilə ciddi məşğul olurlar. Biz də – cənab Uilson da, mən də çalışırıq ki, bu prosesə dəstək verək, öz mövqeyimizi bildirək.

Minsk qrupunun həmsədrləri də, ona daxil olan ölkələr də belə fikirdədirlər ki, məsələni sülh yolu ilə həll etmək lazımdır. Sizin özünüz də dəfələrlə bunun tərəfdarı olduğunuzu bildirmisiniz. Mən də bunu prezident Köçəryandan dəfələrlə eşitmişəm. Beləliklə, hamımız bu fikirdəyik ki, məsələnin həllinin müharibə yolu yoxdur. Ona görə də siyasi kompromislər axtarmaq lazımdır, siyasi iradə olmalıdır ki, məsələ həll olunsun. Məsələnin həlli nəticəsində həm sizin ölkənizin, həm Ermənistanın, həm də, ümumiyyətlə, regionun inkişafı təmin edilər. Biz də öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, buna yardımçı olaq.

Onu da demək istəyirəm ki, yenidən Bakıda olmaq mənim üçün çox xoşdur, sevindiricidir. Mənə 1986-cı ildə də buraya gəlmək müyəssər olmuşdur. İndi Bakıda çox böyük, müsbət dəyişikliklərin şahidiyəm. O zaman Gənc Amerika Siyasi Liderləri deyilən bir qurum var idi. Mən onun nümayəndələrinin tərkibində buraya gəlmişdim.

**H e y d ə r Ə l i y e v:** Çox gözəl, müqayisə etmək imkanınız da var.

**C o n O r d v e y:** Əlbəttə, müqayisə etməyə imkan vardır. Lakin bu heç müqayisə olunası deyildir. Çünki bu dəfə Bakını daha firavan, daha gözəl, daha yaraşıqlı görürəm.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. Mən sizi çox diqqətlə dinlədim və Azərbaycana bu səfərinizi, burada apardığınız işləri bəyənirəm. Bu bizə lazımdır, xüsusən Azərbaycana lazımdır. Çünki lazımdır ki, həm Ermənistanda, həm Vaşinqtonda, həm Minsk qrupunda, həm də həmsədrlərdə – hamıda Azərbaycanın bugünkü reallığı haqqında – mən bunu Ermənistan–Azərbaycan münaqişəsi ilə əlaqədar olaraq deyirəm – doğru-düzgün, dolğun məlumat olsun. Mənim şübhəm yoxdur, təbiidir ki, Amerikanın Azərbaycandakı səfirliyi, səfir və onun işçiləri bu vəzifəni həyata keçirirlər. Amma eyni zamanda, münaqişənin o tərəfində olan ölkədəki Amerika səfirinin də Azərbaycanda olmasının, burada müəyyən bilgilər toplamasının və məlumatı ümumiləşdirməsinin çox əhəmiyyəti var.

Siz bizim dövlətimizin, şəxsən Azərbaycan prezidentinin Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması ilə əlaqədar mövqeyini yaxşı bilirsiniz. Mövqe məlumdur, mən dəfələrlə demişəm – biz məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq və bundan sonra da çalışmalıyıq. Ancaq məsələnin uzun müddət həll olunmaması, sülh yolu ilə həll edilməsi haqqında verdiyimiz vədlərin yerinə yetirilməməsi, təbiidir, bizim cəmiyyətdə müxtəlif fikirlər, müxtəlif əhval-ruhiyyə oyadır. Güman edirəm ki, siz onu bu günlərdə görmüsünüz və eşitmisiniz.

Mən bu gün də deyirəm, məsələni sülh yolu ilə həll etmək lazımdır. Ancaq indiyə qədər məsələnin həll olunmaması Ermənistanla müqayisədə Azərbaycanın vəziyyətini çox-çox ağırlaşdırır. Mən Ermənistanın daxili iqtisadi-siyasi vəziyyətini kənara qoyaraq, demək istəyirəm ki, Ermənistan torpağının bir metri də işğal olunmayıbdır. Ermənistanın öz ərazisindən olub köçkün vəziyyətində yaşayan insanları yoxdur. Çadırlarda yaşayanlar yoxdur. Ən əsası odur ki, Ermənistanın ərazisi tamamilə öz əlindədir. Ərazi bütövlüyü hər bir suveren dövlətin əsasını təşkil edir. Ermənistanda ərazi bütövlüyü onun dövlət müstəqilliyi əldə etməsindən indiyə qədər tam mövcuddur. Amma Azərbaycanda yox. Ölkəmizin ərazi bütövlüyü pozulubdur və indiyə qədər biz onu bərpa edə bilmirik. Bax, fərq bundan ibarətdir.

Təbiidir ki, məsələnin uzanması Ermənistan üçün də əlverişli deyildir. Lakin bu, Ermənistanı bizim düşdüyümüz kimi ağır vəziyyətə salmır. Ona görə prezident Köçəryan danışıqlarda bəzən mənə deyir ki, biz indiyə qədər belə yaşamışıq və bundan sonra da yaşaya bilərik. Dağlıq Qarabağ Ermənistanla birbaşa birləşdirilib, ikinci tərəfdən, Dağlıq Qarabağ özünü «müstəqil dövlət» elan edibdir. Düzdür, onu müstəqil dövlət kimi tanıyan dövlət yoxdur. Amma ayrı-ayrı siyasi xadimlər Dağlıq Qarabağı ziyarət edirlər, onu tanıyırlar, belə hallar var.

Bu gün mən məlumat aldım, Ermənistan mətbuatında dərc olunmuşdur ki, ABŞ-ın 46 konqresmeni Dağlıq Qarabağın tanınması haqqında bəyanat veriblər. Arkadi Qukasyanı və Dağlıq Qarabağı orada keçirilmiş seçkilər münasibətilə təbrik edirlər, onun tam «demokratik ölkə» olduğunu bəyan edirlər və hətta dövlətləri, ölkələri də çağırırlar ki, Dağlıq Qarabağın müstəqilliyini tanısınlar.

Mən bir neçə gün öncə belə məlumat aldım ki, İngiltərədə, bilmirəm, deyəsən, Lordlar palatasında, yoxsa haradasa, bir neçə lordun təşəbbüsü ilə Dağlıq Qarabağın müstəqilliyi haqqında məsələ müzakirə etmək istəyirlər.

Bu məlumatları sizə çatdıraraq, istəmirəm düşünəsiniz ki, mən Amerika Birləşmiş Ştatlarını bu barədə qınayıram. Bunları mən sizə çatdırıram ona görə yox ki, məsələn, mənə izahat verəsiniz, nə üçün bu konqresmenlər belə edirlər. Mən bunu başa düşürəm, siz nə deyə bilərsiniz? Bunları ona görə deyirəm ki, Dağlıq Qarabağ, Ermənistan belə halda yaşaya bilər. Amma Azərbaycan yaşaya bilmir. Fərq bundan ibarətdir. Ona görə də bu məsələnin həllinə yardım edə bilən hər bir kiçik qüvvəyə bizim hörmətimiz var. Biz bu vəziyyətdən çıxmalıyıq. Bu ya sülh yolu ilə həll olunmalıdır, yaxud da ki, xalq müharibəyə qalxıb öz torpaqlarını azad etməlidir. Üçüncü yol yoxdur. Biz müharibəni kənara qoyuruq, qeyri-məqbul hesab edirik. Deməli, bir yol qalır: sülh yolu. Bəs sülh yolu ilə daha nə etmək, hansı tədbirləri görmək olar? Mənim sizinlə söhbətim bax, buna aiddir.

**C o n   O r d v e y:** Cənab Prezident, icazə verin, ilk əvvəl mən Sizə bildirim ki, Amerika Birləşmiş Ştatlarında xarici siyasəti Konqres deyil, prezident müəyyən edir. Prezident Buşun da belə niyyəti yoxdur ki, Dağlıq Qarabağ adlandırılan bir qurumu tanısın. O da Sizə və hamıya məlumdur ki, heç bir dövlət Dağlıq Qarabağı müstəqil ölkə kimi tanımır.

**H e y d ə r   Ə l i y e v:** Cənab səfir, sizə dedim ki, mən bundan narahat deyiləm. Bilirəm ki, cənab Buş onu heç vaxt tanımaz, hər hansı dövlət tanımaz. Mən bundan narahat deyiləm. Mən bunu sizə fakt kimi ona görə deyirəm ki, siz biləsiniz, məsələn, Dağlıq Qarabağ, Ermənistan belə vəziyyətdə yaşaya bilər. O ki qaldı siyasətə, mən ABŞ-da kimin hansı siyasət apardığını bilirəm. Amma 907-ci maddənin götürülməsini prezident Konqresə qəbul etdirə bilmirdi. Xarici təxsisatları Konqres verir. Konqres bu il yenə Dağlıq Qarabağa maliyyə yardımı ayırıb və prezident də bunu təsdiq edibdir. Nəhayət, sizi, Amerika Birləşmiş Ştatlarının xarici ölkələrdəki səfirlərini də Konqres təsdiq edir. Beləliklə, Konqres xarici siyasətdən kənarda deyildir. Bunu sizə, sadəcə, cavab üçün dedim. Amma gəlin bunun üzərində dayanmayaq.

## BOLQARISTANIN SABİQ PREZİDENTİ JELYU JELEV BAŞDA OLMAQLA BU ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 oktyabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları salamlayaraq, cənab Jelevin Bakı Slavyan Universitetində məzmunlu mühazirələr oxuması faktından məmnun qaldığını bildirdi, Bolqarıstana rəsmi səfərindən, müxtəlif beynəlxalq forumlarda bu ölkənin indiki rəhbərliyi ilə keçirdiyi görüşlərdən danışdı.*

*Jelyu Jelev səmimi qəbula görə təşəkkür etdi, «Merkuri-2» bərəsinin batması nəticəsində insanların həlak olması ilə əlaqədar Heydər Əliyevə başsağlığı verdi. Cənab Jelev son vaxtlar Azərbaycan paytaxtının simasında böyük dəyişikliklər olduğunu bildirdi. O, Azərbaycanda Slavyan Universitetinin fəaliyyət göstərməsi faktını yüksək qiymətləndirərək dedi ki, təkcə slavyan ölkələri deyil, beynəlxalq strukturlar da ona lazımi kömək göstərməlidir. Çünki belə bir tədris ocağının olması «xalqlar arasında mənəvi əməkdaşlıq sahəsində əlamətdar haldır». Jelyu Jelev universitetdə fəaliyyət göstərən Bolqar mədəniyyət mərkəzi üçün müvafiq ədəbiyyat göndərməyə söz verdi. O, «müasir dünyanın mənəvi aləmindəki meyllərin başa düşülməsində» Azərbaycan prezidentinin rolunu vurğuladı.*

*Jelyu Jelev Opera və Balet Teatrında «Jizel» baletinin tamaşasından aldığı təəssüratdan danışdı və artistlərin yüksək ifaçılıq ustalığını qeyd etdi. Qonaq dedi ki, Bakıda heç bir radikal dini əhval-ruhiyyənin olmaması, əhalinin tolerantlığı ona böyük təsir bağışlamışdır. Bu çox zəngin təbii ehtiyatlarla birlikdə ölkənin gələcəyinin rəhnidir.*

*Prezident Heydər Əliyev vurğuladı ki, çox vaxt Qərbdə Azərbaycan haqqında yalnız bir amilə – onun müsəlman ölkəsi olmasına əsasən mülahizə yürüdürlər.*

*Prezident Heydər Əliyev dedi: «Lakin siz teatrda olarkən hər şeyin heç də belə olmadığını yəqin edə bildiniz. Bu teatr Azərbaycanda XX əsrin əvvəllərindən, 1908-ci ildən fəaliyyət göstərir. Özü də onu azərbaycanlılar yaratmışlar və ilk operanı Azərbaycan bəstəkarları tamaşaya qoymuşlar, balet isə Azərbaycanda XX əsrin 20-ci illərindən mövcuddur. Azərbaycanda baletin yaxşı ənənələri var, bir çox ifaçıların adları məşhurdur. Keçmişdəki qarmaqarışıqlıqlara baxmayaraq, bütün Bakı teatrları fəaliyyət göstərirdi. Son vaxtlar, iqtisadi sabitlik yarandıqdan sonra isə teatrlar əlavə dəstək almışlar. Üç il əvvəl prezidentin sərəncamı ilə teatr və balet işçilərinin əmək haqqı qat-qat qaldırılmışdır». Dövlətimizin başçısı bildirdi ki, o, tamaşalara gedir və balet artistləri ilə tanışdır. Söhbətlər zamanı hiss olunurdu ki, peşələrinin çox zəhmətli olmasına baxmayaraq, onlar maddi cəhətdən çətinlik çəkirlər. Onların əmək haqqının artırılması haqqında qərar da məhz onda qəbul edildi. Digər musiqi kollektivlərinin – xor kapellasının, Üzeyir Hacıbəyov adına Dövlət Simfonik Orkestrinin əmək haqqı da artırılmışdır. Dövlət başçısının qərarı ilə orkestr üçün Yaponiyanın «Yamaha» şirkətinin istehsalı olan çalğı alətləri də alınmışdır. Zəmanəmizin görkəmli musiqiçisi, həmyerlimiz Mstislav Rostropoviç neçə illərdir ki, bu orkestrlə konsertlər verir, Bakı Musiqi Akademiyasında ustad dərsləri keçir.*

*Prezident Heydər Əliyev hazırda yaxşı müəllim və tələbə potensialı olan Bakı Slavyan Universitetinin yaradılması tarixindən danışdı, bu universitetdə mühazirələr oxuduğuna görə Jelyu Jelevə təşəkkürünü bildirdi.*

*Cənab Jelyu Jelev Bakı–Ceyhan neft kəmərindən söhbət açaraq, onun bütün region üçün, o cümlədən Balkan ölkələri üçün böyük əhəmiyyəti olduğunu, həmin ölkələrin Xəzər hövzəsindən qaz almaq istədiklərini vurğuladı.*

*O, beynəlxalq təşkilat – Balkan siyasi klubu tərəfindən nəşr olunmuş kitabı Azərbaycan dövlətinin başçısına təqdim edərək dedi ki, Balkan ölkələrinin görkəmli siyasi xadimləri bu klubun üzvləridir. Klubun əsas vəzifəsi bu ölkələrdə müasir infrastruktur, telekommunikasiyalar yaradılmasına, enerji layihələrinin həyata keçirilməsinə kömək göstərməkdən ibarətdir.*

## İRAN İSLAM RESPUBLİKASININ KOOPERASİYA NAZİRİ ƏLİ SUFİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 oktyabr 2002-ci il*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli qonaqlar, Sizi səmimi-qəlbdən salamlayıram. Müştərək iqtisadi komissiyanın işinin indi sürətlə getməsindən məmnun qaldığımı bildirirəm. Bu komissiyada həm İran tərəfindən, həm də Azərbaycan tərəfindən həqiqətən səmərəli əməkdaşlıq etmək meylləri var. İkinci tərəfdən də, bu meylləri həyata keçirmək üçün əməli tədbirlər görülür. Prezident Heydər Əliyev xatırlatdı ki, bu ilin may ayında onun İrana rəsmi səfərindən ötən müddətdə çoxlu görüşlər keçirilib və konkret işlər görülübdür.

**Ə l i  S u f i:** Cənab Prezident, səmimi qəbula görə minnətdarlığımı bildirirəm. Biz dost və qardaş ölkə olan Azərbaycanla əlaqələrimizi bütün sahələrdə geniş inkişaf etdirmək əzmindəyik. Ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biri başqa dövlətlərlə qarşılıqlı hörmət və ehtiram, bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri əsasında əməkdaşlıq etməkdir. Biz Azərbaycanın sabit və daim inkişafda olmasını istəyirik. Sizin ölkənizdə əmin-amanlığın, sabitliyin olması bizim ölkəmizin əmin-amanlığı, sabitliyi deməkdir. Bunu bütün region üçün də deyə bilərik.

Zati-alilərinizin Tehrana səfəri çox səmərəli oldu və münasibətlərimizin inkişafı üçün atılmış ən mühüm addımlardan biri kimi qiymətləndirilməlidir. İnanırıq ki, Sizin bu səfəriniz əlaqələrimizin daha da möhkəmlənməsinə müsbət təsirini göstərəcəkdir. Siyasət sahəsində Sizin böyük təcrübəniz var, biz bu təcrübədən istifadə edərək, ikitərəfli münasibətlərimizi daha da genişləndirməliyik.

Prezident Xatəmi bizə tapşırıq və göstəriş veribdir ki, Sizin səfəriniz zamanı əldə olunmuş razılıqların hamısını həyata keçirək.

Energetika, kənd təsərrüfatı, sənaye və digər sahələrdə əlaqələrimizi genişləndirmək üçün böyük imkanlar var. Azərbaycanın Şimal–Cənub dəhlizi layihəsinə qoşulmaq üçün niyyətini İran müsbət qarşılamışdır. Ağayi Xatəmi Sizə çoxlu salam göndərib və mənə tapşırıb Sizə çatdırım ki, həmin layihənin həyata keçirilməsi üçün və Tehranda Sizə verdiyi sözü yerinə yetirməkdən ötrü Astara–Rəşt–Qəzvin dəmir yolunun təməlini qoyubdur.

**H e y d ə r  Ə l i y e v:** Astara–Rəşt–Qəzvin yolunun təməli harada qoyulubdur?

**Ə l i  S u f i:** Rəştdə qoyulubdur. Bir sıra layihələrin həyata keçirilməsi, o cümlədən Bakı–Astara yolunun çəkilməsi üçün də danışıqlar davam etdirilir. İran Azərbaycanda həyata keçiriləcək layihələr üçün kredit haqqında da qərar qəbul edibdir. İndi Azərbaycan tərəfinə verilmiş təkliflərin cavabını gözləyirik.

İran naziri Naxçıvanda görülən işlərin sürətləndiyini də vurğuladı. O, Ermənistan–Azərbaycan münaqişəsindən danışarkən bildirdi ki, Qarabağın taleyi necə həll edilir-edilsin, Azərbaycan xalqının mənafeyi təmin olunmalıdır. Qarabağ problemi ədalətlə aradan qaldırılmalı, bu məsələnin həlli şərəfli olmalıdır.

**H e y d ə r  Ə l i y e v**: Ətraflı məlumata görə Sizə təşəkkür edirəm. Tehrana sonuncu səfər zamanı başladığımız işlər ardıcıl surətdə həyata keçirilir. Sizin kimi, mən də hesab edirəm ki, may ayında Tehrana səfərim, həqiqətən dövlətlərimizin münasibətlərində çox böyük hadisəyə çevrilmişdir. Demək olar ki, ondan sonra İran–Azərbaycan əlaqələrində tamamilə yeni bir mühit yaranmışdır. Bir daha bəyan etmək istəyirəm ki, mən bu səfərimdən həddindən çox razıyam. Biz Tehranda birlikdə çox iş gördük. İranın dəyərli lideri cənab Xatəmi ilə görüşlərim, danışıqlarım məndə çox böyük təəssürat yaratmış, çox əhəmiyyətli olmuşdur. Ən əhəmiyyətlisi odur ki, biz orada bütün danışıqlarımızı konkret məsələlərin həll edilməsi istiqamətində qurduq. İndi bu konkret işləri siz həyata keçirirsiniz. Mən bunlardan məmnunam.

Cənub–Şimal layihəsində bir yerdə işləmək üçün şərait yarandığını, bunun Azərbaycan üçün çox əhəmiyyətli olduğunu söyləyərək, onu da bildirim ki, Astara–Rəşt–Qəzvin dəmir yolu da hər iki tərəfin çoxdankı arzusudur. Biz bunu 4-5 il öncə də müzakirə etmişdik. Amma onda İran tərəfi deyirdi ki, bu dəmir yolunu tikməyə vəsaitimiz yoxdur. İndi vəsait var. Amma ən əsası odur ki, iradə, istək, arzu var. Bu, İran üçün də, bizim üçün də eyni dərəcədə əhəmiyyətlidir. Cənab Xatəmiyə təşəkkür edirəm ki, gedib bu yolun təməlini qoyubdur. Mən İstanbulda İƏT-in zirvə görüşündə cənab Xatəmi ilə ətraflı danışıqlar apardım, ölkələrimiz arasında yaranan səmimi münasibətlərin davam etdiriləcəyini bildirdim.

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB KARLO ADZELYO ÇAMPİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin cənubunda baş vermiş zəlzələ nəticəsində insan tələfatı və dağıntılar barədə xəbər məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, dağıntıların tezliklə aradan qaldırılmasını arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 noyabr 2002-ci il*

**İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ**
**SƏDRİ ZATİ-ALİLƏRİ**
**CƏNAB SİLVİO BERLUSKONİYƏ**

Hörmətli cənab Sədr!

Ölkənizin cənubunda baş vermiş zəlzələnin insan tələfatı və dağıntılar ilə nəticələnməsi xəbərindən dərin kədər hissi keçirdim.

Bu ağır anlarda dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 noyabr 2002-ci il*

**AZƏRBAYCAN PREZİDENTİ**
**HEYDƏR ƏLİYEVİN**
**BAKI SAKİNLƏRİ İLƏ GÖRÜŞÜ**

*3 noyabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev noyabrın 3-də paytaxtın mərkəzi hissəsində gəzintiyə çıxmışdır. Dövlətimizin başçısı Bülbül prospektindən keçərkən paytaxt sakinləri ilə səmimi söhbət etdi.*

*Bakılılar Azərbaycan prezidentini ürəkdən salamlayır, öz problemlərindən söhbət açırdılar. Uşaqlar isə, həmişə olduğu kimi, Heydər baba ilə bir daha görüşmək fürsətindən duyduqları sevinc və fərəh hisslərini özlərinə xas mehribanlıqla ifadə edirdilər.*

*Prezident Heydər Əliyev Nizami küçəsində bəzi ticarət obyektlərinə baş çəkdi, camaatın alıcılıq imkanları, malların çeşidi, onların hansı ölkələrdən gətirilməsi ilə maraqlandı.*

*Dövlətimizin başçısı istirahət günü gəzintiyə çıxmış bir qrup gəncə yaxınlaşdı və onların nə ilə məşğul olduqlarını soruşdu. Azərbaycan Texniki Universitetinin tələbələri prezident Heydər Əliyevə təhsil şəraitindən danışdılar, qəbul imtahanlarının test üsulu ilə keçirilməsini bəyəndiklərini söylədilər. Türkiyəli sahibkar isə prezidentə yaxınlaşaraq xarici iş adamlarının normal fəaliyyəti üçün hər cür şərait yaradan son fərmanlarına görə təşəkkürlərini bildirdi.*

*Söhbətlər zamanı paytaxt sakinləri prezident Heydər Əliyevin apardığı məqsədyönlü siyasət sayəsində ölkəmizdə bərqərar edilmiş ictimai-siyasi sabitliyi, əmin-amanlığı yüksək qiymətləndirirdilər.*

*Onlar vurğulayırdılar ki, indi Bakı sakinləri günün istənilən vaxtı qorxub-çəkinmədən şəhərdə asudə gəzə bilirlər.*

*Dövlətimizin başçısını səmimiyyətlə salamlayanlar arasında əcnəbi qonaqlar da vardı.*

**Kütləvi informasiya vasitələrinin nümayəndələrinə**
**verdiyi qısa müsahibə:**

– Şəhəri çox yaxşı görürəm. Camaatın əhval-ruhiyyəsini də çox yaxşı görürəm. Mağazalara baxıram, hamısı doludur, o qədər alıcı yoxdur. Çünki indi o qədər mal var ki, insanların çoxu alıb, tələbatını ödəyib, yeni-yeni şeylər istəyirlər.

Şəhər təmizdir, görürəm ki, insanlar bazar günü rahat istirahət edir, gəzirlər. Mənim özüm də burada rahat gəzirəm. Heç kəs bilmirdi ki, mən buraya gələcəyəm. Mənim mühafizə idarəmin rəisi general Axundov da heç bilmirdi ki, evdən çıxanda mən buraya gələcəyəm. Mən işə gedirdim. Amma buradan keçəndə, Bülbül prospektində maşını saxlatdım, oradan da buraya gəlmişəm. Görürəm camaat, gənclər çoxdur. Yaşlı adamlar da var. Hamısının əhval-ruhiyyəsi yaxşıdır. Heç bir şikayət də eşitmirəm. Çoxları mənə yaxınlaşır, öz minnətdarlıqlarını bildirir ki, belə rahat yaşayırlar. Buna görə çox məmnunam. Şəhər gözəldir, çox gözəldir. Mən Bakı şəhəri ilə həmişə fəxr etmişəm. Amma indi, son dövrdə şəhər daha da gözəlləşib, müasirləşibdir. Ticarətin, mağazaların özəlləşdirilməsi şəhərin küçələrinə çox, yeni bir gözəllik veribdir. Çünki hər bir mağaza sahibi çalışır ki, öz mağazasını daha da gözəl etsin, cazibədar etsin ki, onun malı satılsın. Deməli, bazar iqtisadiyyatı burada bizə hərtərəfli fayda verir.

**S u a l: Cənab Prezidenti bu gəzintidən sonra şəhərin abadlaşması istiqamətində hansısa konkret qərarlar, göstərişlər olacağı gözlənilirmi?**

**C a v a b:** Bilirsiniz, bunun üçün elə bir qərar lazım deyildir. Mən qərarlar vermişəm. Əsas məsələ bu qərarların icrasıdır. Ötən illər o qərarların icrası qənaətbəxş deyildi, mən bundan narazı idim. İndi mən Bakıya yeni icra hakimiyyəti başçısı təyin etmişəm, Hacıbala Abutalıbov bu işlərlə çox yaxşı məşğul olur. Bunun üçün xüsusi qərar lazım deyildir. Bir halda ki, iş yaxşı gedir, onda yeni bir qərar qəbul etməyə ehtiyac yoxdur. O yerdə ki, iş yaxşı getmir, yaxud orada hansısa əlavə bir tədbir görmək lazımdır, onda qərar qəbul olunur. Qərar qəbul olunubdur, indi icra edilir. Güman edirəm ki, bundan sonra daha da yaxşı olacaqdır.

* * *

*Respublikamızın rəhbəri onunla görüşmək və söhbət etmək istəyən hər kəsi diqqətlə dinləyirdi. Füzuli rayonundan olan qaçqın dövlətimizin başçısına öz problemlərindən danışdı. Prezident Heydər Əliyev ona müraciət edənlərin hamısını dinləyərək, konkret tədbirlər görmək üçün Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbova müvafiq tapşırıqlar verdi.*

*Gəzinti zamanı prezident Bakının memarlığının gözəlliyinə diqqət yetirir, paytaxtın müasir simasının yaxşılaşdırılması ilə bağlı öz arzu və istəklərini bildirirdi.*

*Sonra dövlətimizin başçısı bakılıların sevimli istirahət guşələrindən biri olan Nizami meydanına gəldi. Paytaxt sakinləri Azərbaycan prezidentini burada böyük hörmət və məhəbbətlə salamladılar.*

*Paytaxtda gəzinti Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin yanında başa çatdı. Dövlətimizin başçısı şəhər sakinləri ilə mehribancasına sağollaşdı. Bakılılar prezidenti alqışlarla yola saldılar.*

## ATƏT-in MİNSK QRUPUNUN FRANSADAN OLAN YENİ HƏMSƏDRİ ANRİ JAKOLƏN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 noyabr 2002-ci il*

**H e y d ə r  Ə l i y e v:** Sizi səmimi-qəlbdən salamlayıram. Bakıya xoş gəlmisiniz. Sizi Minsk qrupunun tərkibində Fransanın nümayəndəsi təyin olunmağınız münasibətilə təbrik edirəm. Arzu edirəm sizin əməkdaşlığınız uğurlu olsun. Təəssüflər olsun ki, Fransa Minsk qrupundakı nümayəndəsini bir neçə dəfə dəyişibdir. Doğrudur, artıq Minsk qrupu on ildir fəaliyyət göstərir, orada bir vəzifədə on il heç kəs işləyə bilməz. Amma nümayəndəni bir ildən yox, heç olmasa üç-dörd ildən bir dəyişdirmək daha məqsədə uyğun olar. Amma mən güman edirəm ki, Minsk qrupu bundan sonra uzun müddət davam etməyəcəkdir. Biz bu məsələni həll edəcəyik və Minsk qrupu da öz fəaliyyətini sona çatdıracaqdır.

Təbii ki, bizim sizinlə əməkdaşlığımız, ümumiyyətlə, Minsk qrupu ilə Azərbaycanın, Ermənistanın gələcək əməkdaşlığından asılı olacaqdır. Mən isə düşünürəm ki, bizim əməkdaşlığımız bundan sonra həm uğurlu, həm də sürətli olmalıdır. Çünki biz bu məsələnin bundan sonra da uzadılmasına yol verməməliyik. Mən sizi bu arzularla salamlayıram.

**A n r i  J a k o l ə n:** Cənab Prezident, səmimi qəbula görə öz təşəkkürümü bildirirəm. Daha üstün tutardım ki, Siz məni bir qədər sonra təbrik edəsiniz. Yəni o gün ki, Dağlıq Qarabağ problemi həm Azərbaycanın, həm də Ermənistanın razılığı ilə həll olunsun. Mən əslində cənab Perneni yox, Filip dö Surməni əvəz edirəm. İş elə gətirdi ki, – Sizin bundan xəbəriniz var – cənab Surməni əvəz edən adam onun yerinə təyin olunmadı. İndi Xarici İşlər Nazirliyində Avropa İdarəsinin rəisi işləyən cənab Perne bu müddət ərzində həmsədr vəzifəsini icra edirdi.

Ancaq indi nazirimiz cənab Vilpən hesab edir ki, peşəkar bir diplomat bu məsələyə bütün vaxtını sərf edərək, münaqişənin həlli ilə məşğul olmalıdır.

Bunun bir səbəbi də ondan ibarətdir ki, prezident Jak Şirak münaqişənin həlli məsələsini çox yaxından, diqqətlə izləyir. Məni bu vəzifəyə dəvət etdilər və Sizə söz verirəm ki, onu vicdanla yerinə yetirməyə hazıram.

*Fransa diplomatı bundan əvvəlki fəaliyyəti barədə qısa məlumat verərək dedi ki, münaqişəli bölgələrdə – Bosniyada, Kiprdə səfir işləmiş, ATƏT-in sədrinin nümayəndəsi kimi, Silahlara nəzarət komissiyasında çalışmışam. Həmin işlərdə topladığım təcrübədən bu münaqişənin həllində istifadə etmək istəyirəm və buna böyük ümid bəsləyirəm. Burada olduğum müddətdə başa düşdüm ki, münaqişə nəticəsində Azərbaycan əhalisi, xüsusilə qaçqınlar nə qədər əziyyət çəkirlər. Mən Bosniya və Hersoqovinada üç il qaçqınların yanında olmuşam, doğma torpaqdan qovulmağın, ailəni itirməyin nə olduğunu bilirəm. Bu vəziyyəti daha yaxşı başa düşmək üçün mən qaçqınlara baş çəkmək istəyirəm.*

**H e y d ə r  Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Özünüz söylədiniz və mən də sizin tərcümeyi-halınızla bu gün tanış olmuşam. Peşəkar diplomat kimi siz, həqiqətən çox iş görə bilərsiniz. Dediniz ki, Bosniya və Hersoqovinada üç il olmusunuz. Bəli, orada qanlı münaqişələr, çoxlu tələfat olub, insanlar öz yerlərini itiriblər. Oraya beynəlxalq sülhyaratma qüvvələri daxil olubdur, indi də onlar oradadırlar.

Məhz bunların nəticəsində, bir neçə böyük ölkənin razılaşması nəticəsində orada münaqişə müəyyən qədər söndürülübdür. Amma nə qədər söndürülübdür, siz onu məndən yaxşı bilirsiniz. Hesab edirəm ki, ümumiyyətlə, həm diplomatik işdə, həm də münaqişə olan ölkələrdə işləməyiniz baxımından sizin təcrübəniz çoxdur.

Beləliklə, Azərbaycan sizinlə, Fransanın nümayəndəsi ilə əməkdaşlığa başlayır. Yəni bu əməkdaşlığımızı indi Fransa tərəfindən sizin iştirakınızla davam etdiririk. Çox məmnunam ki, siz bu işə başlamazdan əvvəl məhz qaçqınlar düşərgəsinə getmək, onların vəziyyətini öz gözlərinizlə görmək istəyirsiniz. Amma güman edirəm ki, siz Bakıdan kənardakı düşərgələrdən birinə gedəcəksiniz. Şəhərin içindəki qaçqınlarla görüşmək də təsəvvür yaradır, amma yaxşı olar ki, ya Biləsuvara, ya İmişliyə və ya Bərdəyə gedəsiniz, yaxud da istədiyiniz başqa yerə gedəsiniz. Hər halda, bizim Qaçqınlar Komitəsinin sədri, Baş nazirin müavini Əli Həsənov sizə bu barədə kömək edə bilər. Sizin səfir də bunları yaxşı bilir. O oralarda olubdur, sizə məsləhətlər verə bilər.

**KAMBOCANIN KRALI ƏLAHƏZRƏT**
**NORODOM SİANUKA**

Əlahəzrət!

Kamboca Krallığının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafı faydalı əməkdaşlıq üçün geniş imkanlar açacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 noyabr 2002-ci il*

**ANQOLA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB JOZE EDUARDU DUŞ SANTUŞA**

Hörmətli cənab Prezident!

Anqola Respublikasının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı əlaqələrin mövcud ənənələr əsasında inkişafı xalqlarımız üçün xeyirli olacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost ölkənizə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 noyabr 2002-ci il*

**BAKI METROPOLİTENİNİN**
**35 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ**
**TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ**

*Respublika sarayı*

*6 noyabr 2002-ci il*

Əziz metropolitençilər!
Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Sizi Bakı Metropoliteninin istismara verilməsinin 35-ci ildönümü münasibətilə təbrik edirəm, hamınıza uğurlu gələcək arzulayıram.

Bakı Metropoliteni Azərbaycan xalqının çoxəsrlik tarixində nadir bir hadisədir. Keçmiş zamanlarda heç kəs təsəvvür edə bilməzdi ki, ümumiyyətlə, yeraltı dəmir yolu olacaqdır, Bakıda belə bir dəmir yolunu yaratmaq mümkün olacaqdır və Azərbaycan xalqı belə bir böyük sərvətin sahibi olacaqdır. Ancaq bunlar hamısı baş verib və 35 il bundan öncə Bakıda Metropolitenin ilk qatarları sərnişinləri daşımağa başlayıbdır və bu hadisə xəyalları reallığa çeviribdir.

Burada çıxış edən metropolitenin işçisi, hörmətli xanım çox yaxşı bir söz işlətdi. Dedi ki, metropoliten nağıldır. Həqiqətən, doğrudan da nağıldır. Bir də deyirəm ki, bunu keçmişdə təsəvvür etmək mümkün deyildi. İndi artıq biz hamımız – həm Bakı sakinləri, həm də, ümumiyyətlə, Azərbaycan vətəndaşları – metropolitenin varlığına o qədər adi baxırıq ki, bəzən düşünmək olar, bəli, hər şey ola bilərmiş.

35 illik yubileyin özü də qeyri-adi bir yubileydir. Mən Bakı Metropoliteninin 35 illik yubileyini qeyd etmək haqqında sərəncam hazırlanması barəsində göstəriş verərkən düşündüm. Çünki, adətən, 50, 70, 80, 100 illik yubileylər olur. Yubileylər də daha çox böyük elm, mədəniyyət xadimlərinə, yaxud iri mədəniyyət, təhsil müəssisələrinə həsr olunur. Böyük, nadir sənaye müəssisələrinin yubileyləri keçirilir. Ancaq metropolitenə indi çox adam adi bir nəqliyyat vasitəsi kimi baxır. Ona görə də bəziləri də bunu düşünə bilərdi, mənim özüm də sərəncam hazırlanan zaman və onu imzalamamışdan əvvəl düşünürdüm. Düşünərək qərar qəbul etdim ki, bəli, bu hadisə, yəni 35 il bundan öncə Bakının sakinləri üçün belə gözəl nəqliyyat vasitəsinin işə salınması və bu nəqliyyatın 35 il daim insanlara, Azərbaycan vətəndaşlarına xidmət etməsi böyük hadisədir. Ona görə yaşının azlığından asılı olmayaraq, metropolitenin 35 illik yubileyinin keçirilməsini mən tam əsaslı hesab edirəm. Ona görə də o sərəncamı imzalamışam. Artıq bu gün də salonda əhval-ruhiyyəni görərək, metropolitenin nümayəndələrinin, qonaqlarımızın çıxışlarını dinləyərək, bir daha əmin oldum ki, bu yubiley bizim üçün, Azərbaycan xalqı üçün mütləq lazımdır.

Vətəndaşlarımız, ümumiyyətlə, xalqımız bilməlidir ki, bizim millətimizin əlində nə kimi böyük və nadir bir sərvət var. Bu sərvət müstəqil Azərbaycan dövlətinə yaxın keçmişdən miras qalıbdır. Ancaq eyni zamanda, bu sərvət Azərbaycan xalqının zəhmətkeş insanlarının böyük əməyi, əzmi nəticəsində yaranıbdır və belə bir möcüzəvi şəkil alıbdır. Ona görə Bakı Metropoliteni Azərbaycan xalqının milli sərvətidir. Deyə bilərəm ki, ən dəyərli sərvətlərindən biridir.

Bakıda metropoliten tikilməsinin tarixi böyükdür. İkinci dünya müharibəsi qurtarandan sonra, 1947-ci ildə Bakıda metropolitenin tikilməsi haqqında qərar qəbul edilmişdi. Bu da təsadüfi deyildi. Çünki o vaxt keçmiş SSRİ-də Bakı şəhəri əhalisinin sayına görə üçüncü yerdə dururdu. Yəni Moskva, Leninqrad, sonra Bakı gəlirdi. Moskva Metropoliteninin tikilib istifadəyə verilməsindən sonra, onun nə qədər vacib olduğunu dərk edəndən sonra, təbiidir ki, çox əhalisi olan bir şəhərdə metropolitenin tikilməsi barədə belə qərar qəbul edilmişdi və işə başlanılmışdı. Ancaq təəssüflər olsun ki, 1953-cü ildə tikinti dayandırılmış və yalnız 1961-ci ildə Bakı Metropoliteninin inşası bərpa edilmişdi. Bunun nəticəsində 1967-ci ildə, 35 il bundan öncə artıq Bakı Metropoliteninin birinci hissəsi hazır olmuşdu. Təxminən 9,9 kilometri hazır olmuşdu və istismara verilmişdi. Bu təbiidir, Azərbaycanın, Bakının həyatında böyük bir hadisə olmuşdur.

Metropoliten deyəndə, indi hamı metropolitendə işləyən adamları, vaqonları idarə edən, bütün nəqliyyat sistemini idarə edənləri düşünürlər. Ancaq metropoliten deyəndə, iki kollektivi nəzərə almaq lazımdır. Birinci kollektiv inşaatçılar, ikinci kollektiv istismarçılardır. Hər işçinin işi çətindir. Ancaq istismarçılar inciməsinlər, mən həmişə açıq danışmışam, inşaatçıların işi qat-qat çətindir. Onu görən azdır, çünki bu işlər yerin altında gedir. Nəhayət, yerin altında gedən bu inşaatdan sonra insanların gördükləri hazır metro stansiyaları, hərəkət edən vaqonlar, qatarlardır. Metro vaqonları elə sürətlə gedir ki, insan heç görə bilmir ki, orada, tuneldə nə var, nə yoxdur. Ancaq o tunellərin qazılması, tikilməsi və təhlükəsiz vəziyyətə gətirilməsi nə qədər ağır və nə qədər də çətin işdir.

Biz bu gün metropolitenin 35 illik yubileyini edəndə həm inşaatçıları, həm də istismarçıları nəzərdə tuturuq. Əgər inşaatçıları götürsək, onların yubileyi 35 il deyil, təxminən 42–45 ildir. Çünki 1947-ci ildə inşaata başlanıb, 1953-cü ilə qədər, 6 il inşaat gedib, ondan sonra dayanıbdır. 1961-ci ildə başlanıb, sonra yenə də inşaat 6 il gedibdir. 1967-ci ildə metropoliteni istismara verəndə artıq 12 il idi ki, inşaatçılar bununla məşğul idilər. 12 illik inşaatın nəticəsində 1967-ci ildə birinci hissə istismara verildi. Amma bununla iş qurtarmırdı. Ondan sonra inşaat işləri davam etdi. 1967-ci ildən bu işlərə bilavasitə rəhbərlik edən adam kimi, mən deyə bilərəm ki, istismarçılar metronu çox gözəl, yaxşı istismar edirlər. Ancaq inşaat davam edir. Metropolitenin o biri hissələrini tikmək lazımdır, yeni xətləri başa çatdırmaq lazımdır.

1967-ci ildən sonra görülən işlər indi 31 kilometrlik sərnişin daşıyan metro tunellərinin, metro xətlərinin olmasına gətirib çıxarıbdır. Amma, ümumiyyətlə, yer altındakı relslərin, tunellərin ümumi uzunluğu 80 kilometrdir. Bunların hamısını inşaatçılar yaradıblar. İnşaatçıların nümayəndəsi burada çıxış edərkən, hesab edirəm, öz fikrini bizə çox yaxşı çatdıra bildi. Mən demək istəyirəm ki, bu gün metropolitenin 35 illik yubileyi ilə əlaqədar məruzə edən metropolitenin rəisi Tağı Əhmədov, istismarçılar tərəfindən çıxış edən xanım, inşaatçılar tərəfindən çıxış edən, 45 il tikintidə işləmiş fədakar insan, ümumiyyətlə, metropolitenin nə olduğunu qısaca, amma olduqca dərin məzmunla çatdırdılar. Düzü, mən çox təsirləndim. Xanımın adı yadımda qalmadı, bağışlasın. Arzu Kərimova – nə gözəl adı var, elə bil şair danışırdı. Yer altındakı metronun nə olduğunu gözəl ifadələrlə göstərmək istəyirdi. İnşaatçı Ağarəhim Rəhimov da fədakar bir insandır. 45 il o cür işdə ancaq bu sənəti sevən adam işləyə bilər. Bax, belə bir adam bizim gözümüzün qarşısındadır.

Bəli, yüzlərlə, minlərlə, on minlərlə, yüz minlərlə belə insanların fədakar əməyi nəticəsində bizim bugünkü gözəl sərvətimiz – Bakı Metropoliteni var. Biz onların hamısına – dünyasını dəyişənlərə də, bu gün işləyənlərə də, yaxud təqaüddə olanlara da – həm inşaatçılara, həm də istismarçılara minnətdar olmalıyıq. Mən onlara təşəkkür edirəm. Onların hamısına «sağ olun!» deyirəm və bu sahədə işləyən adamların hamısına gələcəkdə yeni uğurlar arzulayıram.

Bu gün Moskvadan, Kiyevdən, Tbilisidən bizim qonaqlarımız burada təbrik sözlərini dedilər. Onlar çox böyük mehribanlıqla, Azərbaycana böyük hörmətlə öz sözlərini bizə çatdırdılar. Bizim bu metropolitençilər kimi, onlar da çox peşəkar insanlardır, bu sahədə on illərlə işləyən adamlardır. Bu da onu göstərir ki, metro elə bir sahədir ki, onu sevən adam ondan ayrılmır və ayrılmaq da istəmir. Demək, bu da həmin sahənin xüsusiyyətidir.

Mən təbriklərinə görə, Azərbaycan metropolitençiləri haqqında, Azərbaycan xalqı haqqında, bizim ölkəmiz, dövlətimiz haqqında, o cümlədən mənim haqqımda dedikləri xoş sözlərə görə bütün qonaqlara təşəkkür edirəm. Moskva, Kiyev, Tbilisi metropolitençilərinə, dəmiryolçularına dərin hörmət və ehtiramımı bildirirəm, onlara cansağlığı və gələcək işlərində uğurlar arzulayıram.

Mən bütün qonaqlara, xüsusən Moskvadan gəlmiş qonaqlara rus dilində bir neçə söz deməyə bilmərəm, çünki onlar burada həm təbrik sözləri söylədilər, həm də keçmişdə metro tikintisi ilə və metropolitendən daha yaxşı istifadənin təşkili ilə necə məşğul olduğumuzu xatırladılar. Sözün düzü, siz məni çox kövrəltdiniz. Mən Moskvada Nazirlər Soveti sədrinin birinci müavini işləyəndə, Siyasi Büronun üzvu olanda digər mühüm sahələrlə yanaşı, dəmir yol nəqliyyatına da, yeri gəlmişkən, nəqliyyat tikintisinə də rəhbərlik edirdim. Hər ikisi mənim səlahiyyət, rəhbərlik dairəmə daxil idi. Deməliyəm ki, orada insanlar çox gözəl işləyirdilər. Dəmir yol nəqliyyatı, metropoliten, nəqliyyat tikintisi hər bir dövlət üçün, xüsusən də Sovet İttifaqı kimi böyük dövlət üçün ciddi sahələr idi. Beş ildən artıq bir müddət ərzində bu sahələrlə məşğul olmağıma və xeyli mühüm qərarlar qəbul etməyimə şad idim. Xatirimdədir, 1983-cü ildə mənim təşəbbüsümlə Sov.İKP MK və SSRİ Nazirlər Soveti Sovet İttifaqında metropolitenin inkişaf etdirilməsinə dair tədbirlər haqqında çox geniş bir qərar qəbul etdi. Həqiqətən, o vaxtlar beş paytaxtda və Rusiyanın, Ukraynanın bəzi iri şəhərlərində metropoliten vardı, məsələn, Xarkovda metropolitenin tikintisinə yenicə başlanmışdı. Yadımdadır, 1980-ci illərdə biz Rusiya Federasiyasının iri şəhərlərində metropolitenlər tikilməsinə dair bir çox qərarlar qəbul etmişdik. Dnepropetrovskda da metro tikintisi haqqında qərar qəbul olunmuşdu. Bu gün mən statistika məlumatına baxdım, bəzi şəhərlərdə çox şey tikilmiş, bəzilərində isə o qədər də çox tikilməmişdir. Hər halda, qəbul etdiyimiz həmin qərarlar, özü də təkcə onlar deyil, gündəlik əməli işimiz də böyük rol oynamışdır.

Mən metropolitençilərə, dəmiryolçulara, nəqliyyat tikintisi işçilərinə müraciət edirəm və demək istəyirəm ki: şadam və xoşbəxtəm ki, o vaxt Sovetlər İttifaqı miqyasında belə mühüm sahəyə rəhbərlik etmək mənə nəsib olmuşdur, bu mənə çox şey vermişdir. O vaxt mən çox şey öyrəndim, çox şeyi dərk etdim və cəsarətlə deyə bilərəm ki, heç də az iş görməmişəm, ən başlıcası isə, həmin sahələrdə həmişə çox vicdanlı adamlarla, işinə sadiq, öz peşəsini sevən, öz peşəsi ilə fəxr edən, yorulmadan işləyən adamlarla rastlaşırdım. Budur, Moskva, Kiyev, Tbilisi nümayəndələri bu gün buradadırlar. Onlar məhz həmin nəslin, o vaxtlar gördüyüm, birlikdə işlədiyim, birlikdə çalışdığım nəslin nümayəndələridir. Xahiş edirəm, mənim səmimi salamımı və ən xoş arzularımı bütün əməkdaşlarınıza, birlikdə işlədiyiniz bütün insanlara yetirin. O vaxtlar birlikdə və dostcasına işlədiyimizə görə onların hamısına «çox sağ olun» deyirəm.

Çox sağ olun!

Bakı Metropoliteni şəhərin həyatında böyük rol oynayır. Artıq burada deyildi ki, gündə 450 min sərnişin daşınır. Bakıda sərnişindaşımanın 30 faizi Bakı Metropoliteninin üzərinə düşür. Metro Bakı kimi böyük şəhərdə

nəqliyyatın böyük bir hissəsini təşkil edir. Ancaq iş onda deyil ki, sərnişindaşımanın 30 faizi onun üzərinə düşür. Ümumiyyətlə, metropoliten bütün nəqliyyat vasitələri içərisində ən gözəl nəqliyyat növüdür. Nəyə görə? Birincisi, sərnişinləri mənzil başına çox yüksək sürətlə çatdırır. İkincisi, təhlükəsizilk tamamilə təmin olunur. Üçüncüsü və ən əsası, metropoliten kütləvi nəqliyyat vasitəsidir, hər bir insanın istifadə etmək imkanı olan nəqliyyat vasitəsidir.

İndi Azərbaycanda avtomobillərin sayı günbəgün artır. Avtobus nəqliyyatı Bakıda özəl sektorun hesabına çox yaxşı genişlənibdir. Avtobusların sayı indi istəniləndən də çoxdur. Bu da yaxşıdır. Demək, burada rəqabət var, gediş haqqı ucuzlaşa bilər. Ancaq bunların hamısı metropolitenə uduzurlar. Təbiidir, kimin şəxsi avtomobili varsa, avtomobildə gedib-gəlir. Bu bəlkə də onun üçün daha əlverişlidir. Ancaq yenə sürətinə görə metropoliten ondan üstündür. Yenə də deyirəm, metropoliten hamı üçündür, hamınındır, xalqındır və lap az təminatı olanların nəqliyyat vasitəsidir. Baxmayaraq ki, lap böyük imkanı olan adamlar da metropolitendən istifadə edirlər və güman edirəm, onlar bundan razı qalırlar. Metropolitenin hamı üçün olması, kütləvi olması, çox yüksək sürətlə insanları daşıması və yüksək texniki səviyyəyə qalxması onu ən qabaqcıl, ən etibarlı, ən rahat, ən gözəl nəqliyyat növü kimi önə çəkir. Ona görə metropoliten deyəndə, bütün xalq üçün nəqliyyat nəzərdə tutulur.

Metropolitenin xüsusiyyəti ondan ibarətdir ki – Arzu Kərimova bu barədə çox yaxşı dedi – orada insanlar, sərnişinlər həqiqətən tamamilə dəyişirlər. Məsələn, avtobuslarda, yaxud başqa avtomobillərlə gedənlər içərisində bir-birilə savaşan, açıq deməliyik, bir-birini təhqir edən, hətta bir-birini – bu ifadəmə görə bağışlayın – söyən insanlara da rast gəlirsən. Belə insanlar yəqin metro ilə də gedirlər. Amma bunlar hamısı metroda özlərini başqa cür aparırlar. Metroda belə hadisələrə rast gəlmək olmur, bəlkə də rast gəlinir, amma bu tamamilə nadir bir haldır. Demək, metronun özünün mühiti, onun bütün yaratdığı əhval-ruhiyyə orada, yerin altında insanları tamamilə müsbət mənada dəyişdirir.

Təbiidir, metro işçilərinin işi çox ağırdır. Çünki qatarların iki dəqiqədən bir ardıcıl surətdə bir istiqamətə, o biri istiqamətə getməsi – bunlar hamısı asan deyildir. İndi onların çoxu müasir cihazlarla idarə olunur. Ancaq yenə asan bir iş deyildir.

Şəhərin başqa yerlərinə nisbətən, metroda tam təmizliyə də rast gəlirsən. Güman etmirəm ki, kimsə metro stansiyasında zibili yerə atsın, döşəməni, yaxud vaqonları zibilləsin. Əgər belələri varsa, mən çox təəssüf edirəm.

Biz sözlə, metropoliten öz quruluşuna görə, xidmət imkanlarına görə – hər şeyə görə digər nəqiyyat növlərindən fərqlənir və ən sevimli nəqliyyat vasitəsidir.

Mən vaxtilə metrodan istifadə edərdim. Keçmişdə Moskva Metropolitenindən çox istifadə etmişəm. Leninqradda oxuyanda da metropolitendən çox istifadə etmişəm. Xatirimdədir, hələ ilk dəfə gərək ki, 1947-ci ildə idi, Moskvaya gedəndə metropoliteni böyük memarlıq abidəsi kimi seyr edirdim. Bu, tək mənə aid deyil, hamıya aid idi, o vaxt Moskvaya gedən insanlara aid idi. O cümlədən, Azərbaycanın metro stansiyalarının hər biri memarlıq abidəsidir. «Nizami» metro stansiyası bu baxımdan xüsusi fərqlənir. Mən bu işlərlə məşğul olmuşam. Deyə bilərəm ki, 1967-ci ildən sonra tikilən metro stansiyalarının hamısının layihələrinə baxır, öz mülahizələrimizi bildirir, tövsiyələrimizi verirdik. Beləliklə, biz yaxşı metropoliten stansiyaları yaratmışıq. Ona görə metropoliten, eyni zamanda, həqiqətən mədəniyyət, memarlıq abidəsidir.

Mən dedim ki, metropoliten hamı üçündür. Amma Azərbaycanda metropoliten başqa şəhərlərdəkilərə nisbətən daha çox hamı üçündür. Çünki sizə bildirmək istəyirəm ki, Azərbaycanda metropolitendə gediş haqqı Müstəqil Dövlətlər Birliyinə daxil olan digər ölkələrin hamısından xeyli ucuzdur. Bilirsiniz ki, bizdə metroda gediş haqqı 250 manatdır. Metrodan istifadə edənlər bunu yaxşı bilirlər. Bu qiymət 1993-1994-cü ildən qoyulubdur, dəyişilmir. Ancaq bütün başqa şəhərlərdə – Müstəqil Dövlətlər Birliyi ölkələrinə aid olan şəhərləri götürürəm – gediş haqqı Bakı Metropolitenindəkindən bahadır. Güman edirəm, bizim qonaqlar məni düzgün başa düşərlər. Mən bizim metropolitenin nə qədər ucuz olduğunu əyani surətdə göstərmək üçün gərək o biri metropolitenlərlə müqayisə edəm.

Məsələn, əgər manat hesabı ilə götürsək, Moskva Metropolitenində bir biletin qiyməti 1080 manatdır. Sankt-Peterburqda 880 manat, Novosibirskdə 735 manat, Xarkovda 440 manat, Kiyevdə 440 manat, Tbilisidə 395 manat, Daşkənddə 345 manat, Yerevanda 335 manatdır – düzdür, orada metropoliten balacadır, cəmi 12 kilometrdir, Müstəqil Dövlətlər Birliyi ölkələrinin paytaxtlarında olan metropolitenlərdən ən kiçiyi Yerevandadır – Minskdə 320 manatdır. Demək, fərqə baxın. O biri şəhərlərdəki metropolitenlərin gediş haqqı ilə bizimkini müqayisə edəndə, bunların bəziləri 1,5 dəfə, 1,8 dəfə, 2 dəfə, 2,5 dəfə, 3 dəfə, hətta 4 dəfə bahadır.

İndi nə cür olur ki, bu belədir? Biz onlardan dövlətliyikmi? Yox. Metropolitendə gediş haqqının bu səviyyədə saxlanılması üçün Azərbaycanın büdcəsindən ildə təxminən 7 milyon dollar pul ayrılır. Amma əslində metropoliten elə bir nəqliyyat vasitəsidir ki, gərək bu özü-özünü saxlasın və dövlətə qazanc versin. Məsələn, başqa nəqliyyat vasitələrini, elə dəmir yolunu, avtobusları götürün. Əgər qazanmasalar, o avtobusları niyə işlədirlər?! İşlətməzlər. Onlar avtobusları işlədərək həm qazanırlar, həm də dövlətə vergi verirlər. Amma metropoliten özünü saxlamaq üçün qazana bilmir. Bunu bilməlisiniz.

Metropolitenin bu cür texniki səviyyədə saxlanılması üçün büdcədən pul ayrılır, eyni zamanda, onun işinin rentabelliyini təmin etmək üçün büdcədən subsidiya veririk. Bakı Metropoleninin rentabelli olması üçün gediş

haqqı 1000 manat olmalıdır. Amma bizdə bundan 4 dəfə azdır. Başa düşün, biz metropoliteni bax, bu səviyyədə dövlətin hesabına saxlayırıq.

Bilirsiniz ki, biz bu illərdə bazar iqtisadiyyatını tədbiq etmişik. Onun tələblərini hər yerdə həyata keçiririk. Gərək hər bir sahə rentabelli olsun. Özü qazansın və dövlətə vergi versin. Ona görə bir neçə dəfə məsələ qalxıbdır ki, metropolitendə qiymət qaldırılsın. Bu məsələ tamamilə əsaslı qaldırılıbdır. Demək olar ki, biz hər il dövlət büdcəsini hazırlayanda Maliyyə Nazirliyi büdcəni formalaşdırmaq üçün, gəlirləri və xərcləri bir-birinə uyğunlaşdırmaq üçün vəsait axtarır və görür ki, burada imkan var. Çünki qiymət 250 manatdır, əgər bunu heç olmasa 500 manata qaldırsaq, iki dəfə artacaq və dövlətin yükü azalacaqdır. Mənə bir neçə ildir belə təkliflər veriblər. Gələn ilin büdcəsini hazırlayanda da belə bir təklif oldu. Mən bunu qəbul etmədim. Gələn ilə birincisi, həmin qiyməti saxladım, ikincisi də, əgər biz indiyə qədər metronun saxlanması üçün ildə 7 milyon dollar ayırırdıqsa, gələn il üçün bundan iki dəfə çox ayrılıbdır. O cümlədən, «Həzi Aslanov» stansiyasının tikilməsi, ondan sonrakı işlərin görülməsi üçün.

Beləliklə, bilin, indiyə qədər Bakıda metropolitendə qiymət sabitdir – 250 manatdır. Özü də bütün ölkələrdəkindən, şəhərlərdəkindən ucuzdur. Mən gələn il də bu qiymətin saxlanılması üçün göstəriş vermişəm. Ancaq sonrakı illərdə bir az düşünmək lazımdır. Ümumiyyətlə, siz bilməlisiniz ki, məsələn, əgər qiymət 1000 manat olmalıdırsa və metrodan istifadə edən hər bir insan 250 manat verirsə, deməli, dövlətin hesabına ona 750 manat qalır. Bununla biz, görünməsə də, yəni əhaliyə, yəni metrodan istifadə edən adamlara yardım göstəririk.

Təkcə bu deyildir. Məsələn, elektrik enerjisindən istifadə olunmasını götürün. Satılan enerjinin haqqının cəmi 20 faizini yığmaq mümkün olur. 80 faizini almaq mümkün olmur. Qazın haqqı ondan da az yığılır. Beləliklə, insanların elektrik enerjisindən, qazdan, sudan istifadə üçün vermədikləri pulların hamısını hesablayanda ildə 350 milyon dollar təşkil edir. Əgər elektrik enerjisinin, qazın, suyun pulunu hamı versəydi, biz büdcəyə – indi bizdə büdcə 1 milyard 200 milyon dollardır – azı 300 milyon dollar əlavə edərdik. Bununla da maaşların daha da çox artmasını təmin edə bilərdik. Əgər bunu artırmaq mümkün deyilsə, demək, hökumət elektrik enerjisinin pulunu almadığı adamlara, qazın pulunu almadığı adamlara, suyun pulunu almadığı adamlara sosial yardım göstərir. Onlara pulsuz elektrik enerjisi verir, qaz verir, su verir. Ümumiyyətlə, bizim maliyyə vəziyyətimiz belədir.

Mən metro haqqında dedim. Amma bunu deyərək, eyni zamanda sizə çatdırmaq istərdim ki, biləsiniz, metro çox gözəl nəqliyyat vasitəsidir, bundan sonra da ondan yaxşı istifadə etmək lazımdır. Amma bu, dövlətə nəyə başa gəlir, siz bunu bilməlisiniz. Ona görə də bilməlisiniz ki, əgər bütün bu vəsaitlər toplansaydı, bizim büdcənin həcmi daha da çox olardı, maaşları da daha çox artıra bilərdik. Gələn il üçün dövlət büdcəsinə Milli Məclisdə baxılır. Deyə bilərəm ki, biz gələn il, demək olar, bütün sahələrdə büdcədən maliyyələşdirilən təşkilatlarda çalışan vətəndaşlarımızın hamısının maaşlarını artıracağıq. Çox ciddi artıracağıq, gözə görünən qədər artıracağıq.

Metronun 35 illik yubileyi, həqiqətən bizim bütün xalqımızın yubileyinə çevrilir. İndi Bakıda 2 milyon əhali yaşayır. Gündə Bakıya kənardan gələn adamlar təxminən 300–400 min təşkil edir. Azərbaycanın rayonlarından, başqa ölkələrdən gələnlərin əksəriyyəti metrodan istifadə edir. Başqa ölkələrdən gələnlərə də biz çox ucuz metro xidməti göstəririk.

Bu yubiley günü bir daha demək istəyirəm ki, metronun tikilməsi və bu səviyyəyə gətirilməsi çox çətin iş idi. Mən Rəhimovun sözlərinə yenə qayıtmaq istəyirəm ki, inşaatçılar böyük fədakarlıq göstərməsəydilər, metronu bu cür tikmək mümkün deyildi.

Mənim xatirimdədir, 1976-cı ildə «Nizami» stansiyası hazır olmuşdu. Oranı neçə dəfə su basdı. Bir dəfə səhər işə gələndə xəbər verdilər ki, tunel tamamilə su ilə dolubdur. Onu oradan çıxarmaq nə qədər çətin məsələ idi. Yaxud, tunelləri qazanda hər dəfə su çıxırdı. Bilməlisinz ki, Bakının yeraltı geoloji strukturu çox mürəkkəbdir. Bakıda keçmişdə su olmadığına görə quyular qazırdılar. Təxminən 100 il bundan öncə Bakıda ancaq quyu suyundan istifadə edirdilər. Əgər indi o quyular qapanıbsa da, onların alt hissəsi qalır. Bizim metro inşaatçıları dəfələrlə belə quyulara rast gəliblər, oradan su çıxıbdır. Bəzən insanlar da orada ağır vəziyyətə düşüblər. Amma öz işlərindən əl çəkməyiblər.

Mən bu gün bu barədə böyük iftixar hissi ilə danışıram. Ona görə ki, Bakı metrosunun tikilib bu səviyyəyə çatması üçün mən illər boyu çox xidmət göstərmişəm, hətta əziyyətlər çəkmişəm. Bilirsiniz, birincisi, metronun maliyyələşdirilməsi Moskvadan xüsusi xətlə gəlirdi. O vaxtlar onun Azərbaycanın dövlət büdcəsinə aidiyyatı yox idi. Bu, mərkəzləşmiş maliyyələşdirmə idi. Haraya vəsait vermək olar, hara vermək olmaz – bunu Moskva, Nazirlər Soveti, Mərkəzi Komitə müəyyən edirdi. Hər il gələn il üçün metronun tikintisinin vəsaitini almaq üçün biz mərkəzlə nə qədər iş aparırdıq. Məhz bizim apardığımız o gərgin işlərin nəticəsində vəsaitləri ala bilirdik. Amma təkcə vəsaitin alınması deyildi. Ondan sonra bəzi şəhərlərdə metronun tikilməsinə başlandı. Metronun tunellərində istifadə olunan çuqun tübinqlərin və başqa ləvazimatın istehsalını istənilən səviyyədə etmək mümkün deyildi. Çünki zavodlar buna hazır deyildi.

Mənim xatirimdədir, Moskvada Nəqliyyat Tikintisi Nazirliyinin kollegiyalarında biz bu məsələni bir neçə dəfə müzakirə etmişdik. Göndərilən tübinqlər Bakı üçün kifayət etmirdi. Mən orada öz imkanlarımdan istifadə edərək, təbiidir ki, Bakının bütün tələbatını artıqlaması ilə ödəyirdim. Çünki Bakıda işləməsəydim də, mənim qəlbim, ürəyim burada idi. Ona görə də mənim orada işləməyim və bilavasitə bu sahə ilə də məşğul olmağım o illərdə,

ondan sonrakı illərdə metro inşaatının çox sürətlə getməsi üçün çox kömək etdi, çox böyük amil oldu. Beləliklə, 1969-cu ildən mən bununla məşğul olmuşam. İndi də müstəqil dövlətimizdə məşğul oluram.

Mən dedim ki, metro bizim müstəqil dövlətimizə keçmişdən çatmış mirasdır. Biz bunu qorumalıyıq, saxlamalıyıq, inkişaf etdirməliyik. Bu bizim hamımızın vəzifəsidir. Ancaq bu azdır. Biz metro inşaatını davam etdirməliyik. Bu il «Həzi Aslanov» stansiyası açılacaq. Ancaq məndə hələ o illərdən metronun tikintisinin birinci, ikinci, üçüncü növbələrinin cədvəli var. O vaxtdan saxlamışam. İndi onları təzələyəcəyik. İnşaat qarşıdan gələn 3-4 ildə Azərbaycanın gəlirlərini xeyli artıracaqdır. Mən sizə bildirmək istəyirəm ki, bu gəlirlərdən Bakı metrosunun inşasının davam etdirilməsi üçün mütləq istifadə etmək lazımdır. Mən bunu edəcəyəm və güman edirəm ki, məndən sonra da gələn insanlar da bunu mütləq etməlidirlər.

«Məşədi Əzizbəyov» metro stansiyası vasitəsilə Bakı şəhərini hava limanı ilə birləşdirmək mənim o illərdə olan fikrimdir. Bəli, bu o illərin layihəsində var. Bu mənim fikrimdir, bunu edəcəyik. Əgər bunu etsək, insanlar üçün nə qədər rahatlıq yarada bilərik. Amma bir o deyil, başqa xətlər də var. Bunların hamısı müstəqil Azərbaycanın vətəndaşlarına daha yaxşı şərait yaratmaq üçündür. Onlara daha yaxşı, etibarlı, təhlükəsiz nəqliyyat xidməti göstərmək üçün lazımdır.

Mən bu bayram günü hamınızı, bütün Azərbaycan xalqını bir daha təbrik edirəm. Bu sahədə işləyən insanlara bir daha təşəkkür edirəm. Bildirmək istəyirəm ki, müstəqil Azərbaycan dövləti və onun prezidenti bundan sonra da metro tikintisinə böyük diqqət yetirəcək və mövcud metronun yüksək səviyyədə istifadə edilməsini daim öz nəzarəti altında saxlayacaqdır.

Bayramınız mübarək olsun!

Metropolitençilərə yeni-yeni uğurlar arzulayıram!

## «METRO» BEYNƏLXALQ ASSOSİASİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ*

*Prezident sarayı*

*7 noyabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev Bakı Metropoliteninin 35 illiyinə həsr olunmuş yubiley şənliklərində iştirak edən qonaqları salamlayaraq dedi ki, Azərbaycanda metropoliten tikintisinin bünövrəsi 1940-cı illərdə qoyulsa da, metro inşası 1970–1980-ci illərdə xüsusilə intensiv inkişaf etmişdir. Ölkəmiz çoxdan gözlədiyi müstəqilliyə qovuşandan sonra şəhər təsərrüfatı üçün mühüm infrastruktur olan metro böyük rol oynayır. Metropolitenin yaradılması böyük məbləğdə vəsait qoyulmasını tələb edir, buna görə də Azərbaycana qonşu olan ölkələrin bəzisində bu nəqliyyat növü indiyədək öz inkişafının başlanğıc mərhələsindədir. Prezident Heydər Əliyev vurğuladı ki, məhz buna görə də mən bu hadisənin qeyd olunmasını lazım bildim, çünki 35 il az müddət deyil və bu müddət ərzində böyük işlər görülmüşdür. İndi Bakını əla fəaliyyət göstərən metropolitensiz təsəvvür etmək çətindir. Hərçənd mövcud olduğu müddət ərzində Bakı Metropoliteni Ermənistanın xüsusi idarələri tərəfindən törədilmiş iki dəhşətli terror aktına məruz qalmışdır. Ermənilərin əlaltılarının – «Sadval» təşkilatından cəlb etdikləri şəxslərin 1994-cü ilin martında törətdikləri cinayət nəticəsində 14 adam həlak olmuşdur. Lakin 1994-cü ilin mayında atəşkəs haqqında saziş əldə olunmasına baxmayaraq, elə həmin ilin yayında Bakı metrosunda daha bir terror aktı törədilmişdir. Ermənistanın xüsusi idarələrinin planı əsasında həyata keçirilmiş bu cinayətin təşkilatçısı Azərbaycan Ordusunun döyüş əməliyyatları zamanı əsir düşmüş keçmiş hərbi qulluqçusu olmuşdur, ermənilər onu öz tərəflərinə cəlb etmişdilər.*

*Azərbaycan prezidenti sonuncu hadisədən danışaraq dedi ki, həmin şəxs əsir düşdükdən sonra müxtəlif işgəncələrə məruz qalmış, onu ölümlə hədələmişlər. Ermənilər ona Bakı metrosunda təxribat törətmək tapşırığı vermişdilər. O, razı olmuşdu, buna baxmayaraq, cinayətin sifarişçiləri onun anasını Gürcüstan vasitəsilə Dağlıq Qarabağa çağırmış və oğluna nə kimi təklif edildiyini bildirmişlər. Nəticədə o da razılaşmışdır. Qadının evə qayıtması üçün belə bir şərt qoyulmuşdur ki, oğlu bu terror aktını törətməlidir. Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən görülmüş tədbirlər nəticəsində o adam yaxalanmışdır və hazırda cəzasını çəkir.*

*Dövlətimizin başçısı on ildən artıqdır çadır düşərgələrində ağır şəraitdə yaşayan vətəndaşlarımızın vəziyyətindən, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dincliklə həlli üçün göstərilən səylərdən də danışdı.*

*Prezident Heydər Əliyev bəyan etdi ki, «ermənilərin xüsusi idarələri terrorizmlə məşğul olmuşdur və indi də olmaqdadır. İndi bütün dünya beynəlxalq terrorizmlə mübarizə apardığı bir vaxtda mən Bakıda baş vermiş iki konkret hadisəyə istinadən bu barədə danışmağı zəruri hesab etdim». Dövlətimizin başçısı xatırlatdı ki, erməni terrorçuları 1978-ci və 1986-cı illərdə Moskva metrosunda da iki dəfə terror aktı törətmişdilər.*

*Azərbaycan prezidenti MDB ölkələrinin metropoliten işçilərinin əməkdaşlığından danışarkən dedi ki, son vaxtlar, Vladimir Putin Rusiya prezidenti seçildikdən sonra Azərbaycanla Rusiya arasında bütün sahələrdə münasibətlər çox uğurla və fəal inkişaf edir.*

*«Metro» Beynəlxalq Assosiasiyasının Baş direktoru Yevgeni Dubçenko keçmiş SSRİ məkanındakı 14 metropolitenin üzv olduğu Assosiasiyasının yaranması tarixindən, onun fəaliyyətinin istiqamətlərindən danışdı. O, sərnişindaşımalar üzrə MDB-də ikinci yeri tutan Bakı Metropolitenində tətbiq edilən yeniliklərə yüksək qiymət verdi. Yevgeni Dubçenko dedi ki, Bakı metrosunda yanğın nəticəsində baş vermiş faciə vaqonların modernləşdirilməsi üçün başlıca səbəb oldu və indi onların hamısı bu baxımdan təhlükəsizdir.*

*Yevgeni Dubçenko prezident Heydər Əliyevə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işlədiyi dövrdə bu sahəyə də rəhbərlik edərkən metro haqqında sənədlər qəbul etdiyinə və metroya böyük qayğı göstərdiyinə görə keçmiş SSRİ-nin bütün metropoliten işçiləri adından təşəkkürünü bildirdi. O, Sankt-Peterburqun 300 illiyinə və Romanovlar sülaləsinin 400 illiyinə həsr olunmuş hədiyyə nəşrini dövlətimizin başçısına təqdim etdi.*

*Qonaqlar prezident Heydər Əliyev ilə xatirə şəkli çəkdirdilər.*

---

* Görüşdə «Metro» Beynəlxalq Assosiasiyasının üzvləri – Assosiasiyanın Baş direktoru Yevgeni Dubçenko, Moskva Metropoliteninin rəisi Dmitri Qayev, Kiyev Metropoliteninin rəisi Nikolay Balatski, Tbilisi Metropoliteninin rəisi Quram Qabuniya, Mıtişşi şəhərindəki «Metro-vaqonmaş» Səhmdar Cəmiyyətinin sədri Yuri Soldatov, «Moskva vaqon təmiri zavodu» Qapalı Səhmdar Cəmiyyətinin Baş direktoru Leonid Vinnik iştirak edirdilər.

## FİKRƏT ƏMİROVUN 80 İLLİK YUBİLEYİ HAQQINDA

**Azərbaycan Respublikası Prezidentinin sərəncamı**

2002-ci ilin noyabr ayında Azərbaycanın görkəmli musiqi xadimi, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı, bəstəkar Fikrət Məşədi Cəmil oğlu Əmirovun anadan olmasının 80 illiyi tamam olur.

Fikrət Əmirovun yaradıcılığı XX əsr Azərbaycan musiqisinin inkişafında mühüm rol oynamışdır. Musiqi sənətinin müxtəlif janrlarında yaratdığı əsərləri ilə o öz adını Azərbaycan musiqi mədəniyyəti tarixinə həmişəlik həkk etmişdir. Fikrət Əmirovun yaradıcılığında Azərbaycan milli musiqi ənənələri ilə dünya musiqi mədəniyyətinin nailiyyətləri üzvü şəkildə birləşmişdir. Fəkrət Əmirov simfonik muğam janrının yaradıcılarından biridir. Onun opera, balet, musiqili komediya, simfonik muğam, xoreoqrafik poema, instrumental konsert, mahnı, romans və sair janrlarda yazdığı əsərlər Azərbaycan musiqi mədəniyyətinin qızıl fondunu təşkil edir. Fikrət Əmirovun yüksək sənətkarlıqla bəstələdiyi əsərlər dünyanın məşhur dirijorlarının repertuarına daxil olmuş, bir çox xarici ölkələrin konsert salonlarında səslənərək Azərbaycan musiqi sənətinə böyük şöhrət gətirmişdir.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətləri olan Fikrət Əmirovun 80 illik yubileyinin ölkəmizdə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Bəstəkarlar İttifaqı ilə birlikdə Fikrət Əmirovun 80 illik yubileyinə həsr olunmuş tədbirlər hazırlayıb həyata keçirsin.
2. Bakı Şəhər İcra Hakimiyyəti Fikrət Əmirovun yaşadığı binaya (Tərlan Əliyarbəyov küçəsi, 2) xatirə lövhəsinin vurulmasını təmin etsin.
3. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə tapşırılsın ki:

– Fikrət Əmirovun seçilmiş əsərlərinin beşcildliyinin və bəstəkar haqqında kitabın nəşr olunmasını təmin etsin;

– Fikrət Əmirovun həyat və yaradıcılığına həsr olunmuş sənədli filmin çəkilişini təmin etsin;

– Bakı şəhərindəki musiqi məktəblərindən birinə Fikrət Əmirovun adını versin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 noyabr 2002-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ŞƏKİ ŞƏHƏRİNƏ SƏFƏRİ

*8 noyabr 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Şəkidə tikintisi başa çatmış Olimpiya İdman Kompleksinin açılış mərasimində iştirak etmək üçün noyabrın 8-də ölkəmizin bu qədim şəhərinə yola düşmüşdür.*

*Maşın karvanının keçdiyi rayon və kəndlərin sakinləri dövlətimizin başçısını salamlamaq, ona hörmət və ehtiramını bir daha ifadə etmək üçün yolların kənarına çıxmışdılar.*

*İsmayıllı şəhərinin girəcəyində, xalça sexinin qarşısında rayonun minlərlə sakini toplaşmışdı. Prezident Heydər Əliyevi müşayiət edən maşın karvanı burada dayandı. İsmayıllılar dövlətimizin başçısını böyük mehribanlıqla, hərarətlə salamladılar.*

**H e y d ə r Ə l i y e v:** Mən sizin hamınızı, rayon sakinlərini səmimiyyətlə salamlayıram.

Necəsiniz? Kefiniz, əhvalınız necədir? Təsərrüfatda işləriniz nə cürdür?

**Y e r d ə n s ə s l ə r:** Çox sağ olun, var olun, yaxşıyıq, şükür Allaha, hər şey yaxşıdır. Allah canınızı sağ eləsin. Hər şey qaydasındadır.

Cənab Prezident, torpağı şumlamışıq, toxum səpmişik.

**H e y d ə r Ə l i y e v:** Hərənin öz torpağı var, öz mal-qarası var? Kəndlərdə evlər tikilir?

**Y e r d ə n s ə s l ə r:** Bəli, var. Evlər tikilir, hər şey yaxşıdır.

**Ə h l i m a n T a ğ ı y e v***(rayon icra hakimiyyətinin başçısı)***:** Cənab Prezident, icazənizlə məlumat vermək istəyirəm. İsmayıllı rayonunda 200 min başdan çox davar, 70 min başa yaxın qaramal var. Əhalimizin sayı 76 minə yaxındır. Adambaşına təxminən bir qaramal düşür.

**H e y d ə r Ə l i y e v:** Əhaliniz 70 mindir?

**Ə h l i m a n T a ğ ı y e v:** Cənab Prezident, 76 minə yaxındır. Sizin apardığınız uğurlu aqrar islahatlar nəticəsində bu il 66 min tondan çox taxıl götürüblər. Gələn il bundan da çox məhsul gözlənilir. Çünki aparılan işlər uğurlu nəticə əldə etməyə əsas verir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə bu il əlavə 5 min hektar sahədə səpin aparılıbdır, 4 min hektardan çox sahədə də şum aparmışıq.

Cənab Prezident, aqrar islahatlar sayəsində çox uğurlu nəticələr əldə olunur. Amma kənd təsərrüfatından əldə edilən məhsulları satmaq üçün rayonda geniş yerlər lazımdır.

**H e y d ə r Ə l i y e v:** Bəs nə üçün bunu etmirsiniz?

**Ə h l i m a n T a ğ ı y e v:** Cənab Prezident, sosial-iqtisadi inkişafla bağlı müvafiq proqram hazırlanıbdır.

**H e y d ə r Ə l i y e v:** Bu işdə sizə bir kömək lazımdırmı, yoxsa özünüz görməlisiniz?

**Ə h l i m a n T a ğ ı y e v:** Proqram təqdim olunubdur, işlər artıq gedir. Sizin tapşırığınız və tövsiyələrinizlə rayonumuzda xeyli abadlıq və təmizlik işləri aparılıbdır. Camaat buradadır, yəqin ki, onlar özləri də deyərlər. Bu işlər davam etdirilir. Yeni layihələrimiz var. Şəhərimizdə bir balaca su problemi də var. Mütəxəssislər gəldilər, birlikdə işlədik, təkliflərimizi təqdim etmişik. 1 milyard manatadək vəsait lazımdır ki, təxminən 6,5 kilometrlik məsafədən yeni su xətti çəkilsin.

**H e y d ə r Ə l i y e v:** Rayon mərkəzinə su xətti çəkmək istəyirsiniz?

**Ə h l i m a n T a ğ ı y e v:** Şəhərin üst hissəsində təzə evlər inşa olunubdur. Əvvəlki su xətti tələbatı tam təmin etmir.

**H e y d ə r Ə l i y e v:** Şəhərin üst hissəsi bu gördüyümüz yerdir?

**Ə h l i m a n T a ğ ı y e v:** Bəli. Orada yaşayanların su təchizatında bir az problem var. İstəyirik ki, yeni su kəməri çəkək və onu şəhərin həmin hissəsi ilə birləşdirək. Bununla da problem tamamilə aradan qaldırılar.

Cənab Prezident, sosial problemlərin həllində də xeyli irəliləyiş var. Şəhərin mərkəzinə qaz verilibdir, elektrik enerjisi ilə təchizat son vaxtlar yaxşılaşıbdır. Əhalimiz də bilir ki, şəhərə qaz verilməsi İlham müəllimin təşəbbüsü ilə olubdur. Onun göstərdiyi bu qayğını yerlərdə çox yüksək qiymətləndirirlər. Rayonun qazla təmin olunması çox böyük nailiyyətdir.

**H e y d ə r Ə l i y e v:** Keçmişdə sizin üzümünüz çox idi. İndi baxıram ki, üzüm bağları yoxdur, ya azalıbdır.

**Ə h l i m a n T a ğ ı y e v:** Demək olar ki, yoxdur. Kimlərsə həyətyanı sahələrində fərdi qaydada saxlayıbsa, onlarda var. İvanovkada isə, onlar…

**H e y d ə r Ə l i y e v:** İvanovka öz yerində. Onlar hər şeyi saxlayıblar. Üzümçülüyü də, taxılçılığı da, kolxozu da saxlayıblar. Mən onlara icazə vermişəm, onlarla işiniz olmasın. Onlar orada hər şeyi yaxşı edirlər, yaxşı yaşayırlar. Kənddə camaat yaxşı yaşayır. İşiniz olmasın, kömək edin.

Demək, taxıl əkirsiniz, ondan başqa bitki yoxdur?

**Ə h l i m a n  T a ğ ı y e v:** Cənab Prezident, bizdə meyvə də var. Bu il rayonumuzda 8 min tondan çox meyvə yığılıbdır.

**H e y d ə r  Ə l i y e v:** Almadır, nədir?

**Ə h l i m a n  T a ğ ı y e v:** Təkcə alma deyil, müxtəlif meyvələrdir. Emal müəssisəmiz olsa, meyvə bundan da çox olar. Məsələn, bizim meşələrdə də çoxlu meyvə var.

**H e y d ə r  Ə l i y e v:** Elə onu soruşmaq istəyirdim. Sizin meşələrdə çoxlu meyvə var.

**Ə h l i m a n  T a ğ ı y e v:** Camaat onu yığa bilmir. Elə rayonun özündə emal müəssisəsi yaradılsa…

**H e y d ə r  Ə l i y e v:** Daha sizə emal müəssisəsini dövlət yaratmayacaqdır. İndi sizdə bu qədər adamlar var, taxıl əkirsiniz, hər nəfərə bir qaramal düşür. Bunun özü böyük bir şeydir. Keçmişdə, sovet dövründə belə bir şey olmayıbdır. Bilmirəm, sovet dövründə burada nə qədər iri buynuzlu mal-qara olubdur?

**Ə h l i m a n  T a ğ ı y e v:** Cənab Prezident, 25–30 min başa yaxın idi.

**H e y d ə r  Ə l i y e v:** 25–30 min baş, amma indi 70 min başdır. Davar əvvəllər 100 min baş olubdur, indi 200 min başa yaxındır. Amma bunun keyfiyyəti başqa cürdür. O vaxt kolxoz-sovxozda olanda inəyin çəkisi də elə deyildi. Bu qədər süd, bala da vermirdi.

Bir tərəfdən, yaxşı baxmırdılar. Mən özüm o illər respublikaya rəhbərlik etmişəm, nailiyyətlərimiz olub, amma o dövrün qüsurlarını da bilirəm. İkinci tərəfdən isə, belə də olmalı idi. O vaxt adamlar kolxozda işləyirdilər, amma işləməyənlər də vardı. Hesabdardı, nə bilim, onun köməkçisi idi, kolxoz sədri idi, onun müavini idi, briqadir idi və sair – bunların hamısı da gərək o adi kolxozçudan çox yeyəydi. Elədirmi? Burada belələri var, bilirlər ki, keçmişdə necə olubdur. Ona görə də, məsələn, biz çalışırdıq ki, qaramalın çəkisi, nə bilim, filan qədər olsun, bunu edə bilmirdiniz. Nəzərdə tuturduq ki, hər inəkdən filan qədər bala alınsın, ala bilmirdiniz. O vaxt çobanlar var idi, biz onları irəli çəkmişdik. Yüz qoyundan 130, nə bilim 140 bala almaq böyük nailiyyət idi.

Amma indi mal-qaraya özü baxır, balasını da özü alır, onun inəyi də ətli olur, sonra danası da ətli olur, qoyunu da, keçisi də, hamısı… Çünki hamısı özünündür. Torpaqda da canla-başla işləyir, çünki özü üçün işləyir, başqa adam üçün işləmir. Biz kənd əhalisini bütün vergilərdən azad etmişik. Torpaq vergisindən savayı, heç bir vergi vermirsiniz. Mən 3-4 il bundan qabaq fərman verdim, vergidən azad etdim. Ona görə də indi, əlbəttə ki, gəlir əvvəlkindən qat-qat artıqdır. Sən burada çox gözəl dedin, biz bu islahatları, torpaq islahatını ondan ötrü keçirmişik.

İndi sən deyirsən, müəssisə lazımdır ki, meyvəni emal etsin. Meşədə çoxlu meyvələr var, onlar toplansın, emal olunsun. Müəssisəni artıq dövlət yaratmayacaqdır. Müəssisəni sizin bax, bu sahibkarlar ki, var–kiçik və orta sahibkarlar, bunların biri, yaxud ikisi-üçü bir yerə yığışıb, pul qoyub o müəssisəni tikib yaratsın, işlətsin, məhsulu emal etsin, həmin emaldan gəlirini, pulunu götürsün. Bunun yolu budur. Bunu da etmək çətin deyildir. Amma mən bilirəm, sizin insanların çoxu hələ bu sahibkarlıq keyfiyyətini əldə edə bilməyiblər.

Yadımdadır, mən bir müddət Naxçıvanda işləyəndə, 1991-1992-ci illərdə, 1993-cü ildə özüm, qanun-zad olmadan, bəzi dağ kəndlərində kolxozları ləğv etmək istəyirdim. Bir-iki dağ kəndinə getmişdim. Görürdüm ki, orada kolxoz heç nə vermir. Camaatı yığdım və dedim ki, kolxozu ləğv etmək istəyirəm. Mənə dedilər ki, yox, ləğv etmə. Soruşurdum ki, niyə? Mənə dedilər ki, bu, kolxozun gözətçisidir, heç olmasa filan qədər maaş alır. Amma o, başa düşmürdü ki, kolxozu ləğv edəndə qazancı ondan çox olacaq. Daha gəlib gözətçi durmayacaq, gedib torpaqda işləməlidir, mal-heyvan saxlamalıdır. Keçmişin bu psixologiyası hələ insanlarda yaşayır. Amma daha bundan ayrılmaq lazımdır. Gərək hər kəs çalışsın ki, öz həyatını yaxşı qurmaq üçün şəxsi mülkiyyəti ilə, şəxsi zəhməti ilə zənginləşsin. Özünə daha da yaxşı şərait yaratmaq, yaxşı ev tikmək, uşaqlarına yaxşı şərait yaratmaq üçün zənginləşsin, eyni zamanda, sahibkar olsun, iş görsün.

İsmayıllı çox yaxşı rayondur, mən buranı yaxşı tanıyıram, əhalisi çox zəhmətkeşdir. Azərbaycana rəhbərlik etdiyim o illərdə mən bu rayondan bir dənə də olsun mənfi şey eşitməmişdim. Təbiəti yaxşıdır, bütün ətrafı gözəl meşələr, çaylardır. İndi Allah sizə belə gözəl bir yer nəsib edibdir. Vaxtilə torpaq, mal-heyvan əldən alınmışdı, gərək kolxozda işləyəydin, pul alaydın…Bunlar artıq getdi. İndi hamıya sərbəstlik verilibdir. Ona görə də mən sənə məsləhət görürəm ki, rayondan 10–15 bacarıqlı adam tap. Elə adamlar tap ki, öz şəxsi mülkiyyəti ilə müəyyən qədər kapital qazanıblar. Onlara kömək et, lazım olsa, deyərəm, bizdən də kömək edərlər.

Məsələn, meyvə emalı müəssisəsi yaratsınlar, başqaları yığışsın, ayrı müəssisə yaratsınlar. Çünki siz buradakı gözəl meyvələrinizin hamısını aparıb bazarda sata bilməyəcəksiniz. Amma emal edib, onlardan gözəl konservlər, şirələr və sair hazırlayıb satanda, onun qiyməti xeyli artacaqdır. Amma təkcə meyvə deyil, başqa məhsulları da emal etmək olar. Sən su çəkmək deyirsən, ona kömək etmək olar. Ancaq gəlib müəssisə tikmək, yox, dövlət daha bu işlərlə məşğul olmur və olmayacaqdır. Biz hər şeyi xalqa vermişik. Xalqa, əhaliyə vermişik. Kimin bacarığı var, gəlsin, ortaya çıxsın, müəssisə də yaratsın, zavod da yaratsın, fabrik də yaratsın, sahibkar olsun.

Siz bilirsiniz ki, mən aprel, may aylarında sahibkarlarla böyük görüşlər keçirdim. Onları dinlədim, dərdlərini öyrəndim. Ondan sonra geniş təhlil apardım və Azərbaycanda kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün 7-8 böyük fərmanlar verdim. O fərmanlarda sahibkarlar üçün güzəştlər nəzərdə tutulubdur. Lazımdır ki, siz burada bunları təbliğ edəsiniz. Hər rayonun gərək özünün sahibkarlar qrupu yaransın. Elədirmi?

**Ə h l i m a n  T a ğ ı y e v:** Cənab Prezident, bəli, elədir.
**H e y d ə r  Ə l i y e v:** Mənə nə sözünüz var?
**Y e r d ə n  s ə s l ə r:** Sizə cansağlığı arzulayırıq. Sağ olun, Allah Sizdən razı olsun.
**H e y d ə r  Ə l i y e v:** Siz bizim hökumətin siyasətini, mənim siyasətimi bilirsiniz?
**Y e r d ə n  s ə s l ə r:** Bilirik və dəstəkləyirik.
**H e y d ə r  Ə l i y e v:** Bəyənirsiniz?
**Y e r d ə n  s ə s l ə r:** Bəyənirik.
**H e y d ə r  Ə l i y e v:** Bəlkə bir etirazınız var?
**Y e r d ə n  s ə s l ə r:** Xeyr.
**H e y d ə r  Ə l i y e v:** Biz dövlətin işlərini düz aparırıq, yoxsa yox?
**Y e r d ə n  s ə s l ə r:** Düz aparırsınız, əla.
**H e y d ə r  Ə l i y e v:** Səmimi deyirsiniz?
**Y e r d ə n  s ə s l ə r:** Bəli, səmimi deyirik, ürək sözümüzdür.
**H e y d ə r  Ə l i y e v:** Bu hamının fikridir?
**Y e r d ə n  s ə s l ə r:** Bəli, hamının fikridir.

**H e y d ə r  Ə l i y e v:** Mən də 9 ildir ki, prezident kimi, Azərbaycana rəhbərlik edirəm, amma prezident deyəndə, hamı elə bilir bu, asan işdir. Bilirsinizmi, prezident nə qədər çox əziyyət çəkir? Siz onu bilmirsiniz. Heç bilə də bilməzsiniz. Hər şey mənim üzərimdədir: həm xarici siyasət, həm daxili siyasət, həm Ermənistan–Azərbaycan münaqişəsinin aradan götürülməsi, işğal olunmuş torpaqlarımızın azad edilməsi, ordunun qurulması, nə qədər işlər var… Amma mən sizə deyə bilərəm ki, Azərbaycanda iqtisadiyyat ilbəil inkişaf edir, insanların rifah halı yaxşılaşır, qarşıya qoyduğumuz vəzifələrin hamısını yerinə yetiririk və güman edirəm ki, bundan sonra daha da yaxşı olacaqdır. Ölkənin gəlirləri artır, bilirsiniz ki, biz neft strategiyasını həyata keçiririk, indi bundan böyük gəlirlər alırıq və gələcəkdə daha da çox gəlir alacağıq. Xarici ölkələrin şirkətləri gəlib Azərbaycanda fəaliyyət göstərirlər. Bunlardan da ölkəmiz, təbiidir ki, öz mənfəətini götürür. Bu işlərin hamısını qurmuşuq və respublikamız, yəni ölkəmiz artıq müstəqil bir dövlət kimi yaşayır. Biz indi müstəqilik, azadıq, heç kəsdən asılı deyilik, azərbaycanlıyıq, Azərbaycan xalqıyıq, millətiyik. Bizim öz torpağımız, ölkəmiz var və bu ölkədə hamımız yaşayırıq. Bundan sonra da və daha da yaxşı yaşayacağıq.

*Mən sizin hamınıza cansağlığı, səadət, bütün işlərinizdə uğurlar arzu edirəm və ümidvaram ki, sizin də hər birinizin, hər bir ailənin işləri get-gedə yaxşı olacaqdır. Sağ olun.*

***Y e r d ə n  s ə s l ə r:*** *Cənab Prezident, Sizə yaxşı yol arzulayırıq.*

* * *

*İsmayıllıda olduqca səmimi keçən görüşdən sonra prezident Heydər Əliyevi müşayiət edən maşın karvanı respublikamızın daha bir dilbər guşəsi olan Qəbələ rayonuna yola düşdü. Yolboyu kəndlərin əhalisi xalqımızın və müstəqil dövlətimizin etibarlı gələcəyinin təminatçısı, dünya şöhrətli siyasi xadim Heydər Əliyevi qarşılamağa çıxmışdı.*

*Maşın karvanı Qəbələ rayonunun iri yaşayış məntəqələrindən olan Vəndam kəndində dayandı. Qəbələ şəhərinin, yaxın kəndlərin yüzlərlə sakini, Vəndam camaatı, o cümlədən ağsaqqallar Azərbaycan prezidentini böyük ehtiram və məhəbbətlə qaşıladılar. İnsanlar hədsiz sevinclərini gizlətmədən dövlətimizin başçısını ürəkdən salamlayır, onlarla görüşdüyünə görə dönə-dönə minnətdarlıqlarını bildirirdilər.*

**K ə n d  a ğ s a q q a l ı:** Cənab Prezident, xoş gəlmisiniz! Allah canınızı saf etsin, uzunömürlü olasınız!
**H e y d ə r  Ə l i y e v:** İlham müəllimi tanıyırsız da?
**K ə n d  A ğ s a q q a l ı:** İlham müəllim bizim ürəyimizdir.
**H e y d ə r  Ə l i y e v:** Necəsiniz, nə var, nə yox? Bura rayonun mərkəzidir, yoxsa?

**Y e r d ə n  s ə s l ə r:** Xeyr, bura Vəndam kəndinin mərkəzidir. Bu kəndin 8 min əhalisi var. 7 kəndi əhatə edir.

**H e y d ə r  Ə l i y e v:** 8 min? Mənimlə görüşə gəldiyinizə görə sağ olun, təşəkkür edirəm. Mən sizin hamınızı salamlayıram. Hamınıza xoş arzularımı, hörmət-ehtiramımı bildirirəm.

**Y e r d ə n  s ə s l ə r:** Çox sağ olun, biz Sizə çox minnətdarıq.

**H e y d ə r  Ə l i y e v:** Görürəm, Vəndam böyük kənddir, 8 min əhalisi var, eyni zamanda, çox gözəl təbiəti olan bir yerdir. Mən keçmişdə də bu yolla gəlmişəm. Yəqin ki, bilirsiniz, vaxtilə bu yolun açılmasını da mən təmin etdim. Yadınızdadırmı? 1980-ci illərdə mən təmin etdim. Əvvəllər bu yol yox idi. Siz o biri yolla Bakıya gedirdiniz.

**Y e r d ə n  s ə s l ə r:** Bəli, Ağdaşdan, Göyçaydan Bakıya gedirdik.

**H e y d ə r  Ə l i y e v:** Ağdaşdan, Göyçaydan keçib Bakıya gedirsiniz. Yolunuz nə qədər uzaq olurdu. Elədirmi? Biz bu yolu açdıq, bir neçə körpü tikdik, burada işlədiyim əvvəlki dövrün son illəri 1981-1982-ci illər idi. Mənim yadımdadır, bu yolun çəkilməsini xahiş etmişdilər, mən də bunu etdim. İndi Bakıya yolunuz qısalıbdır. Özü də yol belə gözəl meşənin içindən keçir. Adam baxır, deyir ki, burada təbiət nə gözəldir. Siz belə

yerdə yaşayırsınız. Belə yerdə yaşayan adamlar da həm fiziki cəhətdən, həm də əqli cəhətdən sağlam olur, həm də ki, zəhmətkeş, fədakar olur, elədirmi?

**K ə n d a ğ s a q q a l ı:** Mənim yaşım 90-dan yuxarıdır.

**H e y d ə r Ə l i y e v:** 90-dan yuxarı yaşın var… A kişi, nə danışırsan?

**K ə n d a ğ s a q q a l ı:** Bəli, adım da Süleymandır. Əmirov Süleyman Mikayıl oğlu.

**H e y d ə r Ə l i y e v:** Maşallah!

**S ü l e y m a n Ə m i r o v:** Biz həmişə Sizə duaçıyıq.

**H e y d ə r Ə l i y e v:** Övladın var?

**S ü l e y m a n Ə m i r o v:** Var. Nəvəm də var, cəbhə bölgəsindədir, mayor rütbəsindədir, 400–500 əsgəri var.

**H e y d ə r Ə l i y e v:** Maşallah. Çox sağ ol. Təşəkkür edirəm ki, nəvən cəbhə bölgəsindədir. 90 yaşında…Bəlkə mən də gəlib burada yaşayım, 90 yaşa qədər çatım. Sizin əkdiyiniz nədir, taxıldır?

**Y e r d ə n s ə s l ə r:** Taxıldır, qarğıdalıdır.

**H e y d ə r Ə l i y e v:** Mal-qaranız var?

**Y e r d ə n s ə s l ə r:** Var.

**H e y d ə r Ə l i y e v:** İndi kolxoz, sovxoz ləgv olundu. Vaxtilə, o illərdə mən işləyəndə yadınızdadır, bunların hamısı vardı. İndi hər şey dəyişilibdir. Biz müstəqil olduq, bazar iqtisadiyyatı yolu ilə gedirik. Şəxsi mülkiyyəti təmin etmişik, torpağı, mal-qaranı kəndlilərlə paylaşmışıq, insanlara sərbəstlik vermişik. Kim bundan istifadə etməyi bacarırsa, işləyirsə, vəziyyəti də yaxşıdır. Amma kim bunu bacarmırsa…

Keçmişdə, bizim o sistemdə – mən özüm 25–30 il həmin sistemin rəhbəri olmuşam – belə idi ki, 15-i işləyirdi, 15-i də onların hesabına yaşayırdı. Elədirmi? İndi o yoxdur. İndi hər şey insanların özünə verilibdir. Kim bunlardan istifadə edə bilirsə, yaxşı yaşayır. Kim istifadə edə bilmirsə, yaxşı yaşamır. O ki qaldı rayon mərkəzlərinə, şəhərlərə, bəli, buralarda torpaq, heyvan yoxdur, belə yerlərdə işsizlik var, bu təbiidir. Bunun da səbəbləri var. Amma biz çalışırıq ki, rayon mərkəzlərində, şəhərlərdə iş yerləri açaq. Bu da asan deyildir. Çünki indi dövlət müəssisələrini yaratmaq olmaz. Olanların da, bilirsiniz ki, bir hissəsi dağılıb getdi, bir hissəsi istənilən səviyyədə işləmir. Çünki onların hamısı sovet sosialist sisteminə uyğunlaşdırılmışdı. İndiki bazar iqtisadiyyatı şəraitində və bütün başqa ölkələrlə, yəni kapitalist ölkələri ilə əlaqələrə girmişik, biz onların yaşadıqları kimi yaşamalıyıq və yaşamaq istəyirik. Ona görə də, əlbəttə ki, indi çətinliklər var.

**A s i f H a ş ı m o v** *(kənd bələdiyyəsinin sədri)***:** Cənab Prezident, Sizə məlumat üçün bildirmək istəyirəm ki, islahatdan əvvəl kəndimizdə 6 kombayn vardı, indi 8 kombayn var. Qonşu kənddə iki xarici kombayn da var. Taxıl yığımı zamanı kombayn sarıdan bir az çətinlik olur, amma təcili də aradan qaldırılır. Yadıma gəlir ki, kolxoz dövründə biçin kampaniyası avqust ayının axırına qədər davam edirdi. İndi biçin iyulun ortalarında qurtarır. Keçən il Qəbələ rayonu 42 min ton taxıl istehsal etmişdi. Bu il də Qəbələnin ehtiyacını ikiqat, üçqat ödəyəcək taxılımız var.

**H e y d ə r Ə l i y e v:** Qəbələ rayonu nə qədər taxıl verir?

**A s i f H a ş ı m o v:** Keçən il 42 min ton taxıl istehsal etmişik. Bu il isə üç ay dalbadal yağış yağdığına, hava şəraiti əlverişsiz keçdiyinə görə taxıl qismən az oldu. Amma Qəbələ camaatının ehtiyacından çoxdur. Burada çörək problemi yoxdur. Camaat arzu edərdi ki, burada turizmin inkişafı sahəsində iş görülsün. Bizim çox gəzməli, görməli yerlərimiz var. O yerlərə müəyyən investisiya qoyulsa, özümüz də bacardıqca kömək edib problemləri aradan qaldıracağıq. Hər halda, kəndimizin 4-5 il bundan əvvəlki vəziyyəti ilə bugünkü görünüşünü müqayisə edənlər bilirlər ki, burada gündən-günə inkişaf var. İndi bizim kəndimizdə mobil telefon xidmətindən istifadə etmək üçün gördüyünüz bu qurğu da quraşdırılmışdır. Bu AZERCELL rabitə xidməti üçündür.

**H e y d ə r Ə l i y e v:** Bu sənin cib telefonun üçündür? Burada neçə adamda cib telefonu var?

**A s i f H ə ş ı m o v:** Kəndimizdə 400–500 nəfərdə cib telefonu var.

**H e y d ə r Ə l i y e v:** Bir kənddə?

**Y e r d ə n s ə s l ə r:** Bəli.

**H e y d ə r Ə l i y e v:** Əhalinin vəsaiti olmasa, cib telefonu saxlaya bilər? Məsələlər var, bunları həll etmək olar. Məsələn, televiziya ötürücüsü məsələsini həll etmək mümkündür. Elektrik enerjisində bir neçə ildir ki, çətinliklər var. Amma siz təsəvvür edin, əgər vaxtilə biz – bunu deyirəm ki, siz bir də biləsiniz, bunları əvvəllər Azərbaycanda işləyəndə mən özüm etmişəm – böyük elektrik stansiyalarını tikməsəydik, Sovet İttifaqı dağılandan və biz müstəqil olandan sonra elektrik enerjimiz heç olmazdı. O vaxtlar tikmişik, indi onlardan istifadə olunur. Ancaq onların bəziləri artıq köhnəlir, bəzisini təmir etmək lazımdır. Amma siz indi az-çox elektrik enerjisi alırsınız. Pulunu verirsinizmi?

**Y e r d ə n s ə s l ə r:** Qismən veririk.

**H e y d ə r Ə l i y e v:** Amma siz bilməlisiniz ki, Azərbaycan üzrə bütün əhali işıq və qaz pulu, su pulu vermədiyinə görə, hökumət məcbur olur ki, büdcədən 350 milyon dolları həmin elektrik enerjisini istehsal etmək, qaz almaq üçün – biz qazı Rusiyadan da alırıq – su üçün vəsait ayırır. Gələn il üçün bizim büdcəmizin ümumi həcmi 1 milyard 200 milyon dollar nəzərdə tutulur. İndi təsəvvür edin, əgər biz qaz, işıq, su pulunu əhalidən ala bilsəydik, bu

350 milyon dolları biz ora xərcləməzdik, camaatın vəziyyətinin yaxşılaşdırılmasına yönəldə bilərdik. Siz bilməlisiniz, biz elektrik enerjisini istehsal edirik, onun dəyərinin əksər hissəsini ala bilmirik. Təbii qazı Rusiyadan da alırıq, paylayırıq, pulunu yığa bilmirik. Keçid dövrünün bu cür çətinlikləri var. Sizin kəndə qaz gəlir, yoxsa yox?

**Y e r d ə n s ə s l ə r:** Rayon mərkəzinə qaz gəlir.

**H e y d ə r Ə l i y e v:** Mənə dair başqa sözünüz varmı?

**Y e r d ə n s ə s l ə r:** Sizin sağlığınızı istəyirik, yolunuz açıq olsun! Bizimlə görüşdüyünüzə görə çox sağ olun.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, bu dediyiniz sözlərdən savayı, hökumətə deyiləsi sözünüz, hökumətin fəaliyyəti haqqında nə kimi fikriniz var?

**Y e r d ə n s ə s l ə r:** Qəbələ rayonunda tütün istehsalına kömək etmək lazımdır.

**H e y d ə r Ə l i y e v:** Keçmişdə tütün fabrikləri vardı. Onlar bu tütündən o keyfiyyətdə siqaret istehsal edə bilmirlər. Buna görə vəziyyət belədir. Başa düşürsünüzmü? Amma bununla mən onu demək istəmirəm ki, biz çıxılmaz vəziyyətdəyik. Biz məsələləri həll edəcəyik. Amma bunun səbəblərini bilməlisiniz. Səbəbləri nədir? Əvvəllər, sovet vaxtı ola bilərdi ki, adamların 1 faizi xarici siqaret çəkirdi. İndi kimi görürsən, xarici siqaret çəkir. Ona görə siz bunları bilməlisiniz. Amma mən də bilirəm. Bu işləri vaxtilə mən təşkil etmişəm. Mən 1969-cu ildə Azərbaycanda rəhbər işə başlayanda ildə cəmi 8 min ton tütün istehsal olunurdu. Mən isə onu 50 min tona qaldırdım. Başa düşürsünüzmü? Bu sahədən də çoxlu gəlir götürülürdü. Tütündən gələn gəliri başqa sahələrin heç birindən almaq mümkün deyildi. Çalışacağıq ki, bunları da həll edək. Siz öz imkanlarınızdan maksimum istifadə etməyə çalışın, biz bu dövrü keçəcəyik və hamı üçün hər şey yaxşı olacaqdır. Baxıram, maşallah, hamınız sağ-salamatsınız, gümrahsınız, gözəlsiniz. Ac-susuz yoxdur.

**Y e r d ə n s ə s l ə r:** Ömrünüz uzun olsun, sağ olun.

**H e y d ə r Ə l i y e v:** Arzularınıza görə çox sağ olun, sizə təşəkkür edirəm. Mən də çalışacağam ki, sizin bu dualarınız yerinə yetsin, ömrüm uzun olsun, bundan sonra sizinlə birlikdə daha da çox işlər görək. Sağ olun. Təşəkkür edirəm.

**Y e r d ə n s ə s l ə r:** Cənab Prezident, sağ olun, Sizə uzun ömür, cansağlığı, yaxşı yol arzulayırıq.

* * *

*Vəndam kəndinin sakinləri prezident Heydər Əliyevlə mehribanlıqla sağollaşdılar.*

*Dövlətimizin başçısı Heydər Əliyev elə həmin gün axşam Şəkiyə gəldi.*

## ŞƏKİDƏ OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*9 noyabr 2002-ci il*

*Qədim Şəki şəhərində tikintisi başa çatdırılmış yaraşıqlı, beynəlxalq standartlara cavab verən böyük Olimpiya İdman Kompleksinin təntənəli açılışı olmuşdur. Olimpiya İdman Kompleksinə aparan küçəyə, bayramsayağı bəzədilmiş Olimpiya meydanına Şəki şəhərinin və rayonunun on minlərlə sakini, qonşu rayonların nümayəndələri toplaşmışdı. Onların əllərində respublikamızın dövlət bayraqları, prezident Heydər Əliyevin portretləri, «Şəkililər Azərbaycanın bu gününü və sabahını Heydər Əliyev siyasətində görürlər», «Heydər–Xalq, Xalq–Heydər», «Şəkililər Heydər Əliyevin siyasətini bəyənir və dəstəkləyirlər» sözləri, dövlətimizin başçısının «Bizim, sizin – hamımızın vəzifəsi müstəqil Azərbaycanın sağlam gənclərini tərbiyə etmək, yetişdirməkdir» kəlamı yazılmış transparantlar var idi. Olimpiya meydanına toplaşanlar Azərbaycan prezidenti Heydər Əliyevi sürəkli, hərarətli alqışlarla, «Heydər baba!» nidaları ilə qarşıladılar.*

*Mərasim iştirakçıları MOK-un prezidenti, Milli Məclisin deputatı İlham Əliyevi də səmimiyyətlə salamladılar.*

*Azərbaycan prezidenti Heydər Əliyevin gəlişi şərəfinə qurban kəsildi.*

**H e y d ə r   Ə l i y e v:** Əziz şəkililər!

Bacılar və qardaşlar!

Dostlar!

Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram. Sizə, bütün şəkililərə öz hörmət və ehtiramımı bildirirəm, xoş arzularımı çatdırıram. Hamınıza cansağlığı, səadət və gələcək həyatınızda uğurlar arzulayıram.

Şəki Azərbaycanın ən qədim şəhərlərindən, yəni insan məskənlərindən biridir. Şəkinin çox zəngin tarixi var. Şükür olsun ki, Şəkidən çox tarixçi alimlər də çıxıbdır. Onlar Şəkinin tarixini, əsrlər boyu Şəkinin yaşantısını yazıblar, xalqa bildiriblər. Bunların hamısı məlumdur. Bu barədə bu gün danışmağa ehtiyac yoxdur. Ancaq onu demək istəyirəm ki, Şəki Azərbaycanın gözəl guşələrindən biridir. Ona gözəllik verən, birincisi, onun təbiətidir. Mən burada durmuşam, bu dağlara baxıram. Onlara baxdıqca adamın ürəyi açılır, adam ilhama gəlir, adam təbiəti, dünyanı görür. Amma təkcə bunlar deyil, Şəkinin təbiətində o qədər gözəlliklər var ki, hər birini ayrı-ayrılıqda təsvir ediblər və təsvir etməyə də ehtiyac var.

Şəkidə yaşayan insanlar əsrlər boyu buranı qurub yaradıblar. Ona görə də Şəkidə tarixi-memarlıq abidələri, bizim milli mədəniyyətimizi əks etdirən gözəl abidələr yaranıb, bu günə qədər gəlib çatıbdır. Beləliklə, Şəkini bir muzeyə çeviriblər. Bunların hamısı insanları Şəkiyə cəlb edir. Dünyanın çox yerlərindən Azərbaycana gələn adamlar Şəkini oxuduqları kitablardan, aldıqları məlumatlardan yaxşı tanıdıqlarına görə, mütləq Şəkini ziyarət etmək istəyiblər. Şəki öz xüsusiyyətlərinə görə fərqlənir, burada həmişə sənətkar adamlar, zəhmətkeş insanlar olub, onlar öz gözəl sənət nümunələri ilə Şəkini təkcə Azərbaycanda yox, bu bölgədə yox, bütün Şərq aləmində məşhurlaşdırıblar.

Eyni zamanda, Şəkinin tarixində faciəli hadisələr də olubdur. Şəkiyə hücumlar olub, Şəki hökmdarları özlərini, xalqı qorumaq üçün döyüşlərə giriblər. Bəzən uduzublar, bəzən udublar, qalib gəliblər. Ancaq yaşayıblar və Şəki, yenə də deyirəm, Azərbaycanın çox gözəl bir guşəsi, parlaq bir hissəsi kimi, bu günə gəlib çatıbdır.

Şəki böyük insanlar – siyasi xadimlər, elm, mədəniyyət xadimləri yetirmişdir. Azərbaycan xalqının fəxri olan Mirzə Fətəli Axundov kimi insan öz həyat yolunu məhz Şəkidən başlamışdır. O burada doğulmuş, burada böyümüş, Azərbaycan xalqının mədəniyyətinə, elminə, xüsusən fəlsəfə elminə böyük töhfələr vermişdir. Azərbaycanda dünyəvi teatrın yaranmasında onun əsərlərinin, şəxsən onun özünün böyük xidmətləri olmuşdur.

Azərbaycanın görkəmli siyasi xadimi Fətəli xan Xoyski vaxtilə, çar Rusiyası zamanı Dumanın üzvü olmuşdur. 1918-ci ildə Azərbaycan ilk dəfə müstəqilliyini əldə edərkən, Xalq Cümhuriyyətini yaradanlar hökumətə başçılıq etməyi məhz Fətəli xan Xoyskiyə etibar etmişlər. O, uzun müddət hökumətə başçılıq edib və sonra isə erməni terrorçuları tərəfindən qətlə yetirilmişdir. Burada digər siyasi xadimlər də yetişmişdir.

Dediyim kimi, Şəki bizim Azərbaycan mədəniyyətinin, musiqisinin, memarlığının inkişafında çox böyük rol oynayıbdır. Amma bunu da təmin edən insanlar olmuşlar. Bu insanlar həm tariximizdə, həm də mədəniyyətimizdə var: Rəşid bəy Əfəndiyev, Salman Mümtaz, Sabit Rəhman, burada bizimlə bərabər, bir yerdə olan böyük şairimiz Bəxtiyar Bahabzadə və bir çox başqaları. Şəki böyük alimlər də yetiribdir. Onlardan biri böyük tarixçi, professor Yaqub Mahmudov – o indi buradadır – bu yaxınlarda həyatdan gedən Yaşar Qarayev, bir çox başqa alimlər Şəkinin yetirmələridir.

Əgər bizim musiqi mədəniyyətimizi götürsəniz, orada ən yüksək səviyyədə tanınan, sayılan və musiqi mədəniyyətimizə gözəl töhfələr verən insanların da bəziləri Şəkidə doğulmuş, buradan pərvazlanmışlar.

Böyük bəstəkarımız Cövdət Hacıyev, Azərbaycanda ilk qadın bəstəkarlardan olan Şəfiqə Axundova. Sabit Rəhmanın oğlu Emin Sabitoğlu bizim çox gözəl, müasir bəstəkarlarımızdan biri idi. Digər bəstəkarlarımız da var.

**Y e r d ə n s ə s l ə r:** Xəyyam Mirzəzadə...

**H e y d ə r Ə l i y e v:** Xəyyam Mirzəzadə də burada anadan olub?

**Y e r d ə n s ə s l ə r:** Anası şəkilidir.

**H e y d ə r Ə l i y e v:** Anası buralıdırsa, demək, özü də buralıdır. Çoxdur... İndi sizin qarşınızda imtahan vermirəm ki, hamısının adını bir-bir çəkim. Amma görürsünüz, hamısı mənim beynimdədir. Tək bunlar deyil, adlarını çəkdiklərim Şəkinin tanınmış nümayəndələridir, bizim hamımızın sevdiyi insanlardır. Ancaq şəkililər öz zəhmətkeşliyi ilə də çox işlər görüblər. Deyirəm, Şəki muzeydir. O memarlıq abidələrini yaradanlar böyük zəhmət, böyük zəka sərf edərək onları ərsəyə gətiriblər. Bütün bunların hamısı Şəkinin Azərbaycanda görkəmli bir yer tutmasını təmin edibdir. Şəkililər bununla fəxr edə bilərlər.

Şəkililərdən bir yaxşı kinorejissor da var, Rasim Ocaqov. O çox yaxşı, çox dəyərli filmlər yaradıbdır. Amma onun son filmi var – «Həm ticarət, həm ziyarət», bu film yadınızdadırmı? Bir şəkilinin İstanbula səfər macərasından söhbət gedir. Filmin sonunda əsərin qəhrəmanı kor-peşman Şəkiyə qayıtmalı olur. «Ha indi Şəkiyə qayıdası olduq?» Bu sözlər də məşhur bir kəlamdır. Belədir, yoxsa yox? Bu da şəkililərin xüsusiyyətini əks etdirən çox gözəl bir kəlamdır. Bunlara görə də Şəki Azərbaycanda sevilir. Mən də həm bir vətəndaş, həm bir insan kimi, hələ gənc vaxtlarımdan Azərbaycan ədəbiyyatını, tarixini, mədəniyyətini öyrənərkən Şəkini sevmişəm. Ancaq keçmişdə Azərbaycanın rəhbərliyində olduğum zaman və indi də Şəki mənim qəlbimdə xüsusi yer tutub və tutur, Şəkiyə, şəkililərə xüsusi məhəbbətimi həmişə saxlamışam, indi də saxlayıram. Görünür, mənim bu hisslərim irsi olaraq oğluma da keçibdir. Milli Olimpiya Komitəsi indiyə qədər beşinci kompleksdir ki, yaradır. Mən hələ bunu görməmişəm, buradan baxıram, amma dünən gecə gələndə gördüm ki, bu kompleksin ətrafı başqa cürdür. O biri komplekslərin hamısının açılışında mən iştirak etmişəm, görmüşəm, hələ beləsi olmayıbdır. Güman edirəm ki, bu da İlham Əliyevin Şəkiyə olan xüsusi münasibətinin ifadəsidir. Bütün bunlar Şəkiyə gələndə məndə böyük ruh yüksəkliyi, xoş əhval-ruhiyyə yaratdı. Dünən axşam gəldim, burada yatdım, özü də Bakıdakından yaxşı yatdım. Səhər durub dedim ki, bura nə yaxşıdır, elə gəlib burada qalım. Güman edirəm ki, bu həm iqlimlə bağlıdır, həm də yəqin ki, xüsusi hissiyyatlar var.

İndi buraya nə qədər adam toplaşıbdır. Mən bunu təsəvvür edə bilməzdim. Gördüyünüz o evlərin birində də mən qalıram. Mən oradan çıxdım, avtomobillə gəlirdim. Ancaq oradan bura qədər yol hər iki tərəfdən adamlarla doludur, hamı bu mərasimə yığışıbdır. Təbiidir ki, mən avtomobili saxladım – bilmirəm, oradan buraya məsafə nə qədərdir, 500 metr olar? Onların hamısını salamlaya-salamlaya gəlmişəm. Onlar oradadırlar, siz də buradasınız. Meydana bu qədər insan toplaşıbdır. Bu, Şəkidə olan ictimai-siyasi əhval-ruhiyyəni, vəziyyəti əks etdirir. Əgər bu olmasaydı, bu qədər adam buraya toplaşmazdı. Bu da mənim üçün, Azərbaycan prezidenti üçün, Azərbaycan dövlətinin başçısı üçün ən əsas şərtlərdən biridir. Çünki bizim çalışdığımız odur ki, xalqımız həm yaxşı yaşasın, həm də xoş əhval-ruhiyyədə olsun. Bunların, bizim arzularımızın kökü, əsası var. Çünki biz indi müstəqil dövlətimizdə azad, sərbəst yaşayırıq. Çətinliklərimiz var, problemlərimiz var. Ancaq bunların hamısından üstün odur ki, biz artıq 11 ildir müstəqilik, azadıq.

Keçən ayın 18-də biz Azərbaycanda dövlət müstəqilliyinin bərpa olunmasının 11-ci ildönümünü təntənə ilə bayram etdik. 11 ildə çox ağır, çətin bir yol keçdik. Birincisi, dövlət müstəqilliyini bərpa edərkən Azərbaycan ağır bir vəziyyətdə idi: Ermənistan silahlı qüvvələrinin təcavüzü, Azərbaycan torpaqlarının bir qisminin işğal olunması, verdiyimiz şəhidlər, tökülmüş qanlar, yerindən-yurdundan zorla çıxarılmış, çadırlarda yaşayan insanlar. Digər tərəfdən də, Azərbaycanın daxilində çəkişmələr, vuruşmalar, ayrı-ayrı siyasi qüvvələrin silahlı dəstələr vasitəsilə hakimiyyət uğrunda mübarizəsi... Bunların hamısı Azərbaycan xalqını, təbii ki, çox ağır vəziyyətə gətirib çıxarmışdı. Həm böyük insan tələfatı vardı, həm də insanların həyat tərzi tamamilə pozulmuşdu, həyat prinsipi pozulmuşdu.

Belə bir dövrdə Azərbaycan dövlət müstəqilliyini əldə etdi. Bütün başqa müttəfiq respublikalardan fərqli olaraq, Azərbaycan dövlət müstəqilliyini əldə edəndə ən ağır, ən çətin vəziyyətdə idi. Ancaq təəssüflər olsun ki, bu, belə bir ağır vəziyyət, Ermənistanla müharibə də davam edirdi. Daxildəki vuruşmalar, çəkişmələr, hakimiyyət mübarizəsi davam edirdi. Bunların hamısı 1993-cü ildə Azərbaycanı vətəndaş müharibəsinə gətirib çıxardı. Azərbaycan dağılmaq təhlükəsi qarşısında idi. 1991-ci ildən 1993-cü ilə qədər belə bir ağır dövrdə yaşadıq.

1993-cü ildən sonra isə Azərbaycanda ictimai-siyasi vəziyyəti normallaşdırmaq, Azərbaycanı bu böhrandan çıxarmaq bizim vəzifəmiz oldu. Vətəndaş müharibəsinin qarşısını almaq, Azərbaycanın parçalanmasının qarşısını almaq bizim vəzifəmiz oldu. Çox ağır, çətin vəzifə idi. Bu vəzifəni sizin, xalqın iradəsi ilə 1993-cü ilin iyun ayında mən öz üzərimə götürdüm. Bu vəzifəni üzərimə götürərkən mən öz məsuliyyətimi bilirdim. Mənim qarşımda bir yol vardı. Mən bu vəzifəni üzərimə götürüb nə isə etməliydim, bu işə qarışmasaydım, qorxurdum ki, Azərbaycan artıq dağılacaqdı. Mən nə üçün bu məsuliyyəti öz üzərimə götürdüm? Ona görə ki, mən sizə, Azərbaycan xalqına arxalanırdım, inanırdım. O inamla da bu məsuliyyəti öz üzərimə götürdüm.

Biz bu ağır, çətin yolu bir yerdə keçdik. 1994-cü ildə dövlət çevrilişi elan etmək istədilər. 1995-ci ildə yenidən çevriliş etmək istədilər, terrorlar oldu, nə bilim, müxtəlif şeylər oldu, hamısının qarşısını aldıq. 1995-ci ildən etibarən biz sabitliyi təmin etdik. 1996-cı ildən artıq Azərbaycanın iqtisadiyyatı inkişaf edir, Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür, respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət qurulubdur. Azərbaycan xalqı rahat yaşayır və müstəqilliyini qoruyub saxlayır, bundan sonra da qoruyub saxlayacaqdır. Azərbaycanın müstəqilliyinin rəmzi bizim bu üçrəngli bayrağımızdır.

Mən bayaqdan baxıram, orada deyəsən, bir gənc qızdır, bayrağı əlində tutubdur. Bayaqdan ona fikir verirəm. Sizin hamınız fikir verin. Bayrağı bir əlində tutub, külək bayrağı o tərəfə, bu tərəfə vurur, amma əlində düz saxlayıbdır.

Qızım, sənin üzünü görürəm, gözəl qızsan. Mən səni öpürəm, bağrıma basıram. Sən ki Azərbaycanın müstəqilliyinin rəmzi olan o bayrağı o qədər sevirsən, onu əlində o cür saxlayırsan, buna görə sənə mən hörmət, ehtiramımı, sevgimi bildirirəm. Bu, xalqımızın müstəqilliyidir.

**B ə x t i y a r   V a h a b z a d ə**: Bu, şeir mövzusudur.

**H e y d ə r   Ə l i y e v:** Hə... Gördün, bax ona. Sən onu hələ görəcəksən. Mərasim başlayandan mən ona baxıram. Bəzən deyirəm, bəlkə başqa adamın əlidir. Deyirəm, bəlkə süni əldir. Görürəm, yox, özü də qızdır. Heyranam, heyranam. Bu bayraq Azərbaycan dövlətinin göylərində daim dalğalanacaq və heç vaxt enməyəcəkdir!

Bax, mən Şəkini belə bir əhval-ruhiyyədə görəndə düşünürəm: Bəli, budur müstəqilliyimizin bizə verdiyi nemət, töhfə, bizə bəxş etdiyi xoşbəxtlik budur. Bu yolda vuruşmaq da, döyüşmək də, əziyyətlərə qatlaşmaq da lazım idi ki, bunu əldə edək. İndi vəzifəmiz bu müstəqilliyi qoruyub saxlamaqdır. Biz bunu saxlayacağıq, mən buna inanıram. Mən o sözləri şüar naminə demədim. Bayraq dalğalanacaq, müstəqil dövlətimiz yaşayacaqdır. Çünki biz Azərbaycanda elə bir cəmiyyət yaratmışıq ki, insanların əksəriyyətində dövlət müstəqilliyimizə o qədər inam, o qədər sevgi, məhəbbət yaratmışıq ki, indi heç kəs Azərbaycanın dövlət müstəqilliyini əldən verməyə razı olmaz. Kimsə bunu edərsə, biz onun qarşısını dərhal alacağıq. Ona arxayın ola bilərsiniz.

Yenə də deyirəm, indi respublikamız inkişaf edir. Biz inkişaf dövründəyik, problemlərimiz, çətinliklərimiz də var. Mən bu gün rayon rəhbərliyi ilə görüş keçirəcəyəm. Problemlərə, çətinliklərə baxacağıq. Ancaq nə edək, bu, keçid dövrüdür. Bu dövrdə çətinlik də, problem də, hər şey olacaqdır. Bunlarsız mümkün deyil, hər şey hamar gedə bilməz. Bir də ki, onun heç ləzzəti olmazdı. Bir şeyə nail olmaq üçün gərək çalışasan, vuruşasan, ondan sonra deyəsən ki, bəli, bunun nəticəsini gördüm və necə deyərlər, rahatlıq, iftixar hissi ilə ondan istifadə edəsən. Bax, belədir. Biz müstəqilliyimizin möhkəmlənməsi üçün çalışırıq və bundan sonra da çalışacağıq.

Onu bilməlisiniz ki, iqtisadiyyatımız inkişaf edir. Burada problem yoxdur və Müstəqil Dövlətlər Birliyi içərisində Azərbaycan iqtisadiyyatın inkişafına görə hamısından üstündür. Bizim böyük neft strategiyamız var, onu həyata keçiririk. Onun nəticəsində artıq Azərbaycanın gəlirləri çoxalır. Bu yaxınlarda Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri layihəsinin həyata keçirilməsinə başladıq. O, üç ilə tikiləcəkdir. Azərbaycanda 3-4 ilə kimi neft hasilatı bir neçə dəfə artacaq və Bakı–Tbilisi–Ceyhan kəməri ilə Türkiyəyə, onun Ceyhan limanına gedəcəkdir. Bunların hamısı Azərbaycan xalqına yeni gəlirlər gətirəcəkdir. Yəni bir neçə ildən sonra Azərbaycan çox varlı, zəngin, güclü bir dövlətə çevriləcəkdir. Biz bunun üçün hər il çalışırıq və çalışmalıyıq. Əgər biz 1994-cü ildə neft strategiyasının həyata keçirilməsinə başlamasaydıq, ilk müqaviləni – «Əsrin müqaviləsi»ni, ondan sonra o biri müqavilələri imzalamasaydıq və bunları ardıcıl surətdə, əzmlə həyata keçirməsəydik, indi bizim bu nəticələrimiz də, bu iqtisadiyyatımız da, gəlirlərimiz də olmazdı.

İndi biz Milli Məclisdə gələn ilin büdcəsini müzakirə edirik. Yaxşı büdcə layihəsi hazırlamışıq. Onu deyə bilərəm ki, büdcənin yarıdan çoxu sosial məsələlərə ayrılıbdır. Bu, böyük nailiyyətdir.

2003-cü ildə büdcədən maliyyələşdirilən bütün təşkilatlarda işləyənlərin, o cümlədən müəllimlərin, həkimlərin, mədəniyyət işçilərinin və başqa sahələrin işçilərinin maaşları ciddi surətdə artırılacaqdır. Bu, büdcədə nəzərdə tutulubdur. Siz bilin, 1996-cı ildən indiyə qədər Azərbaycanda ümumi əməkhaqqı 3,4, pensiyalar 3,3 dəfə artıbdır. Başa düşürsünüzmü? Bu qədər artımdan sonra biz maaşları yenə artırırıq. Maaşları hər il artırırıq. Ona görə ki, bizim iqtisadiyyatımız inkişaf edir. Arxayın ola bilərsiniz, bu inkişaf davam edir və edəcəkdir. Olan çətinliklər aradan götürülür və götürüləcəkdir.

Məsələn, elektrik enerjisi çatışmazlığı var. Bu çatışmazlıq burada da var. Amma bilin, bu müstəqillik dövründə biz neçə elektrik stansiyası tikdik. Yenikənd Su Elektrik Stansiyasını tikdik, oradan təxminən 117 meqavat elektrik enerjisi alırıq. Ondan sonra Bakıda 90 meqavatlıq İstilik Elektrik Mərkəzini tikdik. İndi Bakıda «Şimal» Dövlət Rayon Elektrik Stansiyasını tikirik. 400 meqavatlıq bu stansiyanı dekabr ayında istifadəyə verəcəyik. Təsəvvür edin, bizimlə qonşu dövlətlərimiz var – Gürcüstan, Ermənistan... Xüsusən Gürcüstan qaranlıqda batır. Amma bizim hələ keçmişdə, sovet vaxtında yaratdığımız – iftixar hissi ilə deyirəm ki, mən o illərdə bunun üçün çox çalışmışam – nə qədər böyük elektrik stansiyalarımız var. Onlar olmasaydı, biz indi elektrik enerjisini haradan alacaqdıq. Keçmişdə biz SSRİ-nin vahid elektrik şəbəkəsinə qoşulmuşduq. Elektrik enerjisini oradan alırdıq. Amma o illərdə biz elektrik stansiyaları tikdik. Özümüz üçün müstəqil elektrik enerjisi mənbəyi yaratdıq. O bizə kömək edir. Ondan da əlavə, müstəqillik illərində görün neçə elektrik stansiyası tikmişik.

Bunları yaradırıq və elektrik enerjisi ilə təminat getdikcə artacaqdır. Hamısı birdən olmur. Bizim fikrimiz var ki, «Şimal» elektrik stansiyası kimi, 400 meqavatlıq daha bir stansiya da tikək. Onun yeri var və biz kredit alıb bunun tikintisinə başlaya biləcəyik. Yəni demək istəyirəm ki, bütün bu çətinliklər aradan götürülür və götürüləcəkdir. Buna arxayın ola bilərsiniz.

Mən bilirəm, Şəkidə işsizlik var, bunu da aradan götürmək lazımdır. Biz bazar iqtisadiyyatı yolu ilə gedirik. İndi biz yeni müəssisələr, dövlət müəssisələri yarada bilmərik. Buradakı ipək kombinatında vaxtilə 6-7 min nəfər işləyirdi. O vaxt da Azərbaycanın rəhbəri indi sizin qarşınızda duran Heydər Əliyev idi. Elədirmi? O vaxt mən orada yeni, böyük bir sex yaratdım ki, son məhsul alaq. Bunların hamısını etdik. Amma indi sovet sistemi, SSRİ dağılandan sonra başqa çox şeylər də dağıldı. İndi kombinatda bərpa işləri aparırıq. Oraya xeyli vəsait buraxmışıq. Həmin vəsaitin ayrılması nəticəsində xeyli adam orada işləyir. Biz onu daha da genişləndirəcəyik. Amma bizim yolumuz o deyildir. Bizim yolumuz sahibkarlığı inkişaf etdirməkdir.

Şəkililər keçmişdə həmişə ticarətlə yaxşı məşğul olublar. Yenə də deyirəm, sənətkar olublar, çox şeyi özləri istehsal ediblər, satıblar. Şəki Azərbaycanda həmişə ticarət mərkəzi kimi tanınıbdır. Burada Gürcüstanla, İranla ticarət aparıblar. Burada ticarətə meyl çoxdur. Yəni sahibkarlığa da meyl yüksəkdir.

İqtisadiyyat naziri buradadır. O bu gün məlumat verəcəkdir. Mən sahibkarlığın inkişafı haqqında çox fərmanlar vermişəm. Kiçik sahibkarlar üçün indi kreditlər ayrılır. Kredit götürüb iş qurmaq, müəssisə yaratmaq olar. Şəkililər gərək öz xüsusiyyətlərini büruzə versinlər. Yoxsa, keçmiş sovet dövründə olduğu kimi, gedib işlədin-isləmədin maaşını aldın, gəlib oturdun – indi belə şey olmaz. İndi gərək işləyəsən, çalışasan, zəhmət çəkib qazanasan, yaşayasan.

İndi sizinlə danışıram, yadıma düşür ki, sizin Kiş çayınız var. Bu çay Şəkini neçə dəfə dağıdıbdır. Tarixdə bu neçə dəfə olubdur. Bir dəfə XVII əsrdə Kiş çayına elə sel gəlib ki, bütün Şəkini dağıdıbdır. Ondan sonra camaat gedib yuxarıda özünə məskən salıbdır. Ondan sonra Nuxa yaranıbdır. Bir dəfə də Kiş çayı bizim vaxtımızda, müstəqilliyimiz illərində buraları basdı. Bir az qabağını aldıq. Sonra məndə məlumatlar vardı, bizim hörmətli Bəxtiyar Vahabzadə də mənə müraciət etdi ki, əgər belə getsə, Kiş çayı Şəki şəhərini dağıdacaqdır. Onda mən qəti tədbirlər gördüm və bilmirəm, deyəsən 19 milyard manat vəsait ayırdıq. Orada möhkəm bəndlər tikildi, körpü salındı. Demək, Şəkini Kiş çayından qoruduq. Şəki bir də Nuxaya çevrilməyəcəkdir.

İndi bunu nə üçün deyirəm, nə üçün yada salıram? O şey ki, mümkündür, biz onu edirik. Baxmayaraq ki, o vəsaiti də biz haradansa kəsdik, buraya verdik. Çünki bunu etmək lazım idi. O şey ki mümkün deyil, bu gün edə bilmirik, amma onu sabah edəcəyik. Sabah da etməsək, o biri gün edəcəyik. Bunu bilin. Sizin hamınız böyük nikbinliklə yaşamalısınız ki, gələcək bundan da yaxşı olacaqdır. Bax, bu komplekslər onu göstərir ki, gələcək yaxşı olacaqdır. Bu, gələcəyə yönəldilmiş bir kompleksdir.

Şəkidə böyük memarlıq abidələri, binalar, bütün dünyada məşhur olan Xan sarayı var. Amma indiyə qədər Şəkidə belə bir nəhəng kompleks tikilməyibdir. İndi bu kimin üçün tikilibdir? Millət üçün, xalq üçün, gənclər üçün tikilibdir.

Bizim gələcəyimiz gənclərə məxsusdur. Biz bu gün yaşayırıq. Bu gün dövləti, milləti idarə edirik, amma sabahı düşünməliyik. Gələcək üçün biz sağlam gənclik hazırlamalıyıq. Fiziki çəhətdən sağlam, mənəvi, əqli cəhətdən sağlam, düşüncəli gənclər hazırlamalıyıq. Bunlar da məhz bu cür komplekslərdə yaranır. Bu, gəncləri narkotiklərdən, spirtli içkilərdən istifadə etməkdən çəkindirəcəkdir. Burada, Şəkidə hələ keçmişdə tiryəkçilər, tiryək çəkənlər də olubdur. Elədirmi? Şəki elə vaxtilə bir az bununla da məşhur idi ki, burada tiryək çəkərdilər. Bu, qədim vaxtlarda olubdur. Amma olan olubdur. Hər yerin bir xüsusiyyəti var. İndi biz gənclərimizi bunların hamısından qoruyuruq və qorumalıyıq. Çünki indi narkomaniya dünyada bir hal alıbdır. Təkcə narkomaniya deyil, başqa pis adətlər, yaxud spirtli içkilərdən istifadə etmək, başqa şeylər... Yenə də deyirəm, lazımdır ki, gənclər, fiziki çəhətdən sağlam olsunlar. Bu kompleksdə gənclər üçün bunu təmin etmək mümkün olacaqdır. Ona görə bunun həm böyük siyasi, həm iqtisadi, həm də sosial əhəmiyyəti var.

Şəhər İcra Hakimiyyətinin başçısı mənə danışdı ki, bu kompleksin tikintisində 400 nəfər insan, özü də ayda 500 min manatdan 4 milyon manatadək əmək haqqı almaqla burada işləyiblər. Deməli, burada iş yerləri olubdur. İndi bu kompleksin istismarı zamanı burada 120 nəfərdən çox adam işləyəcəkdir, onlar maaş alacaqlar. Görürsünüzmü, birdən-birə bu kompleks neçə məsələni həll edir. Ona görə də mən elə bilirəm ki, bu kompleksin Şəki üçün heç əvəzi yoxdur. Bunu cəmisi 10 ay, yaxud da ki, bir il müddətində, qısa vaxtda bu cür keyfiyyətlə qurub yaratmaq onu göstərir ki, Azərbaycan xalqı nələrə qadirdir. Bu kompleksin xüsusiyyəti odur ki, orada gözəl evlər düzəldiblər, buraya gələn idmançılar istirahət edə biləcəklər. Onların birində mən gecə istirahət etdim, çox yaxşıdır. Əgər mənim kimi adam orada yaxşı istirahət edə bilirsə, 18 yaşında gənc elə istirahət edəcək ki, heç əvəzi olmayacaqdır.

Bizim Milli Olimpiya Komitəsi son illərdə, doğrudan da, çox böyük işlər görür. Biz bu yaxınlarda Milli Olimpiya Komitəsinin 10 illik yubileyini qeyd etdik. Amma onun həqiqi fəaliyyəti son beş ildədir. İdmançılar İlham Əliyevi özlərinə başçı, prezident seçəndən sonra o elə böyük həvəslə, elə böyük ruh yüksəkliyi ilə, elə məhəbbətlə bu işdən yapışıbdır ki, onu bundan heç cür ayırmaq mümkün deyildir. Bu da təsadüfi deyildir.

Birincisi, cavan insan kimi o, gənclərin tələbatını yaxşı bilir. İkincisi də, gənc siyasətçi kimi, yaxşı bilir ki, ölkəmizin gələcəyi, respublikamızın gələcək həyatı gənclərdən asılıdır və onlardan ötrü də şərait yaratmaq lazımdır. Müstəqil dövlətimiz üçün bunun çox böyük əhəmiyyəti var.

Mən Milli Olimpiya Komitəsinə təşəkkür edirəm ki, belə işlər görür və ümidvaram ki, bu iş bundan sonra da davam edəcək, Azərbaycanın başqa bölgələrinə də yayılacaqdır.

Mən inanıram ki, birincisi, şəkililər bu kompleksdən səmərəli istifadə edəcəklər. İkincisi, bu kompleks öz gözəlliyi ilə, müasir şəraiti ilə gəncləri daha da tərbiyələndirəcəkdir. Onların mənəvi səviyyəsini artıracaqdır. Üçüncüsü də, dediyim kimi, bizim gələcəyimizə sağlam nəsil hazırlayacaqdır.

İdman cəmiyyət üçün ən vacib sahədir. İdmanla məşğul olan hər bir insan, hətta adi bədən tərbiyəsi ilə məşğul olan hər kəs tamam sağlam olur. Sağlam olmaq üçün həkimə müraciət etmək, dava-dərman qəbul etmək, iynə vurdurmaq lazım deyildir. Sadəcə, hər gün idmanla məşğul olun. Mən bir dəfə demişəm, yenə deyirəm: mən gənc vaxtlarımdan idmanı sevmişəm, idmanla məşğul olmuşam, bu gün də məşğul oluram. Ona görə də, görürsünüz, sizin qabağınızda belə dayanmışam. Ona görə hamınızı idmanla məşğul olmağa dəvət edirəm. Özü də burada gənclərin öz yeri, orta nəslin, yaşlı nəslin də öz yeri var. O cümlədən Abid Şərifova da deyirəm ki, idmanla məşğul ol. Çünki onun çəkisi bir az artıqdır, onu azaltsın.

İdman eyni zamanda, həqiqətən, hər xalqın, millətin başqa xalqlar içərisində şöhrətini yüksəldən sahələrdən biridir. Biz müstəqil dövlətik. İstəyirik ki, bizi hər yerdə tanısınlar, hər yerdə bilsinlər ki, Azərbaycan nəyə qadirdir və nədən ibarətdir. Bunu biz çox vasitələrlə edirik. Bu vasitələrdən biri bizim mədəniyyətimizdir. Məsələn, bizim musiqimiz, ədəbiyyatımız, teatrımız, yaxud mahnılarımız – dünyaya bizi ən çox tanıdan bunlardır. İdman da, bəli, indi dünyada çox geniş yer tutubdur. Müxtəlif yarışlar keçirilir. İlham Əliyev burada dedi, qısa müddətdə yarışlarda nə qədər uğurlar qazanılıbdır. Bunun xüsusiyyəti bir də ondan ibarətdir ki, hər bir idmançı əgər birinci, ikinci, hətta üçüncü yer tutursa, onun mənsub olduğu ölkənin milli bayrağı qaldırılır, birinci yer tutanın şərəfinə dövlət himni ifa olunur.

Sizə bir şeyi bildirmək istəyirəm. Xarici ölkələrdə təkcə Azərbaycanın yox, hər bir dövlətin o halda himni səslənir və bayrağı qaldırılır ki, oraya hansısa dövlətin başçısı rəsmi səfərə gəlmiş olsun. Məsələn, mən, Azərbaycan prezidenti bir ölkəyə rəsmi səfərə gedəndə, bəli, Azərbaycanın bayrağı qaldığım iqamətgahın üzərində ucaldılır, rəsmi qəbul mərasimində Azərbaycanın himni səslənir və dövlət bayrağı qaldırılır. Başqa heç bir vaxt belə şey olmur.

Amma idman sahəsində beynəlxalq yarışda da birinci, ikinci, üçüncü yerləri tutan idmançıların mənsub olduqları ölkələrin bayraqları qaldırılır, birinci yeri tutan idmançının ölkəsinin həm də dövlət himni səsləndirilir. Görürsünüzmü, bunun nə qədər əhəmiyyəti var. Bu, məsələnin siyasi tərəfidir, millətimizi tanıtmaqla bağlı olan tərəfdir. Amma digər tərəfi haqqında da mən sizə danışdım.

Bizim gənclərimiz ona görə sağlam olmalıdırlar ki, ordumuz güclü olsun. Mən sizə deyə bilərəm ki, son illər Azərbaycanda aparılan işlər ölkəmizin ordusunu gücləndiribdir. Bizim ordumuz indi Azərbaycan torpaqlarını qorumağa və Azərbaycana qarşı hər bir hərbi təcavüzün qarşısını almağa qadirdir.

Ancaq onu bilmək lazımdır ki, hər bir müstəqil dövlətin gərək daim güclü ordusu olsun. Azərbaycanın da güclü ordusu var, amma bundan da güclü, bundan da yüksək səviyyədə olmalıdır. Ona görə Azərbaycanda gərək sağlam gənclər yetişsin. Azərbaycan ordusunda fiziki cəhətdən sağlam gənclər xidmət edəcəklər və onu gücləndirəcəklər. Mən dedim ki, bizim ordumuz qarşısında duran vəzifələri həll etməyə qadirdir.

İndi bizim problemlərimizdən ən çətini, ən ağırı Ermənistan–Azərbaycan münaqişəsinin həll olunmasıdır. Bu münaqişə sizə məlumdur. Bunun Azərbaycana vurduğu zərbələr də, çəkdiyimiz zərərlər də sizə məlumdur. Torpaqlarımızın 20 faizi işğal altındadır. Bir milyondan artıq insan yerindən-yurdundan didərgin düşüb, ağır, çətin vəziyyətdə, əksər hissəsi də çadırlarda yaşayır. Səkkiz ildir ki, atəşi dayandırmışıq, bu özü yaxşı haldır. Səkkiz ildir bizim gənclər şəhid olmurlar. Bu, böyük nailiyyətdir. Ancaq eyni zamanda, biz atəşi dayandırmışıq ki, məsələni sülh yolu ilə həll edək. Həll etməyə çalışırıq. Dünyada, beynəlxalq təşkilatlarda olan bütün imkanlardan istifadə edirik. ATƏT-in Minks qrupu ilə daim əməkdaşlıq edirik. Böyük dövlətlərin başçıları ilə mən vaxtaşırı görüşlər keçirirəm. Bütün sahələrdə danışıqlar aparırıq. Münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Əminəm ki, həll edəcəyik. Buna zaman, vaxt lazımdır. Azərbaycan torpaqlarını heç vaxt əlindən verə bilməz. Biz işğal olunmuş torpaqlarımızı nəyin bahasına olur-olsun, mütləq qaytaracağıq. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və yerindən-yurdundan didərgin düşən soydaşlarımız öz yerlərinə qayıdacaqlar. Biz bunu edəcəyik. Mən buna inanıram, siz də inanın. Hamımız bir yerdə, əl-ələ verərək bunu etməliyik.

Əziz dostlar, bu gün, əgər sadə sözlə desəm, mənim kefim çox yaxşıdır. Bilirsiniz, prezidentin işi çətindir, ağırdır. Bəzən olur əsəbiləşirəm, bəzən iş məni sıxır. Amma bu gün burada çox yaxşı əhval-ruhiyyədəyəm, sizdən ilham alıram. Bu insanları, sizi görürəm. Azərbaycanın nə qədər gözəl insanları var. Elə bütün nəsillər – gənclər, yaşlılar, qızlar, oğlanlar, qadınlar, kişilər gözəldir. Nə qədər gözəl millətimiz var. Vallah, bu millətə mənsub olmaq böyük bir xoşbəxtlikdir. Bu millətin dərdini çəkmək dərd deyil, xoşbəxtlikdir.

Məmnunam ki, xalq mənə etimad göstərir, millətin dərdini də çəkirəm, əziyyət də çəkirəm, çox çətin işlərim də var. Amma məni həmişə bir şey ruhlandırır ki, belə xalqımız var, millətimiz var, belə gözəl, Azərbaycan kimi

ölkəmiz, Azərbaycan dilimiz, Azərbaycan ədəbiyyatımız, Azərbaycan mədəniyyətimiz var. Bax, bu hisslərlə də mən bu gün sizinlə burada görüşürəm. Bir daha sizin hamınızı salamlayıram. Sizi öpürəm, bağrıma basıram, sizin hamınıza çansağlığı diləyirəm. Arzu edirəm ki, bu gözəl kompleksdən hamı istifadə edib, özünü sağlamlaşdırsın. Sağ olun. Bugünkü bu münasibətinizə görə sizə təşəkkür edirəm. Bu bayramdır, bayramınız mübarək olsun!

* * *

*Mərasimin rəsmi hissəsi başa çatdı. Azərbaycan prezidenti Heydər Əliyev və Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev Şəki Olimpiya İdman Kompleksinin açılışını bildirən qırmızı lenti kəsdilər.*

*Dövlətimizin başçısı idman kompleksinin salonlarına, üzgüçülük hovuzuna baxdı, idmançıların məşqlərinə tamaşa etdi. El pəhləvanı Gəray Löymanovun məharəti böyük maraq doğurdu. O belə bir idman kompleksinin tikilib istifadəyə verilməsinə görə prezident Heydər Əliyevə, MOK-un prezidenti İlham Əliyevə dərin təşəkkürünü bildirdi.*

## ŞƏKİ DÖVLƏT DRAM TEATRI MEYDANINDA ŞƏHƏR SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*9 noyabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev Olimpiya idman kompleksinin açılış mərasimindən sonra Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrının qarşısındakı meydana gəldi. Teatr meydanına aparan geniş küçəyə çıxan Şəki sakinləri Azərbaycan prezidentini böyük məhəbbətlə salamlayır, ona bəslədikləri hörmət və ehtiramlarını bir daha ifadə edirdilər.*

*Meydana toplaşan on minlərlə şəkili – ictimaiyyətin nümayəndələri, ağsaqqallar, gənclər, uşaqlar dövlətimizin başçısı Heydər Əliyevi böyük mehribanlıqla, hərarətli alqışlarla, «Heydər baba» nidaları ilə qarşıladılar. Teatrın binasında Azərbaycanın dövlət bayraqları, respublikamızın rəhbərinin böyük portreti, prezidenti salamlayan transparantlar, onun kəlamları yazılmış şüarlar asılmışdı.*

*Şəkililər prezident Heydər Əliyevə yaxınlaşaraq, bu günü səbirsizliklə gözlədiklərini vurğulayır, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, ölkəmizdə əmin-amanlığın və sabitliyin təmin edilməsi, bazar iqtisadiyyatının inkişafı üçün əlverişli şərait yaradılması sahəsində gördüyü böyük işlərə, ədəbiyyat, incəsənət və mədəniyyət işçilərinə, gənclərə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər.*

*Gənclər öz sevimli liderlərini, Milli Olimpiya Komitəsinin prezidenti, Milli Məclisin deputatı İlham Əliyevi səmimiyyətlə salamladılar, Şəkidə gözəl və nəhəng idman kompleksinin istifadəyə verilməsinə görə bir daha təşəkkür etdilər.*

**H e y d ə r Ə l i y e v:** Əziz şəkililər!

Əziz dostlar!

Əziz bacı-qardaşlar!

Mən sizin hamınızı salamlayıram. Sizə öz dərin hisslərimi bildirmək istəyirəm.

Mən bu gün sizin doğma şəhərinizdəyəm, Azərbaycanın gözəl şəhərlərindən biri Şəkidəyəm. Bilirsiniz, ola bilər bəziləriniz də iştirak etmisiniz, biz burada böyük Olimpiya idman kompleksi açdıq. Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin təşəbbüsü ilə gözəl bir kompleks tikilibdir. Bu, şəkililərə Milli Olimpiya Komitəsi tərəfindən, İlham Əliyev tərəfindən böyük bir hədiyyədir. Bu kompleks şəkililər üçün, gənclər üçün böyük imkanlar yaradacaq ki, onlar idmanla məşğul olsunlar, öz güclərini sınasınlar, yaxşı idmançı, sağlam insanlar olsunlar, fiziki cəhətdən möhkəm olsunlar və Azərbaycanın dəyərli, sədaqətli vətəndaşları olsunlar.

Biz orada, kompleksdə böyük bir mitinq keçirdik. Mən indi «Şəki–İpək» Açıq Tipli Səhmdar Cəmiyyətinə gedirəm. Təsəvvür edə bilməzdim ki, bu gözəl, çox uzun küçədə, prospektdə bu qədər adam toplaşıbdır. Ümumiyyətlə, mən bilirəm ki, Şəkidə çox adam yaşayır, amma bu qədər əhalinin yaşadığını bilmirdim. Sizə təşəkkür edirəm ki, buraya yığışmısınız, mənimlə görüşmək istəyirsiniz. Mən də sizinlə görüşmək istəyirəm. Ancaq sadəcə, sizə əziyyət vermək istəmirdim ki, küçəyə yığılasınız. Amma siz özünüz yığılmısınız. Çox sağ olun, hamınıza təşəkkür edirəm.

Bilirsiniz, mən bu küçə ilə, prospektlə gələrkən gördüm ki, adam çoxdur. Avtomobili bir az asta sürürdülər, baxırdım və əl edirdim. İnsanları gördüm – gənclər, uşaqlar, qadınlar, kişilər, yaşlı adamlar, lap yaşlı qadınlar, kişilər – hamısı öz münasibətlərini nə qədər böyük məhəbbətlə, sevgi ilə göstərirdilər. Mən bunu çox yüksək qiymətləndirirəm. Mən bunu sizin, şəkililərin Azərbaycanın müstəqil dövlətinə, dövlətçiliyinə olan münasibətiniz və sədaqətiniz kimi qiymətləndirirəm. Sizin şəxsən mənə olan münasibətiniz kimi qiymətləndirirəm.

Siz mənə doqquz il bundan öncə etimad göstərmisiniz, Azərbaycanın prezidenti seçmisiniz. Mən doqquz ildir sizinlə bərabər çalışıram. Sizin dəstəyinizlə, köməyinizlə əlimdən gələni etmişəm və edirəm ki, müstəqil Azərbaycan inkişaf etsin. Bugünkü bu görüşləri – həm idman kompleksində, həm də bu meydanda – sizin mənə göstərdiyiniz etimadınız kimi qəbul edirəm. Güman edirəm ki, əgər mən sizin etimadınızı indiyə qədər doğrultmasaydım, siz bu qədər hissiyyatlarla küçələrə çıxmazdınız. Əmin olun, mən xalqın yolunda, müstəqil Azərbaycanın inkişafı yolunda, millətimizin gələcəyi yolunda çalışacağam. Sizə arxalanaraq, daim dəstəyinizi hiss edərək çalışıram və çalışacağam. Əmin olun ki, sizin mənə göstərdiyiniz etimadı bundan sonra da doğruldacağam.

Çox sağ olun, təşəkkür edirəm. Burada mahnı ifa edən qız o qədər gözəl oxuyurdu ki, istəyirəm o, bir mahnı da oxusun və biz birlikdə qulaq asaq. Mən də onun yanında duracağam.

## «ŞƏKİ–İPƏK» AÇIQ TİPLİ SƏHMDAR CƏMİYYƏTİNDƏ GÖRÜŞ

*9 noyabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev Teatr meydanından «Şəki–İpək» Açıq Tipli Səhmdar Cəmiyyətinə gəldi.*

*Müəssisənin əməkçiləri dövlətimizin başçısını hərarətli alqışlarla, səmimiyyətlə qarşıladılar, gül dəstəsi təqdim etdilər. Onların əllərində Azərbaycanın dövlət bayraqları, prezident Heydər Əliyevin portretləri, «Cənab Prezident, «Şəki–İpək» Açıq Tipli Səhmdar Cəmiyyətinə yenidən həyat bağışladığınıza görə şəkililər Sizə minnətdardır», «İpək Şəkinin şöhrətidir». «Cənab Prezident, Azərbaycanın müstəqilliyi yolunda apardığınız müdrik siyasət ürəyimizcədir» sözləri yazılmış transparantlar var idi.*

*Prezident Heydər Əliyev ipəkçilərlə səmimi görüşdü, onları salamladı.*

*Əməkçilər müəssisəsinin bugünkü iş ahənginə görə Azərbaycan rəhbərinə minnətdarlıqlarını bildirdilər və dedilər ki, cənab Prezident, biz çörəyimizi Sizin sayənizdə qazanırıq. Siz vaxtilə respublikadan getdikdən sonra bizim işimiz dayandı, güzəranımız pisləşdi. İndi çox sevinirik ki, Siz yenidən rəhbərliyə qayıtdınız və ailələrə xeyir-bərəkət gətirdiniz. Biz bunu heç vaxt unutmayacağıq.*

**Elman Qarayev** *(Səhmdar cəmiyyətin sədri)***:** Cənab Prezident, Şəkidə ipəkçiliyin, ipək sənayesinin zəngin tarixi var. Vaxtilə Sovet İttifaqında bu sahədə ən böyük müəssisə sayılan Şəki İpək Kombinatı isə 1931-ci ildə yaradılmışdır. Hazırda burada 700-ə yaxın işçi çalışır və gələcəkdə onların sayı 1500 nəfərə çatdırılacaqdır. Müəssisənin inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi üçün Sizin imzaladığınız Sərəncam hamımızı sevindirmiş və ruhlandırmışdır. İqtisadi İnkişaf Nazirliyinin müəssisəyə ayırdığı 2 milyard manat vəsaitin köməyi ilə burada xeyli iş görülmüş və yeni iş yerləri açılmışdır.

Baramaaçan, burucu, boyaq-bəzək, toxucu və xalça sexləri bərpa olunmuşdur və hazırda fəaliyyət göstərir. İpəkdən toxunan xalçalar gələcəkdə dünya bazarına, o cümlədən Almaniyaya, Fransaya, ABŞ-a ixrac olunacaqdır. İndi respublikamızda 120 ton barama istehsal olunur. Amma bizim 3 min ton baramaya ehtiyacımız var və onu Özbəkistandan alırıq.

*Dövlətimizin başçısı ayrı-ayrı sexləri gəzdi, müəssisənin iş şəraiti ilə yaxından tanış oldu, vaxtilə və indi istehsal olunan məhsulların nümunələrinə, ipəkdən toxunmuş xalçalara baxdı.*

**Heydər Əliyev:** Bu ipək xalçaları maşınla toxuyurlar?

**Elman Qarayev:** Xeyr, əl ilə toxunur.

**Heydər Əliyev:** Çox çətin məsələdir.

**Elman Qarayev:** Bəli, çətindir.

**Heydər Əliyev:** Başa düşürəm, bu rentabellidirmi, xeyri varmı?

**Elman Qarayev:** Bəli.

**Heydər Əliyev:** Bir xalçanı neçə vaxta toxuyurlar?

**Elman Qarayev:** Bir xalçanı 2 nəfər iki aya toxuyur.

**Heydər Əliyev:** Özü də əl ilə. Bunu əl ilə toxumaq yun sapla toxumaqdan çətindir.

**Elman Qarayev:** Bəli, çox çətindir.

**Heydər Əliyev:** Yaxşı, iki aya toxuduğunuz xalça neçəyə satılır?

**Elman Qarayev:** Cənab Prezident, bir kvadratmetrinə 100 ABŞ dolları, yəni 500 min manat veririk. Amma satışda 1200–1500 ABŞ dollarıdır. Bu da müəssisəyə 25 faiz mənfəət gətirir.

**Heydər Əliyev:** Buna çoxdan başlamısınız?

**Elman Qarayev:** Yox, cəmi 3-4 gündür başlamışıq.

**Heydər Əliyev:** Bunu İranda çox toxuyurlar.

**Elman Qarayev:** Bəli, İranda neftdən sonra, xalça mühüm ixrac məhsulu hesab olunur.

**Heydər Əliyev:** Bu krep şallar indi alınır?

**Elman Qarayev:** Bəli, yenidən dəbə düşür.

**Heydər Əliyev:** Keçmişdə çox dəb idi. Bunlar keyfiyyətli olur. Hansı gənc evlənmək istəyirdisə, mütləq gəlininə bundan almalı idi, bunsuz olmazdı. Deyəsən bunlar sonra yoxa çıxdı. İndi dəbə düşür, alırlar. Kələğayılar da o vaxt dəbdə idi. O vaxt, 1970-ci illərdə biz bunların istehsalını qaydaya salmışdıq. İndi belə məhsula tələbat varmı?

**Elman Qarayev:** Bəli, var. Amma bazarda Çindən, Koreyadan gətirilən ipəklər həddindən artıq ucuzdur.

**Heydər Əliyev:** Onlar ucuz başa gəlir. Rusiyada necə, bunlardan toxuyurlar?

**Elman Qarayev:** Bəli, Rusiyada da toxuyurlar. Çünki baramanı, sapları özləri istehsal edir və toxuyurlar. Ona görə də ucuz başa gəlir.

**Heydər Əliyev:** Təbii ipəklər keçmişdə daha qiymətli idi. İndi də elədir?

**Elman Qarayev:** Cənab Prezident, əgər bəzi dəzgahlarımızı dəyişib bunları toxuya bilsək, dünya bazarına çıxa bilsək, bizdə də keyfiyyətli alınacaqdır. Hazırdakı dəzgahlar buna imkan vermir.

**Heydər Əliyev:** Biz 1970-ci illərdə bu işi görürdük. Bunlar hamısı buranın məhsuludur. Başqa yerlərdən gəlməyibdir. Vaxtilə biz bunların hamısını istehsal etmişik. Başa düşürəm, indi hər şey dəyişilibdir. Dəzgahlar da, tələbat da dəyişibdir.

**Elman Qarayev:** Biz hərbçilər üçün paltar da tikirik. Həm qış, həm də yaz-yay paltarı.

*Prezident Heydər Əliyev məhsul istehsalının həcminin artırılması, keyfiyyətin yüksəldilməsi üçün lazımi tapşırıqlar, tövsiyələr verdi. Dövlətimizin başçısı müəssisənin əməkçilərinə işlərində uğurlar arzuladı, onlarla səmimiyyətlə sağollaşdı.*

*İpəkçilər prezidenti hərarətlə yola saldılar.*

## ŞƏKİ XANLARININ SARAYI İLƏ TANIŞLIQ

*9 noyabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev ölkəmizin məşhur memarlıq abidələrindən olan Şəki xanlarının sarayına yola düşdü. Yol boyu şəhər sakinləri respublikamızın rəhbərini alqışlayır, sevimli prezidentə məhəbbətlərini ifadə edirdilər. Dövlətimizin başçısı şəkililəri səmimiyyətlə salamlayır, ona göstərilən ehtirama görə təşəkkürünü bildirirdi.*

**N e m ə t H a c ı y e v**(*Sarayın direktoru*)**:** Cənab Prezident, bu qədim abidə XVIII əsrdə tikilmiş, dəniz səviyyəsindən 850 metr yüksəklikdə yerləşən, iki tərəfdən çayla əhatə edilmiş Şəki xanlarının sarayı bərpa olunur. 2004-cü ilin birinci yarısında başa çatacaq bərpa işlərini Almaniya şirkəti həyata keçirir. Şəkidə tarixi abidələr çoxdur, onlar dövlət tərəfindən qorunur, mühafizə olunur.

Cənab Prezident, bu tarixi abidələrə ikinci ömrü verən Sizsiniz. Bütün tarixi abidələrin bərpası üçün sərəncamlar vermisiniz. Alban məbədi, M.F.Axundovun ev-muzeyi bərpa edildi, S.Rəhmanın ev-muzeyi yaradıldı. Sizin bu xidmətiniz danılmazdır. 1999-cu ildə Sizin hakimiyyətə gəlməyinizin 30 illiyi ilə əlaqədar keçirilən tədbirdə demişdiniz ki, Şəkidə vəziyyət bundan sonra daha da yaxşı olacaqdır. Bu həqiqətdir. Çünki respublikamız kimi, Şəki də günbəgün inkişaf edir, gözəlləşir. Bu gün rayonumuzda əsl toy-bayramdır.

**R ü s t ə m M u x t a r o v**(*Mədəniyyət Nazirliyinin mədəni irsin qorunması layihəsinin işçi qrupunun rəhbəri*)**:** Cənab Prezident, iki ay əvvəl Almaniyanın «DEPTKMALPFLEQ» şirkəti sarayda bərpa işlərinə başlamışdır. Bu işlər Dünya Bankının verdiyi kredit hesabına görülür.

**A b i d Ş ə r i f o v** (*Baş nazirin müavini*)**:** Cənab Prezident, ümumiyyətlə, Dünya Bankı belə abidələrin bərpasına maliyyə yardımı göstərir. Şirvanşahlar sarayının, Mömünə xatın türbəsinin və bu sarayın bərpasına 7,5 milyon kredit ayırıbdır.

**H e y d ə r Ə l i y e v:** Sən özün memarsan?

**R ü s t ə m M u x t a r o v:** Bəli, memaram, 27 ildir bu sahədə çalışıram. Bu binada altı dəfə bərpa işi aparılıbdır. Sonuncu dəfə 1966-cı ildə bərpa işləri aparmışlar və Leninqraddan olan rəssamlar içəridəki naxışları bərpa ediblər.

Burada çoxlu səhvlərə yol verilmişdir. Dam səviyyəsində dəmir-beton kəmər düzəldilmişdir. Onu düz hesablamayıblar, ona görə də görürsünüz, bəzi yerlərdə əyintilər var. Biz o kəmərin əvəzinə alternativ kəmər çəkməliyik. Naxışları yoxlayarkən məlum oldu ki, orada üçqat naxış var. Alman mütəxəssisləri həmin naxışları açıb bərpa işlərini tamamlamalıdırlar.

**H e y d ə r Ə l i y e v:** Deməк, o naxışlar altda qalıbdır. Onların üstünü açacaqlar?

**R ü s t ə m M u x t a r o v:** Bəli. Ümumi bərpa işləri qurtarandan sonra naxışlara başlayacaqlar. 2004-cü ilin ikinci rübünədək bərpa işləri davam edəcəkdir.

**H e y d ə r Ə l i y e v:** Onlar bu işləri özləri görürlər, bərpaçıdırlar?

**R ü s t ə m M u x t a r o v:** Bəli, özləri edirlər və bizim uşaqları da öyrədirlər.

**H e y d ə r Ə l i y e v:** Onlar burada yaşayırlar?

**R ü s t ə m M u x t a r o v:** Bəli, kirayəyə ev tutublar, iki aydır burada yaşayırlar.Bərpa işləri başa çatana kimi burada yaşayacaqlar.

*Dövlətimizin başçısı Almaniya şirkətinin nümayəndəsi Hernan Gişing ilə söhbət etdi. O, prezident Heydər Əliyevə görülən işlər, gələcək planlar barədə məlumat verdi.*

*Respublikamızın rəhbəri sarayın otaqlarını gəzdi.*

**B ə x t i y a r V a h a b z a d ə**(*Xalq şairi, Milli Məclisin deputatı*)**:** Cənab Prezident, bura xanın müşavirə otağı olubdur.

**H e y d ə r Ə l i y e v:** Bu da buxarıdır. Qərbdə, Rusiyada və başqa yerlərdə «kamin» deyirlər. İndi Azərbaycanda da hamı kamin tikdirir. Amma buxarı düzəltmək lazımdır. Naxçıvanda bizim kiçik otağımız, onun buxarısı var idi. O bizə çox kömək edirdi.

**B ə x t i y a r V a h a b z a d ə:** Bura isə divanxana olubdur. İkinci mərtəbədə yaşayış otaqları yerləşirdi. Bu rənglər sarağan ağacından hazırlanmış təbii boyalardır.

**H e y d ə r Ə l i y e v:** Bunların hamısı təbii rənglərdir. Yəni bitkilərdən, yarpaqlardan, otlardan hazırlanan boyalardır.

**B ə x t i y a r V a h a b z a d ə:** Biz sarağandan boya alan zavod yaratsaq, bütün dünyada məşhur olar. Bu rənglər 500–1000 il gedir.

**H e y d ə r Ə l i y e v:** Bunlar isə xüsusi şüşədir. İşıq düşəndə daha da gözəl olur.

Bilirsiniz, Naxçıvan xanlarından biri Cəfərqulu xan idi. Möminə xatın türbəsinin yanında onların böyük bir evləri var idi. İndi oranı muzey ediblər. Möminə xatın türbəsi XII əsrdən durur. XII əsrdə Əcəmi Naxçıvaninin yaratdığı bir neçə abidə var. İbn Küseyir, Qarabağlar türbələri və s. də var.

**Y a q u b M a h m u d o v**(*Milli Məclisin deputatı, tarixçi alim)*: Cənab Prezident, Cənubi Azərbaycanda, Təbrizdə də var.

**B ə x t i y a r V a h a b z a d ə:** Naxçıvandakı Qarabağların bu Qarabağla əlaqəsi varmı?

**H e y d ə r Ə l i y e v:** Qarabağın böyük bir hissəsi Naxçıvan xanlığının tərkibində olubdur.

**Y a q u b M a h m u d o v:** Zəngəzur da Naxçıvanın tərkibində olubdur.

**B ə x t i y a r V a h a b z a d ə:** Cənab Prezident, Ermənistanda da bir Şəki kəndi var. Onun bu Şəkiyə aidiyyatı varmı?

**H e y d ə r Ə l i y e v:** Bəli, mən o kəndi görmüşəm. Şahbuzdan dağı aşıb gedəndə yolun üstündədir. Orada bir çay var idi, ermənilər hidrostansiya tikib adını Şəki SES qoydular. Bəli, Şəki kəndi var, amma azərbaycanlı kəndi idi.

**Y a q u b M a h m u d o v:** Cənab Prezident, onlar saklardır, özü də Culfadan gediblər. Culfada Göynük kəndi də var, oğuzlarla bağlı addır. Sonra onlar Təbrizə köçüblər. Ordubadın camaatı Təbrizdən gələnlərdir. İpəkçilik də oradan keçibdir.

**H e y d ə r Ə l i y e v:** Keçmişdə Göynük kəndində mənim bir qohumum yaşayırdı.

**B ə x t i y a r V a h a b z a d ə:** Ümumiyyətlə, Ordubad ilə Şəki arasında oxşarlıq, yaxınlıq var. Psixoloji cəhətdən, ipəkçilik, yeməklər baxımından, zarafat, yumor – hamısı eynidir.

**H e y d ə r Ə l i y e v:** Ordubadın ləhcəsi Təbriz ləhcəsinə çox yaxındır. Məsələn, Fikrət Sadıqovu danışdırın, görəcəksiniz ki, o həmin ləhcədə danışır. Neçə illər keçsə də, ləhcə itmir, qalır.

*Dövlətimizin başçısı daha sonra sarayın həyətindəki qocaman, 1530-cu ildə əkilmiş, hündürlüyü 34 metr olan «Xan çinarı» seyr etdi.*

**H e y d ə r Ə l i y e v:** Bilirsiniz, bunun üçün əlverişli mühit, torpaq lazımdır. Belə ağacların hər biri abidədir. Bunları qorumaq lazımdır. Adam heyran qalır. İnsan orta hesabla 70–80 il yaşayır. Ən çox yaşayan, deyirlər qarğadır – 300 il yaşayır. Amma çinar nə qədər yaşayır. Onun ən az ömrü 1500–2000 min ildir. Bu da yaşına görə çox cavan görünür.

**Y a q u b M a h m u d o v:** Bu ağacın altında dayanmaq uğur gətirir. Allah Sizə də bu ağac qədər ömür versin.

**H e y d ə r Ə l i y e v:** Mənə bu ağac qədər ömür versin?! Hər kəsə ömür lazımdır. Kim deyirsə ki, mənə ömür lazım deyil, o, yalan deyir.

**B ə x t i y a r V a h a b z a d ə:** Həyat çox şirindir.

**H e y d ə r Ə l i y e v:** Ona görə hamı çox yaşamaq istəyir.

**B ə x t i y a r V a h a b z a d ə:** Füzulinin bir gözəl sözü var: «Bizim bildiyimiz qəbrə qədərdir. Oradan o yananı bilmirəm. Amma o var».

**H e y d ə r Ə l i y e v:** Bilmirik, amma var. Adam bilmədiyinə görə fikirləşir ki, orada nə var, nə yox – bilmirəm, amma buradakı nağdıdır.

Buranın nə qədər gözəl təbiəti var. Mən bu gün nitqimdə də dedim, Şəkinin gözəl təbiəti var.

**B ə x t i y a r V a h a b z a d ə:** Mənim şairliyimə inandınızmı?! Məni bu torpaq, dağlar şair edibdir.

**H e y d ə r Ə l i y e v:** Sənin bu sualın bir az xoşuma gəlmədi. Necə yəni, sənin şairliyinə inandımmı? Sənin şairliyinə hamıdan çox inanan mənəm. Sənin şeirlərini hamıdan çox oxuyan da mənəm. Sənin şeirlərini qiymətləndirən də mənəm. Çox böyük şairsən.

**B ə x t i y a r V a h a b z a d ə:** Bunu təbiət veribdir.

**H e y d ə r Ə l i y e v:** Əlbəttə, təbiətin böyük əhəmiyyəti var. Təbiət verdiyi qədər heç bir şey verə bilməz.

**B ə x t i y a r V a h a b z a d ə:** Ayağının altında asfalt yox, daş olmalıdır.

**H e y d ə r Ə l i y e v:** Bəli, daş, torpaq olmalıdır. Bunları görəsən, çəməndə uzanasan, qırov düşə. Ona görə bizim şairlərin çoxu, əksəriyyəti kənd yerində doğulmuş adamlardır. Bu həqiqətdir. Bizim Bakıdan çıxan şairlər də şəhərin ətrafındakı kəndlərdəndir.

Yay vaxtı ayaqqabımız olmazdı, ayaqyalın gəzərdik. Amma onun da xeyri var imiş. Demək, insan möhkəmlənir. Ayaqyalın gəzəndə ayağım ora-bura o qədər dəyirdi ki, baş barmağım qanayırdı. İndi uşağın bir yerindən qan çıxanda, tez əl-ayağa düşürlər. Ancaq o vaxtlar torpağı götürüb qanayan yerə qoyurdun, bu da onun müalicəsi idi.

Yadımdadır, yayda ayağım iki ay yaralı olardı. Sentyabr ayında məktəbə getmək lazım idi, ayaqqabını geymək olmurdu. Çünki barmaqlar yaralı olurdu, on-on beş gün lazım idi ki, sağalsın. Amma sağalırdı, nə həkim vardı, nə də dava-dərman.

**B ə x t i y a r V a h a b z a d ə:** Təbiətin özü müalicə edirdi.

**H e y d ə r Ə l i y e v:** Bəli, torpaq özü müalicə edirdi. Mən uşaq vaxtları dağlarda nə qədər bulaqlar görmüşəm. İndi onları həsrətlə yadıma salıram. Fürsət düşüb onların birini görəndə, elə bil dünyanı mənə verirlər. İndi bu ağaca baxıram, böyük məhəbbətlə baxıram.

**B ə x t i y a r V a h a b z a d ə:** Sizi inandırıram ki, buranı 3-4 ay görə bilməyəndə dəli oluram. Bir günlüyə də olsa, mütləq gəlib buranı görməliyəm.

**H e y d ə r Ə l i y e v:** Sən xoşbəxt adamsan. Gəlirsən, burada qalırsan, görürsən. Onda biz nə edək?! Nə gələ bilirəm, nə də qala bilirəm, nə də bir yerim var.

**B ə x t i y a r V a h a b z a d ə:** Cənab Prezident, dediniz ki, indi qaldığınız yer çox gözəldir. Nə vaxt istəsəniz gələ, iki-üç gün qala bilərsiniz.

**H e y d ə r Ə l i y e v:** Düzdür, mən Azərbaycanda harada istəsəm, iki-üç gün qala bilərəm. Amma imkan yoxdur. Bu tədbiri də şənbə gününə salmışam. Şənbə günü də işləyirəm. Sabah da qayıdıb geri getməliyik. Amma bura xoşuma gəlir. Görürsünüz, buradan getmək istəmirəm. Düzdür, hələ işimiz də çoxdur.

**Y a q u b M a h m u d o v:** Cənab Prezident, böyük maarifçilər məsləhət görürlər ki, uşaqları hökmən 14 yaşına qədər kənddə yaşatmaq lazımdır. Çünki təbiəti görürlər, zehni-zəkası iti olur.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, Şəki xanlarına Allah rəhmət eləsin ki, belə gözəl abidə yaradıblar.

## ŞƏKİ ŞƏHƏRİ İCRA HAKİMİYYƏTİNDƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ ÇIXIŞ

*9 noyabr 2002-ci il*

Axşamınız xeyir olsun.

Bu gün səhərdən mən sizin rayondayam, şəhərdəyəm, sizinlə bir yerdəyik. Biz birlikdə Olimpiya idman kompleksini açdıq. Bu həm Şəki rayonu, həm də, ümumiyyətlə, respublikamız üçün böyük hadisədir. Azərbaycanın Milli Olimpiya Komitəsinin, onun prezidenti İlham Əliyevin təşəbbüsü ilə son iki ildə respublikamızda belə olimpiya idman kompleksləri yaranmışdır. Bunlar artıq öz müsbət nəticələrini göstərirlər. Biri də qısa müddətdə, cəmi on ay ərzində burada – Şəkidə inşa edilibdir. Özü də gözəl inşa ediblər, yeri də çox gözəl seçiblər. Ətrafdakı ərazini də yaxşı abadlaşdırıblar. Ən əsası odur ki, Şəki rayonu böyük bir hədiyyə alıbdır. Özü heç bir əziyyət çəkmədən, dövlət tərəfindən vəsait ayrılmadan, yaxud da başqa tədbirlər görmədən belə bir gözəl idman sarayı, kompleksi alıbdır. Bunun böyük əhəmiyyəti olduğuna görə, mən kompleksin açılışı münasibətilə sizin rayona gəldim. Onsuz da mən Şəkiyə gəlməyi çoxdan planlaşdırırdım. Çox çalışırdım ki, gəlim, ancaq hər dəfə bəzi işlər mane olurdu. Kompleks hazır olandan sonra başqa işlərin hamısını kənara qoydum, gəldim və bu gün sizinlə onu açdıq. Bu münasibətlə mən sizi, şəkililəri bir daha təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu böyük idman kompleksindən səmərəli istifadə edəcəksiniz. Bu da Şəkidə idmanın, bədən tərbiyəsinin inkişafına böyük müsbət təsirini göstərəcəkdir. Gənclərin idmanla, bədən tərbiyəsi ilə məşğul olmasına imkan yaradacaq, onları özünə cəlb edəcəkdir. Bunların hamısı Şəki rayonunun həyatını daha da gözəlləşdirəcəkdir. Mən sizi təbrik edirəm.

Olimpiya idman kompleksini açarkən, o mitinqə on minlərlə adam toplaşmışdı. Şəki əhalisinin, demək olar, bütün təbəqələri orada idi. Uşaqlardan tutmuş qocalaradək, qadınlar, kişilər, qızlar, oğlanlar mitinqdə idilər. Bu mitinq, açılış mərasimi çox yaxşı təəssürat yaratdı. Sonra mən sizin mərkəzi küçə ilə ipək kombinatına gedərkən – bayaq həmin küçə ilə buraya gəlirdim – hər iki tərəf insanlarla dolu idi, Sabit Rəhman adına Dram Teatrının qarşısındakı meydanda da xeyli adam vardı. Mən on minlərlə insan gördüm. Evlərindən, qapılarından boylanan, yaxud eyvanlarından müşahidə edən insanları gördüm. Məni sevindirən o oldu ki, bu gün səhərdən axşamadək Şəkidə gördüyüm insanların hamısında çox xoş əhval-ruhiyyə var. Hiss etdim ki, onların hamısı belə əhval-ruhiyyədə olmasaydı, bu insanlar orada olmazdılar. Mən insanların üzünə, gözünə diqqətlə baxırdım. Mitinqdə, yaxud da küçədə onların hansı hisslər keçirdiklərini görürdüm. Şəki əhalisinin, demək olar, əksəriyyəti küçələrdə idi.

Onların hamısı Azərbaycanın dövlətçiliyinə, müstəqil Azərbaycana, bizim gördüyümüz işlərə məhəbbət, hörmət və ehtiram hissləri ilə toplaşmışdılar. Bunların hamısı Şəkidə əhalinin, yenə də deyirəm, çox yaxşı əhval-ruhiyyədə olduğunu göstərir.

Təbiidir, Şəkidə yaxşı işlər də çoxdur, ancaq nöqsanlar da, qüsurlar da var. İnsanların hər biri üçün, bəlkə də, çatışmayan şeylər də var. Yenə də deyirəm, Şəkidə işsizlik də var. Bu, ən böyük problemlərdən biridir. Yəni insanların hamısı bizim istədiyimiz kimi, rifah halına nail ola bilməyiblər. Ancaq buna baxmayaraq, onlarda mənəvi hisslər çox üstündür. Ona görə də onlar bu gün Azərbaycan prezidentinin Şəkidə olmasını bu cür böyük hörmət və ehtiramla, bizim dövlətçiliyimizə sədaqət hissi ilə qarşılayırdılar.

Şəki özü – mən bu barədə demişəm – gözəl şəhərdir, tarixi şəhərdir, mədəniyyət abidələri şəhəridir, muzeydir. Bəli, bunların hamısı var. Amma bunları əsrlər boyu yaradanlar insanlardır. Bu gün də bütün bu əhval-ruhiyyəni, bütün bu sağlam mühitin yaradıcısı insanların özləridir, onların daxili mədəniyyətidir. Mən bunu belə hiss etdim və belə qiymətləndirirəm. Bu da sizin nailiyyətinizdir. Bu nailiyyətinizə görə də mən sizin işinizi bəyənirəm və təbrik edirəm.

İndi isə mən, əvvəldən planlaşdırdığım kimi – bildiyimə görə buraya Şəki rayonunun vəzifəli şəxsləri, ictimaiyyətin nümayəndələri toplaşıblar – bu gün Şəkidəki sosial-iqtisadi vəziyyət, Şəkinin həyatında olan nöqsanlar, çatışmazlıqlar və onların aradan qaldırılması üçün, Şəki sakinlərinin rifah halının yaxşılaşdırılması üçün tədbirlər haqqında bir az söhbət aparmaq istəyirəm. Hesab edirəm ki, icra hakimiyyətinin başçısı bu barədə qısaca məlumat verər, ondan sonra biz Azərbaycanın Iqtisadi Inkişaf nazirini dinləyərik. Bilirəm ki, elektrik enerjisi ilə təc-hizat hələlik bir problem olaraq qalır. Ona görə mən «Azərenerji» Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirver-diyevi çağırmışam, onu dinləyərik. Qaz təminatı ilə əlaqədar «Azəriqaz» Səhmdar Cəmiyyətinin sədrini dinləyərik. Sonra iştirakçılardan kimsə söz demək istəsə, mən dinləməyə hazıram. Bununla da bugünkü görüşümüzü keçirərik.

Sözü Şəki şəhəri İcra Hakimiyyətinin başçısına verirəm.

## Şəki şəhəri İcra Hakimiyyətinin başçısı Əşrəf Məmmədovun çıxışı

Möhtərəm cənab Prezidentim!

Dövlət işləri ilə həddindən artıq məşğul olduğunuz bir vaxtda imkan tapıb Şəkiyə gəldiyinizə görə, camaatımız adından Sizə bir daha təşəkkürümü bildirirəm.

Cənab Prezident, Sizin rəhbərliyiniz altında respublikamızda bütün sahələrdə ardıcıl surətdə aparılan islahatlar Şəkiyə də öz güclü təsirini göstərməkdədir. Şəkinin ictimai-siyasi, sosial-iqtisadi və mədəni-psixoloji həyatında son illər əldə olunmuş uğurlu nəticələr və görüləcək işlər barədə danışmazdan öncə, icazənizlə, yaxın keçmişdə şəhərimizdə görülmüş işlər haqqında Sizə məlumat vermək istərdim.

1970–1982-ci illər Sizin rəhbərliyiniz altında respublikanın bütün rayonlarında olduğu kimi, Şəki üçün də həyatın inkişaf dinamikası baxımından xüsusi mərhələ kimi fərqlənir. Həmin dövrdə Şəkidə məhsul istehsalının həcmi 5 dəfə çoxalmışdı. 1982-ci ildə istifadə edilmiş kapital qoyuluşunun həcmi 1969-cu ilə nisbətən 5,4 dəfə artaraq, 3,2 milyon manat olmuşdu. Bu illərdə Şəki rayonunda bir sıra mühüm sənaye obyektləri – üzüm emalı zavodları, 6 sovxoz, yeyinti məhsulları kombinatı, tütün fermentləmə zavodu, çörək zavodu, pendir və konserv zavodları, xalça fabriki istifadəyə verilmişdi. Əvvəllər fəaliyyət göstərən sənaye müəssisələri modernləşdirilmiş və genişləndirilmişdi. 1970–1982-ci illərdə ümumi sahəsi 283 min kvadratmetr olan yaşayış evləri, 5520 şagird yeri olan ümumtəhsil məktəbləri, 740 yerlik məktəbəqədər uşaq müəssisələri istifadəyə verilmişdi. 8,6 min hektar torpaq sahəsini suvarmalı olan Əyriçay su anbarı kompleksi tikilmişdi. Şəki İpək kombinatında 750 dəzgahlıq toxucu sexi və boyaq-bəzək fabriki tikilərək istifadəyə verilmiş, orada yeni xarici avadanlıq quraşdırılmışdı. Bu məqsədlə 23 milyon ABŞ dolları məbləğində vəsait xərclənmişdi. O illərdə müəssisədə 7200 nəfər işləyirdi.

Bu illərdə Şəkidə 70 kilometr asfalt örtüklü avtomobil yolu çəkilmiş, 29 yeni körpü tikilmiş, çox mühüm strateji, iqtisadi və siyasi əhəmiyyətə malik Yevlax–Balakən dəmir yolu xətti inşa olunmuşdu. Bununla da regionun, o cümlədən Şəkinin iqtisadiyyatının inkişafı üçün çox böyük zəmin yaranmışdır.

1970–1982-ci illərdə Şəki şəhəri və onun əksər kəndləri qazlaşdırılmış, qaz kəmərlərinin ümumi uzunluğu 628 kilometrə çatmışdı.

Mingəçevirdən Şəkiyə 33,8 kilometr uzunluğunda 110 kilovoltluq, 54 kilometr uzunluğunda 35 kilovoltluq, rayon daxilində 361 kilometr uzunluğunda 6–10 kilovoltluq elektrik xətləri çəkilmişdir.

Sizin o zaman respublikamızda həyata keçirdiyiniz uğurlu və cəsarətli işlər bugünkü müstəqilliyimizin, sözün əsl mənasında, əsaslarını yaratmışdır.

Cənab Prezident, təəssüflər olsun ki, Şəkidə də yaradılmış bu əsaslar 1986-cı ildən get-gedə dağıdılmağa başlamışdır. Lakin yenə Sizin sayənizdə Şəkidə həyat əvvəlki məcrasına qayıtmış və inkişaf mərhələsi başlanmışdır.

Məhz Sizin hazırlayıb cəmiyyətə təqdim etdiyiniz aqrar islahatlar proqramı əsasında Şəkidə 96 min nəfərə torpaq verilmişdir. O cümlədən müstəsna hal olaraq, respublikanın heç bir yerində görünməyən hal kimi, Sizin tapşırığınızla, Nazirlər Kabinetinin razılığı ilə Şəki şəhərində yaşayan insanlara torpaq payı verilmişdir ki, bu da 8500 nəfərin güzəranının yaxşılaşması deməkdir.

Şəkidə 2002-ci ilədək 397 kiçik müəssisə və obyekt özəlləşdirilmiş, 27 səhmdar cəmiyyət yaradılmışdır. Həmin müəssisələrdə indi xeyli adam çalışır.

Sənaye məhsulu istehsalı 1997-ci ildə 4 milyard 19 milyon manat olduğu halda, keçən il 11 milyard 862 milyon manata çatmışdır.

Bu il həmin rəqəmin 14 milyard manat həcmində olacağını gözləyirik. Bu, «Şəki–İpək» Səhmdar Cəmiyyətinin, yeyinti kombinatının və digər dayanmış müəssisələrin istehsalı qismən bərpa etməsi ilə bağlıdır. Eyni zamanda, mən xüsusi vurğulamaq istəyirəm ki, «Şəki–İpək» Səhmdar Cəmiyyətində istehsalın bərpası üçün məhz Sizin tapşırığınız əsasında 1,5 milyard manat əvəzsiz kredit, sonra isə 500 milyon manat maliyyə yardımı ayrılmışdır. Bu, insanlarımızda, həqiqətən ruh yüksəkliyi yaratmışdır.

İlk dəfə biz 120 ton barama istehsal etmişik.

Cənab Prezident, vaxtilə Siz respublikaya rəhbərlik edərkən 5 min tondan çox barama istehsal olunurdu. O cümlədən Şəkidə 350 ton barama istehsal edilirdi. Təəssüflər olsun ki, sonralar bu iş başlı-başına buraxılmışdır.

**H e y d ə r Ə l i y e v:** Mən bir məsələni aydınlaşdırmaq istəyirəm. Sən dedin ki, 350 ton barama istehsal olunurdu. Doğru dedin ki, o illərdə, mən işlədiyim illərdə Azərbaycanda ildə 5 min ton barama istehsal edilirdi.

O illərdə barama istehsalı sürətlə artmışdı. Əvvəllər istehsal ildə cəmisi 2 min ton idi. Barama çox işlənildiyinə görə, onun istehsalı artırılmış, 5 min tona çatmışdı. Barama elədir ki, onu istehsal etmək üçün çox şey lazım deyil. Yəni bunun üçün traktor, kotan lazım deyil. Baramanı hər bir kəndli öz həyətində, evində istehsal edir. Belədir, yoxsa yox? Özü də başqa işlə də məşğul olur. Elədirmi?

**Ə ş r ə f M ə m m ə d o v:** Bu proses 40 gün ərzində başa çatır.

**H e y d ə r  Ə l i y e v:** Amma kəndli təkcə barama istehsalı ilə məşğul olmur. Başqa işlər də görür. Evində, yaşadığı yerdə bir-iki kümxanası olur, bunun texnologiyasını mən də bilirəm. Tut yarpağını gətirir, baramaqurdunu bəsləyir. Özü, ailəsi üçün bu, ikinci iş yeridir. Baramaqurdunu bəsləyir, sonra məhsulunu gətirib təhvil verir və yüksək qiymətlə onun pulunu alır.

Məsələn, mənim xatirimdədir, o vaxt pambıqçılıq rayonlarında, xüsusən Bərdədə – Bərdə böyük pambıqçılıq rayonu idi – təxminən 400 ton barama da istehsal olunurdu. Onlar həyətlərdəki tut ağaclarının yarpağından istifadə edirdilər. Amma sonralar pambıq tarlalarındakı su arxlarının kənarında tut ağacları əkməyə başladılar. Bu, tarlalarda həm kölgəlik yaradırdı – mən yay vaxtlarında tarlaları gəzərkən, həmin ağacların altında çox oturmuşam – həm də onun yarpaqlarını yığıb baramaqurdu üçün yem kimi istifadə edirdilər. Ailənin dörd-beş nəfər üzvü tarlada işləyir, pambıq becərirdi, amma eyni zamanda, evində də baramaqurdu bəsləyir, baramanı dövlətə satıb çoxlu pul alırdı.

Burada üzümçülük də vardı. Yenidənqurma vaxtı bunu dağıtdılar. Azərbaycan üzümündən şərab istehsal olunurdu. Ölkəmizdə bu qədər şərab içilmirdi. Ümumiyyətlə, bizim xalqımız şərab içən xalq deyildir. Amma Rusiyanın buna tələbatı çox idi. Biz nə üçün o illər üzüm istehsalını sürətlə artırırdıq? Hətta iş o yerə çatmışdı ki, bir-iki il Azərbaycanda 2 milyon ton üzüm istehsal edildi. Ona görə ki, Sovet İttifaqının rəhbərliyi bunda maraqlı idi. Rusiya əhalisini şərabla təmin etmək üçün Azərbaycanın üzümçülüyü inkişaf edirdi, şərab istehsal olunur, Rusiyanın müxtəlif regionlarına göndərilirdi. Orada şüşələrə doldurub satırdılar, camaat da alırdı.

Sovet İttifaqı şərabı qızıl pula, yəni dollara xaricdən alıb gətirmirdi. Ölkənin də çox yerində imkan yox idi ki, üzüm bağları yaradıb, şərab istehsal etsinlər. Buna görə də biz üzümçülüyü inkişaf etdirdik. Şəkidə də, çox yox, amma inkişaf etdirdik. O vaxt, yenidənqurma vaxtı bunu dağıtdılar. Azərbaycanı o vaxt, təxminən 1987-ci ildən sonra dağıtmaq istəyirdilər. Sonra da Sovet İttifaqı dağıldı, biz müstəqil olduq. Çox yaxşı ki, Sovet İttifaqı dağıldı, dağılmasaydı, biz müstəqillik əldə edə bilməzdik.

Demək, indi Rusiya bizdən bu məhsulu daha tələb etmir. Ona görə bunun istehsalına həvəs yoxdur. Üzüm bağları sıradan çıxdı, indi onların yerində başqa bitkilər əkilir. Bu, təbii haldır.

Amma baramanın yeri olmayıbdır. Baramanın yeri hər bir kəndlinin özünün şəxsi təsərrüfatıdır. Barama orada istehsal olunubdur. Baramaya da həmişə ehtiyac var. Məsələn, Şəkidə, kəndlərdə 300 ton barama istehsal ediblər. Niyə indi istehsal etmirlər? Mən bu sualı sənə verirəm, çünki respublika üzrə də bu sual məni maraqlandırır. Mən təkcə səndən Şəkini öyrənmək istəmirəm. Respublikada vaxtilə 5 min ton barama istehsal edilirdi, indi yoxdur. İndi nə qədər olduğunu da bilmirəm. Bəlkə Hümbətov bilir... Deyəsən, o da bilmir.

**Y u s i f  H ü m b ə t o v** (*Prezidentin İcra Aparatının şöbə müdiri*): Möhtərəm Prezident, indi yalnız Şəkidə barama istehsal edirlər. Başqa rayonlara toxum təzə paylanıbdır, gələn ildən oralarda da barama istehsal olunacaqdır.

**H e y d ə r  Ə l i y e v:** Bəs niyə bu ildən? Nə üçün baramaçılıq dağıldı? Bunu mənə deyə bilərsənmi?

**Ə ş r ə f  M ə m m ə d o v:** Cənab Prezident, birinci növbədə ona görə ki, əvvəllər ipək kombinatı işləyirdi, baramaya tələbat vardı. Baramanın pulunu verib alırdı. Sonralar tələbat olmadığından, barama camaatın evində qaldı. Baramanı ucuz almaq istədilər. 1 kiloqramı 2-3 min manata almaq istədilər, aldılar da. Ona görə də baramaçılığa maraq azaldı.

Baramanı istehsal edən adamlar onun 1 kiloqramını 10 min manata, ən azı 8 min manata sata bilsələr – mən damazlıq baramanı çıxıram, bunun 1 kiloqramının qiyməti 12–15 min manat arasındadır – bu sahə inkişaf edər. Baramaçılığın məhv olması ipək kombinatı ilə bağlıdır. Bu kombinat təkcə Şəki rayonunda, şəhərdə 7500 nəfəri işlə təmin edirdi.

**H e y d ə r  Ə l i y e v:** Azərbaycanda tədarük olunan barama buraya gətirilirdi.

**Ə ş r ə f  M ə m m ə d o v:** Bəli, hələ əlavə də gəlirdi.

**H e y d ə r  Ə l i y e v:** Onda belə idi, barama istehsalı və emalı ilə məşğul olan üç yer vardı. Əsas bura idi, ikincisi Dağlıq Qarabağda Xankəndi idi, bir də Ordubad.

**Ə ş r ə f  M ə m m ə d o v:** Onlar da buraya göndərirdilər. Baramaçılığın tənəzzül etməsinin əsas səbəblərindən biri baramanın çox ucuz qiymətə alınması oldu.

İkincisi, o vaxt mərkəzləşdirilmiş planlaşdırma vardı. SSRİ-nin 169 regionu ilə əlaqə vardı. Barama emal edən müəssisələr üçün 70 regiondan təkcə ehtiyat hissələri alınırdı.

Üçüncü bir cəhət də ondan ibarət oldu ki, imkan tapıb vəziyyətdən çıxmaq əvəzinə, hamı gözləyirdi ki, bazar iqtisadiyyatı tətbiq ediləcək, nə isə bir şey olacaq. İnsanlarımız o biri sistemə öyrənmişdilər. O vaxt sahəyə lazımi səviyyədə rəhbərlik olmadı.

Mən burada icra hakimiyyətinin məktublarını qaldırmışam. Onlarda deyilir ki, ipək kombinatı elektrik enerjisinin pulunu ödəmədiyinə görə, ona verilən enerji kəsilsin. Bunu etmək olmazdı. Elektrik enerjisi kəsiləndə iş dayandırılırdı.

Cənab Prezident, Sizin köməkliyinizlə indi müəssisə fəaliyyətini bərpa edir. Amma bu əsas vermir deyək ki, məsələni həll edəcəyik. Buraya yeni, müasir texnologiya gəlməlidir. Belə olsa, orada 7 min nəfərin işləməsinə ehtiyac da olmayacaqdır. Biz hesablamışıq, təxminən 1500–2000 işçi olsa, tam kifayət edər. İndi deyirlər ki,

Şəkidə işsizlik var. Biz tam araşdırmışıq, bu qədər adam kifayət edər. Qalan bütün insanlar yerləşiblər, işləyirlər.

Cənab Prezident, ehtiyat üçün biz min hektardan çox torpaq saxlamışıq. Onu uzunmüddətli istifadə üçün şəhər camaatına vermişik. Olimpiya idman kompleksi tikildi. Torpağın 10 hektarını ona ayırdıq. Yenə başqa nə isə tikiləcəksə, torpaq ayıracağıq.

Yəni Sizin sərəncaminizla ayrılan 3 min hektardan savayı, min hektar da əhaliyə əlavə verildi. Biz şəhərlə bağlı bu istiqamətdə də tədbirlər görürük.

Möhtərəm Prezident, bu illər ərzində taxıl istehsalında böyük nailiyyət əldə etmişik. 1998-ci ildə cəmi 28 min ton taxıl istehsal olunmuşdu. Bu da tələbatımızdan iki dəfə azdır. Bu il 120 min tondan çox taxıl istehsal edilmişdir. Amma Şəkinin potensialı bununla bitmir. Şəkidə heç bir əlavə tədbir görmədən ildə 150 min ton taxıl istehsal etmək olar. Amma bizim imkanımız var ki, 300 min ton taxıl istehsal edək. Harada? Birincisi, Sizin yaratdığınız Əyriçay su anbarının köməyi ilə 8 min hektardan çox sahə suvarılmalıdır. Amma təəssüflər olsun ki, kifayət qədər nasoslar yoxdur. Siz Moskvaya getdiniz, nasosların bir hissəsi quraşdırıldı, digər hissəsi yox. Üzüm bağları da həmin səbəbdən batdı. Ancaq Siz o qədər düşünülmüş, planlı iş görmüşdünüz ki, su dağın ətəyi ilə gəlməli, öz axını ilə paylanmalı idi. Sizin dövrünüzdə orada konserv zavodu da tikilmişdi. Oranın elə bir qazanxanası var ki, bu gün onu Şəkidə yox, Azərbaycanda da tikmək mümkün olmaz. Amma təəssüflənirik ki, biz ondan da səmərəli istifadə edə bilmirik. İndi mən Sizdən xahiş edəcəyəm ki, ona da həyat verək.

Cənab Prezident, rayonda heyvandarlıq sürətlə inkişaf edir. Son dörd ildə davarın sayı 51 min baş artıb, təxminən 200 min başa çatmışdır. Sizin rəhbərlik etdiyiniz əvvəlki dövrdə mən Şəki rayonunun kənd təsərrüfatına başçılıq etmişəm. Rayonda 130 min başdan yuxarı davar olmayıbdır. Mən payız mövsümünü deyirəm. Yazda azalırdı, 70–80 faizə düşürdü. Bu gün 196 min baş qoyun-quzu, 61 min baş qaramal var. Bunun yeganə bir səbəbi aqrar islahatlarıdır.

Rayonumuzun kəndlərində 100 min əhali yaşayır. Bir məsələni həll etsək, onların problemi aradan qalxar. Cənab Prezident, bu problem tütünçülüklə bağlıdır. Tütünçülük Şəkidə 44 min insanın mənafeyini əhatə edir. Onun istehsalı vaxtilə, Sizin dövrünüzdə 17 min 500 tona çatmışdı. 1998-ci ildə 2,2 min ton tütün istehsal olunmuşdu. Biz tütünçülüyün inkişafına vüsət verdik. Tütünçülüyü inkişaf etdirmək üçün əlavə böyük tədbirlərə ehtiyac yoxdur. Biz şitilxanaları genişləndirdik, 12 min ton tütün istehsal etdik. Amma onu emal etmək üçün imkanlarımız zəifdir. Sizdən xahişimiz budur ki, Bakıdakı tütün kombinatı yerlərdə özünün kiçik filiallarını açsın.

**H e y d ə r  Ə l i y e v:** Sizin tütün kombinatı ilə əlaqəniz var, yoxsa yox?

**Ə ş r ə f  M ə m m ə d o v:** Cənab Prezident, əlaqəmiz yoxdur. Mən bir dəfə oraya getdim, müəssisənin direktoru ilə görüşdüm. Onlar Şəkiyə gəldilər, baxdılar, sonra dedilər ki, sort məsələsində problem var. Amma biz bunu həll etməyə hazırıq. Bizə sortları desinlər, onları əkdirək.

Cənab Prezident, mən Sizi inandırıram ki, bununla kəndin bir problemini də həll edərik. Yəni orada problemlər qalmayıbdır. Kənd camaatı artıq, necə deyərlər, həyatını firavan qurubdur. Kəndlərimizdə 100 min nəfər əhali yaşayır. Əgər tütünçülüyə imkan olmasa, biz götür-qoy etmişik, Şəkidə şəkər çuğunduru istehsalını genişləndirməliyik, bu sahəni yaratmalıyıq. Bunun üçün bizə böyük vəsait lazım deyildir. Bayaq mən dedim, Sizin dövrünüzdə konserv zavodu tikilibdir.

Çox təəssüflər olsun ki, ondan biz istifadə edə bilmədik. Onun bazasında biz...

**H e y d ə r  Ə l i y e v:** Siz şəkər cuğunduru əkirsinizmi?

**Ə ş r ə f  M ə m m ə d o v:** Vaxtilə əkiblər.

**H e y d ə r  Ə l i y e v:** Nə qədər?

**Ə ş r ə f  M ə m m ə d o v:** 400–500 hektar əkiblər. Amma bizim 3 min hektarda şəkər cuğunduru əkməyə imkanımız var. Bu regionda isə 7 min hektar əkmək mümkündür.

**H e y d ə r  Ə l i y e v:** Sən şəkər cuğundurunun şəkərliliyinin nə qədər olduğunu öyrənmisənmi, yoxsa bunu bilmirsən?

**Ə ş r ə f  M ə m m ə d o v:** Deyirlər ki, Ukraynadakından yüksəkdir.

**H e y d ə r  Ə l i y e v:** Əlbəttə, yüksək olmalıdır. Orada kimsə nə isə demək istəyir. O nə deyir?

**Y e r d ə n  s ə s:** Burada cuğundurun şəkərliliyi 17–25 faizdir.

**H e y d ə r  Ə l i y e v:** 17–25 faiz... Yaxşı faizdir. Təxminən aprel ayında onu çıxarırlar. Bilirsən, məsələni sən düzgün qoyursan. Amma şəkər cuğunduru əkmək üçün gərək şəkər zavodun olsun.

**Ə ş r ə f  M ə m m ə d o v:** Cənab Prezident, bizim konserv zavodumuza qazanxana tikməyəcəyik?

**H e y d ə r  Ə l i y e v:** Konserv zavodundu şəkər istehsal etmək olmaz, bunu sən bilirsən. Biz neçə ildir istəyirik ki, respublikamıza şəkər zavodu gətirək. Biz deyəndə, daha indi hökumət heç nə ala bilmir, başa düşürsünüzmü? Bunu xarici sərmayəçi etməlidir. Bizim Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi bununla məşğul olur. Yəqin İqtisadi İnkişaf naziri öz çıxışında bu barədə deyəcəkdir. Mən indi vaxt almaq istəmirəm. Sən sonra cavab verərsən. Bir şəkər zavodunun qiyməti 50 milyon dollardır. Ancaq əgər sərmayəçi olsa, 50

milyon dolları gətirib o zavodu tiksə, tezliklə xərcini çıxardacaq və sonra qazanacaqdır. Amma belə sərmayəçi tapa bilmirik.

Məsələn, Naxçıvanda əvvəllər şəkər çuğunduru əkilməzdi. Amma son illər, hələ 1992-ci ildə mən orada işləyərkən əkilməyə başlandı. İranla, Türkiyə ilə sərhədlər açılandan sonra get-gəl başlandı. Türkiyədə Ərzurumda, Bursada şəkər zavodları var. Naxçıvanda bu il 50 min, yaxud 60 min ton şəkər çuğunduru toplayacaqlar.

Təsəvvür edin, keçən il 45 min ton şəkər cuğunduru toplamışdılar, amma o cuğunduru Türkiyəyə aparırlar, zavoda verirlər, zavod onu emal edir, şəkərini naxçıvanlılara qaytarır. Qalan şey orada saxlanılır. Onlar da, Naxçıvanda şəkər cuğunduru əkənlər də çox məşğul olmalıdırlar. İndi Naxçıvan özünü şəkərlə məhz bu yolla təmin edir. Amma əgər şəkər zavodu, bütün kompleks olsa daha yaxşıdır. Çünki şəkər cuğundurunun emalından çoxlu məhsullar alınır. Şəkər alınandan sonra çuğundurun cecəsindən, bir tərəfdən, spirt alınır, digər tərəfdən də həmin cecə çox qüvvəli yemdir.

Türkiyədəki zavodlar da şəkər çuğundurunu ona görə götürürlər ki, şəkər alınandan sonra qalan hissə onlar üçün faydalıdır. Şəkəri isə Naxçıvana verirlər.

Mənə dedilər ki, bu il onlarda yenə də çoxlu məhsul var. Orada iqlim çox yaxşı olduğuna görə, cuğundurun şəkərliliyi təxminən 22-23 faizə çatır. Bax, məsələ belədir. Ancaq konserv zavodunda şəkər istehsal etmək olmaz. Sən orada başqa məhsul istehsal etmək istəyirsənsə, bu, ayrı məsələdir.

**Ə ş r ə f M ə m m ə d o v:** Cənab Prezident, əgər bu olmasa, biz konserv zavodundan başqa məqsədlər üçün istifadə edərik. Şəkidə 44 min hektar meşə var. Bu meşələr yabanı meyvələrlə zəngindir.

**H e y d ə r Ə l i y e v:** Doğrudur.

**Ə ş r ə f M ə m m ə d o v:** Bizim imkanımız var ki, o meyvələri emal edək, əhalimizin xeyli hissəsinin məşğulluğuna şərait yaradaq.

**H e y d ə r Ə l i y e v:** Bu yaxşıdır. İndi sənin fikrin nədir, o konserv zavodunu biz işə salaq?

**Ə ş r ə f M ə m m ə d o v:** Bəli.

**H e y d ə r Ə l i y e v:** Axı sənin özün dedin ki, indi bazar iqtisadiyyatıdır, elədirmi? İndi hökumət belə şeylərlə məşğul olmur. Amma Şəkidə bir nəfər tapılmadı ki, gedib o konserv zavodunu alsın. Alan olsa, həmin zavodu ona münasib qiymətə satmaq olar. Zavodu dövlətdən alsın, oranı bərpa etsin, nə istəyir istehsal etsin. O cümlədən meşədən meyvələri yığsın, emal etsin. Həm insanlar işləsin, həm özü oradan qazanc götürsün, həm də Şəkinin iqtisadiyyatını inkişaf etdirsin. Şəkidə belə adamlar yoxdurmu? Şəkililər nə günə qalıblar ki, bir konserv zavodunu ala bilmirlər? Yaxşı, biri ala bilmirsə, ikisi, üçü bir yerə yığışıb alsınlar. Bu da ola bilər. Şəkidə belələri var. Birincisi, pulu olan hələ gizlədir, necə deyərlər, ya döşəyin içinə yığır, ya da başqa yerə. İkincisi də, görünür ki, biz adamlarda bu sahibkarlıq keyfiyyətini təkcə Şəkidə deyil, çox yerdə hələ yarada bilməmişik.

Mən İqtisadi İnkişaf nazirinə tapşırmışam, sahibkarlığın inkişafı üçün biz nə kimi tədbirlər görmüşük, bunu bilirsiniz. Mənim fərmanlarımın hamısını yəqin oxumusunuz, sahibkarlarla keçirdiyim görüşlərdən də xəbəriniz var. Biz sahibkarlığı canlandırmaq, onlara kömək etmək istəyirik. Hətta onlara kredit vermək də qərara alınıb və vəsait də ayrılıbdır. Amma onlar işləsinlər, sahibkar olsunlar, mülkiyyət sahibi olsunlar, pul qazansınlar, zəngin adam olsunlar. Eyni zamanda insanlara iş versinlər və hərə öz bölgəsinin, ümumən respublikasının iqtisadiyyatını inkişaf etdirsin. Ona görə sən əgər yenə də sadalayacaqsansa ki, hansı müəssisəni biz yenidən tikək, bərpa edək – bunlar mümkün deyildir. Bunu nəzərə al.

İndi sən sadaladın ki, o illər nələr olubdur. O illərdə Azərbaycana rəhbərlik edən kim idi?

**Ə ş r ə f M ə m m ə d o v:** Cənab Heydər Əliyev idi.

**H e y d ə r Ə l i y e v:** Elədirmi? Demək, həmin Heydər Əliyev bu gün də buradadır. O vaxtdan 15–20 il keçib və Heydər Əliyev ondan da çox təcrübə toplayıbdır. O vaxt edirdik, bəs indi niyə edə bilmirik? Çünki o vaxt sosialist sisteminin bütün imkanlarından, lap belə sıxırdıq, istifadə edirdik. Amma indi o sistem yoxdur. İndi bazar iqtisadiyyatıdır. Bazar iqtisadiyyatı şəraitində mən heç bir sahibkarı nə sıxa bilərəm, nə məcbur edə bilərəm, nə də bir şey edə bilərəm. O, müstəqil adamdır.

Bazar iqtisadiyyatı tam iqtisadi müstəqillik əsasında qurulur. Ona görə də mövzunu dəyişirəm, xahiş edirəm bu yolla get, vaxtımız çox getməsin.

**Ə ş r ə f M ə m m ə d o v:** Cənab Prezident, Şəkidə tikinti böyük vüsət almışdır. Dörd il bundan qabaq Şəkidə cəmi 780 milyon manatlıq tikinti işləri görülmüşdür. Bu il isə həmin göstərici 21 milyard manatdır.

**H e y d ə r Ə l i y e v:** Şəxsi tikinti?

**Ə ş r ə f M ə m m ə d o v:** Bütün bölmələrdən olan tikinti işlərinin həcmi 21 milyard manat təşkil etmişdir. Bu, yaxın gələcəkdə hər il daha da artacaqdır. Son dörd ildə Şəkidə hər il bir məktəb tikilibdir. Özü də daxili imkanlar hesabına tikilibdir. Bələdiyyələrin 10–15-nin imkanlarını birləşdirmişik, vəsait toplamışıq və bunu etmişik.

**H e y d ə r Ə l i y e v:** Çox yaxşı.

**Ə ş r ə f M ə m m ə d o v:** Bu yaxınlarda Sarıca kəndində məktəb istifadəyə verəcəyik.

Cənab Prezident, ən başlıca problemlərdən biri su problemidir. Mən bütün camaatımız adından Sizə minnətdarlığımızı bildirirəm. Almaniya Federativ Respublikası ilə Sizin apardığınız danışıqlar nəticəsində, nəhayət ki, Şəkidə bu problemin həllinə təkan verilibdir. Bu işə 10 milyon alman markası ayrılması nəzərdə tutulubdur. Bütün ilkin işlər görülübdür. Gələn ilin əvvəllərində tikinti işlərinə başlanacaqdır ki, bu da Şəkinin camaatını 50 ildir narahat edən bir problemdən xilas edəcəkdir.

**Heydər Əliyev:** Bax, bu bizim işimizdir. Su çəkmək gələcəkdə bəlkə də sahibkarlara nəsib olacaqdır. Amma hələ ki, mümkün deyildir. Bu bizim işimizdir. Kömək edirik, kredit almısınız, elədirmi?

**Abid Şərifov:** Bəli, elədir.

**Heydər Əliyev:** Şəki iki il ərzində su ilə tamamilə təmin olunacaqdır.

**Abid Şərifov:** Cənab Prezident, bunun nəticəsində Şəki indikindən iki dəfə çox su alacaq, suyun tərkibi beynəlxalq standartlara uyğun olacaqdır.

**Heydər Əliyev:** Demək, əhali iki dəfədən artıq su alacaqdır. Şəki su ilə təmin olunacaqdır.

**Abid Şərifov:** Bəli.

**Əşrəf Məmmədov:** Özü də təmiz su ilə.

**Heydər Əliyev:** Beynəlxalq standartlara uyğun su, elə təmiz su deməkdir. Bu bizim işimizdir, bunu da edirik. Amma konserv zavodu bizim işimiz deyil.

**Əşrəf Məmmədov:** Cənab Prezident, orada bir məsələ var, onu həll etsək, burada sahibkar tapılar.

**Heydər Əliyev:** Yaxşı, sahibkar tap. İqtisadi İnkişaf naziri ilə danış, məsələni həll etsin, burada problem yoxdur.

**Əşrəf Məmmədov:** Baş üstə. Möhtərəm Prezident, Şəkidə bu yaxınlarda ümumdünya...

**Heydər Əliyev:** Sən tikintidən danışdın, Şəkidə şəxsi evlər tikilirmi?

**Əşrəf Məmmədov:** Keçən il 260 şəxsi ev tikilibdir.

**Heydər Əliyev:** Bütün rayonda?

**Əşrəf Məmmədov:** Bəli.

**Heydər Əliyev:** Bu azdır. Elə yerlər var ki, nə qədər evlər tikilir.

**Fərhad Əliyev:** Cənab Prezident, çox tikilir. Bu ili götürsək, Azərbaycan üzrə inşaat sektorunda işin həcmi 2,5 dəfə artıbdır.

**Heydər Əliyev:** Bizim rayonlarda, kənd yerlərində çoxlu evlər tikilir. Azərbaycanın kənd yerlərində tikinti işləri 1970-ci illərdə başladı. Biz kənd təsərrüfatını, onun iqtisadiyyatını inkişaf etdirdik. Bunun nəticəsi nə oldu? İnsanların yaşayışı yaxşılaşdı. Kəndlərdə yeni evlər tikildi və insanlar avtomobillər aldılar. Bu iki şey gözə çox çarpır. İndi isə torpağı ki, paylamışıq, insanlar torpaqdan çox böyük gəlir götürürlər. Sən deyirsən ki, davarın sayı 200 min başa çatıbdır. Əvvəllər heç 100 min baş da olmayıbdır. Yaxud da ki, sizdə 70 min başa yaxın qaramal var. Kənd yerində 70 min əhali yaşayır, yoxsa nə qədər?

**Əşrəf Məmmədov:** 100 min əhali yaşayır.

**Heydər Əliyev:** 100 min nəfər yaşayırsa, onda 70 min baş qaramal yetərlidir. Amma bundan da çox ola bilər. Çünki yadımdadır, vaxtilə burada heyvandarlıq kompleksləri yaratmışdıq, sən gəlmişdin, burada seminar keçirirdik, orada heyvandarlıqdan söhbət gedirdi. Bunlar var. Taxıl məhsulu götürürsünüz. Kəndlinin pulu var. Ev tikin. Bəlkə də, çoxlarının evi var. Buna ehtiyac yoxdursa, bu, başqa məsələdir. Amma haradakı ehtiyac var, oralarda kəndli ev tikməlidir və qoy tiksin. Mən demirəm ki, bunu planlaşdırasınız, yaxud da kimisə bu işə məcbur edəsiniz. Bu hər kəsin öz işidir. Qazandığını haraya xərcləyirsə, bu onun öz işidir. Ev tikir, yaxud avtomobil alır və ya heç bir şey etmir, başqa yerə sərf edir – öz işidir. Amma biz sosial məsələləri həll etmək üçün çox arzu edirik ki, kəndlilər əldə etdikləri qazancdan birinci növbədə özlərinin ev şəraitini yaxşılaşdırsınlar. Çünki kənddə ev şəraiti indi get-gedə gərək Avropa standartlarına yaxınlaşsın. İndi ola bilməz ki, kəndli 7 nəfərlə iki balaca otaqda yerləşsin, yaşasın. Belə olmaz. Kəndlinin gərək 4-5 otaqdan ibarət evi, ətrafında həyəti olsun, yaxşı yaşaya bilsin.

İndi televizor hər yerdə var, başqa cihazlar var, amma ev şəraiti də gərək yaxşı olsun. Mən buna görə deyirəm. Ancaq bu planlaşdırma səndən, məndən asılı deyil, insanların özlərindən asılıdır.

**Əşrəf Məmmədov:** Cənab Prezident, məlumat üçün bildirim ki, 1970–80-ci illərdə Şəki rayonunda 28 min 600 adam ev şəraitini yaxşılaşdırmışdır.

**Heydər Əliyev:** Bu başqa məsələ. Görürsənmi!

**Əşrəf Məmmədov:** Açıq desək, bizim kəndlərdə evlər pis deyil, amma daha yaxşı evlərə həqiqətən ehtiyac var.

Cənab Prezident, icazənizlə, bir məsələyə də toxunmaq istəyirəm. Şəkidə turizmi inkişaf etdirmək üçün gözəl təbii şərait var. Amma Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin böyük təşkilatçılığı ilə çox qısa müddətdə tikilmiş Olimpiya idman kompleksi bizə imkan verir ki, turizmi həqiqi mənada inkişaf etdirməyə başlayaq.

**Heydər Əliyev:** Doğrudur.

**Ə ş r ə f  M ə m m ə d o v:** Bu yaxınlarda Dünya Turizm Təşkilatının Baş katibi buraya gəlmişdi. O bu yerləri gəzdi, dedi ki, heç Fransada da – o, fransalı idi, mən heç bilmirdim – belə kompleks yoxdur, bu, turizm üçün gözəl imkandır. Ona görə də sizdən xahiş edirəm ki, bizə...

**H e y d ə r  Ə l i y e v:** Gənclər, İdman və Turizm naziri buradadır?

**V a q i f  Ə l i y e v** (*Gənclər, İdman və Turizm nazirinin birinci müavini*): Cənab Prezident, Əbülfəz müəllim Bakıya qayıtdı, o, sabah Londona uçacaq.

**H e y d ə r  Ə l i y e v:** Nazirin birinci müavini buradadır.

**Ə ş r ə f  M ə m m ə d o v:** Bunun həlli üçün bizim nə problemimiz var? Kommunikasiya məsələləri yüksək səviyyədə və intensiv həll edilməyən yerlərə turist getmir, çünki öz vaxtını hesablayır.

Mən yenə də Azərbaycan prezidentinə təşəkkürümü bildirirəm ki, dəmir yolu vağzalını da yenidən qurmuşuq. Sizin göstərişinizlə təyyarə limanını da yenidən qurmuşuq, çox gözəl səviyyəyə çatdırmışıq. Amma Şəkiyə təyyarə işləmir. Bakı–Şəki–Naxçıvan, Naxçıvan–Şəki–Bakı reyslərini açsaq, turistlərin buraya gəlməsinə böyük imkanlar yaradar. Biz sərhədlərə yaxınlaşarıq.

**H e y d ə r  Ə l i y e v:** Burada nə maneçilik var?

**Ə ş r ə f  M ə m m ə d o v:** Nə maneçilik olduğunu bilmirəm, amma Sizin göstərişinizə ehtiyacımız var.

**F ə r h a d  Ə l i y e v:** Bu, rentabelli deyil. Biz məcburiyyət qarşısında Naxçıvana dotasiya veririk, çünki başqa yol yoxdur. Amma Şəkidən Bakıya, Şəkidən Naxçıvana olan reyslərə dotasiya ayıra bilmərik, ona görə də bu reyslər təşkil olunmur.

**H e y d ə r  Ə l i y e v:** Deməк rentabelli deyil.

**F ə r h a d  Ə l i y e v:** Bəli, rentabelli deyil. Çünki qiymət yüksək olduğuna görə, heç kim ondan istifadə etməyəcək, digər nəqliyyat vasitəsilə gələcəklər. Digər tərəfdən isə, təyyarələrin uçuş məsafəsi nə qədər uzun olsa, ömrü o qədər uzun olar. Əgər uçuş müddəti 15 ildirsə, məsafə qısa olanda 5-6 il olur. Ona görə təyyarələrdən belə marşrutda istifadə etmək məqsədəuyğun deyildir.

**Ə ş r ə f  M ə m m ə d o v:** Bizim bildiyimizə görə, Bakı–Şəki–Naxçıvan reysi rentabelli olacaqdır. Bu reys açılsa, biz təkcə sərhədə yaxınlaşmırıq. Biz xahiş edərdik ki, Siz imkan daxilində bu məsələ ilə əlaqədar göstəriş verəsiniz.

Nəhayət, bir məsələyə də toxunmaq istəyirəm. Şəkidə aşkarlıq, demokratiya, sözün əsl mənasında inkişaf edibdir. Mən bunun Sizin ölkəmizə müdrik, demokratik rəhbərliyiniz sayəsində mümkün olduğunu bildirirəm. Şəkidə televiziyanın 6 kanalına baxırlar.

**H e y d ə r  Ə l i y e v:** 6 kanal? Hansı kanallardır?

**Ə ş r ə f  M ə m m ə d o v:** Azərbaycan televiziyasının birinci kanalına, RTR, TRT, «Space», «Lider», «ANS» kanallarına baxırlar. Vaxtilə bu kanalların biri göstərirdi. Məhz Sizin göstərişiniz sayəsində Təpəcənnətdə o qurğu tikiləndən sonra biz bu kanalların verilişlərinə baxa bilirik. Şəkidə 14 siyasi partiyanın ilk təşkilatı var. 37 qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Əmin ola bilərsiniz ki, bu istiqamətdə də Sizin göstərişləriniz tamamilə yerinə yetiriləcəkdir.

Cənab Prezident, deyilənlərlə yanaşı, heç şübhəsiz, işimizdə nöqsanlar da vardır. Bəzən ciddi qüsurlara da yol veririk. Amma Siz bir şeyə əmin ola bilərsiniz: bu, səhlənkarlıqdan, qəsdən baş vermir, məsələləri həll edərkən nöqsanlarımız olur. Əmin ola bilərsiniz ki, Sizin iradlarınızı biz çox qısa müddətdə yerinə yetirəcəyik. Onu da bildirmək istəyirəm ki, camaatımız həmişə dövlətə, dövlətçiliyə sadiq olubdur. Heç bir vaxt Şəkidə dövlətçilik əleyhinə heç nə olmayıbdır. Mən bütün hadisələri sadalaya bilərəm. Kiminsə əleyhinə olub, amma dövlətçiliyimizin əleyhinə, Azərbaycan prezidentinin əleyhinə Şəkidə heç vaxt heç bir şey olmayıbdır.

Hesab edirəm ki, Siz bu gün onun əyani təzahürünü gördünüz. İnsanların Sizə böyük məhəbbəti, sevgisi, rəğbəti var. Çoxdandır camaatımız Sizi gözləyirdi. Düzdür, bəzi qəzetlər yazırdı, istəyirdilər ki, nə isə bir gecikmə olsun.

**H e y d ə r  Ə l i y e v:** Nə olsun?

**Ə ş r ə f  M ə m m ə d o v:** Bu səfərdə gecikmə olsun. Amma şükür, Siz gəldiniz.

**H e y d ə r  Ə l i y e v:** Ola bilərdi.

**Ə ş r ə f  M ə m m ə d o v:** Ona görə də, icazə versəniz deyərdim: tarixin və zamanın bütün sınaqlarından qalib çıxmış möhtərəm prezidentimizə Şəki camaatı yenidən səs verəcəkdir.

## İqtisadi İnkişaf naziri Fərhad Əliyevin çıxışı

Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Məlum olduğu kimi, hazırda Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin rəhbərliyi ilə aparılan sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindən biri regionların inkişafının sürətləndirilməsindən, burada infrastruktur təminatının yaxşılaşdırılmasından, müəssisələrin fəaliyyətinin bərpa edilməsindən, yeni iş yerlərinin açılmasından, əhalinin maddi rifahının yaxşılaşdırılmasından ibarətdir.

Bununla bərabər, cənab prezident Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın, həmçinin aqrar bölmənin inkişafına dair dövlət proqramlarını təsdiq etmişdir. Bu sənədlər regionların inkişafı üçün böyük əhəmiyyətə malikdir. Proqramlarda regionlara investisiyaların artırılması, fermer təsərrüfatlarına kömək sisteminin qurulması, regionlar üzrə sahibkarlığın inkişaf etdirilməsi, aqroservis müəssisələrinin fəaliyyətinin genişləndirilməsi ilə bağlı işlər öz əksini tapmışdır. Artıq bu ilin noyabr ayının 1-dən etibarən Sahibkarlığa Kömək Milli Fonduna ayrılmış vəsaitlərdən müvəkkil banklar vasitəsilə ən güzəştli şərtlərlə sahibkarlara bir neçə gün ərzində 4,5 milyard manat kredit verilmişdir.

Möhtərəm cənab Prezident!

Sizin müvafiq fərmanınıza uyğun olaraq, növbəti 3 il üçün sahibkarlığın inkişafına 250 milyard manat vəsait ayrılmışdır ki, bu da əvvəlki illərlə müqayisədə qat-qat çoxdur. Bu il üçün həmin vəsaitin miqdarı 13 milyard manat, amma növbəti 3 il üçün 250 milyard manatdır.

Cənab prezidentin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə göndərdiyi 2003-cü ilin büdcə paketinə regionlara güzəştli vergilərin tətbiqi ilə bağlı Vergi Məcəlləsinə ediləcək əlavələr də daxildir. Beləliklə, nikbinliklə demək olar ki, 2003-cü il regional siyasətdə əhəmiyyətli dəyişikliklər ili olacaqdır.

Hörmətli müşavirə iştirakçıları!

Qeyd olunan tədbirlər digər bölgələr kimi, Şəki şəhərinin də sosial-iqtisadi inkişafına müsbət təsir edəcəkdir.

Şəhərin iqtisadiyyatının inkişafında, əhalinin ehtiyaclarının ödənilməsində infrastrukturla təminatını yaxşılaşdırmağın böyük əhəmiyyəti vardır.

Son illər energetika sahəsinin restrukturizasiyası ilə bağlı əhəmiyyətli tədbirlər görülmüş, elektrik paylayıcı şəbəkələr, o cümlədən Şəki Elektrik Şəbəkəsinin daxil olduğu «Gəncəelektrikşəbəkə» Səhmdar Cəmiyyəti uzunmüddətli idarəetməyə verilmişdir.

Cari ilin payız–qış mövsümünə hazırlıq mərhələsində görülmüş işlər nəticəsində əhalinin elektrik enerjisi ilə təminatı nisbətən yaxşılaşmış, açılmaların sayı azalmışdır.

Energetika sahəsində olduğu kimi, qaz və su ilə təchizat sahələrində də müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Azərbaycanda qaz təminatının yaxşılaşdırılması ilə bağlı Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın bir çox bölgələrində olduğu kimi, 2001-ci ilin fevral ayında Şəki şəhərinə də qazın verilməsi bərpa edilmişdir.

Şəkinin su təminatını yaxşılaşdırmaq məqsədi ilə Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin şəxsi təşəbbüsü və tapşırığı əsasında Şəki şəhəri əhalisinin tələb olunan miqdarda içməli su ilə təchiz olunmasını təmin etmək, verilən suyun keyfiyyətini yüksəltmək məqsədi ilə Azərbaycan və Almaniya arasında maliyyə əməkdaşlığı haqqında imzalanmış sazişə uyğun olaraq, 10 milyon avro, yaxud təxminən 4,5 milyon ABŞ dolları məbləğində kredit ayrılmışdır. Bu layihənin icrası ilə əlaqədar hazırlıq işləri başa çatmışdır və yaxın zamanda, yəni gələn ilin əvvəlində layihənin icrasına başlanacaqdır. Layihənin həyata keçirilməsinin başa çatma müddəti iki ildir.

Şəhərin sel sularından qorunması məqsədi ilə Avropa Birliyinin qrantı hesabına beton bəndlərin tikintisi ilə bağlı layihənin həyata keçirilməsi artıq başa çatmışdır. Asiya İnkişaf Bankının vəsaitləri hesabına sahil bərkitmə işlərinin aparılması üçün danışıqlar davam etdirilir.

Hörmətli toplantı iştirakçıları!

Şəki şəhəri iqtisadiyyatının inkişaf etdirilməsinin ən mühüm vasitələrindən biri özəlləşdirmədir.

Şəhərdə dövlət əmlakının özəlləşdirilməsi başladığı dövrdən bu günə kimi dövlət müəssisələrinin bazasında 29 səhmdar cəmiyyəti yaradılmış, 400-dək kiçik dövlət müəssisəsi və obyekti özəlləşdirilmişdir.

Hazırda nəqliyyat, ticarət, inşaat, xidmət sahələrində özəlləşdirilmiş müəssisələrin bir çoxu uğurla fəaliyyət göstərir.

Hörmətli toplantı iştirakçıları!

Məlum olduğu kimi, Şəkinin iqtisadiyyatının əsasını ənənəvi olaraq ipəkçilik təşkil edir. Yeni iqtisadi münasibətlərə keçid və digər səbəblərdən– artıq burada hörmətli icra başçısı da qeyd etdi – Şəki İpək Kombinatının fəaliyyəti 1990-cı ildən dayanmış və iş ahəngi pozulmuşdur. Yalnız 2001-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncami ilə «Şəki–İpək» Səhmdar Cəmiyyətinin fəaliyyətinin sağlamlaşdırılması, istehsalın bərpa edilməsi məqsədi ilə müəssisəyə əvəzsiz olaraq 1,5 milyard manat, sonra isə 500 milyon manat həcmində maliyyə yardımı göstərildikdən sonra müəssisədə barama istehsalının və emalının bərpasına nail olunmuş,

hazırda həmin müəssisədə təxminən 700 nəfər işlə təmin edilmişdir. İndi Beynəlxalq Bankın kreditləri hesabına müəssisənin fəaliyyətinin genişləndirilməsi istiqamətində müvafiq danışıqlar aparılır və yəqin ki, yaxın zamanda həmin danışıqlar öz nəticəsini verəcəkdir.

Göründüyü kimi, «Şəki–İpək» SC-nin qismən fəaliyyət göstərməsi Şəki şəhərinin işsizlik probleminin həllinə nisbətən kömək etmişdir. Müəssisənin fəaliyyətinin bərpası yaxın gələcəkdə, bizim fikrimizcə, müəssisə ilə birbaşa əlaqəsi olan tikiş istehsalı sahəsinin də inkişafına şərait yaradacaqdır.

Lakin bununla belə, qeyd etmək lazımdır ki, bir çox özəlləşdirilmiş müəssisələr texnoloji avadanlığın fiziki və mənəvi cəhətdən köhnəlməsi və müasir tələblərə cavab verməməsi, istehsal olunan malların keyfiyyətinin aşağı olması və maliyyə vəsaitinin çatışmazlığı, eyni zamanda, müəssisədə çalışan həmin rəhbər işçilərin yeni iqtisadi münasibətlərə əməl etməməsi və digər səbəblərdən həmin bir çox müəssisələr öz fəaliyyətini dayandırmaq məcburiyyətində qalır, fəaliyyət göstərmirlər.

Qeyd olunan problemlərin həlli məqsədi ilə bu müəssisələrin bəzilərinin fəaliyyətinin bərpası ilə bağlı bizim mütəxəssislər dəfələrlə Şəkidə olublar, təhlil işləri aparıblar. Son zamanlar Şəkidə kiçik orta sahibkarlığın, fermer təsərrüfatlarının inkişafı ilə bağlı həyata keçirilən tədbirlər nəticəsində kiçik müəssisələrin sayı artıb, onların fəaliyyəti genişlənibdir. Amma bununla yanaşı, qeyd etdiyim problemlər mövcuddur. Bu işdə müxtəlif təşkilatların köməyi ilə Şəkidə biznes sahəsində seminarlar təşkil olunub, kredit almaq üçün kurslar və yerli sahibkarların bir sıra ölkələrdə təcrübə keçməsinə kömək göstərilibdir.

Azərbaycan Respublikası Prezidentinin sahibkarlarla keçirdiyi görüşlərin nəticəsi olaraq, imzalanmış fərmanlara uyğun qaydada Şəkidə kənd təsərrüfatı, inşaat, xidmət, yeyinti məhsullarının istehsalı və digər sahələrdə fəaliyyət göstərən şirkətlərə təxmini dəyəri 2,5 milyard manat olan biznes-planlar hazırlanıb, müvafiq 6 banka təqdim edilibdir. Bu ilin sonuna kimi həmin vəsaitlərin ayrılması məsələsi həll ediləcəkdir.

Lakin yuxarıda qeyd olunanlar Şəkinin bütün problemlərini həll etmir, hələ Şəki şəhərinin ənənəvi istehsal sahələri olan ipəkçilik, tütünçülük, heyvandarlıq, sənətkarlıq və turizm sahəsində çox işlər görülməlidir.

Cənab Prezident, icazə versəydiniz bir az əvvəl şəkər cuğunduru ilə əlaqədar Sizin tapşırığınızla bağlı məruzə edərdim.

**H e y d ə r  Ə l i y e v:** Buyur.

**F ə r h a d  Ə l i y e v:** Biz şəkər istehsalı ilə məşğul olan zavodun inşası ilə əlaqədar müxtəlif şəxslərlə danışıqlar aparırıq. İlk şirkətlə apardığımız danışığa görə ildə 50 min ton şəkər istehsal edən müəssisəyə təxminən 50 milyon dollar vəsait lazımdır.

**H e y d ə r  Ə l i y e v:** Bunun üçün nə qədər şəkər cuğunduru lazımdır?

**F ə r h a d  Ə l i y e v:** İstehsal ediləcək şəkərin miqdarını təxminən 6-ya vurmaq lazımdır. Yəni, 300 min ton şəkər cuğunduru lazım olacaqdır.

**H e y d ə r  Ə l i y e v:** 300 min şəkər cuğunduru lazımdır, indi yerli ehtiyatlarla bunu təmin etmək mümkündürmü?

**F ə r h a d  Ə l i y e v:** Mümkündür, ancaq həmin inşaat işinin görülməsi üçün, birincisi, 50 milyon dollar vəsait lazımdır. İkincisi, inşaat işləri aparılacaq həmin yerdə gərək hökmən bol su olsun, dəmir yolu, avtomobil yolu olsun və sair. Texnoloji cəhətdən belə olmalıdır.

Konserv zavodu ilə əlaqədar deyə bilərəm ki, Şəkidə meyvə çoxdur. Burada konserv zavodunun bərpası da mümkündür. Cənab Prezident, Sizin tapşırığınızla icra hakimiyyəti başçısı ilə biz təxminən 2-3 dəfə görüşmüşük. O çox maraqlıdı ki, rayonda iş yerləri açılsın. Bu təqdirəlayiqdir. Yəni, başqa rayonların icra hakimiyyəti başçılarında bunu görmək olmur. Ədalət naminə demək lazımdır ki, Şəki Şəhər Icra Hakimiyyəti başçısı buna çox maraq göstərir. 2-3 dəfə geniş məktub göndərib ki, biz kömək edək. Danışığımız olub ki, bu məsələ ilə əlaqədar bilavasitə sahibkarların özləri biznes-planla müraciət etməlidir. Eyni zamanda, banka müraciət etməlidirlər. Biz də əlimizdən gələn köməyi edək ki, iş yerləri açılsın. Nəinki konserv zavodu, eyni zamanda, Şəkidə ənənəvi sənətkarlıq sahələrini az kredit verməklə inkişaf etdirmək olar. Turizmi də inkişaf etdirmək üçün imkanlar var.

Cənab Prezident, burada bir karvansara var, hazırda işləyir. Məruzə edim ki, həmin karvansaranın yanında onun daha böyük hissəsi var. İndi işləmir və çox bərbad vəziyyətdədir. Onu turizm obyekti kimi canlandırmaq olar. Bununla əlaqədar xarici şirkətlərlə danışıqlar aparırıq.

Sözsüz ki, əlimizdən gələni edirik ki, başqa regionlarda olduğu kimi, Şəkidəki müəssisələr də işləsin. Amma ola bilsin ki, biz də lazımi səviyyədə çalışmırıq.

**H e y d ə r  Ə l i y e v:** Bunlara konserv zavodunu işlətməyə kömək edə biləcəksiniz, yoxsa yox?

**F ə r h a d  Ə l i y e v:** Cənab Prezident, Sizə məruzə edim ki, öncə o konserv zavodunun vəziyyəti müəyyənləşməlidir. İcazə verin, yaxın bir neçə gün ərzində mən Sizə düzgün məruzə edərəm.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı.

**F ə r h a d  Ə l i y e v:** Cənab Prezident, icra başçısı burada çox haqlı olaraq dedi ki, Şəkidə 128 min ton taxıl istehsal olunubdur. Bu təqdirəlayiqdir. Amma biz başqa regionlarda da, eyni zamanda Şəkidə də

çalışmalıyıq ki, daha çox gəlir verən kənd təsərrüfatı bitkilərinə üstünlük verək, son məhsulun alınmasına nail olaq. Öz ehtiyaclarımızı ödəyək, eyni zamanda ixrac edək.

Biz bununla əlaqədar xüsusi sənədlər hazırlayırıq. Cənab Prezident, Sizə məruzə edim ki, gələn ilin əvvəlindən başlayaraq bütün regionlarda təşkilati tədbirlər keçirmək, izahat işləri aparmaq istəyirik. Nəticə ehtibarilə əhalinin rifahının yaxşılaşdırılması istiqamətində Sizin tapşırıqlarınızın icrasına nail olmaq istəyirik.

Cənab Prezident, icazə verin, yekunda Sizi əmin edim ki, verdiyiniz bütün tapşırıqlara uyğun olaraq, bütün regionların inkişaf etdirilməsi üçün sahibkarlıqla, həm də aqrar bölmənin inkişaf etdirilməsi ilə əlaqədar verdiyiniz fərmanlarin yerinə yetirilməsi ilə bağlı əlimizdən gələni səfərbər edərək, Sizin tapşırıqların icrasına nail olacağıq.

**H e y d ə r Ə l i y e v:** Dünən mən yol ilə gələndə hansısa kənddə dedilər ki, taxıl istehsal etmişik, sata bilmirik.

**D i l a r ə S e y i d z a d ə** (*Prezidentin katibliyinin rəisi)*: Cənab Prezident, İsmayıllıda dedilər.

**H e y d ə r Ə l i y e v:** İcra hakimiyyəti başçısı dedi?

**D i l a r ə S e y i d z a d ə:** Bəli, cənab Prezident.

**H e y d ə r Ə l i y e v:** Dedi ki, çox taxıl istehsal etmişik, ancaq sata bilmirik. Yəqin ki, Şəkidə istehsal olunan taxıl rayonun tələbatını ödəyir. Amma İsmayıllıda mənə belə bir söz dedilər. Mən indi bilirəm ki, Azərbaycana Qazaxıstandan, Rusiyadan və başqa ölkələrdən çoxlu taxıl gətirirlər. Necə olur ki, bizim öz kəndlimiz taxıl istehsal edibdir, onu sata bilmir, amma Qazaxıstandan taxıl gətirirlər. Həmin biznesmen ki, taxılın alqı-satqısı işi ilə məşğul olur, o gəlib bunu İsmayıllıdan ala bilməzmi?

**F ə r h a d Ə l i y e v:** Cənab Prezident, icazə versəniz, izahat verim. Siz tapşırmısınız ki, çörəyin qiyməti bahalaşmasın. Respublikamıza idxal olunan taxıla rüsum, vergi yoxdur. Ona görə də başqa ölkədən gətirilən taxılla bizim taxılın qiyməti təxminən eyni olur. Amma Qazaxıstandan və ya Rusiyadan gətirilən taxılın qiyməti eynidir, amma keyfiyyəti yaxşıdır. Ondan daha keyfiyyətli un çıxır. Buna görə ona daha çox üstünlük verirlər. Bəzən də onu yerli taxıla qatırlar.

**H e y d ə r Ə l i y e v:** Demək olmaz ki, başqa ölkədən gətirilən taxılın keyfiyyəti bizimkindən yaxşı olur. Belədir ki, taxılın müxiəlif növləri var, birinin keyfiyyəti bir az yaxşıdır, birininki o birisindən aşağıdır. Ümumiyyətlə, yaxşı çörək bişirmək üçün gərək bir neçəsini qarışdırasan. Mən indi burda bir şey müəyyən etmək istəmirəm, sadəcə, mən sənə deyirəm ki, belə bir müraciət olubdur. Amma sən buna elə- belə dərhal cavab vermə ki, burada qiymət bərabərdir, onun keyfiyyəti buradakından yaxşıdır. Mənə elə gəlir ki, səbəb bu deyil. Sən bu məsələyə bir bax. İndi bizdə taxıl istehsalı artıbdır. Çoxları taxılı tək özünü təmin etmək üçün yox, həm də satmaq üçün istehsal edir. İndi burada – Şəkidə yaxşı çörəklər bişirirlər. Bu gün mən burada bir balaca çörək yedim, çox dadlı çörək idi. Bunu kim bişirir?

**Ə ş r ə f M ə m m ə d o v:** Camaat özü bişirir.

**H e y d ə r Ə l i y e v:** Deyəsən İsmayıllıda idi, yoxsa harada idi, mənə dedilər ki, çörək zavodu vardı, indi yoxdur. İndi çörək zavodu nəyə lazımdır ki, özəl sektor var. Şəkidə neçə yerdə çörək bişirirlər?

**Ə ş r ə f M ə m m ə d o v:** Kombinatın cüzi bir hissəsi işləyir, ümumiyyətlə, 100-dən çox evdə çörək bişirilir.

Cənab Prezident, məlumat üçün deyim ki, Şəkidə tələbatdan 4 dəfə çox taxıl istehsal olunur. Biz bunu sata bilmirik. Çox doğru deyildi ki, problem kənardan gətirilən taxıla üstünlük verilməsi ilə birbaşa bağlıdır.

**F ə r h a d Ə l i y e v:** Cənab Prezident, elədir. İsmayıllıda, Şəkidə bu problem mövcuddur, başqa rayonlarda da mövcuddur.

**H e y d ə r Ə l i y e v:** Onda mən sənə tapşırıram, bu məsələni dərindən öyrən və vəziyyəti müəyyənləşdirək. Əgər doğrudan da bunun bizə başqa zərəri olmasa, onda idxal olunanın rüsumunu artırarıq. Onda bunlar da satarlar.

**F ə r h a d Ə l i y e v:** Cənab Prezident, bu mümkündür.

**H e y d ə r Ə l i y e v:** Məşğul olun.

**F ə r h a d Ə l i y e v:** Aydındır.

**«Azərenerji» Səhmdar Cəmiyyətinin**
**prezidenti Etibar Pirverdiyevin**
**çıxışı**

Möhtərəm cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Biz bu gün Şəkidə yeni Olimpiya İdman Kompleksinin açılış mərasimində iştirak etdik. Şəkidə Olimpiya İdman Kompleksinin istifadəyə verilməsi respublikamızda idmanın kütləvi inkişafına, yeni dünya və olimpiya çempionlarının yetişməsinə əvəzsiz şərait yaradacaqdır.

Möhtərəm Prezident, bu ilk növbədə, Sizin və Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin respublikamızda idmanın inkişafına göstərdiyiniz diqqət və qayğının nəticəsidir. Hazırda ölkəmizin iqtisadiyyatının bütün sahələri belə qayğı və diqqətlə əhatə olunmuşdur. O cümlədən respublikamızda energetikanın inkişafı, cənab Prezident, həmişə Sizin diqqət mərkəzinizdə olmuşdur.

Hörmətli cənab Prezident, fürsətdən istifadə edərək, son aylarda respublikamızın elektroenergetika sektorunda 2002-ci, 2003-cü illərin payız-qış mövsümünə hazırlıq proqramı çərçivəsində görülmüş tədbirlər haqqında qısa məlumat vermək istəyirəm.

Belə ki, bilavasitə Sizin diqqət və köməyiniz sayəsində tikilib istifadəyə verilmiş, Cənubi Qafqazda ən böyük stansiya olan Azərbaycan DRES-də itirilmiş 650 meqavat gücdən artıq 250–300 meqavatı bərpa olunmuşdur. Hazırda 8 blokun hər biri orta hesabla 260–280 meqavat gücə malikdir.

**H e y d ə r  Ə l i y e v:** Səkkizi də işləyir?

**E t i b a r  P i r v e r d i y e v:** Bəli, səkkizi də işləyir. Azərbaycan DRES bu ilin payız-qış mövsümündə 2 min meqavatdan az olmayaraq yük aparacaqdır. Əli Bayramlı DRES-də də bir blokda əsaslı təmir işləri başa çatdırılmış, digər ikinci blokda isə noyabr ayının sonuna kimi təmir işləri başa çatdırılacaqdır.

Gücü 4 meqavat olan «Şimal» DRES-in qaz-buxar qurğusunda buraxılış işləri başa çatmaq üzrədir. Mingəçevir Su Elektrik Stansiyasında gücü 200 meqavat amper olan yeni avtotransformator işə qoşulmuş, nəticədə gücün 40 meqavat artırılmasına nail olunmuşdur. Bununla yanaşı, Mingəçevir Su Elektrik Stansiyasından qidalanan Mingəçevir, Şəki, Zaqatala, Qax, Balakən, Yevlax və digər qonşu rayonların elektrik təchizatının etibarlılığı artırılmışdır.

**H e y d ə r  Ə l i y e v:** Mingəçevir Su Elektrik Stansiyası indi neçə meqavat enerji verir?

**E t i b a r  P i r v e r d i y e v:** Mingəçevir Su Elektrik Stansiyası 401 meqavat verir. Hazırda bir blok təmirdə olduğuna görə 330–340 meqavat yük aparır. Şəmkir Su Elektrik Stansiyasında hər iki hidroaqreqatda əsaslı təmir işləri başa çatdırılmış, 380 meqavat gücün respublikamızda istehlakçılara sabit olaraq çatdırılması üçün zəmin yaradılmışdır.

**H e y d ə r  Ə l i y e v:** Nə vaxt olacaq?

**E t i b a r  P i r v e r d i y e v:** Blok artıq tam hazırdır. Beton işləri aparılmışdır, sonra ikinci maşın işə qoşulacaqdır. Yəni, 380 meqavat hazırdır.

**H e y d ə r  Ə l i y e v:** Cəmi neçə meqavat verəcəkdir?

**E t i b a r  P i r v e r d i y e v:** 380 meqavat verəcəkdir.

**H e y d ə r  Ə l i y e v:** Yenikənd stansiyasından danış.

**E t i b a r  P i r v e r d i y e v:** Yenikənd stansiyasında dördüncü blokda təmir-tikinti işləri davam etdirilir. Tikinti aparan şirkət bizə söz verib ki...

**H e y d ə r  Ə l i y e v:** Orada dörd blok var.

**E t i b a r  P i r v e r d i y e v:** Artıq dördüncü blok işə salınmaq üzrədir. Amma üç blok işləyir.

**H e y d ə r  Ə l i y e v:** Biz o vaxt onun üçünü istifadəyə vermişdik.

**E t i b a r  P i r v e r d i y e v:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** Sonra dördüncünü başladıq.

**E t i b a r  P i r v e r d i y e v:** İş gedir.

**H e y d ə r  Ə l i y e v:** Mənə de görüm, o üç blok nə qədər enerji verir?

**E t i b a r  P i r v e r d i y e v:** Üç blok 90–95 meqavat enerji verir.

**H e y d ə r  Ə l i y e v:** Sabit olaraq verir?

**E t i b a r  P i r v e r d i y e v:** Bəli, sabit olaraq 90–95 meqavat enerji verir.

**H e y d ə r  Ə l i y e v:** İndi bu dördüncü blok işə buraxılanda cəmi nə qədər enerji hasil ediləcək?

**E t i b a r  P i r v e r d i y e v:** Dörd blokda cəmisi 150 meqavat olacaqdır.

**H e y d ə r  Ə l i y e v:** Bu nə vaxt olacaqdır?

**E t i b a r  P i r v e r d i y e v:** İki ay bundan öncə tikintini aparan şirkət dördüncü bloku ilin sonuna kimi təhvil verməyi vəd etmişdi.

**A b i d  Ş ə r i f o v:** Bu ilin sonuna kimi tamamilə qurtaracaqdır.

**H e y d ə r  Ə l i y e v:** Tamamilə istismara veriləcəkdir?

**Abid Şərifov:** Bəli, 7,5 meqavat gücündə olacaqdır.

**Etibar Pirverdiyev:** Cənab Prezident, mən həmin şirkətin rəhbərindən məktub almışam. Onların yazdığına görə, həmin işlərin davam etdirilməsi üçün ilin sonuna qədər vaxt istəyirlər.

**Abid Şərifov:** Cənab Prezident, mən məşğul olub Sizə məruzə edərəm. Mənə dekabrın sonuna qədər demişdilər.

**Heydər Əliyev:** Bir də baxın.

**Abid Şərifov:** Baş üstə, birinci gün məlumat verərəm.

**Etibar Pirverdiyev:** Sadaladığım bu işlər respublika istehlakçılarını qış mövsümündə sabit elektrik enerjisi ilə təmin etməyə imkan yaradacaqdır. Eyni zamanda, Şəki rayonu üzrə görülmüş işlər barədə məlumat vermək istəyirəm.

110 kilovoltluq Şəki yarımstansiyasında 25 meqavolt amperlik tansformator təmir edilmişdir. Üç kilometr uzunluğunda Şəki elektrik veriliş xətti bərpa olunmuşdur. 35 kilovoltluq bir neçə yarımstansiyada yenidənqurma işləri aparılmışdır. 124 ədəd on kilovoltluq transformator əsaslı təmir edilmişdir. 32 ədəd 10,4 kilovoltluq transformator quraşdırılmışdır. 42 kilometr uzunluğunda 10 kilovoltluq xətlər təmir edilmiş, 9 kilometr uzunluğunda yeni xətt çəkilmişdir.

Noyabrın 15-dən sonra Zəyzit yarımstansiyasının gücü 2,5 meqavat artırılacaqdır. Görülmüş bu tədbirlər nəticəsində, keçən illərlə müqayisədə qəza açılmaları dəfələrlə azalmışdır. Keçən ilin müvafiq dövründə həmin rayonun enerji sistemində qəzaların sayı bir ay ərzində 20-dən çox idisə, bu ilin son aylarında həmin rəqəm 3-ə enmişdir və oktyabr ayında heç bir qəza halı baş verməmişdir.

Cənab Prezident, Azərbaycanın rayon və şəhərlərində müəssisə və obyektlərin elektrik enerjisi ilə təchizatını yaxşılaşdırmaq, paylayıcı elektrik şəbəkələrinin fəaliyyətinin səmərəsini artırmaq, onların inkişafı üçün investisiyanın, yeni texnologiyanın cəlb edilməsinə şərait yaratmaq məqsədi ilə Sizin sərəncaminiza əsasən 2002-ci il oktyabrın 1-dən «Gəncəelektrikşəbəkə» «Əlibayramlıelektrikşəbəkə» və «Sumqayıtelektrikşəbəkə» səhmdar cəmiyyətləri uzunmüddətli idarəetməyə verilmişdir. Şəki rayonunun daxil olduğu «Gəncəelektrikşəbəkə»ni idarəetməyə götürmüş şirkət tərəfindən, mərkəzi Şəki şəhərində olmaqla, yeni regional mərkəz yaradılır. Bununla bağlı Şəkidə 50 iş yeri açılacaqdır.

**Heydər Əliyev:** İstəyirəm biləm, «Şəkielektrikşəbəkə»si ayrı olacaq, yoxsa bunu «Gəncəelektrikşəbəkə»yə bağlamısınız? Yəni, regional deyəndə, nəyi nəzərdə tutursunuz?

**Etibar Pirverdiyev:** Həmin regional şəbəkəyə Şəki, Balakən, Zaqatala, Qax, Oğuz rayonları – beş rayon daxil olacaqdır. Həmin mərkəz Şəkidə yerləşəcəkdir.

**Heydər Əliyev:** Yaxşı, onda siz çox böyük ərazini götürürsünüz. Şəki, Qax, Zaqatala, Balakən, Oğuz – bunlar hamısı bir şəbəkə, özü də müstəqil şəbəkə ola bilər.

Texniki cəhətdən elə olur, amma tam müstəqil olmur, demək, müstəqil olanda, o özü biləcəkdir ki, nə qədər elektrik enerjisi satır, nə qədər pul yığır, nə etməlidir. Yoxsa, bütün ölkənin yarısını Gəncəyə vermisiniz, nədir?

**Fərhad Əliyev:** Cənab Prezident, dörd şəbəkə yaradılıbdır. Səhv etmirəmsə, 23 rayon Gəncəyə bağlıdır. Lap əvvəllər də belə olubdur.

**Heydər Əliyev:** Yaxşı, deyirsiniz Şəki regional şəbəkəsi yaratmısınız. Bu şəbəkəyə neçə meqavat elektrik enerjisi sərf olunacaqdır? Bilirsən, yoxsa yox?

**Etibar Pirverdiyev:** Bu gün Şəki 60 meqavat güc götürür.

**Heydər Əliyev:** Həm şəhər, həm də rayon 60 meqavat?

**Etibar Pirverdiyev:** Bəli.

**Heydər Əliyev:** Əgər bunlar 50–60 meqavatla dolana bilirlərsə, bu, pis deyil. Amma bu tələbatı tamamilə təmin edir, yoxsa yox? Çünki özünüz mənə deyirdiniz ki, Şəmkir rayonu 100 meqavat elektrik enerjisi götürür. Mən başa düşmürəm, Şəmkir rayonunun Şəkidən nəyi böyükdür?! O niyə 100 meqavat götürür, Şəki isə 50–60 meqavat. Niyə belə edirsiniz?

**Fərhad Əliyev:** Cənab Prezident, Şəkidə enerjini qənaətlə, fasilə ilə işlədirlər.

**Heydər Əliyev:** Yox, bir var qənaət, bir də var fasilə. Qənaət odur ki, məsələn, icra hakimiyyəti başçısının üç otağı var, birində oturur, ikisində isə lampanı söndürür. Amma başqası üç otağın hamısında lampanı yandırır, televizoru, başqa şeyləri yandırır. Bu qənaət deyil. Amma fasilə belədir ki, məsələn, günün bir hissəsində enerji verilir, o biri hissəsində verilmir.

Deyəsən, dünən sən mənə dedin ki, səhər saat 7-dən 10-a qədər, ondan sonra...

**Əşrəf Məmmədov:** Şəhərdə səhər saat 10-na qədər, kənddə 9-a qədər enerji verilir.

**Heydər Əliyev:** Sonra, saat 12-dən 2-yə qədər, ondan sonra 6-dan gecə saat 1-ə qədər. Kənddə 7-dən 1-ə qədər. Bu fasilədir. İndi bunlar fasilə ilə ölçürlərsə, bu, pis deyil. Amma bir yerə enerjini fasilə ilə verirsiniz, o biri yerə fasiləsiz verirsiniz. Axı bu ədalətsizlikdir.

**Fərhad Əliyev:** Cənab Prezident, siz haqlısınız.

**Heydər Əliyev:** Bəs buna niyə yol verirsiniz?

**F ə r h a d Ə l i y e v:** Başqa rayonların hamısı normal enerji götürür. Təkcə Şəmkir rayonu elektrik stansiyası orada yerləşdiyinə görə qaydaları bir az pozmuşdu.

**H e y d ə r Ə l i y e v:** İndi orada qayda yaratmısınız?

**F ə r h a d Ə l i y e v:** Bəli, qaydaya düşür.

**E t i b a r P i r v e r d i y e v:** Texniki səbəblərdən onların enerjisini ayırmaq, kəsmək mümkün deyil. Qurulmuş sxemlərə görə həmin xətti kəsə bilmirdik. Yəni, bu, böyük xərc tələb edirdi. Hazırda yeni sxemlər qurulur. Şəmkir rayonu da digər rayonlar kimi enerji alacaqdır.

**H e y d ə r Ə l i y e v:** Onu nə vaxt ayıracaqsınız.

**E t i b a r P i r v e r d i y e v:** Hazırda nəzarət edirik. Şəmkir əvvəllər 115, hətta 130 meqavata qədər enerji alırdısa, bu gün həmin yük azaldılmışdır. Sxemdə dəyişiklik aparılsa, yüklər yenə aşağı salınacaqdır.

**H e y d ə r Ə l i y e v:** Şərifov, sən hara baxırsan? Niyə belə ədalətsizliyə yol verilir?

**A b i d Ş ə r i f ov:** Cənab Prezident, bu məsələlərə başqa müavin baxır.

**H e y d ə r Ə l i y e v:** Başqa müavin baxır, canını qurtardın. Yaxşı, siz əyləşin.

Mən şəbəkə məsələsinə bir söz demirəm. Mən belə şeylərə müdaxilə etmək istəmirəm. «Gəncəelektrikşəbəkə» ölkənin böyük bir hissəsini əhatə edir, o da özünə regional şəbəkələr yaradır. Deməli, «Gəncəelektrikşəbəkə»yə buradan Balakənə, Qazaxa qədər olan rayonlar daxil olur. Mən belə başa düşürəm. Elədirmi?

**E t i b a r P i r v e r d i y e v:** Bəli.

**H e y d ə r Ə l i y e v:** Bilmirəm, o tərəfdən də hara qədər? Mən belə başa düşürəm, bu da işini yüngülləşdirmək üçün, regional şəbəkələr yaradır. Elədirmi?

**E t i b a r P i r v e r d i y e v:** Bəli.

**H e y d ə r Ə l i y e v:** Olmazmı ki, regional şəbəkələrin hər biri müstəqil olsun? Özü də baxın, yenə də deyirəm, Şəki, Qax, Zaqatala, Balakən, Qəbələ, Oğuz – altı rayondur. Ümumiyyətlə, bu altı rayon təxminən neçə meqavat elektrik enerjisi alacaqdır.

**E t i b a r P i r v e r d i y e v:** Kiçik rayonların hər biri 15–17 meqavat götürür.

**H e y d ə r Ə l i y e v:** Yəqin oraya da enerjini fasilə ilə verirsiniz.

**E t i b a r P i r v e r d i y e v:** Cənab Prezident, olarmı mən fasilə məsələsi barədə bir neçə kəlmə deyim?

**H e y d ə r Ə l i y e v:** Buyur.

**E t i b a r P i r v e r d i y e v:** Ümumiyyətlə, elektrik enerjisinin verilməsində fasilə yoxdur. Yəni, rayona həmişə müəyyən miqdarda, 20–25 meqavat gücündə elektrik enerjisi verilir. Yəni, gecə saat 1-dən sonra elektrik enerjisi olmur. Gecə saat 1-də biz 60 meqavat elektrik enerjisi verə bilərik. Sadəcə olaraq, yerli şəbəkələr icra hakimiyyəti orqanları ilə birgə – mən konkret bu rayonun timsalında demək istəmirəm – açılmalar aparırlar. Elektrik enerjisi verməyə bizim gücümüz var. Yəni rayonlar yığım faizini süni şəkildə qaldırmaq üçün enerjini kəsirlər. Əhaliyə verilən elektrik enerjisini azaldırlar. Problem bundadır.

**H e y d ə r Ə l i y e v:** Bunu özləri azaldırlar?

**E t i b a r P i r v e r d i y e v:** Bəli, özləri yerlərdə bu addımları atırlar. Amma rayona sabit olaraq 20 meqavat enerji verilir. Bu da rayonun bütün mühüm obyektlərinin enerji ilə təmin olunmasına kifayət edir. Bunu da yerli paylayıcı elektrik şəbəkəsi edir.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, Şəkiyə verilən elektrik enerjisinin neçə faizinin haqqı yığılır?

**E t i b a r P i r v e r d i y e v:** Cənab Prezident, on ay ərzində həmin rəqəm orta hesabla 15 faizdir. Amma axırıncı ayda idarəetməyə verildikdən sonra isə şəbəkədə bu rəqəm 22 faizə qalxmışdır.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, 15 faiz, 22 faiz. Bəs qalanının pulunu kim verməlidir? Deməli, siz müftə elektrik enerjisi işlədirsiniz. Əgər cəmi 15 faizini, yaxud 20 faizini ödəyirsinizsə, deməli, 80 faizinin pulunu vermirsiniz. Elədir? İndi deyirsən ki, 20 faizə qaldırmısınız, bu böyük şeydir?

**Ə ş r ə f M ə m m ə d o v:** Cənab Prezident, bir ay ərzində 22 faizə qaldırmışıq.

**H e y d ə r Ə l i y e v:** Bəs sonra nə olacaq?

**Ə ş r ə f M ə m m ə d o v:** Sonra tədricən artırılacaqdır.

**E t i b a r P i r v e r d i y e v:** «Azərenerji»yə ödəniləsi pul 30 faizdir. Yəni, baxmayaraq ki, 22 faiz toplanıbdır, amma «Azərenerji»yə 30 faiz ödənilməlidir.

**H e y d ə r Ə l i y e v:** Bu, təkcə Şəkidə yox, çox yerdə belədir. Siz elə düşünməyin ki, bu, təkcə sizdədir. Bu bizim ümumi problemimizdir.

**E t i b a r P i r v e r d i y e v:** Möhtərəm Prezident, enerji sistemində görüləsi işlər hələ çoxdur.

Sizi əmin etmək istəyirəm ki, qarşımıza qoyduğunuz məsuliyyətli və şərəfli işlərin yüksək səviyyədə yerinə yetirilməsi üçün bütün imkanlarımızdan istifadə edəcəyik. Bu işlərin həyata keçirilməsinə göstərdiyiniz daimi diqqət və qayğıya görə respublika energetikləri adından Sizə minnətdarlığımızı bildirirəm.

Diqqətinizə görə sağ olun.

**H e y d ə r Ə l i y e v:** İndi qış dövrüdür, hava çox sərindir. Şəki rayonu yaza qədər elektrik enerjisi ilə lazımi səviyyədə təmin olunacaq, yoxsa olunmayacaq? Mən bunu bilməliyəm. Çünki bu gün gəlmişəm,

şəkililərin qarşısında bunları deməliyəm, nə mümkündür, nə mümkün deyil. Sən de görüm, enerjini icra hakimiyyətinin başçısının dediyi fasilə cədvəli ilə, yaxud bütün gün ərzində verəcəksiniz, yoxsa fasilə cədvəlinizi pozacaqsınız? Bu necə olacaqdır?

**Etibar Pirverdiyev:** Cənab Prezident, Şəki rayonunun tələbatı bütün gün ərzində maksimum 65 meqavatdır. Həmin yükü tam verməyə imkanımız var. Ancaq axşam saatlarında güclə bağlı bütün respublikada müəyyən çatışmazlıq yaranır. Onda biz hansısa bölgədə enerjini azaltmağa məcburuq.

**Heydər Əliyev:** Yaxşı, 400 meqavatlıq «Şimal» DRES-i də istifadəyə verəcəyik. Bəs hər yerdə fasiləsiz elektrik enerjisi nə vaxt olacaqdır? Buna nə vaxt nail olacaqsınız?

**Etibar Pirverdiyev:** Cənab Prezident, bu gün respublikada yaradılan yeni güclər, əslində əhalini enerji ilə təmin etməyə imkan verir. Ancaq biz düşünürük ki, elektrik enerjisi çatışmazlığının səbəbi israfçılıqdır. Yəni, haqqın ödənilməməsi, yığılmamasıdır. Ona görə də elektrik enerjisindən həddindən çox istifadə olunur. Əgər əvvəllər hər yerdə artım 10 faiz idisə, indi artım getmir. Yəni, enerji pulları yığıldığına görə əhali artıq enerjiyə qənaət etməyə başlayır. Bu addımlar rayonlarda da atıldıqca, əhali elektrik enerjisindən qənaətlə istifadə etməyə başlayacaqdır.

**Heydər Əliyev:** Yaxşı, əyləş!

### «Azəriqaz» Səhmdar Cəmiyyətinin prezidenti Əlixan Məlikovun çıxışı

Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Cənab Prezident, şəxsən Sizin diqqət və qayğınız sayəsində son illər respublikamızda əhalinin və iqtisadiyyatın enerji daşıyıcıları ilə təminatının yaxşılaşdırılması istiqamətində çox mühüm işlər görülmüşdür. Milli Məclisin deputatı cənab İlham Əliyevin təşəbbüsü ilə respublika əhalisinin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə qaz almayan şəhər və rayonlarda qaz təminatının bərpa edilməsi təklifi, cənab Prezident, Sizin tərəfinizdən bəyənilmiş və «Azəriqaz» Səhmdar Cəmiyyətinə bu istiqamətdə konkret tapşırıqlar verilmişdir.

2001-ci ilin noyabr ayından başlayaraq qaz almayan rayonlara qazın verilməsinin bərpa edilməsi işlərinə başlanılıb və həmin işlər bu gün də davam etməkdədir.

Hazırda respublikamızın 47 rayon mərkəzinə təbii qaz verilir. Qeyd etmək lazımdır ki, biz Sabirabad, Saatlı bölgəsində böyük təmir işləri aparmışıq, həmin işlər yekunlaşdırılıb. Noyabrın 12-də həmin bölgəyə verilən qazın artırılmasını təmin edəcəyik.

Möhtərəm cənab Prezident!

Şəki şəhərinə qazın verilməsi 1996-cı ildə dayandırılmışdır. Qeyd olunduğu kimi, Sizin göstərişinizlə rayonlara qazın verilməsi tapşırığını aldıq və burada təmir işləri aparıldı. 2002-ci il fevralın 21-də Şəki şəhərinə qazın verilməsi bərpa edildi. Bununla əlaqədar 5,1 kilometr magistral kəmər təmir edilmiş, buna da haradasa, 1,7 milyard manat vəsait sərf olunmuşdur.

Qeyd etmək lazımdır ki, Şəki şəhərində, ümumilikdə, 12 min 500 abonent var. Bu vaxta kimi Şəki şəhərinin 7 min 300 abonenti qazla təmin olunmuşdur. Bu ayın axırına kimi biz yeraltı qaz kəmərlərində hissə-hissə sınaq işlərini aparıb, 700 abonentin qazla təminatına nail olacağıq. Bu sahədə işlər davam edir və qərara almışıq ki, ilin sonuna qədər abonentlərin sayını 10 minə çatdıraq. Bərpa işlərində burada cəmi 8 nəfər işçi çalışırdısa, hazırda onların sayı 65 nəfərdir.

Bir məsələni qeyd edim ki, verilən qazın haqqı Şəki şəhərində 90 faiz yığılır. Axırıncı aylar bu, 100 faizdir. Ümumilikdə isə, fevral ayından bu günə kimi verilən qazın haqqı 90 faiz ödənilmişdir.

**H e y d ə r  Ə l i y e v:** Şəki şəhərində?

**Ə l i x a n  M ə l i k o v:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** Bəs Azərbaycan üzrə?

**Ə l i x a n  M ə l i k o v:** Azərbaycan üzrə isə bu 41 faiz təşkil edir.

**H e y d ə r  Ə l i y e v:** Şəkidə 90 faiz?

**Ə l i x a n  M ə l i k o v:** Bəli, Şəkidə 90 faiz təşkil edir. Cənab Prezident, bir məsələni də qeyd edim ki, 2001-ci ildən respublikamızın 30 rayon mərkəzinə qaz veririk və həmin rayonlar üzrə ödəniş, ümumilikdə, 80–85 faiz təşkil edir.

**H e y d ə r  Ə l i y e v:** Onda sən bunları Bakı əhalisinə göstər. Bakı şəhəri gərək nümunə olsun. Şəki şəhəri qazın haqqını 90 faiz verir. Bakı şəhəri nə qədər verir?

**Ə l i x a n  M ə l i k o v:** Bakı şəhəri 39 faiz verir.

**H e y d ə r  Ə l i y e v:** Niyə Şəki qazın haqqını 90 faiz verə bilir, Bakı 39 faiz verir?

**Ə l i x a n  M ə l i k o v:** Mənə elə gəlir, o rayonlar ki, müəyyən müddət qaz almamışdılar, çətinlikləri gördülər, qaz bərpa olunandan sonra həmin rayonlarda qazın ödənişində yüksək faiz təmin olunub. Mən, yeri gəlmişkən, fürsətdən istifadə edib çox xahiş edərdim ki, rayon rəhbərliyi bu işə daim kömək etsin. Yəni diqqət yetirsinlər ki, bu səviyyə aşağı düşməsin. Cənab Prezident, biz Şəki şəhərində 13 minə yaxın abonenti tam qazla təmin etməyi 2003-cü ilin birinci rübünün sonuna nəzərdə tutmuşuq. Hasilat tədricən artdıqca yəqin ki, digər qəsəbə və kəndlərə də qaz veriləcəkdir.

**H e y d ə r  Ə l i y e v:** İş burasındadır ki, qazın hasilatı hələ ki, az artır. Gələcəkdə ola bilər ki, çox artsın. Amma bütün rayonları təmin etmək üçün gərək Rusiyadan daha da çox qaz alaq. Daha çox qaz almaq üçünsə, onlara daha çox dollar verməliyik. Hər halda, hesab edirəm ki, Şəki üçün mühüm bir hadisədir ki, xeyli vaxt qaz almırdılar, indi alırlar. Qədrini də bilirlər, ona görə haqqı 90 faiz ödəyirlər. Yaxşı olar ki, 100 faizə qaldırsınlar. Əgər haqqını verməsələr, qaz kəsilə bilər.

Mənim nəzərdə tutduğum nazirlər çıxış etdilər. Güman edirəm daha başqa çıxışlara ehtiyac yoxdur. Çıxış etmək istəyənlər varmı? Mənə heç bir sözünüz yoxdur? Var? Buyurun.

**Kiş kənd orta məktəbinin direktoru**
**Müzəkkir Qarayevin çıxışı**

Hörmətli Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Dünən prezidentimizin Şəkiyə gəlişi bizi çox məmnun etdi. Yəni bizim əzizimiz, ağsaqqalımız Şəkiyə gəlib. Rayonumuzun bütün əhalisi kimi, mən də bundan çox fərəhləndim. Dövlətimizin başçısı müraciət etdi ki, kimin çıxışı var? Mən də qərara aldım ki, öz ürək sözlərimi, öz razılığımı, yaşadığım kəndin adamlarının xahişini prezidentimizə çatdırım.

Biz bu gün Şəki şəhərində idman kompleksinin açılışında iştirak etdik. Bizim kənddən orada 500 nəfərdən artıq adam iştirak edirdi. Çox şad olduq. prezidentimiz Heydər Əliyevin, İlham müəllimin əməyi, doğrudan da, bizi sevindirir. Biz həqiqətən sevinirik. Cənab Prezident, hörmətli İlham müəllim, səmimi deyirəm ki, hər bir şəkili bizə göstərdiyiniz qayğıya görə ürəyində Sizə böyük məhəbbət bəsləyir.

Mən buraya gələrkən Kiş kəndinin ağsaqqalları, müəllimləri, adamları məndən xahiş etdilər ki, əgər imkan düşsə, sən bizim salamımızı, ehtiramımızı, xahişimizi hörmətli prezidentimizə çatdır. Mən sevinirəm, şadam ki, imkan düşüb, onların sifarişlərini Sizə çatdırıram.

Xahişləri bundan ibarətdir ki, Kiş kəndinin sakinləri, qocaları, cavanları, uşaqları Sizə həddindən çox hörmət bəsləyir, Sizin verdiyiniz fərmanlar və sərəncamlar məktəbdə, müəllim otağımızda, toylarımızda, mərasimlərimizdə başa düşdüyümüz səviyyədə müzakirə olunur və biz Sizi ürəkdən dəstəkləyirik.

Qeyd etdiyiniz kimi, Sizin kəndimizə böyük diqqət və qayğınız olub. Şəkini seldən qorumaq üçün bənd çəkdirdiniz, əməyiniz çox oldu. Bəxtiyar müəllim də, Siz də, kəndin adamları da, Abid müəllim də orda çox əziyyət çəkdiniz. Mən onun canlı şahidiyəm. Yaxşı şey o oldu ki, Şəki seldən qorundu, Kiş kəndinin 7 min əhalisi üçün körpü salındı. Kiş camaatının ildə 5-6 nəfəri həmin çayda axırdı, ölənlər də çox olurdu. Körpu salınandan sonra, cənab Prezident, kişlilər şəhərə avtobusla gəlirlər, bazarlıq edirlər, axşam da evlərinə qayıdırlar. Onlar hər dəfə şəhərə gəlib qayıdanda bu körpünü salanın ata-anasına rəhmət oxuyurlar. Dünyada bundan gözəl savab yoxdur. O savaba Siz nail olmusunuz.

Ona görə də mən körpü ilə bağlı Kiş kəndinin bütün sakinlərinin ehtiramlarını Sizə çatdırmağı özümə borc bilirəm. Əğər mən burda çıxış etməsəydim, rahat ola bilməzdim. Xahiş edirəm Siz də, buradakılar da məni bağışlasınlar ki, vaxtınızı alıram.

Kişlilərin bir xahişini də Sizə çatdırmaq istəyirəm. Bizim kəndin adamları həmin körpüyə Heydər körpüsü deyir. Körpü çox gözəl körpüdür. Sağ olsun onu tikənlər. Cənab Prezident, həmin körpü Sizin səyinizlə tikilibdir. Yəni, Şəkiyə, kişlilərə verdiyiniz qiymətdir. Mən istəyirəm ki, Azərbaycanın coğrafiyasına yazılsın ki, Kiş cayı üstündən də Heydər baba körpüsü salınıbdır.

Salamı, ehtiramı yetirdim, qaldı bir dənə xahiş. O nədən ibarətdir?

Hörmətli Prezident, mən məktəb direktoruyam. Bizim kənddə üç məktəb var. İkisi orta, biri ibtidai təhsil verir. Bizim məktəbdə 890 şagird təhsil alır. Həmin şagirdlərin təlim-tərbiyəsi ilə 101 müəllim məşğul olur. 43 sinif otağı var. 43-ünü də valideynlərin, müəllimlərin köməyi ilə tikmişik. 1928-ci ildə 4 otaqlı ibtidai məktəb tikilib. Həmin vaxtdan orada iki növbədə dərs keçilir. Axşama kimi əlimdə çəkic, kəlbətinlə gəzirəm. Amma məktəbimizin uğurları var.

Siz inanın ki, qəbulla əlaqədar kitabda çap olunubdur. Respublika üzrə göstərici 48 faizdir, bizim məktəb üzrə də o darısqal məktəbdə parta tapılmır. İnanın ki, 3-4 uşaq bir partada oturur. Mən, valideynlər, şagirdlər hər yerə – İqtisadi İnkişaf Nazirliyinə, Təhsil Nazirliyinə, bütün əlaqədar təşkilatlara məktublar yazmışıq. Cavab gəlir ki, respublikamızda iqtisadi vəziyyət ağırdır. Mən də camaata demişəm, a qardaş, qoyun müharibə qurtarsın, məktəb tikiləcək.

Cənab Prezident, təhsil müəssisələrində maddi bazanın yaxşılaşdırılması, yarımçıq qalmış tikililərin inşası ilə bağlı sizin bir fərmanınız çıxdı. Aparıb çayxanada oxudum. Dedim, gördünüz, bax, hörmətli prezidentimiz məktəbə də kömək edir. Ona görə də bütün kənd camaatı məni görəndə deyirlər ki, prezidentin canı sağ olsun, məktəbə də kömək edir.

Bizim kənddə iki hektar yarım torpaq sahəsini birtəhər qoruyub saxlamışıq. Hörmətli deputatımız buradadır, bilir, bir məktubumuz da ondadır. Hörmətli Prezident, həmin iki hektar yarımın bir hissəsini əlimizdən aliblar. Sağ olsun Əşrəf müəllim, kömək etdi, dedi ki, məktəb yerinə toxunmaq olmaz. İndi orada iki hektar yer qalıbdır. Orada 1092 yerlik məktəb binası tikmək üçün layihə də hazırdır. 1994-cü ildə tikintisi başlanıbdır. İri beton hissələr də gətirmişdilər. Sonra ortada bir dövr oldu, onları daşıyıb satdılar. Bizim kəndin müəllimləri yığışıb iri maşınların qabağını kəsirdilər ki, aparmasınlar.

**Heydər Əliyev:** Aparan da sizin kəndin adamları idi?

**Müzəkkir Qarayev:** Xeyr, şəhərə aparırdılar. Hörmətli Prezident, mən fikrimi yekunlaşdırıram. Xahişim budur ki, 2002-ci ildə bu məktəbin tikintisi başlasa...

**Heydər Əliyev:** Axı 2002-ci il qurtarır?

**M ü z ə k k i r  Q a r a y e v:** Siz sərəncam versəniz, iki ayda tikilər. Sizin köməyinizlə olar.

Bir qoca arvad var. Gəlib mənə deyir ki, Heydər Əliyev oğlu ilə Şəkiyə gəlibdir. Allah özünün də, oğlunun da canını sağ eləsin. Bizim məktəb tikiləndən sonra kəndimizə nəvəsi ilə gəlsin.

**H e y d ə r  Ə l i y e v:** Nəvəsi ilə!

**M ü z ə k k i r  Q a r a y e v:** Bəli. Siz o məktəbi tikdirsəniz, ona Sizin adınızı verərik. Heydər Əliyev adına Kiş kənd orta məktəbi, nəvənizlə, oğlunuzla o məktəbin açılışına qonaq gələrsiniz.

**H e y d ə r  Ə l i y e v:** O vaxta qədər nəvəmlə gələ bilmərəm?

**M ü z ə k k i r  Q a r a y e v:** Əlbəttə, gələ bilərsiniz.

Mən məktəbimizin müəllimləri, kənd sakinləri adından Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Məsləhətdirsə, o məktəbin tikintisinə kömək edin.

**H e y d ə r  Ə l i y e v:** Sözünü qurtardın?

**M ü z ə k k i r  Q a r a y e v:** Bəli.

**H e y d ə r  Ə l i ye v:** Onda dayan, bir-iki kəlmə söz deyim.

Birincisi, xoş sözlərinə görə təşəkkür edirəm. Deyirsən, 500 adam gəlmişdi, onların hamısına, Kiş kəndinin əhalisinə salamımı çatdır. O vaxt bəndi, körpünü tikmişik, sizə çox kömək etmişik. Körpüdən istifadə edirsiniz və özünə də Heydər körpüsü deyirsiniz. Deyin, amma onu coğrafiyaya salmaq lazım deyildir. Coğrafiyasız nə deyirsiniz, deyin. Heydər körpüsü deyirsiniz, buna etirazım yoxdur. Amma ona rəsmi ad vermək, coğrafiyaya salmaq lazım deyildir.

Ümumiyyətlə, keçmişdə də belə idi, nə coğrafiya olub, nə də Fərman, xalq haraya nə ad veribsə, o ad da qalıbdır. Bu da sizin öz işinizdir. Onu coğrafiyasız özünüz edə bilərsiniz.

Məktəb tikintisi barədə. Sən ki, məktəbinizin vəziyyətini bu cür təsvir etdin, bunların vəziyyəti doğrudan belə ağırdır?

**Ə ş r ə f  M ə m m ə d o v:** Cənab Prezident, lap ağır da demək olmaz. Onlar öz gücləri ilə 33 otaq təmir ediblər. Amma o kənddə 6 min 800 nəfər əhali yaşayır. İmkan daxilində müəyyən köməyə ehtiyac var.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, sən müəllimlərə, kəndlilərə de ki, məktəb tikiləcəkdir.

**M ü z ə k k i r  Q a r a y e v:** Çox sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Mən Seyidzadəyə tapşırdım ki, o yazsın, gedən kimi mənə desin, göstəriş verim. Düzdür, məktəb tikmək üçün indi bizim o qədər də çox vəsaitimiz yoxdur. Mən sentyabrın 1-də Bakıda bir məktəbə getmişdim. Yaxşı, nümunəvi məktəblərdən biri idi. Orada da vəziyyəti gördüm, o qədər yaxşı deyildi. Məktəb tikintisi ilə, məktəblərin təmiri ilə maraqlandım. Gördüm ki, indi bu da yaxşı deyildir.

Amma bir şeyi sizə deyim ki, kim öz imkanı ilə yerlərdə nə edirsə, onlar nəyəsə nail olurlar. Sizin icra hakimiyyətinin başçısı burada dedi ki, 4 ildə dörd məktəb tikmisiniz. Bu yaxşıdır. Amma bilirsiniz ki, Naxçıvan blokada şəraitində yaşayan bir yerdir, inşaat materialları da aparmaq mümkün deyil, çətindir, vəsait də çatmır. Amma son 4-5 il içində 50 məktəb tikiblər. Demək, istəyəndə edirlər. Ancaq elə rayonlar var ki, 10 ildir bir məktəb tikməyibdir. Beləlləri də var.

Ona görə də mən bir sərəncam verməyə məcbur oldum. O sərəncam əsasında lazımi tədbirlər görülür. Görünür, Təhsil naziri deyib ki, sizin kəndin, Kiş kəndinin adı orada yoxdur. Bəlkə də o bunu düşünmüşdür. Bir halda ki, burada bu cür yaxşı çıxış oldu və direktor Kiş kəndinin əhval-ruhiyyəsini mənə çatdırdı, gərək orada məktəb tikilsin. Mən bu barədə göstəriş verəcəyəm.

## YEKUN NİTQİ

Hörmətli xanımlar və cənablar!

Hörmətli dostlar!

Mən bu gün iş rejimimin son saatını sizinlə keçirirəm. Bunu qurtarandan sonra Şəkini tərk edəcəyəm. Dünən axşam buraya gələndə icra hakimiyyətinin başçısı ilə, buraya göndərdiyim nazirlərlə görüşdüm. Sonra bir-iki saat bugünkü məsələ haqqında fikir mübadiləsi apardıq. Amma bu gün səhərdən biz bir yerdəyik. Mən bu işlərlə məşğulam və çox da məmnunam. İnsanlar bəzən deyirlər ki, çox iş adamı yorur. Bəli, əlbəttə, iş adamı yorur. İnsan insandır. Hər bir insanın müəyyən fiziki imkanları var. Amma mən sizə açıq deyim ki, səhər tezdən indiyə qədər ayaq üstəyəm və yorulmamışam. Çünki bu müşavirə başlayarkən dedim – birinci növbədə, burada olan sağlam psixoloji ab-hava, ictimai-siyasi vəziyyət, xalqın xoş əhval-ruhiyyəsi və bizim görüşlərimizin çox uğurla keçməsi, təbiidir, Şəkidə böyük Olimpiya idman kompleksinin açılması o qədər böyük razılıq hissi doğurur ki, məsələn, şəxsən mən heç yorulmamışam.

Mən çox şadam ki, Şəkiyə gəldim. Uzun müddətdir gəlməmişdim. Amma həsrətində idim, gəlmək istəyirdim, sizinlə görüşmək istəyirdim. Nəhayət, buna nail oldum və günümüz də çox səmərəli keçdi. Mən bu gün sizi dinləyərək onu deyə bilərəm ki, təkcə bu gün yox, mən bütün gün şəhərdə olan əhval-ruhiyyəni, ab-havanı müşahidə edirəm. Bunların hamısının nəticəsində onu deyə bilərəm ki, Şəki rayonunda yaxşı mühit var, insanlar müstəqil dövlətdə yaşamaq imkanını çox yüksək qiymətləndirirlər. Bu gün Azərbaycanda yaratdığımız ictimai-siyasi sabitliyi qiymətləndirə bilirlər.

Məhz bu ictimai-siyasi sabitliyin nəticəsidir ki, Şəki əhalisi bu gün gördüyüm kimi, yüksək əhval-ruhiyyədədir və Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə sədaqətlidir. Mən bunların hamısını gördüm və bugünkü müşavirədə də bunu hiss edirəm. Bu sizin əldə etdiyiniz nailiyyətdir. Arzu edərdim ki, siz bu nailiyyətinizlə kifayətlənməyəsiniz, işinizi bundan sonra daha da yaxşı qurasınız və Şəkinin sosial-iqtisadi inkişafını daha yüksək sürətlə təmin edə biləsiniz.

Mən bu gün çıxışlarımda, söhbətlərimdə qeyd etmişəm ki, indi zaman dəyişib, Azərbaycanda da, keçmiş Sovetlər İttifaqının hər yerində də vəziyyət dəyişibdir. Biz 70 il bir sistem içərisində yaşamışıq, o sistemin yaxşı tərəfini də, nöqsanlarını da görmüşük. Ancaq o sistem içərisində nə qədər yaxşı yaşamış olsaydıq da, bəzi hallarda indi ona nisbətən bir az aşağı səviyyədə olmasına baxmayaraq, bu günümüzə də sevinməliyik, bu günümüzü qiymətləndirməliyik və bu günümüzə şad olmalıyıq. İş onda deyil ki, insanın həyat tərzi bu gün nə cürdür.

Təbiidir ki, hər bir cəmiyyətdə insan istəyir ki, onun rifah halı günü-gündən yaxşı olsun və hökumət də – doğrudan da əgər cəmiyyətin, xalqın hökumətidirsə, xalqa xidmət edirsə – çalışır ki, öz insanlarının rifah halını yaxşılaşdırsın. Ancaq eyni zamanda, hər bir insan üçün, hər bir xalq üçün bundan da qiymətli, üstün bir şey var. O da azad olmaq, sərbəst olmaq, müstəqil olmaqdır. Bizim ən böyük xoşbəxtliyimiz odur ki, 11 il bundan öncə azadlığa çıxdıq, öz dövlət müstəqilliyimizi bərpa etdik. İndi özümüz öz taleyimizin sahibiyik. İndi biz azad Azərbaycanda yaşayırıq, bizim dövlətimiz var. Bunlardan üstün heç bir şey ola bilməz! Biz bunlara görə indi mövcud olan, bundan sonra da ola biləcək çətinliklərə, çatışmazlıqlara dözməliyik. Hamımız dözməliyik. Ona görə dözməliyik ki, yenə də deyirəm, biz azad insanlarıq. Bir də ona görə ki, bugünkü Azərbaycan iqtidarının bütün sahələrdə apardığı siyasət, o cümlədən iqtisadi sahədə apardığı siyasət Azərbaycan iqtisadiyyatını günü-gündən inkişaf etdirir və Azərbaycan vətəndaşlarının hər birinin rifah halının yaxşılaşmasını təmin edir.

Biz bu il yaxşı səviyyədəyik. Ancaq mən etiraf edirəm ki, ümumiyyətlə, ölkəmizdə çatışmazlıqlar çoxdur. İndi bazar iqtisadiyyatı elə bir şərait yaradıbdır ki, insanların bir qismi çox zənginləşibdir. Bir qismi orta səviyyəni tutublar və onlar bizim üçün çəmiyyətimizin əsas hissəsi olmalıdır. Amma bir qismi də çətin vəziyyətdə yaşayır, yoxsulluq içində olan adamlar var. Bunlar hamısı bizim cəmiyyətimizin, Azərbaycan həyatının real mənzərəsidir. Ancaq bu da tamamilə qanunauyğun şeydir. Keçid dövrü, bir sistemdən başqa sistemə keçmək, bir iqtisadiyyatı vurub dağıtmaq, sonra yeni bir iqtisadiyyat qurmaq, 70 il adət elədiyin cəmiyyətdən ayrılmaq və yeni bir cəmiyyət içərisində, qanunlar əsasında, demokratiya əsasında, söz azadlığı, vicdan azadlığı, mətbuat azadlığı əsasında yaşamaq – bunların hamısı ağır və çətin proseslərdir.

Bu proseslərin nəticəsində biz, bir tərəfdən, inkişaf edirik, irəliləyirik, amma ikinci tərəfdən, bir çox sahələri hələ istədiyimiz səviyyədə inkişaf etdirə bilmirik. Bu, bütün Azərbaycanın, o cümlədən Şəki rayonunun, şəhərinin də reallığıdır. Mən çox məmnunam ki, siz bu reallığı bilirsiniz, dərk edirsiniz və keçid dövründə özünüzü layiqli Azərbaycan vətəndaşı kimi aparırsınız. Azərbaycan millətinin adını hər kəs öz işi ilə, cəmiyyətdəki mövqeyi ilə yüksəldir. Bunlar hamısı yaxşı hallardır. Onları qorumaq, saxlamaq lazımdır. Ancaq bütün Azərbaycanda olduğu kimi, Şəki rayonunda da istifadə olunmamış ehtiyatlar da var.

Bu gün Şəkinin icra hakimiyyətinin başçısı çıxış edəndə dedi ki, bu da yaxşıdı, bu da yaxşı olubdur, o da yaxşıdır. Məndə belə təsəvvür yarada bilmədi ki, doğrudan da hər şey yaxşıdır, yoxsa, sadəcə, yaxşı işləri dedi. Çatışmazlıqlar haqqında iki-üç kəlmə dedi ki, bunlar da var, biz bunları aradan qaldıracağıq. Amma o iki-üç kəlmənin arxasında çox böyük iş durur. Bəlkə də gərək iki-üç kəlmə yox, çıxışının böyük bir hissəsi bu barədə

olaydı. Görülən işlərlə yanaşı, deyiləydi və görəydim ki, bəli, çatışmazlıqlar, nöqsanlar aradan nə cür qaldırılacaqdır. Nöqsanlar var. İndi mən bunu xırdalamaq istəmirəm. Yenə də deyirəm, mən bu gün sizin şəhərinizə, əhval-ruhiyyənizə yüksək qiymət verdiyimə görə, bunu müəyyən qədər zədələmək istəmirəm. Amma eyni zamanda, demək istəyirəm ki, hər şey ideal vəziyyətdə deyildir. Qoy, icra hakimiyyətinin başçısı da belə düşünməsin. Onunla bərabər, müxtəlif sahələrə rəhbərlik edənlər də belə başa düşməsinlər. Mən də belə başa düşmürəm. Bu sözlərdən nəticə çıxarıb, işi daha da yaxşılaşdırmaq lazımdır.

Mən bu gün bir neçə dəfə dedim, indi dövlətin vəzifəsi, birinci növbədə, sosial sahəni gücləndirməkdir. Məsələn, təhsil sahəsini, səhiyyə sahəsini, sosial müdafiə sahəsini gücləndirməliyik. Biz bunu edirik, yenə də edəcəyik. Amma o ki qaldı istehsal sahəsinə, burada biz bütün imkanları veririk ki, sahibkar – istehsalçı yaransın, onlar kiçik, orta, böyük müəssisələr yaratsınlar. Cəmiyyətə, insanlara lazım olan malları istehsal etsin, bununla da iqtisadiyyatın bir hissəsini inkişaf etdirsinlər.

İqtisadiyyat naziri burada dedi, sizdə də çox şey özəlləşdirilibdir. Amma bu özəlləşdirilən müəssisələrin sahibləri gərək səmərəli işləsinlər. Bilirəm, burada çətinliklər var. Təkcə burada deyil, Azərbaycan üzrə özəlləşdirilmiş bir qisim müəssisələr, obyektlər indi bağlanıbdır. İnsanlar pul verib onları alıblar, amma indi işlədə bilmirlər. Ya bacarıqları çatışmır və ya əlavə vəsaitləri, yaxud da ki, təcrübələri çatmır. Bunlar Şəkidə də var. Bizim İqtisadiyyat Nazirliyi bax, bu məsələlərdə bütün sahibkarlara yardım etməlidir. Nazir sahibkarlar haqqında bizim qəbul etdiyimiz qərarlar, qanunlar və sahibkarlara edilən güzəştlər və sair haqqında dedi. Bu fərmanları, bu qərarları biz ardıcıl surətdə həyata keçirəcəyik. Bu işin təşkilatçılığının da çox hissəsini biz öz üzərimizə götürmüşük və götürəcəyik. Amma yerlərdə də, o cümlədən Şəkidə də gərək təşəbbüskarlıq olsun. Gərək bu işlərə münasibət olsun. Əgər indi hamı birlikdə Azərbaycanda bazar iqtisadiyyatını inkişaf etdirə bilməsə, biz – mən bu gün mitinqdə də dedim, neft strategiyasının həyata keçirilməsindən böyük gəlirlər alırıq, amma 2-3 ildən sonra daha da çox alacağıq – təkcə neftlə bütün xalqımızı saxlaya bilmərik. Neftdən gələcəkdə alacağımız gəliri Azərbaycanda böyük bir infrastrukturun, başqa sahələrin inkişaf etdirilməsinə yönəltməliyik. Yeni işlərin görülməsinə yönəltməliyik. Amma insanlar gərək özləri iş yeri yaratsınlar, təşəbbüskarlıq göstərsinlər. Mən bu tövsiyələrimi Sizə bildirmək istəyirəm.

Ümumiyyətlə, qış mövsümündə sosial məsələlər bir az da gərginləşir, kəskinləşir. Burada əsas məsələlərdən biri elektrik enerjisi ilə təminatdır. Demək olar ki, bu, məsələnin əsasıdır. Mən burada «Azərenerji» Səhmdar Cəmiyyətinin prezidentini bir az sıxışdırırdım. Ancaq eyni zamanda, demək istəyirəm ki, onlar son vaxtlar işlərini çox yaxşılaşdırıblar. Mən bunu qeyd etmək istəyirəm. Arzu edirəm ki, bu minvalla da getsinlər. Onda elektrik enerjisinin həm istehsalında, həm də istifadəsində daha da böyük imkanlar əldə ediləcəkdir. Mən bir də demək istəyirəm, burada Pirverdiyev də dedi ki, indi biz nə qədər yeni imkanlar yaratmışıq. Məsələn, Mingəçevirdə 8 enerji bloku var ki, vaxtilə onları biz 1970–80-ci illərdə tikmişdik. Onlar olmasaydı, biz indi, ümumiyyətlə, qaranlıqda idik. Amma onların istehsal gücü aşağı düşmüşdü, istənilən qədər enerji istehsal etmirdi. Onları təmir ediblər, gücünü artırıblar. Amma bundan sonra gərək çox nəzarət etsinlər ki, keçmişdəki səhvlər bir daha buraxılmasın.

Təəssüflər olsun ki, ötən illərdə elektrik enerjisi hasilatı sahəsində həm çox böyük səhvlər buraxılıb, həm də o sahədə insanlar onlara verilən imkanlardan sui-istifadə ediblər, dağıdıblar və çox xoşagəlməz işlər də görüblər. Onların hamısının qarşısı alınmalıdır. «Azərenerji» Səhmdar Cəmiyyətində bu tədbirlər həyata keçirilir və mən bu gün Pirverdiyevə tapşırıram: heç kəsdən çəkinmə, heç kəsdən qorxma. Mən səni təyin edəndə verdiyim göstərişləri ardıcıl surətdə həyata keçir. Kim sənə mane olarsa, mənə xəbər ver. Çünki bilirəm, keçmişdə bu işlərə mane olanlar da olubdur. İndi onları yaxına buraxmaq olmaz. Bizim bu sahə Azərbaycanın sosial problemlərinin həll olunmasında xüsusi rol oynayır.

Ancaq Pirverdiyev burada düzgün dedi, israfçılıq var. Siz bilirsiniz, keçmişdə, Sovetlər İttifaqı vaxtı elektrik enerjisi həm bol olub – biz bunları yaratmışıq ki, bol olub – həm də elektrik enerjisi çox ucuz idi. Ona görə də biz elektrik enerjisinə qənaət etməyə öyrənməmişik.

Xatirimdədir, mən hələ Moskvada işləyəndə, Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini olanda o vaxt bu məsələləri müzakirə edirdik. O vaxt artıq SSRİ-də elektrik enerjisi sahəsində gərginlik yaranmışdı. Biz Qərb ölkələrini, kapitalist ölkələrini özümüzlə müqayisə edirdik. Orada, məsələn, bir ailənin 5 otaqlı mənzili var, hər şeyi var. Ola bilər ki, 5 otağın ikisində televizor da var, maqnitofon və sair var. Amma o hansı otaqda oturursa, orada lampalar yanır, televizor işləyir, qalan otaqlarda söndürürlər. Rusiyada da bizdəki kimi idi. Bəlkə indi düzəlibdir. Bəli, bunun 3 otağı, 4 otağı var, içəri girir, hər yerdə lampaları yandırır. Əgər 2 otaqda televizor varsa, ikisi də işləyir, başqa şeylər də işləyir. İndi qış vaxtı bizdə hələ yanacaq çatmadığına görə elektrik enerjisi çox yerlərdə, təəssüflər olsun ki, Bakı şəhərinin özündə də, başqa yerlərdə yanacaq əvəzinə istifadə olunur. Allaha şükür, sobalar istehsal olunubdur, alırlar, elektrik xəttinə qoşurlar, enerjinin çox hissəsini götürür, evində istilik yaradır, israfçılıq edir, pulunu da vermir.

Bu israfçılıq təkcə sizdə deyil, mən bunu buradan, Şəkidən deyirəm və bütün Azərbaycana aid edirəm. Bunun qarşısı alınmalıdır. İnsan gərək hər şeyə öz malı kimi baxsın. Amma bizim Azərbaycan vətəndaşları

niyə öz malı kimi baxmırlar? Çünki işlədilən elektrik enerjisinin, burada dedilər, indi güc-bəla ilə 20 faizinin haqqı ödənilir. 80 faizinin haqqı gəlmir. Deməli, elektrik enerjisini insanlar pulsuz alırlarsa, onların vecinə deyil, evdə 5 lampa yandıracaq, 10 lampa yandıracaq, yaxud 1 lampa yandıracaqdır. Bilirsinizmi, bax, bu şüur hələ bizdə yaranmayıbdır. Amma bu da elektrik enerjisinin haqqını ödəməyə məcbur etməyənə qədər yaranmayacaqdır. Heç bir ölkədə belə qayda yoxdur. Mən MDB ölkələrini demirəm, orada bizimki kimi çox yerlər var. Amma başqa ölkələri, bizim qonşu İranı götürün, bizim qardaş Türkiyəni götürün. Hər kəs elektrik enerjisinin pulunu bir gün gecikdirsə, enerjini kəsirlər. Kim olur-olsun: bu kasıbdır, dövlətlidir, şəhid ailəsidir – fərqi yoxdur, enerjini kəsirlər. Bundan şikayət etməyə heç kimin haqqı yoxdur. Çünki elektrik enerjisindən istifadə etmək istəyirsənsə, pulunu verməlisən. Pulunu vermirsənsə, sənə elektrik enerjisi vermirlər. Amma biz hələ o səviyyəyə çatmamışıq. İnsanlarda bu keyfiyyəti yarada bilməmişik. Ona görə də elektrik enerjisi istehsalına biz həddindən çox vəsait sərf edirik, əvəzində isə haqqını ala bilmirik. Bax, bu da bizim büdcəyə çox böyük zərbə vurur. Ona görə mən bu gün «Azərenerji» Səhmdar Cəmiyyətinin prezidentinə tapşırdım və siz də bilin. Enerji təchizatında fasilələrdir, nədir, bunu sonra siz özünüz araşdıracaqsınız. Mən istəyirəm ki, Şəkidə insanlar elektrik enerjisi ilə normal təmin oluna bilsinlər. Bunun üçün siz əlaqəyə girin, danışın. Ancaq gərək qazın pulunu ödədiyiniz kimi, elektrik enerjisinin də pulunu ödəyəsiniz.

Onda elektrik enerjisini istədiyiniz qədər ala biləcəksiniz. Amma pulunu ödəyəndə, israfçılığa o qədər yol verilməyəcəkdir. Onda siz elektrik enerjisini lazım olan qədər alacaqsınız və beləliklə də, nə o tərəfə, nə də bu tərəfə çətinlik yaranacaqdır.

Mən çox məmnunam ki, indi Şəkiyə qaz gəlir. Burada icra hakimiyyətinin başçısı dedi ki, o illərdə, yəni 1970-ci illərdə biz Şəkidə 624 kilometr qaz xətləri yaratdıq. Necə oldu bunu yaratdıq? Bizim imkanımız var idi. O illərdə mən, bəli, həm Azərbaycanda qaz hasilatını artırmışdım, həm də Rusiyadan əlavə qaz alırdıq. Aldığımız qaza heç pul da vermirdik. Çünki bu ümumi sovet iqtisadiyyatı idi. Çalışdım ki, qısa müddətdə bizim bütün şəhərlərə və kəndlərin də çoxuna qaz xətləri çəkək. Yaxşı ki, çəkdik. İndi həmin 600 kilometr qaz xəttini çəkmək olarmı, yoldaş Məlikov? Çəkmək olmaz. Buna nə qədər böyük vəsait lazımdır. Amma biz o illərdə, 70–80-ci illərdə həmin xətləri çəkdik. Onlar indi qalıbdır. 1996-cı ildə sizə verilən qaz kəsilmişdi, indi bunu bərpa etdik və burada da danışıldı ki, bu nə cür oldu. Biz Rusiyadan qaz almağa başladıq. Çünki özümüz hasil edən qaz o qədər çox deyildir. Doğrudur, biz böyük bir qaz yatağı açmışıq – «Şahdəniz» yatağı. Orada 1 trilyon kubmetrdən artıq qaz var. Ona görə də biz Türkiyə ilə o qazı həmin ölkəyə ixrac etmək üçün müqavilə imzalamışıq. Oraya böyük vəsait qoyuruq. Yəni təkcə biz yox, bir çox xarici şirkətlərlə birlikdə. Bir neçə ildən sonra biz oradan qaz hasil edəcəyik, Türkiyəyə satacağıq. Həm oradan qaz çıxaracağıq, həm də neft quyularından səmt qazı alacağıq və o hesaba qaz artacaqdır. Onda əhalini qazla daha çox təmin etmək imkanı yaranacaqdır. Amma indi yoxdur. Əgər vaxtilə biz 15-16 milyard kubmetr qaz hasil edirdiksə, indi 6 milyard kubmetr, bəlkə ondan da az qaz hasil edirik. Bu, Azərbaycanı təmin etmir. Ona görə, bəli, İlham Əliyev vaxtilə təşəbbüs göstərdi, biz Rusiyadan qaz almağa başladıq. Amma ona da, siz bilirsiniz, çox pul veririk. Rusiya qazı bizə müftə vermir. Qazın hər min kubmetrinə 52 dollar pul veririk. İndi ildə 4 milyard kubmetr qaz alırıq. Bu da imkan verir ki, indi təkcə Bakını, onun ətrafını yox, başqa şəhərləri və rayonları da qazla təmin edək. Mən çox məmnunam ki, burada qazı alanlar onun haqqının 90 faizini verirlər. Bu çox yaxşı haldır. İstərdik ki, gələcəkdə də belə olsun. Burada Məlikov söz verdi, yaxın vaxtlarda Şəkiyə gələn qazı artıracaqdır. Demək olar ki, şəhərin əksər hissəsi qazla təmin olunubdur. Elədirmi? Bu, böyük bir hadisədir. Olmayanda, görürdünüz ki, qazsız yaşamaq necədir. İndi qaz alanda həm əhəmiyyətini, həm də ləzzətini görürsünüz.

Beləliklə, biz bu işləri görürük ki, xalqın sosial vəziyyəti yaxşılaşsın. Bu bizim vəzifəmizdir. Biz bunu edirik. İqtisadiyyatı inkişaf etdiririk ki, gəlirlərimiz artsın və bunların nəticəsində xalqın rifah halını yaxşılaşdıraq.

Mən 2003-cü ilin dövlət büdcəsinin layihəsini təqdim etmişəm. Milli Məclisimiz bunu müzakirə edir, yaxın günlərdə müzakirə qurtaracaqdır, güman edirəm ki, layihəni təsdiq edəcəklər. O büdcə ilə də biz bir çox sosial məsələləri həll edəcəyik.

Mən bu gün deyə bilərəm ki, biz büdcədən maliyyələşdirilən təşkilatlarda işləyən vətəndaşlarımızın tam əksəriyyətinin maaşlarını artıracağıq. Burada Kiş kəndindən müəllim çıxış etdi. Mən ona bildirmək istəyirəm, qoy bütün müəllimlər də bilsinlər ki, onların maaşını mən 2003-cü ildə birinci növbədə artıracağam. Özü də bu artım çox ciddi olacaqdır. Təkcə müəllimlər deyil, səhiyyə işçiləri də var, mədəniyyət işçiləri də var, başqaları da. Əvvəlcədən demək istəmirəm. Büdcə təsdiq olunsun, sonra biz onun planını quracağıq və ardıcıl surətdə, ilin birinci hissəsində bunların hamısı təmin olunacaqdır. İndi təsəvvür edin, 1996-cı ildən indiyə qədər maaşlar 3,4–3,5 dəfə artıbdır. Maaşları hər il artırırıq. 2003-cü ildə də artıracağıq.

Demək, bax, bu bizim iqtisadiyyatımızın inkişafının nəticəsində əldə olunan imkanlardır ki, onu da biz dərhal vətəndaşlarımızın rifahının yaxşılaşmasına yönəldirik. Bu da bizim vəzifəmizdir. Bunlar sosial məsələlərdir. Ancaq bazar iqtisadiyyatı sistemində başqa məsələlərin çoxu artıq insanların özlərinin üzərinə düşür. İnsanların özləri çalışmalı, təşəbbüskarlıq göstərməlidirlər.

Mən sizə deməliyəm ki, biz əhalidən və müəssisələrin bir çoxundan istifadə olunan elektrik enerjisinin, qazın, suyun haqlarını yığa bilmədiyimizə görə – bunun səbəblərini də mən sizə dedim – ildə 350 milyon dollar, bəlkə də çox vəsait itiririk.

**F ə r h a d  Ə l i y e v:** 600 milyon dollardan çox...

**H e y d ə r  Ə l i y e v:** 600 milyon dollardan çox. Mən bilən, sən çox deyirsən, hə?

**F ə r h a d  Ə l i y e v:** Cənab Prezident, mövcud qiymətlərlə təxminən 350 milyon dollardır, amma dünya qiymətləri ilə götürdükdə – İlham müəllim düz deyir – həm qaza, həm də elektrik enerjisinə görə təxminən 655 milyon dollar subsidiya veririk.

**H e y d ə r  Ə l i y e v:** Dünya qiymətləri ilə götürdükdə. Mən yenə də deyirəm, mövcud qiymətlərlə götürdükdə, biz əhalidən və müəssisələrdən elektrik enerjisinin, qazın, suyun pulunu, habelə kanalizasiya xidmətinin haqqını ala bilmədiyimizə görə, təxminən 350 milyon dollar vəsaiti dövlətin hesabına ödəyirik. Başa düşürsünüzmü? Əgər biz onları toplaya bilsəydik, bu 350 milyonu oraya sərf etməzdik, vətəndaşlarımızın sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına yönəldərdik.

Mən ötən gün Bakı metrosu haqqında danışırdım. Mən indi 9 ildir burada işləyirəm, bu müddətdə Bakı metrosunda gediş haqqı dəyişməyibdir – 250 manatdır. Amma Moskva metrosunda bizim pulla 1100 manatdır. Bakı metrosunun rentabelli işləməsi üçün gediş haqqı gərək 1000 manat olsun. Amma biz 250 manat alırıq. Deməli, hər dəfə biz vətəndaşımıza 750 manat pul veririk, güzəşt edirik. O bunu dövlətə verməlidir, amma biz ona veririk. Dolayısı ilə vətəndaşlarımıza yardım edirik. O cümlədən, elektrik enerjisindən istifadədə. Əgər vətəndaş elektrik enerjisinin pulunu versə, deməli, bu onun cibindən gedəcəkdir. Enerjinin pulunu vermir, onu müftə alır. Bu da bizim ona sosial yardımımızdır, sosial müdafiəmizdir. Amma yaxşı olar, hər şey düz olsun. Biz satırıq, yəni dövlət satır, pulunu alır, aldığı pulun hamısını da başqa yerə sərf etmir, yenə də vətəndaşların rifah halının yaxşılaşmasına, maaşların artmasına, digər sosial məsələlərə sərf edir. Bax, biz bu sistemi yaratmalıyıq. Bu sistemi yaradandan sonra, mən sizi inandırıram, bizim yaşayışımız bundan daha da yaxşı olacaqdır.

Güman edirəm ki, mənim bu sözlərimdən özünüz üçün nəticə çıxaracaqsınız. Şəkinin sakinləri Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi, inkişaf etməsi yolunda ön sıralarda gedəcəklər.

Bu gün siz burada mənim fəaliyyətim haqqında danışdınız, mənə xoş sözlər dediniz. Sizə təşəkkür edirəm. Mən 9 ildir ki, sizin iradənizlə, Azərbaycan xalqının iradəsi ilə, ağır şəraitdə Azərbaycanın prezidenti kimi bir vəzifəni daşıyıram. Bu gün də daşıyıram, sabah da və güman edirəm, bundan sonra da daşıyacağam. Əmin ola bilərsiniz, bu vəzifə ağır vəzifədir, çə tin vəzifədir. Kənardan bu vəzifənin həsrətində olanlar çoxdur. Vaxtilə də bu vəzifəni ələ keçirmək istəyən adamlar vardı. Azərbaycanda 2-3 ildə bir neçə prezident dəyişdi. Hərəsi bir ildən artıq tab gətirə bilmədi, Azərbaycana rəhbərlik edə bilmədilər və vəzifələrini qoyub qaçdılar. Amma bir halda ki, o ağır 1993-cü ildə xalq mənə müraciət etdi, etimad göstərdi, mən bu vəzifəni üzərimə götürdüm. Mən indiyə qədər bu vəzifəni daşımışam, nə qədər ağır olsa, nə qədər çətin olsa da, bunu daşıyacağam.

Bu gün mən mitinqdə dedim, bir də deyirəm, bütün problemlərin hamısını həll edirik və həll edəcəyik. Respublikamız ilbəil yüksələcəkdir. Bir problem bizim üçün ən ağır problemdir. Bu da Ermənistan–Azərbaycan münaqişəsini həll etməkdir. Biz bunu sülh yolu ilə həll etmək istəyirik. Çünki şəxsən mən yenidən qan tökülməsini istəmirəm, yenidən müharibə başlamaq istəmirəm. 1994-cü ilin mayına qədər bizim xalqımız o müharibənin nə olduğunu gördü. Xalqımız onun ağrı-acısını indiyə qədər də çəkir. Ona görə də bir şeyi sülh yolu ilə həll etmək olarsa, bu yolla həll etmək lazımdır. Ancaq bu da çətindir, bu da ağırdır. Səbəblərini siz bilirsiniz. Amma sizə bəyan edirəm ki, bu məsələ ilə mən daim məşğul oluram və bundan sonra da məşğul olacağam. İndiyə qədər əldə etdiyim bütün təcrübəni, biliyi, bütün beynəlxalq təşkilatlarla yaratdığım əlaqələri, ATƏT-in Minsk qrupu ilə daim apardığım işlərin hamısını bundan sonra da davam etdirəcəyəm ki, məsələni sülh yolu ilə həll edək. Həll edəcəyik, mütləq həll edəcəyik və ölkəmiz bu bəladan da qurtaracaq, ərazi bütövlüyümüz bərpa olunacaq, vətəndaşlarımız öz yerinə-yurduna qayıdacaq və respublikamız bundan sonra daha yüksək sürətlə inkişaf edəcəkdir.

Qalan işləri görərkən, mən həmişə xalqa arxalanmışam, xalqa bel bağlamışam. Bu günlər vətəndaşlarla həm mitinqdə, həm küçələrdə görüşlər onu göstərdi ki, bəli, yenə də xalq, yenə də xalq... Mənim həyatım həmişə xalqla bir yerdə olub, bu gün də bir yerdədir, sabah da bir yerdə olacaqdır. İndiyə qədər mənim həyatım xalqa xidmətdə keçib və gələcəkdə də bu xidmətimi davam etdirəcəyəm.

Mənə göstərdikləri etimada görə və burada gördüyüm xoş münasibətə görə bütün Şəki əhalisinə təşəkkür edirəm. Ümidvar olmaq istəyirəm ki, Şəki camaatı gələcəkdə də mənə münasibətdə bu cür sağlam mövqedə duracaq, dövlətçilik mövqeyində duracaq, Azərbaycan dövlətçiliyini müdafiə edəcək və Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində öz xidmətlərini göstərəcəkdir. Sağ olun.

* * *

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev noyabrın 10-da Şəki şəhərinə səfərini başa çatdıraraq Bakıya qayıtdı.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB CORC BUŞA**

Hörmətli cənab Prezident!

Noyabrın 5-də ABŞ Konqresində seçkilərdə Respublikaçılar Partiyasının qələbə qazanması münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Partiyanın lideri kimi, bu qələbədə Sizin şəxsi rolunuz həlledici olmuşdur. Amerika xalqı Sizin daxili və xarici siyasətinizi, terrorizmə qarşı beynəlxalq koalisiyanın təşkilində qətiyyətli mövqeyinizi və ardıcıl səylərinizi dəstəkləyərək Konqresin hər iki palatasına rəhbərliyi respublikaçılara həvalə etmişdir.

Terrorizmə qarşı mübarizə sahəsindəki fəaliyyətinizi yüksək qiymətləndirir və bu işdə Azərbaycanın ABŞ-la fəal əməkdaşlığından məmnunluq duyuram.

Ölkəmizə və xalqımıza bəslədiyiniz xoş, səmimi münasibətə, ən ağrılı problemimiz olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həlli üçün səylərinizə görə Sizə minnətdaram.

Sizə və başçılıq etdiyiniz Respublikaçılar Partiyasının bütün üzvlərinə dost Amerika xalqının rifahı və əmin-amanlığı, dünyada sülhün və təhlükəsizliyin bərqərar olunması naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 noyabr 2002-ci il*

## TÜRKİYƏNİN «SABANÇI HOLDİNQ» ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ SAKİP SABANÇININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 noyabr 2002-ci il*

Hörmətli Sabançı!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda səmimi-qəlbdən salamlayıram. Mənim xahişimlə Azərbaycana belə böyük qrupda gəlməyinizi çox yüksək qiymətləndirirəm.

Hörmətli Sabançı ilə son vaxtlar bir neçə dəfə danışıqlarımız, görüşlərimiz olmuşdur. Mən onu Azərbaycana dəvət etmişdim. Ancaq nəyi isə gözləyirmiş. İndi artıq həm özü gəlib, həm də özü ilə bərabər Azərbaycana çox mötəbər insanlar, Türkiyənin hörmətli iş adamlarını gətiribdir. Bu, Azərbaycan üçün çox böyük hadisədir. Çünki Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyədən Azərbaycana xeyli kiçik, orta, böyük iş adamı gəlibdir. Amma indi gələn ən böyük iş adamlarından biri Sabançıdır. Ümumiyyətlə, Türkiyədə Sabançıya bərabər ikinci iş adamı yoxdur. Ona görə bunu heç müqayisə etməyə ehtiyac yoxdur. Mən bu səfəri qiymətləndirirəm, bizim ictimaiyyət də buna çox böyük əhəmiyyət verir.

Mən sizi Türkiyədə dəvət edəndən sonra və məlum olanda ki, Azərbaycana gələcəksiniz, sizin bu səfərinizə böyük maraq var idi. Nəhayət, siz bunu həyata keçirdiniz. Ancaq mən burada bir məna da görürəm. Görünür ki, Sabançı 3 noyabr seçkilərinin keçməsini gözləyirmiş ki, məclis seçilsin və ondan sonra Azərbaycana gələsiniz.

**Sakip Sabançi:** Onda daha yaxşı olacaqdı.

**Heydər Əliyev:** Onda daha yaxşı olur. Mən bilirəm ki, siz bu seçkilərin nəticəsini bəyənmisiniz.

**Sakip Sabançi:** Bəyənmişəm.

**Heydər Əliyev:** Bəyənmisiniz və demisiniz ki, daha da yaxşıdır ki, indi Türkiyədə bir partiya iqtidarda olaçaqdır. Bu sizin sözlərinizdir, qəzetdə yazmışdılar, mən oxudum. Mən düşünürəm, yəqin siz gözləyirdiniz ki, Azərbaycana məhz yeni bir parlament, hökumət seçiləndən sonra gələsiniz. Amma baxmayaraq, bilirəm, sizin hökumətdən heç bir asılılığınız yoxdur. Hər bir hökumətin vaxtında, hər bir iqtidarın vaxtında Sabançı Sabançı olaraq qalıbdır. Çox vaxt iqtidarın, hökumətin Sabançıya ehtiyaçı olur, nəinki Sabançının hökumətə.

Çünki bazar iqtisadiyyatının qanunu belədir. Sərbəst iqtisadiyyatdır, iş adamı sərbəstdir, heç kəsdən də asılı deyildir. Öz işini normal görür, ölkəsinə mənfəət gətirir, vergiləri verir, büdcəni doldurur və beləliklə də onun müstəqilliyi başqalarına nisbətən daha da çoxdur, yüksəkdir.

Məmnunam ki, siz Türkiyədə yeni bir həyat başladığı zaman Azərbaycana gəlmisiniz. Mən bunu da çox qiymətləndirirəm. Fürsətdən istifadə edərək, Türkiyə Cümhuriyyəti və xalqını seçkilərin uğurlu keçməsi münasibətilə bir daha təbrik edirəm. Mən seçkilərdə qalib gələn partiyanın başqanı hörmətli Ərdoğanı dərhal telefonla təbrik etdim, ona uğurlar dilədim. Müxalifətdə olan, seçkilərdə ikinci yeri tutan partiyanın başqanı hörmətli Dəniz Baykalı da təbrik etdim, ona uğurlar arzuladım. Güman edirəm, yaxın vaxtlarda yeni hökumət yaranacaq və Türkiyə iqtisadi məsələlərin həll olunmasında daha da uğurlu işlər görəcəkdir. Belə bir vaxtda sizin buraya gəlməyiniz onu göstərir ki, Türkiyə–Azərbaycan iqtisadi əlaqələri daha da genişlənəcəkdir.

Siz Azərbaycanı görəcəksiniz, onun buğunkü həyatını görəcəksiniz və burada hansı işləri görəcəksinizsə, təbiidir, onu da özünüz müəyyən edəcəksiniz. Mən sizə təşəkkür edirəm.

*Səmimi qəbula görə minnətdarlığını bildirən cənab Sakip Sabançi dedi:*

– Hörmətli Prezident, çox sağ olun. Mən bilirəm ki, 35 ildən bəri gözəl bir xalq üçün xidmət göstərirsiniz. Siz bir memar olaraq, bir çox sahələrdə olduğu kimi, ölkənizin irəliyə getməsi üçün də əvəzsiz işlər görmüsünüz. Əgər son on ili keçmiş illərlə müqayisə etsək, yeni ruh insanların gördüyü işi sürətləndirdi. Dövlət müəssisələri vaxtilə çox önəmli və yolgöstərici idi. Bu gün məmləkətinizdə 15-16 ədəd özəl universitet yaratdınız. Dövlətin də universitetləri var idi. Ancaq əskidən yalnız dövlətin universitetləri varkən, rəqabət məsələsi gündəmə gəlmirdi. İndi rəqabət dövrüdür. Müqayisə etsək, dövlət sektorundakı universitetlər özəl sektorlardakı universitetlərlə birlikdə yeniliklər gətirəcəkdir. Hansı sahə olur-olsun, hansı insan idarə edir-etsin, aparılan rəqabət insanlara məmnunluq gətirir.

Mən zati-alinizi İstanbulda dinləyərkən çox təsirləndim. Sonra hörmətli naziriniz Fərhad bəyi dinlədiyim zaman ayrıca təsirləndim. Sizin enerji sahəsində inkişafınızın hədəflərə çatmasını qiymətləndirərkən tamamilə təsirləndim.

Zati-aliniz kürsüdə danışarkən, «Çalışsan da, çalışmasan da mən səni dəvət edəcəm» – dediniz. Bu, bir məsələni anladır. Yəni təşəbbüs xeyirlidirsə, insanlığa, ölkələrə fayda verirsə, belə təşəbbüslər həyata keçirilməli, təşviq olunmalıdır. Bu məhz bunu anladır.

Enerji sahəsində zati-alinizin rəhbərliyi ilə məmləkətinizdə son ildə görülən işlərə, inkişafa görə Sizə hər kəs mütləq təşəkkür edir və biz də təşəkkürümüzü bildiririk. Arzu edirik ki, uzun illər yaşayın, rəhbərliyiniz davam etsin və iki qardaş ölkə kimi dialoqlarımız daha da yaxşı olsun.

Mən bir eyibli işimi də söyləmək məcburiyyətindəyəm. Bu gözəl məmləkətinizə indiyə kimi gələ bilməmişəm. Bundan çox peşmanam. Amma bu keçmişdir. İndi irəliyə baxmaq daha yaxşıdır. Artıq ölkəmdə seçkilər başa çatdı. Əvvəllər söyləyirdim ki, partiyalar haqqında qanunları dəyişdirin, seçkilər haqqında qanunu dəyişdirin və ondan sonra seçkilərə gedin. Bu qanunların dəyişməsini bir səbəbə görə istəyirdim. Bu səbəb güclü, davamlı hakimiyyətin gəlməsi idi, buna həsrət idik, bunu gözləyirdik. Bunu partiya liderlərinə anlada bilmədik. Söylədik, söylədik – hamısı havada uçub getdi. Amma xalqımız səs verdi, liderlərin görə bilmədiyi işi xalq gördü. Xalq nə etdi? Təkbaşına güclü bir hakimiyyət yaratdı. Bu, təşəbbüs yolunu açacaq, evimizin içində, digər məmləkətlərdə görəcəyimiz işlərin, qoyacağımız sərmayələrin yolunu açacaqdır. Bundan hər kəs zövq alırsa, deyirəm ki, irəliyə gedəcəyik.

Qonaqpərvərlik göstərib bizi qəbul etdiyinizə görə, zati-alinizə bir daha təşəkkürümü bildirirəm. Cənab Prezident, icazənizlə, dəyərli həmkarlarım Sizə öz fəaliyyətləri barədə qısa məlumatlar versinlər.

**N i h a t  G ö k y i g i t** (*«Tekfen holdinq»in idarə heyətinin sədri*): Möhtərəm Prezident, mən buraya yenidən gəlmişəm. Şirkətimiz neft sənayesində Azərbaycanın yüz ildən də artıq olan çox qiymətli təcrübəsindən istifadə edərək, gözəl bir qrup yaratdı, onu müasir texniki avadanlıqla, tikinti materialları ilə təmin etdik. Bu qrup yaxşı işlər görübdür. Bakı–Supsa boru xəttinin Azərbaycan hissəsini tamamladıq. Eyni zamanda, burada neft sahəsində davamlı işlər görür. Ən önəmlisi isə, Bakıdakı bir terminalı tikməkdəyik.

Burada ikinci bir iş də görürük. Bayılda sizin gəmi təmiri zavodunuz var. O, sovet vaxtından qalıbdır və köhnəlibdir. Biz onun bir hissəsini aldıq, sərmayə qoyduq və müəyyən xidməti işlər görməyə başladıq.

**H e y d ə r  Ə l i y e v:** O, Dövlət Neft Şirkətinin işləridir?

**N i h a t  G ö k y i g i t:** Bəli. İndi daha böyük işlər var. Biz oranı tamamilə bərpa edirik və 25 milyon dollar sərmayə qoyacağıq. Həmçinin, gələcəkdə burada neft şirkətlərinə 120 milyon dollarlıq iş görəcəyik. Mən başqa işləri demirəm, amma yeri gəlmişkən, bir xahiş edəcəyəm. Hər il İstanbulda keçirilən «Üç dənizin hekayəsi» konfransında Siz buna yeni bir ad tapdınız, «Üç dənizin əfsanəsi» dediniz. Biz buna çox sevindik. Amma dediniz ki, Bakı–Tbilisi–Ceyhan əfsanəsi artıq bitdi. Yeni əfsanələr axtarın. Biz də axtarmağa başlamışıq.

Cənab Prezident, hər il iyunun 6-da İstanbulda keçiriləcək toplantımızda Sizin iştirakınızı çox arzu edirik. Bu toplantı dünyadakı ən böyük neft şirkətlərinin inkişafına xidmət edir. Türkiyə və Azərbaycanın iqtisadi inkişafında çox böyük xidmətlər göstərdiniz. Bunlardan biri də İstanbulda hər il keçirilən «Üç dənizin əfsanəsi» adlı konfransda iştirak etməyə qərar verməyinizdir. Təşəkkür edirəm.

**H e y d ə r  Ə l i y e v:** Mən sizin konfransınızı həmişə dəstəkləmişəm. Bunu bilirsiniz. Son dəfə də sizin konfransda iştirak etdim və bundan çox məmnun oldum. Siz konfransın adını «Üç dənizin hekayəsi» qoymusunuz. Mən isə dedim, bu, «Üç dənizin əfsanəsi»dir. Amma biz bu əfsanəyə son qoyduq. Əvvəllər onlar fikirləşirdilər ki, üç dəniz nə olacaqdır. Bakı–Tbilisi–Ceyhan boru xətti ilə biz üç dənizin əfsanəsini qurtardıq. Xəzər dənizini, Qara dənizi və Aralıq dənizini bir-biri ilə bağlayırıq. 15–20 il bundan öncə Türkiyədə, Azərbaycanda heç kəsin ağlına gəlməzdi ki, belə bir şey ola bilər. Amma artıq bu gerçəklikdir, biz bunu etmişik. İndi sizin şirkətiniz burada terminal tikir. İlk neft bu terminalda toplanacaq, oradan Bakı–Tbilisi–Ceyhan boru kəməri ilə Ceyhan limanına gedəcəkdir.

**N i h a t  G ö k y i g i t:** Yeni əfsanə üzərində çalışırıq. Sizin dəstəyinizə böyük ehtiyacımız var.

**H e y d ə r  Ə l i y e v:** Siz elə bir əfsanə tapın ki, o məni cəlb etsin, oraya gələ bilim.

**N i h a t  G ö k y i g i t:** Azərbaycan qazının Türkiyəyə çatdırılması və oradan Avropaya göndərilməsi. Bu da bir əfsanədir, amma həqiqət olacaqdır. Növbəti konfransda bu məsələni müzakirə edəcəyik. Əgər bu konfransa gəlsəniz, çox məmnun olarıq.

**H e y d ə r  Ə l i y e v:** Əgər konfransda bu məsələni müzakirə etsəniz, mən gələrəm.

**S a k i p  S a b a n ç i:** Hörmətli Cümhur başqanım, bizim bir qərarımız da var. Əgər gəlsəniz, mənim universitetimə, muzeyimə də gedəcəksiniz. Mən də Nihat bəyə qoşularaq deyirəm ki, əgər həmin konfransa gəlsəniz, bundan böyük şərəf duyacağıq.

**H e y d ə r  Ə l i y e v:** İnşallah.

**Z e y n a l a b d i n  E n s e y** (*«Türk–Amerika» işbirliyinin rəhbəri*): Möhtərəm Prezident, hamınızı hörmət və ehtiramla salamlayıram. Mən İstanbulda yerləşən bir toxuculuq fabrikinin sahibiyəm. Bir ipək fabrikimiz, İzmirdə konteyner zavodumuz da var. Digər sahələrdə də fəaliyyət göstəririk. Mən də Azərbaycana ilk dəfə gəlirəm. Biz digər türkdilli respublikaları gəzdik, amma buraya gəlmək qismət olmamışdı. Amma indi gəlmişəm, Sizinlə görüşməkdən çox məmnunam. Burada bir çox işlər görmək barədə düşüncələrimiz var. Çünki

Sizi çox sevirik. Azərbaycan bizim qardaşımızdır. Siz də onun çox hörmətli, sevimli cümhur başqanısınız. Ona görə də Sizi bir daha ehtiramla salamlayıram.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm, çox sağ olun.

**B ü l ə n d Ə c z a ç i b a ş ı** *(«Əczaçibaşı Holdinq»in idarə heyətinin sədri)*: Hörmətli Cümhur başqanım, hüzurunuzda olmaqdan çox böyük qürur duyuram. Mən buraya ikinci dəfədir gəlirəm. Çox gözəl ölkənizə birinci dəfə gəlməyimdən xeyli vaxt keçibdir. 9-cu cümhur başqanımız hörmətli Süleyman Dəmirəl ilə gəlmişdim. Keçən illər ərzində Azərbaycanda baş verən inkişafı, dəyişikliyi gördük, heyran olduq. Buraya gəlməyimdən on il keçib və aradakı fərqi görməmək mümkün deyildir. Biz bu inkişafı həm izləyirik, həm də bunun bir parçası olmaq arzusundayıq. Azərbaycanda bir çox sahələrlə əlaqələrimiz var. Sərmayə qoymaq üçün imkanları araşdırmaq istəyirik. Qarşıdakı illərdə Azərbaycana sərmayə qoymağı gözləyirik və onun həcmini artırmağı planlaşdırırıq. Azərbaycana sərmayə qoymaq bizim üçün şərəfdir. İnşallah, əlaqələrimizi irəliyə aparacağıq. Minnətdaram.

**Ə r d o ğ a n D ə m i r ö r ə n** («*Dəmirörən şirkətlər qrupu»nun sədri*): Cənab Prezident, biz Türkiyədə evlərə qaz sahəsində xidmət göstərən ikinci qrupuq. 25 vilayətdə fəaliyyət göstəririk. Eyni zamanda, ağır sənaye ilə, təhsil və digər işlərlə də məşğuluq. Bir neçə ildir ölkənizlə əlaqədəyik. Buraya sərmayə qoymaq üçün mütəxəssislərimiz araşdırmalar aparırlar. Hazırda son məlumatları gözləyirik. Onları aldıqdan sonra Sizin təbii qaz boru xətləri keçən bölgələrdə stansiyalar qurub, bəzi işləri görmək istəyirik.

Bu mənim Azərbaycana ikinci səfərimdir. Ölkənizdə əmin-amanlığı, sabitliyi görməkdən məmnunuq. Biz Sizinlə hər zaman çalışmağa hazırıq. İnşallah, birgə işlərimiz olacaqdır. Bizi dinlədiyiniz üçün hörmət və ehtiramımı bildirirəm.

**H ü s a m ə d d i n K a v i** («*Kavi Kablo» şirkəti idarə heyətinin və İstanbul Sənaye Palatasının sədri)*: Hörmətli Cümhur başqanım, şirkətimiz bir neçə ildir energetika sektorunda fəaliyyət göstərir. Hörmətli nazirinizlə iyun ayında İstanbul Sənaye Palatasında görüşmüşdük. Orada 50-dən çox sənaye şirkətinin rəhbərləri hörmətli naziri dinləmiş, düşüncələrini paylaşmışlar. Həmkarlarımız Azərbaycana sərmayə qoymaq, yeni layihələr həyata keçirmək üçün məlumat əldə etmişlər. İnanıram ki, onların bu sahədəki çalışmaları nəticə verəcəkdir. Çünki Bakı–Tbilisi–Ceyhan boru kəmərinin bölgənin enerji ehtiyatlarından istifadədə oynayacağı böyük bir rol yeni iş yerləri, sərmayə imkanları açacaqdır. Biz bundan sonra da əlaqələrimizi inkişaf etdirməyi və xalqlarımıza sədaqətlə xidmət etməyi düşünürük. Bizi qəbul etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

**S a k i p S a b a n ç i:** Hörmətli Cümhur başqanım, bütün həmkarlarım adından Sizə bir daha təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v:** Mən sizə təşəkkür edirəm ki, Azərbaycana gəlmisiniz və sizinlə bu qədər iş adamları gəlibdir. Mən bunu sadə bir hadisə hesab etmirəm. Bunun nəticəsi olacaqdır. Mən buna inanıram. Bu da Türkiyə iş adamlarının Azərbaycanda iş alması məsələsini daha da irəliyə aparacaqdır.

Mənim İstanbulda Türkiyənin iş adamları ilə görüşməyim – çox məmnunam ki, siz o görüşdə iştirak edirdiniz, biz bir yerdə söhbət etdik – bu məqsədi daşıyırdı ki, onları bir daha Azərbaycana dəvət edim, Azərbaycana gəlməyə həvəsləndirim. Onlara bir daha deyim ki, siz Türkiyədə, başqa ölkələrdə iş görürsünüz. Ancaq Azərbaycanda da iş görməyin sizə də, Azərbaycana da faydası var və Azərbaycan–Türkiyə əlaqələrinin inkişaf etməsində çox böyük əhəmiyyəti var.

Mənim cibimdə Sabançinin kartı var. Bunu görürsənmi? Sən bunu mənə orada verdin, elədirmi?

**S a k i p S a b a n ç i:** Bəli, görürəm.

**H e y d ə r Ə l i y e v:** Sən elə bildin ki, mən bunu alıb nə isə edəcəyəm. Cibimdə saxlamışam. Dedim ki, Sabançi Bakıya gələnə qədər bu mənim cibimdə qalmalıdır. O gəlsin, burada işlərimizi birlikdə görək.

**N i h a t G ö k y i g i t:** Cənab Prezident, o özünü ələ vermişdir. Yəni artıq buradan qaça bilməz.

**H e y d ə r Ə l i y e v:** Yox, o buradadır. Bu, onun pasportudur, mənim cibimdədir. Sizə bir daha təşəkkür edirəm.

## KANADANIN MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA, YAXIN ŞƏRQ ÜZRƏ DÖVLƏT KATİBİ QAR NUTSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 noyabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları səmimiyyətlə salamlayaraq, səfərin Kanada–Azərbaycan əlaqələrinin inkişafı üçün əhəmiyyətli olacağını bildirdi. Dövlətimizin başçısı dedi ki, biz Kanada ilə əlaqələrimizi inkişaf etdirmək istəyirik. Ötən illərdə bu sahədə müəyyən işlər görülsə də, Kanada–Azərbaycan əlaqələri hələ istənilən, bizim arzu etdiyimiz səviyyədə deyildir. Güman edirəm, siz də bu əlaqələrin inkişafını lazımlı bilirsiniz.*

*Səmimi qəbul üçün təşəkkür edən cənab Qar Nutson Azərbaycan prezidentinə Kanadanın Baş nazirinin, eləcə də ölkəsinin Xarici Işlər nazirinin salamlarını yetirdi. O, Bakıya səfərin məqsədindən danışaraq dedi ki, mən özüm və nümayəndə heyətinin üzvləri bu regionla əlaqələrə cavabdeh olan şəxslərik. Sizin regionla, o cümlədən Azərbaycanla müxtəlif sahələrdə əlaqələri genişləndirmək əzmindəyik. Bu həm ticarət-iqtisadi, həm də xarici sərmayə sahələrini əhatə edir. Diplomatik əlaqələrə də xüsusi fikir veririk.*

*Biz keçmiş sovet sistemindən yeni sistemə keçidlə bağlı çətinliklərin aradan qaldırılmasında əlimizdən gələn köməyi etməyə hazırıq.*

*Qonaq onu da vurğuladı ki, regionda öyrənməli şeylər də çoxdur və onlar bunu istəyirlər.*

*Sonra cənab Nutson başçılıq etdiyi nümayəndə heyətinin üzvlərini dövlətimizin başçısına təqdim etdi.*

*Kanada nümayəndə heyətinin üzvü, bu ölkənin Azərbaycana yeni təyin olunmuş səfiri Maykl Leir prezident Heydər Əliyevə müraciətlə dedi ki, mən Kanadanın Türkiyədəki səfiriyəm. Ümid edirəm ki, bir neçə həftədən sonra etimadnaməmi də Sizə təqdim edəcəyəm. Kanada ilə Azərbaycan arasında əlaqələri inkişaf etdirmək üzrə əsas ağırlıq mənim üzərimə düşəcəkdir.*

*Nümayəndə heyətinin digər üzvləri də məşğul olduqları sahələr barədə məlumat verdilər.*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları dinləyərək dedi ki, siz bu gün çoxlu görüşlər keçirmisiniz. Xüsusən, Xarici İşlər Nazirliyində görüşünüz olub, əsas məsələləri müzakirə etmisiniz. İqtisadi İnkişaf Nazirliyində də olmus, yəqin ki, iqtisadi məsələlər haqqında geniş fikir mübadiləsi aparmısınız. Çünki əlaqələrimizin inkişaf etdirilməsi üçün diqqəti iqtisadi əməkdaşlığa yönəltməliyik. Bu sahədə bəzi addımlar atılıb, ancaq hələ ki, Kanada iş adamlarının Azərbaycanda çox böyük iş görməsini müşahidə etmirəm. Amma burada Kanada biznesi üçün çox yaxşı şərait var.*

*Prezident Heydər Əliyev vurğuladı ki, dünyanın böyük, iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərindən biri kimi, Kanada Qafqaz regionunda, xüsusilə Cənubi Qafqazda sülhün, təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verməlidir. Azərbaycan Ermənistanla müharibə vəziyyətindədir. Ermənistan vaxtilə müəyyən səbəblərdən Azərbaycan torpaqlarının bir qismini işğal edibdir. Oradan bir milyona qədər insan zorla çıxarılıbdır. Biz məsələni sülh yolu ilə həll etməyə çalışırıq. Bu sahədə ATƏT-in Minsk qrupu ilə əməkdaşlıq edirik. Kanada da ATƏT-in üzvüdür və bu məsələ həmişə ATƏT-in gündəliyində olub, müzakirə edilibdir. Mən ATƏT-in sammitində Kanadanın Baş naziri ilə də görüşüb, bu barədə söhbət etmişdim.*

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ FƏXRİ ÜZVÜ, LENİN MÜKAFATI VƏ SSRİ DÖVLƏT MÜKAFATLARI LAUREATI KƏRİM KƏRİMOVA**

Hörmətli Kərim Kərimov!

Sizi, Azərbaycan xalqının görkəmli oğlunu 85 illik yubileyiniz münasibətilə təbrik edirəm və Sizə xoşbəxtlik, cansağlığı və firavanlıq arzulayıram.

Kosmik raket texnikasının inkişafı ilə qırılmaz surətdə bağlı olan bütün həyatınız XX əsrdə kosmosun öyrənilməsi tarixinin ayrılmaz hissəsinə çevrilmişdir. Siz 25 ildən artıq bir dövrdə kosmik uçuşlar üzrə Dövlət Komissiyasına başçılıq edərək, keçmiş SSRİ-də bir çox nadir elmi-texniki layihələrin həyata keçirilməsi üçün xeyli əmək sərf etmisiniz. Sizin əməyiniz istər dövlət tərəfindən, istərsə də kosmik elm və texnikanın görkəmli nümayəndələri tərəfindən yüksək qiymətləndirilmişdir.

Azərbaycan alimləri ilə daim xoş münasibətlər saxlamağınızı biz yüksək qiymətləndirir və ümid edirik ki, Sizin topladığınız təcrübə və hərtərəfli biliklər ölkəmizdə kosmik tədqiqatların inkişafına, şübhəsiz, öz töhfəsini verəcəkdir.

Sizə uğurlar diləyirəm. Ən xoş arzularla,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 noyabr 2002-ci il*

**GÜRCÜSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EDUARD ŞEVARDNADZEYƏ**

Hörmətli Eduard Amvrosiyeviç!

Azərbaycan ilə Gürcüstan arasında diplomatik münasibətlər yaradılmasının 10 illiyi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ötən dövrdə dövlətlərarası münasibətlərimiz hərtərəfli inkişaf etmiş, strateji tərəfdaşlıq xarakteri almışdır.

Səmimi dostluq, əməkdaşlıq və mehriban qonşuluq ənənələri əsrlərdən bəri xalqlarımız arasında münasibətlərin əsası olmuşdur. İnanıram ki, bu ənənələr xalqlarımızın rifahı naminə, Qafqazda sülh və sabitlik naminə bundan sonra da inkişaf edəcək və artacaqdır.

Əminəm ki, regional və beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyət və qarşılıqlı dəstək, transmilli layihələrin həyata keçirilməsində birgə səylər ölkələrimizin müstəqilliyi və suverenliyinin möhkəmlənməsinə, xalqlarımızın rifahının yüksəlməsinə xidmət edəcəkdir. Hörmətli Eduard Amvrosiyeviç, sizə möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar, dost Gürcüstan xalqına isə əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 noyabr 2002-ci il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ AZƏRBAYCAN RESPUBLİKASINDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ROSS UİLSON İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 noyabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev səfiri səmimiyyətlə salamlayaraq, hal-əhval tutdu.*

*Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Ross Uilson dedi ki, cənab Prezident, hər şey yaxşıdır, Siz də çox gümrah görünürsünüz. Xeyli vaxtdır ki, Sizinlə təklikdə görüşmürük. Səfərə gələnlərin müzakirə etdiyi məsələlərdən əlavə, müəyyən mövzular var ki, onları Sizinlə təklikdə müzakirə etmək lazımdır. Cənab Prezident, bu imkana görə çox sağ olun, NATO-nun gələn həftə Praqada keçiriləcək sammiti ərəfəsində Sizinlə görüşmək istəyirdim. Bu çox vacib sammit olacaqdır. Orada həm NATO-nun genişlənməsi, həm də yeni münasibətlərin qurulması, xüsusilə tərəfdaş ölkələrlə, yəni Azərbaycan kimi ölkələrlə yeni münasibətlərin qurulması məsələləri müzakirə ediləcəkdir.*

*NATO Azərbaycanla əlaqələrini dərinləşdirmək istəyir. Zənnimcə, bu sammit Azərbaycan üçün də yaxşı imkanlar verəcək ki, NATO ilə birlikdə işləmək əzmində olduğunu bir daha nümayiş etdirə bilsin.*

*Səfir daha sonra vurğuladı ki, müasir dövrdə Azərbaycanın dünyada rolu dəyişmək üzrədir. Dünən parlamentdə gedən müzakirələr də bunu göstərir. Mən Azərbaycan əsgərlərinin Əfqanıstana göndərilməsini nəzərdə tuturam.*

*Bu həddindən artıq vacib bir qərar və olduqca zəruri addımdır. Elə bilirəm ki, bu hamının diqqət mərkəzində olacaqdır. Biz bu məqsədlə Azərbaycanın Müdafiə Nazirliyinə 1 milyon dollar əlavə yardım etmək əzmindəyik. Sizə məlum olduğu kimi, artıq 4,4 milyon dollar yardım edilmişdir. Biz Azərbaycanın bu yeni rolunu və Sizin qərarınızı tam dəstəkləyirik.*

*Azərbaycan prezidenti Heydər Əliyev səfirin fikirləri ilə razı olduğunu bildirərək dedi ki, NATO-nun bu sammiti, həqiqətən, çox böyük əhəmiyyət kəsb edir. Madriddə, Vaşinqtonda da NATO-nun sammitlərində iştirak etmişəm. Ona görə artıq müəyyən təcrübəmiz də var və bizim əlaqələrimizin müəyyən tarixi də var. Ancaq buna baxmayaraq, Praqa sammiti, həqiqətən, indiki çox mürəkkəb bir dövrdə keçirilir və NATO-nun fəaliyyətinin təkmilləşməsi üçün də yəqin ki, çox mühüm qərarlar qəbul edəcəkdir. Ona görə də mən böyük maraqla bu sammitə getməyə hazırlaşıram.*

*Biz son illər, xüsusən son dövrdə NATO ilə əlaqələrimizin inkişaf etdirilməsində xeyli işlər görmüşük. Ona görə də bu sammitdə bizim olmağımıza tamamilə əsas var. Biz gələcəkdə də NATO ilə əlaqələri inkişaf etdirəcəyik. Mən şadam ki, NATO bizim ölkəmizə maraq göstərir. Güman edirəm ki, bu işlərimiz uğurlu olacaqdır.*

*Dövlətimizin başçısı Azərbaycan əsgərlərinin Türkiyə hərbi hissələri tərkibində Əfqanıstanda iştirakını yüksək qiymətləndirdiyinə görə səfirə təşəkkür edərək dedi ki, mən bu barədə bir neçə ay bundan öncə qərar qəbul etmişdim. Ancaq bunu Türkiyə Silahlı Qüvvələri ilə razılaşdırmaq prosesi gedirdi. Onların hamısı həll olundu. Mən Milli Məclisə məktub göndərdim ki, onlar bu barədə qərar qəbul edib razılıq versinlər. Təbiidir ki, bu da təmin olunacaqdır. Onlar gərək ki, ayın 18-də buradan yola düşəcəklər. Güman edirəm, Kosovoda olduğu kimi, burada da onlar çox uğurla xidmət edəcəklər. Bilirsiniz ki, bizim əsgərlər Türkiyə hissələri tərkibində Kosovoda özlərini çox yaxşı göstərdilər. Bunlar bizim NATO ilə əməkdaşlığımızı nümayiş etdirən konkret faktlardır.*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MİLLİ DİRÇƏLİŞ GÜNÜ PAYTAXTDA GƏZİNTİYƏ ÇIXMIŞDIR**

*17 noyabr 2002-ci il*

*Gəzinti böyük ədibimiz Cəfər Cabbarlının adını daşıyan meydandan başlandı. Burada Bakı sakinləri və şəhərin qonaqları dövlətimizin başçısını səmimiyyətlə, mehribanlıqla salamladılar. Prezident Heydər Əliyev onlarla görüşüb söhbət etdi. Gəncəli qadın ölkəmizin rəhbərinə müraciətlə dedi:*

Cənab Prezident, Sizinlə görüşmək olarmı? Mən Gəncədən gəlmişəm...

**H e y d ə r Ə l i y e v:** Haradan gəlmisən?

**G ə n c ə l i q a d i n:** Gəncədən gəlmişəm. Allah Sizə cansağlığı versin.

**H e y d ə r Ə l i y e v:** Gəncə şəhəri indi necədir? Mən gələndən sonra şəhər yaxşılaşıb?

**G ə n c ə l i q a d i n:** Bəli, Siz Gəncədən qayıtdıqdan sonra lap dəyişibdir.

**H e y d ə r Ə l i y e v:** Onda bir də gəlib baxacağam. Sağ olun, salam söyləyin.

**G ə n c ə l i q a d i n:** Qonaq gəlin, şəhərimizə bir də baxın. Allah Sizi başımızın üstündən əskik etməsin. Mən Bakıya Sizi görmək üçün gəlmişdim.

*Meydana toplaşanların hər biri prezident Heydər Əliyevin əlini sıxmaq, ona dərin hörmət və ehtiramını, sonsuz məhəbbətini bildirmək istəyirdi. Pirallahı qəsəbəsinin sakini olan qadın dövlətimizin başçısını səmimiyyətlə salamlayaraq dedi:*

Mən Pirallahıdan gəlmişəm. Allah Sizi bizə çox görməsin.

**H e y d ə r Ə l i y e v:** Orada işlər neçədir?

**P i r a l l a h ı s a k i n i:** Yaxşıdır, çox sağ olun.

**H e y d ə r Ə l i y e v:** Camaat necədir?

**P i r a l l a h ı s a k i n i:** Yaxşıdır, hamı Sizdən razılıq edir.

**H e y d ə r Ə l i y e v:** Yaxşıdır? Hamı razıdır?

**P i r a l l a h ı s a k i n i:** Bəli, razıdır. Allah Sizdən razı olsun.

*Prezident Heydər Əliyevlə görüşənlərdən biri də Masallı rayon sakini oldu. O, dövlətimizin başçısına müraciətlə dedi:*

Mən ömrümdə ilk dəfədir Sizinlə rastlaşıram. Yeni Azərbaycan Partiyasının üzvüyəm. Bir oğlum var, səhv iş tutmuşdur, indi həbsxanada yatır. Anası da xəstədir.

**H e y d ə r Ə l i y e v:** Nə üçün həbsxanada yatır?

**M a s a l l ı s a k i n i:** Fərarilik edibdir.

**H e y d ə r Ə l i y e v:** Fərarilik edib?

**M a s a l l ı s a k i n i:** Bəli, səkkiz aydır həbsxanada yatır. Təvəqqe edirəm, onu bağışlayın.

**H e y d ə r Ə l i y e v:** Axı cinayət edibdir...

**M a s a l l ı s a k i n i:** Bilirəm. Amma xahiş edirəm.

*Dövlətimizin başçısı daha sonra Cəfər Cabbarlının abidəsini seyr etdi, onun 1982-ci ildə ucaldıldığını xatırlatdı. Prezident Heydər Əliyev metronun «28 May» stansiyasının qarşısına gəldi, burada toplaşanlarla hal-əhval tutdu.*

Necəsiniz? Kefiniz necədir? Rahat yaşayırsınız, sakitlikdir, sabitlikdir, elədirmi?

**Ş ə h ə r s a k i n l ə r i:** Çox sağ olun, Allah Sizi salamat eləsin.

**H e y d ə r Ə l i y e v:** Bu gün istirahət günüdür, dincəlirsiniz. Görürsünüz, şəhər də necə gözəlləşir. Buralar təmizlənibdir. Gəldim, baxım görüm necədir. İnsanlar burada istirahət edir. Hər şey yaxşıdır, elədirmi? Metropolitendən istifadə edirsiniz, yoxsa yox?

**Ş ə h ə r s a k i n l ə r i:** Bəli, istifadə edirik.

**H e y d ə r Ə l i y e v:** Hər gün istifadə edirsiniz? Yaxşı işləyirmi?

**Ş ə h ə r s a k i n l ə r i:** Yaxşı işləyir. Metroda səliqə-sahman var. Hər şey öz qaydasındadır.

**H e y d ə r Ə l i y e v:** Çox yaxşı haldır ki, bizim şəhərin belə metropoliteni var. Mən də metro ilə getmək istəyirəm. Yoxsa prezident həmişə avtomaşınla gəlib-gedir, bir az da metro ilə getsin.

*Ağsaqqallardan biri dövlətimizin başçısına müraciətlə dedi:*

Yoldaş Əliyev, həmişə xalq, cavan insanlar arasında olasınız.

**H e y d ə r Ə l i y e v:** Mən elə cavanların içərisindəyəm.

**Y e r d ə n s ə s:** Mənim də familiyam Əliyevdir. Azərbaycanda Əliyevlər, Məmmədovlar çoxluq təşkil edir.

**H e y d ə r  Ə l i y e v:** Azərbaycanda hamı Əliyevdir, Məmmədovdur. Çünki bizim Məhəmməd Peygəmbərimiz, Həzrət Əlimiz var. Vaxtilə valideynlərimiz bu adlardan istifadə edib, bizə də belə adlar veriblər. Ona görə Azərbaycanda Əliyev də çoxdur, Məmmədov da.

**Y e r d ə n  s ə s:** Bu gün mən arzuma çatdım. Sizi görmək, söhbətinizi eşitmək mənim üçün çox xoşdur. Başqa heç bir arzum, ehtiyacım yoxdur. Ailəlikcə Sizi sevirik. Siz çox gümrahsınız.

**H e y də r  Ə l i y e v:** Bəs sən necə təsəvvür edirdin? Televiziyada görürdün ki, gümrah deyiləm? Televiziya həmişə bir az səhv edir. Əsl həqiqət buradadır.

**Y e r d ə n  s ə s:** Cənab Prezident, Masallı camaatı Sizin xətrinizi o qədər istəyir ki, Azərbaycanda daim prezident olmağınızı arzulayır. Mən 20 ilə yaxındır ki, Viləşçayda meliorasiya sahəsində işləyirəm. Biz Sizdən çox razıyıq.

*Burada yaşlı bir qadın dövlətimizin başçısına yaxınlaşaraq dedi:*

Mənim bir xahişim var. Oğlum Qarabağ əlilidir, evdə oturub, işi-gücü yoxdur. Gözünü aldığı pensiyaya dikib, mümkünsə, ona kömək edin. Sənə qurban olaram. Allah balalarını, nəvələrini saxlasın, ömrünü uzun etsin.

**H e y d ə r  Ə l i y e v:** İşi yoxdur... Hacıbala Abutalıbov, sən bunları yaz. Yaxşı, sağ olun.

*Sonra Azərbaycan prezidenti bu günlərdə 35 illiyini bayram etmiş metropolitenin «28 May» stansiyasına daxil oldu.*

*Metro işçisi prezident Heydər Əliyevi salamlayaraq dedi:*

Cənab Prezident, bizim metropolitenə xoş gəlmisiniz.

**H e y d ə r  Ə l i y e v:** Necəsiniz? Necə işləyirsiniz? Metropolitenin yubileyini də qeyd etdik.

**M e t r o  i ş ç i s i:** Çox sağ olun, Sizə minnətdarıq.

*Sonra dövlətimizin başçısı qatara əyləşərək «Sahil» stansiyasına gəldi.*

*Azərbaycan prezidenti stansiyanın çıxışında satışa qoyulmuş dövri mətbuatla, kitablarla maraqlandı, rəsmi qəzetlərin göz qabağında qoyulmamasına, Azərbaycan dilində kitabların son dərəcə az olmasına iradını bildirdi.*

*Kütləvi informasiya vəsitələrinin nümayəndələri dövlətimizin başçısını Milli Dirçəliş günü münasibətilə təbrik etdilər. Prezident Heydər Əliyev də onları təbrik edərək dedi ki, Dirçəliş günü Azərbaycan xalqının milli oyanış günüdür. Ona görə həmin gün bizim üçün əzizdir.*

*Bakı sakinləri dövlətimizin başçısını «Sahil» stansiyası qarşısında böyük ehtiramla salamladılar. Prezident Heydər Əliyev Bülbül və Azərbaycan prospektlərinin tinində yerləşən akademik Zərifə Əliyevanın barelyefi vurulmuş evin yanında ayaq saxladı.*

*Dedi ki, vaxtilə bu evdə yaşamışam, ona görə də indi buradan keçərkən dayandım.*

*Azərbaycan prezidenti burada paytaxt sakinləri ilə söhbət zamanı onların qayğıları ilə maraqlandı.*

**S e v d a  H ü s e y n o v a**(*Bakı sakini*)**:** Möhtərəm Prezident, Sizi görməyimə çox şadam. Bu xoşbəxtlik hər adama nəsib olmur. Mən Yeni Azərbaycan Partiyasının üzvüyəm, Sizin yeritdiyiniz siyasətlə həmişə fəxr etmişəm.

Sizə deyiləsi sözüm var. «Qlobal Türkiyə» müəssisəsi şəxsi mülküm olan evimi sökmüş, məni küçəyə atmışdır. Öz evimdən məcburi qaydada Yasamal rayonunda 1 otaqlı mənzilə köçürmüşdür. Məni məhkəməyə veriblər, hüquqlarımı pozublar. Hacıbala müəllimin yanında olmuşam. Kömək göstərməyə çalışıb, amma bacarmayıb. Çox çalışdı ki, mənə kömək etsin.

**H a c ı b a l a  A b u t a l ı b o v**(*şəhər icra hakimiyyətinin başçısı*)**:** Cənab Prezident, bu xanım 10 dəqiqə bundan əvvəl mənə müraciət etdi. Ona dedim ki, sabah yox, o biri gün gəlsin, özü də mənimlə razılaşdı.

**S e v d a  H ü s e y n o v a:** Mən evimin yerində tikilən binada ikiotaqlı mənzil istəmişəm, ayrı heç nə istəmirəm.

**H e y d ə r  Ə l i y e v:** Bilirsən, mən bu məsələni həll edərəm.

Nə istəyirsən?

**S e v d a  H ü s e y n o v a:** İkiotaqlı mənzil istəyirəm. Mənim köhnə mənzilim 61,5 kvadratmetr idi.

**H e y d ə r  Ə l i y e v:** Mənzilin harada olub?

**S e v d a  H ü s e y n o v a:** Maliyyə Nazirliyi ilə üzbəüz.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Sənə elə orada da ikiotaqlı mənzil verirəm.

**S e v d a  H ü s e y n o v a:** Mən həyatımda heç nə istəməmişəm.

**H e y d ə r  Ə l i y e v:** Adın nədir?

**S e v d a  H ü s e y n o v a:** Hüseynova Sevda Kərim qızı. «Azərsənayetikinti» Səhmdar Cəmiyyətində aparıcı mühasib işləyirəm, iki institut bitirmişəm.

**H e y d ə r  Ə l i y e v:** Hacıbala Abutalıbov, mənzili nə vaxt verəcəksən?

**H a c ı b a l a  A b u t a l ı b o v:** Cənab Prezident, sabah yox, o biri gün gəlsin, orderini götürsün.

**S e v d a  H ü s e y n o v a:** Çox sağ olun, minnətdaram.

*Sonra dövlətimizin başçısı Milli Parka gəldi. Dəniz kənarında gəzintiyə çıxmış Bakı sakinləri prezident Heydər Əliyevi mehribanlıqla qaşıladılar.*

*Azərbaycan prezidenti Milli Parkda aparılmış yenidənqurma işləri ilə maraqlandı, tövsiyələrini bildirdi, yarımçıq qalmış işlərin tezliklə başa çatdırılması haqqında tapşırıqlar verdi.*

*Dövlətimizin başçısı Milli Parkda istirahət edən Bakı sakinləri ilə hal-əhval tutdu, səmimi söhbət edərək dedi ki, hələ bəlkə də hər şey əla deyil, amma, ümumiyyətlə, yaxşıdır. Hava da yaxşıdır. Sabitlikdir, insanlara dəyən-toxunan da yoxdur.*

*Azərbaycan prezidenti Heydər Əliyev valideynləri ilə birlikdə gəzintiyə çıxmış uşaqlarla xatirə şəkilləri çəkdirdi, şəhər sakinləri ilə mehribancasına sağollaşdı.*

*Prezident Heydər Əliyevin Müstəqil Azərbaycanın paytaxtında, qədim, lakin həmişəcavan, gündən-günə gözəlləşən Bakıda növbəti gəzintisi, onun sakinləri ilə yaddaqalan daha bir görüşü beləcə başa çatdı.*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Baş nazir!

Türkiyə Respublikasının Baş naziri vəzifəsinə təyin olunmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, bu yüksək vəzifədə fəaliyyətiniz dövründə dost və qardaş ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın mənafeyi naminə daim genişlənəcək və hərtərəfli inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 noyabr 2002-ci il*

## CƏMŞİD NAXÇIVANSKİ ADINA HƏRBİ LİSEYİN 30 İLLİK YUBİLEYİ HAQQINDA

### Azərbaycan Respublikası Prezidentinin sərəncamı

Azərbaycan xalqının hərb salnaməsi böyük qəhrəmanlıq səhifələri ilə zəngindir. Ulu əcdadlarımızın formalaşdırdığı qəhrəmanlıq ideologiyası öz əksini «Kitabi-Dədə Qorqud» kimi qədim eposlarda tapmışdır. Xalqımızın igid oğullarının göstərdiyi rəşadət və şücaət Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış, şifahi xalq ədəbiyyatı nümunələrində, böyük şair və mütəfəkkirlərimizin əsərlərində parlaq əks olunmuşdur. Cavanşir, Babək, Şah İsmayıl kimi sərkərdələrin adları hərb tariximizə həmişəlik həkk olunmuşdur.

XIX əsrdə baş vermiş rus–İran müharibələrinin nəticəsi olaraq Azərbaycan ərazisi Rusiya ilə İran arasında bölüşdürüldü. Azərbaycan torpaqlarının Rusiyanın tabeliyinə keçmiş şimal hissəsində ölkəmiz nəinki ordu saxlamaqdan məhrum edildi, hətta azərbaycanlıların çar ordusuna hərbi xidmətə çağırılması məqsədəuyğun hesab edilmədi. Bütün bunlara baxmayaraq, azərbaycanlıların hərb sənətinin sirlərini öyrənmələrinin və bu sahədə yüksək mərtəbələrə çatmalarının qarşısını almaq mümkün olmadı. Çar ordusunda xidmət etmək imkanı qazanmış azərbaycanlılar müxtəlif döyüşlərdə əsl peşəkarlıq və şücaət göstərərək ad-san qazandılar. Bunların arasında generallar Cəfərqulu ağa Bakıxanovun, Balakişi Ərəblinskinin, Əsəd bəy Talışxanovun, Hüseyn xan Naxçıvanskinin, Həsən bəy Ağalarovun və başqa sərkərdələrin adlarını çəkmək olar.

Rusiyada çar hakimiyyətinin süqutundan sonra Azərbaycanın milli ordusunu yaratmaq yolunda bəzi addımlar atıldı. 1918-ci ilin mayında Azərbaycanın öz müstəqilliyini elan etməsi ilə bu proses daha intensiv və konkret xarakter aldı. Hərbi Nazirlik yaradıldı, hərbi təhsilin əsası qoyuldu. Gənc Azərbaycan Xalq Cümhuriyyətinin silahlı qüvvələrinin qısa müddət ərzində təşəkkül tapmasında keçmiş çar generalı Səməd bəy Mehmandarovun və Əlağa Şıxlinskinin xidmətləri xüsusilə qeyd olunmalıdır. Azərbaycan Xalq Cümhuriyyətinin ömrünün qısa olması onların başladığı bu mühüm işin başa çatdırılmasına imkan vermədi.

1920-ci ilin aprelində Azərbaycanda sovet hakimiyyəti elan edildikdən sonra Azərbaycan SSR-nin ordusu və donanması yaradıldı. 1922-ci ilin Zaqafqaziya respublikalarının orduları Xüsusi Qafqaz Ordusunun diviziyalarına çevrildi. 1937–1938-ci illərdə orduda başlanmış kütləvi repressiya kampaniyası Azərbaycan diviziyasından da yan keçmədi. Onun yaradıcılarından biri olan, Moskvada Frunze adına Ali Hərbi Akademiyanın xüsusi fakültəsinin kurs rəisi azərbaycanlı general Cəmşid Naxçıvanski də repressiya qurbanı oldu. Azərbaycan diviziyası 1938-ci ildə vahid ümumittifaq ordusunun tərkibinə daxil edildi. Sovet hakimiyyətinin sonrakı illərində orduda icbari hərbi xidmət azərbaycanlılara şamil edilsə də, onlar hərbi xidmətlərini, əsasən, xüsusi hərbi bilik və hazırlıq tələb etməyən hissələrdə keçirdilər.

Faşizmə qarşı müharibəyə Azərbaycandan 600 mindən çox adam səfərbər edildi. Xalqımızın oğul və qızları qəhrəmanlıq nümunələri göstərərək öz döyüş bacarıqlarını nümayiş etdirdilər. Sovet İttifaqı qəhrəmanları Həzi Aslanov, İsrafil Məmmədov, Aslan Vəzirov, Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Mehdi Hüseynzadə, Abbas Quliyev, Məlik Məhərrəmov və başqa azərbaycanlı döyüşçülərin adları yaddaşlara əbədi həkk olundu. Azərbaycanın igid oğul və qızlarının döyüş rəşadəti yazıçı, şair, bəstəkar və rəssamlarımızın həmin dövrdə yaratdıqları gözəl əsərlərin başlıca mövzusu olmuşdur. Müharibə illərində və sonrakı dövrdə keçmiş sovet ordusunda Akim Abbasov, Mahmud Əbilov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov, Valeh Bərşadlı və başqaları kimi general rütbəsinə qədər yüksəlmiş azərbaycanlı hərbçilər nəsli yetişdi.

Buna baxmayaraq, azərbaycanlıların hərbi peşələrə yiyələnməsi yolunda yenə də ciddi manеələr yaradılırdı. Ali hərbi məktəblərdə oxuyan azərbaycanlıların sayı olduqca az idi. Hətta Bakı şəhərində yerləşən ali hərbi məktəblərin kursantları arasında azərbaycanlılar çox cüzi sayda təmsil olunurdular. Azərbaycanlı gənclərin keçmiş SSRİ-nin ali hərbi məktəblərinə daxil olmasını təmin etmək, milli hərbi kadrlar yetişdirmək məqsədi ilə 1971-ci ildə indi «Cəmşid Naxçıvanski adına hərbi lisey» adlandırılan məktəbin təsis edilməsi bu problemin həlli yolunda ciddi addım oldu. 1973-cü ildə ona ümumrespublika məktəbi statusu verildi. 1976, 1978 və 1981-ci illərdə məktəbin fəaliyyətinin yaxşılaşdırılması, maddi-texniki bazasının genişləndirilməsi və möhkəmləndirilməsi üzrə tədbirlər haqqında mühüm qərarlar qəbul edildi və həyata keçirildi. Məktəbin məzunlarının ali hərbi məktəblərə daxil olması ilə orda təhsil alan azərbaycanlıların sayı get-gedə artmağa başladı. Məktəb Azərbaycanda hərbi peşənin nüfuzunun artmasında və gənclərimizi bu peşəyə yiyələnməyə həvəsləndirmək işində mühüm rol oynadı. Məktəbin məzunları olmayan gənclərimizin də ali hərbi məktəblərə daxil olmaları halları nəzərəçarpacaq dərəcədə artdı. Orduda peşəkar azərbaycanlı hərbçilərin nisbəti yüksəlməyə başladı.

1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra milli nizami ordu yaradılması ən aktual məsələlərdən oldu. Erməni silahlı qüvvələrinin Azərbaycan ərazisinə aramsız hücumları şəraitində bu,

təxirəsalınmaz vəzifə idi. Ayrı-ayrı silahlı dəstələrin vahid bir rəhbərliyə tabe edilməməsi, peşəkar hərbçi kadrların çatışmazlığı, orduda nizam-intizamın olmaması, korrupsiya, başıpozuqluq, fərarilik hallarının baş verməsi düşmən hücumlarının qarşısını ala bilməyə qadir olan bir ordunun yaradılmasına əngəllər törədirdi. Qarabağ müharibəsi başlandıqdan sonra keçmiş SSRİ-nin müxtəlif yerlərindən öz vətənpərvərlik borcunu yerinə yetirərək Azərbaycana qayıtmış peşəkar hərbçilərin, o cümlədən vaxtilə Cəmşid Naxçıvanski adına hərbi liseyi bitirənlərin bilik və bacarığından lazımınca istifadə olunmurdu.

1993–1995-ci illərdə ordu quruculuğu sahəsində görülmüş mühüm tədbirlər nəticəsində vəziyyət köklü şəkildə dəyişdi. Ayrı-ayrı siyasi partiyaların, hətta şəxslərin mənafelərinə xidmət edən silahlı birləşmələr ləğv edildi, orduda vahid komandanlıq prinsipi bərqərar edildi, möhkəm hərbi nizam-intizam yaradılması üçün ciddi tədbirlər görüldü. Silahlı Qüvvələrin peşəkar hərbçi kadrlarla təmin olunması yolunda da mühüm işlər həyata keçirildi. Hərbi təhsil sistemi sahəsində islahatlar aparılmağa başlandı. 1998-ci ilin martında Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialının açılması haqqında sərəncam verildi. Ölkə prezidentinin 20 fevral 1999-cu il tarixli fərmanı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması qərara alındı. 2001-ci il avqustun 20-də Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi ilə bağlı fərmanı imzalandı.

Bu vaxta kimi Cəmşid Naxçıvanski adına hərbi liseyin 6522 məzunu olmuşdur. Onun məzunları Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümunələri göstərmiş, Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüş, müxtəlif orden və medallarla təltif olunmuşlar. Hazırkı dövrdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edən zabitlərin böyük əksəriyyətini həmin liseydə təhsil almış mütəxəssislər təşkil edir.

Bu gün liseydə təhsil alan 1856 müdavimə 137 müəllim dərs deyir, 71 zabit və gizir təlim keçir. Son illərdə məktəbin maddi-texniki bazasının möhkəmləndirilməsi, orada təhsilin keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı mühüm tədbirlər həyata keçirilmişdir. Lisey milli ordunu peşəkar kadrlarla təmin etmək, gənclərimizi ali hərbi məktəblərə hazırlamaq üçün bazar rolunu oynadığına görə onun fəaliyyəti həmişə diqqət mərkəzindədir.

Cəmşid Naxçıvanski adına hərbi liseyin Azərbaycan Respublikasının ordu quruculuğu işində böyük əhəmiyyətini və mühüm rolunu qeyd etmək məqsədi ilə qərara alıram:

1. Cəmşid Naxçıvanski adına hərbi liseyin 30 illik yubileyi ölkəmizdə təntənəli surətdə keçirilsin.
2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Cəmşid Naxçıvanski adına hərbi liseyin 30 illik yubileyi münasibətilə tədbirlər planı hazırlayıb həyata keçirsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *19 noyabr 2002-ci il*

**TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BÜLƏND ARINÇA**

Hörmətli cənab Sədr!

Türkiyə Böyük Millət Məclisinin sədri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Türkiyə arasında dərin tarixi kökləri olan dostluq və qardaşlıq münasibətləri, qarşılıqlı əlaqələrimiz və əməkdaşlığımız daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri*, 20 noyabr 2002-ci il*

**«VOPROSI İSTORİİ» JURNALININ BAŞ REDAKTORU, RUSİYA ELMLƏR AKADEMİYASININ MÜXBİR ÜZVÜ CƏNAB ƏHMƏD İSGƏNDƏROVA**

Hörmətli Əhməd Əhməd oğlu!

Sizi – tarix elminin görkəmli nümayəndəsini 75 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə xoşbəxtlik, cansağlığı və çoxşaxəli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Şərqşünaslığın və ümumi tarixin müxtəlif problemlərinə dair apardığınız tədqiqatlar Sizə zəmanəmizin ən nüfuzlu alimlərindən biri kimi şöhrət qazandırmışdır. Yaşadığımız qlobal dəyişikliklər dövrü istər həyatımızda, istərsə də tarix elmində çox yeniliklər etmişdir. Sizin əsərlərinizdə tarix elminin elə aktual problemləri öz əksini tapmışdır ki, onlar həll edilməsəydi, postsovet məkanında tarixi prosesin mahiyyətinin yeni anlamının formalaşması mümkün olmazdı. Əlamətdardır ki, Siz XX əsrin ilk çağlarında baş vermiş taleyüklü hadisələrə yeni baxışla nəzər salmağa imkan yaratmış fundamental əsərinizi məhz təzə əsrin və təzə minilliyin əvvəllərində tamamlamağa müvəffəq oldunuz.

Şəxsi əlaqələrimizdən bilirəm ki, indi çox aktual olan mədəniyyət və sivilizasiyaların dialoqu problemləri həmişə Sizin diqqət mərkəzinizdə olmuşdur. Azərbaycanda biz Sizin nəinki bir alim kimi parlaq istedadınızı, həm də Ümumrusiya Azərbaycan Konqresi Mərkəzi Şurasının İdarə heyətindəki fəaliyyətinizi yüksək qiymətləndiririk.

Sizə ən xoş arzularımı bildirirəm.

*Hörmətlə,* **HEYDƏR ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 noyabr 2002-ci il*

## NATO/AVROATLANTİKA TƏRƏFDAŞLIQ ŞURASININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN PRAQA ŞƏHƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ BEYNƏLXALQ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*21 noyabr 2002-ci il*

**H e y d ə r Ə l i y e v**: Praqaya səfərim sizə məlumdur, elan olunubdur. Orada NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının sammiti keçirilir. Tərəfdaş ölkələrin dövlət başçıları, nümayəndə heyətləri də sammitə dəvət ediliblər. Mən də oraya gedirəm. Sammitdə iştirak edəcəyik. Sizə başqa bir söz deyə bilmərəm, çünki ayrı bir şey yoxdur.

**S u a l: Cənab Prezident, Siz Eduard Şevardnadze ilə görüşəcəksiniz. Onların ekoloji sənədə qol çəkməməsi Bakı–Tbilisi–Ceyhan layihəsinin həyata keçirilməsini ləngidə bilərmi?**

**C a v a b:** Bu bizi narahat edir. Biz bu barədə işləyirik, *bp* də işləyir. Vudvordun müavini Gürcüstandadır. Bir neçə gün bundan öncə mən bu məsələni *bp*-nin, bizim neft şirkətinin rəhbərləri ilə müzakirə etmişəm. Həqiqətən, Gürcüstanda tamamilə anlaşılmaz hərəkətlər edirlər, halbuki, bizim vaxtımız çox azdır. Noyabrın sonunda biz hər şeyi həll etməliyik. Ona görə də, təbiidir ki, mən Şevardnadze ilə bu barədə danışacağam.

**S u a l: Cənab Prezident, bu gün Köçəryanla görüşünüz gözlənilir. Lakin deyirlər ki, Ermənistanda qarşıdakı prezident seçkiləri ilə əlaqədar Köçəryanın hansısa kompromislərə gedəcəyini gözləmək, bunu proqnozlaşdırmaq çətindir. Siz bu fikirlə razısınızmı?**

**C a v a b:** Mən heç vaxt heç nəyi proqnozlaşdırmıram. Mən görüşürəm, söhbət edirəm və nəticələrə görə nə edə bildiyimizi müəyyən edirik. Mən heç nəyi proqnozlaşdırmıram.

**S u a l: Cənab Prezident, «LUKoyl»un Azərbaycandakı layihələrdən çıxması xarici ölkələrin kütləvi informasiya vasitələrinin də diqqət mərkəzindədir. Vahid Ələkbərov Azərbaycana gələndə yəqin Sizə də məlumat veribdir. Bu barədə nə deyərdiniz?**

**C a v a b:** Bəli, bilirəm. Axı deyəsən Dövlət Neft Şirkətindən sizə bu barədə məlumat veriblər. Bilirsiniz, bu, kommersiya məsələləridir. Harada pul çoxdursa, oraya gedirlər. Məsələn, əgər həqiqətən «LUKoyl» payını özgəsinə satırsa, burada bizi narahat edəcək heç bir şey yoxdur. «İtoçu» kimi böyük bir şirkət vaxtilə müqavilədə iştirak etmirdi, sonra gəlib iştirakçıların bəzilərinin – «Pennzoyl»un, «Makdermott»un paylarını aldı, bizim layihəyə daxil oldu. Özü də biz onlardan razıyıq. Əgər onlar bunu da alıb burada işləsələr, bizim üçün fərqi yoxdur. Narahatçılığa əsas yoxdur.

**S u a l: Cənab Prezident, Fransa prezidenti ilə görüşünüz də gözlənilirmi?**

**C a v a b:** Bəlkə də görüşdüm.

**S u a l: Cənab Prezident, Qukasyanın Fransadakı görüşü...**

**C a v a b:** Mənim qızım, elə söz de ki, bizə layiq olsun. Deyirsən, o, layiqli adamdır ki, mən onun haqqında sənə cavab verim? Belə sualları başqa adamlara ver.

**S u a l: Cənab Prezident, Azərbaycan futbolunu böhrandan çıxarmaq mümkündürmü?**

**C a v a b:** Sənə məsləhət görürəm, get böhrandan çıxart.

**S u a l: Cənab Prezident, Moskvada yaşayan azərbaycanlılarla bağlı son hadisələrlə əlaqədar Siz Baş nazirin birinci müavini Abbas Abbasovu oraya göndərmişdiniz və səhv etmirəmsə, Rusiya prezidenti ilə də danışmışdınız. Siz bu məsələ ilə əlaqədar narahatlığınızı bildirdinizmi, bu məsələ müzakirə olundumu?**

**C a v a b:** Bəli, bəli... Mən də demişəm, nümayəndə də göndərmişəm. Danışıqlar aparmışıq. Məsələ belədir, mən hesab etmirəm ki, azərbaycanlılara qarşı orada kimsə qəsdən nə isə edir. Bunu şişirtmək lazım deyildir. Siz hər gün axşam Rusiyanın televiziya kanallarına baxanda görürsünüz ki, bir yerdə öldürdülər, başqa bir yerdə partlatdılar... Bunlar azərbaycanlılar deyil ki, Rusiyanın öz vətəndaşlarıdır. İndi Rusiyada, Moskvanın özündə, başqa yerlərdə həddindən artıq azərbaycanlı yaşayır. Onların içərisində bizneslə məşğul olanlar var. Təbiidir, ola bilər, cinayətkarlıq edənlər, başqaları da var. Kimsə haradasa «ilişir», tutulur, hansısa bir əngələ düşür... Amma bunu dramatikləşdirib «Rusiyada azərbaycanlılara qarşı belə etdilər, elə etdilər»– demək tamamilə yalandır, ədalətsiz bir şeydir. Mən sizə deyirəm, bunları şişirtməyin. Bunlar problem deyil, yəni mən Rusiyada azərbaycanlılara qarşı ümumi mənfi münasibət görmürəm. Azərbaycanlıların əksəriyyəti orada yaxşı yaşayır, uğurla fəaliyyət göstərir, güzəranları yaxşıdır. İndi kimsə, haradasa özünü hansısa əngələ salırsa, yaxud qanunsuz hərəkət edirsə, təbiidir ki, buna münasibət olmalıdır. Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN PRAQAYA RƏSMİ SƏFƏRİ

*21 noyabr 2002-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün noyabrın 21-də Praqaya gəlmişdir.*

*Praqa şəhərinin «Stara Ruzina» hava limanında Azərbaycan prezidenti Heydər Əliyevi Çexiya Respublikasının yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin başçısı Mirhəmzə Əfəndiyev qarşıladılar.*

*Dövlətimizin başçısı Heydər Əliyev maşın karvanının müşayiəti ilə onun üçün ayrılmış «Qorintiya Tovert» mehmanxanasına gəldi. Respublikamızın rəhbərini burada Çexiya Xarici İşlərNazirliyinin yüksək vəzifəli əməkdaşı Boqomil Harmşmid səmimiyyətlə qarşıladı.*

## GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Praqa,*
*Azərbaycan prezidentinin iqamətgahı –*
*«Qorintiya Tovert» mehmanxanası*

*21 noyabr 2002-ci il*

*NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqa Zirvə görüşündə iştirak edən Azərbaycan prezidenti Heydər Əliyevin Gürcüstan prezidenti Eduard Şevardnadze ilə təkbətək görüşü oldu.*

*Prezident Heydər Əliyev və prezident Eduard Şevardnadze ənənəvi xarakter almış və səmimilik, dostluq şəraitində keçən görüşlərindən məmnun olduqlarını bildirdilər.*

*Sammitin işi, müzakirə edilən məsələlər barədə fikir mübadiləsi aparan dövlət başçıları NATO-nun bu toplantısının dünyada sülhün, sabitliyin, təhlükəsizliyin təmin olunması sahəsindəki əhəmiyyətini vurğuladılar.*

*Azərbaycan və Gürcüstan prezidentləri Cənubi Qafqazda və ümumən Qafqazda təhlükəsizliyin və sabitliyin bərqərar olmasının regionun inkişafı və tərəqqisi üçün vacibliyini nəzərə çatdırdılar, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ, gürcü–abxaz, gürcü–osetin münaqişələrinin həlli barədə fikir mübadiləsi apardılar.*

*Prezidentlər Xəzərin zəngin karbohidrogen yataqlarının işlənilməsi və enerji ehtiyatlarının dünya bazarına nəqli, o cümlədən Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərinin inşası ilə bağlı həyata keçirilən konkret tədbirlərdən söhbət açdılar. Dövlət başçıları bu layihə ilə əlaqədar qarşıya çıxan çətinliklərin aradan qaldırılmasından da danışdılar.*

*Ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da genişləndirilməsi və inkişaf etdirilməsi məsələlərindən bəhs edən prezidentlər qarşılıqlı maraq doğuran bir sıra digər problemlər haqqında da fikir mübadiləsi apardılar.*

* * *

Görüşdən sonra Gürcüstan prezidenti Eduard Şevardnadze Azərbaycan jurnalistinin sualına cavab verdi.

**S u a l: Eduard Amvrosiyeviç, Siz Bakı–Tbilisi–Ceyhan ətrafında yaranmış vəziyyəti necə qiymətləndirirsiniz? Azərbaycan xalqı tikintidə ləngimələr ola biləcəyindən narahatdır.**

**E d u a r d  Ş e v a r d n a d z e:** Gürcü xalqı heç də az narahat deyildir. Hesab edirəm ki, bir qərar tapılacaqdır. Dünən mən bütün mütəxəssisləri topladım və biz bu vəziyyəti kifayət qədər nikbin ruhda araşdırdıq. Zənnimcə, təbiətin qorunub saxlanması və neft kəmərinin çəkilməsi üçün məqbul variantlar var.

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYAN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*Praqa,*
*Konqres Mərkəzi*

*21 noyabr 2002-ci il*

*NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqada keçirilən zirvə görüşündə iştirak edən Azərbaycan prezidenti Heydər Əliyevin Ermənistan prezidenti Robert Köçəryan ilə təkbətək görüşü oldu.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələləri müzakirə edildi.*

*Münaqişənin həlli üçün ikitərəfli görüşlərin və danışıqların əhəmiyyətini bildirən dövlət başçıları belə görüşlərin davam etdirilməsinin vacibliyini vurğuladılar. Prezidentlər tam sülh əldə olunanadək tərəflərin atəşkəs rejiminə əməl edəcəklərini bildirdilər.*

*Prezident Heydər Əliyev və prezident Robert Köçəryan münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində danışıqların davam etdirilməsinin zəruriliyini vurğuladılar.*

* * *

*Görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti Heydər Əliyev və Ermənistan prezidenti Robert Köçəryan jurnalistlər qarşısında bəyanatla çıxış etdilər.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması barədə geniş müzakirə apardıqlarını vurğulayan dövlət başçıları, hələlik konkret nəticə əldə edilməsə də, ənənəvi xarakter daşıyan belə görüşlərin problemin həlli yollarının tapılması üçün çox böyük əhəmiyyəti olduğunu bildirdilər.*

### Ermənistan prezidenti Robert Köçəryanın bəyanatı

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri! Bir daha görüşmək və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı vəziyyəti müzakirə etmək üçün hər bir imkandan, xüsusən də müxtəlif beynəlxalq forumlar zamanı yaranan imkandan istifadə etmək artıq ənənəyə çevrilmişdir. Bu ənənəyə o da əlavə olunmuşdur ki, Minsk qrupunun həmsədrləri də hər bir imkandan istifadə etməyə çalışırlar. İndi bizim həm təkbətək, həm də həmsədrlərin iştirakı ilə görüşüb söhbət etmək imkanımız var. Mən bugünkü söhbəti müsbət qiymətləndirirəm. Deyə bilmərəm ki, biz konkret nəticələr əldə etdik, lakin, sadəcə olaraq, əminəm ki, düzgün istiqamətdə böyük addım atılmışdır. Həm də bu addımlar görüşdən-görüşə artır. Nəticənin necə olacağını zaman göstərəcəkdir. İndiki zaman isə kifayət qədər mürəkkəbdir, Ermənistanda da, Azərbaycanda da seçkilər keçiriləcəkdir və ona görə də biz hər şeyi etməliyik ki, Dağlıq Qarabağ problemi kimi mühüm problemin nizama salınması seçkiqabağı əhval-ruhiyyələrin, hansısa seçkiqabağı dəlillərin girovuna çevrilməsin. Odur ki, hesab edirəm, bu baxımdan danışıqlar xüsusən indiki dövrdə, sadəcə olaraq, zəruridir. Sağ olun.

### Azərbaycan prezidenti Heydər Əliyevin bəyanatı

President Köçəryan sizə artıq hər şeyi dedi. Mən də bu fikirdəyəm ki, Ermənistan və Azərbaycan prezidentlərinin görüşləri artıq ənənə xarakteri almışdır və bu, öz qüvvəsini, zəruriliyini saxlayır. İstədiyimizə hələlik nail ola bilməsək də, biz hər dəfə görüşərkən yəqin edirik ki, görüşmək görüşməməkdən yaxşıdır. Amma, bildiyiniz kimi, problem son dərəcə mürəkkəbdir, ATƏT-in Minsk qrupu onun həllinə səfərbər edilmişdir. Biz bir az əvvəl Minsk qrupunun həmsədrləri ilə görüşdük, onlar da bu məsələ ilə məşğul olurlar. Biz Ermənistan və Azərbaycan prezidentlərinin nümayəndələrinin vaxtaşırı görüşlərində də yeni imkanlar görürük. Bütünlükdə bunların hamısı münaqişənin dincliklə həlli yolunun tapılmasına yönəldilmişdir. Biz məqsədə çatmasaq da, bu görüşlər vasitəsilə irəliləyirik. Böyük olmasa da, hər halda, irəliləyiş var. Bu, irəliləməməkdən, heç nə etməməkdən daha yaxşıdır. Odur ki, bugünkü görüşü mən də müsbət qiymətləndirirəm. Hesab edirəm ki, 2003-cü ildə Ermənistanda prezident və parlament seçkiləri, habelə Azərbaycanda prezident seçkiləri keçiriləcəyi ilə bağlı vəziyyəti nəzərə almaqla, biz gələcəkdə də görüşləri dayandırmayacaq və bundan ötrü əlverişli imkanlar tapacağıq. Siz də sağ olun ki, görüşlərimizə belə böyük diqqət yetirirsiniz.

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞÜ**

*Praqa,*
*Konqres Mərkəzi*

*21 noyabr 2002-ci il*

*NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqada keçirilən zirvə görüşündə iştirak edən Azərbaycan prezidenti Heydər Əliyevin və Ermənistan prezidenti Robert Köçəryanın ATƏT-in Minsk qrupunun həmsədrləri Nikolay Qribkov (Rusiya), Rudolf Perina (ABŞ), Üq Perne və Anri Jakolən (Fransa) ilə görüşü olmuşdur.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələləri barədə fikir mübadiləsi aparıldı.*

*Tam sülh əldə olunanadək öz ölkələrinin atəşkəs rejiminə əməl edəcəklərini vurğulayan prezidentlər münaqişənin aradan qaldırılması sahəsində birbaşa görüşlərin zəruriliyini bildirdilər, bu prosesdə ATƏT-in Minsk qrupu çərçivəsində səylərin artırılmasının vacibliyini vurğuladılar.*

*Minsk qrupunun həmsədrləri danışıqlar prosesinin belə bir formatda aparılmasının əhəmiyyətini, Praqada keçirilən bu görüşdən razı qaldıqlarını bildirdilər və dövlət başçılarına minnətdarlıq etdilər.*

*Görüşdə bir daha vurğulandı ki, münaqişənin həlli üçün bütün səylər səfərbər olunmalıdır.*

## NATO-NUN BAŞ KATİBİ CON ROBERTSON İLƏ GÖRÜŞ

*Praqa,*
*Konqres Mərkəzi*

*21 noyabr 2002-ci il*

*NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqada keçirilən zirvə görüşündə iştirak edən Azərbaycan prezidenti Heydər Əliyev NATO-nun Baş katibi lord Con Robertson ilə görüşmüşdür.*

*Dəvətini qəbul edərək, NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının toplantısında iştirak etmək üçün Praqaya gəldiyinə görə dövlətimizin başçısı Heydər Əliyevə təşəkkürünü bildirən cənab Robertson vaxtilə Bakıya etdiyi səfəri və ona göstərilən qonaqpərvərliyi həmişə məmnunluqla xatırladığını söylədi.*

*Azərbaycanın NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmasını və bu çərçivədə fəal əməkdaşlığını yüksək dəyərləndirən cənab Robertson respublikamız ilə NATO arasında əlaqələrin daha da möhkəmlənməsindən razılıqla söhbət açdı.*

*Dünyanın çox böyük əhəmiyyət daşıyan bölgələrindən biri olan Cənubi Qafqazda sülh, təhlükəsizlik və sabitlik məsələsinə NATO-nun böyük maraq göstərdiyini vurğulayan lord Robertson terrorizmə qarşı beynəlxalq koalisiyada Azərbaycanın yaxından iştirakından razılıqla bəhs etdi.*

*«Sülh naminə tərəfdaşlıq proqramı» çərçivəsində NATO ilə əlaqələrin daha da genişləndirilməsinə Azərbaycanın xüsusi maraq göstərdiyini vurğulayan prezident Heydər Əliyev bildirdi ki, 1994-cü ildən bu proqrama qoşulmuş Azərbaycan bölgədə sülhün, təhlükəsizliyin bərqərar edilməsini özü üçün əsas məqsəd seçmişdir.*

*NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Çexiyanın paytaxtında keçirilən zirvə görüşünün böyük əhəmiyyət daşıdığını nəzərə çatdıran Azərbaycan prezidenti Heydər Əliyev əmin olduğunu bildirdi ki, Praqa sammiti dünyada sülhün, təhlükəsizliyin, sabitliyin bərqərar olunmasında, beynəlxalq terrorizmə və ekstremizmə qarşı mübarizədə Dünya Birliyinin səylərinin daha sıx birləşməsinə yeni güclü təkan verəcəkdir.*

*Prezident Heydər Əliyev vurğuladı ki, Cənubi Qafqazdakı münaqişələrin, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin maraqlarına uyğundur.*

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə NATO–Azərbaycan əlaqələrinin perspektivləri, beynəlxalq aləmdə və regionda vəziyyət, habelə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## FRANSA PREZİDENTİ JAK ŞİRAK İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Praqa,*
*Konqres Mərkəzi*

*21 noyabr 2002-ci il*

*NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqa zirvə görüşündə iştirak edən Azərbaycan prezidenti Heydər Əliyevin noyabrın 21-də Fransa prezidenti Jak Şirak ilə təkbətək görüşü oldu.*

*NATO sammitində görüşməkdən məmnun qaldıqlarını bildirən prezidentlər bir-birini dostcasına, mehribanlıqla salamladılar.*

*Respublikamızda hazırkı vəziyyətə, ölkə rəhbərliyi tərəfindən görülən işlərə, əldə edilən uğurlara maraq göstərən prezident Jak Şirak Fransa ilə Azərbaycan arasında hərtərəfli münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini bildirdi.*

*Prezident Heydər Əliyev Azərbaycanda həyata keçirilən islahatlardan, xarici sərmayələrin cəlb olunması üçün ölkədə yaradılmış əlverişli şəraitdən, Xəzərin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının işlənilməsi və Avropa bazarlarına nəqli sahəsində görülən irimiqyaslı işlərdən, bu sahədə qarşıda duran vəzifələrdən geniş söhbət açdı.*

*Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın səylərinə böyük ümidlər bəslədiyini vurğuladı.*

*Fransa prezidentinin diqqətini torpaqlarımızın hələ də işğal altında qalmasına, yerindən-yurdundan zorla qovulmuş bir milyondan çox vətəndaşımızın çadırlarda ağır şəraitdə yaşamasına yönəldən dövlətimizin başçısı Heydər Əliyev Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasında Jak Şirakdan öz şəxsi səylərini artırmağı xahiş etdi.*

*ATƏT-in Minsk qrupu çərçivəsində aparılan işlərin, Azərbaycanın və Ermənistanın dövlət başçılarının birbaşa görüşlərinin münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün əhəmiyyətli olduğunu bildirən prezident Jak Şirak nizamasalma prosesində Minsk qrupunun həmsədri kimi, öz ölkəsinin səylərini daha da artıraçağını söylədi.*

*Dostluq və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə Fransa–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi də aparıldı.*

## NATO/AVROATLANTİKA TƏRƏFDAŞLIQ ŞURASININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ

*Praqa,*
*Konqres Mərkəzi*

*22 noyabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev noyabrın 22-də Çexiya paytaxtının Konqres Mərkəzinə gəldi. Dövlətimizin başçısını burada NATO-nun yüksək vəzifəli rəsmi şəxsləri hörmətlə qarşıladılar.*

*Elə həmin gün Konqres Mərkəzində NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşü başlandı. NATO-nun Baş katibi lord Robertson görüşü açaraq iştirakçıları salamladı, sammitin işinə uğurlar arzuladı.*

*Çexiya Respublikasının Baş naziri Vladimir Şpidla dövlət və hökumət başçılarını salamladı.*

*Sonra NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçıları çıxış etdilər.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev zirvə görüşündə çıxış etdi.*

Hörmətli cənab Sədr!

Hörmətli həmkarlar!

Dünya son dərəcə mürəkkəb bir dövr yaşayır. Beynəlxalq terrorizm bəzi dövlətlərin dəstəyindən istifadə edərək, dünya nizamına qarşı həmlələr edir, ekstremizm, təcavüzkar millətçilik və davakar separatizm ideologiyası əsasında yeni qarşıdurma xətləri yaratmağa çalışır, sərhədləri yenidən bölməyə və dəyişməyə cəhd göstərir.

Beynəlxalq sistemin ümumi təhlükəyə qarşı səmərəli mübarizə aparmaq qabiliyyəti ciddi sınağa çəkilir. 11 sentyabr faciəsindən dərhal sonra Avroatlantika birliyi antiterror koalisiyası yaratdı və Azərbaycan ilk gündən bu koalisiyaya qoşuldu. Biz bu gün də başqa ölkələr və beynəlxalq təşkilatlar ilə birlikdə bu təhlükələrə qarşı əlimizdən gələni edirik. Təhlükələrin xarakteri və miqyasları NATO/Avroatlantika Tərəfdaşlıq Şurası çərçivəsində birgə və hərtərəfli mübarizə üçün hər cür məhdudiyyətləri, o cümlədən də coğrafi məhdudiyyətləri aradan qaldırır.

Lakin bu təhlükə 11 sentyabrdan əvvəl də mövcud idi. Terrorizm və onunla bağlı beynəlxalq cinayətkarlıq ocaqları münaqişə zonalarında və qanuni hakimiyyətlər tərəfindən nəzarət olunmayan ərazilərdə formalaşır. Bu ərazilər isə təcavüzkar millətçilik və zorakı separatizm siyasətindən doğan müharibələr nəticəsində meydana çıxır. Bu mənada Cənubi Qafqaz ən çox narahatlıq doğuran regiondur.

Azərbaycan beynəlxalq terrorizmə və ekstremizmə qarşı barışmaz mübarizə apararaq, əsas səylərini öz ərazilərini Ermənistanın işğalından azad etməyə və orada qanun-qaydanı və nəzarəti bərpa etməyə yönəldir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Avroatlantika Tərəfdaşlığının bütün dövlətlərinin mənafelərinə uyğundur. Nə qədər ki, gec deyil, Dünya Birliyi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunması əsasında münaqişənin sülh yolu ilə tənzimlənməsi üçün əlindən gələni etməlidir.

Azərbaycan NATO ilə tərəfdaşlığı gələcək Avroatlantika təhlükəsizlik sisteminin əsası kimi qiymətləndirərək, Alyans ilə inteqrasiya tərəfdaşlığına və intensiv ikitərəfli dialoqa səy göstərir. Bununla yanaşı, Alyans və Tərəfdaşlıq üzvlərinin artmaqda olan qarşılıqlı asılılığını, tərəfdaşların mənafe və tələbatının daha çox nəzərə alınması zəruriliyini qeyd etmək istəyirəm.

Biz NATO tərəfindən Cənubi Qafqaza diqqətin artdığını görürük. Lakin hər cür regional təşəbbüslər və təkliflər ilk növbədə müharibələrin nəticələrinin aradan qaldırılmasına və dövlətlər arasında beynəlxalq miqyasda tanınmış sərhədlərin bərpa olunmasına yönəldilməlidir.

Biz məmnunluqla qeyd edirik ki, NATO ilə Rusiya arasında yeni qarşılıqlı münasibətlər inkişaf etməkdədir, bu isə Avropanın müxtəlif regionlarında böhranların aradan qaldırılması üçün böyük əhəmiyyət kəsb edə bilər.

Mən Alyansa daxil olmaq barədə dəvət almış dövlətləri təbrik edirəm. NATO-nun yeritdiyi açıq qapı siyasətini qiymətləndirirəm.

Cənab Sədr!

Qarşımızda duran məqsədlər böyük səylər tələb edir. Lakin bizim geri çəkilməyə ixtiyarımız yoxdur. Bizim müqəddəs vəzifəmiz gələcək nəsillərə təhlükəsiz və sabit dünya bəxş etməkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Zirvə görüşünün başa çatması münasibətilə NATO-nun Baş katibi lord Robertsonun adından dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul təşkil olundu. Dövlətimizin başçısı Heydər Əliyev qəbulda iştirak etmişdir.*

**TÜRKİYƏ PREZİDENTİ
ƏHMƏD NECDƏT SEZƏR İLƏ
TƏKBƏTƏK GÖRÜŞ**

*Praqa,*
*Konqres Mərkəzi*

*22 noyabr 2002-ci il*

*NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqada keçirilən zirvə görüşündə iştirak edən Azərbaycan prezidenti Heydər Əliyevin Türkiyə prezidenti Əhməd Necdət Sezər ilə təkbətək görüşü olmuşdur.*

*Bir-birini mehribanlıq və səmimiyyətlə salamlayan dövlət başçıları yenidən görüşmək imkanından məmnun qaldıqlarını bildirdilər.*

*NATO sammitinin işini, müzakirə edilən məsələlər barədə fikir mübadiləsi aparan prezidentlər Praqa zirvə görüşünün, dünyada sülhün, sabitliyin, təhlükəsizliyin təmin edilməsi sahəsində növbəti addım olduğunu vurğuladılar.*

*Dost və qardaş dövlətlər arasında əməkdaşlığın bütün sahələrdə genişlənməkdə və dərinləşməkdə olmasından razılıq hissi ilə söhbət açan prezidentlər iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını qeyd etdilər.*

*Dövlət başçıları Xəzərin Azərbaycan sektorundakı zəngin neft və qaz yataqlarının işlənilməsi və enerji daşıyıcılarının Avropa bazarlarına nəqli sahəsində Azərbaycan–Türkiyə əməkdaşlığı barəsində, bu yaxınlarda təməlqoyma mərasimində birgə iştirak etdikləri Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin inşası və Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihəsinin reallaşması yolunda qarşıda duran vəzifələr barədə söhbət apardılar.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması sahəsində danışıqlar prosesinin gedişindən bəhs olundu. Türkiyə prezidenti Əhməd Necdət Sezər nizamasalma prosesində öz ölkəsinin Azərbaycanı bundan sonra da həmişə dəstəkləyəcəyini vurğuladı.*

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi oldu.*

## PRAQAYA SƏFƏRİNİ BAŞA ÇATDIRARAQ BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

*22 noyabr 2002-ci il*

**H e y d ə r  Ə l i y e v**: Sizin bəziləriniz orada mənimlə idiniz, yəqin ki, hər şeyi görmüsünüz, bilirsiniz.

NATO-nun toplantısı yaxşı keçdi. Mən bundan çox razıyam, çox məmnunam. Bunu deyə bilərəm. Orada prezident Şevardnadze ilə görüşüm oldu. Prezident Köçəryan ilə təkbətək görüşüm oldu, Minsk qrupunun həmsədrləri də orada idilər, onlar da bu görüşə qoşuldular. Danışdıq, yenə də bəzi məsələləri müzakirə etdik. Mən də, Köçəryan da və Minsk qrupunun həmsədrləri də belə fikirdə olduq ki, biz bu görüşləri davam etdirəcəyik ki, bunların vasitəsilə, ümumi səylərlə məsələnin sülh yolu ilə həllinə nail olaq.

Prezident Şevardnadze ilə görüşümüzdə bizim müxbirlərdən, deyəsən, Elmira Axundova ona Bakı–Tbilisi–Ceyhan haqqında sual verdi. Başqa söhbətlərimiz də oldu. Amma Bakı–Tbilisi–Ceyhan haqqında da söhbətimiz oldu. Onlarda ekologiya ilə məşğul olanlar marşrut məsələsini yenidən qaldırıblar. O mənə dedi ki, buraya gəlməmişdən bir gün əvvəl *bp*-nin prezidenti Vudvordu və başqalarını qəbul edibdir. Onlara deyib ki, bu məsələləri ayın 30-dək həll edəcəkdir. Mənə söz verdi ki, Tbilisiyə dönən kimi, bu işlə daha da ciddi məşğul olacaqdır. Görək.

**S u a l: Cənab Prezident, Siz Türkiyə və Fransa prezidentləri ilə də görüşdünüz. Bu barədə mətbuata açıqlama verilmədi. Görüşlərdə hansı məsələlər müzakirə olundu?**

**C a v a b:** Bəli, mən Fransa prezidenti Jak Şirak ilə də görüşdüm. Bu, əvvəlcədən planlaşdırılmışdı. Onun vasitəçilik missiyası, iştirakı ilə əvvəllər iki dəfə Parisdə də Köçəryanla görüşmüşdük. Yenə də bu mövzuya qayıtdıq, ümumi söhbət etdik. Jak Şirak görüşdə də, ziyafətdə biz rastlaşanda da dedi ki, o bu məsələdə əlindən gələni etməyə hazırdır. Onunla görüşümüz bu barədə oldu.

Prezident Sezər ilə də görüşdük, Türkiyədə, Azərbaycanda işlər, bizim münasibətlərimiz haqqında söhbət etdik. Yəni yeni bir şey olmadı.

**S u a l: Cənab Prezident, o, Gürcüstanda ortaya çıxan məsələ ilə bağlı narahatlığını bildirdimi?**

**C a v a b:** Bəli, o da narahatdır.

**S u a l: Cənab Prezident, Amerikanın dövlət başçısı Corc Buş dünyada tanınmış terrorçu təşkilatların dövri olaraq siyahısını açıqlayır. Amma Azərbaycanda terror aktları törətmiş «Asala» və «Sadval» kimi təşkilatlar o siyahıda yoxdur. Azərbaycan bununla bağlı məsələ qaldıracaqmı?**

**C a v a b:** Vallah, bilmirəm, cənab Corc Buş o siyahını harada açıqlayıbdır. Mən bilmirəm. İndi dünyada o qədər təşkilatlar var ki, onların hamısının adını oraya salmaq bəlkə də mümkün deyildir. Yəqin ki, beynəlxalq terrorizmdə ən çox məşhur olan təşkilatların adlarını deyiblər. Hər halda, biz həmişə demişik, yenə də deyirik, Azərbaycana qarşı terrorlar olubdur və bu təhlükə bu gün də var. Ona görə də biz həm ümumbəşəri nöqteyi-nəzərdən, həm də öz ölkəmizin mənafeyi nöqteyi-nəzərindən antiterror koalisiyasına qoşulmuşuq.

**S u a l: Cənab Prezident, Amerika Birləşmiş Ştatlarının İraqla bağlı siyasətini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Mənim sizə deyiləsi bir sözüm yoxdur.

**S u a l: Cənab Prezident, 907-ci maddənin tamamilə ləğv olunması ilə bağlı ABŞ hökumətində belə fikirlər irəliyə sürürdülər ki, Konqresdə çoxluq təşkil etmirlər, ona görə bu məsələ həll olunmur. İndi prezident Corc Buşun Respublikaçılar Partiyası Konqresdə çoxluğu ələ alıbdır. Siz də onlara təbrik məktubu göndərmişdiniz. Ümumiyyətlə, danışıqlarınızda bu məsələni qaldırmısınızmı?**

**C a v a b:** Bilirsiniz, biz hələ də ki, bu məsələni qaldırmamışıq. Gəlin dərinə getməyək. Mən prezident Corc Buşla Praqada konsertdə – orada balet göstərdilər – ayaqüstü görüşdük, bir balaca söhbət etdik. Ancaq biz hələ bu məsələni qaldırmamışıq. Gəlin bu gecə vaxtı məsələnin dərininə getməyək. Sağ olun.

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALFRED MOİSİUYA**

Hörmətli cənab Prezident!

Albaniya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında dostluq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *22 noyabr 2002-ci il*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB JAK ŞİRAKA**

Hörmətli cənab Prezident, əziz dostum!

Sizi – görkəmli dövlət xadimini 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Müasir dünya siyasətində xüsusi nüfuz sahibi kimi, Siz Yer üzündə sülhün bərqərar olmasında, beynəlxalq proseslərin ədalətlə tənzimlənməsində fəal iştirak edir, mühüm rol oynayırsınız.

Xalqınızın Sizə böyük inam və etimadı Fransa qarşısında xidmətlərinizə verilən ən yüksək qiymətdir.

Ölkəmizə göstərdiyiniz diqqətə, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün mütəmadi səylərinizə görə Sizə minnətdaram.

Sizinlə hər bir görüşümüzdən, aramızdakı səmimiyyətdən və dostluq münasibətlərindən böyük məmnunluq duyuram.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, səadət, dost Fransa xalqının rifahı naminə fədakar işinizdə uğurlar arzulayıram.

*Səmimi dostluq hissi ilə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 noyabr 2002-ci il*

## ABŞ PREZİDENTİNİN XƏZƏR HÖVZƏSİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, SƏFİR STİVEN MƏNN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 noyabr 2002-ci il*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli səfir, Sizi salamlayıram, və yenidən görüşməyimdən çox məmnun olduğumu bildirirəm. Hesab edirəm, Azərbaycana bu səfərinizi çox vaxtında həyata keçirmisiniz. Bu, sizə məlum olan səbəblərə görə indi çox vacibdir. Güman edirəm ki, bu səfəriniz indiki mərhələdə Bakı–Tbilisi–Ceyhan layihəsinin həyata keçirilməsi ilə əlaqədar məsələlərin həllinə kömək edəcəkdir.

Burada elə bir gizli şey yoxdur, ona görə mən mətbuatdan da gizlətmək istəmirəm. Son vaxtlar Gürcüstanda Bakı–Tbilisi–Ceyhan layihəsinin inşasına başlanması ilə əlaqədar bəzi problemlər yaranıbdır. Mən Praqaya getməzdən qabaq səfir Ross Uilson gəlmişdi, o məndən xahiş edirdi ki, bu məsələnin həllinə kömək edim, Praqada Gürcüstan prezidenti Eduard Şevardnadze ilə bu barədə lazımi danışıqlar aparım. Mən isə ona dedim ki, onsuz da bu problemlə məşğulam. Təbiidir ki, Praqada prezident Şevardnadze ilə söhbət etdik. Amma mən arzu edərdim ki, Amerika Birləşmiş Ştatları bu məsələdə ciddi addımlar atsın. Güman edirəm ki, siz elə bu məqsəd üçün gəlmisiniz.

**S t i v e n  M ə n n:** Cənab Prezident, səmimi qəbul üçün təşəkkür edirəm. Sizinlə hər bir görüşdən şərəf duyduğumu vurğulayıram.

Məlumat verim ki, İqtisad Universitetindəki görüşümdən çox razı qaldım. Çox valehedici universitetdir, tələbələrdə çox ruh yüksəkliyi var.

Mən sizinlə razıyam ki, boru kəməri layihəsinin həyata keçirilməsi üçün həqiqətən, çox vacib məqama gəlib çatmışıq. Həmişəki kimi, indi də inanıram ki, bu çətinliyin də öhdəsindən gələcəyik.

Burada olduğum müddətdə cənab İlham Əliyevlə və onun həmkarları ilə həm Bakı–Tbilisi–Ceyhan, həm də ki, «Şahdəniz» layihələrinə aid çox maraqlı görüşlərim olubdur. Siz tamamilə doğru deyirsiniz, Bakı–Tbilisi–Ceyhanla əlaqədar görülməli işlər çoxdur. Mən həftənin birinci günü Gürcüstana gedəcəyəm, bu məsələləri müzakirə edəcəyəm.

Bu gün səhər cənab İlham Əliyevin sədrliyi ilə görüşümüz oldu. Bu görüşə gürcülər də qatılmışdılar. Orada mən Gürcüstanın həmin məsələni necə gördüyünü daha yaxşı anlamağa başladım. Eyni zamanda, Amerika Birləşmiş Ştatlarının da mövqeyini bildirdim. Bəyan etdim ki, biz bu marşrutu düzgün hesab edirik.

Mənim səfərimin məqsədi odur ki, layihəni irəli aparaq, tərəddüdlərə yer qalmasın. Bildirmək istəyirəm ki, Amerika Birləşmiş Ştatları, həmişəki kimi, bu dəfə də öz mövqeyində möhkəmdir. Cənab Prezident, bu məsələdə möhkəm iradə göstərdiyinizə, Şərq–Qərb enerji dəhlizinin yaradılması ilə bağlı Azərbaycanın bütün səylərinə görə Sizə minnətdaram.

**MOSKVA VİLAYƏTİNİN QUBERNATORU,**
**VİLAYƏT HÖKUMƏTİNİN SƏDRİ**
**BORİS QROMOVUN BAŞÇILIĞI İLƏ**
**VİLAYƏT HÖKUMƏTİNİN**
**NÜMAYƏNDƏ HEYƏTİ İLƏ**
**GÖRÜŞ**

*Prezident sarayı*

*25 noyabr 2002-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev qonaqları salamlayaraq, Azərbaycan hökuməti ilə Moskva vilayəti hökuməti arasında aparılmış danışıqlardan və bu danışıqlar nəticəsində iqtisadi əməkdaşlıq haqqında saziş imzalanmasından məmnun qaldığını bildirdi. Azərbaycanla Rusiya Federasiyasının bir çox subyektləri arasında artıq bu cür sazişlər var və prezidentin dediyi kimi, bu, hər iki ölkənin mənafelərinə uyğundur və ikitərəfli iqtisadi əməkdaşlığı dərinləşdirir.*

*Moskva vilayətinin qubernatoru Boris Qromov səmimi qəbula görə təşəkkürünü bildirərək dedi ki, o, Azərbaycan prezidentinə, Azərbaycan xalqına həmişə ən səmimi hisslər bəsləmişdir. Onun fikrincə, Moskva vilayəti hökumətinin nümayəndə heyətinin Azərbaycana səfəri hər cəhətdən çox mühümdür. Aparılmış danışıqlarda hökumətlərarası komissiya çərçivəsində Moskva vilayəti üzrə işçi qrupu yaradılması, sənaye sahəsində əməkdaşlıq proqramının müddəalarının işlənib təkmilləşdirilməsi barədə razılıq əldə edilmiş, torpaq islahatının keçirilməsində Azərbaycanın təcrübəsi haqqında fikir mübadiləsi olunmuşdur. Rusiya tərəfi Azərbaycandan kənd təsərrüfatı məhsulları göndərilməsinə maraq göstərmişdir.*

*Boris Qromov Heydər Əliyev ilə 10 il əvvəl Naxçıvanda olmuş ilk görüşü də xatırladı və dedi ki, mən indiki və gələcək işimizin əsas, müsbət səmərəsini qarşılıqlı münasibətlərimizdə, həm də belə səmimi, mehriban əhval-ruhiyyənin olmasında görürəm. Boris Qromov vurğuladı ki, azərbaycanlı iş adamları Moskvada və Moskva vilayətində orta və iri biznesdə böyük uğurlar əldə etmişlər.*

*O, Azərbaycan prezidentinə vilayətin iqtisadi göstəriciləri barədə məlumat verərək bildirdi ki, gələn il üçün büdcənin mədaxil hissəsi təxminən 70 milyard rubl məbləğində planlaşdırılır və bu sahədə vilayət yalnız Moskvadan geri qalır.*

*Vilayətin iqtisadi və sosial vəziyyəti MDB ölkələri ilə, o cümlədən də Azərbaycanla qarşılıqlı surətdə faydalı iqtisadi və mədəni əməkdaşlıq etməyə imkan verir. Vilayət hökumətində indi Bakıda imzalanmış sazişin həyata keçirilməsinə məsul şəxs təyin olunacaqdır.*

*Boris Qromov Azərbaycan prezidenti Heydər Əliyevi ölkədə siyasi sabitliyin bərqərar olmasında böyük rol oynamış Yeni Azərbaycan Partiyasının 10-cu ildönümü münasibətilə təbrik etdi. Moskva vilayətinin qubernatoru dedi: «Siz təkcə öz ölkəniz üçün deyil, həm də şəxsən mənim üçün böyük şəxsiyyətsiniz». O, Azərbaycan prezidentinə uğurlar, ölkəmizə tərəqqi arzuladı.*

*Prezident Heydər Əliyev vaxtilə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən Moskva vilayətinə səfərindən, o illərdə toxuculuq sənayesinin inkişafı üçün görülmüş tədbirlərdən danışdı və bildirdi ki, Azərbaycan və Rusiyanın yüngül sənayesinin indiki problemləri oxşardır və bu, ilk növbədə, Qərbin məhsulları ilə rəqabətə girə bilməməsi ilə bağlıdır.*

*Dövlətimizin başçısı Azərbaycanda həyata keçirilən iqtisadi islahatlardan söz açaraq dedi ki, son vaxtlar kiçik və orta biznesin inkişafı üçün bir sıra tədbirlər görülmüş, sahibkarların fəaliyyətinə müdaxilənin aradan qaldırılmasına yönəldilən fərmanlar verilmiş, əlverişli vergi mühiti yaradılmışdır.*

*Kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan şəxslərin, torpaq vergisi istisna olmaqla, bir çox vergilərin ödənilməsindən 5 il müddətinə azad edilməsi nəzərəçarpacaq nəticələr vermişdir. Bu il respublikada 2 milyon 200 min ton taxıl məhsulu yığılmışdır və indi hətta onun satışı ilə bağlı problemlər var. Prezident Heydər Əliyev dedi: «Əvvəllər biz taxılı xaricdən gətirirdik, indi isə istehsalçı taxılı satmaq istəyir, amma sata bilmir. Özümüzü çörəklə təmin etməyimiz artıq yaxşı haldır. Başlıcası çörəkdir, qalanları ola da bilər, olmaya da bilər». Kartofçuluqda da yaxşı uğurlar əldə olunmuşdur. Bu il özəl sektorda 757 min ton kartof məhsulu götürülmüşdür. Təkcə Gədəbəy rayonunda 170 min ton kartof yetişdirilmişdir. Ölkədə kənd təsərrüfatı məhsullarının 98 faizini özəl sektor istehsal edir.*

*Belə faiz nisbəti ticarətdə, şəhər nəqliyyatında da müşahidə olunur, ölkədə ümumi daxili məhsulun 70 faizi özəl sektorun payına düşür. Prezident vurğuladı ki, hazırda paytaxtda böyük tikinti işləri aparılır ki, bu da*

*əhalinin tələbatından və maliyyə imkanlarından xəbər verir. Bütün bu inşaat işləri də özəl sektor tərəfindən həyata keçirilir.*

*Boris Qromov görüşün sonunda dövlətimizin başçısına üzərində onun və Zərifə xanım Əliyevanın şəkilləri təsvir olunmuş bədii vaza hədiyyə etdi.*

*Azərbaycan prezidenti isə qonağa «Bir həsədin tarixi» və «Heydər Əliyev – əsl məhəbbət haqqında» sənədli filmlərinin videokassetlərini təqdim etdi.*

*Nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti ilə xatirə şəkli çəkdirdilər.*

## Q E Y D L Ə R

**1. Yunanıstan,** Y u n a n ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min $km^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina. – 5.

**2. Sidney** – Avstraliyada şəhər. Yeni Cənubi Uels ştatının inzibati mərkəzi. Əsası 1788-ci ildə qoyulmuşdur. – 5,13.

**3. İlham Əliyev**, İ l h a m  H e y d ə r  o ğ l u (d.1961) – görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat, siyasi elmlər doktoru, professor. 2003-cü ildən Azərbaycan Respublikasının prezidenti. Xalqımızın ümummilli lideri Heydər Əliyevin oğlu. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 1997-2003-cü illər birinci vitse-prezidenti. Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır.

2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Siyasi və dövlət xadimi kimi, İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin yüksək mükafatlarına layiq görülmüşdür.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurlar əldə etməsində də AMOK-un prezidenti kimi, İlham Əliyevin böyük xidmətləri vardır. Onun şəxsi təşəbbüsü ilə Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə və respublikanın əksər rayonlarında dünya standartlarına cavab verən böyük olimpiya kompleksləri tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmışdır.

İlham Əliyevin doğma Azərbaycanımızın inkişafında müstəsna xidmətləri vardır. Onun dövründə ölkə iqtisadiyyatı, qeyri-neft sektoru sürətlə inkişaf etmiş, eyni zamanda ölkəyə qoyulan xarici investisiyalar xeyli artmışdır.

İlham Əliyev tərəfindən irəli sürülmüş «Regionların sosial-iqtisadi inkişafı haqqında dövlət proqramı»na əsasən respublikanın şəhər və rayonlarında onlarla sənaye müəssisəsi açılmış, yüz minlərlə iş yerləri yaradılmış və böyük abadlıq işləri görülür.

Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında sədrin birinci müavini seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin (1–2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri, erməni terrorizmi barədə həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri vardır. «Heydər Əliyev» və Fransanın «Fəxri legionun böyük xaç komandoru» ordenləri ilə təltif olunmuş, bir neçə ölkənin və beynəlxalq təşkilatların fəxri ad və mükafatlarına layiq görülmüşdür. Bir neçə xarici akademiyaların və universitetlərin fəxri üzvüdür. – 5,13,39, 242,248,252,260,264,265,266,278,295,316,318,332,393.

**4. Sovetlər İttifaqı**, S o v e t  S o s i a l i s t  R e s p u b l i k a l a r ı  İ t t i f a q ı (SSRİ) – 1922–1991-ci illərdə keçmiş Rusiya imperiyasının böyük hissəsində mövcud olmuş dövlət. SSRİ-nin yaradılmasına dair Müqaviləyə (dek.1922) əsasən onun tərkibinə Belorusiya (BSSR), Rusiya (RSFSR), Cənubi Qafqaz respublikaları (ZSFSR; 1936-cı ildən müttəfiq respublikalar – Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR) və Ukrayna SSR, 1925-ci ildə Özbəkistan SSR, Türkmənistan SSR, 1929-cu ildə Tacikistan SSR, 1936-cı ildə Qazaxıstan SSR, Qırğızıstan SSR, 1940-cı ildə Moldaviya SSR, Latviya SSR, Litva SSR, Estoniya SSR daxil olmuşdular.

1991-ci ilin dekabrında Belorusiya, Rusiya və Ukrayna SSRİ-nin mövcudluğunun dayandırıldığını elan edərək Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında Saziş imzaladılar (8 dekabr, Minsk). 1991-ci il dekabrın 21-də Latviya, Litva və Estoniya istisna olmaqla keçmiş SSRİ-nin digər müttəfiq respublikalarının başçıları Alma-Atada Bəyannamə imzalayaraq MDB-nin yaradılması haqqında məqsəd və prinsiplərə qoşulduqlarını bəyan etdilər. – 6,21,37,87,96,112,135,145,146,222,257,349.

**5. Rəfiqə Şabanova,** R ə f i q ə  M a h m u d  q ı z ı (d.1943) – həndbolçu məşqçi və müəllim. 21-ci Olimpiya oyunları çempionu (1976; Monreal) SSRİ və Azərbaycan əməkdar idman ustası. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 7.

**6. Şubina Lyudmila** (d.1948) – həndbolçu, məşqçi və müəllim. 1973-cü il dünya çempionatlarının gümüş (1973) və bürünc (1975) mükafatçısı, 1976-cı il Monreal olimpiya oyunlarının çempionudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur . – 7.

**7. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 km$^2$, əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 10,12,189,311,354.

**8. Şəki –** (1968-ci ilədək Nuxa rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Oğuz rayonuna verilmiş, 1965-ci ildə yenidən mustəqil rayon olmuşdur. Sahəsi 2397 km$^2$, əhalisi 173 min nəfərdir. – 10,235,248–336.

**9. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 km$^2$, əhalisi 146,9 min nəfərdir. – 10.

**10. Quba** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2575 km$^2$, əhalisi 140,0 min nəfərdir. – 10.

**11. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min km$^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 12,29,30,31, 37,108,123,124,130,205,274,290,296,395.

**12. Maştağa** – Azərbaycan Respublikasında – Sabunçu rayonunda şəhər tipli qəsəbə. Maştağa qədim yaşayış məntəqələrindəndir. Maştağa sözünün etimologiyasını vaxtilə burada məskunlaşmış massagetlər (maskutlar) tayfasının adı ilə əlaqələndirirlər. Maştağa Abşeronun xalq memarlığı mərkəzlərindən olmuşdur. Maştağada Şirvanşah I İbrahimin dövründə (1414-cü ildə məscid – kitabəsi Milli Azərbaycan Tarixi Muzeyində saxlanılır) tikilmişdi. 1669-cu ildə Stepan Razinin dəstəsi Maştağanı dağıtmış, çoxlu qənimətlə geri dönmüşdü. Memarlıq abidələrindən hamam (XVII əsr), Aqilbaba türbəsi, Xunxar türbəsi, Xoca Aslan, Həsənbəy, Pirşad (XVIII əsr) məscidləri və s. qalır. – 13.

**13. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 390 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi var. – 15–26,131.

**14. Vasif Talıbov,** V a s i f Y u s i f o ğ l u (d.1960) – Azərbaycanın dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 15–26.

**15. Zəngəzur –** Azərbaycanın tarixi ərazisi. Tarixi vilayət kimi indiki Ermənistan ərazisinin cənub–şərqini, Göyçə gölü hövzəsini, Azərbaycan Respublikasının cənub–qərbini əhatə edirdi. Zəngəzur ərazisi ən qədim dövrlərdən başlayaraq Azərbaycan dövlətlərinin tərkib hissəsi olmuşdur. Rusiya–İran müharibələrindən (1804–13; 1826–28) sonra Türkmənçay müqaviləsinə (1828) əsasən, Rusiyaya qatılmışdır. Bu vaxtdan etibarən Zəngəzura çar hökumətinin himayəsi altında Türkiyə və İrandan kütləvi surətdə ermənilərin köçürülməsinə başlanılmış, beləliklə, qədim Azərbaycan torpağı olan Zəngəzurda süni surətdə erməni əhalisinin sayca çoxaldılması siyasəti yeridilmişdir. Zəngəzur 1829-cu ildə Qarabağ əyalətinə qatılmış, 1861-ci ildən Azərbaycan ərazisində Zəngəzur qəzası təşkil olunmuş, 1867-ci ildə Yelizavetpol (Gəncə) quberniyası yaradıldıqda qəza onun tərkibinə daxil edilmişdi. Cənubi Qafqazda müstəqil dövlətlər yaradıldıqdan sonra ermənilərin Zəngəzura qarşı ərazi iddiaları soyqırımları ilə müşayiət olundu. Sovet Rusiyasının yaxından köməyi ilə

Zəngəzur qəzası torpaqlarının böyük bir hissəsinin Ermənistana ilhaq edilməsilə Azərbaycana daha bir zərbə vuruldu, Naxçıvan bölgəsi Azərbaycandan ayrı salındı. – 19,274.

**16. Qars müqaviləsi** (1921) – Azərbaycan, Ermənistan və Gürcüstan Sovet Sosialist Respublikaları ilə, Türkiyə, RSFSR-in iştirakı ilə oktyabrın 13-də Qarsda bağlanmışdır. Qars müqaviləsinin 5-ci maddəsi və III əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Qeyd olunan maddədə dürüst və konkret göstərilirdi: «Türkiyə hökuməti, Sovet Ermənistanı və Sovet Azərbaycan hökumətləri Naxçıvan vilayətinin hazırkı müqavilənin III əlavəsində göstərilən sərhəd daxilində Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar». Qars müqaviləsi beynəlxalq müqavilə kimi, Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi statusunu təsbit etmişdir. Təsadüfi deyildir ki, Naxçıvan MR-nin təhlükəsizliyi hədələnəndə Qars müqaviləsi mühüm tarixi sənəd olmaqla, onun taleyinin qarantı kimi, gündəliyə gəlir. – 20.

**17. Moskva müqaviləsi** (1921) – RSFSR ilə Türkiyə arasında bağlanmış «Dostluq və qardaşlıq haqqında» müqavilə. Moskva müqaviləsinin 3-cü maddəsi bütünlüklə Naxçıvan məsələsinə həsr edilmiş və orada aydın şəkildə göstərilmişdir ki, danışıqlarda iştirak edən hər iki tərəfin razılığı ilə hazırkı müqavilənin I maddəsinin V əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir. – 20.

**18. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 20,35,39,48,69,73,84,94,172,184,257, 258,350,368,372–373,388,392,393.

**19. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 20,49,58,65,80,96, 101,111,112–113,138,156,161–164,195,221,222,232,246,250,270,274,284,305, 318,332,370,377,384,394–396.

**20. Azərbaycan Xalq Cəbhəsi** (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 21.

**21. Sisyan nahiyəsi** – XVIII əsrin əvvəllərində Osmanlıların idarəsində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri. Sisyan nahiyəsi 42 yaşayış məntəqəsini əhatə etmişdir. – 21.

**22. Gorus** – Azərbaycan Rusiya imperiyasının tərkibinə qatıldıqdan sonra tarixi ərazimiz olan Zəngəzur qəzasının mərkəzi. Gorusda 1823-cü ildə 119 ailə (azərbaycanlı və erməni) yaşayırdı. Ərazisi 752 km$^2$-dir. 1829–1931-ci illərdə İrandan və Türkiyədən xeyli sayda erməni köçürülərək Gorus rayonu ərazisində yerləşdirilmiş, gəlmə ermənilərin hesabına şəhərin əhalisi artmışdır. 1905 və 1918-ci il Zəngəzurdakı erməni–müsəlman davaları zamanı Gorus erməniləri xüsusilə qəddarlıq göstərmişlər 1920-ci illərin sonlarından həyata keçirilən rayonlaşdırma zamanı Gorus rayonu təşkil edilmişdir. Zəngəzur qəzasının əsas hissəsi Ermənistana inhar edildi və Gorus Zəngəzur qəzasının, daha sonra Gorus rayonunun mərkəzi olmuşdur. – 21.

**23. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 51 min nəfər. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 21.

**24. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı zəbt etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 21.

**25. Yerevan** bax: İrəvan.

**26. İrəvan** – qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli qərarı ilə «bir siyasi mərkəz» olaraq ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdi. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (3–7-ci əsrlər), Ərəb xilafətinin (7–9-cu əsrlər), Səlcuq dövlətinin (11–13-cü əsrlər), Monqol imperiyasının (13-14-cü əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Agqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir şahın (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında mustəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yarandı.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşdur. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i Azərbaycan türkləri idi. Çarizmin erməniləri İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 21,225.

**27. İran,** İran İslam Respublikası – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 68,2 mln. nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 22,24,41,45, 47,49,58 –59,78,96,97,204,206,270.

**28. «Ümid körpüsü»,** Həsrət körpüsü – Araz çayı üzərində körpü (uz. 286 metr). Türkiyə ilə Azərbaycan arasında sərhəddə (*Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələri*) iki qardaş dövlət və ölkəni birləşdirir. 90-cı illərin əvvəllərində Naxçıvan MR-nin keçirdiyi iqtisadi çətinliklərin, xüsusilə nəqliyyat blokadasının ləğvində körpünün müstəsna rolu olmuşdur. – 24,30.

**29. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 24, 29–40,41–59,62–76,78–81,83,84,95,96,97,157,158,159,184,190–195,290,330, 338–346,348,352,360,366,385–386,388.

**30. Şəmkir** (1930–91-ci illərdə Şamxor rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1656,8 km$^2$, əhalisi 183,5 min nəfərdir. – 24,311,312.

**31. Atabəylər dövləti** – Azərbaycanda Eldəgizlər sülaləsinin idarə etdiyi qüdrətli feodal dövlət [1136–1225]. Azərbaycan Atabəyləri Dövlətinin əsasını Şəmsəddin Eldəgiz qoymuşdur. Azərbaycan Atabəyləri Dövlətinin yaranma tarixi Sultan Məsudun (1135–52) Arranı (Bərdəni) bir iqta kimi Şəmsəddinə verməsi ilə bağlıdır. Paytaxtı müxtəlif vaxtlarda Naxçıvan, Həmədan, Təbriz olmuşdur. – 25.

**32. Macarıstan,** Macarıstan Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeştdir. – 27.

**33. Ferents Madl** (d.1931) – Macarıstan siyasi və dövlət xadimi. Macarıstan Akademiyasının akademiki. 2000–05-ci illərdə Macarıstanın prezidenti olmuşdur. – 27.

**34. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma-katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma papasıdır. – 28.

**35. II İohann Pavel,** dünyəvi adı Karol Voytıla (1920–2005) – ilahiyyat elmləri doktoru. 1523-cü ildən bəri ilk qeyri-italyan mənşəli (polyak) Roma papası olmuşdur. Sülh və beynəlxalq gərginliyin zəifləldilməsində böyük xidmətləri var. II İohann Pavel 1978-ci ildə Roma papası seçilmişdir. Dünyanın bir çox ölkəsində, o cümlədən prezident Heydər Əliyevin dəvəti ilə 2002-ci ildə Azərbaycanda rəsmi səfərdə olmuşdur. – 28.

**36. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 30,50,53,54,55,56,59,63,65,74,88,98, 169,171,175,184,185,199,200,205,212–214,231,274,286,357,372,374–376, 379,380,383,386.

**37. Sədərək** – Naxçıvan MR-də inzibati rayon. Sərhəd bölgəsinin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək, həmçinin ərazinin geostrateji mövqeyi nəzərə alınaraq 1990-cı il avqustun 28-də Azərbaycan SSR Ali Sovetinin fərmanı əsasında yaradılmışdır. Sahəsi 0,15 min km$^2$, əhalisi 12,9 min nəfərdir. – 30.

**38. 1993-cü il iyun hadisələri** – Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirmiş Gəncə hadisələri, Bakıda Ali Sovetin binası qarşısında keçirilən çoxsaylı mitinqlə, xalqın tələbilə Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsi, Ali Sovetin sədri seçilməsi, o zamankı respublika prezidenti Ə.Əliyevin (Elçibəyin) Kələki kəndinə getməsi, Ali Sovetin sədri Heydər Əliyevin respublika prezidentinin vəzifəsini icra etməyə başlaması nəzərdə tutulur. – 31,89,253.

**39. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülmə-si» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 32,48,68,94,148,256.

**40. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 33,34,35,36,39,53,68,69,70,73,74, 78,79,80,94,168,176,203,255,342,343,345,368,373,386,387,392,393.

**41. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çox-partiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət As-sambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 34,95,103,177,187.

**42. «Botaş»** –Türkiyədə xam neft və mavi qaz kəmərlərinin və ticarət dövlət kompaniyası. «Botaş» 1974-cü ildə Kirkuk–Ceyhan kəmərinin tikilməsi və istismarı üçün yaradılmışdı. 1987-ci ildən «Botaş», həmçinin mavi qazın ötürülməsində və satılmasında iştirak edir. «Botaş» Nabukko kəmərinin layihəsində də iştirak edir. – 35.

**43. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 35,103,141,145,147.

**44. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 35,65,97,171,175,185,348.

**45. Enka** – Türkiyə şirkəti. 1957-ci ildə yaradılmışdır. Türkiyə və Rusiya tikinti bazarının liderlərindən biri. Mənzil-qərargahı İstanbuldadır. Şirkətin tikinti bölməsi Türkiyədə sənaye obyektləri, körpülər, ticarət mərkəzləri, aeroportlar, boru kəmərlərinin çəkilişində fəal iştirak edir. – 36,37.

**46. İqtisadi Əməkdaşlıq Təşkilatı,** İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) – 1961-ci ildə yaradılmış dövlətlərarası iqtisadi təşkilat. İƏİT-in məqsədi inkişaf etmiş ölkələrdə iqtisadi siyasətin koordinasiyası və qəbul edilmiş proqramların inkişafına kömək etməkdir. 1974-cü ildən İƏİT tərkibində Beynəlxalq Enerji Agentliyi fəaliyyət göstərir. Mənzil-qərargahı Parisdədir. – 36,41–59,62–76,95,206.

**47. İstanbul (**1453-cü ilədək Konstantinopol) – Türkiyədə ən böyük şəhər. İstanbul ilinin inzibati mərkəzi. Sahəsi 285,4 km$^2$, əhalisi 13,0 milyon nəfərdən çox. Mərmərə dənizi yaxınlığında Bosfor boğazının hər iki sahilindədir. Şəhərin çox hissəsi Avropada, az hissəsi Asiyadadır. Əsası e.ə. 660-cı ildə Bizans kimi qoyulmuşdur. Eramızın 330-cu ilində Roma imperatoru Konstantinin şərəfinə Konstantinopol adlandırılmışdır. 395-ci ilə qədər Roma imperiyasının, 395–1453-cü illərdə fasilələrlə Bizansın paytaxtı olmuşdur. 1453-cü ildə Türkiyə Konstantinopolu tutmuş və İstanbul adlandırılmışdır. 1453–1918-ci illərdə Osmanlı imperiyasının, 1923-cü ilə kimi Türkiyə Respublikasının paytaxtı olmuşdur. – 36,39,41–59,62–76,78–81,96,342,343.

**48. İndoneziya,** İ n d o n e z i y a R e s p u b l i k a s ı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 1904,5 min km$^2$, əhalisi 198,2 milyon nəfərdir. İnzibati ərazisi 24 əyalətə, əyalət statusu olan 2 xüsusi inzibati əraziyə, 1 metropoliten mahalına (paytaxt) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 37,60,61.

**49. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmış, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 41,45,46,48, 52–53,63,72,73,78,79,94,158,385–386,388.

**50. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 41,42,45,54–55,78.

**51. Pərviz Müşərrəf** (d.1943) – 2001–2008-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qərargah rəisi olmuşdur. – 41,42,45, 54–55,78.

**52. Xatəmi,** S e y i d M ə h ə m m ə d X a t ə m i (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın Mədəniyyət və İslam Oriyentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. –41,45,49,78,96,205,206.

**53. Vilayət Quliyev,** V i l a y ə t M u x t a r o ğ l u (d.1952) – filoloq, diplomat. Filologiya elmləri doktoru. 1995–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. 1999–2004-cü illərdə Azərbaycan Respublikasının Xarici İşlər naziri vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Macarıstanda Fövqəladə və Səlahiyyətli səfiridir. – 44.

**54. Məmməd Əliyev,** M ə m m ə d N o v r u z o ğ l u (d.1942) – Fövqəladə və Səlahiyyətli səfir, fizika-riyaziyyat elmləri doktoru. 1992–2005-ci illərdə Türkiyə Respublikasında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 44,76.

**55. Abbasəli Həsənov,** A b b a s ə l i K ə r ə m o ğ l u (d.1953) – şərqşünas, diplomat. 1998-2012-ci illər Azərbaycan Respublikasının İranda Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. 2012-ci ildən Azərbaycanın Tacikistan Respublikasında səfiri. Eyni zamanda 1998-ci ildən İƏT – İqtisadi Əməkdaşlıq Təşkilatında idarə heyətinin üzvü, hazırda isə sədridir. – 44,76.

**56. Xeyrəddin Qoca,** Q o c a y e v X e y r ə d d i n S a y ə d d i n o ğ- l u (d.1950) – Jurnalist. 1995–2000-ci illərdə Milli Məclisin deputatı, 1997–2002-ci illərdə isə Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu olmuşdur. – 44,76.

**57. Əfqanıstan,** Əfqanıstan İslam Dövləti – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və 2 tabe mərkəzi mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 45,56–57,78,83,84,97,352.

**58. Həmid Kərzai** (d.1957) – 2004-cü ildən Əfqanıstan İslam Dövlətinin prezidenti. 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri olmuşdur. Kərzayi Əfqanıstanı 200 il idarə etmiş tanınmış Populzay qəbiləsindən olan puştu klanının nümayəndəsidir. – 45,56–57,78.

**59. Türkmənistan,** Türkmənistan Respublikası – Orta Asiyanın cənub–qərbində dövlət. Sahəsi 488,1 min km$^2$, əhalisi 4574 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 45,96,118.

**60. Qırğızıstan,** Qırğızıstan Respublikası – Şimal–Şərqi Orta Asiyada dövlət. Sahəsi 198,5 min km$^2$, əhalisi 4526 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 45.

**61. Əsgər Akayev** (d.1944) – Qırğızıstanın dövlət xadimi. 1989–90-cı illərdə Qırğızıstan EA-nın prezidenti, 1990–2005-ci illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. – 45.

**62. Tacikistan,** Tacikistan Respublikası – Orta Asiyanın cənub–şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 5705 min nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 45.

**63. İmaməli Rəhmonov,** İmaməli Şərif oğlu (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. Həmin ilin noyabrından Tacikistan Respublikasının prezidentidir. – 45.

**64. Qazaxıstan,** Qazaxıstan Respublikası – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 45,49,69,96,119,154,305.

**65. Qasımcomərd Tokayev** (d.1953) – Qazaxıstan dövlət xadimi, diplomat. Siyasi elmlər doktoru. 1990–2002-ci illərdə Qazaxıstanın Baş naziri, 2002–2007-ci illərdə Xarici İşlər naziri, 2007–2011-ci illərdə Qazaxıstan Senatının spikeri, 2011-ci ildən BMT Baş katibinin müavini və BMT-nin Cenevrə şöbəsinin Baş direktorudur. – 45.

**66. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 47,49,65,67,68,82–85,95,96,97, 143,196–200,269,337,351–353,377,388,392–393.

**67. Şevardnadze** Eduard Amvrosiyeviç (d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972–85-ci illərdə Gürcüstan KP MK-nın Birinci katibi, 1985–90-cı illərdə SSRİ Xarici İşlər naziri, 1994–2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 48,69,73,94,350,368,369, 372–373,387,392.

**68. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min bareldir. Supsada hər birinin tutumu 250 min barel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 48,69,79,149,176.

**69. Bakı–Novorossiysk neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. –48,69,149.

**70. Bakı– Tbilisi – Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin diametri 420 mm, uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 53,70,73,78,79,94,169,386.

**71. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 53,73,169,175,185,197,212–214,262,335,348,374,375,376,377,380, 381,387.

**72. Meqavati Sukarnoputri** (d.1947) – 2001–2004-cü illərdə İndoneziyanın prezidenti olmuşdur. Prezident Sukarnonun qızıdır. – 60.

**73. Bali** – Kiçik Zond adaları arxipelaqının qərb hissəsində ada. İndoneziyanın tarixi - memarlıq abidələri ilə zəngindir. Sahəsi 5,6 min $km^2$. –60.

**74. Avstraliya,** A v s t r a l i y a İ t t i f a q ı – Avstraliya qitəsində dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 7,7 milyon $km^2$, əhalisi 18,3 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və iki əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Ölkədə kraliçanı general-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 61.

**75. Con Hovard** (d.1939) – 1996-cı ildən Avstraliyanın Baş naziri. Avstraliya Liberal Partiyasının lideri. – 61.

**76. Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur.
S.Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 62, 63,64,69,73,80.

**77. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min $km^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 65,212–214, 269,295,369,377,380–381,388,391.

**78. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropa Atom Enerjisi Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun vahid valyuta qəbul etməsi – AVRO) bir neçə mərhələ keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-cı ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi, 1993-cü ildə isə Avropa Şurası yarandı. – 65,95,175,177,187.

**79. ATƏT-in İstanbul Zirvə görüşü** – 1999-cu il noyabrın 18–20-də Türkiyənin İstanbul şəhərində ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə keçirildi. Bu, ATƏT-in son toplantısı idi. İstanbul sammitində 3 sənəd qəbul olundu. Birincisi – İstanbul xartiyası – dünyada sülhün və təhlükəsizliyin təmin olunması, ölkələrin ərazi bütövlüyünün qorunması, baş vermiş münaqişələrin sülh yolu ilə həll olunması və s. İkinci sənəd Avropada adi silahlar haqqında, üçüncü sənəd isə siyasi bəyannamə idi. – 69.

**80. Klinton Bill,** U i l y a m C e f e r s o n B l a y d (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 42-ci prezidenti (1992–2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 69.

**81. Bosfor** – Avropa ilə Kiçik Asiya arasında boğaz. Qara və Mərmərə dənizlərini birləşdirir. Uzunluğu təqribən 30 km, eni 750 m-dən 3,7 km-dək, dərinliyi ən dayaz yerdə 33 m-dir. Qara dənizdən yeganə çıxış yolu olan Bosforun mühüm iqtisadi və strateji əhəmiyyəti var. – 69,79.

**82. Ceyhan –** Aralıq dənizi sahilində liman. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 69,183, 256,342.

**83. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-cı ildə Qazaxıstan SSR-nin prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 69,119.

**84. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – mili-azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 71,190.

**85. «Şahdəniz»** – Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 74,81,183,184,393.

**86. Finlandiya,** F i n l a n d i y a R e s p u b l i k a s ı – Şimali Avropada dövlət. Sahəsi 397 min km$^2$, əhalisi 5,13 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 77.

**87. Tarya Halonen** (d.1943) – Finlandiyanın ictimai və siyasi xadimi. Müxtəlif illərdə Ədliyyə, Sosial Müdafiə və Xarici İşlər nazirliklərinə başçılıq etmişdir. 2000-ci ildən Finlandiya Respublikasının prezidentidir. – 77.

**88. Supsa** – Qara dəniz sahilində liman. 1996-cı il martın 8-də Bakıdan Supsa limanına neft kəmərinin çəkilməsinə dair beynəlxalq saziş imzalanmışdır. 1999-cu il aprelin 17-də Bakı–Supsa ixrac boru kəməri, Supsa yerüstü terminalı istifadəyə verilmişdir. Açılışda Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak etmişdi. – 80.

**89. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 80,82–85,95,97,177,187,351–353,368–389.

**90. «907-ci maddə» –** ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də erməni lobbisinin təzyiqi ilə qəbul etdiyi «Rusiyanın və yeni müstəqillik qazanmış dövlətlərin azadlığını müdafiə aktı»na 907-ci düzəliş nəzərdə tutulur. Düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə yardımını qadağan edir. Buna baxmayaraq, istər Bill Klinton, istərsə də ondan sonra ABŞ prezidenti seçilən Corc Buş administrasiyası bu düzəlişin reallığı nəzərə almadığını təsdiq edərək onun ləğv edilməsi təklifini müdafiə etmişlər. C.Buş hökuməti 2002-ci ildə bu düzəlişin fəaliyyətdən düşdüyünü qərara almışdır. – 82,84,85,95,200,389.

**91. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi. 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Havyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 82,83,378.

**92. Konqres,** A m e r i k a  B i r l ə ş m i ş  Ş t a t l a r ı  K o n q r e s i – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr palatasından ibarətdir.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 84,200,389.

**93. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 87,123,250,362.

**94. Məmmədəmin Rəsulzadə** (1884–1955) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli ictimai-siyasi və dövlət xadimi, publisist, Müsavat Partiyasının yaradıcılarından biri. Onun Azərbaycanın milli-azadlıq hərəkatında müstəsna rolu olmuşdur.1922-ci ildən mühacirətdə yaşamış, 1955-ci ildə Ankarada vəfat etmişdir. – 87.

**95. Fətəli Xan Xoyski (**1875–1920) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi. 1918–20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri, Daxili İşlər, Ədliyyə və Xarici İşlər naziri olmuşdur. 1920-ci ildə Tiflis şəhərində erməni terrorçuları tərəfindən xaincəsinə qətlə yetirilmişdir. – 87,250.

**96. Əlimərdan bəy Topçubaşov** (1865–1934) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli hüquqşünas, ictimai-siyasi və dövlət xadimi, diplomat. 1917–1920-ci illərdə Bakı Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin sədri, Azərbaycan parlamentinin sədri. Paris (Versal) sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı olmuşdur. 1934-cü ildə Parisdə vəfat etmişdir. – 87.

**97. Yusif bəy Nəsibbəyli,** U s u b b ə y o v  N ə s i b  b ə y  Y u s i f  o ğ l u (1881–1920) – Azərbaycanın görkəmli dövlət və siyasi xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri. Azərbaycan Xalq Cümhuriyyətinin 4-cü və 5-ci hökumət kabinələrinə başçılıq etmişdir.

Bakının Qırmızı ordu tərəfindən işğalından və ADR-in süqutundan sonra N.B. Usubbəyli faciəli surətdə qətlə yetirilir. – 87.

**98. 1990-cı ilin 20 yanvarı –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən Sovet Ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet Ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 88,89.

**99. 1994-cü il oktyabr hadisələri** –oktyabrın 3-də Gəncə və Qazaxda, həmçinin Bakıda Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən dövlət çevrilişi cəhdi nəzərdə tutulur. Həmin gün Bakıda fövqəladə vəziyyət elan edilmiş və Azərbaycan prezidenti Heydər Əliyev televiziya və radio ilə xalqa müraciət etmişdi. Gecə olmasına baxmayaraq Bakı və ona yaxın yerlərdən yüz minlərlə insan Prezident sarayı

qarşısına toplaşaraq milli və vətəndaşlıq həmrəyliyi nümayiş etdirərək Heydər Əliyevin siyasətini dəstəkləmişlər. – 89,254.

**100. 1995-ci il mart hadisələri –** martın 12–13-də Qazax və Ağstafa, martın 16–17-də isə Bakının 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup üzvünün silahlı çıxışı nəzərdə tutulur. Respublika rəhbərliyinin qəti tədbirləri nəticəsində çevriliş cəhdinin qarşısı alındı və silahlı dəstə tərksilah olundu. – 89,254.

**101. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 90,151,273.

**102. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 90,151.

**103. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 93, 114,154,173,184,299,342,369.

**104. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 92,93, 149,152.

**105. Putin Vladimir Vladimiroviç** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 96,113,138,156,162,163,232.

**106. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 96,112,114,163,224, 225,231,255,330,395.

**107. Saparmurad Niyazov,** Türkmənbaşı (1940–2007) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ilin dekabrından 1990-cı ilə qədər Türkmənistan KP MK-nın birinci katibi, 1990-cı ildən 2007-ci ilədək Türkmənistan Respublikasının prezidenti olmuşdur. – 96,118.

**108. Şəhidlər xiyabanı –** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də Sovet Ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi

uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl - abidə qoyulmuşdur. – 100–101.

**109. Vaqif Mustafayev,** V a q i f   B e h d u d   o ğ l u (d.1953) – kinorejissor. Azərbaycan Respublikasının Xalq artisti. Bir çox filmlərin, o cümlədən prezident Heydər Əliyev haqqında filmin rejissorudur. «SPACE» müstəqil teleradio şirkətinin prezidentidir. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. – 101.

**110. Qorbaçov,** M i x a i l   S e r g e y e v i ç (d.1931) – 1985–91-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990–91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən qanlı Yanvar faciəsinin təşkilatçısı və günahkarıdır. – 101.

**111. Hacıbala Abutalıbov,** H a c ı b a l a   İ b r a h i m   o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 102,124,166,211,357,358,359.

**112. GUÖAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə Özbəkistan bu qurumu tərk etdi. – 103.

**113. Məlahət Həsənova,** M ə l a h ə t   İ b r a h i m   q ı z ı (d.1958) – İkinci və üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, YAP Nəsimi rayon təşkilatının sədridir. Milli Məclisin Sosial siyasət daimi komissiyasının üzvü, Hesablayıcı komissiyasının sədri, NATO-nun Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür. – 103.

**114. Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 103,115.

**115. Məleykə Abbaszadə,** M ə l e y k ə   M e h d i   q ı z ı (d.1953) – riyaziyyatçı, texniki elmlər namizədi. 2000-ci ildən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədridir. – 103.

**116. Əsmətxanım Məmmədova,** Ə s m ə t x a n ı m   B ə y ə h m ə d   q ı- z ı (d.1941) – şərqşünas. Filologiya elmləri namizədi. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 103.

**117. Aynur Sofiyeva,** A y n u r   M ə m m ə d i y y ə   q ı z ı (d.1970) – Azərbaycan şahmatçısı, Beynəlxalq qrosmeyster, Milli Məclisin (2-ci çağırış) deputatı olmuşdur. Hazırda Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavinidir. – 103.

**118. Amalya Pənahova,** A m a l y a   Ə l i ş   q ı z ı (d.1945) – Azərbaycan aktrisası. Əmək fəaliyyətinə Azərbaycan Akademik Dram Teatrında başlamışdır. Teatr səhnəsində rəngarəng və yaddaqalan obrazlar yaratmışdır. Azərbaycanın Xalq artistidir. Bakı Bələdiyyə Teatrının bədii rəhbəri və direktorudur. 2000–2005-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 103.

**119. Gülçöhrə Məmmədova,** G ü l ç ö h r ə   H ü s e y n   q ı z ı (1953) – memarlıq doktoru, professor, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru. 2000–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 2010-cu ildə yenidən Milli Məclisin deputatı seçilmişdir. – 103.

**120. Hüseyn Cavid,** H ü s e y n   A b d u l l a   o ğ l u   R a s i z a d ə (1882–1941) – böyük Azərbaycan şairi, dramaturq. Hüseyn Cavid Azərbaycan romantizminin banilərindən biri olmuşdur. O, lirik şeirlərin, lirik-epik, epik poemaların müəllifidir.

Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratmış, milli teatr mədəniyyətinin inkişafına

qüvvətli təsir göstərmişdir. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 103,104,107,120–121,122–132,133–137,141.

**121. Zəroş Həmzəyeva,** Z ə r o ş M i r z ə b a ğ ı r q ı z ı (d.1925) – aktrisa. Azərbaycan Respublikasının Xalq artisti. Səhnə fəaliyyətinə 1942-ci ildən başlamışdır. Azərbaycan dramaturqlarının, xüsusilə C.Cabbarlının, habelə dünya klassiklərinin əsərləri Həmzəyevanın repertuarında xüsusi yer tutur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 104.

**122. Qabil,** İ m a m v e r d i y e v Q a b i l A l l a h v e r d i o ğ l u (d.1926–2007) –Azərbaycan Respublikasının Xalq şairi. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 104.

**123. Əliabbas Qədirov,** Ə l i a b b a s Q u l u o ğ l u (1946–2006) – Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Dövlət mükafatı laureatı. Əliabbas Qədirov Azərbaycan Dövlət Milli Dram Teatrında biri-birindən gözəl obrazlar yaratmışdır. Ona Əli Əmirlinin «Messenat» pyesindəki Hacı Zeynalabdin Tağıyevin obrazı daha çox şöhrət qazandırmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 104.

**124. Əliqulu Qəmküsar,** Ə l i q u l u Ə l ə k b ə r o ğ l u (1880–1919) – Azərbaycan şairi, jurnalist. «Molla Nəsrəddin» ədəbi mühitinin ən qabaqcıl nümayəndələrindən olan Qəmküsar 1906-cı ildən «Cüvəllağı», «Cüvəllağıbəy», «Simurq» və s. imzalarda dərc etdirdiyi satirik şeir və felyetonlarda fanatizmi, geriliyi, cəhaləti kəskin satira atəşinə tutmuşdur. – 107.

**125. Şövkət Ələkbərova,** Ş ö v k ə t F e y z u l l a q ı z ı (1922–1993) – Azərbaycan müğənnisi. Məlahətli, yumşaq tembrli səsi olan Şövkət xanımın ifaçılığı üçün yüksək vokal mədəniyyəti, dərin emosionallıq və lirizm səciyyəvi idi. Məharətli gəzişmələr, improvizasiya ustalığı onun muğam yaradıcılığının əsas məziyyətlərindəndir. Azərbaycan Respublikasının Xalq artisti. – 109–110.

**126. Fikrət Əmirov,** F i k r ə t C ə m i l o ğ l u (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı. Fikrət Əmirov instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı idi. – 109,233–234.

**127. Cahangir Cahangirov,** C a h a n g i r o v C a h a n g i r Ş i r - g ə ş t o ğ l u (1921–1992) – Azərbaycan bəstəkarı. Azərbaycan Respublikasının xalq artisti. SSRİ Dövlət mükafatı laureatıdır. – 109.

**128. Səid Rüstəmov,** S ə i d Ə l i o ğ l u (1907–1983) – Azərbaycan bəstəkarı, dirijor, pedaqoq. Azərbaycan Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. S.Rüstəmovun yaradıcılığı Azərbaycan musiqi folkloru ilə sıx bağlıdır. Mahnı janrı yaradıcılığında əhəmiyyətli yer tutmuşdur. 1949–53-cü illərdə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 109.

**129. Tofiq Quliyev,** T o f i q Ə l ə k b ə r o ğ l u (1917–2000) – görkəmli Azərbaycan bəstəkarı. Azərbaycan Respublikasının Xalq artisti. Tofiq Quliyev Azərbaycan estrada musiqisinin yaradıcılarındandır. Onun lirik mahnıları sadə, aydın və milli koloritlidir. 1973-cü ildən ömrünün axırınadək Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 109.

**130. Moskva Akademik Teatrı,** V. M a y a k o v s k i a d ı n a– dram teatrı. Əsası 1922-ci ildə Moskvada İnqilab Teatrı kimi qoyulmuşdur. – 111.

**131. Somerset Moem** (1874–1965) – ingilis yazıçısı, dramaturq, novella ustası. –111.

**132. Nemolyayeva Svetlana** (d.1937) – Rusiya aktrisası. 1959-cu ildən V.Mayakovski adına Akademik Dram Teatrının solistidir. Kinofilmlərdə də çəkilir. Rusiya Federasiyasının Xalq artisti. – 111.

**133. Vitorqan Emmaniul** (d.1939) – Rusiya teatr və kino aktyoru. 1984-cü ildən V.Mayakovski adına Akademik Dram Teatrında fəaliyyət göstərir. Rusiya Federasiyasının Əməkdar artisti. – 111.

**134. Yevgeniya Simonova** (d.1955) – Rusiya teatr və kino artisti. 1976-cı ildən V.Mayakovski adına Akademik Dram Teatrının artistidir. Rusiya Federasiyasının Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 111.

**135. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 111,369.

**136. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 45,6 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali Radadır. Paytaxtı Kiyev şəhəridir. – 114–115,221,289.

**137. Avstriya,** A v s t r i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,1 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Milli Şura və Federal Şura) parlamentdir. Paytaxtı Vyanadır. – 116.

**138. Tomas Klestil** (d.1932) – Avstriyanın prezidenti. 1987–92-ci illərdə XİN-in Baş katibi olmuşdur. – 116.

**139. Çexiya,** Ç e x i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,3 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 117,371.

**140. Vatslav Havel** (d.1936) – Çexiyanın görkəmli siyasi və dövlət xadimi, dramaturq. Kommunist rejimi zamanı ölkədə hüquq müdafiəçilərinin liderlərindən biri olmuşdur. Dəfələrlə həbs edilmişdir. 1989-cu ildən «Vətəndaş forumu» hərəkatının başçısı idi. 1989–92-ci illərdə Çexoslovakiyanın, 1993-cü ildən 2003-cü ilə qədər Çexiyanın prezidenti olmuşdur. – 117.

**141. Azərbaycan Milli Elmlər Akademiyası** – Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; aqrar elmləri; humanitar və ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 122,134,137,349.

**142. Əlyazmalar İnstitutu** – Azərbaycan və Şərq ölkələrinə aid qədim, nadir əlyazmalar saxlanılan və tədqiq edilən elmi idarə. 1928-ci ildə təsis edilmişdir. İnstitutda Azərbaycan, ərəb, fars, türk, özbək, türkmən, gürcü, rus və başqa dillərdə 40 mindən artıq tarixi sənəd, nadir əlyazmalar, qədim çap kitabları toplanmışdır. İnstitutda saxlanılan ən qədim əlyazma (perqament üzərində qədim kufi əlifbası ilə yazılmış Quran surəsi) 1200 illk tarixə malikdir. – 122,134,137,141.

**143. Füzuli,** M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəzəl, poema, qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 122.

**144. Turan Cavid** (1923–2011) – mədəniyyət xadimi. Azərbaycan Respublikası Əməkdar mədəniyyət işçisi, Hüseyn Cavid mükafatı laureatı, Hüseyn Cavidin qızı. Hüseyn Cavidin Bakıdakı ev müzeyinin direktoru olmuşdur. Mətnşünaslıq sahəsində yaxından fəaliyyət göstərmişdir. Hüseyn Cavidin 1958–85-ci illərdə nəşr olunmuş bütün kitablarının tərtibçisidir. – 122–132,133–137.

**145. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur messenat, maarifpərvər. Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti»ni, toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə, kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin azərbaycancaya tərcümələri çap etdirir. 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 122.

**146. Tiflis** – Gürcüstan Demokratik Respublikasının (1918–21) paytaxtı. Şəhərin meydana gəldiyi ərazi eramızdan əvvəl 4–3-cü minilliklərdə mühüm yaşayış məskənlərindən biri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında İstiqlal bəyannaməsi Tiflisdə elan edilmiş, 10-cu hökumət kabinəsinin təşkili və ilk dövlətçilik tədbirləri burada həyata keçirilmişdi. – 123.

**147. Mehdi Məmmədov,** Mehdi Əsədulla oğlu (1918–1987) – rejissor, aktyor, pedaqoq. SSRİ Xalq artisti. O, müxtəlif illərdə Azərbaycan Milli Dram Teatrının, Azərbaycan Dövlət Rus Dram Teatrının Baş rejissoru olmuşdur. Məmmədovun rejissorluq üslubu əsərin fəlsəfi mənasının qabarıq verilməsi ilə səciyyələnir. – 127.

**148. Salman Mümtaz,** Salman Məmmədəmin oğlu Əs-gərov (1884–1941) – görkəmli ədəbiyyatşünas – alim, mətnşünas, şair, publisist. Milli mətnşünaslığın inkişafında böyük xidməti olmuşdur. Milli baxışlarına görə təqib olunmuş, repressiyaya məruz qalmışdır. – 128, 250.

**149. Ömər Eldarov,** Ömər Həsən oğlu (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Rəssamlıq Akademiyasının rektoru. Heykəltəraşlığın müxtəlif janrlarında (monimental abidə, portret, büst, qorelyef və s.) əsərlər yaradır. I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 132.

**150. «Kitabi-Dədə Qorqud»** – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanının hələlik XV–XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) saxlanılır. – 136,137,361.

**151. Ağamusa Axundov,** Ağamusa Ağası oğlu (d.1932) – ədəbiyyatşünas, dilçi, türkoloq. Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü. A.Axundovun «Ümumi dilçilik», «Azərbaycan dili» kitabları dönə-dönə nəşr olunmuşdur. Azərbaycan MEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, eyni zamanda AMEA-nın humanitar və ictimai elmlər bölməsinin akademik katibi olmuşdur. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 137.

**152. Misir Ərəb Respublikası** – Afrikanın şimal–şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 61 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 139–143.

**153. Hüsni Mübarək,** Seyid Məhəmməd (d.1928) – 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981–2011-ci illərdə prezidenti olmuşdur. – 140,141,142,143.

**154. İsgəndəriyyə kitabxanası** – qədim dövrün ən məşhur kitabxanası. E.ə. 3-cü əsrin əvvəllərində İsgəndəriyyə museyonu nəzdində yaradılmışdı. İsgəndəriyyə kitabxanasına görkəmli alimlər –Eratosfen, Zenodot, Kallimax və başqaları başçılıq etmişlər. Fondunda 100 mindən 700 minədək cild kitab olmuşdur. İsgəndəriyyə müharibəsi dövründə (e.ə.47-ci il) İsgəndəriyyə kitabxanası yanmış, sonradan yenə bərpa edilmişdir. Eramızın 391-ci ilində İsgəndəriyyə kitabxanasının bir hissəsini fanatik xristianlar dağıtmış, ərəblərin hakimiyyəti dövründə (VII–VIII əsr) kitabxana tamamilə məhv edilmişdir. – 141.

**155. Makedoniyalı İsgəndər,** Böyük Aleksandr, İsgəndər Zülqərneyn (e.ə. 356–323) – qədim dünyanın ən böyük sərkərdələrindən biri, 336-cı ildən Makedoniyanın çarı. Çar II Filippin oğlu. Aristotelin yanında tərbiyə almışdır. O, Orta Asiyanı və Hindistanı fəth edərək ucu-bucağı görünməyən bir dövlət yaratdı. Makedoniyalı İsgəndərin Azərbaycanda olması haqqında rəvayətlər var. – 141.

**156. Səddam Hüseyn** (1937–2006) – 1979–2003-cü illərdə İraq Respublikasının prezidenti, Ərəb Sosialist Dirçəliş Partiyasının Baş katibi və Silahlı Qüvvələrin Ali Baş Komandanı olmuşdur. 2003-cü ildə ABŞ İraqa qarşı genişmiqyaslı hərbi əməliyyata başladı, Səddam Hüseyn həbs edildi və 2006-cı ildə edam edildi. – 141.

**157. Artur Rasizadə,** A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 144.

**158. İslam İnkişaf Bankı** (İİB) – beynəlxalq maliyyə institutu. İİB-nin əsası 1973-cü ilin dekabrında Ciddədə keçirilən müsəlman ölkələri maliyyə nazirlərinin konfransında qəbul olunmuş bəyannaməyə əsasən qoyulmuşdur. Bank islam, şəriət qaydalarına riayət edən ölkələrə maliyyə yardımı göstərir. Bankın 55 üzvü var. Azərbaycan Respublikası İslam İnkişaf Bankının 1991-ci ildən üzvüdür. – 151.

**159. Asiya Bankı,** A s i y a İ n k i ş a f B a n k ı – Asiya və Sakit okean hövzəsi ölkələrində inkişaf layihələrinə uzunmüddətli kredit verən beynəlxalq regional bank. Əsası 1966-cı ildə qoyulmuşdur. Asiya İnkişaf Bankına 50-yə yaxın ölkə daxildir. Əsas auksionerləri Yaponiya, ABŞ və Çindir. Mənzil-qərargahı Maniladadır (Filippin). – 151,300.

**160. *bp*,** «B r i t i ş P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 154,368.

**161. Bülənd Ecevit** (1925–2006) – Türkiyənin siyasi və dövlət xadimi. 1974, 1978–79 və 1997–2003-cü illərdə Türkiyə Respublikasının Baş naziri olmuşdur. 1972–80-ci illərdə Respublika Xalq Partiyasının, 1978–88-ci illərdə Türkiyə Demokrat Sol Partiyasının Baş katibi olmuşdur. – 157.

**162. Ömər İzgi** (d.1940) – türk hüquqşünası və siyasətçisi. Milliyyətçi Hərəkat Partiyasının üzvü. 2000–2002-ci illərdə TBMM-nin sədri olmuşdur. – 159.

**163. Əlcəzair,** Ə l c ə z a i r X a l q D e m o k r a t i k R e s p u b l i- k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 2382 min $km^2$, əhalisi 30,6 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 160.

**164. Əbdüləziz Buteflikay** (d.1937) – Əlcəzair dövlət xadimi, 1999-cu ildən Əlcəzair prezidenti. – 160.

**165. Braziliya,** Braziliya Federativ Respublikası – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon $km^2$, əhalisi 157,9 milyon nəfərdir. Braziliya federasiyası 26 ştata və federativ (paytaxta) mahala bölünür. Dövlətin və hökumətin başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Braziliyadır. – 165.

**166. Luis İnasiu Lula Silva** (d.1945) – 2003–2011-ci illərdə Braziliya Federativ Respublikasının prezidenti olmuşdur. –165.

**167. Rumıniya** – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min $km^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 166–189.

**168. İon İliyesku** (d.1930) – Rumıniyanın siyasi və dövlət xadimi. 1989-cu ildə N.Çauşesku rejimi devrildikdən sonra ölkənin və dövlətin bütün məsuliyyətini öz üzərinə götürən Milli Dirçəliş Cəbhə Şurasına başçılıq edib. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. 1992–96-cı və 2000–04-cü illərdə Rumıniyanın prezidenti olmuşdur. – 166–189.

**169. Xələf Xələfov,** X ə l ə f A l ı o ğ l u (d.1959) – diplomat, Fövqəladə və Səlahiyyətli səfir. Moskvada ikiillik Ali Diplomatiya Akademiyasını bitirmişdir. 1997-ci ildən Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavinidir. – 166.

**170. Eldar Həsənov** , E l d a r H ü m b ə t o ğ l u (d.1955) – hüquqşünas. Hüquq elmləri doktoru, professor, diplomat. 1995–2000-ci illərdə Azərbaycan Respublikasının Baş prokuroru olmuşdur. 2001-ci ildən

Azərbaycan Respublikasının Rumıniyada və həmçinin 2010-cu ildən Serbiya, Bosniya və Hersoqovina, Monteneqroda Fövqəladə və Səlahiyyətli səfiridir. – 166.

**171. İpək Yolu**, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 171,176,182.

**172. Konstansa** – Qara dəniz sahilində Rumıniyanın mühüm portu. Konstansada XVIII–XIX əsrlərdə tikilmiş məscid vardır. – 172,173,176.

**173. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km$^2$, əhalisi 57,5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 173,207,208.

**174. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 174.

**175. TRASEKA,** T r a n s x ə z ə r n ə q l i y y a t d ə h l i z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. –176.

**176. Azərbaycan Milli Aerokosmik Agentliyi** – 1974-cü ildən AMEA-nın tərkibində «Kaspiy» elmi mərkəzi kimi fəaliyyət göstərmiş və 1981-ci ildə onun bazasında Kosmik Tədqiqatlar Elmi-İstehsalat Birliyi yaradılmışdır. 1992-ci ildə KTEİB-in bazasında AMAKA yaradılmışdır. 2006-cı ildən Agentlik Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tabeliyinə verilmişdir. – 178.

**177. Mingəçevir** – Azərbaycanda şəhər. «Mingəçevir» sözünün etimologiyası barədə müxtəlif mülahizələr var. Akademik Z.Bünyadov Mingəçevirin adını 839-cu ildə Azərbaycanda Xilafətə qarşı çıxmış Minkiçəvr əl-Fərqaninin adı ilə əlaqələndirir. XVII əsr türk səyyahı Evliya Çələbi «Səyahətnamə» əsərində Kür çayının sağ sahilində ipək parça emalatxanaları, məscidi və hamamı olan Mingəçevir adlı yaşayış məntəqəsi barədə məlumat verir. Mingəçevir II dünya müharibəsindən sonrakı illərdə yaradılmış iri sənaye mərkəzlərindəndir. İndiki Mingəçevir hidrotexniki kompleksinin tikintisi ilə əlaqədar salınmışdır. – 189,328.

**178. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 189.

**179. Birinci dünya müharibəsi** (1914–18) – iki koalisiya dövlətləri arasında müharibə, Mərkəzi dövlətlər (Almaniya, Avstriya–Macarıstan, Türkiyə, Bolqarıstan) və Antanta (Rusiya, Fransa, Böyük Britaniya, Serbiya, Yaponiya, Rumıniya, İtaliya və ABŞ). Müharibənin başlanmasına səbəb Avstriya–Macarıstan şahzadəsi Frans Ferdinandın öldürülməsi oldu. 1918-ci ilə qədər hər iki tərəf bir-birinə ağır zərbələr vuraraq zəiflədi. 1918-ci ildə Sovet Rusiyası Almaniya ilə separat Brest sülh müqaviləsi imzaladı və müharibədən çıxdı. Antanta qoşunları 1918-ci ilin sentyabrında Bolqarıstanı, oktyabrında Türkiyəni, noyabrda Avstriya–Macarıstanı və nəhayət, Almaniyanı tam məğlub etdilər. Paris sülh konfransında bir neçə müqavilə imzalandı. Almaniya və onun müttəfiqləri xeyli ərazi itirdilər, böyük ödənc verməyə və öz silahlı qüvvələrini kəskin şəkildə azaltmağa məcbur oldular. – 190.

**180. Osmanlı imperiyası,** O s m a n l ı i m p e r a t o r l u ğ u – Sultan Türkiyəsinin rəsmi adı (Osmanlılar sülaləsinin əsasını qoymuş I Osmanın adındandır). XV əsrin 2-ci yarısından Osmanlı dövləti imperiyaya çevrilməyə başlamış, XV–XVI əsrlərdə bəzi Asiya, Avropa və Afrika ölkələrinin fəth edib dünyanın ən böyük dövlətlərindən biri olmuşdur. 1918-ci ildə Birinci dünya müharibəsindəki məğlubiyyətdən sonra tamamilə dağıldı, 1922-ci ildə Türkiyə sultanlığına da son qoyuldu. – 190.

**181. Rembrandt,** H a r m e n s v a n R e y n (1606–1669) – holland boyakarı və qrafiki. Dünya incəsənətinin ən görkəmli nümayəndələrindən biri. 1630–40-cı illərdə əsasən qrup portretlər yaratmışdır. Rembrandt görkəmli rəsm və ofort ustası olmuşdur. Təqribən 800 tablo, 300 ofort və 2000 rəsm əsəri irs qoyub getmiş Rembrandtın yaradıcılığı dünya incəsənətinə böyük təsir göstərmişdir. – 194.

**182. Rafael,** R a f a e l l o S a n t i (1483–1520) – italyan boyakarı və memarı. Renessans incəsənətinin görkəmli sənətkarlarından biri. Ən görkəmli, kamil əsəri «Sikst madonnası»dır. Bu tabloda insan gözəlliyi və ana məhəbbəti ideallaşdırılmış, körpəsini bağrına basmış Məryəm təsvir olunmuşdur. – 194.

**183. Mikelancelo** (1475–1564) – dahi italyan heykəltəraşı, boyakar və memar. Renessans mədəniyyətinin ən görkəmli nümayəndələrindən biri. Mikelancelonun ən möhtəşəm və əzəmətli rəngkarlıq əsəri Vatikandakı Sikst kapellası tavanının (plafon) freskalarıdır (1508–12).

Renessans dövrü monumental dekorativ sənətinin incisi sayılan bu plafon rəsmlərin mövzusu Bibliya əfsanələri və rəvayətlərindən götürülmüşdür.

Mikelancelo Penessans dövrü memarlığında monumental ansambl probleminin həlli sahəsində ilk təşəbbüs göstərərək möhtəşəm Kapitoli meydanını layihələşdirmişdir. – 194.

**184. Sankt-Peterburq** (1914-cü ilədək Sankt-Peterburq, 1924-cü ilədək Petroqrad, 1991-ci ilədək Leninqrad) – 1918-ci ilə kimi Rusiyanın paytaxtı idi. Rusiya Federasiyasının ən böyük sənaye, mədəniyyət və elm mərkəzidir. Əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyulmuşdur. – 195,225,232.

**185. Ermitaj –** Sankt-Peterburqda ən böyük bədii və mədəni-tarixi muzey; dünyanın ən böyük muzeylərindən biri. 1764-cü ildə II Yekaterinanın şəxsi kolleksiyası əsasında yaradılmış, 1852-ci ildə kütləvi baxış üçün açılmışdır. Ermitajda ibtidai icma dövrünün, Qədim Şərq, antik və orta əsrlərin zəngin maddi-mədəniyyət abidələri toplanmışdır. Ermitajda Qərbi Avropa incəsənəti Rafael, Leonardo da Vinçi, Mikelancelo, Corcone, Tisian, D.Velaskas, Rembrandt və başqalarının nadir əsərləri, XVII–XVIII əsrlər fransız boyakarlığının ən gözəl nümunələri ilə təmsil olunur. Orta əsrlərdə Şərqdə, o cümlədən Azərbaycanda hazırlanmış dekorativ-tətbiqi sənət əsərlərindən nadir nümunələr Ermitajda saxlanılır. – 195.

**186. Ross Uilson** (d.1955) **–** 2000–2003-cü illərdə Amerika Birləşmiş Ştatlarının Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. Hazırda Ross Uilson Türkiyədə ABŞ-ın səfiri vəzifəsində çalışır. – 196,197, 351–353.

**187. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 200, 337,388,389.

**188. Bolqarıstan,** B o l q a r ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 8,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 174,201–203.

**189. Jelyu Jelev** (d.1935) – Bolqarıstan filosof və siyasətçisi. 1990–1997-ci illərdə Bolqarıstan Respublikasının prezidenti olmuşdur. – 201–203.

**190. Bakı Slavyan Universiteti** – 2000-ci ildə prezident Heydər Əliyevin fərmanı ilə M.F.Axundov adına Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutunun bazası əsasında yaradılmışdır. İnstitutun beş fakültəsi var. Burada rus, bolqar, polyak, çex, yunan, ukrayna dilləri, roman–alman filologiyası öyrənilir. Universitetdə 40-dan çox elmlər doktoru, 200-ə yaxın elmlər namizədi fəaliyyət göstərir, üç min tələbə isə təhsil alır. – 201,202.

**191. Azərbaycan Dövlət Opera və Balet Teatrı** – respublikanın ən böyük musiqi teatrı. Azərbaycan XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı tərkibində opera truppası kimi yaradılmışdı. 1924-cü ildə opera truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrına çevrilmişdir. 1928-ci ildə teatra M.F.Axundovun adı verilmişdir. 1959-cu ildən Akademik Opera və Balet Teatrı adlanır. – 201.

**192. Üzeyir bəy Hacıbəyov,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 202.

**193. Rostropoviç Mstislav Leopoldoviç** (1927–2007) – Bakıda doğulmuş görkəmli musiqiçi, violonçelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ Xalq artisti. Bakı Musiqi Akademiyasının fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 202.

**194. Bakı Musiqi Akademiyası** – 1921-ci ildə yaradılıb. Bakı Musiqi Akademiyası Azərbaycanda ilk musiqi tədris müəssisəsidir. 4 fakültəsi vardır. Təhsil iki pilləlidir – bakalavr və magistratura. Bakı Musiqi Akademiyasının tərkibində opera studiyası və musiqi məktəbi studiyası fəaliyyət göstərir. – 202.

**195. Karlo Adzelyo Çampi** (d.1920) – İtaliya siyasi xadimi. 1999–2006-cı illərdə İtaliya Respublikasının prezidenti olmuşdur. – 207.

**196. Silvio Berluskoni (**d.1936) – 1994–95, 2001–2006 və 2008–2011-ci illərdə İtaliya Respublikası Nazirlər Şurasının sədri olmuşdur. – 208.

**197. Vaqif Axundov,** V a q i f Ə l i b a l a o ğ l u (d.1950) – general-leytenant. 1993-cü ildən Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanları Baş Mühafizə İdarəsinin rəisidir. – 210.

**198. Azərbaycan Ədəbiyyatı Muzeyi,** A z ə r b a y c a n R e s p u b l i k a- s ı M E A N i z a m i a d ı n a M i l l i A z ə r b a y c a n Ə d ə b i y- y a t ı M u z e y i – 1945-ci ildə Nizaminin həyat və yaradıcılığını əks etdirən muzey kimi, Bakıda yaradılmışdır. Muzeydə ən qədim zamanlardan müasir dövrədək Azərbaycan əbədiyyatının inkişaf yolu əks etdirilir. Muzeyin ekspozisiyasında 4 mindən çox əlyazması, nadir kitab, yazıçıların xatirə əşyaları, portret, heykəl, illüstrasiya, miniatür, bədii işləmə və s. eksponatlar nümayiş etdirilir. Nizaminin «İsgəndərnamə» poemasının 1413-cü ildə, Füzulinin «Bəngü-Badə» əsərinin 1569-cu ildə köçürülmüş əlyazma nüsxələri ən qiymətli eksponatlardır. Muzeyin qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, 19–20-ci illər Azərbaycan ədəbiyyatı ekspozisiyaları və elmi fondlar, bədii tərtibat, elmi-kütləvi şöbələri var. Elmi fondlar şöbəsində 70 minə yaxın qiymətli əşya qorunub saxlanılır. – 211.

**199. Şimali Kipr Türk Cümhuriyyəti** – 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə–Kipr administrasıyası bu ərazidə federativ türk dövləti – Kipr Respublikasını elan etdilər. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk Respublikası (ŞKTR) – Kıbrıs elan etdi. – 213.

**200. Bosniya və Hersoqovina** – 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikası tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman, serb və xorvat) milli-dini zəmində qarşıdurma yarandı və qanlı hərbi münaqişəyə səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında şaziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə Birləşmiş Bosniya və Hersoqovinadan ibarət federativ respublika yarandı. – 213.

**201. Əli Həsənov,** Ə l i Ş a m i l o ğ l u (d.1948) – mühəndis-mexanik. 1998-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. 1995–2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. – 214.

**202. Kamboca,** K a m b o c a K r a l l ı ğ ı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 181 min $km^2$, əhalisi 10 milyon nəfərdir. Ərazisi 19 əyalətə (kxetə) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Pnompen şəhəridir. – 215.

**203. Norodom Sianuk** (d.1922) – 1945–55 və 1993-cü ildən Kambocanın kralı. 1955-ci ildə atasının xeyrinə taxt-tacı tərk etmişdi. 1955–60-cı illərdə hökumət başçısı, 1970–75 və 1979–90-cı illərdə isə mühacirətdə olmuşdur. 1991-ci ildən yenidən dövlətin başçısı kimi tanındı. 1991-ci ildən həm də Ali Milli Məclisin (Milli barışığın) sədridir. – 215.

**204. Anqola,** A n q o l a  R e s p u b l i k a s ı – Cənub–Qərbi Afrikada dövlət. Sahəsi 1246,7 min $km^2$, əhalisi 11,9 milyon nəfərdir. Paytaxtı Luanda şəhəridir. Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici orqanı Milli Məclisdir. – 216.

**205. Duş Santuş,** J o z e  E d u a r d o (d.1942) – Anqolanın prezidenti və MPLA-nın sədri – 1975-ci ildən nazir vəzifələrində olmuşdur. Ordu generalıdır. Azərbaycan Neft və Kimya İnstitutunda (Azərbaycan Neft Akademiyası) təhsil almışdır. – 216.

**206. Romanovlar** – Rusiyada XIV–XVI əsrlərdə boyar nəsli, 1613-cü ildən çar, 1721–1917-ci illərdə imperator sülaləsi, əcdadı Moskva boyarı Andrey Kobıla idi. Romanovlar nəslindən ilk çar Mixail Fyodoroviç olmuşdur. Onun nəvəsi I Pyotr (1721) imperator elan edildi. İmperator Aleksey Petroviçin ölümü ilə (1730) Romanovlar sülaləsinin kişi nəsli, I Yelizaveta Petrovnanın ölümü ilə (1761) qadın nəsli kəsildi. Lakin Holşteyn – Qottorplar sülaləsinin nümayəndələri – III Pyotr, II Yekaterina, I Pavel və onun xələfləri də Romanovlar familiyası daşıyırdılar. Fevral burjua-demokratik inqilabından sonra Romanovlar monarxiyası devrildi və sonuncu imperator II Nikolay və onun ailəsi güllələndi. Romanovlar nəslindən qalanlar isə İtaliyaya, Fransaya, B.Britaniyaya, ABŞ-a, Avstriyaya mühacirət etdilər. – 232.

**207. Göyçay** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 739 $km^2$, əhalisi 102,9 min nəfərdir. – 242.

**208. Qəbələ (1930–91-ci illərdə Qutqaşen)** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Ərazisi 1,55 $km^2$, əhalisi 95,6 min nəfərdir. – 242–247,313.

**209. Ağdaş** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1048 $km^2$, əhalisi 91,7 min nəfərdir. – 243.

**210. Mirzə Fətəli Axundov** (1812–1878) – böyük Azərbaycan yazıçısı, dramaturq, materialist–filosof. Axundov Azərbaycan ədəbiyyatı tarixində pyesləri və fəlsəfi əsərləri ilə şöhrət qazanmışdır. 1850–55-ci illərdə yazdığı altı komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramaturgiyanın əsasını qoymuşdur. Axundovun fəaliyyətində yeni əlifba uğrunda mübarizə mühüm yer tutur. – 250,272.

**211. Dövlət Duması** – 1906-cı ildə Rusiyada yaradılan nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr Manifesti əsasında yaradılmışdır. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərmişdir. 1993-cü il Rusiya Federasiyasının Konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. – 250.

**212. Rəşid bəy Əfəndiyev,** Ə f ə n d i z a d ə  R ə ş i d  b ə y  İ s m a- y ı l  o ğ l u (1863–1942) – maarif xadimi, yazıçı. Qori müəllimlər seminariyasında orta pedaqoji, Aleksandr Müəllimlər İnstitutunda ali təhsil almışdır. Əsasən uşaq ədəbiyyatı, dramaturgiya və bədii tərcümə sahəsində çalışmışdır.

Rəşid bəy Əfəndiyev Azərbaycan xalqının milli oyanışında mühüm rol oynamışdır. – 250.

**213. Sabit Rəhman,** S a b i t  K ə r i m  o ğ l u  M a h m u d o v (1910–1970) –Azərbaycan yazıçısı, dramaturq. Azərbaycan Respublikası Əməkdar incəsənət xadimi. – 250,272.

**214. Yaqub Mahmudov,** Y a q u b  M i k a y ı l  o ğ l u (d.1939) – tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü. Müxtəlif illərdə Azərbaycan Sovet Ensiklopediyasında, Bakı Dövlət Universitetində, Ali Attestasiya Komissiyasında və s. məsul vəzifələrdə çalışmışdır. 2004-cü ildən Azərbaycan MEA Tarix İnstitutunun direktorudur. Tədqiqatları Azərbaycanın orta əsrlər tarixinə (Ağqoyunlu və Səfəvi dövlətlərinə), diplomatiya tarixinə və ümumdünya tarixinə aiddir. 2000-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif olunmuşdur. – 250,272–277.

**215. Şəfiqə Axundova,** Ş ə f i q ə  Q u l a m  q ı z ı (d.1924) – bəstəkar. Azərbaycan Respublikasının Xalq artisti. Onun Azərbaycan şairlərinin şeirlərinə bəstələdiyi gözəl, lirik mahnıları və romansları xalq arasında çox

məşhurdur. Şərqdə ilk opera – «Gəlin qayası» yazan bəstəkar qadın kimi tarixə düşüb. Azərbaycan Respublikasının «Şöhrət»» ordeni ilə təltif olunmuşdur. – 251.

**216. Yaşar Qarayev,** Y a ş a r  V a h i d  o ğ l u (1936–2002) – tənqidçi, ədəbiyyatşünas; filologiya elmləri doktoru, professor. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. AMEA-nın müxbir üzvü. – 250.

**217. Cövdət Hacıyev,** Ə h m ə d  C ö v d ə t  İ s m a y ı l  o ğ l u (1917–2002) – Azərbaycan bəstəkarı, pedaqoq. 1957–69-cu illərdə Azəraycan Musiqi Akademiyasının rektoru olmuşdur. Azərbaycan Respublikasının Xalq artisti. İki dəfə SSRİ Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 251.

**218. Xəyyam Mirzəzadə,** X ə y y a m  H a d ı  o ğ l u (d.1935) – bəstəkar. Azərbaycan Respublikasının Xalq artisti. Bakı Musiqi Akademiyasının professoru, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı. Müasir kompozisiya texnikasının milli musiqi ilə üzvi əlaqəsinə əsaslanan Mirzəzadənin yaradıcılığı dinamizmi ilə fərqlənir. X.Mirzəzadə Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 251.

**219. Rasim Ocaqov,** R a s i m  M i r q a s ı m  o ğ l u (1933–2006) – görkəmli Azərbaycan kinorejissoru və operatoru. Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. 1956-cı ildən «Azərbaycanfilm» kinostudiyasında işləmişdir. Əvvəllər operator kimi, 1974-cü ildən isə rejissor kimi fəaliyyət göstərmişdir. Azərbaycan Kinematoqrafiya İttifaqının katibi olmuşdur. Filmləri «Tütək səsi», «Ad günü», «İstintaq», «Bağlı qapı» və s.-dir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 251.

**220. Bəxtiyar Vahabzadə,** B ə x t i y a r  M a h m u d  o ğ l u (1925–2009) – Azərbaycanın Xalq şairi, dramaturq, ədəbiyyatşünas. Azərbaycan Dövlət mükafatı laureatı, 1991–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Milli EA-nın akademiki olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 254,258,272–277,319.

**221. Xan sarayı,** Ş ə k i  x a n l a r ı n ı n  s a r a y ı – XVIII əsrin 60-cı illərinə aid Azərbaycan memarlıq abidəsi. Vaxtilə Şəki qalasının (içqalanın) daxilində inşa edilmiş və bir neçə tikilidən ibarət olmuş kompleksdən Şəki xanı Hüseyn xan Müştaqın tikdirdiyi, hazırda Şəki xanlarının sarayı adlanan ikimərtəbəli imarət qalmışdır. Ətraf mühitlə ahəngdar şəkildə tikilmiş sarayın plan quruluşu onun baş (cənub) fasadında əksini tapmışdır. Tavanı güzgülənmiş alt xannişində fəvvarəli mərmər hovuz tikilmişdir.

Tavanında 5 mindən artıq rəsmli həndəsi fiqurlardan yığılmış bədii tərtibat olan alt salon və frizində ov, müharibə səhnələri təsvir olunan üst salon incəliklə işlənməsi, əlvan şəbəkələr, rəngarəng rəsmləri, ornament və təsvirlərin zənginliyinə görə XVIII əsrdə Azərbaycanda tikilmiş saray tipli binaların ən qiymətlisi hesab olunur.

Şəki xanlarının sarayının divarlarında XVIII əsrdə yaşamış tərtibatçı nəqqaş, usta Abbasqulunun (onu həm də sarayın memarı hesab edirlər) adı qalmışdır. – 259,272–277.

**222. Abid Şərifov,** A b i d  Q o c a  o ğ l u (d.1940) – inşaatçı. 1995-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini. – 261,272–277,312,319.

**223. Mömünə xatın türbəsi** – Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlıq incilərindən biri. 1186-cı ildə Naxcıvan şəhərinin qərb hissəsində tikilmişdir (memarı Əcəmi Əbu Bəkr oğlu Naxçıvani). Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz arvadı Mömünə xatının qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan hicri 582-ci ilin məhərrəm ayında (aprel, 1186) başa çatdırmışdır. Elin yaddaşında «Atabəy günbəzi» adı ilə qalmışdır. Abidənin baştağında küfi xətti ilə bu sözlər yazılmışdır. «Biz gedirik, ancaq qalır rizigar. Biz ölürük, əsər qalır yadigar». Kompozisiyaya, yetkinliyə, ayrıntılarının incə, zərif işlənməsinə və memarlıq həllinə görə türbə orta əsrlər memarlıq sənətinin şah əsərlərindən sayılır. – 273,274.

**224. Şirvanşahlar sarayı –** Azərbaycan memarlıq kompleksi, Şirvan – Abşeron memarlıq məktəbinin görkəmli abidəsi. Bakının İçərişəhər hissəsindədir. Bakının XV əsrdə Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsilə əlaqədar tikilmişdir. 1420–60-cı illər arasında salınmış Şirvanşahlar sarayı ansamblının binaları yerin relyefinə uyğun olaraq inşa edilmişdir. Ərazisinin ən hündür yerində olan Yuxarı həyətdə saray binası (1420-ci illər) və ona bitişik Divanxana (1450-cı illər), aşağı həyətdə türbə (1435) və minarəli Şah məscidi (1442), yuxarı həyətin yaxınlığında Seyid Yəhya Cəlaləddin Bakuvinin türbəsi (1450-ci illər) və ona bitişik kiçik məscid

yerləşir. Türbə olan həyətin giriş baştağı Şimal darvazası (1585) tikilmişdir. Şirvanşahlar sarayı ansamblının yaxınlığında hamam, «Şah kəhrizi»nin qurtaracağında 500 min litr su tutan ovdan qalmışdır. – 273.

**225. Əcəmi Əbubəkr oğlu Naxçıvani** (XII əsrin 20-ci illəri – XII əsrin sonu) – orta əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi. O, Naxçıvanda Yusif ibn Küseyir türbəsini, Mömünə xatın türbəsini, böyük Cümə məscidini və mənbələrdə «Darülmülk» adlandırılan Eldəgəzlər sarayını yaratmışdır. – 274.

**226. Yusif ibn Küseyir türbəsi** – Azərbaycan memarlıq abidəsi. Naxçıvan şəhərindədir. Xalq arasında «Atababa türbəsi» də adlanır. Türbənin üzərindəki Kitabədə onun 1162-ci ildə memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikildiyi və orada dəfn olunmuş şəxsin adı (Yusif ibn Küseyir) göstərilmişdir. Abidənin gövdəsindəki flizdə (haşiyə) kufi xətlə Qurandan ayələr yazılmışdır. Türbə yeraltı hissədən və səkkizbucaqlı yerüstü gövdədən ibarətdir. Yeraltı hissə türbənin sərdabası, yerüstü hissə isə xatirə abidəsi olub, monimental xarakterlidir. Abidənin ikiqat örtüyünün daxili günbəzi çatma tağ, xarici günbəzi isə piramida şəklindədir. Kompozisiyasına, tektonik aydınlığına, hissələrinin mütənasibliyinə, mühəndis quruluşunun səviyyəsinə görə türbə yüksək bədii- memarlıq nümunəsidir. – 274.

**227. Qarabağlar türbəsi** – orta əsrlərə aid Azərbaycan memarlıq abidəsi. Naxçıvan Muxtar Respublikasının Qarabağlar kəndindədir. Türbədən başqa, burada qoşa minarə və onların arasında yerləşmiş dini binanın qalıqları var. Qoşa minarənin XII əsrin sonu – XIII əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birinə bağlayan baştaq isə XIV əsrə aiddir. Baştağın üzərində Elxanı hökmdarı Hülaku xanın arvadı Quti xatunun (Qutuy xatun) adı yazıldığından onun Quti xatunun şərəfinə tikildiyi güman edilir. –274.

**228. «Azərenerji»** – Dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisi ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 280,306–315,330.

**229. RTR,** Ümumrusiya Dövlət Televiziya və Radio Verilişləri Kompaniyası (ÜDTRVK) – 1990-cı ildə yaradılmışdır, Rusiya Federasiyası ərazisində televiziya və radio verilişləri təşkil edir. 1998-ci il bazasında yaradılmış ÜDTRVK dövlət media holdinqı federal «Rossiya» və «Kultura» telekanalları, «Radio Rossii», «Mayak», «Orfey», «Yunost», «Qolos Rossii» radiostansiyalarını və 92 regional dövlət teleradiokompaniyalarını, Ostankino televiziya və Rusiya informasiya texniki mərkəzini, «Vesti» agentliyini əhatə edir. – 297.

**230. «Space»** – Azərbaycanda müstəqil teleşirkət. 1997-ci ildə yaradılmışdır. Dünyanın bir sıra – MSM, Fashion TV, CNN, NTV telekanalları, İHLAS agentliyi ilə əməkdaşlıq edir. – 297.

**231. Lider**– Azərbaycanda televiziya kanalı. 2000-ci ildən fəaliyyətə başlamışdır. «Lider Tv Radio– Azərbaycan» MMC-nin nəzdində fəaliyyət göstərən telekanalın əsas meyarı özəl, professional və rəngarəng proqramların hazırlanmasıdır. 2001-ci ildən Lider televiziyası dünya teleməkanına daxil olaraq, dünyaya yayımlanmağa başlamışdır. – 297.

**232. ANS** – Azərbaycanda 1991-ci ildən fəaliyyət göstərən müstəqil televiziya kanallarından biri. – 297.

**233. Balakən** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək Zaqatala rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Şimalda Dağıstanla, qərbdə və cənub–qərbdə Gürcüstan ilə həmsərhəddir. Sahəsi 923 $km^2$, əhalisi 85,3 min nəfərdir. – 307,310,313.

**234. Qax** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Zaqatala rayonuna verilmiş, 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. Şimal–şərqdən Dağıstanla, cənub–qərbdən Gürcüstanla həmsərhəddir. Sahəsi 1494 $km^2$, əhalisi 52,3 min nəfərdir. – 307,310,313.

**235. Zaqatala –** Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimal–şərqdə Dağıstanla, cənub–qərbdə Gürcüstanla həmsərhəddir. Sahəsi 1348 $km^2$, əhalisi 109,3 min nəfərdir. – 307, 310,313

**236. Oğuz** – Azərbaycan Respublikasında inzibati rayon. Şəki rayonunun ərazisi 1963–65-ci illərdə Oğuz rayonunun tərkibində olmuşdur. Şimalda Dağıstanla həmsərhəddir. Sahəsi 1077 km$^2$, əhalisi 37,7 min nəfərdir. – 310,313.

**237. Kiş** – Azərbaycan Respublikasının Şəki rayonunda kənd. Kiş çayının sahilində dağ ətəyindədir. Əhalisi 4445 nəfərdir. Kiş Azərbaycanın qədim yaşayış məntəqələrindəndir. Erkən orta əsrlərdə Qafqaz Albaniyasında xristianlığın mərkəzlərindən olmuşdur. IV əsrdə xristian məbədi tikilmişdi. Kişdə XIV–XVI əsrlərdə müdafiə qalası olmuşdur. – 318–323.

**238. Dəniz Baykal** (d.1938) – 1988–2010-cu illərdə Türkiyədə Cümhuriyyət Xalq Partiyasının lideri və Baş katibi olmuşdur. Bu partiya ölkədə böyüklüyünə görə ikinci, parlamentdə isə əsas müxalifət partiyasıdır. O, müxtəlif illərdə Türkiyədə Baş nazirin müavini, Maliyyə, Energetika və Xarici İşlər naziri vəzifəsində çalışmışdır. – 339.

**239. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9971 min km$^2$, əhalisi 29,6 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Millətlər Birliyinə daxildir. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı (Senat və İcmalar palatası) parlamentdir. Paytaxtı Ottavadır. – 347–348.

**240. Kərim Kərimov,** K ə r i m A b b a s ə l i o ğ l u (1917–2003) – görkəmli hərbi xadim, general-leytenant, mühəndis. 25 il ərzində Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasına başçılıq etmiş K.Kərimovun adı keçmiş SSRİ-də kosmosun öyrənilməsi, bir çox nadir elmi-texniki layihələrin həyata keçirilməsi ilə sıx bağlı olmuşdur. O, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, Sosialist Əməyi Qəhrəmanı, Lenin və SSRİ Dövlət mükafatları laureatı adlarına layiq görülmüş, Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. – 349.

**241. Kosovo problemi** – 1980-ci illərdən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Hersoqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Monteneqro Yuqoslaviya Respublikası yaradıldı. 1999-cu ildə serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılıq başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları serblərdən qorumaq üçün Kosovoya girdi. 2002-ci ildə Serbiya və Monteneqro adı ilə adlandırıldı. 2006-cı ildə keçirilən referendum nəticəsində Monteneqro Serbiyadan ayrıldı və müstəqil dövlət yaratdı. – 353.

**242. Cəfər Cabbarlı,** C ə f ə r Q a f a r o ğ l u (1899–1934) – böyük Azərbaycan yazıçısı, dramaturq. Cabbarlı yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, istedadlı dramaturqlar nəslinin yetişməsində mühüm rol oynamışdır. Cabbarlının zəngin irsi Azərbaycan ədəbiyyatı tarixində layiqli yer tutur. – 354,355.

**243. Masallı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 292 km$^2$, əhalisi 178,8 min nəfərdir. – 355.

**244. Məhəmməd Peyğəmbər** (əleyhissəlam) (570/571–632) – İslamın banisi, siyasi və dövlət xadimi. İslama görə Məhəmməd əleyhissəlam böyük peyğəmbər və «Allahın elçisi» sayılmış, bütün müsəlmanların müqəddəs kitabı «Quran»ı xalqa çatdırmışdır. – 356.

**245. Həzrəti Əli ibn Əbu Talib (**598–661**)** – Məhəmməd əleyhissəlamın əmisi oğlu və kürəkəni (qızı Fatimənin əri). İmam Əli islam dinini ilk qəbul edənlərdən olmuş, müsəlmanların bütün vuruşmalarında iştirak etmiş, igidliyi ilə fərqlənmişdir. – 356.

**246. Zərifə xanım,** Ə l i y e v a Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın

müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 357,396.

**247. Abdullah Gül** (d.1950) – Türkiyə dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-nın üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Tayyüb Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007-ci ildən Türkiyənin prezidentidir. – 360.

**248. Cəmşid Naxçıvanski** (1895–1935) – hərbi xadim, briqada komandiri. Birinci dünya müharibəsində müsəlmanlardan təşkil olunmuş süvari eskadronun komandiri olmuş, sücaətlə vuruşmuş, dördüncü dərəcəli «Müqəddəs Georgi» ordeni ilə təltif olunmuşdur. Azərbaycanın müstəqilliyi uğrunda Cəmşid xan inamla vuruşmuşdur. 1920-ci ilin martında onun alayı Qarabağda daşnaklara qarşı döyüş əməliyyatlarında fəal iştirak etmişdir. 28 aprel (1920) çevrilişindən sonra Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri təyin olunmuş, yüksək ixtisaslı kadr hazırlığında mühüm rol oynamışdır. 30-cu illərin axırlarında Cəmşid xan guya başçılıq etdiyi «casus təxribatçı dəstəsi» ilə mühacirətdə olan qardaşları (İran) ilə əlaqə saxlamaqda təqsirləndirilərək repressiya qurbanı olmuşdur. – 361–365.

**249. Cəfərqulu Ağa Bakıxanov** (1799–1867) – general–leytenant. Abbasqulu Ağa Bakıxanovun qardaşı. Rusiya –İran müharibəsində (1826–28) iştirak etmişdi. Bakıxanovun iri torpaq sahələri və çoxlu kəndi olmuşdur. – 361.

**250. Balakişi Ərəblinski** (1818–1902) – general-leytenant. B.Ərəblinski Peterburqdakı kadet korpusunu bitirmişdir. Müxtəlif hissələrdə qüsursuz xidmət edən Ərəblinski gənc ikən podpolkovnik rütbəsində briqada komandiri kimi məsul vəzifəyə irəli çəkilmişdir. Sonralar diviziya komandiri olan general-leytenant B.Ərəblinski o vaxt Rusiyanın apardığı bütün hərbi döyüşlərdə iştirak etmişdir. Ərəblinski yazılı qılınc və 1-ci dərəcəli «Müqəddəs Stanislav» və «Müqəddəs Anna» ordenləri ilə təltif olunmuşdur. – 361.

**251. Hüseyn xan Kəlbəli xan oğlu Naxçıvanski** (1863–1919) – hərbi xadim. Kəlbəlı xan Naxçıvanskinin oğlu, Ehsan xan Kəngərlinin nəvəsidir. Qafqazda və Rusiyanın müxtəlif şəhərlərində hərbi xidmətdə olan Hüseyn xan Kəlbəliyə polkovnik rütbəsi verilmişdir. Birinci dünya müharibəsi cəbhəsində qazandığı qələbələrə və sərkərdəlik məharətinə görə 1916-cı ildə Hüseyn xana tam süvari qoşunu generalı rütbəsi verilmişdlir. «Müqəddəs Georgi» ordeninin dörd dərəcəsi ilə, ikinci dərəcəli «Müqəddəs Aleksandr», «Müqəddəs Vladimir» və bir çox başqa ölkələrin yüksək dərəcəli ordenləri ilə təltif olunmuşdur. Qəbri Sankt-Peterburqdakı Aleksandr Nevski monastrının qəbiristanlığındadır.– 361.

**252. Səmədbəy Mehmandarov,** Səmədbəy Sadiqbəy oğlu (1857–1931) – hərbi xadim. 1908-ci ildən artilleriya general-leytenantı. 1918–20-ci illərdə Azərbaycan Demokratik Respublikasının hərbi naziri olmuşdur. 1921–28-ci illərdə Azərbaycan komandirlər məktəbində dərs demişdir. – 362.

**253. Əlağa Şıxlinski,** Əlağa İsmayıl Ağa oğlu (1865–1943) – hərbi xadim, artilleriya general-leytenantı. Peterburqda artilleriya məktəbini bitirmişdir. Rusiya–Yaponiya müharibəsində (1904–05) Port-Arturun müdafiəsində göstərdiyi igidliyə görə «Qızıl qılıncla» mükafatlandırılmışdır. 1908-ci ildə polkovnik, 1912-ci ildə isə general-mayor rütbəsi almışdır. Birinci dünya müharibəsində (1914–18) Petroqradın artilleriya müdafiəsi Şıxlinskiyə tapşırılmışdı. Şıxlinski rus ordusunda «artilleriyanın allahı» adını qazanmışdır. 1920-ci ildə Azərbaycan SSR Xalq Hərbi və Dəniz İşləri komissarının müavini işləmişdir. 1929-cu ildə istefaya çıxmışdır. – 362.

**254. Həzi Aslanov,** Həzi Əhəd oğlu (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H.Aslanov Stalinqrad vuruşmasında, 55-ci əlahiddə tank polku feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildən Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H.Aslanov Mitağa şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 362.

**255. İsrafil Məmmədov**, İ s r a f i l   M ə h ə r r ə m   o ğ l u (1919–1946) – Sovet İttifaqı Qəhrəmanı. 1941-ci ildə Məmmədovun vzvodu Novqorod vilayətinin Rustınka kəndi yaxınlığında alman faşistlərinin 300 əsgər və zabitini qırmışdı. – 362.

**256. Aslan Vəzirov,** A s l a n   F ə r h a d   o ğ l u (1910–1987) – Sovet İttifaqı Qəhrəmanı, qvardiya polkovniki. Böyük Vətən müharibəsində 3-cü Ukrayna cəbhəsinin 51-ci Qırmızı bayraqlı mühəndis–istehkam briqadasının, 2-ci Belorusiya cəbhəsində Baş komandanlığın 1-ci qvardiya mühəndis-istehkam briqadasının komandiri olmuşdur. – 362.

**257. Adil Quliyev,** A d i l   H ü s e y n   o ğ l u (1922–1992) – Sovet İttifaqı Qəhrəmanı, qvardiya polkovniki. A.Quliyev Böyük Vətən müharibəsində Oryol, Bryansk, Belorusiya, Pribaltika və Şərqi Prussiyanın azad edilməsində igidlik göstərmiş, Berlinədək döyüş yolu keçmişdir. – 362.

**258. Ziya Bünyadov,** Z i y a   M u s a   o ğ l u (1921–1997) – görkəmli Azərbaycan alimi, şərqşünas–tarixçi, ictimai xadim. Böyük Vətən müharibəsi (1941–45) iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1989–1997-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, 1995-ci ildən Milli Məclisin deputatı olmuşdur. Ziya Bünyadov Xilafət və Azərbaycanın VII–XIII əsrlər tarixinin görkəmli tədqiqatçılarındandır. 1997-ci ildə Azərbaycanın dövlətçiliyinə və müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən xaincəsinə qətlə yetirilmişdir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 362.

**259. Gəray Əsədov,** G ə r a y   L ə t i f   o ğ l u (1923–1944) – Sovet İttifaqı Qəhrəmanı. Gəray Əsədov 1944-cü ildə Morgita (Rumıniya) şəhərindəki döyüşlərdə bədəni ilə düşmənin ataş nöqtəsini örtmüş, əsgərlərin hücuma keçməsinə şərait yaratmışdır. – 362.

**260. Mehdi Hüseynzadə,** M e h d i   H ə n i f ə   o ğ l u (1918–1944) – Yuqoslaviyada və Şimali İtaliyada Müqavimət hərəkatı iştirakçısı, məşhur partizan, Sovet İttifaqı Qəhrəmanı. Mehdi Hüseynzadə partizan hərəkatında fəal iştirak etmiş və hitlerçilərə qarşı mübarizədə cəsurluğu ilə əfsanəvi şöhrət qazanmışdı. – 362.

**261. Abbas Quliyev,** A b b a s   Ş a h b a z   o ğ l u (1916–1998) – Sovet İttifaqı Qəhrəmanı, qvardiya kapitanı. Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısı. A.Quliyev Qərbi Dneprdən Visla çayına qədər döyüş yolu keçmiş, Poltava və Xarkov ətrafındakı döyüşlərdə igidlik və qəhrəmanlıq göstərmişdir. – 362.

**262. Məlik Məhərrəmov,** M ə l i k   M ə l i k   o ğ l u (1920–2004) – polkovnik, Sovet İttifaqı Qəhrəmanı. 1943-cü ilin payızında Məhərrəmovun komandir olduğu rota Dneprin keçilməsində xüsusi məharət göstərdiklərinə görə, onun rotasından 18 nəfərə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 362.

**263. Akim Abbasov,** A k i m   Ə l i   o ğ l u (1911–1996) – general-mayor. Böyük Vətən müharibəsində iştirak etmişdir. Müharibədən sonrakı illərdə polk komandiri, diviziya komandirinin müavini və komandiri vəzifələrində işləmişdir. Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 363.

**264. Mahmud Əbilov,** M a h m u d   Ə b d ü l r z a   o ğ l u (1898–1972) – hərbi xadim, general-mayor. Böyük Vətən müharibəsi zamanı Pribaltika, Polşa, Çexoslovakiya və Macarıstanda gedən döyüşlərdə rəşadət göstərmişdir. Müharibədən sonrakı illərdə diviziya komandirinin müavini, atıcı diviziya komandiri, SSRİ Ali Sovetinin deputatı olmuşdur. – 363.

**265. Hacıbaba Zeynalov,** H a c ı b a b a   M ə m m ə d   o ğ l u (1906–1969) – hərbi xadim, general-mayor. Böyük Vətən müharibəsi zamanı Zaqafqaziya cəbhəsinin qərargahında əməliyyat şöbəsinin rəisi, Şimali Qafqaz cəbhəsi 396-cı diviziyasında qərargah rəisi, 416-cı Azərbaycan diviziyasında qərargah rəisi olmuşdur. – 363.

**266. Valeh Bərşadlı,** V a l e h   Ə y y u b   o ğ l u (1927–2003) – tank qoşunları general-leytenantı. SSRİ Silahlı Qüvvələrində komandirlik fəaliyyəti göstərmişdir. 1991-ci ildə Azərbaycan Respublikasının müdafiə naziri, 1992-ci ildə isə Müdafiə Nazirliyi Baş Qərargahının rəisi, Naxçıvanski adına Hərbi məktəbin rəisi vəzifələrində çalışmışdır. Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. – 363.

**267. Bülənd Arınc** (d.1948) – Türkiyə siyasətçisi 2002–2007-ci illərdə Türkiyə Böyük Millət Məclisinin sədri olmuşdur. Hazırda Bülənd Arınc Türkiyə hökumətində Baş nazirin müavini və hökumət sözçüsüdür. – 366.

**268. Əhməd İsgəndərov,** Ə h m ə d  Ə h m ə d  o ğ l u (d.1927) – tarixçi–şərqşünas; tarix elmləri doktoru, professor. SSRİ EA-nın akademiki, «Voprosı istorii» jurnalının Baş redaktoru olmuşdur. – 367.

**269. Vahid Ələkbərov**, V a h i d  Y u s i f  o ğ l u (d.1950) – 1993-cü ildən Rusiyanın ən böyük neft şirkətlərindən olan «LUKoyl»un prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 369.

**270. Abbas Abbasov,** A b b a s  A y d ı n  o ğ l u (d.1949) – 1992–2006-cı illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini olmuş, Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 370.

**271. Əfəndiyev Mirhəmzə,** M i r h ə m z ə  N a z i m  o ğ l u (d.1950) – həkim. 1995-ci ildən Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli səfiridir. – 371.

**272. Con Robertson** (d.1946) – İngiltərənin siyasi və dövlət xadimi. Müxtəlif illərdə 6 dəfə parlamentə deputat seçilib. 1999–2004-cü illərdə NATO-nun Baş katibi olmuşdur. – 378–379,382,384.

**273. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti olmuş, «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 380–381, 388,391.

**274. Elmira Axundova,** E l m i r a  H ü s e y n  q ı z ı (d.1953) – publisist, «Literaturnaya qazeta»nın və «Azadlıq» (ABŞ) radiostansiyasının Azərbaycan üzrə xüsusi müxbiri. 1995-ci ildən Azərbaycan Prezidenti yanında əfvetmə komissiyasının üzvüdür. 2005-ci ildən Milli Məclisin üzvüdür. Həsən bəy Zərdabi mükafatı laureatı. Azərbaycan respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 387.

**275. «Asala»** – erməni transmilli etnik terrorçu təşkilatı. 1975-ci ildə yaradılmışdır. ABŞ Dövlət Departamenti tərəfindən terrorçu təşkilat kimi tanınır. Təşkilatın əsas məqsədi Şərqi Türkiyəni, Şimali İranı, Cavaxetiyanı, Qarabağı Ermənistana ilhaq etmək və Türkiyəni Birinci dünya müharibəsi zamanı erməni genosidini tanımağa məcbur etmək, bütün dünyada Türkiyə nümayəndəliklərinə və institutlarına basqın etməkdir. – 388.

**276. Respublikaçılar Partiyası** – ABŞ-ın iki əsas partiyasından biri. 1854-cü ildə yaradılmışdır. 1861-ci ildən 2001-ci ilədək bir neçə dəfə hakimiyyətdə olmuşdur. – 389.

**277. Albaniya,** A l b a n i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3,2 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 390.

**278. Alfred Moisiu (**d.1929) – Albaniya dövlət və siyasi xadimi. 2002-ci ildən Albaniyanın prezidentidir. – 390.

**279. Stiven Mənn –** amerikan diplomatı. 2001–2009-cu illərdə ABŞ Dövlət katibinin koməkçisi. 2004–2006-cı illərdə ABŞ-dan ATƏT-in Dağlıq Qarabağ üzrə həmsədri olmuşdur. – 392–393.

**280. Boris Qromov** (d.1943) – Rusiya dövlət və hərbi xadimi, general-polkovnik. Sovet İttifaqı Qəhrəmanı. 1980–89-cu illərdə Əfqanıstanda (fasilələrlə) sovet ordusuna başçılıq etmişdir. 1992–95-ci illərdə Rusiya Federasiyasının Müdafiə naziri, 2000-2012-ci illərdə Moskva vilayətinin qubernatoru. – 394–396.

## Şəxsi adlar göstəricisi


**Abbasov Abbas** – 370
**Abbasov Akim** – 363
**Abbaszadə Məleykə** – 103
**Abutalıbov Hacıbala** – 102,124,166,211,357,358,359
**Ağalarov Həsənbəy** – 361
**Axundov** – 210
**Axundov Ağamusa** – 137
**Axundov Mirzə Fətəli** – 250,272
**Axundova Elmira** – 387
**Axundova Şəfiqə** – 251
**Akayev Əsgər** – 45
**Arabul Hüseyn** – 67
**Arinç Bülənd** – 366
**Aslanov Həzi** – 262
**Atatürk Mustafa Kamal** – 71,190
**Babək** – 361
**Bakıxanov Cəfərqulu ağa** – 361
**Baykal Dəniz** – 339
**Berluskoni Silvio** – 208
**Bərşadlı Valeh** – 363
**Buş Corc** – 200,337,388,389
**Buteflikay Əbdüləziz** – 160
**Bünyadov Ziya** – 362
**Cabbarlı Cəfər** – 354,355
**Cahangirov Cahangir** – 109
**Cavanşir** – 361
**Cəfərqulu xan** – 274
**Cəfərov Vaqif** – 194,195
**Cəmil Təhsin** – 166
**Çakır Erol** – 44,76
**Çampi Karlo** – 207
**Da Silva Luis** – 165
**Dəmirəl Süleyman** – 62,63,64,69,73,80
**Dəmirörən Ərdoğan** – 338–346
**Doğru Rəşad** – 62
**Dö Surmə Filip** – 213
**Dubçenko Yevgeni** – 230–232
**Duş Santuş Eduardo** – 216
**Ecevit Bülənd** – 157
**Eldarov Ömər** – 132
**Ensey Zeynalıbdin** – 338–346
**Emin Sabitoğlu** – 251
**Emmaniul Vitorqan** – 111
**Eyyubov Yaqub** – 166,176
**Əbilov Mahmud** – 363
**Əbülfəz** – 296
**Əbul-Nəca Faizə** – 139–143
**Əczaçıbaşı Bülənd** – 338–346
**Əfəndiyev Mirhəmzə** – 371
**Əfəndiyev Rəşid bəy** – 250
**Ələkbərov Vahid** – 369
**Ələkbərova Şövkət** – 109–110
**Ələsgərov Süleyman** – 109
**Əli ibn Əbu Talıb** (*imam*) – 356
**Əli Cəfər** – 194
**Əliyev Fərhad** – 62,298–306,333,340

**Əliyev İlham** – 5,13,39,242,248,252,260,264,265,266, 278,295,316,318,332,393
**Əliyev Məmməd** – 44,76
**Əliyev Vaqif** – 296
**Əliyeva Zərifə** – 357,396
**Əliyarbəyov Tərlan** – 363
**Əluqulu Qəmküsar** – 107
**Əmirov Fikrət** – 109,233–234
**Əmirov Süleyman** – 243
**Ərəblinski Balakişi** – 361
**Ərtoğrul** – 123,131
**Əsədov Gəray** – 362
**Fadeyev Gennadi** – 112–113
**Füzuli Məhəmməd** – 122
**Gəncəvi Nizami** – 189
**Girşinq Herman** – 273
**Gökyiğit Nihat** – 338–346
**Gurtana Əli Müfit** – 44
**Gül Abdullah** – 360
**Hacıbəyov Üzeyir** – 202
**Hacıyev Cövdət** – 251
**Hacıyev Nemət** – 272–277
**Halonen Tarya** – 77
**Haşımov Asif** – 244,245
**Havel Vatslav** – 117
**Heydərov Fəttah** – 131
**Həmidov İsgəndər** – 23
**Həmzəyeva Zəroş** – 104
**Həsənov Abbasəli** – 44,76
**Həsənov Eldar** – 166
**Həsənov Əli** – 214
**Həsənova Məlahət** – 103
**Hısarcıqlıoğlu Rifat** – 62
**Hovard Con** – 61
**Hümbətov Yusif** – 285
**Hüseyn Cavid** – 103,104,107,120–121,122–132,133–137, 141
**Hüseynova Sevda** – 358,359
**Hüseynzadə Lətif** – 107–108
**Hüseynzadə Mehdi** – 362
**Xatəmi Məhəmməd** – 41,45,49,78,96,205,206
**Xeltov** – 128
**Xeyrəddin Qoca** – 44,76
**Xələfov Xələf** – 166
**Xəlilov Erkin** – 45
**Xoyski Fətəli xan** – 87,250
**İliyesku İon** – 166–189
**İohann Pavel II** – 28
**İgid Göy** – 36
**İsgəndərov Əhməd** – 367
**İzgi Ömər** – 159
**Jakolən Anri** – 212–214,377
**Jelev Jelyu** – 201–203
**Kavi Hüsaməddin** – 338–346
**Kərimov Kərim** – 349
**Kərzai Həmid** – 45,56–57,78
**Klestil Tomas** – 116
**Klinton Bill** – 69

**Köçəryan Robert** – 97,197,199,369,374–376,377,387,
**Kuçma Leonid** – 103,115
**Qabil** – 104
**Qarayev Elman** – 268–271
**Qarayev Müzəkkir** – 318–323
**Qarayev Yaşar** – 250
**Qasımov Pənah** – 122
**Qədirov Əliabbas** – 104
**Qribkov Nikolay** – 377
**Qorbaçov Mixail** – 101
**Qromov Boris** – 394–396
**Qukasyan Arkadi** – 19,369
**Quliyev Abbas** – 362
**Quliyev Adil** –362
**Quliyev Tofiq** – 109
**Quliyev Vilayət** – 44
**Leir Maykl** – 348
**Löymanov Gəray** – 264
**Madl Ferents** – 27
**Mahmudov Yaqub** – 250,272–277
**Makedoniyalı İsgəndər** – 141
**Mehmandarov Səməd bəy** – 362
**Məhəmməd *(əleyhissəlam)*** – 356
**Məhərrəmov Məlik** – 362
**Məlikov Əlixan** – 316–318,331,332
**Məmmədov Əşrəf** – 281–298
**Məmmədov İsrafil** – 362
**Məmmədov Mehdi** – 127
**Məmmədova Gülçöhrə** – 103
**Məmmədova Əsmətxanım** – 103
**Mənn Stiven** – 392– 393
**Mikelancelo** – 194
**Mişginaz** – 123,131
**Mirzəzadə Xəyyam** – 251
**Moem Somerset** – 111
**Moisiu Alfred** – 390
**Muxtarov Rüstəm** – 272–277
**Mustafayev Vaqif** – 101
**Müşərrəf Pərviz** – 41,421,45,54–55,78
**Mübarək Hüsni** – 140,141,142,143
**Naxçıvani Əcəmi** – 274
**Naxçıvanski Cəmşid** – 361–365
**Naxçıvanski Hüseyn xan** – 361
**Nazarbayev Nursultan** – 69,119
**Nemolyayeva Svetlana** – 111
**Nəsibbəyli Yusif bəy** – 87
**Niyazov Saparmurad** – 96,118
**Nutson Qar** – 347–348
**Ocaqov Rasim** – 251
**Ordvey Con** – 196–200
**Perina Rudolf** – 377
**Perne Üq** – 213,377
**Pənahova Amaliya** – 103
**Pirverdiyev Etibar** – 280,306–315,328
**Putin Vladimir** – 96,13,138,156,162,163,232
**Rafael** – 194
**Ralston Cozef** – 82–85
**Rasizadə Artur** – 144

**Rembrandt** – 194
**Robertson Con** – 378–379,382,384
**Rostropoviç Mstislav** – 202
**Rüstəmov Səid** – 109
**Rəhimov Ağarəhim** – 220
**Rəhmonov İmaməli** – 45
**Rəsulzadə Məmmədəmin** – 87
**Sabançi Sakip** – 67
**Sabit Rəhman** – 250,272
**Sadıqov Fikrət** – 275
**Salman Mumtaz** – 128,250
**Saparov Rəcəb** – 45
**Sergeyev Yuri** – 114–115
**Seyidzadə Dilarə** – 195,304,322
**Sezər Əhməd Necdət** – 41,45,46,48,52–53,63,72,73,78,79,94,158, 385–386,388
**Səddam Hüseyn** – 141
**Sianuk Norodom** – 215
**Silva Luis** – 165
**Simyonova Yevgeniya** – 111
**Sofiyeva Aynur** – 103
**Stepaşin Sergey** – 161–164
**Sufi Əli** – 204–206
**Sukarnoputri Meqavati** – 60
**Süvər Akkan** – 76
**Şabanova Rəfiqə** – 7
**Şah İsmayıl** – 361
**Şevardnadze Eduard** – 48,69,73,94,350,368,369,372–373,387, 392
**Şeyx Məhəmməd** – 123,125
**Şərifov Abid** – 261,272–277,312,319
**Şirak Jak** – 380–381,388,391
**Şıxlinski Əlağa** – 362
**Şubina Lyudmila** – 7
**Şpiqla Vladimir** – 382
**Tağıyev Əhliman** – 235–242
**Tağıyev Hacı Zeynalabdin** – 122
**Talışxanov Əsəd bəy** – 361
**Talıbov Vasif** – 15–26
**Tokayev Qasımcomərd** – 45
**Topçubaşov Əlimərdan bəy** – 87
**Turan Cavid** – 103,122–132,133–137
**Uilson Ross** – 196,197,351–353
**Vahabzadə Bəxtiyar** – 254,258,272–277,319
**Vəzirov Aslan** – 362
**Vilpən** – 213
**Vitorqan Emmannuel** – 111
**Vudvord** – 387
**Vüsal Əli** – 62
**Yaqubov Mahmud** – 250
**Zeynalov Hacıbala** – 26
**Zeynalov Həsən** – 23

## Coğrafi adlar göstəricisi


**Abxaziya** – 80
**Adriatik dənizi** – 173,176
**Afina** – 13
**Afrika** – 29
**Ağdaş** – 243
**Aktau** – 154
**Albaniya** – 390
**Almaniya** – 38,269,272,273,293,300
**Amerika Birləşmiş Ştatları** – 47,49,65,67,68,82–85,95,96,97,143,196–200,269,337,351–353,377,388,392–393
**Ankara** – 69
**Anqola** – 216
**Aralıq dənizi** – 342
**Araz çayı** – 24
**Asiya** – 29
**Astara çayı** – 59
**Aşqabad** – 49
**Atlantik okeanı** – 174
**Avropa** – 10,29,30,38,68,80,82,83,95,143,172,173,174,175,183,184,195,342,385
**Avstraliya** – 61
**Avstriya** – 116
**Bakı** – 10,15,16,18,19,21,22,23,24,25,27,28,33,38,73,80,99,100,108,110,111,112,114,116,117,118,119,121,130,138,139, 154,155,156,157,158,159,160,162,165, 176,181,183,197,,207,208,209–211,214,215,216,218,222,223,225,227–228,229,230,231,232,234,242,252,256,276,296,317,330,336,337,349,350,354,359,360,365,366,390,391
**Balakən** – 307,310,313
**Bali** (*ada*) – 60
**Balkan** (*yarımada)* – 174,176,203
**Batumi** – 172,176
**Bərdə** – 10,214,284
**Biləsuvar** – 214
**Bolqarıstan** – 174,201–203
**Bosniya və Hersoqovina** – 213
**Bosfor** – 69,79
**Braziliya** – 165
**Brüssel** – 38
**Buxarest** – 174,181
**Bursa** – 290
**Ceyhan** – 69,183,256,342
**Cənub-Qərbi Avropa** – 175
**Cənub-Şərqi Avropa** – 174
**Cənubi Azərbaycan** – 274
**Cənubi Qafqaz** – 19,174,183,184,307,348,372,378,379,384
**Culfa** – 275
**Çexiya** – 117,371
**Dağlıq Qarabağ** – 30,50,53,54,55,56,59,63,65,74,88,98,169,171,175,184,185,199,200,205,212–214,231,274,286,357,372,374–376,379,380,383,386

**Daşkənd** – 225
**Dnepropetrovsk** – 222
**Dnestryanı** (*Moldovada bölgə*)– 185
**Drezden** –136,137
**Dunay çayı** – 176
**Əfqanıstan** – 45,56–57,78,83,84,97,352
**Əlcəzair** – 160
**Ərzurum** –31,184,290
**Fələstin** – 143
**Finlandiya** – 77
**Fransa** – 65,212–214,269,295,369,377,380–381, 388,391
**Füzuli** – 211
**Gədəbəy** – 396
**Gəncə** – 10,12,189,311,354
**Gorus** – 21
**Göyçay** – 242
**Göynük** – 275
**Gürcüstan** – 20,35,39,48,69,73,84,94,172,184,257,258, 350,368,372–373,388,392,393
**Helsinki** – 6
**Hindistan** – 58
**Xankəndi** – 286
**Xarkov** – 221,225
**Xəzər dənizi** – 48,49,52,70,74,94,96,102,154–155,164, 172,174,183,203,342,385
**Xorvatiya** – 173
**İndoneziya** – 37,60,61
**İran** – 22,24,41,45,47,49,58–59,78,96,97,204–206,270
**İsgəndəriyyə** – 141
**İsmayıllı** – 235–242,304
**İsrail** – 143
**İstanbul** – 30,36,39,41–59,62–76,78–81,96,342,343
**İtaliya** – 173,207,208
**İrəvan** – 21,225
**İzmir** – 343
**Kamboca** – 215
**Kanada** – 347–348
**Kiş** – 318–323
**Kiş çayı** – 258,332
**Kişinyov** – 96,97
**Kiyev** – 103,220,221,222,225
**Konstansa** – 172,173,176
**Kosovo** – 84,353
**Qafqaz** – 19,34,169,174,175,176,180,348,372
**Qahirə** – 143
**Qax** – 307,310,313
**Qara dəniz** – 171,176,183,342
**Qazax** – 313
**Qazaxıstan** – 45,49,69,96,119,154,305
**Qəbələ** – 242–247,313
**Qırğızıstan** – 45
**Quba** – 10
**Laçın** – 21
**Lənkəran** – 10
**London** – 296
**Macarıstan** – 27

**Madrid** – 352
**Masallı** – 355
**Maştağa** – 13
**Mingəçevir** – 189,328
**Minsk** – 225
**Misir** – 139–143
**Moskva** – 11,96,101,111,113,128,130,138,160,163, 218,220,221,222,224,228,287,394–396
**Naxçıvan** – 12,29,30,31,37,108,123,124,130,205,274, 290,296,395
**Naxçıvan MR** – 15–25,131
**Novosibirsk** – 225
**Nyu-York** – 83
**Oğuz** – 310,313
**Ordubad** – 275,286
**Özbəkistan** – 45
**Pakistan** – 41,42,45,54–55,78
**Pirallahı** – 354
**Poti** – 172,176
**Praqa** – 97,352,368–389
**Rumıniya** – 166–189
**Rusiya** – 20,49,58,65,80,96,101,111,112–113,138, 156,161–164,195,221,222,232,246, 250, 270, 274,284,305,318,332,370,377,384, 394–396
**Saatlı** – 316
**Sabirabad** – 316
**Sankt-Peterburq** – 195,225,232
**Sarıca** *(Şəkidə kənd)* – 292
**Sədərək** – 30
**Sibir** – 123,129
**Sidney** – 5,13
**Sisyan** – 21
**Supsa** – 80
**Şəki** – 10,235,248–336
**Şəmkir** – 24,311,312
**Şimali Kipr** – 213
**Şuşa** – 21
**Tacıkistan** – 45
**Tbilisi** – 123,183,220,221,222,225,387
**Tehran** – 204,205,206
**Təbriz** – 274,275
**Türkiyə** – 24,29–40,41–59,62–76,78–81,83,84,95, 96,97,157,158,159,184,190–195,290,330, 338–346,348,352,360,366,385–386,388
**Türkmənistan** – 45,96,118
**Ukrayna** – 114–115,221,289
**Ural** – 174
**Vantaa** – 77
**Vaşinqton** – 82,197
**Vatikan** – 28
**Vəndam** – 242–247
**Yaxın Şərq** – 141,143
**Yalta** – 114
**Yaponiya** – 202
**Yekaterinburq** – 101
**Yevlax** – 307
**Yuqoslaviya** – 173

| | |
|---|---|
| **Yunanıstan** | – 5 |
| **Zaqatala** | – 307,310,313 |
| **Zəngəzur** | – 19,274 |

**Kitabı çapa hazırlayan** ***Tofiq Babayev***

**Rəssamı** ***Fuad Fərəcov***
**Texniki redaktoru** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 29,5.
Uçot vərəqi 30,0. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61. dalan 2, ev 3.
«Qismət» Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.